**ABDULLA ŞAİQ**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

**ÜÇ CİLDDƏ**

**II CİLD**

"AVRASİYA PRESS"
BAKI–2005

*Bu kitab "**Abdulla Şaiq.** Əsərləri. Beş cilddə. II cild"*
*(Bakı, Azərnəşr, 1968) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Kamal Talıbzadə**

**894.3613 - dc 21**
**AZE**
**Abdulla Şaiq. Seçilmiş əsərləri.** Üç cilddə. II cild. Bakı, "AVRASİYA PRESS", 2005, 568 səh.

Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri olan Abdulla Şaiq romantik şair, nasir, dramaturq, ədəbiyyatşünas alim, bədii tərcümələr müəllifi kimi zəngin və çoxşaxəli yaradıcılıq irsinə malikdir. Şeir yaradıcılığına qəzəllə başlayan Şaiq sonralar yeni mühitin, mütərəqqi rus, Qərb və türk şerinin yaxından təsiri ilə poeziyasını dövr üçün müasir bir lirikanın ən yaxşı elementləri ilə zənginləşdirmiş, XX yüzildə yeni milli şerin yaranması yollarında Sabirlə, Səhhətlə birlikdə mübarizə aparmışdır.

Ədibin "Seçilmiş əsərləri"nin bu cildinə onun müxtəlif illərdə yazdığı və yüksək sənətkarlıqla qələmə aldığı şeirləri, qəzəlləri, poemaları, eləcə də pyesləri daxil edilmişdir.

**ISBN 9952-421-22-0**

© "AVRASİYA PRESS", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# *Şeirlər*

# VƏTƏN

Ey çeşmimin önündə mücəssəm, vətən, vətən!
Qəlbim kimi ələmlərə həmdəm, vətən, vətən!
Fikrim sarayını dolaşırsan zaman-zaman,
Qanlı kəfənlə, dərd ilə toəm[1] vətən, vətən!
Baxdıqca həsrət ilə o solğun camalına,
Çeşmimdə tar[2] görsənir aləm, vətən, vətən!
Axşam-səhər o gül üzünü isladan nədir?
Göz yaşlarınmı, yoxsa ki, şəbnəm? Vətən, vətən!
Dəhşət içində cismi-şərifin donub durur,
Nolmuş vücudi-pakinə bilməm, vətən, vətən!
Baxdıqca gül-çiçəkli o gülgün çəmənlərə,
Möhnət evi sanır onu adəm, vətən, vətən!
Sənsən səbəb bəqayi-dilü[3] cani-natəvan[4]
Canım kimi nolar səni sevsəm, vətən, vətən!
Gördükcə dərdini əriyir cismi-natəvan,
Ney tək sızıldayır dili-pürqəm, vətən, vətən!
Qarşımda dərd, matəmə batmış gözəl mələk,
Səslər həzin səda ilə hərdəm: vətən, vətən!
Ey xaki-pak, söndümü parlaq ziyaların?
Oldunmu zülmə, möhnətə həmdəm, vətən, vətən?
Övladi-naxələfmi səni saldı bu günə?
Eyvah, bu dərd, möhnətə dözməm, vətən, vətən!
Aç, aç o qəmli köksünü, ey məxzəni-məlal[5] ,
Bas bağrına bu Şaiqi möhkəm, vətən, vətən!

*1905*

---

[1] Əkiz; bənzər
[2] Qaranlıq
[3] Əbədi ürək
[4] Zəif bədən
[5] Qəm xəzinəsi

## BİR QUŞ

Oturmuş nəğməzarında həzin fəryad edər bir quş!
Alır gül yarpağından eşq dərsin, dad edər bir quş!
Bu eşqin məktəbində şərqilər inşad[1] edər bir quş!
Buraxmaz ahü zarı, könlümü naşad edər bir quş!

Neçin ol quşcığaz könlüm kimi məftuni-möhnətdir[2]?
Ürək çırpındıran hər naləsi bir daği-həsrətdir?
Onun hər nəğməsi hicran əlindən bir şikayətdir.
Məhəbbət əhlini rəhbər kimi irşad edər[3] bir quş!

Dalır aləm sükutə eylədikcə qəmfəza fəryad[4],
Nədəndir rəqsgahında oturmaz bir zaman dilşad?
Xəzanın zülm, cövründən deyil bir ləhzə o azad.
Həzin ötdükcə hər an qəlbimi bərbad edər bir quş!

Sədayi-dilfiribi[5] eyləyir vicdanımı bidar,
İlahiləhndir6, enmiş səmadən ol pərigöftar[7] ,
Böyük bir musiqi ustadıdır ki, kəşf edər əsrar.
Mənim viran olan bu könlümü abad edər bir quş!

Sədası çox dərin təsir edər əfkarə, vicdanə,
Verər ən incə, ən saf duyğular bir şair insanə.
Deyil əfsanə fəryadı, cəfadən gəlmiş əfğanə,
Bahar əyyamını min həsrət ilə yad edər bir quş!

Gecə-gündüz o quş da bu dəli könlüm kimi sızlar,
Kimin hüznilə olmuş dilfikar[8] bu nazənin qəmxar?
Onun hər nəğməsində başqa məna, başqa hikmət var.
Mənim fəryadi-məhzunanəmi bünyad[9] edər bir quş!

*1907*

---

[1] İfadə ilə oxuma
[2] Qəm vurğunudur
[3] Düz yola çəkər
[4] Qəm gətirən
[5] Ürək açan səsi
[6] Allah səslidir
[7] Gözəl dilli
[8] Ürəyi yaralı
[9] Özül, təməl

## BÖYÜK XADİM

*Həsənbəy Zərdabinin vəfatı münasibətilə*

Bu sənmisən, ey dahiyə, ey nəcmi-müzəffər?![1]
Almış səni ağuşuna tabuti-mükəddər!
Ey şanlı "Əkinçi!", sən idin gəncliyə rəhbər!
Aldı səni bizdən ölüm, ey nur saçan ülkər!
Ey adlı, şərafətli, fədakar, böyük insan,
Aləmlərə sığmaz vətənə etdiyin ehsan.
Ruhun ola şad, ey ata, inamla çalışdın,
Sönməz, böyük ümmid ilə, vicdanla çalışdın.
Bar vermədədir bəslədiyin dadlı diləklər,
Almış sənin ətrafını, bax, canlı çiçəklər.
Həsrət gözünü aç bir an, ey şanlı mücahid!
Minlərcə bu məktəbli cavanlar buna şahid.
Yordu o zəif cismini zəhmət və məşəqqət,
Doğma vətənin qoynuna gir, ol daha rahət.
Gəlmiş hamı qəlbində kədər son görüşə, bax!
Mümkünmü səni, ey böyük insan, de, unutmaq!

*1907*

## NİYƏ UÇDU?[2]

Uçdu mələkim, qaldı mənə dərdü məlalı,
Fəryad! Yenə almaqdadır ətrafımı zülmat!
Eyvah, ümid qönçələrim solmada, heyhat!
Bu köhnə cahan söndürə bilməz bu zəvalı.

Ey bariqələr[3], zərbələr endir bu cəhanə!
Söndü niyə vicdanımı tənvir edən[4] amal?
Oldu niyə ümmidlərim zülmlə pamal?
Ey hiyləgər iblis, nədir indi bəhanə?

---

[1] Qalib ulduz
[2] Birinci Dumanın qapanması münasibətilə yazılmışdır.
[3] Şimşəklər
[4] İşıqlandıran

Baxdıqca bu aləmlər edər könlümü bərbad,
Xəstə ürəyim aldı dərindən yara bir də.
Doktor, yetər, əl çək, buna yoxdur çara bir də,
Olmazsa muradımca bu viranələr abad.

Durma daha, ey ədl, səadət buludu, yağ!
Ey ildırım, əzminlə gurulda yenə hər an!
Ey güclü külək, sən də qopar fırtına, tufan!
Bu köhnə cahanı təməlindən uçur ancaq!

*1907*

## ƏKİNÇİ

Yaz qapını aldı, əkinçi, oyan!
Dur ayağa, tarla səni gözləyir.
"Şumla yeri, dur gəl, əkinçi" – deyir.
Haydı, a zəhmət mələyi, qalx, oyan!

Qızdı günəş, aləmə verdi həyat,
Qonşuların tarlasını xışlayır,
Qan-tər içində hamısı işləyir,
Zəhmətinizlə yaşayır kainat!

Borclarına indi, gözüm, çarə qıl!
Çul, palazı qışda satıb soymusan,
Külfətini quru yerdə qoymusan,
Haydı, oyan, dərdinə bir çarə qıl!

Təknədə şey yox, nə axurda saman,
Külfətinin səndə qalıbdır gözü.
Yaz günəşi qarşılayır bax, sizi,
Haydı, a zəhmət mələyi, dur, oyan!

*1907*

## ƏKİN NƏĞMƏSİ

Çək, şumla yeri, durma daha, qaşqa kəlim, çək!
İndi sənə yem, su verərəm, durma, kəlim, çək!

Bəslər, a kəlim, danələri yer qucağında,
Qalxar yaşıl otlar, göyərər hər bucağında,
Sonra sarı sünbüllər olar tarlada zahir,
Hey dalğalanar, sanki qızıl rəngli dənizdir.
Alqışlayıram zəhmətini, ey köməyim, çək!
Məhsul ola bol, olmaya nabud[1] əməyim, çək!

Bir gün biçinin vaxtı çatar, onda oraqlar
Qalxıb-enərək tarlada şimşək kimi parlar.
Mən onda başaqlar[2] arasında yataram şad,
Rahət olaram zövqlə, qəm-qüssədən azad.
Çək, şumla yeri, durma daha, qaşqa kəlim, çək!
İndi sənə yem, su verərəm, durma, kəlim, çək!

*1907*

## KÖÇ

May olcağın el köçür yaylaqlara,
Səs-küy düşür meşələrə, dağlara.
Atlar kişnər, qoyun-quzu mələşir,
Qara mallar bir-birilə səsləşir.
Qız-gəlinlər düzənlikdə çapır at,
"Hey" vurunca ata, açır qol-qanad.
Yollar dağdır, ya meşə, ya düzənlik,
Hər tərəfi basmış böyük bir şənlik.
Bir çay kənarında düşürlər axşam,
Səfalı bir yerdə olurlar aram.
Od qalayıb qızlar suya gedirlər,

[1] Məhv
[2] Sünbüllər

Qocalar yığışıb söhbət edirlər.
Rahət edir cavanlar malı, atı,
Çoban tütək çalır, oxur bayatı.
Bir tərəfdə sürü, naxır otlaşır,
Bir tərəfdə çolma-çocuq oynaşır.
Gecə olur, başlarını atırlar,
Arabalar arxasında yatırlar.
Məhtab gecə. Göydə ulduzlar axır,
Seyrək buludlar arxasından baxır.
Meşə, dağ-daş sükut içində inlər,
Yalnız hürür orda-burda köpəklər.

*1907*

## PARÇALAR

Bərqi-əşarım saçar ətrafə atəşparələr.
Şöləlenmiş atəşi-şerimlə səngi-xarələr[1].
Od tutub sızlar bütün dağ, daş, dərə, səyyarələr,
Bəs neçin bu daşürək cahillərə etməz əsər?

İnanın, dostlarım, mənə inanın!
Bir zaman məhv olar bu istibdad!
Qalar ancaq bu zülmdən bir ad!
Utanın, indi zülmdən utanın!

Sanma bu dərdü qüssəmin səbəbi
Olmamaqdır bu dünya kamımca,
Qəlbimi yandıran budur ancaq:
Vətəni görmədim məramımca.

*1908*

## HÜRRİYYƏT PƏRİSİNƏ

Söndün nə çapıq[2], ruhuma qüvvət verən ey nur,
Ümmidi-vüsalınla sənin mən yaşayırdım.
Şövqünlə o daşqın dərələrdən həm aşırdım,
Hicrin məni, ah, etdi yenə xəstəvü rəncur.

[1] Çaxmaq daşları
[2] Tez

Oynatmadadır qəlbimi atəşli bir ahəng,
Vulkan kimi püskürmədə ətrafə şərarə.
Nolmuş ki, yaxırsan məni sən, ey dili-parə?
Etmişmi həyatı bu mühitin sənə də təng?

Müzlim[1] gecə, ətrafı bulud, çən bürüyərkən,
Göz yaşlarımın bəslədiyi ey gözəl ümid,
Qarşımda təcəssüm edərək ver mənə təyid[2],
Bu zülmət ilə sübhə qədər ta vuruşum mən.

*1908*

## İYİRMİNCİ ƏSRƏ XİTAB

Məzlumların ümidisən, ey əsri-pürxətər[3]!
İzlər böyük addımlarını bir sürü bəşər!
Dövrü zəmanədən nə gətirdin bizə xəbər?
Hiddətli bərq, saiqələrdən[4] nə var əsər?
Tufanlı ildırımlarının qəhr, hiddəti
Xofü ümid ilə yaşadır cümlə milləti.
Qaldır buludlu pərdələri, anlasın cəhan
Sönməz günəşmi, ya qara bir kölgədir doğan?
Varmı ümid bir daha feyzü səadətə?
Ya çəkmədə bizi yenə girdabi-zillətə?
Bu qırmızı şəfəqlər içində nihan-nihan
Doğmazmı nur, mehr, məhəbbət cəhan, cəhan?!
Ey vah!.. Ənqərib[5] bu əmvaci-kibriya[6],
Bir sahilə səfinəmizi zövq edərmi ya?
Duydum, bu üstümüzdə buludlardır oynaşır.
Məşriq dənizləri qabarır, yüksəlir, coşur.
Bilməm, bu dağlar, bu məhabətli[7] fırtına
Öksüz[8] bu milləti çıxararmı o bir yana?

*1908*

---
[1] Qaranlıq
[2] Kömək
[3] Təhlükəli əsr
[4] İldırımlardan
[5] Yaxın zamanda
[6] Böyük dalğalar
[7] Dəhşətli; əzəmətli
[8] Yetim; kimsəsiz

## YAD ET!

Vəqta ki gülər bahari-amal,
Hər yerdə yaşıllanır çəmənlər.
Vəqta ki, olar müsaid iqbal
Bülbüllər ötər, susar zəğənlər[1],
Parlaq bir işıq alar fəzanı,
Dünyanın üzü dönər cinanə[2],
Gəzdikcə o aləmi-ziyanı,
Baxdıqca o gülşəni-cəhanə,
Yad et, məni – şairanə yad et!

Vəqta ki gələr sevimli ati,
Bir dairəyə girər həqayiq.
Nuru bürüyər bütün cihati[3],
Ulduzlar ilə yanar məşariq[4].
Vəqta ki bulud, duman görünməz,
Qalmaz daha zülmdən nişanə,
Yerlərdə bəşər üzü sürünməz,
Qurd-quş sığınar bir aşiyanə,
Yad et məni – Şaiqanə yad et!

Atəşli, münir[5] əməllərimlə,
Bir gün düşərəm soyuq məzarə.
Əşari-tərانəpərvərimlə
Bir gün susaram dönüb qubarə[6].
Vəqta ki bu şairi-vətəndən
Dünyada nə iz qalar, nə bir nam,
Üzdükcə səadət içrə şən-şən.
Sürdükcə dəmadəm ömrü-xoşkam,
Yad et məni – qaibanə yad et!

*1908*

---

[1] Qara qarğalar
[2] Cənnətlərə
[3] Tərəfləri
[4] Şərqlər
[5] Parlaq
[6] Toza

# NİŞANLI QIZ

Zülmət gecədə nişanlı bir qız
Bir hüzn, kədər içində yalqız,
Atəşli düşüncələrlə inlər,
Bəxtindən uzun şikayət eylər.
Həsrətlə qucaqlayıb dizini,
Yaqut üzüyə dikib gözünü,
Ən haqlı bir etirazla ağlar,
Fəryadı bu kainatı dağlar.
Söylər: “Bu üzük mənə nişandır,
Könlüm tək onun da bəxti qandır.
Layiqmidir, ey həyat, – söylər, –
Bir div ola bir pərilə həmsər[1]?
Heyvan kimi sərvətə satıldım,
Suçlu[2] kimi zindana atıldım.
Ey taleyim, etmə gəl mənə naz,
Qan qusmağa neylərəm qızıl tas?
Mən yalğızam, ah, yox müinim[3],
Dağ-daşları sızladır əninim[4].
Söndürdü atam çırağımı, ah!
Bir qönçə, tikanla oldu həmrah[5]”.

*1908*

---

[1] Yoldaş
[2] Günahkar
[3] Köməkçim
[4] İniltim
[5] Yoldaş

## BAHAR

Haydı, bu boranlı qış da bitdi.
Alqışladığım bahar yetdi.
Qızdı günəş, əsdi isti yellər,
Qarlar əridi, axışdı sellər.
Çöllər, dərələr tamam oyandı,
Hər yan yeni rəng ilə boyandı.
Oldu yenə yamyaşıl ağaclar,
Dağlar, təpələr, bütün yamaclar.
Gülşəndə bənövşələr açıldı,
Səhralara lalələr saçıldı.
Quşlar qayıdıb oxur tərانə,
Şaxlarda tikirlər aşiyanə.
Hər şeydə fərəh, sevinc, təravət,
Artıq oyanıb, gülür təbiət.
Görcək bunu qalmaz ixtiyarım,
Təbrik edirəm, gözəl baharım!

*1908*

## DAĞLAR

Çeşməli yaşıl dağlar,
Yazdır, gül, açıl, dağlar.
Başın otdur, çiçəkdir,
Ətrin ətək-ətəkdir.
Havan xoş, suyun sərin –
Arın, kəpənəklərin
Budaq-budaq uçur şən,
Bal, mum tutur güllərdən.
Çörəyim bişir sacda,
Sürüm otlar yamacda.

*1908*

## ŞİKAYƏTLƏRİM

Yenə hər yanda hökm edir zülmət!
Yenə söndü o nazənin ülkər!
Gecə-gündüz tapındığım dilbər,
Yenə qaldıq vüsalına həsrət.

Yenə dilsiz sükut içində bütün
Qaralır nur saçan düşüncələrim.
Ürəyimdə sönür o qüvvələrim,
Yenə hər şey qara, cahan küskün.

Yenicə uçmağa qanadlandım,
Onu zülm ilə qırdı bir səyyad.
Sızlaram, indi eylərəm fəryad!
Nə qədər sadə idim, aldandım!

Bu qaranlıqları sevən bayquş,
Ruhumu pəncəsiylə cırmaqlar,
Ürəyim həsrət atəşində yanar,
Dözə bilməz belə həyatə vühuş[1].

Sözümü dinlə, dinlə, ey qəhhar[2]!
Bu qışı ya gözəl bahar eylə,
Ya məni gözsüz eylə, kar eylə,
Ya ki azadə bir diyara çıxar!

*1908*

[1] Vəhşilər
[2] Qüdrətli

# VƏTƏNƏ QAYIDARKƏN

Ey bulanıq Kür, dərə, səhra, çəmən!
Bu görünən sənmisən, ah, ey vətən?!
Könlüm açıldı yenə gördüm səni,
Ey ulu əcdadımızın mədfəni[1]!
Çoxdan idi həsrət idim vəslinə,
Aç qolunu, aç, sənə gəldim yenə.
Ömrümün ilk şərbətini zövqlə
Sən mənə içdirdin onu şövqlə.
Mən uşaq ikən hələ, ey şux mələk,
Dağ-çəmənindən yığar idim çiçək.
Dayəm idi bu dərə, dağlar mənim,
Oylağım olmuş idi bağlar mənim.
Kür çayının dadlı, gözə[1] nəğməsi,
Sellərinin vəhşi, fəqət xoş səsi
Layla çalırdı mənə, ah, ey vətən,
Mən beşiyimdə hələ körpə ikən.
Ah, uşaqlıq, haraya getdin, ah?
Ah, səadət, necə tez bitdin, ah!
Duymaz idim onda bu zillətləri,
Çəkməz idim bunca fəlakətləri.
Onda səninlə ürəyim şad idi,
Qəlb evi gülşən kimi abad idi.
Anlamaz idim ki, nədir qəm, vətən,
Ah anacan, söylə bu hüznün nədən?
Qaplamış ətrafını zülmət, duman.
Səfvətini[2] pozmuş o zalim xəzan.
Qəmlərini ver mənə, ah, ey vətən!
Qollarını gərsənə ah, ey vətən!
Aç qolunu, aç, a könül dayağı!
Çün anadır hər uşağın sığnağı.

*1909*

[1] Məzarı
[2] Paklığını

## HƏR ŞEY KÖHNƏ

Doğarmı bir yenilik bu hilalın altında?..
Bu yer, bu göy, bu günəş köhnə, bu həyat köhnə!
İdarə köhnə, bəşər köhnə, kainat köhnə!
Cahan yaşarmı bu müdhiş zəvalın altında?

Axıb gedir bulanıq çay kimi qara dövran,
Zavallı millətimin haqqı olmada pamal!
Yetiş, yetiş daha sən, ey ümidi-istiqbal!
Bu zillət ilə keçinsinmi böylə qanlı zaman?

Sönük sitarələr ilə gecəm yanar, heyhat.
Nə oldu dadlı o peymanlar, ədl, ünsiyyət?
Buludlara bürünən ey günəşli hürriyyət!
Bitir bu zülmləri, ver cahana şanlı həyat!

*1909*

## İKİ QARANQUŞ

Kür kənarı, səhər, gözəlcə hava,
Bürünüb yamyaşıl çəmən, səhra.
Oyanır çöl, çayır, bayır, dağlar,
Dərələrdən gümüş sular çağlar.
Saçılır tel-tel al şəfəqli işıq,
Oxşayırdı təbiəti yaraşıq.
İki yolçu – sevimli qırlanqıc[1]

Bir budaqda ötürdü hey "vic-vic!"
Mən də gəlməklərin edib təbrik,
Oldum onlarla zövqü şövqə şərik:
"Ötüşün, quşcuğazlarım, azad.
Eləyin müjdə ilə könlümü şad.
Çox uzun sürdü ayrılıq və səfər,
Oralardan gətirdiniz nə xəbər?"

*1909*

---
[1] Qaranquş

## VƏRƏMLİ HƏYAT

Əsir doğuldum, əsir getdim, ah, gənc ikən.
Vərəm ciyərlərimi dəldi, ömrümü biçdi.
Bahar içində həyatım bulud kimi keçdi.
Bütün ümidimi qırdı o ruzgari-mihən[1].
Gömüldü, soldu içimdə şükufeyi-əməlim[2],
Mənə təsəlli üçün şimdi sən yetiş, əcəlim!

Vətən, vətən! Mənə oldun məzari-yəs, nədən?
Soyuq damarlarımı ah, isitmədi günəşin.
Əməl çiçəklərimi heç bitirmədi yağışın.
Dodaqlarımdakı al-qırmızı nədir görünən?
Yaralı qəlbimin, eyvah, əksi-möhnətidir.
Və ya ki, ömrümün amali-daği-həsrətidir.

Çiçəklənib dodağımda əməllərim, heyhat!
Baxın, baxın nə qədər pürməlal[3], pürşivən[4].
Mənə yetişdi şu solğun çiçək bir ümmətdən[5].
İyirmi beş sənəlik bir həyat üçün sovqat.
Onu təpiklədi mazi[6], məzara gömdü bu hal.
Fəqət nasıl baxacaqdırsa bilməm istiqbal?

*1909*

---

[1] Vətən ruzigarı
[2] Əməl çiçəyim
[3] Kədər dolu
[4] Fəryad dolu
[5] Xalqdan
[6] Keçmiş

## ŞƏKLİNDƏ

Üzümdə gərdi-təkəddür[1] niqab şəklində.
Gözümdə əşki-təhəssür[2] hübab şəklində.
Peyimdə[3] heykəli-mazi və hal bir kabus,
Önümdə səfvəti-ati[4] iqab[5] şəklində.
Başımda fövci-xəyalat axın-axın dolaşır.
Üfüqdə parçalanan bir saha[6] şəklində.
Cəfayla qəlbimi dəlməkdə tiği-istibdad[7].
Alovlara yakılır həm kəbab şəklində.
Uzaqda dalğalanan, parlayan geniş qumsal,
Görünmədə gözümə bir sərab şəklində.
Ümid, yəs arasında yuvarlanan könlüm
Mələr içimdə qırıq bir rübab şəklində.

*1909*

## LAYLA

Layla, mələgıim, körpə balam, sevdiciyim, yat!
Bir də ələ düşməz bu uşaqlıq dəmi, heyhat!
Türk oğlusan, əcdadın ulu, şanlı, sərəfraz,
Doğma vətənindir başı qovqalı bu Qafqaz.
Yat körpə ikən öz beşiyində hələ rahət,
Almış yenə ətrafı duman, fırtına, zülmət.
Getdikcə coşub Kür özünü daşlara çarpar.
Saçdıqca köpük dalğalanar, hiddəti artar.
Müzlim gecə, ulduzları sarmış qara sislər,
Bayquşlar ötər, ölkəmin hər guşəsi inlər.
Yum gözlərini, yat, səni oğlum, səhər erkən
Al-telli şəfəqlər öpəcəkdir oyanırkən.

*1909*

---

[1] Kədər tozu
[2] Həsrətdən axan göz yaşı
[3] Arxamda
[4] Pak gələcək
[5] Əzab
[6] Bulud; zülmət
[7] Zülm xəncəri

## BU DA BİR ŞERİ-FANİYİ-DİGƏR

Çiçək altında bir kiçik kəpənək
Düşüb əfsürdə[1], çırpınır bipər.
Qızınır son günəşdə titrəyərək,
Əcələ[2] pəncə fırladır bifər.
Çəkilincə günəş həyatı sönər,
Sabaha qalmaz artıq ondan əsər.
Bu da bir şeri-faniyi-digər.

Ya ki məhsullu, qos-qoca bir ağac
Devrilib çöldə sərnigun[3] olmuş.
Şaxların yolçular edər tarac,
Yoluq, əfsürdə, qəlbi xun olmuş.
Saralıb yarpağı, zəbun olmuş.
Günəşi sönmüş, ömrü dun olmuş.
Bu da bir şeri-şakiyi-digər[4].

Bir qoyun çöldə ayrılıb sürüdən
Dolaşır, yol arar, zavallı mələr.
Önünə bir ayı çıxar birdən,
Ürkərək qorxudan durub titrər.
Ayının pəncəsində hey inlər,
İztirabati-qəlbini dinlər.
Bu da əhbaba navəki-digər[5].

Bürüyür kainatı sis və duman.
Nagahan sim-siyah olur aləm.
Qopar üsyan qılıqlı bir tufan.
Gurlar həm arxasınca bərqi-kərəm[6].
Çəkilir sis-duman, olur bərhəm[7],
Açar əzhar[8], günəş doğar xürrəm.
Bu da bir şeri-şadiyi-digər.

*1909*

---

[1] Hissiz, donmuş
[2] Tez
[3] Başaşağı
[4] Şikayət dolu başqa bir şeir
[5] Bu da dostlara başqa bir ox (yara mənasındadır)
[6] Kərəm, yaxşılıq şimşəyi
[7] Dağınıq, pozunuq
[8] Güllər

## BİR ULDUZA

Yormuşdu bütün ruhumu, əfkarımı alam,
Bir dağ ətəyində düşünürdüm təkü tənha.
Qarşımda mücəssəm duruyordu səfi ovham[1],
Qəlbim kimi küskün görünürdü bütün əşya.

Fikrim kimi sevdalar içimdə uyuyordu,
Qəsvətlə[2] cahan dalmış idi səmt, sükunə.
Baxdıqca o səhnə mənə dəhşət veriyordu,
Varmışdı bu vulkanlı dənizlər də cünunə.

Nifrətlə çevirdim üzümü göylərə nagah,
Cəlb etdi mənim ruhumu tez seyri-kəvakib.
Minlərcə səmadə uçuşurlardı o dəm, gah
Titrər kimi birdən sönərək olmada qaib.

Ulduzlar içində gözümə dəydi bir əxtər,
Məftun olaraq sevdim onu, heyrətə daldım.
Aydan daha parlaq, daha incə, daha dilbər.
Fərsiz gözümü dikdim ona, həm baxa qaldım.

Zülmət gecələrdə saçaraq nurini, sansız
Azmışlara hey göstərir o doğru siratı[3].
Dinlə məni, ol rəhbərim, ey sevgili ulduz,
Olmazmı mənə göstərəsən rahi-nicatı?

*1909*

---

[1] Vahimələr sırası
[2] Kədərlə, hüznlə
[3] Yolu

## QIŞ GECƏSİ

Zülmət bürümüş göyü... uğursuz
Göylərdə görünməyir bir ulduz.
Çılğın kimi ruzigar uğuldar,
Qar parçaların səmayə fırlar.
Damda, bacada həzin gurultu,
Səhraları inlədir uğultu,
Qurd-quş dəxi girmiş aşiyanə,
Çökmüşdür həzin sükut cahanə.
Bir yanda nə kölgə var, nə bir kəs,
Bir daxmada nə işıq, nə bir səs.
Dağ, çöl, dərə, bağ və tarla qardan
Öz üstünə örtmüş idi yorğan.
Kəndin qırağında tək və alçaq
Bir evdə sönük işıq var ancaq.
Xəstə uşağına qəmli madər,
Həsrətlə içində layla söylər.
Ağlar beşiyində tifli-nalan,
İnlər boğunuq səs ilə hər an.
Dərd ilə ümid içində madər
Şam tək bu beşik başında titrər...
Qızdırma içində xəstə yuxlar,
İnlər, həm ara-sıra sayıqlar.
Duyduqca bunu zavallı madər,
Ağlar, uşağa baxar mükəddər.
Gəhvarəyə[1] söykənib kədərlə
Yuxlar qarışıq düşüncələrlə.
Röyada fəlakət içrə gördü,
Xəstə üzərində bir ağ örtü.
Yummuş gözünü bu kainata,
Etmiş acı bir vida həyata...
Evdə həyəcan, böyük təlaş var,
Durmuş o başı ucunda ağlar.

---
[1] Beşiyə

Batmışdı tərə o xab içində,
Birdən durub iztirab içində:
"Oğlum!" – deyə səslənir yerindən.
Gördükdə yatır o xəstə, birdən
Göz yaşlarını silib çəkir ah:
"Bu körpəmə sən şəfa ver, Allah!"

*1909*

## SÜKUTUMDAN ŞİKAYƏTÇİ BİR QADINA

Soruşursan: – Nədir bu əczü[1] sükut?
– Məni hüsnündür eyləyən məbhut,
Ey mənim qəlbimi çalan afət!
Həm həyat, həm şüur verən fitrət!
Hər kəsə nitq, həm bəyan vermiş.
Şairə başqa bir nişan vermiş.
Bir sükut ilə endirər gözünü,
Duyurar aşinasına sözünü.
O sükutimdə öylə sözlər var,
Kəlməsindən beş-on kitab yazılar.

*1910*

## ZAMANIN İNQİLABÇILARINA

Hardasız, ey vətən qayıqçıları?
Qaldı dərya üzündə yelkəniniz.
Susdunuz, yox səda və şivəniniz?
Ey elin şanlı hayqırıqçıları!

Qəlbinizdə tükəndimi cürət?
Fırtına, dalğa, çənmi yollarınız?
Yoxsa gücdənmi qaldı qollarınız?
Yox, sönənməz o əzm, o qüvvət!

[1] İqtidarsızlıq

Əldə etmək üçün böyük əməli,
Qorxmayın, cürət ilə qalxışınız!
Fırtına, dalğalarla çarpışınız!
İrəli, qəhrəmanlarım, irəli!

Şəfəq atdıqda, ya daha erkən,
İnanın, sahilə dəmir[1] atarıq.
Bu qaranlıq dumanları udarıq!
Sizi alqışlayar sevimli vətən!

*1910*

## QIŞ

Parça-parça düşərək quşbaşı, göydən yerə qar,
Sarılır ağ mitilə boz dərə, çöllər, dağlar.
Bürüyür ortalığı tül kimi bir incə duman,
Qarı birdən sovurur göylərə müdhiş burağan.
Toplayır bir yerə gah qarları bir dağ kimi,
Gah qazır, gah qaşıyır damları dəbbağ kimi...
Don tutur çayları, bağ, ormanı qəm-qüssə alır,
Qarğalar qarıldaşır, sanki qışa layla çalır.
Qocalır sanki təbiət, ağarır saç-saqqalı,
Döşəmiş altına əngin, ağ ipək, zərli xalı.
İnləyir qarların altında dərə, çöl, torpaq,
Bağda, ormanda ağaclar görünür çıl-çılpaq.
Dayanın qar-borana, fırtınaya, bir gün olar,
Qış bitər, yaz yetişər, qəmli buludlar da uçar.

*1910*

[1] Lövbər

## GƏLƏCƏK QORXUSU

Sislə, buludlarla qaralmış bayır,
Mürgüləyir dağ-dərə, səhra, çayır.
Hər yerə hökm etmədədir qar, boran,
Yox bir işıq; zülmət içində cahan.
Bir kiçicik daxmada ancaq çira[1]
Saçmada ətrafına ölgün ziya.
Yorğanın altında yatır bir çocuq,
Tükləri qıvrım, bəti-bənzi soluq.
Yataqda xəstə atası inləyir,
Xəstəliyi get-gedə şiddət edir.
Pəncələşir müdhiş olan ölümlə,
Həsrəti var, ölməmək istər hələ.
Baş tərəfində oturub bir qadın,
Hey düşünür xəstəni və övladın.
Göz yaşını gah axıdır, gah silir,
Bağrını qorxu və düşüncə dəlir:
– Gəl, ey əcəl, mərhəmət et körpəmə!
Qıyma yetim tək bata dərdə, qəmə!
Göylərə yüksəlməyə ah-naləsi,
Yoxdur onun arxa duran kimsəsi.
Bir dənədir, şıltağını çəkən yox.
Xış götürüb tarlasını əkən yox.
Kim verib kəl tarlasını xışlayar?
Kim günəş altında yanar, işləyər?
Kim qoruyar mal-qarasın, bəsləyər?
Bunlara kim qatlaşar ah, kim edər?
Arpasını, buğdasını kim biçər?
Dərz vurub xırmanını kim döyər?
Kim meşəyə qışda odunçun gedər?
Bunlara kim qatlaşar, ah, kim edər?
Etmə bizi yurdumuzdan dərbədər,
Yox köməyim, qorxuludur bu səfər.
Xəstə ata inləyərək zarıldar,

[1] Çıraq

Körpəsi isə yuxuda xoruldar.
Olmuş ana bir həyəcan heykəli,
Dırmalayır köksünü matəm əli.
Xəstəyə baxdıqca olur bağrı qan,
Uğuldayır damda, bayırda boran...

*1910*

## BİR MƏLƏKƏ[1]

*"Molla Nəsrəddin" məcmuəsinə*

Mahtablı gecə... Kənari-dərya,
Əsməkdə nəsimi-xoş, müəttər[2].
Titrədi yaşıl-yaşıl çəmənlər.
Qəlbimdə cahan – cahani-sevda.

Bu anda mələkdi, yoxsa huri,
Vicdanını inlədirdi bir qəm.
Səslərdi həzin səs ilə hərdəm:
"Aclıq bürüyübdü Zəngəzuri".

Ay, ulduz olub da dərdə qəmxar
Sanki baxışırdı mat-məbhut[3].
Bir qəmli sükut içində lahut[4],
Dinlər o həzin sədanı təkrar.

*1910*

---

[1] Şeir "Molla Nəsrəddin" məcmuəsinin Zəngəzurdakı aclığı təsvir edən nömrəsinə həsr edilmişdir.
[2] Ətirli
[3] Heyran-heyran
[4] İlahiyyat; göylər

# HAMIMIZ BİR GÜNƏŞİN ZƏRRƏSİYİK

Əsrlərdən bəri zülmə alışan,
Qan içən, qan qusan, ey şər insan!
Aldımı qəlbinizi qisvəti-şum[1]?
Yakdımı ruhunuzu badi-səmum[2]?
Görünürmü sizə xoş qanlı həyat?
Unudulmuş bəşəriyyət, heyhat!
Hamımız bir yuva pərvərdəsiyik!
Hamımız bir günəşin zərrəsiyik!
Ayırmaz bizləri təğyiri-lisan,
Ayırmaz bizləri təbdili-məkan.
Ayırmaz bizləri İncil, Quran,
Ayırmaz bizləri sərhəddi-şəhan[3].
Ayırmaz bizləri ümmanü[4] mühit[5],
Ayırmaz bizləri səhrayi-bəsit[6].
Ayırmaz bizləri həşmətli[7] cibal[8],
Ayırmaz: şərq, cənub, qərb, şimal.
Yetişər kinü ədavət daşımaq,
Qoxumuş məzbəhələrdə yaşamaq.
Uzadın dəsti-üxüvvət[9] sıxalım.
Rişeyi-zülmü, nifaqı yıxalım!
Qəlbimizdə yaşasın möhrü vəfa.
Verəlim bir-birinə dəsti-vəfa[10].

*1910*

---

[1] Pis, bəd sərtlik (qisvət – ürəyi bərklik, rəhmsizlik; şum – uğursuz)
[2] İsti külək, qızmar
[3] Şahların sərhəddi
[4] Böyük dəniz
[5] Okean
[6] Geniş səhralar
[7] Əzəmətli
[8] Dağlar
[9] Dostluq əli
[10] Vəfa əli

## SON BAHAR

Noldu rəngin çiçəklərin açman!
Güllərindən dəmət yapdım bən,
Niyə solğun bakarsın ah! Öylə...
Soldumu həp çiçəklərin? Söylə!..
Susdu bülbüllərin? Orman!
Pozdumu afaqını şu xəzan?
Niyə solğun durur şu şəğərən?
Həp qapanmış dumanla kəhsarən.
Şu xəzandanmı oldunuz bərbad?
Səbr edin, ah! Etməyin fəryad.
Ağlamazsa bulut, gülərmi çəmən?
Ağlamazsa çocuq bulurmu ləbən?
Həp mətanətlə bir zaman dayanıb
İnanın siz də bən kibi inanın.
Məhv olur qar, boran, günəş də doğar
Yetişir qırmızı sevimli bahar.
Ah, bən son baharı pək sevərəm,
Sevərəm son baharı, pək sevərəm.

*1910*

## DAĞLAR SULTANI

Dan atınca xoruz, beçələr banlar.
Dağ-dərədən çəkilməmiş dumanlar,
Sürüsünü yayar dağa çobanlar.
Təbiətin zövqünü onlar alar.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Gözəl olur bu yerlərin səhəri,
Məncə vardır dünyalarca dəyəri,
Quşlar oxur, səba açar gülləri,
Alır başqa bir lətafət hər yeri.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.

Günəş yaxın dağın ucundan doğar,
Buludları gözəl rənglərlə boyar,
Dumanları dağlara doğru qovar,
Hər tərəfi bir gözəllik qucaqlar.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Gözəl olur bizim elin yaylağı,
Gül-çiçəkdir bu yerlərin otlağı,
Bir cənnətə bənzəyir hər bucağı,
Durna gözü kimi vardır bulağı.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Mal qapıya gələndə axşam-səhər,
Qoyun mələr, quzu mələr, dağ mələr;
Səsə-küyə düşər köpəklər hürər,
Dərə, dağ, daş həzin-həzin səs verər.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Hara baxsan – çölə, yamaca, dağa,
Çoban görərsən söykənib çomağa,
Qoymaz gözdən sürüsünü irağa,
Bu sürüyə həm nökərdir, həm ağa.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Çomaq əldə dolaşır dağı, daşı,
Qoyun, quzu, köpək, tütək yoldaşı,
Azacıqdır aşı, ağrımaz başı,
Bu xoşbəxtə hər nə desən yaraşı.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.
Sərin-sərin bulaqlardan su içər,
Kəsər, yeyər, kök quzulardan seçər,
Ömrü belə gözəl yerlərdə keçər,
Ot, çiçəklər solunca durmaz, köçər.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.

Dünya malından var: sicim, çatısı,
Patavası, çuxası, həm qartısı[1],
Bir də qumral gözlü, nazlı Fatısı,
Oxuduqca qəlb odlar bayatısı.
Bu yerlərin sultanıdır çobanlar,
Həm bəyidir, həm xanıdır çobanlar.

*1911*

## İNTİZAR

Çıxdı kənddən üç ayın müddətinə usta Səfər,
Fəhləlik qəsdi ilə etdi yaxın şəhrə səfər.
Keçdi üç ay, hələ ondan nə xəbər var, nə pəyam[1],
Gözləyir ailəsi kənddə onu biaram.
Qış idi, qar da yağır, səslənir hiddətlə boran,
Bir çıraq idi həzin daxmada tək hakim olan.
Qapı ağzında həzin mürgüləyir sısqa çocuq,
Başının kölgəsi divarə düşüb, rəngi soluq.
Bir tərəfdə anası hey əyirir cəhrəsini,
Qəmli zülmət bürümüş alnını, həm çöhrəsini.
Ötürür köksünü tez-tez, düşünür: noldu Səfər?
Gedəli dörd ay olur, bax, nə kağız var, nə xəbər!
Bir bəlamı ona üz verdi, aman, ey Yaradan?
Ey əcəl, qıyma əziz körpəmə, qəhrindən utan!
Rəhm elə körpəmə sən, həm də bu bədbəxt qadına.
Neylərik vursa əcəl – bir canavar pəncə ona?
Baxdı tez körpəsinə, qəlbinə doldu qorxu:
– Dur, quzum, mürgüləmə, gir yatağa, rahət uyu.
Oğlu qəmli səs ilə inlədi: – Dur, birgə yataq.
– Hövsələm yox, məni yordu bu kədər, cəhrə, yumaq.
Nə üçün, ah, bu dünya mənə zülmət görünür?
Gözlərim hey qaralır, ah, ürəyim də döyünür.
– Ağlama, ah ana can, – qalxaraq o körpə dedi,
Başını madərinin çiynınə dalğın sökədi.

---

[1] Qısa yapıncısı
[1] Məktub

Bir səs oldu qapıda, qalxdı uşaq cəld qaçdı,
"Bax, atam gəldi" – deyə o, qapını tez açdı.
Qapıdan girdi Səfər şad, səlamət, xürrəm,
Balası qaçdı sarıldı ona möhkəm-möhkəm.

*1911*

## SABİRƏ

### I

O geniş alnı bir günəşli səma,
Bir sevimli, düşüncəli sima.
Gözlərində dərin bir ülviyyət,
Bir üfüqsüz səbat, ciddiyyət.
Bir təbəssüm dodaqlarında əyan,
Oynayır titrəyən kimi hər an.
Zahiri sanki şən, gülər kimidir.
Batini həp yetimələr kimidir.
Gülür o hıçqırıqla, ağlayaraq,
Ağlayır, hey gülür kimi duraraq.
Elə bil o qiyafətilə yenə,
O gözəl, incə sənətilə, yenə,
Şairanə, dəqiq rəmziylə,
Güldürür bir lətifə tərziylə.
Bizə dövründən o hekayət edir.
Qələm əldə acı şikayət edir.
Bax bu sima o Sabirə yaraşır.
O böyük, şanlı şairə yaraşır.

### II

Səni bir az da oxşayım, Sabir!
Noldun eyvah, möhtərəm şair?
Hardasan səbr, zəhmətin mələyi?
Hardasan şeir, sənətin çiçəyi?
Ədəbiyyata bir cığır açdın!
Yollarında bənövşələr saçdın!

Açır indi yenə gözəl güllər.
Çəkdin ancaq bu yolda, ah, nələr!..
Səni o dərd, möhnət inlətdi.
Səni öz millətin vərəmlətdi.
Bir zaman, ah, şerə başlar idin,
Ruhumu dadlı-dadlı oxşar idin.
Susdun eyvah, hardasan indi?
Səni yoxluq yatırtdımı əbədi?
Parlaq ulduzdun, ah, neçin söndün?
Sandım, ey çərx, sən də bəs döndün
Mehvərindən; qiyamət oldu əyan.
Ah, xülya imiş bu zən, bu güman.
Ədəbiyyatda söndü bir aləm,
Sənə təsirsiz oldu bu matəm.

**III**

Siz, siz, ey kor və kar, lal insanlar!
Siz, siz, ey fitnə, şərr, nadanlar!
Siz, siz, ey bişüur olan cühəla!
İndi siz rahət oldunuzmu daha!
Yox!.. O mərhumun ismin andıqca,
Ədəbiyyatda yer qazandıqca,
Sizi nifrətlər ilə yad eylər,
Sizə dair lətifələr söylər.
Sabirim, yox, sən ölmədin, dirisən!
Sönməz ulduz kimi, günəş kimisən.
Biz qaranlıqda söndü o, sanırıq.
Hər şeyin zahirinə aldanırıq.
Halbuki yox deyil də, sən varsan,
Tutmusan qəlbimizdə indi məkan.

**IV**

Qardaşım, bircə istərəm bilmək:
"Bu cahanda bu – var, o – yox" nə demək?
Cism bir halda hər zaman qalmaz.
Var olan şey cahanda yox olmaz.

Belədir, Sabirim, bu köhnə həyat,
Edərəm fikrimi belə isbat:
Məsələn, qətrə su düşərsə yerə,
Quruyur, yox olur o bilmərrə.
Hanı o qətrə su? – deyə sorsaq,
Səslənər göydən o cavab olaraq:
“Burada indi tutmuşuq mənzil,
Edərik biz buludları təşkil.
Bu təbiət bizi buxar etdi,
Uçurub göydə bərqərar etdi.
Yenə mayeləşib suya dönərik.
Yenə damcı olub yerə enərik”.
İndi ol qətrə yox, bu heçmi demək?
Halbuki yox deyil də var, bişək!

**V**

Bir də sözdür yaşar, qalar baqi,
Bürüyər nuru ilə afaqi.
Nolar, ey söz, günəş desəm sənə mən,
Çünki zərrat işıq alır səndən*.
Sən də bu fikrə eylədin iqrar.
İndi, ey adlı-sanlı sənətkar!
Səni mütləq cahanda var sanıram.
Bizim ilə səni yaşar sanıram.
Oxuduqca sevimli hər sözünü,
Görürəm sanki dilrüba üzünü.
Görünürsən o halətinlə mənə,
Gülər, ağlar qiyafətinlə mənə.
Ah, gördükcə qəmli halətini,
Ağlaram, dinlərəm şikayətini.

*1912*

---

* Sabirin “Füyuzat” məcmuəsinin 5-ci nömrəsində çap olunmuş “Söz” sərlövhəli:

*“Ey söz, nola dersəm sənə xurşidi-səmavat!*
*Səndən alıyor nuru, ziyanı həmə zərrat”* – şerinə işarədir.

## ALDANMA

Aldanma zahidə, sanma uludur,
Qəlbi hiylə, riya ilə doludur.
Həsəd ona sarılmış örkən kimi.
Fitnə, fəsad onun tirmə çuludur.
Bu gedişlə yetişməzsən bir yana,
Zahid, bu yol, məncə, çox qorxuludur.
Həsəd, qürur hər bir insanda olsa,
Köpəkcə saymasan, məncə, yoludur.
O kəsdə ki, yoxdur belə sifətlər,
Şaiq onun satın alma quludur.

*1912*

## İŞIQ MƏNBƏYİ

Qaranlıqdır vətənin hər bucağı,
Sönmüş ata-babamızın ocağı.
Babalarmız çalışdı ad qazandı,
Himmətlə qoydular dağ üstə dağı.
Yaramaz bir övlad qalarsa yurdda,
Sönər babasının yanar çırağı.
Heç bir zaman bir növ ilə keçinməz,
Hər bir əsrin var bir tərəqqi çağı.
Tərəqqi etməyə lazımdır ancaq:
Tərbiyəli anaların qucağı.
Qadınla hər millət eylər tərəqqi,
Qadındır millətin şamı, çırağı.
Yıxar bir milləti, bütün məhv edər
Qadınların tərbiyəsiz qalmağı.
Yaşa, adın dünya durunca qalsın,
Millət, vətən ilə birgə ucalsın!

*1912*

# BƏXTSİZ RƏFİQƏMƏ

## I

Ey məni çulğalayan dərd, nədən
Bir zaman üz çevirirdin məndən?
Sizsiniz indi mənim sirdaşım,
Ən ağır gündə əziz yoldaşım.
Bəxtiyar günlərim uçdu, getdi,
Könlümə sizləri o yar etdi.
Qəm olub təkcə təsəlli edənim,
Sanki qəmdən yoğurulmuş bədənim.
Zəhmət ilə yuva tikdim sevərək,
Tarümar eylədi cövr ilə fələk.
Söndü parlaq, gözəl ümmidlərim.
Aldı sevdiklərimi çərx mənim.
İndi çox sevdiyim aləmdə mənim
Ruhsuz bir quru qalibdi tənim.
Bir qırıq saz kimi əfsürdə[1], həzin,
Gecə-gündüz edərəm nalə, ənin[2].
Ah, fəryadimə payan[3] yoxdur,
Çünki istəkli o canan yoxdur.
Ah, itirdim elə bir tazə bahar
Ki, mənə bülbüli-gülzar ağlar.
Belədir bu qoca dövranın işi,
Acıdır ağlayışı, həm gülüşü...
Qol-qanadsız sürünürkən yerdə,
Ürəyim dağlı, özüm pəjmürdə,
Mənə zindan görünürkən aləm,
Bu nə hikmətdir, ilahi, bilməm?
İstərəm mən yenə artıq yaşamaq,
İstərəm dərd, cəfalar daşımaq.

---

[1] Tutqun
[2] Nalə
[3] Hüdud

## II

Bir dumanlı sabah idi, ürəyim
Çırpınırdı, qəm ilə həmdəm idim.
Eşqlə çırpınan könül diyarı
Məni çəkmişdi bir məzarə sarı.
Ağlayırdım yanıqlı həsrət ilə,
Dərdləşirdim o nazlı afət ilə
Qapanıb bir yeni məzar daşına.
O yaxında uçuq yuva başına
Oturub bir quş etmədə fəryad,
Eyləyir qəmli nəğmələr icad.
Qanadın sallayıb həzin inlər,
Sanki söylər mənim kimi sözlər.
O da sanki mənim kimi nalan,
O da aludəyi-qəmi-hicran.
O da daim mənim kimi ağlar,
Sanki ruhumla aşinalığı var.
Gəl, quşum, gəl səninlə birləşəlim!
Oturub qəmli-qəmli dərdləşəlim!
Sən kimi mən də bağrıqan, yalnız,
İldırımlarla tarümar yuvamız.
Mən də sən dərdliyəm, maraq etmə.
Başqa bir aşina soraq etmə.
Odlu şerimlə mən sənə hər gün
Söyləyim dərdü macəramı bütün.
Sən də nəğmənlə dərdini söylə,
Yaşayaq bu təsəlli ilə hələ.

## III

İki ənis – iki munis yaşardıq azadə,
Yox idi bir qəmimiz, dərdimiz bu dünyadə.
Ayırdı bir-birimizdən fələk sitəmlə bizi,
Bu Şaiqin sənə qan ağlasın müdam gözü.
Sən öldün, ah, vərəm qəlbimi mənim dağlar,
Unutmam, ölsəm əgər, torpağım da qan ağlar.

*1912*

## NOHEYİ-İŞTİKA[1]

Bəxtiyar bir çocuq kimi şən-şən,
Daha dün söyləyib-gülərdin sən.
Susdun eyvah, nerdəsən şimdi?
Səni yoxluq uyutdumu əbədi?
Məskənin oldu, ah, dar məqbər,
Qoydun həsrətlə Şaiqi müğbərr[2].
Qaldı bomboş o sevdiyin yuvamız,
Sən pərilərlə göydə, mən yalnız.
Nə çapıq soldun, ey bahar çiçəyi,
Sənə qıydı nasıl əcəl mələyi?
Ah, öldünmü, yox, yox, ölməmisən!
Bəzənib ağ libasla yavrum, sən
Getmisən hurilər ziyafətinə...
Görəsən, ah, qaydacaqmı yenə?

*1912*

## ƏKİNÇİ VƏ XAN

Rəhm eylə, tərəhhüm çağıdır, xan, sənə qurban.
Qoyma bizi gəl bisərü saman[3], sənə qurban.

Gəldim boş əl ilə qapına, qovma, dəxiləm,
Yoxsul, üzü qarə, əməyi puç və səfiləm.
Qəlbi qırığam, boynu bükük, xəstə, əliləm.

Gəl eylə mənim dərdimə dərman, sənə qurban.
Haqsız, quru muzdurca bu heyvan sənə qurban.

Əsdi qara yel, çəltiyi, bostanı sovurdu.
Bu fəqr və zillət neçə ildir bizi yordu.
Yağmadı yağış, yandı taxıl, cümlə kül oldu.

---

[1] Şikayət nohəsi
[2] Qubarlı, kədərli
[3] Başsız və aramsız

Bir danə ələ gəlmədi heç, xan, sənə qurban.
Nə darı, nə çəltik, nə də bostan, sənə qurban.

Aldı dolu, billah, sərü samanımı əldən.
Salmış iki ildir bu çəyirtgə bizi dildən.
Ar eyləyirəm böylə keçinməkliyə eldən.

Getdi keçən il borcuma yorğan, sənə qurban.
Bu başı bəlalı canım hər an, sənə qurban.

Bundan daha artıq heç olurmuydu çalışmaq?
Hər ildə qabıq qoydum ilan tək, hər il ancaq
Qaldım quru yerdə yenə möhtac, yenə çılpaq.

Gülmür bizə bu çərx, bu dövran, sənə qurban.
Səbrim tükənib, bağrım olub qan, sənə qurban.

Evdə mələşir, vallah, acından uşaq, övrət.
Qaçmış bəti-bənzi, hamısı bir quru surət.
Olmuş nə isə bunca müsibət bizə qismət.
Bir tövr elə, çək bizlərə saman, sənə qurban.
Rəhm eylə, tərəhhüm çağıdır, xan, sənə qurban.

Evdə yeyəcək nə darı qalmış, nə də buğda.
Bu il bizə gəl vergini rəhm eylə, bağışla.
Bəsdir bizi dırmaqladığı yırtıcı dünya.

Daxmamdakı beş ac-yalavac can sənə qurban.
Ət-yağ üzünə həsrətik hər an, sənə qurban.

*1913*

## BƏRADƏRİM FİRİDUNBƏYƏ TƏQDİM ETDİYİM RƏSMİMİN ALTINA

Qəlbinə yəs, iğbirar[1] açan
Gözlərimdə əməllərimdir uçan.
Bəllidir hər baxışda dərd, qəmim,
Baxma, əks eyləyər sənə ələmin.
Ürəyimdə coşan bu fırtınalar
Səni də mən kimi məlul eylər.
Məni ağlar görüncə, sən gül, gül!
Çünki əbr[2] ağlayar, gülər sünbül.

Donuq bir çöhrədən dolğun üzüm bir lövheyi-müğbərr[3].
Sönük bir didədən sönmüş gözüm bir bərqi-seylavər[4].

*1913*

## BİRİ SƏNSƏN, MƏLƏKCİYİM, BİRİ MƏN

Qonşuda qarşı-qarşıya görünən
İri camlı, genişcə pəncərədən
İki baş daima çıxar dişarı,
Bir-birinə baxar, gülər şən-şən...
Bir patırtı pozar o nəşələrin.
Seyd, səyyad ürkərək birdən,
Sürət ilə çəkərsə başlarını,
O baxışlardakı təəssürdən[1]
Çırpınır hey iki ürək, iki ruh,
Şad, məhzun iki vücud, iki tən.
O iki çırpınan, həzin düşünən
Biri sənsən, mələkciyim, biri mən.

---

[1] Qəlbi qırıqlıq, qubarlanma
[2] Bulud
[3] Xatirə lövhəsi
[4] Axan şimşək
[5] Əsərdən, gücdən

Yamyaşıl gül-çiçəkli bir bağça.
Döşənib sanki yerlərə xalça.
Səhərin xoş nəsiminə qarşı
Açılırkən gülümsəyir qönçə.
Oxuyur şaxəsində bir bülbül,
Səsi məhzun, dəyərli, həm incə.
Dolanır qönçənin müdam başına.
Ona bülbül məhəbbət etdikcə,
Görünür qönçə məst, pürnəşə.
Bülbülün bağrını dəlirsə tikən,
O iki məst, müztərib görünən
Biri sənsən, mələkciyim, biri mən.

Bir ağaclıq... axar önündən ab,
Sakit axşamdı, nur saçar mahtab.
Cökə altında baş-başa oturub
İki sövdalı gənc əlində kitab,
Danışır saf, təmiz məhəbbətdən.
Bu görüş həm sevinc verir, həm əzab.
Nazənin qız kimi süzürdü ay,
Üstünə kölgə salmış idi səhab.
Hər şeyə hökm edir sükut, yalnız
Titrəyir ortalıqda busi-dəhən.
O iki bəxtiyar – gülən, sevişən
Biri sənsən, mələkciyim, biri mən.

*1913*

## NƏCƏFBƏY VƏZİROV HƏZRƏTLƏRİNƏ

Sən ey bu yomi-ali[1] qəhrəmanı, ey işıq ulduz!
Təşəkkür etməyə səndən mənim qəlbim, dilim aciz.
Vətənciymin sən ey fəxri, sevimli, şanlı övladı,
Çalışqan qəhrəmansan sən, deyilsən bir nəfər adi.
Tamam qırx il çalışmaq, cəhlilə həmvarə dartışmaq,

[1] Ali gün. Yubiley günü mənasındadır.

Qaranlıqlarla, nifrətlərlə, bayquşlarla çarpışmaq,
Asan bir şeymi? İnsan qüvvətindən pək uzaq qüvvət,
Olurmu hər kəsə bu bəxtiyarlıq hər zaman qismət?
Nəcib bir millətin ruhinə min zəhmətlə yol buldun,
Bu qövmün qəmli, xürrəm günlərində həp şərik oldun,
Sən onlarla bərabər bir pədərtək ağladın, güldün,
Yetimlər gözlərindən fışqıran göz yaşların sildin.
Qaranlıq bir məişət çöllərində zar, sərkərdan
Qalarkən, sən yetişdin dadə, ey parlaq məhi-taban.
Bu millətçin geniş, parlaq, müzəyyən bir cığır açdın,
O yollarda işıqlardan çiçəklər, toxmlər saçdın.
Bu gün bir qalib orduya müzəffər bir komandansan,
Və hər türk oğlu bir türkə mədari-fəxrsən[1], şansan.
Yaşa ey yomi-ali qəhrəmanı, fəxrü izzətlə!
Yaşa bu sağlam ünsürlə, yaşa bu şanlı millətlə!

*1913*

## FİDAN

Ağacların arasında ulu, sağlam bir kötük,
Ağır, kəskin baltalarla qol-qanadı qırılmış,
Tufanlarla çarpışaraq qalib gəlmiş, yorulmuş,
Zədələnmiş və ixtiyar şaxları qalmış tək-tük.

O şaxların damarında, kökündəki əsalət[2],
Şanlı keçmiş tarixini anladır; hər qol-budaq
Sevə-sevə kölgəsində bəsləmişdir bir oymaq,
İndi artıq qocalmışdır, qalmamış köhnə qüvvət.

Yaşlı kötük keçmişiylə əsla deyildir məğrur.
Kötüyündən cücərməkdə olan bir çox fidana
Məğrur baxışlarla baxır, qanad gərir hər yana,
Ürəyində gələcəyə şanlı ümidlər doğur.

[1] İftixar səbəbisən.
[2] Nəcabət

Bu fidanlar uca, sağlam ağac olar bir zaman,
Kölgəsində çox fidanlar boy atar cərgə-cərgə.
Fırtınadan, tufanlardan sən bunları əsirgə,
Ey qüdrətin canlı əli, sən ey tarix, ey zaman!

*1914*

## DAN ULDUZU

Ot-ələfsiz bir çöl idi, qorxunc, dəhşətli zülmət
Qapamışdı hər tərəfi, hökm edirdi fəlakət.
Cavan, qoca, kişi, arvad o çöldə heyran-heyran,
Səfil-səfil dolaşırdı, boynubükük, pərişan.
Bürümüşdü o səhranı gurultulu səs-səmir,
Sanki vəhşi yırtıcılar bir-birini gəmirir.
Sağda açmışdır ağzını uçurumlu bir dərə,
Qızları, ac nəhəng kimi, udur göz görə-görə.
Solda isə ürəkaçan yaşıl, sevimli çəmən,
Çiçək açmış: zanbaq, bənövşə, qızılgül, yasəmən.
Günəş qızıl tellərini o çəmənə saçmışdı,
Təbiət min çeşid canlı mənzərələr açmışdı.
Sağ əlində, gözəl bir qız, tutmuş idi al bayraq.
Gözlərini o, qaranlıq çölə dikmişdi ancaq.
Qız bayrağı sallayaraq uca səslə bağırdı,
Səhradakı insanları o çəmənə çağırdı.
Hamı sanki kar olmuşdu, yox idi bir eşidən,
Ona yalnız öz səsiydi cavab verən dərədən.
Yavaş-yavaş o dərədən aydın bir nur parladı,
Zülmət saçan o çölləri günəşə ismarladı.
Böyük-kiçik aydınlığa axışdı birdən-birə,
Yollarını kəsdi ancaq uçurumlu o dərə.
Dərə ucundan həsrətlə baxırdılar çəmənə,
Gözəl səsli bülbüllərə, zanbağa, yasəmənə.
Sonra nə oldu, bilmədim, bir az eylədim diqqət,
Çəmənliyə doğru, gördüm, axışırdı camaat.
Nura boyanmış gözəl qız uzadaraq əlini,
O qaranlıq uçurumdan qurtarır qız-gəlini.
Diqqət ilə bir də baxdım, görüncə nurlu qızı,
Sevdim onu, bir də ona ad qoydum “Dan ulduzu”.

*1914*

## İRƏLİ

Keçmişləri unut, quzum, artıq ona əl vurma!
O dumanlı pərdələri üzərindən qaldırma!
Ora min-bir nərdivanlı quyu olmuş hər zaman,
Hər nərdivanda yuxlayır bir əjdaha, bir ilan.
Sakın, açma, açma, quzum, o quyunun ağzını.
Çalma artıq keçmişlərin ruh inlədən sazını.
Burax onlar o qaranlıq məzarlığa atılsın,
Razı olma gənc ömrünə, gülüm, zəhər qatılsın.
İrəliyə doğru yürü, yersiz arxana baxma!
Gələcəyi düşün daim, onu gözdən buraxma!
Unutma ki, o alnının altında nurlu gözlər
İrəlini görmək üçün verilmişdir, yol izlər.
Sən o parlaq yol izləyən gözlərini daima,
İrəliyə dik hər zaman, yürü, yürü və durma.
O dumanlı, fırtınalı keçmişlərdən uzaqlaş!
Odlu, mətin addımlarla yürü, yürü, durma, arş!
İrəlidə, inan ki, bir cənnət kimi cahan var,
Sabah günəş orda doğar, səadət orda parlar.

*1914*

## SİMÜRĞ QUŞU

*Xalq əfsanəsi*

– Anacığım, bax o uca, sarp dağa,
Qəm yurdudur sanki başdan-ayağa.
Diqqətlə mən ora baxsam nə zaman,
Təpələri qış-yaz dumandır, duman.
Neçin duman əksilməyir o dağdan?
Ora günəş doğmayırmı, anacan?
– Oğlum, o dağ inləyən Qaf dağıdır,
Simürğ quşu daim orda yaşayır.
Yaşar bilməm, çox əsrlərdən bəri,

Nə izi var, nə tozu, nə əsəri.
Onu görən, yerin bilən yox, oğlum.
İnsanlar ki qan tökər, eylər zülüm,
O quş qanadların acıqla çırpar,
Uşaq kimi bitməz-tükənməz ağlar.
Göz yaşları dönər göydə dumana,
Qatar-qatar yayılar hər bir yana.
– Ah, anladım, ondandır ki, hər zaman
Göy üzünü alır hər gün çən, duman.
Ürəyimi sıxır daim bu zülmət,
Heç doğmayır günəş. Soyuq, rütubət
Sümüyümə, iliyimə işləyir,
Bir qurd kimi sanki məni dişləyir.
Üstümüzdə, bax, nə qara bulud var...
Quş ağlayır, demək, bulud da ağlar.
– Eşitmişəm, oğlum, mərhum babandan:
Çox çəkməmiş yetişəcək bir zaman,
Sevinəcək o quş, şən-şən güləcək.
Qəlbimizdən dərdi, qəmi siləcək.
O gün sanki başqa günəş doğacaq,
Bu qaranlıq buludları boğacaq.
Enəcəkdir onda yerə səadət,
Yaşayacaq hamı asudə, rahət.
– Ah, o günəş, ana, haçan doğacaq?
Haçan o quş güləcək, şadlanacaq?
O al günəş gərək bu gün doğaydı,
Üstümüzə nur, səadət yağaydı.
Qaranlığa düşmənəm mən, anacan!
Haçan doğar günəş?
– Yox bilən insan.
Söyləyirdi baban ki, Qaf dağında
Uçurumlu dərə var sol-sağında,
İgidlərin ruhu ora toplanır,
Qaranlıqda çıraq kimi hey yanır.
O dərələr bir gün ruh ilə daşar,
Qaf dağının təpələrindən aşar.
Onda, oğlum, günəş doğar, quş gülər,

Göydən yerə nur və səadət enər.
(Çocuq dərin-dərin fikrə büründü.
Qaf dağına baxdı, baxdı, düşündü).
– Bir söz desəm, ağlamazsan ki, anam?
– Sən söylə, oğlum, söylə, mən ağlamam.
– Atamdan söz söylənəndə arabir
Ağlayırsan, həm gözlərin qızarır.
Xoşlanmıram ağlamaqdan, doğrusu.
– Ağlamaram, söylə, aslan yavrusu.
– O gün atam ki, gəlmişdi yaralı
Qan içində üzür idi... Əhvalı
Qorxuluydu. Sən eyləyirdin şivən,
Ağlayırdın, sızlayırdın... Amma mən
Səs-səmirsiz durmuş idim yanında,
Nur tək bir şey parlayırdı alnında.
Baxdım, baxdım, mən yanında oturdum.
Qanlı başın dizim üstə götürdüm.
Qollarını açdı, məni qucadı,
Gözlərindən yaş töküldü, ağladı.
Heç ağlayan görməmişdim atamı,
Derdi: "Tufan qopsa, erkək ağlarmı?"
Gözlərimi dikmiş idim üzünə,
Baxırdım həsrətlə yaşlı gözünə.
Çapaladı dizimdə birdən-birə,
Mən çox qorxdum, başı düşürdü yerə.
Gözlərini yenə dikdi üzümə,
Mən dayadım başın yenə dizimə.
Ağzını bir-iki açdı, qapadı,
Quş şəklində bir nur ağzından çıxdı.
Daxmamızı bir dəqiqə dolaşdı,
Qanadlanıb birdən uçdu, uzaşdı,
Getdi, getdi, baxdım o dağ səmtinə
Qorxmuş idim, söyləmədim heç sənə.
– O nur, oğlum, ruhu imiş atanın.
Uçub o ruhlara qarışdı yəqin.
– İgid ruhlar ki, Qaf dağın aşacaq.
Sonra onlar, ana, hara qaydacaq?

– Sonra, oğlum, o igid ruhlar yenə,
Şən, bəxtiyar qayıdacaq evinə.
– Atamdamı?
– Atan da sağ-salamat.
Gələcəkdir...
– Ah, nə böyük səadət!
Heç evimizin ləzzəti yox atamsız.
Boş daxmada bir mən, bir sənsən yalnız.
(Bu kəlmələr qadıncığı ağlatdı.
Beş-on damla yanağını islatdı.
Sonra qırıq-kəsik bir səslə dedi:)
– Oğlum, atan başqa bir insan idi.
Onun başın heç bir igid bükmədi.
Haqsız yerə ömründə qan tökmədi.
Hörmətini, namusunu sevərdi,
Haqq yolunda candan-başdan keçərdi.
Qurumadı neçin o xain əllər?!.
– Səbr et, anam, Qaf dağında dərələr,
Dolub-daşar, xain əllər quruyar,
Simürğ quşu gülər, günəş də doğar.
Göydən yerə enər sevgi, səadət,
O gün atam yenə gələr səlamət.

*1914*

## MÖHTƏRƏM NƏRİMANBƏY NƏRİMANOV CƏNABLARINA

Nişan qoymusan, eşitdim, xeyr olsun.
Dan ulduzu kimi bəxtin durulsun.
Yaşa, yeni yoldaşınla çox yaşa,
Bu dünyanı rahətliklə vur başa.
Fırtına, tufanlardan sonra əlbət,
Gözəl olur sakitlik, istirahət.
Yox, sən rahətlik sevməyən atəşsən,
Əriyəcək qəhrinlə müdhiş düşmən.

*1914*

## ƏSRİMİZƏ XİTAB

Bilməm bu qanlı səhnənə, ey əsri-məymənət[1]
İzhari-nifrət etməli, yainki təhniyət[2]?
Dəhşətli yıldırımlarının qəhr, heybəti
Xof, ümid ilə yaşadır şanlı milləti.
Qaldır dumanlı pərdələri, olsun aşikar
Ağ günmü, ya yenə qara günmü qabaqda var?
Bu qırmızı alovlar içində nihan, nihan
Doğmazmı nuri-mehrü məhəbbət cəhan-cəhan?
Varmı ümid bir daha fəvz[3], səadətə?
Ya çəkmədə bizi yenə girdabi-zillətə?
Bu dalğalar, bu fırtınalar ki, edər səda,
Bir sahilə səfinəmizi sövq edərmi ya?
Bax, üstümüzdə qanlı buludlardır oynaşır,
Məşriq dənizləri qabarır, yüksəlir, coşur.
Bilməm bu dalğalar, bu məhabətli[4] fırtına
İtlafə[5] sövq edər bizi, yainki məmənə?[6]

*1915*

---

[1] Uğurlu əsr
[2] Təbrik
[3] Nicat, qurtuluş
[4] Heybətli
[5] Ölümə, heçliyə
[6] Əmin-amanlığa

## İKİ MÜCAHİD

Sən, ey atəş vücudlu, oynaq atım!
Ey ildırım baxışlı qol-qanadım!
Biz türklərə saldırıcı babamız
İki ağır miras buraxmış yalnız:
Biri dəmir silah. Birisi atdır.
Biz türklərə bunlar iki qanatdır.
Bunlar ilə yüksəklərə uçarız,
Üç dünyanın tilsimlərin açarız.
Qovunca biz yeriyinin üstünə,
Qeysərlərin, kəsirlərin təxtinə
Sahib olan fateh dövri alarız,
Arslandan, qartaldan tük çaldırarız.
Kədərli, şən nümayişli günümüzdə
Ayrılmaz arkadaşsınız hər siz də.
Bulunduğumuz qovğalarda nə kadar
Nəqş etdin qəlbimə xoş xatirələr.
Uzaqlardan görüncə həp düşməni
Çeyniyordu cəlavənin kəmini.
Qulağını qırpar, yeri eşərdin,
İldırımlı bulut kibi kişnərdin.
Üzənginə ayağımı basınca
Çilan kibi sıçrardın, göz açınca.
Şahin kibi həm qol-qanad açardın,
Dörd ayaqla hava ilə uçardın.
Bən düşməni qılıncımla, qurşunla,
Sən çeynərdin dırnağınla, dişinlə.
Doyulunca sonra hər yanda zəfər,
Ona qatardın düşməni sərasər.
Şən və müzəffər bir sima alardın,
Cəbhələrdə kişnər, meydan sulardın.
Fəqət şimdi nədən oynaq dik başın

Dalğın durur? İldırımlı baxışın
Şimdi nədən aşağıya dikilmiş?
Qara yallı təmiz boynun bükülmüş?
O narıncı, parlaq atlas tüklərin,
Tikan kibi qabarmış kipriklərin.
Bir top sivri iynə kibi düzülmüş,
İldırımlı, qara gözlər süzülmüş.
Yara almış qartal kibi bakarsın,
Gözlərinlə sönük şimşək çakarsın.
Atlıları anan cilan gözlərin,
Süslü ayaqların, incə dizlərin
Yorğun-yorğun, ölgün kibi duruyor,
Bu halların ümidlərmi qırıyor.
Bilməm ki, kaç tarixi xatirələr
Hiddətli son baxışlarında titrər.
İnanmazdım ki, bir səlik, bir qurşun
O atəşli vücudunu soldursun.
Son nəfəsdə qoy başını dizimə,
Oxşayayım, sürtəyim üz-gözümə.
Bən mərsiyə qoşub sənə ağlamam!
Deyəcəyim son sözümdür, vəssəlam!
Vəzifəni pək namusla bitirdin,
Bir bəxtiyar şəhid kibi can verdin.
Lakin görələr hala hücum topları,
Bizimkilər dırmanır dağ yuxarı.
Vicdan səsi kibi bus səs də titrər,
Bəni də şübhəsiz hücuma səslər.
Halal elə, arkadaşım, bağışla!
Getməliyəm, yoldaşını alqışla!
Vəzifəmdir bu yoldan yoxdur dönüm,
Şanlı zəfər… ya şərəfli bir ölüm!..

*1918*

# MARŞ

*Türk ədəmi-mərkəziyyət*
*firqəsi "Müsavat"a ithaf*

Birləşəlim, türk oğlu, bu yol millət yoludur,
Ünlə, zəfərlə, şanla tariximiz doludur.
Yürüyəlim irəli, haydı, millət əsgəri,
Keçmişimiz şan, zəfər, durmayalım biz geri.
Yıldırımlı gözünüz qan ağladır düşmənə.
Qorxaq, alçaq, xainin bu meydanda işi nə?!
Dəniz kibi coşalım, dalğa kibi qoşalım,
Altun ordu, irəli! Dağlar-daşlar aşalım!
Türk qafasında qorxu yuvalamaz, düşmənim!
Həp dəmirdən yapılmış ruhum, qəlbim, bədənim.
Süngümüzün ucundan damar qətrə-qətrə qan,
Hürriyyətdən, vətəndən ölüncə keçməm, düşman.
Dalğalanır üstümdə şanlı Turan bayrağı,
Alovlanır qəlbimdə "Ərkənəqon"[1] ocağı.
Haydı, yola çıxalım, haqsızlığı yıxalım,
Turanda gün doğunca zülmətlə çarpışalım!
Arş irəli, irəlidə cənnət kibi cahan var.
Günəş orda həp doğar, səadət orda parlar!
Türk firqəsi "Müsavat".
Açalım quş tək qanad.
Sarılıb hürriyyətə,
Bulalım şanlı həyat.

*1918*

---
[1] "Ərkənəqon" – türklərin azadlığına, qurtuluşuna həsr olunmuş əfsanəvi xalq dastanı

## NEÇİN BÖYLƏ GECİKDİN?

*İntizar qarşısında*

Sənsiz qəlbim qırıq, sönük, çeynənmiş, xırpalanmış,
Ömür şüşəm daşa dəymiş, həyatım parçalanmış.
Qırıq bir saz kimi sızlar qanlı, yorğun telləri,
Yakılar da, yakar bütün qayğı vurmuş elləri.
Şu vətənin öksüzləri, gəlinləri, dulları,
Göz yaşıyla sulanmış həp keçdiyiniz yolları.
Yolunuzu bəkləməkdən bənizləri saralmış,
Heç gəlmədin. O şən, gülər ürəkləri qəm almış.
Sən gəlməsən, dolumsanmış ürəklər heç şad olmaz,
Sən gəlməsən, xərabaya dönən qəlb abad olmaz.
Sən gəlməsən, günəş doğmaz, ümid gülüm açılmaz,
Dodaqlarım gülməz, sönük baxtıma nur saçılmaz.
Başqasını istəməm də, ey türk, çabuq sən gəl, sən,
Bəkləməkdən yoruldum, eh, iştə gec qaldın, nədən?
Yollarına daşmı qalanmış? Ya azğın quldurlar
Burakmıyor? Daş, dəmir, ya polad olsa da onlar,
Ürəyində şölənənən mətin, qızğın atəşlə
Yak onları, ərit, söndür, çeynə, boğ, əz, xırpala!
Xain, alçaq düşmənlərə yol gücünü həp göstər,
Aç yolları, çabuk gəl ki, qəlbim səni pək istər.

*1918*

## VƏTƏNİN YANIQ SƏSİ

Uca, qarlı dağlarımın başından
Altaylara bakar, bakar, durardım.
Çəmənindən, çölündən, dağ-daşından
Qızğın ürəklə sizləri sorardım.

Qısqanırdım sizi hər bir torpağa,
Zira sizdə vətən eşqi var idi.
Bakdıqca o doqquz tuğlu bayrağa
Könlüm sevgi, təsəlliylə dolardı.

O gün tufan kibi Elxan ordusu
Ki "Güc" deyə qımıldandı yerindən.
O tufanı salamlamaq duyğusu,
Əksilmiyor, azalmıyordu bəndən.

Yürüyürdü sarsılmaz altun ordu,
Yürüyürdü ləkəsiz bayrağıyla.
Yürüyürdü günəşə, Şərqə doğru,
Altun oxu, qarğışı, mizrağıyla.

Yürüyürdü, çırpınan bir ürəklə,
Ün, şan, zəfər arxasına düşərək.
Yürüyürdü o, bükülməz biləklə,
"Altun ordu" türküsü söyləyərək.

Əyilirdi qarşısında sərt dağlar,
Bir düzən yer onlar üçün dağ, dərə.
Qıvrılırdı dəniz, nəhr, irmaqlar,
Əzilirdi, ayaq basa, hər yerə.

Altun ordu irəllədi bu qərar,
Şərqə, Qərbə, Cənuba yol açıldı.
Büküldü həp zalım və məğrur başlar,
Hər ölkəyə feyz, rəhmət saçıldı.

Alp, Himalay və Karpat həp şənləndi,
Çobanları dadlı türkü çağırdı.
İrmaqları coşdu, dağlar gülləndi,
Bülbülləri "sevgi" – deyə bağırdı.

Bən uzaqdan seyr edincə həsrətlə
Taleyimə küsdüm, saraldım, soldum.
Ana qəlbində çırpınan şəfqətlə
Altun ordu fərağında saç yoldum.

Bağırdım ki, ey dəliqanlı ərlər!
Sizlər üçün qollarımı açmışam.
Oralardan əksikmi ya bu yerlər?
Yolunuzda mənkəşələr saçmışam.

Ən sonunda çiçəkləndi diləyim,
Xatirimdən heç silinməz o günlər.
Ey yaradan, puç olmasın əməyim,
Yasa batsın şimdi bana gülənlər.

Xatırlarım, yaz idi, həp dağ-daşım
Tazə gəlin kibi pək süslənmişdi.
Sevincimdən göyə dəyirdi başım,
Üzərimdə dilək qanadlanmışdı.

Əldə kəskin saldırıcı qılıncla
Üç dünyanı tirli-tirli titrədən,
Qəlbdə iman, ümid, sevgi, sevinclə
Düşmənləri intiqamla inlədən.

Üzü dönməz, qorxu duymaz ərlərin
Səsləri ildırım kibi gurladı.
Haqq üçün çırpınan bahadırların
Gözləri həp şimşək kibi parladı.

Dırmanırdı onlar həp dağ-daşıma,
O qüvvətlə dolmuşdu hər bir yerim.
Altundan tac takınmışdı başıma,
Uçmuşdu həp tasələrim, kədərim.

Başlarına gül səpərdi dağlarım,
Ağaclarım salam üçün durmuşdu.
Şən-şən axardı coşqun irmaqlarım,
Bülbüllərim keyf məclisi qurmuşdu.

Qırlarımda bitən pənbə çiçəklər
Əllərini öpmək üçün açardı.
Altun qanat bəzəkli kələbəklər
Onlar üçün daldan-dala uçardı.

O acıqlı türkülərin dinlərkən,
Qırlanğıclar yeni dillər söylərdi.
Quzuları yamacımda mələrkən,
Otlaqlarım yaşarardı, gülərdi.

Ulu, əski, ruhsuz, hissiz yazıq bən
Artıq yeni ruh ilə canlanırdım.
Alqış sizə diyordum yüz bin bəndən,
Güvənərdim, qürurla şadlanardım.

Şəfasınız, deyərdim, hər ağrıma
Ürəyimdə alov saçan atəşlə.
Övlad, deyə, basdım həpsin bağrıma.
Sevincimdən gözlərim dolu yaşla.

Torpağımın qartallı ağ-daşına
"Uğurlar olsun!" – dedilər, qondular.
Ağ altınla yeni yurdun eşqinə
Köpüklü və dadlı qımız sondular.

O dualı qılıncları öpərək,
Etdilər də dayanıqlı bir yəmin.
Vətən, deyə, həpsi dizə çökərək,
Dedilər ki: Annəciymiz, ol əmin!

Aranızda yoxdur alçaq və qorxaq,
Bundan sonra götürməsin nəslimiz.
İştə şahid başda gəzən şu bayraq,
Şan, zəfərdir tariximiz, əslimiz.

Haram olsun qanımızı daşıyan
O övlada ki, xor baxa vətənə.
Heç uğurlar bulmasın da, qussun qan.
Yurdumuzu tərk edərsə düşmənə.

Şimdi, siz ey Altayları andıran
Dəmir ürəkli bir nəslin övladı.
Ey qəlbinlə iman, zəfər daşıyan
Oğuzların, Elxanların əhfadı!

Ananız, bak, sürüklənir yerlərdə,
Hər yanına xəncər, nəştər saplanmış.
Düşmüş də pək təhlükəli bir pərdə,
Sızlar, ağlar, bağrı qan, xırpalanmış.

Babanızdan üzülüncə əllərim
Gözlərimi sizə dikmişdim yalnız.
"Bu qan da o qandan süzülmüş" – derdim,
"Yaman günümdə imdadım olursunuz".

Nədən şimdi fəryadıma qayqusuz,
Dəyişdimi damarınızda əski qan?
Nədən oldu dərdlərimə duyğusuz,
Qəlbinizdə söndümü sevgi, iman?

Babalarınız etdiyi bir yəminə,
Yoxmudur ya sizdə hörmət, riayət?
Onlardakı şanə, imana, dinə,
Çarpmıyormu qəlbinizdə məhəbbət?

Rəvamidir o bəxtiyar günlərim,
O dəbdəbəm, o şövkətim alınsın?!
Al duvaqlı, şən, parlaq düyünlərim
Yasa batsın, başına qara bağlasın?

O qəhrəman ata-baba yurduna da
Yazıq, qalsa sizin kibi övlada
Daşısın bin fəlakəti, ardında
Başlamasın çırpınmağa, fəryada.

Didinməsin, zülmləri boğmasın,
O arslanlar yurdu olan torpağım.
Böylə namussuz övladı doğmasın,
Qararmasın başda gəzən bayrağım.

O şən, o bəxtiyar könlüm dolu qan,
Böylə səfaləti artıq çəkməməm!
Sönməz bəndə əski sevgi və iman.
Uca başımı alçaqlara əyməməm!

İldırımlar gurlasın!
Bulutlarım hazırlansın tufana!
Dağım-daşım boyansın həp al Qana,
Şimşəklərim parlasın!

Anacığım, qanımız həp əski qan,
Elxan nəsli hər bir zaman xələfdir.
Ürəymizdə həp o duyğu, o iman,
Taleyimiz ün, zəfərdir, şərəfdir.

Şu vətənin dağlarında-daşında
Qurtarıcı qəhrəmanlar az deyil!
Hər obanın, hər ocağın başında
Bin qəhrəman fürsət bəklər, əmin ol!

Beş dünyanın vəhşiləri toplansa,
"Ölüm" deyə, "Vətən" deyə qoşarız.
Bu torpaqlar qanımızla boyansa,
Nəfəsimiz qalınca öc alarız.

O əllər ki, bu gün səni qurtarmaz,
O dillər ki, səni bu gündə anmaz,
O ürək ki, sənin üçün çarpamaz,
O ayaq ki, "Vətən" deyərək qoşmaz,
Al qana boyansın!
Sevdiyi başı ucunda yas qursun!
Anaları ağı desin, saç yolsun!
Sənin kimi ağlasın!

*1918*

## ARAZDAN TURANA

Bin göl ətəklərindən coşğun Araz axaraq,
Yıldırımlı, qartallı qayalara çarparaq,
Qaplan kibi kükrəyib, dəniz kibi qabardı,
Məmləkətlər aşaraq, dalğa kibi yol aldı,
Turan–İran dolaşdı, döndü Qafqaz elinə.
Yaklaşınca o daşğın, acıqlı Kür nəhrinə
Hayqırdı: "Ox, qardaşım, dinlə bəni bir zaman!
İztirablar içində çarpınır şimdi Turan.
Girmiş sehirli divlər qızıl alma bağına,
Qara quzğun uçuşmuş soluna və sağına.
Derlər, dünya gözəlinin dizində yad başlar var.
Süzgün, bayğın gözündə qan köpürən yaşlar var.
Bərələnmiş gül kibi gündən–günə soluyor.
Qara, gur saçlarını əlləriylə yoluyor.
Gülümsərkən ağzından güllər saçan o gözəl
Şimdi ağlar, gözündən inci damlar. Xain əl
Girmiş məsum qoynuna, yaralayır köksünü,
İnlər: Yoxmu Turanda qurtaracaq ər bəni?
Nərdə o türk nişanlım, o qoç igit, qəhrəman?
Yolunu pək özlədim, yol ver ona, yaradan?
Yel atına binsin də, gəlsin səni qurtarsın!
Yağı olan bu xain başları həp qoparsın,
Şu sehirli tilsimi qırsın namus eşqinə.
Quruntlu bir kədər çökmüş Turan yurduna.
"Qızıl irmaq", "Süd gölü" bu anda qan köpürür,
Qoç igitlər Turanda bığ çeynəyib də durur.
Bəni daim inlətən, bax, şu acı duyğudur,
Çağlayanlar dağımda köpüklü qan qusdurur".
Çoşğun Araz sözünü qıçqırıqla bitirdi,
Kür nəhrini bu xəbər xələcana gətirdi.
Əvət, qara bulutlar almış yurdu, qardaşım,
Nə yaşarız, nə gülər çəmənlərim, dağ–daşım.
Böyük türkün sevdiyi yekta dünya gözəli
Qan ağlasın, qoynuna girsin yabançı əli.

Turanda yüz milyonluq türklük buna qızmazmı?
Qızmazsa, bu xain əl yasamızı pozmazmı?
Gəl, qardaşım, boynuna keçirəyim qolumu,
Annəmiz "Quzğun dəniz" bəklər bənim yolumu.
Gedəlim, dərdimi annəmizə açalım,
Əski yurduna ildırımlar saçalım.

* * *

Kür və Araz coşaraq bir-birinə qarışdı,
Sahilləri çeynəyib, iki aşiq qovuşdu.
Axın-axın axaraq, fırtınalı dənizə
Tökülüncə anlatdı hər ikisi diz-dizə:
- Annə, Turan elindən quruntulu bir xəbər
Gətirmişiz şu tasa, ürəyimizi həp dələr.
Girmiş sehirli divlər qızıl alma bağına,
Qara quzğun uşuşmuş soluna və sağına.
Derlər, dünya gözəlinin dizində yad başlar var,
Süzgün, bayğın gözündə qan köpürən yaşlar var.
Bərələnmiş gül kibi gündən-günə soluyor,
Gülümsərkən ağzından güllər saçan o gözəl
Şimdi ağlar, gözündən inci damlar. Xain əl
Girmiş məsum qoynuna, yaralayır köksünü.
İşlər: Yoxmu Turanda qurtaracaq ər bəni?
Nerdə o türk nişanlım, o qoç igit? Yol alsın!
Şu sehirli tilsimi qırsın, bəni qurtarsın!

* * *

"Quzğun dəniz" bu qara xəbərləri dinlədi,
Yara almış dişi bir arslan kibi inlədi.
Basdı Kürü, Arazı dalğaların selinə,
Birdən-birə köpürdü, daşdı Turan elinə.
O dağ kibi yüksələn dalğaları yürüdü,
Yüz milyonluq Turanı başdan-başa bürüdü.
Hər kiçicik dalğasında bir ildırım patladı,
Almas kipriklərində birər şimşək oynadı.

Hər bir öksüz bucaqda qopdu yeni bir tufan,
Coşqun sellər qaldırdı əngəlləri aradan.
Artıq sehirli divlər yediyini həp qusdu,
Sonra Turan da susdu, dəniz də, göy də susdu.

* * *

Yenə dalğacıqlarla oynar "Quzğun dənizi",
Güzgü kibi parıldar ay-yıldızlı bənizi.
Göbəyində görünür yaşıl zümrüd bir ada.
Altun kərpicli bir köşk adanın ortasında.
Köşkün qarşı tərəfi qızıl alma bağıdır,
Ayaq bassa, daş olur, hər kəs ona yağıdır.
Qızıl alma bağında gəzər dünya gözəli,
Gülər coşqun sevinclə türkün əlində əli.

*1919*

# ÜLKƏR

Sorucu gözündə sevda uçarkən,
Ey xoş kölgəsində səfalandığım.
O qönçə dodağın bir sirr açarkən,
Uçan nəğməsilə havalandığım.

Yolçu yol ararkən düşər izinə,
Qurtular baş qoyan sıcaq[1] dizinə,
Mən çoxdan vurğunam o şux gözünə,
Ey oynaq nurilə ziyalandığım.

Ruhumda çırpınan dəli üsyan var,
Qəlbimdə qaynayan zəhərli qan var,
Beynimdə bir çılğın səsli vulkan var.
Yanaram, görünməz oda yandığım.

Sənədir ümidim, ey parlaq ülkər,
Mən də bir yolçuyam itkin, dərbədər.
Qurtuluş yolunu mənə də göstər,
Mələkdən, fələkdən uca sandığım.

*1919*

[1] İsti

## YENİ AY DOĞARKƏN...

*Türk bikələri qiyafəsində alicənab bir qadın oğlu*
*Yavuza yeni doğan Ayı göstərərək*

Q a d ı n

Oğlum, Yavuz, o alaca bulutlardan az uzaq,
Gül yanaqlı, ağ bənizli, yeni doğan Aya bak.
Almas kiprikli gözlərin nasıl dikmiş üzünə,
Nur saçaqlı saçlarını dağıtmış üz-gözünə.
Adaqlı bir gəlin kibi süslü, sevimli, dilbər,
Bak, nə kadar yakışmış da yanında yeddi ülkər.

Y a v u z

Annəciyim, bən Günəşi Aydan, yeddi ülkərdən
Çox sevərim, lakin bilməm, şu ayə bən bakarkən
Neçin əski diləklərim dalğalansın gözümdə?
Neçin tatlı, uğurlu bir duyğu doğar özümdə?
Neçin bu Ay ruhuma pək uyğun, munis görünür?
İçim, tışım Günəş kibi neçin nura bürünür?
Neçin bu Ay gözündə bir dilək qadar sevimli?
O əski Ay bunca parlaq, şux baxışlı degildi,
Söylə, o Ay, annəciyim, noldu, nerə uğradı?

Q a d ı n

Yavrum, onu mələklər həp yıldız-yıldız doğradı,
Bak, o Ayın bölüyüdür parlaq, o yeddi ülkər,
Hər birisi bir ay qadar, Günəş qadar nur səpər,
O ülkərin hər birisi bir igidin yıldızı.

Y a v u z

Ya, bənimki hankisidir?

Q a d ı n

Pək parlaq, o qırmızı!

Yavuz

O ülkərlər, annəciyim, bak, nə qadar ufaqdır,
İşıqları pək sönük, həm bir-birindən uzaqdır.
Bən istərim yeddi ülkər qovuşsun bir-birinə,
Üzərmizdə Günəş kibi doğsun ülkər yerinə.
Şu Günəş həp doğsun da həqq eşqinə, heç sönməsin!
Şən-şən yurtlar bir qaranlıq məzarlığa dönməsin!
Bən istərim ki, şu Günəş yıldızları dinlətsin!
Üfüqlərə çökən qara bulutları inlətsin!
Bən istərim şu Günəşə bütün yer, göy tapınsın!
Qurd-quzu həp bir otlasın, bir yatağa sığınsın!
Şu Günəşdən vulkan kibi həyat coşsun, qaynasın!
Dört yanımda həp yıldırım çaksın, şimşək oynasın!
O Günəşdir iştə bənim taleyimin ülkəri!

Qadın

Öylə isə, anlı oğlum, o ayı, yıldızları,
Bir-birinə bitişdirib uğurlu bir Günəş yap!

*1919*

# O SƏN İDİN...

Mən bir gözəllik heykəli, dilbər, afət bir pəri,
Xəyalımda təsvir edər, durardım çoxdan bəri
Yaraşıqlı, sevimli bir əndam ölçər, biçərdim,
Yanağına, dodağına güldən rənglər seçərdim.
Xəyalımda yaratdığım o gözəllik pərisi,
Qəlbimə çox uyğun, munis görünmüşdü, doğrusu.
O lövhəni ürəyimin özəyinə nəqş etdim,
Sevdim onu, bir mum kimi eşqində söndüm, bitdim.
Ara-sıra xəyalımda canlanırkən o afət,
Önümdə sanki titrəyirdi canlı bir həqiqət.
Nurdan yaranmış əlini sallayaraq deyirdi:
Get, ara bu həqiqəti, taparsan söyləyirdi.
Bir sərsəri məcnun kimi mən də düşdüm çöllərə,
Bu gizli sirri söylədim dağa, daşa, ellərə.
Bir çox rəssam sərgisini dolaşdım ölkələrdə,
Mən o canlı həqiqəti tapmadım heç bir yerdə.
Hər gözəli görüncə mən, o lövhəni anardım,
Gündüz günləri, ayları, gecə ulduz sanardım.
Aylar, illər keçdi ancaq, o rəsmə bənzər afət,
Tapılmadı, yaranmamış böyləsi derdim, əlbət.
Ürəyimdə lakin o bir günəş kimi parlayar,
Qızğın sevgi, parlaq ümid, qartal qüvvətli inan[1].
Səslənirdi: ümidini qırma, haydı, get, ara!
Mən də möhkəm etiqadla arayırdım daima.
Ox, mələyim, o uğurlu saatda ən nəhayət,
Parladı bir günəş kimi izlədiyim həqiqət.
Şaşqın-şaşqın hey baxırdım, ey qəlbimin əməli,
O həqiqət sən idin, ey gözəllik heykəli!

*1919*

[1] Etimad, inam

## HƏYAT – SEVMƏKDİR

Qurumlu bir ocaq kimi fikrimə his çökmüşdü,
Qanadlanan ümidimi qırıb yerə tökmüşdü.
Çırpınırdım burağanlı fırtınalar içində,
İstəklərim, diləklərim həpsi gözüm önündə
Yaralanmış bir quş kimi yerdə sürüklənirdi.
Yıldırımlı buludlar da fikrimlə əylənirdi.
Kölgəm kimi arxam sıra qoşan qara günlərim,
Bir an məndən ayrılmazdı, daşıyordu kədərim.
"Həyatımdır bu, – deyirdim, – könül buna darılır
İnsan neçin bu ilana dilək qədər sarılır?
Yoxluq, ölüm şərəflidir böylə çirkin həyatdan,
Kərtənkələ, soxulcanmı yerdə sürünsün insan?"
Vücudumda üsyan etmiş qüvvələrim söndükcə,
Həyatımın o yıpramış yarpaqları döndükcə,
Əzilirdim, sönüyordum, nifrət derdim həyata,
Göz qapamaq istərkən bu zindanlı kainata,
Birdən-birə kipriyimə lətif bir şey toxundu,
Qulağımın ucunda pək dadlı nəğmə oxundu.
İçimdə bir günəş doğdu, qəlbimə nur saçıldı,
Qarşımda həp başqa dünya, başqa cənnət açıldı.
O cənnətdə sən göründün, əlində qönçə çiçək,
Ufaq, ufaq addımlarla irəllədin, gülərək:
O çiçəyi mənə verdin, bilməm nə söylədin sən,
Birdən-birə pəri kimi qeyb oldun gözlərimdən.
Sən qeyb oldun, əvət, mən də kəndimi qeyb etmişdim,
Xəyalına dalmış, bilməm nerelərə getmişdim.
Ayıldım da o verdiyin qönçəciyi qoxladım,
Həyat nədir, duydum, onu pək yaxından yoxladım.
Həyat – sevmək, pəriciyim, sənin üçün yaşamaq,
Gecə-gündüz çalışaraq sənə qovuşmaq ancaq.
Bax, bu dadlı həqiqəti həp sən mənə anlatdın,
Acı, sönük həyatıma işıq saçdın, bal qatdın.
Sən sevdirdin o iyrənib çeynədiyim həyatı,
Gözümdə sən şirinlətdin bu isli[1] kainatı.
Mənə yeni həyat verən, günəş verən sənsən, sən!
Sevmək – iştə yaşamaqdır, yaşamayır sevməyən!

*1919*

---
[1] Qaranlıq

## UNUDULMUŞ PARÇALAR

Bağrımı qan eyləmiş ay üzlü bir gül yanaq,
Mən ölməsəm, vüsalı nəsibim olmayacaq.
Bəlkə dodaq-dodağa öpüşəydim onunla,
Kuzəgər torpağımdan yapsaydı tazə bardaq.

* * *

Mən hər zaman dənizlərin daşğın, coşqun sularında,
Öyrənirəm çarpışmağı yeni həyat yollarında.
Göstərdiyim hünər, qüvvət azmı şeydir? Sanma qolay,
İnan, qorxmam, dünya mənə qarşı çıxsa alay-alay.
Bilirəm ki, iradəm var,
Əzmim hər qüvvəti yıxar!
Mən əsəbi dalğayam ki, yüksəlirəm bir dağ kimi,
Ən sarsılmaz qüvvətləri oynadıram yarpaq kimi.
Dalğalardan bac alıram, əzmim mənə baş əyəndə,
Martı kimi yüksəlirəm fırtınalar göbəyində.

*1919*

## ŞƏRQ GÖZƏLİNƏ

Şəfəqlər sökərkən öpüşlərindən
Yaranmış al, incə yanağın sənin!
Çiçəklər açarkən gülüşlərindən
Doğmuşdur o qönçə dodağın sənin!

Göylərdə ulduzlar oynar, uçarkən,
Yamacda ceyranlar ürküb qaçarkən,
Qaranlıq gecələr sövda saçarkən,
Doğmuş zülfün, gözün, buxağın sənin!

Hər səhər saçını nəsimlər darar,
Üzünü, gözünü şəfəqlər yuyar,
Alnını aydınlıq öpərək oxşar,
Gözəllik suyudur bulağın sənin.

Pərilərdən sordum – çiçək, dedilər,
Çiçəklərdən sordum – mələk, dedilər,
Ay, ulduz, ülkərdir gərək – dedilər,
Nəsən, heç verən yox sorağın sənin!

Çocuqkən eşitdim: – Qoca nənələr,
Aşıqlar, igidlər, yaşlı dədələr,
Odlu dillər töküb nəql edər, söylər –
Divlərin dizləri otrağın sənin!

Bir zaman olmuşdun Şərqin əsiri,
Şimdi çeynər səni Qərbin zənciri,
Ey adaxlısına həsrətli pəri,
Qalx, gətir, nerdə al duvağın sənin!

Həsrətli qəlbində kinlər bəslənir,
Köksündə intiqam odu səslənir,
Qiyam et, hazırlan, nişanlın gəlir,
Al duvağın, şanlı bayrağın sənin!

Qalx, qiyam eylə ey Şərqin gözəli,
Qır səni inlədən o kirli əli,
Çoxdandır səni mən şən görmiyəli,
Parlasın o qızğın ocağın sənin!

*1921*

## ÜSYAN ET

Ey sönük, çürümüş dünya, parçalan!
Qusduğun: əsarət, zəncir, ölüm, qan!

Siyasət yürüdən qaplanlarınla,
Qaplandan yırtıcı insanlarınla,
Zülüm heykəlləri sultanlarınla,
O qanlı tarixin, dövranlarınla –

Ey sönük, əskimiş dünya, parçalan!
Qusduğun: əsarət, zəncir, ölüm, qan!

Yerlərdə sürünsün o iyrənc üzün!
Vulkanla partlasın o bayquş gözün!
Nə kölgən, xəyalın qalsın, nə özün!
Tarixdən büsbütün silinsin izin!

Ey sönük, çürümüş dünya, parçalan!
Qusduğun: əsarət, zəncir, ölüm, qan!

Yıxıl ki, insanlıq sevinsin, gülsün!
Gözümüz bəxtiyar bir dünya görsün!
Azadlıq hər yerdə hökmünü sürsün!
Başına bir zəfər çələngi hörsün!

Ey sönük, çürümüş dünya, parçalan!
Qusduğun: əsarət, zəncir, ölüm, qan!

*1921*

## GƏNCLİK MARŞI[1]

*Ali Pedaqoji İnstitutun tələbələrinə*

Bizik bilik, şan ordusu, Azərbaycan ordusu.
Qaranlıqlarla çarpışan elm, ürfan ordusu.

Köhnə, çürük qüvvələri parçalayıb yıxan biz,
Şimşək kimi parıldayan, ildırım tək çaxan biz,
Daşqın, coşqun sellər kimi hər tərəfə axan biz,
Bizik nurlu aləm quran azad insan ordusu.

Sevgi, atəş ocağıdır Azərbaycan ölkəmiz,
Şərqə, Qərbə işıq saçan, atəş yakan bizik, biz.
İgidlikdə, hər sənətdə ad çıxarmış nəslimiz.
Bizik bilik arxasınca gedən ön, şan ordusu.

Üstümüzdə dalğalanır nur saçaqlı bayrağımız,
Elmsizlik, istibdaddır bizim böyük yağımız.
Yorulmadan çarpışaq ki, parlasın ocağımız.
Bizik qaranlığı qovan, nur saçan dan ordusu.

*1921*

[1] Marşın musiqisini Ü.Hacıbəyov bəstələmişdir.

# SAVAŞ

*Köçəri həyatından*

Yenə səssiz, cansız yurdlar qol atmışdı hər yana,
Alaçıqlar muncuq kimi düzülmüşdü yan-yana.
Göy üzündə şux ulduzlar şən-şən oynar, axardı,
Vərəm almış gəlin kimi ay da solğun baxardı.
Sağılmışdı sürü, naxır, çatılmışdı ocaqlar,
Süd bişirdi, səs-səmir yox, heyvan güdən uşaqlar
Bir təpənin ətəyində od qalayıb isinir.
Qara qoçdan, boz buğadan, təpəl kəldən arabir
Söz açaraq hər birini öyür onlardan biri,
Sonra şənlik, oyun səsi bürüyür o çölləri.
Ağıllarda quzu, oğlaq, buzov qəmli mələşir,
Orda-burda yorğun itlər yarımağız hürüşür.
Alaçığın arxasında halqa vurmuş kəndlilər,
Toplanaraq hər biri öz gəncliyindən bəhs edər.
Qız-gəlinlər lalə kimi qızarır bir təpədə,
Onlardakı kef, nəşədən ulduzlar düşmüş dərdə.
Gizli-gizli bir-birinə gözlərini qırparlar,
Qibtə edər kimi göydən yer üzünə baxarlar.
Yaşıl yurda sanki göydən pərilər nur sağardı,
Fəzalarda əriyərək damcı-damcı yağardı.
Dağ və meşə çiçəkləri onu əmər kimiydi.
Təbiətin gizli, dərin əsrarını bax indi
Ortalığa açacaqmış sanki bir ülvi qüdrət,
Hər tərəf göz-qulaq olmuş, hər şeyi almış heyrət.
Elə bu vaxt alaçıqdan bir boz kölgə fırladı.
– Quduz dəymiş, itil! – dedi, “Şıraq!” – bir səs gurladı.
Sonra isə bir köpəkcik zingildəyib bağırdı.
Sanki bütün yurd xalqını imdadına çağırdı.
– Ox, Alabaş! Kimdir vuran?
– Süd içirdi, vurdum mən!
– Sənmi vurdun? İt vurulmaz! – “Şıraq” – Get bir də öyrən!
Səs-küy qopdu, bir-birinə dəydi titrək kölgələr,
Bir az sonra o ortalıq kəsilmişdi bir məhşər.

Şıraq, şıraq... çomaq səsi, şillə, yumruq, ah, şivən.
Təbiət də şaşırmışdı bu dəhşətli səs-küydən.
Yerdən, göydən çomaq, mizraq üst-üstündən yağırdı.
İnsanların yaşadığı ilk dövrü andırırdı.
Köpək səsi, insan səsi qarışmış bir-birinə...
Bir az sonra təbiətə sükut çökmüşdü yenə.
Dalğın-dalğın yuxlayırdı hər yan, yalnız arabir
Çadırlardan acı, həzin iniltilər yüksəlir,
Göy üzündə şux ulduzlar yenə şən-şən axırdı.
Gözlərinə yuxu girmiş xəstə ay da baxırdı.
Uzaqda bir tütək səsi yana-yana inlərdi,
Mürgüləyən təbiətə qəmli layla söylərdi.

*1921*

## SEVGİ HAKİM OLMALI

Harda azad bir ölkə var – o yerləri şənlədən
Sevgi, məhəbbətdir ancaq, şer ilə həm şairdir.
Haqsızlığı hakim edən ədalətsiz qüvvətdir.
İnsanlığı odur hər an öksüz kimi inlədən.

Zor, güc hakim olan yerdə çiçəklənməz məhəbbət!
Ürək bir nur ocağıdır – qaranlıqdan xoşlanmaz.
Ruh ki həyat çırağıdır – sönər, o yerdə yanmaz.
Zülmətlə nur bir araya girməz, bu bir həqiqət!

İnsanlığa qüvvət deyil, qoy sevgi hakim olsun!
Qara qüvvət bir şam kimi əriyərək qoy sönsün!
Lüğətlərdən zülmün adı gərək silinsin bütün!
İnsanlığın qəlbi, ruhu sevgilər ilə dolsun!

*1921*

## QIZIM ALTUNSAÇA

Zalım əcəl, bağçamdan qopardı şən gülümü,
Bahar ikən susdurdu o körpə bülbülümü.
Qaraldı gözlərimdə artıq bütün kainat,
Nə günəş var mənimçin, nə də dadlı bir həyat.
Hər şey gözümdə bir heç, hər yer mənə bir matəm,
Sanki dönər başıma laqeyd olan bir aləm.
Ey ruhumun çırağı, sürünürəm yarımcan,
Ya al məni yanına, ya baş qaldır məzardan.
Şən ömrümün günəşi gömüldü şüm torpağa,
Baharımın çiçəyi döndü quru yarpağa.

*1921*

## BİZİMDİR

Bu gördüyün şən-şən ellər bizimdir!
Qarlı dağlar, coşqun sellər bizimdir!
Bizimdir bu əngin, atlas ovalar,
Qoynunda qartal bəsləyən qayalar,
Şux səslərlə dolu isti yuvalar,
Daşqın çaylar, durğun göllər bizimdir!

Uçurumlu göy dərələr, ormanlar,
Yamacında tütək çalan çobanlar,
Ətəyində dalğalanan heyvanlar,
İldırımlı dağlar, çöllər bizimdir!

Rüzgar oynar dərəsində, dağında,
Quşlar ötər çəmənində, bağında,
Qönçə güllər açar hər budağında,
Şən bülbüllər, dadlı dillər bizimdir!

Lalə üzlü qızlar, canlı çiçəklər,
Şux gəlinlər, sevgi doğan gərdəklər,
Şən balalar, dağ gövdəli erkəklər,
Sadə, təmiz, saf könüllər bizimdir!

*1922*

## HƏR ŞEY VAR

Bu ölkədə nələr yoxdur görənə?
Hər yan, hər şey bir-birindən gözəldir.
O qartallı dağlara sor, nə deyir:
Yüz min bahar gördüm, gəncəm bax yenə.

Baxsanız o beli çökmüş yamaca,
Sinəsində şən quzular bəslənir.
Çoban oxur, çalır, dağlar səslənir,
Nə anladır o kəkliklər turaca?

Göy yamacın ətəyində kəndciyəz,
Dörd yanında dalğalanır tarlalar,
Ətir saçan çöl-çəmənlər, ovalar,
Yaşıl bir atlasdır – ucu görünməz.

Bağlarında, bax, gül-gülü çağırır,
Ətək-ətək noğul səpər hər ağac.
Dağ başından günəş baxınca qıyğac,
Quşlar durmur, sərsəm kimi bağırır.

*1923*

## BİR AZ DA ATƏŞ QAT

*Gənc xanəndəmiz Bülbülə*

Nədir, nədir o gözəl səsdə titrəyən fəryad,
Ki, hər təranəsi ruhumda min fəğan oyadır?
O inləyişlər, aman, kimdən istəyir imdad
Ki, qəlbimin içini hey zaman-zaman qanadır?

Neçin, neçin dodağından uçan fəğanlardan
İçimdə dalğalanır ən acıqlı duyğu, kədər?
Neçin, neçin o səni inlədən "amanlar"dan
Gözümdə kölgələnir bir yığın səfil üzlər!

Neçin, neçin o fəğanlar, “amanlar”, gəl, anlat,
Bəlalı Şərqin o keçmiş kədər və matəmimi?
O inlədən səni də qəlbə od vuran qəmimi?

Unut o keçmişi, hayqırma, bitsin əfğanlar,
Bir az da gurlasın artıq səsində üsyanlar,
Bir az da nəğmənə qüvvət, bir az da atəş qat!

*1924*

## ƏMƏK PƏRİSİNƏ

Derdim ki, bahar olsun,
Dağlar, dərələr dolsun
Al, incə çiçəklərlə.

Derdim ki, günəş doğsun,
Zülmətləri qoy boğsun,
Nur saçsın ətəklərlə.

Bir səs dedi: ey qafil,
Hər meyvə olur hasil
Zəhmətlə, köməklərlə.

Qış getdi, bahar oldu,
Çöllər, təpələr doldu
Şən üzlü mələklərlə.

Alqış sənə, ey zəhmət!
Dünyaya saçan nemət
Sənsən bu əməklərlə.

Gündən-günə ol qadir,
Çarpışmağa sən hazır
Yerlərlə, fələklərlə.

*1924*

## AZADLIQ PƏRİSİNƏ

Bahar gəlir, dərələr
Çiçəklənir, güllənir,
Bülbüllər axşam-səhər
Budaqlarda dillənir.
Hamısı bir ağızdan
Düzür bahara dastan.

Günəş doğur, şəfəqlər
Üfüqlərə yayılır.
Quşlar tutunca xəbər,
Yuxusundan ayılır.
Şənləndirir hər kəsi
Bir musiqi məclisi.

Mənim də var baharım,
Çiçəklərim, günəşim.
Qəlbim, ruhum, şüarım.
İsindirən atəşim:
Azadlığın şən qızı,
İnsanlığın ulduzu!

*1924*

## SƏNƏT NƏĞMƏSİ

*Əl işi məktəbində çalışan qızlara*

Əl işi çox gözəl, incə sənətdir,
Çalış, iynəm, çalış, yarat, gözəl tik!
Bu sənətdə işlənilən incəlik
Yalnız qadınlara məxsus nemətdir.

Bir qumaşa əlvan rəngli və saysız
İpəklərlə gözəl şəkil işləmək,
Quş, kəpənək, meşə, ceyran, qız, çiçək
Yaratmaq da bizim, bizim payımız.

Çalış, iynəm, çalış, yarat, gözəl tik!
Hər ailə, hər ev qoy başdan-başa
Bürünsün bu gözəl, incə qumaşa.
Göstər nədir sənət, nədir gözəllik.

*1926*

## GÖZLƏR

Qıvırcıq saçının şux tellərində
Ülkər tək parlayıb axan, a gözlər!
Dumanlı ömrümün boz çöllərində
Şimşək tək oynayıb çaxan, a gözlər!

O gözdə incə bir sirr var, bilinməz.
O necə baxışdır, izi silinməz?
Ah, ona heç bir göz qarşı gəlinməz.
Nədəndir doymaz hər baxan, a gözlər!

O gözdə çox dərin bir ülviyyət var.
İncə minyatürlük, uca sənət var.
Həyat var, ziya var, həm hərarət var.
Ruhumda bir çıraq yakan, a gözlər!

O gözü tanıram kiçik yaşından,
Uzun kipriyindən, qələm qaşından,
Görüncə vuruldum ürək başından,
Bir gündə gəl etmə min qan, a gözlər!

*1926*

# XIRÇIN[1] QIZ

Deyirdi ki: – Məsud olmaq mənim böyük diləyim.
Yaşamaqdan yalnız budur son qayəm, son istəyim.
Bir gün yaxalasam onu, ayrılmazdım ölüncə.
Ruhum titrər başqalarda o afəti görüncə.
Bilsəm harda, qovuşmaqçın dağ, dənizlər aşardım,
Hətta qorxunc, ölüm üzlü qütblərə qoşardım.
Sürünərək ilan kimi sarılardım boynuna.
Gülə qonmuş bir şeh kimi atılardım qoynuna.
Artıq həyat nədir, anlar, məsud yaşardım bir az.
– Ey gənc qız, dur! Bəxtiyarlıq uzaqlarda aranmaz!
Onu get öz evində tap, axtar doğma yurdunda.
Çalış, çalış, əmək sərf et səadətin uğrunda.
O da səhər günəşilə şux üzünə gülümsər.
O səmimi bir dost kimi sənə anladır nələr:
"Ay qız, mənə sarıl, – deyir, – yaşayaq gəl birlikdə.
İncəliklər anladım ta bu saf, sadə dirlikdə.
Bax bir yanda tarla, dəzgah, əməkdən damlayan tər,
Bir yanda həm şən ailə, çocuq, ana, şux səslər".
– Yox, yox, bunlar bir misaldır, mənim həyat haqqında
Nəzərim lap bam-başqadır, bu fikrindən saqın da!
Mən istərəm xülya kimi keçsin bütün günlərim,
Bir adilik duyulunca asi olur, inlərim.
Həyat nədir? Bir qayəsiz xülya, röya... o məncə.
Vur patlasın, çal oynasın, hər gün, hər an əyləncə.
– Həyat xülya deyil, quzum, o şüurlu adımla
Bir qayəyə doğru yürür, onu izlər daima.
Yaşamaq, həm yaşatmaqdır...
– Bu fikir çoxdan bəlli.
O şüursuz bir qayədir, qayəsiz bir təsəlli...
Doğru, həyat yaşatmaqdır, fəqət yalnız özünü,
Hər gün təzə libas geyib bəzəmək üz-gözünü.
Sadəlikdən heç xoşlanmam, adilikdən zövq almam,

[1] Tərs, ədabaz

Başqalıqdan həzz alıram, əyyaşlıqdan yorulmam.
Mən istərəm böyük, kiçik yalnız məni dinləsin.
Mənə baxsın, məni sevsin, mənim üçün inləsin.
Mən də zövq aləminə, eyşə, qürura dalım.
Doya-doya ömür sürüb ondan şirin kam alım.
– Nifrət, sənin gənc ömrünə ağı qatan əllərə!
Nifrət, sənin saf ruhunu bulandıran dillərə!
Nifrət, nifrət, qadınlığın o uğursuz qurduna!
Yazıq olsun insanlığın pəri görməz yurduna!

*1926*

## ƏMƏKÇİ QADINLARA

Qadın, ey böyük insan, parla yüksək adınla!
Bizim yeni quruluş yüksələcək qadınla!
Köhnə, çürük cəmiyyət xor baxardı qadına,
Yaraşmırdı o təhqir onun yüksək adına.
Alın təri tökərək çıxmamışdı araya,
Girməmişdi əməkdə erkəklə bir sıraya.
Uçurumlu həyatın eniş-yoxuş yolları
Titrədirdi o gücsüz ayaqları, qolları.
Qadınlığın önündə bu gün geniş bir yol var.
Erkəklə bir sırada o çalışar, çapalar.
Uçurumlar adlayan, ey möhtərəm qadın, sən
Əməyinlə yüksəlmək bu gün haqqın, vəzifən!
Sən varlığınla sarıl biliyə və zəhmətə,
Vücudun və qolların dolsun sağlam qüvvətə.
İşlə, çalış, qur, yarat, parlat yeni mühiti.
Göstər sən də paslanmış istedadı, qüdrəti.
Çalış, çırpın, qanad çal bu kollektiv həyatda,
Sən də göstər özünü bu yeni kainatda.

*1926*

## BÖYÜK SƏNƏTKARA

*Böyük ədibimiz Mirzə Fətəli*
*Axundovun yubileyi münasibətilə*

Hörmət sənə, böyük şair,
Hörmət açdığın yola!
Hörmət sənət sahəsində
Güllər saçdığın yola!

Sənin nadir istedadın
Səhnəmizi yaratdı.
Acı, kəskin gülüşlərin
Həqiqəti parlatdı.

Yeni, canlı sənətimiz
Səndən ruh aldı yalnız.
Hörmət sənə, böyük şair,
Hörmət, ey parlaq ulduz!

*1928*

## GƏNCLƏRƏ

Qızıl əsrin övladı, sən əsrlər aşaraq,
Eniş-yoxuş yollarda sellər kimi coşaraq,
Yeni doğan günəşin çiçəkli yollarında
Əmə-əmə nur, şəfəq yetişdin qollarında.
Əsrin qidalarilə qüvvət aldın, canlandın,
Bilik fəzalarında bir günəş kimi yandın.
Şəfəqlərdən hörülmüş, ey sarsılmaz silsilə,
Yaraşır desəm sizə günəşdən bir qafilə.
Sizin ilə canlanar yeni əsrin həyatı,
Qurşandığın silahla parlaq bu kainatı!
Arş irəli, keçdiyin yerlər səni alqışlar!
Qızıl əsrin tarixi hümmətinizlə başlar!

*1929*

## ÜÇ LÖVHƏ

### I

Sıtmalı[1] təbiət inlərdi yorğun,
O coşqun dənizlər göl kimi durğun,
Kainat sanki bir gözələ vurğun –
Hər şeydə sevdalı bir göz var idi.

İsti bir ruzgardan hey için-için
Yer, göy bir qor kimi yanırdı neçin?
Çöllərdə susmuşdu qumru, bildirçin,
Onlarda mənalı bir söz var idi.

Üfüqlər dalğındı, göylər ləkəli,
O xəstə ağaclar bayğın, kölgəli,
Ortaya şübhəli sükut çökəli,
Zülmətlə çarpışan gündüz var idi.

Şahinlər yüksəkdə süzər kimiydi,
Bayquşlar şum röya görər kimiydi,
Atəşdən bir pəri gülər kimiydi,
İçində alışan bir göz var idi.

### II

Mehvərmi ya pozuldu, məhşərmi qopdu, bilməm?
Mərrixəmi[2] toxundu ölgün duran bu aləm?
Dünyamı sarsılırdı, ruzgarmı rəqs edirdi?
Göylərmi parçalanmış, yerlərmi titrəyirdi?
Hürmüzlə Əhrimənmi çarpışırdı meydanda?
Günəşli bir səhərmi başlanırdı cahanda?
Dünyanı alt-üst edən bilməm ki, hansı qüvvət?
İnlərdi pəncəsində sərxoş kimi təbiət.

---

[1] Xəstə, düşgün
[2] Mars ulduzunamı

Dikbaş, qürurlu çamlar titrərdi zanbaq kimi,
Daş ürəkli qayalar uçurdu yarpaq kimi.
Sel, vulkan fışqırırdı yerin həyat damarı,
Kökündən devrilirdi kürənin şah dağları.
Çürük, cansız kötüklər için-için yanırdı,
Bir inqilab içində hər şey yuvarlanırdı.

**III**

Yenə göylər geyindi atlas don.
Yenə yerlər səfa içində üzər.
Yenə hər şey təbiətin ən son
Canlı bir musiqisini dinlər.

Nur, şəfəq, rəng, hava, dəniz, göy, yer
Nazənin bir şer qədər parlaq.
Bir şerdən də incə, həm dilbər
Şux təbiət belində al qurşaq.

Bir gözəllik həyata ruh olmuş,
Elə bir ruh ki, nur kimi əmilir.
O qədər xoş ki, hər baxış və duruş
Canlı ilham qədər sevimli gəlir.

*1929*

## GƏNC MÜƏLLİMLƏRƏ

*Pedaqoji texnikumun on illiyi münasibətilə*

– Dünən artıq bir uşaqdın, qansız, cansız, çəlimsiz!
Ərimiş bir kölgə kimi uçmuş idi bət-bəniz.
On il əvvəl görmüş idim iməklərkən səni mən.
Küskün, darğın inləyirdin, heç görmədim səni şən.
Həyata göz açmış hələ körpə idin o zaman,
İndi həyat fışqırır, bax, o al yanaqlarından.
Üz-gözündə bir mətanət, dərinlik və səfvət[1] var.

[1] Paklıq

Şən alnında bilgi, zəka ulduzları parıldar.
Anlat mənə, hardan doğdu alnındakı bu ulduz?
Hardan sənə bu başqalıq?
– Bu başqalıqlar yalnız
Bu alnımda doğan yeni günəşdən bir şəfəqdir,
Parlaq ismi inqilabdır, zülmətləri inlədir.
Mən də onun ildırımlı qucağında bəsləndim.
Şimşək kimi işıqlandım, vulkan kimi səsləndim.
Şaşqın, yorğun gözlərimə nur səpdi bu afitab,
Mənə qüvvət, səfvət verən inqilabdır, inqilab!

*1929*

## GƏNC QƏLƏMLƏRƏ

Güclər yenən, fəzaları da sarsıdan səsin
Mən istərəm ki, ruhumun üstündə titrəsin.
Sübhün üfüqlərindəki daşqın şəfəq kimi,
İlham verən o səslə qurulsun könül simi.
Olsun o səs ayım, günəşim, asimanlarım,
Şimşəklərim, qasırğalarım, kəhkəşanlarım.
Sübhün bahar nəfəslərini andıran o səs
Hər oxşadıqca ruhumu, aldıqca hər nəfəs,
Sarsın bütün vücudumu sönməz bir ehtizaz.
Köksümdə saz kimi bu könül oynasın bir az.
Qarşımda bir yeni, əbədiyyətlə parlayan
Şux lövhələr açılsın; o şimşəkli, gurlayan
Səslərlə oynasın ürəyin incə telləri.
Kimdir çalan, bu hansı füsunkarın əlləri?
Ey mənliyim, əməl günəşim, fəcrim[1], ülkərim,
Kəskin səsinlə canlanır artıq şerlərim.
Eşqinlə bu tənəffüs edən sənətim saqın,
Ayrılmasın o səsdən aman! – Fəcrə ən yaxın
Ulduzlu bir səma kimi üstümdə titrəsin!
İlhamımın xəzinəsi olsun o gənc səsin!

*1930*

[1] Sübh çağı

# O BAXIŞLAR

O hərarətlə sevdiyim gözünü
Yenə üç-dörd gün oldu görməyəli.
Görərəm hər çiçəkdə mən izini,
Qəlbimin ey sevimli şah əməli!

Kim bilir, yollarında, ey rəna
Yüzlər ilə boyun bükənlər var.
Ah, o göz dikdiyim baxışlarına
Neçə min başqa göz dikənlər var.

Kim bilir, hər gün öpdüyüm baxışın
Nə qədər ruha saplanıb qalmış.
O nəsim, o hava kimi axışın
Kim bilir, sevgilim, nələr çalmış?

Səndə incə, sevimli, cazibədar
Bir baxış var ki, az gülər üzümə.
Həm də şimşək kimi bir an parlar,
Sönər artıq gəlincə mən özümə.

O baxışlarda çırpınan ürəyim
Diləyir gözlərindən hey imdad.
Qəlbimi aç, görərsən, ey diləyim,
Sızlayır hər telində min fəryad.

O baxışlarda sübhdən parlaq
Bir ziya var, büllurdan daha saf.
O baxışlarda dalğadan oynaq
Bir şəfqət var ki, nurdan şəffaf.

Elə bir incə şersən ki, sana
Ürəyim ilk baxışda ovlandı.
Şairə can verən baxışlarına
Baxsana, sənətim də bağlandı.

*1932*

# İLHAM QAYNAĞIM

1905 mənə verdi sənət şövqünü,
O ziyalı iksirdən mən də aldım qol-qanad.
Duydurmuşdu göylərə ucalmanın zövqünü
Sevgi, inam və ümid aşılayan bir həyat.
Mindim xəyal yürüşlü ilhamımın altına,
O buludlu fəzanın atıldım üst qatına.

Olmuşdu cövlangahım aydınlıqlar yatağı.
Qaynaşan yer üzünə yüksəklərdən baxırdım.
Sevinirdim yandıqca gündüzlərin çırağı,
Əngin fəza qoynunda ulduz kimi axırdım.
İldırımlar, şimşəklər oynaşırdı köksümdə,
Çılğın bir div nərəsi inləyirdi səsimdə.

O yerləri həqiqi cənnət sandım bir zaman.
Alovlu şimşəkləri fırlatdım sağdan sola.
Şəfəqlər dənizində baş vurdum hey durmadan,
Buludlarda dolaşdım şimşəklərlə qol-qola.
O boşluq ölkəsində aradım hər bucağı,
O yerlərdə görmədim bir səadət qucağı.

Mən də bir müddət oldum səmaların şairi,
Sərab kimi görünən boşluqlarda yüksəldim.
Üşüdürdü qəlbimi soyuq fəza şəhpəri,
Öz içindən alışan havasız bir məşəldim.
Dolaşırdım dumanda yoz azmış bir qaz kimi.
İnləyirdim günəşsiz, buludlu bir yaz kimi.

Vurulduğum həqiqət məgər ki, bir xəyalmış,
Artırdı gündən-günə məndə tərəddüd, şübhə.
Deyirdim: ah, o sevgi, inam, ümid yalanmış?
Dalğınlaşırdım artıq aylar, illər keçdikcə.
Girdim çılğın ruzigarın xəyal kimi gözünə,
O boşluqlar yurdundan endim bu yer üzünə.

Qasırğalı çöllərdən, qarlı dağlardan aşdım,
Endim, cıdır oynadım boz qayalar boynunda.
Bağçalarda bülbüllər dəstəsinə qarışdım,
Ötdüm qırıq saz kimi çiçəklərin qoynunda.
Dərələrdə inlədim yorğun qasırğa kimi,
Sahillərdə oynadım əsəbi dalğa kimi.

Uğurlu bir burağan
Aldı məni durmadan
Atdı coşqun dənizə,
Köpüklərlə üz-üzə
Dalğalara qarışdım,
Martılarla yarışdım,
Dəniz kimi çalxandım,
Şəfəqlərdə yıxandım,
Al günəşlə əl-ələ
Çıxdım ordan sahilə.
Doğmuşdu bir şən həyat,
Qaynaşırdı kainat.
Şəfəq güldü üzümə,
İşıq gəldi gözümə.
İndi hər uzaq, yaxın
Qarşımda açıq, aydın.
Nə şübhə var, nə kədər,
Bu gün şerimə rəhbər
Qəlbimdəki şölədir,
Qalib, qadir kütlədir.

*1932*

## MƏN DƏ QAYALARIN YALÇIN BAŞINDA

Mən də qayaların yalçın başında
Qartal kimi döyündüm.
Əfsanələr duydum hər dağ-daşında,
Köküs dərdim, öyündüm.
Çox gənc ikən qüvvət gəldi bacağa,
Uca təpələr aşdım.
Dırmandım sel çağlayan dik bir dağa,
Buludlara yanaşdım.
Şaşqın-şaşqın o sahilsiz fəzaya,
Baxdım bir az diqqətlə,
Cadu gözlü, əngin, ülvi səmaya
Daldım dərin heyrətlə.
O yurdu seyr etdim incədən-incə
Qəlbimdə odlu duyğu.
Çocuqluqdan rəhbər olan düşüncə
Mənə verdi bir sorğu.
O sorğunu göyə verdim, sağırdı[1].
Eşitmədi, bağırdım.
Dilsiz göylər qayalardan ağırdı,
Yıldırıma hayqırdım.
Baxdım, artıq o ülviyyət içində
Bir tükənməz boşluq var.
İnandığım sərmədiyyət[2] içində
Bir əbədi yoxluq var.
Tapındığım o nur saçan fələklər
Məndə şübhə doğurdu.
Eşqindən ilham aldığım mələklər
Artıq məni boğurdu.
Üzü quylu duran qübbə göylərdə
Baxdıqca boş dərinlik.
Atəş yurdu sandığınız o yerdə
Bir yaxıcı sərinlik.

---

[1] Kardır
[2] Əbədilik

O boşluqlar yalnız mənə duyurdu
Bir çox canlı həqiqət.
İçimdə bir qüvvətli səs buyurdu:
O "varlıq", "sərmədiyyət"
Yalnız sənin, sənin ağlın, zəkandır,
Ötmə qırıq saz kimi.
O boşluqlar diyarı bir ümmandır,
Dumanlıqda qaz kimi.
Ora girən şaşırır yol-izini,
Sən ağlınla iman et!
Aldanma hissə, aç ağılın gözünü,
Get özünü ümman et!
Şübhə, tərəddüdlər məni boğmuşdu,
Birdən-birə bayıldım.
Beynimdə odlu şimşəklər doğmuşdu,
Son çaxışda ayıldım.
Can gözüylə bir də baxdım, o göylər
Heç göründü gözümə.
Yalnız ağlım olmuşdu mənə rəhbər,
İnandım mən özümə.
Qüvvət duydum cılız bacaqlarımda,
Qarşımda həp yeni yol.
Yeni odlu nəğmə dodaqlarımda
Mənə dedi ki: doğrul!
Yeni yolçu, uğur olsun səfərin,
Yürü, yollar genişdir.
Qorxma, ayaq basdığın bu yerlərin
Yalnız başı enişdir.
O düşdüyüm yerdən qalxdım, doğruldum,
Qəlbim yanar məşəldi.
Gözlərimdə parıldayan nur buldum,
Bildim ki, hansı əldi.
Hansı əldi bu gün məni dikəldən,
Köküs gərdim, öyündüm.
Mən də yalçın qayalarda çocuqkən
Qartallarla böyüdüm.

Endim ordan atlas yamac belinə,
Getdim sürüyə qarşı.
Toxunduqca çoban sazın telinə,
İnlədirdi dağ-daşı.
Odlu addımlarla ona yaxlaşdım,
Yer göstərdi yanında.
Ruhumdakı o qüvvətə mən şaşdım,
Atəş vardı canımda.
Çalır, oxur anladırkən bir dastan,
Oynayırdı gözləri.
Qəlbimə çox toxunmuşdu o zaman,
Anlatdığı sözləri.
Aldım mən də el sazını əlimə,
Mən çaldım, o dinlədi.
Od düşmüşdü ürəyimə, dilimə
İçin-için inlədi.
Pək gənc ikən o zamandan bəridir,
O tikansız yollarda,
O saçdığım toxumların bəridir[1]
Sağlarda və sollarda.
Mən də qayaların yalçın başında
Qartal kimi döyündüm.
Əfsanələr duydum hər dağ-daşında
Köküs gərdim, öyündüm.

*1932*

---

[1] Meyvəsidir

## ŞAİRİN ŞAİRƏ TƏSƏLLİSİ

Ey könüllər mühəndisi şair,
Qələmin öylə incə bir sahir.[1]
Ki üzündən axan o rəng, ziya,
Yaradır hər zaman yeni dünya.
Bir günəşdir böyük dühan, hünərin,
Bir bədiə[2] sevimli hər əsərin.
Onda ağlar, gülər tülu, qürub,
Onu oxşar səba edincə hübub[3].
Onda coşqun şəlalələr çağlar,
Bəzən irmaq kimi həzin ağlar.
Ya üfüqlərdə parlayan yaqut,
Ləl, almas, şəfəqli incə bulud.
Ki ziya, rəng qaynayır və daşır,
Lövhələr şərh edər ki, göz qamaşır.
Onda şux qızların düyünləri var,
Bəzən axşam qəmi kimi sızlar.
Sənətində lirizmdir həp əsas,
Yazdığın hər əsər birər Almas.
Pənbə fəcrin şəfəqlərindən şən,
Canlı, rəngli, çiçəkli bir gülşən.
Uca sənət fələklərində əgər
Söndü isə işıqlı bir əxtər,
Sən yaşa, səy, hümmətin yaşasın!
O dühan, canlı sənətin yaşasın!
Yaşasın qəlbinə işıq sərpən,
Dişi, aslan ürəkli Şükriyyən.
Tukay, Aydın, Niyazi, bax bunlar
Yaşasın sayənizdə bərxudar[4].
Yaşasın sənətin, dühan, hünərin,

---

[1] Sehrkar
[2] Nadir şey
[3] Küləyin əsməsi
[4] Xoşbəxt

Yaşasın qəlbi coşduran əsərin.
Şairin şairə təsəllisi,
Hüzn, matəmlə çırpınan bu səsi,
Ürəyindən silərsə hüzn, kədər
Yaradır fırçanız düyünlü səhər.
O düyünlü səhər payın, hissən,
Sənə qəm heç yaraşmayır, ol şən!

*1934*

## AİLƏ HƏYATIMIN ON ALTI İLLİYİ

*Səməd Vurğuna ithaf edirəm*

Vurğunum, get-gedə gəncləşir könül,
Ömrümün bağçası açır qönçə gül.
Görəli on altı çiçəkli bir yaz,
Daşqın bir dənizəm, könlüm bulanmaz.
Sanmayın saçlarım ağarmış, bozdur,
Bağçada güllərdən qonan ağ tozdur.
Bir təzə baharam, düşsəm də qışa,
Çiçəkli dağlarla girdim yarışa.
Arxamı dayadım ağır ellərə,
Uymadım bulanıq axan sellərə.
Elimi, ölkəmi sevən qəlbim var,
Canımdan artıqdır bu el, bu diyar.
Ürəyim şəfəqdən oynaqdır, şəndir,
Dan yeri sökəndə açan gülşəndir.
İşığı ay, günəş ruhumdan alır.
Ulduzlar gözümdən aydınlıq çalır.
Dünyada nə həsəd bildim, nə də kin,
İpəkdən yumşağam, poladdan kəskin.
Uymadım sərvətə, ada, şöhrətə;
Uymadım yol vuran keyfə, işrətə.
Elimin, ölkəmin doğma oğluyam,
Maskam da olmamış, nəyəmsə buyam!

---

[1] Diriyəm, təzəyəm

Sarsılmaz inamım və iradəm var,
Bunlardır yaşadan məni bəxtiyar.
Hər zaman zindəyəm[1], hər zaman gəncəm,
Şahları mat edən canlı şətrəncəm.
Hey qüvvət alıram sıra dağlardan,
Onunçün qocalmaq bilmərəm, inan!
Vurğunum, olsa da əlli beş yaşım,
Keçmişdə fəlakət çəkdisə başım,
Düşdümsə ən çətin eniş, yoxuşa,
Həyat yollarında mənimlə qoşa
Bu gün ən vəfalı bir yoldaşım var,
Yaşarıq həm sadə, həm də bəxtiyar.
İnqilab içində verdik əl-ələ.
Qurduq ən səmimi, sağlam ailə.
Bu gün üç pioner – üç uşağım var.
Qarşımda şən, yeni bir həyat qaynar.
Gül-çiçək açılır gülüşlərindən,
Dan yeri sökülür görüşlərindən.
Alnında parlayır əsrin ulduzu.
İkisi el oğlu, biri el qızı.
Tutmuş əllərindən bu mühit, bir-bir
Onlara həyat və bilik öyrədir.
Vüqarla səslənir: – Atıl irəli!
Gördükcə onlarda coşan hünəri,
Baxdıqca onlara, boydaşlarına,
Baxdıqca səadət saçan hər yana,
Oynadır qəlbimi sevimli bir hal,
Coşur duyğularım, yüksəlir xəyal.
Zehnimdə başqa bir aləm canlanır,
Köksümün içində bir çıraq yanır.
Atalıq qürurum artır get-gedə,
Deyirəm qardaşlıq, dostluq elində
Mən də bir kişiyəm – öz növrağım var,
Üç qızıl əsgərim, üç uşağım var!

*1936*

# REPRESSİYA DÖVRÜ

## BAŞLANĞIC

Siz ey keçən aylar-illər, uzaqlaşan zamanlar,
Gənc ömrümün istəyilə qucaqlaşan zamanlar,
Nərdəsiniz, ah, noldunuz, hankı ünsürdəsiniz?
Anlatınız, varlıqmıdır, yoxluqmu məskəniniz?
Vücudunuz zehnlərdə yaşayan bir xəyalmı?
Ya günəşlər arxasınca sürünən bir zülalmı?
Ya dumanlı keçmişləri sayıqlayan röyadır?
Yoxsa sular kibi axan zamanda bir dünyadır?
Əvət, ağlım, duyğum səni bu gün bir varlıq sanır,
Yaşatdığın mühit kibi səni hörmətlə anır.
Sən nə xəyal, nə röyasan, nə də yoxluq kölgəsi,
Sənsən tarixi əks edən varlıqların gur səsi!
Yaşadığım bu mühitdə belə dərin izin var,
Hər yenilik, hər başqalıq həp əskilikdən doğar.
Həp sənindir bu yenilik, sənindir bu tərpəniş,
Təkamül və inqilabla öz şəklini dəyişmiş.
Doğurmaqdır, dəyişməkdir təbiətin qanunu,
Zamanlar da bu qanuna əymişdir öz boynunu.
Demək, sənsən bu tarixi, gələcəyi yaradan,
Yaşadığım bu mühitə təsirin var, ey zaman!
Odur ki, mən gözlərimdən qaçırmadım yarını,
Sənə saçdım baharımın oynaq yıldızlarını.
Bütün əsrarımı açdım gecə və gündüzlərə,
Sənin səyyar qucağına gömdüm bir çox xatirə.
Bəziləri unudulmuş, xəyal olmuş bir çoxu,
Bir qismi də gözlərimdə mürgüləyən bir yuxu!

*1937*

## XALQ DÜŞMƏNİNƏ

Dayan, dayan, cahil memar, bina, otaq əyridir,
Çünki o əl, o göz, qulaq, o baş, ayaq əyridir.
Bacarıqsız bir memarsan yeni bina qurmaqda,
Ancaq məharətin vardır dağıtmaqda, qırmaqda.
Rəyasətə iştahan var, budur səni qudurdan,
Bu rütbəyə bir təsadüf atdı səni çuxurdan.
Yoxsa səndə nə bilik var, nə şüur, nə bacarıq,
Niyə, rütbəpərəstliyin verdi sənə koxalıq?!
Sən də bunu duyduğunçun tutdun yanlış bu yolu,
Dost adına qırdın, yıxdın, taladın sağı-solu.
Rəyasətdə qalmaq üçün yürütdüyün siyasət
Hər addımda, hər sınaqda verdi min-bir fəlakət.
Tarix bunu göstərəcək, nələr, nələr yapdın sən!..
Ölkəmizdə qulaq batdı acı matəm səsindən.
Cahil, məğrur insanlarda nə ürək, nə vicdan var.
Təbii, boş təbillərin səsi şiddətlə gurlar.
Yaxın-uzaq hər bir dövrü axtardım tarix boyu,
Hər qanlı tac, hər sancağı, zər bir sopu, hər soyu.
Belə vəhşi bir qatilə təsadüf etmədim mən,
Xalqın müdriklərini məhv edirsən kökündən...
Dayan, yetər, cahil sərxoş, zülmün də ölçüsü var,
Uçurumdan sıçramazlar, onun da körpüsü var.
Xaqanlarda görünməmiş bu mənəmlik, bu mənlik,
Xalqın qanlı göz yaşları sənə oldu toy, şənlik.
Cəhalətdən, dayazlıqdan doğar qürur və inad,
Boz dalğalar sahillərdə açar ancaq qol-qanad.
Şahin yerin tutmaq üçün çırpındın, ey yapalaq,
İstəyirdin boş baş ilə tarixdə ad qazanmaq.
Bunu sənin hər addımın, hərəkətin göstərdi,
Tarlasında tikan əkən nə zaman sünbül dərdi?
Göz yaşıyla suvarıldı bu göy tarla, bu xırman,
Yetimlərin ahı ilə işlədi hər dəyirman.
Ziyafətsiz, mey-məzəsiz bir günün varmaz başa,
Sür şüursuz eşşəyini hər enişə-yoxuşa.

Qəhqəhəylə gülər sənə qədəhlərə axan mey,
Dövlət nədir, millət nədir sənin kimi sərxoşa.

*1937*

* * *

Bu qürurlu boyun burulmazmı?
Bu bulanıq sular durulmazmı?
Söylə, ey kinli, qan içən xain,
Zülmə, səbrə nəhayət olmazmı?
Şam ki, pərvanəni yaxar, özü də
Öz odunda yanıb kül olmazmı?
Ey arı, səndə yox laçın qanadı,
Bu fəzalarda o yorlmazmı?
Üzgüçü olmayan dərin dənizə
Girsə, ey "qəhrəman", boğulmazmı?
Kin ilə çapdığın zülüm atına
Bir çidarlı yüyən vurulmazmı?
Gecə-gündüz axan bu al qanlar
Dəniz olsa, yenə sorulmazmı?
Bir zaman haqq-hesab çəkərkən el
Bu cinayətlərin sorulmazmı?
Verdiyin bu cəzalara qarşı
Sənə də məhkəmə qurulmazmı?
Bu qoyun cildinə girən qurdun
Fitnəsi, hiyləsi duyulmazmı?
Bu qədər leş yeyən dərə, uçurum
İntiqam nərəsiylə dolmazmı?
Kim itirmiş mənim itirdiyimi?
Bu xəzan yoldu hər bitirdiyimi.

*1937*

## GƏMİRİK*

Hakimdi yerə-göyə qaranlıq!
Qurmuşdu boran-qasırğa xanlıq!..
İnlərdi həyat ilə təbiət,
Oynardı ölüm, zülüm, fəlakət.
Hər yan uçurum – soyuq, ayaz, don,
Vermişdi həyata sanki bir son.
Yollar qapalı, gələn-gedən yox,
Bu dəhşətə qarşı əmr edən yox.
Canlar da sönük nəfəsdi ancaq.
Ruhlar da quru qəfəsdi ancaq.
Zülmət dənizi coşub-daşırkən,
Kin ilə fəlakət oynaşırkən,
Hər yerdə və hər keçid başında,
Uçqun dərələrdə, dağ-daşında,
Yalnız acı ruzigar uğuldar,
Quldurluq edər acıqlı qurdlar...

* * *

Sərxoş sürücü əlində gəmlər
Ac atlara yağdırır sitəmlər.
Qırmaclar o hər eniş-yoxuşda,
Daşlıqda, düzəndə, bərkdə-boşda.
Köhnə araba içində yüklə,
Yəğma malı, qul, kəniz, beşiklə
Daşlıqlara çarpar şiraq-şiraq.
Sınmış təkəri sürüklər ancaq.
Salmış çölə, dağ-daşa gurultu.
Hər bir ürəyə, başa gurultu.
Dur, ey sürücü! Yükün ağırdır.
Heyvanlarının beli yağırdır.
Yollar uçurum, soyuq, boran, qar,
Çəkməz yükünü bu yorğun atlar.

---

* Gəmirilmiş kəllə

Sürmə, düşün, ey qoca, tələsmə,
Sərsər kimi toz qoparma, əsmə!
Köhnə araba, təkər qızışmış,
Yağ sürtmədən işləyir o yaz-qış.
Atlar gecə-gündüz işləyir ac,
Yorğun ata vurma qamçı, qırmac!
Sürmə, qoca, mənzilin uzaqdır,
Hər bir keçidin başı duzaqdır,
Azdın yolu! Hər tərəf borandır,
Məhv oldu miniklərin, amandır!
Simanı təbiətin gəmirmiş,
Nə göz görünür, nə üz, burun, diş.
Dur, ey gəmirik, çəkil bu yoldan,
Rəhbərlik edərmi gözsüz insan?
Sapdın yolu, getdiyin çığırdır,
Qırmaclama, atların yağırdır.
Qış gəldi, sovuşdu gördüyün yaz,
Bu yol tələsik başa çıxılmaz.
Dağdır, dərədir, eniş-yoxuşdur,
Sürmə, əməyin bu yolda boşdur.
Al qanla bişərmi xam diləklər?
Eşq ilə gülərmi boş ürəklər?
Söz yox, bu dilək böyük diləkdir,
Ancaq ona başqa baş gərəkdir.
Azdırmı sənin inad, qürurun,
Çatmaz o yerə sənin şüurun.
Əldə edəməz onu çürük baş,
Saf sevgiyə heç qovuşmaz oynaş.
Əfsanəyə döndü o həqiqət,
Bir gün başına açar fəlakət.
Yüksək ideal onunla söndü,
Gözlərdən uzaq xəyala döndü...

*1937*

## GƏLSİN

*İstəkli tələbəm Ruhulla Axundova*

O gün olsun bağıma sevgili yarım gəlsin!
O könüllər diləyi, qönçə üzarım gəlsin!

Çən, dumandan o gün olsun ki, silinsin vətənim,
Dan şəfəqli səhərim, güllü baharım gəlsin!

Ərisin, qalmasın artıq bu könüllərdə kədər,
O gün olsun diləyim, bilgi, şüarım gəlsin!

Sönməsin ölkəmizin canlı o şənlik çırağı,
Hörmətim, şan-şərəfim, bilgi, vüqarım gəlsin!

O gün olsun ki, axışsın bütün el təbrikə,
Köməyim, qol-qanadım, əldə tutarım gəlsin!

O gün olsun ki, yenə qaynasın el, coşsun el,
Bizə şadlıq gətirən güllü qatarım gəlsin!

O gün olsun qoca Şaiq nəfəs alsın şən-şən,
O könüllər diləyi, sevgili yarım gəlsin!

*1940*

## ŞƏKLİNDƏ

*Sevimli tələbəm Tağı Şahbaziyə.*

Sevimli bir diləyim var, xəyal şəklində,
Yeni bəhər verəcək bir nihal[1] şəklində

Məni üzər gecə-gündüz o müdhiş ayrılığı,
Yeyər bu qəlbimi dərdü məlal şəklində.

---
[1] Cavan ağac

Fəraqə dözməyirəm, hardasan? Görün! – derkən,
Önümdə cilvələnir bir sual şəklində.

Zaman-zaman dəyişir rəngini, lətafətini,
Qürubə qarşı o gülgün şimal şəklində.

Şəfqət kimi yanaşır, əl uzatmaq istərkən,
Uzaqlaşır o vüsalı məhal şəklində.

Gözümdən indi yenə, kim onu qovur buradan?
Süründüm izləyərək bir zilal[1] şəklində.

Odur göründü yenə sevgili gözəllərtək,
Bəzər xəyalımı coşqun məal[2] şəklində.

Gülümsəyir üzümə, bax, vüsal üçün yanaşır,
Açıb iki qolunu bir hilal şəklində.

*1940*

## SAMUR KANALI

Samur çayı, yadındamı,
Şırıldayıb axardın sən?
Yazda coşub-daşan zaman,
Sahilləri yıxardın sən?

Olmuşdun bir qızmış aslan,
Kükrəyirdir hər bir yana.
Verirdin tarlaya ziyan,
El gəlmişdi səndən cana.

Axır qurub-yaradanlar
Əlinə bel, külüng aldı,

[1] Kölgələr
[2] Məna

Ayağına vurdu çidar,
Başına bir kəmənd saldı.

Qoymadılar özbaşına,
İndi sən gəl baş əy bizə.
Boz çölləri al qoynuna,
Yaşıllıq ver ölkəmizə!

*1940*

## DÖYÜŞ NƏĞMƏSİ

Mən də bu cəbhələrdə vuruşan bir əsgərəm,
Ana Vətən yolunda ölüm olsa, gedərəm.
Gurladıqca cəbhədə qızğın döyüş borusu,
Düşmənləri sarsıdır ölüm-itim qorxusu.
Baxma mənim yaşıma, dərs almışam nəslimdən.
Qorxu, ürkü bilməyən kiçik bir əsgərəm mən!
Zəfər bizə gülümsər, sənin sonun heçdir, heç!
Tarix boyu keçdiyin bu yollardan bir də keç!
Bu qanlı cəbhələrdə bir də sına gücümü.
Hər yürüş, hər addımda görəcəksən öcümü!
Basqın edən ordunuz olacaq dağım-dağım!
Zəfər ilə ucalar mənim şanlı bayrağım!

*1942*

## VƏTƏN NƏĞMƏSİ

Ey dünyaya aydınlıq saçan odlar diyarı!
Sən ey sönməz günəşin xəzangörməz baharı!
Ey şərəfli tarixim, ey xalqımın vüqarı!
Ata-baba irsidir qəlbimizdə axan qan!
Əsirgəməz övladın səndən can, Azərbaycan!

Düşmənlərin gözü var torpağında, daşında.
İldırımlar partlamış əyilməyən başında.
Süngü, qılınc oynatmış babalarım qarşında.

Qoymamışdır qoynuna girsin amansız düşman,
Əsirgəməz övladın səndən can, Azərbaycan!

Həqiqi bir cənnətdir hər bir gözəl bucağın,
Ən sevimli beşikdir bizə ana qucağın.
Sönməyən bir məşəldir şer, sənət ocağın.
Səndən alır ilhamı hər bir quran, yaradan,
Əsirgəməz övladın səndən can, Azərbaycan!

Şəfəq təki çağlayan səhərlərin var sənin.
Koroğlu, Babək, Nəbi, Həcərlərin var sənin.
Tarix yazmış alnına – zəfərlərin var sənin.
Qəhrəmanlıq yadigar qalmış ata-babadan,
Əsirgəməz övladın səndən can, Azərbaycan!

*1943*

## ZƏFƏR NƏĞMƏSİ

Gözün aydın, ey müzəffər xalqımın oğlu, qızı!
Gözün aydın, doğdu artıq şanlı zəfər ulduzu!
Gözün aydın, gecə-gündüz yol gözləyən analar!
Ey gəlinlər, ey bacılar, qalxın ki, toy-bayram var!
Qaranlığı parçalayıb şəfqət saçan bu səhər,
Gözaydınlıq verir bizə, gətirmişdir xoş xəbər:
El şənliyi başdan aşmış, toy-bayram var hər yerdə.
Üstümüzdən qaldırıldı dəhşət saçan o pərdə.
Sevin, artıq bundan sonra şanlı həyat sənindir!
Şən və azad nəfəs alan bu kainat sənindir!

*1945*

## ANA

Ana, ana – bu kəlməcik hər körpənin ən ilkin
Öyrəndiyi bir kəlmədir, əmdiyi süddən şirin.
Ana, ana – bu kəlmədə saf, doğma bir duyğu var.
O duyğudan qüvvət alıb canlanır bu insanlar.
O duyğunun eşqidir bu ürəklərdə qaynayan.
O duyğudan dolar qəlbə sevgi, ümid və inam.
Ana qəlbi saf göylərdə şəfqət saçan səhərdir.
Könül çalan gözəllərdən ana daha dilbərdir.
Analarla işıqlanır vətənin hər bucağı,
Ən sevimli bir beşikdir anaların qucağı.
Ata ağıl, şüur isə, ana – coşqun ürəkdir,
Sevgilərin qaynağıdır, ən böyük bir diləkdir.
Analardır hər bir xalqın bilik, əxlaq ölçüsü!
Heç sönməyən bir məşəldir anaların sevgisi!

*1945*

## ATA ÖYÜDÜ

Ey oğul, böyüdün kamala çatdın;
Çalışdın, səyinlə bu hala çatdın.
Atıldın həyatın gen səhnəsinə,
Qulağın uymasın hər nəğməsinə.
Sənə bu həyatdır ən böyük məktəb,
O həm çox sadədir, həm də mürəkkəb.
Aldanma, ağlınla hər şeyi ölç, biç!
Yaxşını mənimsə, yamandan vaz keç!
Düşünən ağlın var, duyan ürəyin,
Bunlarla gülümsər hər bir diləyin.
Ağlın bir gözü var, ürəyin min-bir,
Çalış ki, hər işdə olsunlar əlbir.
Bu ona rəhbərlik etsin, o buna,
Aydınlıq saçsınlar həyat yoluna.
Əyriyə baş əymə, cəsur ol, cəsur!
Haqqa möhkəm yapış, fikrində bərk dur!

Hər hissə qapılma, qəlbini bərkit!
Doğrunu doğrular ağzından eşit.
Düşüncə, anlaqdır ağlın köməyi,
Duyğu və xəyaldır könül bəbəyi.
Ən böyük həqiqət xəyaldan doğar,
Dolğun ay ən incə hilaldan doğar.
Bunlarla şənlənir, canlanır həyat,
Şahin tək hər yerdə açar qol-qanad.
Yarımçıq sürünmə, dolmağa çalış,
Biliklə qüvvətli olmağa çalış!..
Yüksəl gündən-günə, bir boyda qalma
İşığı ay kimi günəşdən alma!
Öz zəhmətin ilə yarat hər zaman,
Olma hər tarladan kəsmik[1] toplayan.
Bir hünər göstərsən nə gərək qürur,
Qürura qapılmaz sağlam bir şüur.
Yağmurlu bulud ol, nur saçan günəş,
Yanmağa layiqdir hər quru küləş.
Özünü kamaldan kamala yetir,
Torpaq ol, al-əlvan çiçəklər bitir.
Əkdilər, sən biçdin, indi də sən ək,
Mərd olan borcunu ödəsin gərək.
Sənə yüz vermişsə bu ana torpaq,
Sən min ver, ölçünü, hesabı burax.
Yalnız bir çiçəklə açılmaz bahar,
Bu elin qədərsiz ehtiyacı var.
Tək sənin gücünlə yaşamaz vətən,
Özündən qüvvətli vətəndaş görsən
Ürəkdən sev onu, hər an hörmət et,
Xeyir verməsinə sən də xidmət et.
Qulağından həsəd sırqası asma,
Əlindən tutanın başından basma.
O sənə, xalqına köməkdir, oğul.
Çay kimi bulanma, əngin dəniz ol!..
Doğanaqdan keçər hər uzun örkən,

[1] Saman parçası

El böyüklərinin qədrini bil sən.
Dənizə bir damcı bilik çox azdır,
Bu əsrin, tarixin gözü doymazdır.
Dahilər yaratmış bu şanlı torpaq
Tərəqqi biliyə bağlıdır ancaq.
Yoluna nur saçan istiqbalın var,
Çox çəkməz, hər yerdə min günəş doğar.
Bir məşriq kəsilər hər yan, hər bucaq,
Şənliklər içində gülər hər ocaq.
Getdikcə daha da şənlənər ölkə,
Əriyər keçmişin qalığı ləkə.
Yer gülər, göy gülər, həyat gülümsər,
Üzünə yeni kainat gülümsər.
Ey düşgün çağımda qəlbim, köməyim,
Budur son istəyim, ən son diləyim:
Bütün qüvvətinlə silahlan, oğul,
O böyük bayrama sən də hazır ol!
O günə uca bir diləyin olsun,
Sənin də bir damcı əməyin olsun!..

*1945*

## BAHAR

Əs, ey ətirli dan yeli,
Könül açan bahar gəlir.
Bənövşə, yan dara teli,
Bağa sevimli yar gəlir.

Bulud, gecikmə, düş yola,
Çəmənləri süpür, sula,
Səadət ilə qol-qola,
Könül açan nigar gəlir.

Məhəbbətin çırağıdır,
Yeri könül bucağıdır.
Sıxıntı, dərdi dağıdır,
Elə, günə tutar gəlir.

Günəşlə vermiş əl-ələ,
Üzü şəfəq saçır gülə,
Görüncə hüsnünü elə,
Sevinc gəlir, vüqar gəlir.

Baxın qanadlanan göyə,
Qaranquşa, qaz, ördəyə,
– Vətən, Vətən, Vətən, – deyə
Yenə qatar-qatar gəlir.

*1945*

## İKİ QƏZƏL

*Hörmətli şairimiz Süleyman Rüstəmə*

### I

Gəldikcə o qəmzən quşu cövlanə, gülümsər,
Göylərdə süzən qartala, tərlanə gülümsər.

Ürkək baxışın, işvəli ceyranə verər dərs,
Qönçə dodağın hər güli-xəndanə gülümsər.

Sən öylə ziya qaynağısan, ey gözəl afət,
Yandıqca o hüsnün şamı pərvanə gülümsər.

Eşqinlə könüllərdə doğan fırtına hər bir
Coşqun dənizə, dalğaya, tufanə gülümsər.

Aydan da, çiçəkdən də, xəyaldan da lətifsən,
Röya görünən hüsnünə əfsanə gülümsər.

Ziynət nə gərək, hər bəzəyin ziynəti sənsən,
Öpdükcə qara tellərini şanə gülümsər.

Qəmzən yükünü çəkməyi gəl Şaiqə tapşır,
Gənc olsa da, aldanma Süleymanə gülümsər!

## II

Könül-könül ki deyirlər, üfüqsüz ümmandır,
Hər odlu dalğası bir fırtına və tufandır.

İçində bir sarayım var alovlu yaqutdan,
O qəsr içində həyatimlə eşq sultandır.

Oxu, səhər quşu, yazdır; bu şehli bağça, çəmən
Köpüklü mey kimi hey müztərib və xəndandır.
Qanımla bəslədiyim son dilək çiçəkləndi.
Önündə cilvələnən, ey könül, o canandır.

Təhəyyürün[1] qucağında bu seyrə göz qırpmaq
Məhəbbət əhlinə uymaz, çəkin, bu nöqsandır.

Səhər nəsimi məhəbbət çölündə əsdikcə,
Bu sirli dairədə kölgələr də heyrandır.

Əyilsə qaş, saqın, ancaq o göz, o kirpikdən,
Şikarə pusquda durmuş bir ovçu tərlandır.

Qəzəllə oynama, Şaiq, sənə əsa yaraşır,
Bu ordunun yeni sərkərdəsi Süleymandır!

## RÜBAİLƏR

Bu kuzənin torpağı alınmış el bağından,
Bəlkə də o yapılmış gözəllər torpağından.
Bu torpaqlar altında yaqut dodaqlar yatır,
O nəfəsi duyuram kuzənin dodağından.

Dünyada bəxtiyardır əkdiyini biçənlər,
Bu həyat səhnəsindən vicdan ilə köçənlər.
Biz hər zaman içərkən – keçmişi yad eylədik,
Bizi də yad eyləsin bizdən sonra içənlər.

*1946*

[1] Heyrətin

# BÖYÜK HİCRAN

*Böyük qardaşım Məmməd Səid Ordubadiyə ithaf*

Yadımdadır, o gün ki sən sərilmişdin yatağa,
Qara ölüm dilsizliyi çökmüşdü dil-dodağa.
Gözlərinin şimşəkləri yavaş-yavaş sönurdu,
Üzün xəzan vurmuş quru yarpaqlara dönürdü.
Yasdığına söykənmişdim, mən də əlin əlimdə,
Yetim kimi min-bir həsrət inləyirdi könlümdə.
Göz önündə canlanırdı həsrətli xatirələr.
Ah, bilsəniz ürəyimdən nələr keçirdi, nələr!
Mən analar tanıyıram – əxlaq, namus heykəli.
Bir ailə həyatının canlı, sönməz məşəli.
Bacarıqlı əllərilə tikən, quran, yaradan,
Gecə-gündüz övladının qayğısilə çırpınan.
Böyük, sağlam gələcəyi qurur belə analar,
Bunlar ilə hər ailə, övlad olur bəxtiyar.
O həqiqi analardan birisi də sən idin!
Səndə vardı analara məxsus vüqar və təmkin.
Geniş, böyük ürəyini tutardın hər zaman şən.
Övladından alan zövqü almadın heç bir şeydən.
Ancaq övlad oldu sənin hər ziynətin, bəzəyin.
Övlad üçün çırpınırdı böyük ana ürəyin.
Uca ana adını sən təmiz tutdun südün tək,
Mən bunları düşünürkən, xəstə qadın dönərək
Ev əhlini süzdü bir-bir oynadaraq əlini,
İşarəylə çağırdı o, yaxınlaşdı gəlini.
Boğnuq səslə qulağına nə isə bir şey dedi.
Gəlin ondan ayrılınca bir ney kimi inlədi.
Mən sorucu gözlərimi yoldaşıma dikərkən
Bulud kimi yaş töküldü matəmli gözlərindən.
Çılğın kimi mənə baxdı, o ağlaya-ağlaya,
Dedi: od saldı qəlbimə, yoxa çıxsın bu dünya!
"Can gəlinim, halal eylə, deyir, verdim çox zəhmət.
Abdullahım, nəvələrim məndən sənə əmanət".
Fəlakətli ürəyimdə alovlandı bir şölə.

Övladını düşünürdü son nəfəsində belə.
Oxşayaraq mən boynuna keçirdim öz qolumu.
O da yalnız sağ əlilə qucaqladı boynumu.
Geniş köksü qalxır, düşür, ağırlaşmış nəfəsi.
Qulağımda inləyirdi matəmli hicran səsi.
Ah, birlikdə keçirdik o həsrətli son gecəni,
Bir az sonra evdə birdən qopdu matəm şivəni.
Zalım əcəl qanadını üzərinə gərmişdi,
O mübarək vücudunu vurub yerə sərmişdi.
Gecə keçmiş, yavaş-yavaş ağarırdı dan yeri.
Gözümüzlə açdıq artıq o matəmli səhəri.
Doğan günəş şəfəqini pəncərədən yayırdı,
Uf, nə deyim bu ölümə, canı candan ayırdı.
Səndən ayrı hər günüm bir il keçirdi, ah, ana!
İndi necə dözəcəyəm mən bu böyük hicrana?

*1946*

## ÖLÜMƏ HƏCV

Ey ölüm, oy, nə yaman siman var:
Qaşqabaqlı, qara, çirkin, yassar.
Gözünün hər biri bir alma dərir,
Dişlərin it kimi cəmdək gəmirir.
Alnın dar, saçların ifritə kimi,
Gövdən isə qara yelkənli gəmi.
Qolların şil və çolaqdır ayağın,
Yer süpürməkdə o murdar dodağın.
Əyridir baş-qulağın, hər əzan,
O gözəl surətinə sən qurban.
Belə çirkin sifətinlə, de görüm,
Nə deyirsən mənə, ey xain ölüm?
Uzağam mən ki, o çirkinlərdən,
Şairə, sənətə sənsən düşmən!
Durma qarşımda, bir azca uzaq ol!
Qorxmuram qanlı bıçaq, ya çanaq ol!

Öz başında sınacaqdır çanağın,
Sən uzaqdan nə deyirsən, azğın?
Qıcayıb dişlərini tez-tez sən,
İştaha ilə baxırsan gendən.
Dikilir gözlərimiz bir-birinə,
Bu şüurum ki, gəlir öz yerinə,
Toplayıb qırğı kimi tez özümü,
Mən bərəldincə uzaqdan gözümü,
Tez girirsən qaçaraq bir deşiyə,
Ey siçan, mən dönürəm bir pişiyə.
Necə iyrənc, nə qədər çirkinsən!
Həm də qorxaq, əməzik, miskinsən!
Qorxuduymaz ürəyim var, bunu bil!
Qorx sənə mən kəsilim Əzrail.
Qarşıma çıxma, birəlli yıxaram,
Gözünə, ağzına pambıq tıxaram.
Demə ki, o qocadır, mən gəncəm,
Şahlara "mat" oxuyan şətrəncəm.
Qoca olsam da – iradəm vardır.
Mənə qəlbimdəki iman yardır.
Məni dindirmə ki, vaxtım yoxdur,
Qələmə almağa fikrim çoxdur,
Üzünə baxmağa nifrət edirəm,
Get ki, ilham ilə söhbət edirəm.

*1946*

## VƏTƏNİM

Ey vətən, ey gözəllərin gözəli!
Qəlbimin ey sevimli şah əməli!
Sel kimi hey coşur, daşır könlüm,
Səni azad, bəxtiyar görəli.

Səndədir mizrabı könül sazımın,
Çala bilməz onu yabançı əli.
Hüsnünün şöhrəti yaman artır,
Telinə al çiçəkləri düzəli.

Azərilər yolunda can qoymuş,
Basmısan bağrına sevimli eli.
Unudarmı səni bu mərd ellər,
Ey vətən, ey gözəllərin gözəli?

*1947*

## SƏNDƏN DƏ XOŞDUR

Bəzəkli gəlindir yenə hər ağac,
Dərələr, çəmənlər geymiş al-əlvan.
Yaşıla bürünmüş çöl, çayır, yamac.
Bir şənlik məclisi qurmuş hər orman.

Min rəngə boyanmış hər budaq, hər gül,
Həyata vermədə yaraşıq, zinət,
Hər yana baxdıqca açılır könul,
İnsana can verir gözəl təbiət.

Gözəldir baharın ilıq nəfəsi,
Gözəldir göllərin qazı, ördəyi.
Gözəldir bülbülün şaqraq nəğməsi,
Gözəldir dağların əlvan çiçəyi.

Ey bahar, bağından dərmişəm salxım,
Hər meyvən dadlıdır, şirin, meyxoşdur,
Ancaq bu şən ölkəm, bu azad xalqım,
Səndən də şirindir, səndən də xoşdur!

*1947*

## YAZ

Getdi qışın ayazı,
Parladı ilin yazı.
Əridi dağlarda qar,
Bulanıq sellər axar.
Yenə coşub Araz, Kür,
Sahilləri hey sökür.
Yaşıl geymiş dağ, dərə,
Yenə bizim ellərə
Quşlar da gəldi qonaq,
Yuva oldu hər budaq.
Bəzəndi boz yamaclar.
Qırqovullar, turaclar
Kollarda qaqqıldaşır,
Kənddə adam qaynaşır.
Yaz xoş xəbərlə gəlmiş,
Canlanır hər yanda iş.
Traktorlar səslənir,
Qoyun, quzu bəslənir.
Bir yanda sürü, çoban,
Bir yanda bağça, bostan.
Bir yanda göy tarlalar
Dəniz tək dalğalanar.
Uğur olsun, gözəl yaz!
Səni sevməmək olmaz!
Açdıqca əlvan güllər,
Fərəhlənir könüllər.
Əlində elin sazı,
Xoş gəldin, ilin yazı!

*1947*

## CANLI DƏRBƏND ÇİÇƏYİ

Dərbəndin gül bağından dərdim qönçə bir çiçək,
Rəngi, ətri, görkəmi biri-birindən göyçək.
Dedim: hansı cinsdəndir bu sevimli qönçə, gül
Ki görüncə dərindən çırpındı miskin könül?
Qərənfildir yoxsa bu? Tellərində var çətir.
Yox, yox, qərənfillərdə hanı bu rəng, bu ətir.
Diqqətlə bir də baxdım, ağ zanbaqdır dedim bu.
Yox, zanbaqda tapılmaz bu təravət, bu qoxu.
Qızıl gül olsun gərək, ala çalır yanağı.
O gülə çox bənzəyir bunun qönçə dodağı.
Eyvah, yenə yanıldım, qızıl güllər tez solur,
Mənim gülüm getdikcə təravətlə yoğrulur.
Gördüm artıq güllərin olmayacaq köməyi
Qoydum onun adını "Canlı Dərbənd çiçəyi".
Bu sevimli çiçəyim payızı yaza qatdı.
Sevdi yeni yurdunu, dərindən rişə atdı.
Həyatının baharı verdi ona üç budaq,
Hər budaqda parladı ulduz kimi bir çıraq.
Ömrümün bağçasını şənləndirdi bu üç gül,
Onlardan ilham alır bu qoca şair könül.
Onlardır qol-budağım, onlardır şən dilyəim,
Yetişdirdi bunları "Canlı Dərbənd çiçəyim".
Bu yaşımda vurğunam yenə o ağ telinə,
Qəlbimə şənlik saçan o füsunkar dilinə.
Bu gün tam üç həftədir ayrılmışam gülümdən,
Yerim cənnət olsa da, onsuz zindandayam mən.
Hər yadıma düşəndə qəlbimin başı titrər,
Kipriyimin ucunda gözümün yaşı titrər.

*1947*

# TƏBRİZ

Mən çoxdan həsrətəm vüsalə, Təbriz.
O ceyran baxışlı cəmalə, Təbriz.
Qəlbimin içində tellər sızlayır,
Arabir gəldikcə xəyalə Təbriz.
Bir zaman gülərdin, çiçəklənərdin,
Bənzərdin meyvəli nihalə[1], Təbriz.
Azadə yurdunun saf göylərində
Oxşardın bir yeni hilalə, Təbriz.
Öz dilin, biliyin, öz idrakınla,
Getdikcə dolurdun kəmalə, Təbriz.
Aşiqdim o azad, gülən səsinə,
Vurğundum o hüsnə, cəmalə, Təbriz.
Uzaqdan eşqinlə, daşqın sevinclə
Qaldırdıq nə qədər piyalə, Təbriz.
Deyirdim: günəşli bahar həyatın
Xəzandan gəlməsin zəvalə, Təbriz.
Gec açdı, tez soldu al çiçəklərin,
Qurudu o coşqun şəlalə, Təbriz.
Biz yenə üzürük şənlik içində,
Sən neçin düşmüsən bu halə, Təbriz?
Xəzərə axarkən birləşmiş Araz,
O taydan gətirir ah-nalə, Təbriz.
Hər yanı bürümüş zülmün alovu,
Qəlbindir dağ görmüş bir lalə, Təbriz.
O şirin ömrünə kim qatdı zəhər?
Cavab ver bu haqlı sualə, Təbriz.

*1949*

[1] Cavan, düz ağaca

## YENİ AİLƏLƏRƏ

Hər oğlan ki evlənir, hər qız ki gedir ərə,
Xoşbəxtlik istəyirsə, bunu alsın nəzərə:
Yaşadığı ev-eşik bir parçadır vətəndən!
Vətənini sevəmməz, öz evini sevməyən!
Çünki evdir hər kəsin doğma ana beşiyi.
Orda doğur, böyüyür, görür hər bir şənliyi.
Orda sevir, sevişir, toy edir, qurur gərdək[1],
Oğlu, qızı dil açır, "ata, ana" deyərək.
Evinə hər gələndə qaçıb üstünə uşaq,
İki kiçik əliylə onu qucaqlayaraq:
"Atam gəldi" deyərkən əsil, həqiqi ata,
Ucalır bir dağ kimi, qiymət verir həyata.
Qocalığı, gəncliyi bu ev içində keçir.
Həyatın şərbətindən doya-doya hey içir.
Bir də böyük anadır bizə şanlı ölkəmiz,
Onun isti qoynunda böyüdük, bəsləndik biz.
Yaşadığım ev-eşik bir parçadır vətəndən!
Vətənini sevəmməz öz evini sevməyən!
Yanılır xoşbəxtliyi uzaqda axtaranlar.
Sadiq insanlar onu ailəsində tapar.

[1] Bəy ilə gəlinin toydan sonra getdiyi yer, otaq

## DAN YERİ SÖKÜLÜR,
## HƏR TƏRƏF RƏNGİN

Dan yeri sökülür, hər tərəf rəngin,
Şəfəqdən don geydi dağ, dərə əngin.
Saçıldı çöllərə min rəng, min boya,
Sonalar göllərdə baş vurdu suya.
Şehlərdə yuyundu hər ot, hər çiçək,
Qönçənin üzündən açıldı örpək.
Tel, birçək ayırdı nərgiz, bənövşə,
Təbiət özü də dondu bu işə.
Gül gülü çağırdı, bülbül bülbülü,
Saraltdı bu sövda dərdi sünbülü.
Fəzanı həm günəş, həm bulud almış,
Yolları sulayır, günəşli yağış.
Uzaqda ildırım şığıyır tək-tək,
Göyün saf köksündə oynayır şimşək.
Meşələr bürünmüş əlvan qumaşa,
Saçaqlı fındıqlar vurmuş baş-başa.
Çinara dırmanmış vəhşi meynələr,
Qaralmış göyəmlər, deyir məni dər.
Zoğallı dərələr bəzənmiş əlvan,
Boynuna taxmışdır yaqut və mərcan.
Bu bahar çağında gözəldir səhər,
Al-əlvan rənglərlə göyə gülümsər...
Səni çox sevirəm, ancaq, ey bahar,
Səndən də sevimli bir sevgilim var.
O da öz elimdir, bir də Vətənim.
Qəlbimin özəyi bunlardır mənim.

## İSTƏKLİ NƏVƏM ÜLKƏRƏ

Bir gün səhər dalmışdım ulduzların seyrinə,
Gözləyirdim üzümə haçan gülər Ülkərim.
Mən ulduzlar içində ona çoxdan vurğunam,
Görününcə üzümə işıq səpər Ülkərim.
İyulun əvvəliydi, ağarırdı dan yeri,
Baxdım göyə, göründü, verdi xəbər Ülkərim:
– Gözün aydın, bir nəvən oldu mənə bərabər
Bu xəbərlə qəlbimdən sildi kədər Ülkərim.
Baxdım qızın üzünə, Ülkər qoydum adını,
Yerdə, göydə doğmuşdu iki səhər Ülkərim.

*1958*

# Qəzəllər

* * *

Nə gözəldir o camalın, a gülüm!
Canıma dərdü məlalın, a gülüm!

Basaram köksümə dərman yerinə,
Nə qədər olsa kəlalın[1], a gülüm!

Oldu pabənd[2] görüncə könlüm,
Zülf arasında o xalın, a gülüm!

Qönçədir gülşəni-hüsnündə sənin
Açılıb arizi-alın[3], a gülüm!

Fal açırdın olasan yar mənə,
Necə cəldi, de o falın, a gülüm?

Xari-hicrindən[4] edər ahü fəğan
Bu sənin bülbüli-lalın, a gülüm!

Qazıram sinəmi dırnağım ilə,
Yad edən dəmdə vüsalın, a gülüm!

Qılma gəl Şaiqə hicranı rəva,
Olmasın hiç zəvalın, a gülüm!

---

[1] Dərdin, qüssən
[2] Əsir
[3] Al yanağın
[4] Ayrılıq tikanından

* * *

Yandırdı məni yar bu hicran arasında.
Kül etdi məni buteyi-əfğan[1] arasında.

Divanə dedi hər görən eşqində cigərxun,
Bədnam elədi firqeyi-nadan arasında.

Saldı məni qəmdən qəmə, bir etmədi dərman,
Qoydu məni bu dərd ilə dərman arasında.

Bir tazə günəş doğdu iki dağ ətəyindən,
Zənn etdi görən sinəni püstan arasında.

Qeys oldu əgərçi qəmi-Leyli ilə Məcnun,
O qalmamış əsla belə niyran[2] arasında.

Seyd etməyə[3] bu Şaiqi-dilxəstəni ol yar,
Düzmüş üzə xal zülfi-pərişan arasında.

---

[1] Ah-nalənin
[2] Cəhənnəm; od
[3] Ovlamağa

* * *

Gördüm o ruyi-ənvərini[1] mən əbəs-əbəs,
Çapdım könül səməndərini mən əbəs-əbəs.

Saldım o şəmi-ruyinə pərvanə könlümü,
Gördükdə arizi-tərini[2] mən əbəs-əbəs.

Məcnun kimi məqam elədim kuhü dəştdə[3],
Bildikdə eşq məzhərini[4] mən əbəs-əbəs.

Atdım qəbanı, səbheyi-səddanəni[5] tamam,
Tutdum o xali-əsmərini mən əbəs-əbəs.

Təlx oldu zəhr tək mənə aləmdə şəhdü şir,
Daddım o ləl ləblərini mən əbəs-əbəs.

Qıldım bu qəmli könlümü tel-tel, nişan-nişan,
Gördüm o qara tellərini mən əbəs-əbəs.

Saldım ayağa göz yaşı tək seyri-gülşəni,
Dərdikdə qəmzə güllərini mən əbəs-əbəs.

Can verdim ol vüsalına min şövq ilə, fəqət,
Bir dərmədim səfa bərini mən əbəs-əbəs.

Oldum vüsali-ruyinə Şaiq, bu başıma
Qoydum cünunluq əfsərini[6] mən əbəs-əbəs.

---

[1] İşıqlı üzünü
[2] Tər sifətini
[3] Dağ və səhrada
[4] Üzə çıxma
[5] Təsbehi
[6] Dəlilik tacını

* * *

Saqi, ayağa dur, gətir badə ki, yaz vaxtıdır,
Mürği-könül, nəvayə gəl, suzü[1] güdaz[2] vaxtıdır.

Gülşəni-ol nigara get, ləlü ləbü üzarə[3] bax,
Nərgisi-çeşminin, könül, gör necə saz vaxtıdır.

Zülfi-xəmində[4] əyləşib şərh elə hali-zarimi,
Rəhm edə bəlkə dilbərim bəndənəvaz[5] vaxtıdır.

Ağla, könül, fəraqidə, fürsəti fövtə vermə sən,
Çünki bu gənc ömrümün durü[6] diraz[7] vaxtıdır.

Məndə bu əşki-zari gör, yardə əbri-rəhməti[8],
Cuşü xüruşə gəl, könül, razü niyaz[9] vaxtıdır.

Qaşına qiblədir deyə, səf çəkib ol müjən yenə,
Söylə o qanlı gözlərə bu nə namaz vaxtıdır.

Nitqü bəyan açıb yenə tutiyi-təbi ənvərim,
Ərseyi-şeridə çapır atını az vaxtıdır.

Hicri-qəmilə, ey gözəl, Şaiqi xəstə qılmısan,
Gəl, o gözün fədası mən, indi nə naz vaxtıdır.

---

[1] Yanma
[2] Ərimə, məhv olma
[3] Yanaq, üz
[4] Qıvrım telində
[5] Quluna, əsirinə yaxşı baxan
[6] Uzaq
[7] Uzun
[8] Yağış buludu
[9] Razılıq

* * *

Düzüb tərsa, o xalın həlqeyi-zülfi-çəlipayə[1],
Gətirdin aşiqi-dilxəstəni fəryadü qovğayə.

Vurub rüxsarə naz ilə sən, ey tərsa qızı, zivər,
Ucaltdın aşiqin əfğanını ərşi-müəllayə[2].

Uzaqdan qaş çatıb kin ilə baxma mən müsəlmanə,
Mənim də vardır artıq sidqilə mehrim Məsihayə.

Mənimlə qaşların bir dost kimi davransa, nəzr etdim,
Asım qəndil kimi bu canımı taqi-kəlisayə.

Geyirsən gündə min curə fason ol nazik əndamə,
Xoşa ol pirəhən, camə[3], xoşa ol şalü dibayə[4].

Nə göyçəkdir o əndamın, o qəddü sərvi-bustanın,
Fəda o nazik əndamə, nisar[5] ol qəddü bəlayə.

Tamam ömründə İsayə de, etmiş zində[6] bir mürdə[7],
Bu tərsa həm dirildir, öldürür, gəlsin təmaşayə.

Yığıbsan aşiqin can riştəsin yeksər sən, ey tərsa,
Edibsən zülfi-müşkinin ara pabənd qövsayə[8].

Gözün min can alır, yaqut dodağın can verir hər an,
Fəda bu canım ol şəkkər ləbə, ol çeşmi-şəhlayə.

Alıbsan Şaiqin səbrü qərarın Şeyx Sənan tək,
Apardın zülm ilə, tərsa, bu dini, canı yəğmayə.

*Qarakilis, 1904*

---

[1] Saç burumu
[2] Göyün yüksək qatına
[3] Köynək, geyim
[4] Qumaş; ipək
[5] Qurban olma
[6] Diri, canlı
[7] Ölü
[8] Qövsvari saçbağı

* * *

Cana, üzündəki o iki mahitabə bax!
Qəlbimdəki bu dərdə, qəmə, iztirabə bax!

Zülfün xəmində xalına bax, dil edir kəbab,
Rüxsarım üstünə tökülən xuni-abə bax!

Gül üzlərə tökəndə qara zülfü yel deyir:
Eyvah, günəş üzünü tutan bir səhabə bax!

Cana, o səndə işvəyə bax, nazü qəmzəyə,
Könlümdə dərdü möhnəti gör, səbrü tabə bax!

Qəm dalğası hücuma keçən dəmdə qəlbimə,
Çeşmim kənarına yığışan bir hübabə[1] bax!

Ayinəni alıb ələ fəxr etmə hüsnünə,
Ömrüm xəzanı ahi-dili-bihesabə bax!

Kafir bu zülmü kafirə qılmaz, gözəl, rəva,
Allaha bax, peyğəmbərə, quran, kitabə bax.

Şaiq çəkəndə şamü səhər ahi-dərdnak,
Zülf ilə türrələrdə olan inqilabə bax!

---

[1] Köpüyə

* * *

Faş etdi göz yaşım bu nihan razi[1] ellərə,
Əfsanə tək cahanda məni saldı dillərə.

Sındırdı qol-qanadımı həsrətlə xari-hicr[2],
Badi-səba, yetir bunu gülşəndə güllərə.

Bir gün keçirdi hər ili vəslin, gəl indi gör,
Hər saəti bu ayrılığın dönmüş illərə.

Çəkdikcə dərdi-möhnəti-hicranın, ey gözəl,
Qan oldu laxta-laxta, könül döndü göllərə.

Saldıqca yada vəslini döndüm kəmanə mən,
Kül etdi hicr canımı, ah, verdi yellərə.

Hicrində bəs ki həsrət ilə çəkdim ah-zar,
Dudi-könül[3] bu eşqimi döndərdi sellərə.

Verdi nişan camalını yarım bu Şaiqə,
Leyli kimi öz aşiqini saldı çöllərə.

[1] Sirri
[2] Ayrılıq tikanı
[3] Yanan qəlbin tüstüsü; ah-nalə

* * *

Ərseyi-hüsnündə[1], ey dil, bircə ol mahruni gör,
Aşiqi-dilxəstəni pabənd edən giysuni gör.

Söylədim, bunca dolaşma vəhşi tək, ey xəstə dil,
Dedi, get ol gözləri məst eyləyən ahuni gör.

Həlqeyi-zülfi o yarın damdır[2] aşiqlərə,
Bənd edən yüz aşiqi ol damidə bir muni1[3] gör.

Daneyi-xalın əzəl xoş göstərir mürği-dilə,
Sonra gəl bax cövrinə, bir hiyleyi-hinduni gör.

Zülfü rüxsara dağıtmış dilbərim, sanki deyir:
Mişki qiymətdən salan bu zülfi-ənbərbuni gör.

Gülşənə bu gül üzüm salmış necə xoş vəlvələ,
Şöhrəti-hüsnün tutub hər şəhri, hər çarsuni[4] gör.

Qaş-gözə hərdəm verəndə bir təkan yüz seyd edir,
Bircə bu nazik bədəndə qüvvəti-bazuni1[5] gör.

Guşeyi-mehrabidə[6] Şaiq rəvadır ağlasa,
Naseha[7], Allah rizasinə xəmi-əbruni[8] gör.

---

[4] Gözəlliyinin meydanında
[2] Tələdir
[3] Tükü
[4] Dörd tərəfi
[5] Qolun qüvvətini
[6] Mehrab guşəsində. Qaş mənasında işlənir.
[7] Ey nəsihətçi
[8] Qaşın əyrisini

* * *

Qurbanın olum, aşiqinə eylə inayət,
Göstər bu diləfsürdənə[1] bir azca himayət.

O zülfü rüxundan elə bir ləhzə kənarə,
Bu ölkəni qıl Kəbeyi-rüxsarə hidayət.

Oynat o qara qaş-gözü naz ilə, nigarım,
Göstər bu cahan əhlinə möcüzlə kəramət.

Aç nitqi-şəkərbarını tuti kimi, ey yar,
Saç ləlü ləbinlə dürü gövhər və həlavət[2].

Hey qibtə edir ruyinə gülşəndə çiçəklər,
Çünki hanı onlarda belə incə lətafət.

Çaylar, meşələr cümlə mürəkkəb, qələm olsa,
Bu hüsnünü haşa edə bilsin o hekayət.

Can nəqdini Şaiq sənə vermişdi əmanət,
Qurbanın olum, aşiqinə etmə xəyanət.

---

[1] Ürəyi üzülmüşünə; ümidsiz bəndənə
[2] Şirinlik

* * *

Eyləyən halimi viranə mənim dilbər olub,
Gətirən qəlbimi suzanə o məhmənzər olub.

Daima meyli budur yar ola əğyar ilə,
Deyələr, əqrəb ilə mah yenə rəhbər olub.

Naz ilə gül üzünə tökmədə giysulərini,
Bu alan canımı sünbül kimi şux tellər olub.

Ey könül, düşmə bu sevdayə çəkib rəncü mühən[1],
Sən kimi çoxları bu eşqidə qəmpərvər olub.

Mey nədir, badəvü meyxanə nədir, ey zahid,
Şaiqi sərxoş edən başqa meyü sağər olub.

* * *

Bu nəqşi ki, sən ol güli-rüxsarə çəkirsən,
Bütlan[2] xətini səfheyi-gülzarə çəkirsən.

Ol məst gözün yadına ey sərvi-qiyamət,
Bu xəstə dili xaneyi-xummarə çəkirsən.

Zəncir kimi zülfünu boynuma salıbsan,
Divanə kimi kuçəyə, bazarə çəkirsən.

Bimarə ölüm müjdəsi vermə, hələ can var,
Çeşmim baxa-baxa üzünə qarə çəkirsən.

Yox mehrü vəfanın, a gülüm, səndə nişanı,
Ol dağ ki, bu Şaiqi-qəmxarə çəkirsən.

---

[1] Əziyyət və dərd

[2] Haqsızlıq

* * *

Dur, saqi, ayağa, ver dolu cam,
Bu səy ilə hasil olmadı kam.

Candan məni dərdi-hicr saldı,
Dil vəsldən oldu çünki nakam.

Ol kuyi-nigaridən[1] keçəndə,
Ey bad, yetir o yarə peyğam.

Hicrində de yarə, qalmamış tab,
Fikrin nədir, ey büti-güləndam?

Həsrətlə bu ruzigar keçdi,
Hasil olacaq nə vaxt bəs kam?

Gəl-gəl ki, bu hicri-cangüdazın
Qoymadı könüldə səbrü aram.

Səbr eyləyirəm bu dərdi-hicrə,
Axır nə olar görüm sərəncam?

Bilməm ki, neçin rəva görürsən
Bu Şaiqə zülmü, ey şəkərfam!

[1] Gözəlin küçəsindən

* * *

Kuyi-dildar imiş, ey zahid, o cənnət dediyin,
Qaməti-yar imiş, əlbət, o qiyamət dediyin.

Çox da şərh etmə cəhənnəm odunu, gördüm onu;
Hicri-dildar imiş o odlu əziyyət dediyin.

Kövsəri[1] vəsf edərək bunca ki, ağzın sulanır,
Ləbi-gülnar imiş, ey zahid, o töhmət dediyin.

Hurilər ləzzətini şərh eləyirsən bu qədər,
Nə səzavar[2] imiş o şəhvətə ləzzət dediyin.

Sənin, ey zahirbin[3], kizb sanırdım sözünü,
Hamısı var imiş o zahir hekayət dediyin.

Etmə, zahid, bu qədər əhli-riyazət[4] vəsfin,
Nə riyakar imiş o əhli-riyazət dediyin.

Beyti-hacət[5] deyə çox Kəbəni tərif etmə,
Çar divar imiş o dərgəhi-hacət dediyin.

Bu məqamata[6] deyirsən yetişər əhli-hüda[7],
Şaiqi-zar imiş o əhli-hidayət dediyin.

---

[1] Cənnət suyunu
[2] Layiq, yaraşan
[3] Zahirpərəst
[4] Öz nəfsini öldürənlər
[5] Mətləb evi
[6] Məqamlara, mənsəblərə
[7] Doğru yol ilə gedənlər

* * *

Bunca cəfanı qıldı mənə yar, utanmadı,
Zülmündən əl götürmədi, bir an dayanmadı.

Kuyində pislik ilə keçirdim həyatımı,
Bir busə ilə adımı axırda anmadı.

Yandım bu dərdi-eşqdə, bir çarə tapmadım,
Bilməm neçin bu bəxti-siyəh bir dolanmadı.

Naləmdən oldu kül bu cahan içrə kuhü dəşt[1],
Ey dil, neçin o türreyi-dildar yanmadı.

Naz ilə məst olub gecə-gündüz o mah ru,
Bir ləhzə xabi-qəmzədən axır oyanmadı.

Zahid nə qədər etdisə mənbərdə pəndü vəz[2],
Divari-eşqə zərrəcə rəxnə vurammadı.

Eşqin yolunu bunca ki, Şaiq edirdi teyy[3],
Qeys hər qədər yüyürdü, yoruldu, çatammadı.

---
[1] Dağ və səhra
[2] Öyüd və nəsihət
[3] Keçmə, yolu başa çatdırma

* * *

Vardır başımda şurişü qovğası dilbərin,
Çıxmaz yadımdan ol qədi-rənası[1] dilbərin.

Bənd-bənd kəsərsə cismimi, uf söyləməz dilim,
Rəncidə olmasın dili-xarası[2] dilbərin.

Zahid, nəsihət etmə mənə sən əbəs yerə,
Çıxmaz başımdan eşq ilə sevdası dilbərin.

Can alsa da nə bak[3], o məxmur[4] gözləri,
Var zində etməyə dəmi-İsası[5] dilbərin.

Sanma ki, tifldir, nə bilir rəsmi-eşqü-naz,
Hər elmü fəndə var yədi-beyzası[6] dilbərin.

Can nəqdini əlində tutub Şaiqi-həzin,
Qurban edər əgər ola iması[7] dilbərin.

---

[1] Gözəl boyu
[2] Bərk ürəyi
[3] Qorxu
[4] Xumar, məst
[5] İsa nəfəsi
[6] Ağ əli; Əfsanəyə görə Musanın möcüzə göstərdiyi ağ əli
[7] İşarəsi

* * *

Qəsəm[1] ol zülfünə ki, əldə bu can olsa idi,
Ya ki bu qanə dönən qəlb nihan olsa idi.

Salar idim ayağın altına, ey sərvi-səhi[2],
Sənə qurban edərəm min belə can olsa idi.

Muma döndərmiş idim dilbərin ol xarə dilin[3],
Naləmi dan yeli dildara rəsan olsa idi.

Yandı dil eşq oduna yoxsa edərdim bərbad
Çeşmidən xuni-dilim bunca rəvan olsa idi.

Guşeyi-çeşmlə ey sərvi-səhi baxmaz idim,
Hurü qılman ilə dolmuş bu cahan olsa idi.

Şaiqa, çoxdan o dildarı gətirmişdin ələ,
Naz oxundan sənə bir ləhzə aman olsa idi.

---

[1] And
[2] Uca sərv
[3] Bərk daş

* * *

Allah, Allah, bu bütün[1] hansı könül xanəsidir?
Hansı bir bəxtəvərin sevgili cananəsidir?

Olmasın dur[2] ləbimdən o şəkər ləl-ləbi,
Bəxtəvər başına hər kimsə ki, peymanəsidir.

Yandı pərvanə kimi şəmi-rüxündə bu könül,
Söyləyin hansı könül o üzün pərvanəsidir?

Mahi-taban kimi o nur saçan zöhrəcəbin[3],
Hansı şaiq könülün gövhəri-yekdanəsidir?

Hər tərəfdən ki, verirlər ona əfsun, görəsən,
Cəzb edən qəlbini, yarəb, kimin əfsanəsidir?

Söylədim: Şaiqi divanə-dil etdi hüsnün,
Dedi: get, sən kimi bir çoxları divanəsidir!

---

[1] Gözəlin

[2] Uzaq

[3] Parlaq alnın; Zöhrə ulduzu kimi parlaq

* * *

Bülbüldə yoxdur eşq, o eşq ki, məndə var!
Atəşdə yox o suz[1] ki, bu qəlbü təndə var!

Mən tək gözəl yolunda edən canını fəda,
Nə Qeysdə, Kərəmdə, nə də Əhriməndə var!

Səndən yetişsə hər nə bəla canə nuşdur,
Çünki gözüm sən kimi simin-bədəndə var!

Şair o gül dodağını yaquta bənzədir,
Haşa, bu rəngü buy, nə ləl Yəməndə var!

Ətri-rüxünü bəzi də reyhana bənzədir,
Reyhan nədir, bu ətr nə müşki-Xütəndə var!

Qəddin yanında sərvi-səhilər də alçalır,
Bir sərv qamətin kimi, haşa, çəməndə var!

Şaiq, bu aləm içrə sənə göz dikib, gülüm,
Meyli nə əqrəbadə, nə şövqi-vətəndə var!

[1] Yanma; od

* * *

Könlüm etmiş o ləbü ləlinə, ey yar, həvəs,
Gözəlim, çünki qonar şəhdü şəkər üstə məkəs[1].

Eşq dəryasına cumdu bu könül qafiləsi,
Ah, qulağıma gəlir naleyi-fəryadi-cərəs[2].

Yandı eşqində üzərlik kimi biçarə könül,
Olmadı yar hələ bunca cəfa aşiqə bəs.

Razıyam hər qəminə, harda sənin insafın?
Etdi hicrin məni, ah, bir quru əfsürdə qəfəs[3].

Bənd olub nakəsə əl çəkmə bu Şaiqdən, aman!
Nə rəvadır tuta gövhər yerini xar ilə xəs[4].

---

[1] Milçək
[2] Zınqırov
[3] Ruhsuz bədən
[4] Çör-çöp, çırpı

* * *

Ciqqeyi-hüsnümü[1] başımda bu gün yan edəcəm!
Minəcəm naz atına, ərsədə cövlan edəcəm!

Gələcəm daim o tavus kimi cilvəyə mən,
Turacı, kəkliyi rəftarıma heyran edəcəm!

Tiri-müjganları bir-bir qoyacam peykanə,
Əl atıb xəncəri-bu hüsnümü üryan edəcəm!

Verəcəm hüsnüm ara qaş ilə bu çeşmə təkan
Zülfi-mişkinimi rüxsarə pərişan edəcəm!

Beydəqi-hüsnü ucaldıb fələkül-əflakə,
Qoyacam hər yerə pa, xak ilə yeksan edəcəm!

Qatacam bir-birinə büsbütün aşiqlərimi,
Xuni-gülgün ilə bu aləmi ümman edəcəm!

Yolun üstündə sala canını səccadə[2] mənə,
Bütün aşiqlərə bu barədə fərman edəcəm!

Qarşıma çıxsa mənim Şaiqi-dilxəstəvü zar,
Çevirib başıma ol xəstəni qurban edəcəm!

---

[1] Gözəllik saçımı
[2] Canamaz

## AHU BAXIŞLI QIZ...

Füsuli-ərbəədə[1] mən fəda olum yayə,
Mənim güzarımı saldı Qara Kəlisayə.
Həqiqi cənnət idi ormanı, dağı, dərəsi,
Edərdi fəxr gözəllikdə ərşi-əlayə.
Çiçəkli bağçası vardı, geniş xiyabanlı
Ki toplanırdı hamı o səfalı məvayə[2].
Qızardı çalğı, qız-oğlan maraqla oynardı,
Durardı seyrə dalanlar bütün tamaşayə.
O cənnət içrə bir ahu baxışlı qız gördüm,
Hörüklü saçlarını bağlamışdı qövsayə.
Baxan o gül üzünə bac verərdi səbrindən,
Düşərdi həsrət ilə başqa bir təmənnayə.
Üzüldü taqətim artıq, tükəndi səbr, qərar,
O canlı sərv-xuramandı, mən quru sayə.
İnandım indi, yox imiş qüsuru Sənanın
Ki satdı din ilə imanı nazlı tərsayə.
Baxıb o hüsni-cəmalə, deyərdim: eşq olsun
O incə fırçalı rəssamə, öylə ustayə.
Görüncə heyrətimi, halımı o nazlı mələk
Gözüylə başladı artıq işarə, imayə[3].
Təbəssüm ilə xiyabanə doğru meyl etdi,
İşıq salırdı üzü göydə parlayan ayə.
Yaxınlaşınca ona dərdimi bəyan etdim,
O qönçə ləblərini açdı nitqi-guyayə[4]:
"Sən ey cəmalıma çılğın kimi baxan məcnun,
Bu eşqim etdimi artıq səni qəmə dayə?
Dayanma, aç bana söylə, haralısan, kimsən?
Səbəb nədir ki, yolun düşdü bu xərabayə?"
Dedim ki: "Türkəm özüm, iştə dinim islamdır.
Yabançı idi könül eşqə, dərdə, sövdayə.

---

[1] Dörd fəsildə
[2] Yerə, məskənə
[3] İşarəyə
[4] Danışmağa

Kəməndi-zülfünü salmış qəza bu gərdənimə,
Çəkə-çəkə gətiribdir məni bu məvayə".
Bəyəndi nitqimi, göftarimi, dedi: "Apres!".
Bu aşiqanə cəvabə, bu nitqi-guyayə,
Ucaldı taleim, ol sərvi-naz qıldı kərəm
Şu xəstə aşiqini çəkdi xəlvəti cayə.
Bununla sərvi-xuramanım istəyirdi deməк:
"Yazıq, bu məxzəni-hüsnümdən[1] al ələ mayə".
Dedim: fəda bu günə, saətə, ilə, ayə,
Düçar qıldı məni sən kimi dilarayə.
Kəməndi-zülfdə könlüm, – dedim, – olur pamal,
Fəqət səadət ilə salmış üstümə sayə.
Mətanət ilə dözərdim fəraqə, bilsəydim
O ah-zarın olur intihası bu payə.
Cünuni-eşqinəm, ey könlümün sevinci mənim,
Fəda şu mərhəmətə, hüsni-xülqə[2], simayə.
O gül dodaqlarını qoy mən eyləyim tərif,
Keşiş çəkərmi mənim tək ona gözəl ayə?
Üzün çiçəkdir, açılmış o baği-hüsnündə,
Tərənə bülbülüyəm, mailəm bu bağçayə.
O dadlı ləl-ləbindən cahanda sərxoş olağ
Vurarmı busə ləbi-camə, çeşmi-səhbayə?[3]
Fəda o qəmzəli, ceyran baxışlı gözlərinə,
Fəda o nazlı xuraman, sərvi-balayə[4].
Aman, aman, bana böylə xumar-xumar baxma!
Ki od vurur baxışın xərməni-şəkibayə[5].
Sıra-sıra düzülən o xədəngi-müjganın[6]
Dağıtdı könlümü yeksər, gətirdi qovğayə.
O zülfün olsa əlimdə nə bakim[7] əjdərdən[8]

---

[1] Gözəllik xəzinəmdən
[2] Əxlaq gözəlliyinə
[3] Qədəhin gözünə
[4] Uca boya
[5] Səbr xərməninə
[6] Kirpiyinin oxları
[7] Qorxum
[8] Əjdahadan

Bütün cahan tapınar öylə hüsnə, sövdayə.
İnan, Məsih də vurulmuş o sərv qamətinə,
Nihan baxar üzünə, həmd edər təalayə.
Cahanda aşiq olan sən kimi dilarayə,
Gedərmi cənnətə huri, deyə, təmənnayə!..
Sənin yolunda da, dilbər, gərək mən ad çıxarım,
Düşə adım bu yaxın və uzaq hər ölkayə.
Bu Şaiqin ola dillərdə böylə əfsanə:
Çevirdi üz qəmi-tərsadə[1] dəşt-səhrayə.
Gülə-gülə dedi Şaiq: "Əsirgəməm canımı,
Sənin kimi belə bir xoş nəvalı şeydayə".

*1904*

[1] Xaçpərəst qızının qəmində

# *Poemalar*

# ƏDHƏM

Dağın döşündə qaralmaqda bir aul; o gözəl
Və şən mühiti bəzər yamyaşıl uca məşəl.
Üzük qaşı kimi qucmuş onu sərin bağlar,
Geniş dərə, qara orman, uca sıra dağlar.
Çiçəklər ilə döşənmiş çayır, bayır, gülşən,
Budaqda quşlar ötür hey şirin-şirin, şən-şən.
Uçur buludlar üfüqlərdə toplanır əlvan,
Üzür yaşıllıq içində dərə, təpə, orman.
Uzaqda qarlar içində şəfəq vurar Kazbek,
İlan kimi ətəyindən axar köpüklü Terek.
Yosunlu daşlara hiddətlə çarparaq çağlar,
Səda verər iki yandan qucaqlaşan dağlar.
Qanadların qayaya çırparaq uçar qartal,
Yerə dikər gözünü, ov üçün baxar, dərhal
Keçər hücuma, qanadlı bir ox kimi şığıyar,
Havalanar, azacıq sonra caynağında şikar.
Qovar yamacda bir ahunu ov üçün səyyad,
Mələr balaları ardınca hey edər fəryad.
Dönər sürü, naxır, ilxı yaşıl yamaclardan,
Mələşmədən verər əksi-səda bu dəm hər yan.
Enər yaxın dərəyə qızlar əllərində səhəng,
Dodaqlarında gözəl nəğmə, incə bir ahəng.

Çinar dibində oturmuş qoca, cavan yeksər.
Keçən savaşlara dair nə duyğular bəslər!
Biri tüfəngini tərif edir, biri hünərin,
Biri qılıncını, bir başqası atın, yəhərin,
Vüqar ilə çinara söykənib qoca Ədhəm,
Keçən zamanlara aid nələr deyir bilməm,
Yavaş-yavaş danışır gördüyü zamanlardan,
O qəhrəmanlara dair düzüncə bir dastan,
Ürəkləri qovurar intiqam şərarələri,
Gəzər dodaqları kinli döyüş təranələri:

Biz çəkildik dağ başına,
Qonduq yamaclar qaşına.
Çatmaz bura düşmən əli,
Burda yanar el məşəli.
Qorxumuz yox, olsa yağı
Yurdumuzun solu, sağı,
Hər qaya bir sipər bizə,
Hər daş böyük səngər bizə.
Bir gülləmiz keçməz boşa,
Oxlarımız dəyməz daşa.
Atımızın cinsi bəlli,
Döyüş bizə bir təsəlli.
Ana yurdumuz bu torpaq
Yetişdirməz xain, qorxaq.

* * *

Təlaş içində yetişdi qaça-qaça Aslan,
Əli, ayaqları titrər kimi bağırdı: "Aman!
Amul bəyin ürəyindən vuruldu bir xəncər!"
O anda ortalığı aldı bir dumanlı kədər.
Qımıldanıb qoca Ədhəm baxıb ona, durdu:
"Kim idi qatili?" – ondan vüqar ilə sordu.
"Ədil, Gəray bəyin oğlu, pozuldu hər adət!"
Üzündə ixtiyarın oynadı kədər, hiddət.
Dedi: "İnanmayıram, bu bizim Amul olmaz!
Yel olsa da keçə bilməz yanından o yaramaz".
"Ədil Amul bəyi yensin, mahal bir iş bu, fəqət,
O xain, alçaq ona vermədi bir an fürsət".
Bilincə vəqəni qaşlar çatıldı şiddətlə,
Yerindən oynadı bir dağ kimi o hiddətlə.
Qonub kəhər atına qəlbi kin ilə doldu,
Qanadlı ox kimi gözdən bir anda qeyb oldu.

* * *

Dağı, daşı çaparaq ildırım kimi dolaşır,
Yanır qoca ürəyi, intiqam üçün alışır.

Uzaqda kölgə görüncə deyir: “Deyilmi yağı?”
Yaxınlaşınca sönür tez ümidinin çırağı.
Köpüklənir tər içində uçur kəhər madyan,
Burun dəlikləri şişmiş, saçır köpük və duman.
Dəli kimi dolaşır, bir şey olmayır hasil,
Nə etsin? Ah, nə çarə? Tapılmayır qatil.
Tapılmayır, dolaşır hər qədər keçidli dağı,
Ümidi məhv olaraq enmək istəyir aşağı.
Dolandırır gözünü hər yana bir ovçu kimi.
Uzaqda atlı görüncə alovlanır ələmi.
Edir qaraltıya diqqət, duyunca düşmanını,
Damarlarında onun oynayır alovlu qanı.
Uçur həmin ovun ardınca sanki bir qartal
Baxınca arxasına, Ədhəmi görüb dərhal
Vurur atı, çaparaq yel kimi gedir qatil,
Görünməyir, qayalar ortada olur hail[1].
Uçur dalınca onun intiqam üçün Ədhəm,
Gözündə dalğalanır qəm tozu, tutub matəm
O, yorğa madyanı məhmizləyib deyir: “Ey atım!
Yetir ona özünü, yoxsa ki, sönər həyatım”.

Gecəydi... at yıxılınca enişdə başaşağı.
Qırıldı qatil Ədilin qolu və sağ ayağı.
Süründü bir qaya altında oldu tez pünhan.
Sızıldayır ayağı, səs çıxarmayır; bu zaman
Yetişdi Ədhəm onu görməyib qopardı fəğan,
Kədərli qəlbinə çökdü isitməli həyəcan.
Piyada çox aradı, çox dolaşdı hər tərəfi,
Şaşırtmış idi onu ixtiyarlığın kələfi.
Uzaq, yaxın qaralan hər çalı və sarp qayalar
Ona Ədil görünürdü; gözündə od parlar.
Həzin-həzin dolaşır, titrəyir əli, ayağı,
Qaralmış idi acıqdan üzü, gözü, dodağı.
Gedir, yenə dayanır, hey dərin-dərin inlər,

[1] Çəpər; maneə

Çox axtarır onu, ancaq tapılmayır bir əsər.
Təkan verib qayaya gözlərində kin və ələm,
Həzin-həzin düşünürdü yenə qoca Ədhəm,
Başında qanlı xəyalat, atəşin xülya,
Önündə al qan içində Amul durur guya,
Baxıb ona deyir: "Aldınmı intiqamımı, ah!"
Dumanlara bürünüb qeyb olur yenə nagah,
Atıb tüfəngini Ədhəm uşaq kimi ağlar,
Həzin iniltisi, fəryadı dağ-daşı dağlar.
Keçirdi o gecəni dərd içində bu minval,
Ona verirdi təsəlli ümidi-istiqbal.
Dumanlı gözləri bir qanlı məşələ dönmüş,
Baxır o yan-bu yana; odlu gözləri sönmüş.

* * *

Şəfəq söküldü, üfüqlər qızardı qat-qatışıq –
O al dodaqlı gəlin saçdı kainata işıq,
Ayıldı dağ, dərə, orman, çayır, bayır, gülşən,
Sevimli quşlar ötüşdü şirin-şirin, şən-şən.
Qanadların qayaya çırparaq cəsur şahin,
Ov axtarır od içində, baxışları kəskin.
O, ovçu gözlərini bir zaman dikib dərəyə,
Yığır qanadlarını, ox kimi enincə yerə,
Civildəşir, sığınır yarpaq altına quşlar.
Sükut içində bulaqlar həzin-həzin çağlar.
Tüfəng əlində o, ətrafı diqqət ilə gəzər,
Nə eyləsin ki, Ədildən görünməyir bir əsər.
O çeynəyir bığını, titrəyir əli, ayağı,
Qısa cığırla enir bir kiçik dağı aşağı.
"Nicat tapdımı xain?" – deyə qıyır gözünü,
Qədəm-qədəm dolaşır, axtarır yenə izini.
"Görünməyir, bir əsər yox, sevinmədi muradım.
Bu ixtiyar zamanımda qırıldı qol-qanadım." –
Deyə oturdu bir az baxdı hey sola və sağa,
Tüfəngə söykənərək dikdi gözlərin uzağa.
Üzünə qəm tozu çökmüş niqab şəklində,
Gözündə göz yaşı titrər sərab şəklində,

Önündə durmuş atı bir qaya kimi ölgün,
Həzin-həzin o qoca dağlıya baxır küskün.
Hava, fəza o qədər saf ki, zərrələr titrər,
Yaşıl bir atlas içində sevimli mənzərələr:
Terek qayalara çarpar, köpüklənir, çağlar,
Beşikdə sanki ağır xəstə bir uşaq ağlar.
Nədir düşündüyü, bilməm onu qəm almışmı?
Təbiətə, bu gözəlliklərə bayılmışmı?
Dumanlı fikrinə şəfqətli bir xəyalmı gəlir?
Ya intiqam – deyə, gizlin tökür acı tədbir?
Baxışlarında qəzəb, kin və intiqam odu var.
Gözündə ancaq onun bir böyük ümid parlar.
Üfüqdə pənbə şəfəqlər yavaş-yavaş saralır,
Duman enir dərəyə, parlayan sular qaralır,
Dəyərli bir ovunu qeyb edən bir ovçu kimi,
Kədər ilə qayıdır o evə, tamam əsəbi.

* * *

Dünən Amul bəyi gömmüşdülər soyuq məzara,
Qapı ucunda oturmuşdu hüznlə Zəhra,
"Oğul, Amul!" – deyə çarpazlamışdı cüt qolunu,
Maraqla gözləyirdi ancaq Ədhəmin yolunu.
"Neçin bu dərdli qoca gəlmədi?" – deyə hərdən,
Soluq yanaqlara yaşlar tökürdü gözlərdən.
Uzaqdan Ədhəmi Zəhra görüncə çırpınaraq,
Qaçıb atın cilovundan tutub dedi: – Mənə bax!
Nə oldu, uf, yaşayırmı hələ bizim düşmən?
Bəs oğlumun qanını almadınmı, ey qoca sən?
Suala qarşı donub qaldı o qoca məbhut[1].
Baxışdı göz-gözə onlar, uzandı xeyli sükut.
Atından endi, nəhayət, soruşdu: – Harda Amul?
– O dəfn edildi dünən, bir qərib kimi yoxsul.
Atanla yan-yanadır, get görüş, gecikmə, aman!
Qonaq var evdə, yubanma ki, dərd edir tüğyan.
Kədərli çöhrəsini sardı kinli bir matəm,

[1] Heyran

Dedi: – Onun qanını almamış hələ getməm.
Atı verib qarıya o köhnə adət ilə,
Qonaq olan otağa girdi çox nəzakət ilə.
Yatırdı xəstə yataqda, görüncə Ədhəm onu
Dərindən inlədi: “Eyvah, bu nə qəza oyunu!”
Amul məzarda yatır, intiqam üçün özənir[1],
Evimdə qanlısı bir dost kimi müsafirdir.
Yorulmuş idi, yatırdı, yataqda xəstə yağı.
Qoca o çal başını dikdi bir qədər aşağı.
Başında qanlı fikirlər duman kimi coşdu,
Dəniz kimi ürəyi çalxanıb, haman daşdı.
Düşüncəli sifətində bulud kimi dərd-qəm,
Dayandı düşmən önündə sükut ilə Ədhəm.
Nədir görən ürəyindən keçən, ədavətmi?
Bu qatilin ona göstərdiyi xəyanətmi?
Yanırmı şölələnib intiqam üçün ürəyi?
Nə gözləyir, nəyə durmuş, nədir daha diləyi?
Məramı olmasa aydın, baxışlarında fəqət
Var idi bu qonağa qarşı mərhəmət, şəfqət.
Davam gətirmədi qəlbi, nə çarə, naləsinə,
Oyandı düşməni sərsəm kimi onun səsinə.
Görüncə Ədhəmi qalxdı, oturdu qanlı yağı,
Siması andırır idi dumanlı, çənli dağı.
Qoca bir azca mətanətlə topladı özünü,
Əlilə sildi yaşarmış zəif, sönük gözünü:
– Amandasan, – dedi, – qorxma, yat, ol bir az rahət.
Üzündə cilvələnirdi onun ziya, şəfqət.
Bu incə hörmətə qarşı Ədil əyib başını,
Kədərlə çatdı, odur, enli və çatıq qaşını.
Qoca verirdi təsəlli: – Qonaq, düşünmə bir an.
Kiçik bu daxmama bir quş kimi sığınmışsan.
Bunu özün də bilirsən ki, yox zaval qonağa,
Tutar bu adəti girsən bu kənddə hər ocağa.
Unutdum oğlumu, keçdim qanından, etmə kədər.

---

[1] Çırpınır

Bu bir qəza işidir, hər başa gələr və keçər...
Uzan, uzan yatağında bir azca ol rahət,
Sınıqçılıqda qazandım bu ölkədə şöhrət –
Deyə, ayaqlarını açdı o qoca Ədhəm,
Təmiz yuyub yaraya qoydu faydalı məlhəm.
Beş-altı gün ona göstərdi çox böyük hörmət,
Ədil bəyin ayağı tapdı bir qədər səhhət.
Görüşdü evdə böyüklə, kiçiklə xəstə qonaq,
Gedirdi evlərinə. O qoca da tez qaçaraq,
Minib atı yola salmaq üçün o mehmanı.
Bu mərhəmətlərə qarşı Ədilin vicdanı
Çox ağrıdırdı onu, qəlbi hey sızıldardı,
Canında sanki tutuşmuş böyük alov vardı.
Yola çıxınca dedi xəstə: – Ey böyük insan,
Bir azca dinlə məni, bax, odur məzarıstan.
Amul bəy ilə görüşmək mənim bu son diləyim,
Onu ziyarət üçün çırpınır, inan, ürəyim.
Bu arzumu qəbul et, mənim ilə birlikdə,
Onunla mən görüşüm; dostum idi dirlikdə.
Səma də lənət edir tutduğum bu xain işə.
Ricam budur, ata can, mane olma bu görüşə.
Sükut içində atı sürdülər: məzarıstan
Tökürdü qəlbinə hər atlının zəhər kimi qan.
– Amul bəyin məzarı hardadır? – deyə sordu.
Qoca işarə ilə göstərib yenə durdu.
Atından endi Ədil, qarşısında diz çökdü,
Götürdü torpağını öpdü, öpdü, yaş tökdü.
Uzatdı xəncəri: – Al intiqamını, bəlkə,
Başımdan uçsun içimdə sızıldayan bu ləkə!
Qocada sönmuş idi artıq intiqam və kin,
Atından endi yerə, verdi qatilə təskin.
Ədil coşurdu, ona etməyirdi heç təsir.
İçində qəlbini sanki qara ilan gəmirir:
– Sağ ol, – dedi, – ata can, yandırır məni vicdan,
Bu hal ilə yaşaya bilmərəm; bu haqsız qan,
Bu mərhəmət mənə onsuz da bir məzar olacaq.

Ağır gəlir üzərimdə günah və qan daşımaq.
Neçin bu əllərim onda qırılmadı, heyhat!
Şərəf sönərsə, ölümdən ucuz deyilmi həyat?
Mən istərəm, ata, atəş içində çırpınaraq,
Məni yakan suçu başqa günah ilə almaq.
Fəqət Amuldan ayırma məzarımı, bu qana
Bulaşmasın əlimiz, ibrət olsun anlayana!
Bağışla, el nəzərində, ata, mən indi nəyəm?
Amulla yan-yana yatmaq! – Bunu, bunu dilərəm. –
Deyib o, xəncərini soxdu qəlbinin başına,
Uzandı al qan içində böyük məzar daşına.

*1908*

# İKİ FAMİLİYANIN MƏHVİ

*Firudin bəy Köçərliyə*

**1**

İki qardaş: Səfər, Əmir Aslan
Borçalı torpağında çox ad-san
Qazanan bəylər olmuş, hər birinin
Var idi çox dəyərli və zəngin
Uc-bucaqsız, gözişləməz əkini,
Qoruğu, tarlası, ağır biçini.
Sürüsü, ilxısı, pəyə, yatağı,
Yamyaşıl otlağı və meyvə bağı.
Uca, ali sarayları məşhur,
Sərvət etmişdi onları məğrur.

**2**

Səfərin Telli adlı bir dilbər,
Nazik əndam, gözəl, pəripeykər,
Alagöz, şux baxışlı, laləüzar,
İşvəli, qəmzəli gözəl qızı var.
O gözəl rəngi, göz-qaşı mütləq
Ona məxsus təbiət etmiş xəlq.
Niyə daldın, şaşırdın, ey rəssam?
Çəkdiyin varmı böylə şux əndam?
Böylə süzgün baxışlı dağ pərisi,
Böylə hüsnü məlahət abidəsi?
Belə qaş-göz, bu incəlikdə dəhən?
Bu pəri qız hələ beşikdə ikən
Əmir Aslan bəyin böyük vələdi
Daşdəmirlə nişanlanıb, indi
İki gündür ki, başlanıb toylar,
Kənd şənlik içində hey qaynar.
Bürümüş kəndi səs-səmir və təlaş,
Dost, tanış, yad, bütün qohum-qardaş

Düzülüb şən, qatar-qatar, səf-səf,
Çalınır bir tərəfdə tambura, dəf.
Bir tərəfdə aşıq çalır, oxuyur,
Gül-çiçəkdən hava ətir qoxuyur.
Çalğını dinləyir hamı məftun,
Telli ancaq düşüncəli, məhzun,
Saf, təmiz çöhrəsində dalğınlıq,
Ala, şux gözlərində bayğınlıq.
Qara geymiş sevimli kipriklər,
Onu dırmaqlayır düşüncə, kədər.
Quş kimi qəlbi çırpınır, lakin
Gizlədir köksünü əzən kədərin.
Ona bu toy, bu təntənə, bu büsat,
Qanlı matəm kimi gəlir, heyhat!

**3**

Payızın bir soyuq və dəhşətli
Gecəsiydi; ağır və qisvətli
Sis, duman qoynuna girib hər yan:
Uyuyur kənd, dərə, təpə, orman.
Göydə ulduzlar inci tək düzülür,
Arxasından buludların süzülür
O qaranlıqda bir sönük ulduz
Kimi dalğın, düşüncəli bir qız
Əlinə sövkəyib gözəl başını,
Axıdır damcı-damcı göz yaşını.
Dolu vurmuş qanadları düşgün,
Yaralı quş kimi həzin, küskün.
Ağac altında müztərib, yalnız,
Ağlayır: – Ey Oğuz, – deyə halsız, –
Səndədir, səndə qəlbim, ey sultan,
Ruh ilə, qəlb ilə yaşar insan.
Mənə sənsən verən sevinc, həyat,
Bunu gəl indi onlara anlat!
Könül azadə bir quşa bənzər,
Sevdiyi şaxəyə qonar və ötər.

Yad olar qəlbi möhnət ilə qəmə,
Ona kim əmr edər ki, sus, ötmə!
Quş qədər olmadımmı? Ah, nədən,
Dil-ağızsız hələ, beşikdə ikən
Bir soyuqqanlıya nişanladılar,
Bundan, ya rəbb, nə ləzzət anladılar?
Bağlayıb ol zamandan əl-qolumu,
Kəsdilər hər tərəfdən, ah, yolumu.
Qoymadılar baxam işıq cahana,
İndi bir qaz necə düşər dumana,
Qalmışam ortalıqda sərgərdan,
Yox işıq, hər tərəf mənə zindan.
Başıma oldu dar geniş dünya,
Dil-ağızsız qara malam guya.
Qarşıma ot-samandan atsınlar,
Öz bəyəndiklərinə satsınlar.
İnsanam, yoxmudur mənim ürəyim?
Daşmıyam? Yoxmudur mənim diləyim?..
İnlədikcə solur bahar yanağı,
Qovrulur qönçə gül kimi dodağı.
Boynunu iztirab, kədər bükmüş,
Düşünür, gözlərin yerə dikmiş.
Keçən azadə, bəxtiyar günlər
Canlanırkən önündə hey inlər.
Ağarır ay kimi bəti-bənizi,
Titrəyir, gözlərində qorxu izi.
Qəlbini sızladır o qorlu yara.
Düşünür qəmli, yad edir sonra.
Oğuz ilə o gün görüşdüyünü,
Min fərəhlə xatırlayır o günü.
Yad edir sonra ki, üç ay əqdəm,
Hələ yaylaqda idi şən, xürrəm,
Çaharşənbə günü yaşıl təpədə,
Yığılıb qızlar ilə bir yerdə,
"Can gülüm" oynayanda öz üzüyün
Kasaya saldı, eylədi diləyin.
Diləyinə bu çıxmış idi o gün:

“Mən aşıq sizə gəlləm,
Can gülüm, can-can!
Sürmə çək, gözə gəlləm,
Can gülüm, can-can!
Yüz il qazamat çəksəm,
Can gülüm, can-can!
Çıxcağın sizə gəlləm,
Can gülüm, can-can!
Onu titrətdi faldakı “qazamat”,
Mənə zindan olar, – dedi, – bu həyat.
Görünür ki, yaram bitişməyəcək,
Oğuza, ah, əlim yetişməyəcək.
O gecə yatmamışdı bir zərrə,
Ağlayıb qarğamışdı Daşdəmirə.
Yanağın indi də yaş islatdı,
Tellini bu düşüncə ağlatdı.
Qəlbini sıxdı bu üzüntü, kədər,
Daldı birdən-birə o gülpeykər,
Bir həzin tövr ilə gözün yumdu,
Qara, qorxunc xəyallara cumdu.

**4**

İndi öz halına qoyaq o qızı,
Başlayaq tərifə igid Oğuzu.
Bu daha adlı-sanlı bəyzadə,
Əqrəbalı, qəni və çox sadə,
Şux sima, güləş, açıq üzlü,
Dəlisov, mehriban, şirin sözlü.
Telli çoxdan Oğuz bəyə vurğun,
O da olmuşdu Telliyə məftun.
Uşaq ikən Oğuzla dağ pərisi,
Bir-birin sevmiş idi hər ikisi.
Yığışıb kənd uşaqları xəlvət,
Oynayırkən “gəlin-gəlin” hər vəxt
Hər uşaq bəy olurdu başqa qıza,
Telli mütləq gəlin olur Oğuza.

Onu sevmiş, deyər, gülər, oynar,
Ona eylər məhəbbətin izhar.
İndi də qəlbi o Oğuz bəydə,
Ona qəlbən sitayiş etməkdə.
Daşdəmir bəy kürəkli, qamətli,
Sərt baxışlı, ağır təbiətli,
Sözü ötkəm, iradəli və cəsur,
İzzəti-nəfsini tutan, məğrur,
Gurlayan səsli, həm də heybətli,
İri qaşlı, acıqlı, hiddətli
Gənc idi, az deyib, gülüb-danışan.
Daşdəmirlə görüşdüyü hər an
Titrədərdi qızı acı qüvvət,
Bəsləyərdi ona dərin nifrət.
Görüşürkən Oğuzla lakin ən
Bəxtiyar bir uşaq kimi şən-şən
Açılar gül kimi, deyər və gülər,
Danışar çox maraqlı söhbətlər.
Ona ruhilə bağlamış ülfət,
Daşdəmir bəydən eyləyir nifrət.
Bunu andıqca dəhşət əndamın
Alaraq, hey kəsirdi aramın
Çünki müşkül məqamda idi işi,
Düşünürdü: "Oğuz ilə sevişi
Bir zaman çox yaman zərər verəcək,
Qanlı, dəhşətli bir səmər verəcək.
İki güclü familiya birdən
Olacaq bir-birilə çox düşmən".
Bu düşüncə damarların yığdı,
Üstünə ildırım kimi şığıdı.
Qəlbini odlu qəm, kədər aldı,
Qara, müdhiş fikirlərə daldı.

**5**

Telli yad eylədi Oğuzla dünən
Ağlaya-ağlaya görüşərkən,

O demişdi ki: “Səbr elə, Telli!
Olmuşuq bir obalı, bir elli.
Sən mənimsən sevimli, nazlı quzu,
Hey önündə bu diz çökən Oğuzu
Bacarıqsız sanırsan, ah, yoxsa,
O fələk də dizin yerə qoysa,
Səni pəncəmdən heç ala bilməz,
Sar qızıl quşdan ov sala bilməz.
Ağlama, üzmə boş yerə özünü,
Anlayarlar, amandı, sil gözünü.
Bir dayan, gör ki, nə oyun açacam,
Toy içində səni alıb qaçacam.”
Bu ümid qəlbinə verir təskin,
Yenə də qəlbi çırpınır, lakin,
Şübhə ilə ümid zavallı qızı
Titrədir, bivəfa sanır Oğuzu,
Üzünü bir qara duman bürüyür,
Ağlayır, qəmli mahnılar oxuyur:
Əzizim neylim sənə,
Düşübdür meylim sənə.
Mən dönsəm üzüm dönsün,
Sən dönsən, neylim sənə!
Əzizinəm, ya sabah,
Bülbül oxur: “Ya sabah”.
Bir yanda toy şənliyi,
Bir yanımda yasa bax!
Bürüyür qəm bulud kimi üzünü,
Çevirib göylərə ala gözünü,
Buluda, ulduza o şux dilbər,
Gizli-gizli məlalını söylər.
O tükənməz fəza, o ay, o bulud,
Dinləyir bu şikayəti məbhut.

**6**

Ey qaranlıq yayan qalın gecələr!
Ey həzin, ey qara alın gecələr!

Ey hüdudsuz fəza, dərin boşluq,
Duyğusuz, qayğısız, sərin boşluq!
Ey buludlar, sönük qara ləkələr,
Uçuşan parça-parça şəbpərələr[1]!
Göy üzündən bizə baxan ulduz,
Gecə minbir çıraq yakan ulduz!
Siz, siz ey yeddi parlayan ülkər,
Hər yeri seyr edən gözəl kürələr!
Nə qədər dərdli gənc, qoca miskin,
Ağlaya-ağlaya ürək sirrin
Sizlərə açmış, eyləmiş fəryad,
Çarəsiz göydən istəmiş imdad.
Gözləyirkən böyük ümidlə nicat,
Birinə tutdunuzmu əl? Heyhat!

* * *

Ağarıb dan yeri, günəş doğmuş,
Onu ancaq duman, bulud boğmuş,
Onların arxasınca hey sürünür,
Arabir şöləli üzü görünür.
Dərələrdən yavaş-yavaş lərzan
Qalxaraq parça-parça sisli duman,
Bürüyür qarlı dağların başını,
O dumanlar içində yoldaşını
İtirən qəlbi dərdli bir durna
Şərqə doğru uçurdu tək-tənha.
Qorxudurdu onu acı hicran,
İnləyir çöl, çəmən, çayır, orman.
Bu sönüklük içində bir şuriş[2],
Qarışıq bir gurultu, bir cünbiş[3].
Çalınır çox həvəslə el rəqsi,
Balaban, zurna, tar, kamança səsi.
Gurlayır, məclis əhli əl çalaraq,

---

[1] Gecəquşular
[2] Qarışıqlıq
[3] Kef, əyləncə

Oynayır qız, gəlin, qadın coşaraq,
Ürkərək bu gurultudan quşlar
Bu budaqdan uzaq budağa qonar.

**7**

Əmir Aslan bəyin evi parlaq
Toy büsatilə şənlənir, qaçaraq
Dırmanır kənd uşaqları ağaca,
Əks edir səs, gurultu dağ, yamaca.
Axışır kəndlilər bir azca uzaq,
Uca yerdə hamı alay vuraraq,
İzdihamlı büsatı seyrə dalır,
Hər yeri bir maraqlı şənlik alır.
Azacıq keçməmişdi qopdu səda,
Gəlir öz dəstəsilə Aslan ağa.
Dilə gəldi kamança, zurna, qaval,
Aslanı bəylər etdi istiqbal.
Öz atından düşüncə Aslan ağa,
Önünə çəkdilər gəlimli buğa[1],
Nə qədər üzr istədi Aslan,
"Yox!" – deyə, səs ucaldı hər yandan.
İzdihamı o gözucu süzdü,
Buğanın boynunu vurub üzdü.
Qopdu bir şən bağırtı hər yerdən:
"Afərin, afərin, a bəy, əhsən!
Uzun olsun o bəxtiyar ömrün!"
Bu böyük hörmət idi Aslan üçün.
Adlı bəylərlə doldu sol və sağı,
Evə dəvət elədilər qonağı.
Hamı şən-şən deyir, gülür, yalnız,
O büsatda görünməyirdi Oğuz.

---

[1] Borçalı türklərində belə əski bir adət var ki, bayramlarda və ya toy kimi əziz günlərdə ehtiram üçün ən möhtərəm və igid qonağın qarşısına buğa çəkərlər. Həmin adam birdəfəyə qəmə ilə gərək buğanın boynunu vurub yerə salsın.

## 8

Atlılarla çölün düzü dolmuş,
Sanki məhşər günü qiyam olmuş.
Daşdəmir bəy hazırlanıb cıdıra[1],
Bir komandan kimi iki tabura
Atlını böldü, mərzəcən çaparaq,
Bir-birindən cıdırları qaparaq,
Tez atın qarnı altına girərək,
Gizlənir, tez yenə ata minərək.
Göstərir hər biri məharətini,
Tez yenə meydana çapır atını.
Əydilər baş, cıdır bitincə, bəyə,
Sonra birdən düzüldülər sıraya.
Bir başa quş kimi yenə uçaraq,
Kənd içinə yetişdilər çaparaq.
Kənddə susmuşdu o gurultulu səs,
Söyləyirdi yavaş-yavaş hər kəs:
"Götürübdür Oğuz qaçıb gəlini".

* * *

Bir işıq yox, bütün çıraq sönmüş,
Kənd qaranlıq məzarlığa dönmüş,
Hökm edir fırtına, boranlı soyuq,
Göy üzündə işıq nişanəsi yox.
Hər tərəf dəhşət ilə mürgüləyir,
Göy üzü kəndə sanki qəm ələyir.
Uca bir köşkdə fəqət bir işıq
Görünür kölgələrlə qat-qarışıq.

[1] Borçalı türkləri qədim adətlərinə görə, əziz bayramlarda və toylarda cıdır oynarlar. Kəndin cavanları, igidləri atlanır, bir yerə toplanır və aralarından "bəy" (komandan) intixab edirlər. Toyda komandanlıq edən mütləq "bəy" dedikləri damad olmalıdır. Məzkur bəy atlıları iki dəstəyə ayırır. Geniş bir meydanda hamısı çalışaraq və əllərində saxladıqları qol yoğunluqda və arşın yarım uzunluğunda olan "cıdır" ya "cirit" dedikləri dəyənəyi iki dəstə bir-birinə atar və artıq məharət və çapınlıqla cıdırı dəf edərlər. Aralarında şiddətli yara alan və ölən dəxi olur. Adətlərincə, cıdırda ölənin və ya yaralananın qanı belə müvaxizə edilməzmiş.

Orada gizli bir hazırlıq var,
And içir, bağlayır hamı ilqar:
“Ya ölüm, ya ki, intiqam!” – deyərək,
Qurana and içir hamı tək-tək.

* * *

Yenicə dan yeri açılmışdı,
Tar işıq aləmə saçılmışdı.
Daşdəmir kinli əjdəhayə dönüb,
Qara tüklü yapıncıya bürünüb,
Aynalı bir tüfəng alıb əlinə,
Sıçrayır quş kimi atın belinə.
At nə at – dağ kimi uca, dilbər,
Tükləri tər-təmiz, qara məxmər.
Cilovun çeynəyir, yeri hey eşir,
Kişnəyir, gah sıçrayır və düşür.
Çox sürükdə birincilik şərəfin
Qazanıb; o mahalın hər tərəfin
Səsi basmış, fəqir, qəni, əyan
Dillərində bu at olub dastan.
Bir alov parçasıydı o, şəksiz,
Göstərirkən ona bir az məhmiz,
Açılır şiddət ilə göz qapağı,
Qaçır o, sanki yerlərə ayağı
Dəyməyir, quş kimi qanadlanaraq,
Yorğalar, boş fəzaları yararaq,
Onun üstündə Daşdəmir darğın,
Çeynəyir şiddət ilə dil-dodağın.
Arxasında on-on beş atlı qoçaq,
Düşmənin kəndinə gedir çaparaq.

**9**

Qanlı, dəhşətli bir səda, şivən,
Bürümüşdü o kəndi hər yerdən.
Güllə göydən dolu kimi tökülür,
Qazmalar, daxmalar çökür, bükülür.

Bir tərəfdən o kəndi qurşun əzir,
Bir tərəfdən alov içində üzür.
Tayalar od tutub alovlanmış,
Tüstüdən hər tərəf dumanlanmış.
Şölələr hər yana şərarə saçır,
Çox fəlakətli, qanlı lövhə açır.
Kənddə körpə, çoluq-çocuq mələşir,
Çoxu qurşun yeyib qana büləşır.
Qarışır bir-birinə mal, heyvan,
Sürü, ilxı, naxır, köpək, məstan
Quyruğun dikləyib ora-buraya,
Soxulur ormana, çölə, talaya.
Yan-yana Telli də Oğuzla o gün
Atmış idi ovuc-ovuc qurşun.
Qızmış idi vuruşma bu arada,
Oğuzun qardaşı Süleyman ağa
Çox igid idi, göstərib cürət,
Düşmənə vermədi bir an fürsət.
Onları tez darıxdırıb sıxdı,
Güllə ilə üçün yerə yıxdı.
Daşdəmir bəy qolundan aldı yara,
Səs-səmir yatdı, sakit oldu ara.

**10**

Bir qaranlıq gecəydi, Telli, Oğuz
Bağça ağzında əyləşib yalnız
Cüt göyərçin kimi tutub ülfət,
Dadlı-dadlı edirdilər söhbət.
Bağda bir səs, qaraltı hiss etdi,
Oğuzu bu qaraltı titrətdi.
Götürüb tez tüfəngini durdu.
Kölgəni tez nişanlayıb vurdu.
Bir həzin səs dedi: "Mənəm, namərd!"
– Vay! Süleyman, sənmisən? – deyə, cəld
Yetişib gördü qardaşı cansız
Yıxılıb torpağa. Zavallı Oğuz

Şaşırıb ağlını, vurur başına,
Dizi üstə çöküb də qardaşına,
Sarışıb səslənir: – Süleyman can!
Hıçqırıqlarla ağlayırdı: – Aman,
Qardaşım, mənmi vurdum, ah, səni?
Kədərindən əsir bütün bədəni.
Üzünün saf təravəti sönmüş,
Gözləri qanlı məşələ dönmüş.
Qəmli dəhşətlə fikrə dalmışdı,
Ələmə, matəmə sarılmışdı.
Onu inlətdi bir xəyal birdən,
Götürüb tez tüfəngini yerdən
Dayadı qəlbinə, o dəm Telli,
Qaçaraq: – Vay! – deyə, ikiəlli
Tutdu, – Eyvah, tərəhhüm eylə mənə,
Qurban olsun, Oğuz, bu Telli sənə.
Belə bədbəxtliyi, aman, etmə,
Məni namərdlərə qoyub getmə!
Məni əvvəlcə öldür, ah, sonra...
Yara üstündən, ah, vurma yara!
Oğuz: – Eyvah, – deyə vurub başına,
Ağlayıb bərk sarıldı qardaşına.

* * *

Qanlı bu işlərin sonu noldu?
Borçalı ah-fəqan ilə doldu.
Yenə getdikcə kin alovlandı,
İntiqam macərası başlandı.
İki adlı familiya bitdi,
Bir-birin qırdı, əzdi, məhv etdi.
Oldu bir çox igid bu yolda fəda,
Artıq ərşə dayandı zülm, cəfa.
O iki dudiman yanıb söndü,
Varları, yoxları külə döndü.
Susdu artıq o gurlayan səslər,
Bir çoxunu çürütdü məhbəslər.
O böyük nəsldən nişan olaraq,

Bir uçuq köşkdür qalan ancaq.
O da olmuş xərabə, viranə,
Sanki matəm tutur o kaşanə.
Elə bil qanlı dudiman ocağı
İndi olmuş qoyun-quzu yatağı,
Bir zaman gurlayan o təntənələr,
Köşkü şənləndirən o qəhqəhələr
Yerinə indi qəm məkan etmiş,
Çünki bayquşlar aşiyan etmiş.
İndi də o uçuq xərabə durur,
Qanlı bir macəraya tənə vurur.

*1910*

## QOÇPOLAD

Yenə könlümün quşu
Dönmüş ovçu tərlana,
Aşır eniş-yoxuşu,
Qanad çalır hər yana.

Havalanır, yol əngin,
Minmiş ilham atına.
Sənət fəzalarının
Atılmış üst qatına.

Dilində min-bir dastan
Bülbül kimi şaqırdar.
Şair qəlbi bir ümman –
Aç, onda gör nələr var!

Şair qəlbi bir dəniz,
İçin-için çalxanır.
Fəza kimi sahilsiz –
Onda məşəllər yanır.

Könül vurğundur çoxdan,
Heyva onda, nar onda,
Dilində min-bir dastan –
Oxu, nələr var onda!

Hər dastan bir xatirə –
Həm tarixi bir görüş;
Yaxına, keçmişlərə
Zaman-zaman gömülmüş.

Hər birində bir əsrə
Cığır açan izlər var,
Uzaq dərinliklərə
İşıq verən gözlər var!

Könül günəşdə, qarda
Dərin izlər yorğunu –
Düzdüyü dastanlarda
Bir qəhrəman vurğunu.

Hər gün axşam yıkanır
Al şəfəqlər gölündə,
Səhər tezdən oyanır
Şer, sənət çölündə.

Köhnə həyat bağından
Bir nar üzmək istəyir,
İnci kimi bir dastan
Sapa düzmək istəyir.

Çal, havalan santurum,
Çal ki, tellər oynasın!
Dolsun dərə, uçurum,
Donmuş dillər qaynasın!

Çal, hər mizrab yel kimi
Toxunduqca tellərə,
Aşıb-daşan sel kimi
Heyrət versin ellərə!

Ey qəlbimin santuru,
Səni çalır hansı əl?
Ey şerin orkestri,
Gurla, getdikcə yüksəl!

Bürünsün hər şux lövhən
İncə, rəngin tüllərə.
Axdıqca coşqun nəğmən
Qüvvət versin sellərə.

Bu odlu nəğmələrdən
Parlat sönməz bir məşəl.

Bu rəngin lövhələrdən
Qur əbədi bir heykəl.

Bir məşəl ki, al geyir
Girincə el bağına.
Bir heykəl ki, baş əyir
Yurdumun bayrağına.

* * *

Qəhrəmandır igid Aslan,
Adı düşmüş dildən-dilə.
Yoxdur ona qarşı çıxan,
Dağ kimi arxadır elə.

Onu bütün ölkə sevər,
Elin çarpan ürəyidir.
Kölgəsindən aslan ürkər,
Uçuq evlər dirəyidir.

Ölkədə hər gəlin, hər qız
Mahnılarda anar onu.
Həm yenilməz, həm amansız,
Ulu qüvvət sanar onu.

Qarşısında qopa tufan
Ürəyinə girməz qorxu,
Qurşandımı qılınc-qalxan,
Daşa dəyər düşmən oxu.

Minincə öz qıratına
Meydan açar əsən yelə,
Dönər tərlan qanadına,
Dönər coşqun axan selə...

Atına ad vermiş Ayaz,
Bir qardaşdır qoç Aslana;
Nədir eniş-yoxuş, duymaz,
Düzənlikdir hər yer ona.

Nişanlıdır ona Gülyaz,
Dağlarda bəslənmiş bu gül.
Dörd-beş ildir o sərvinaz
Qoç Aslana vermiş könül.

Aslan Gülyaz vurğunudur,
Onu gecə-gündüz anar.
Məhəbbətin yorğunudur,
Qəlbi bir şam kimi yanar.

Payız fəsli toy məclisi
Qovuşdurdu yarı yara.
Bunlardakı sevgi hissi
Dastan oldu aşıqlara.

Ay keçdi, il keçdi bundan,
Ayı, günü saydı Gülyaz.
Bir gün çiçək açdı fidan,
Bir qız doğdu, adı Çimnaz.

Qumralgözlü, gülyanaqlı,
Qara bulud saçlı bu qız,
Şəfəqüzlü, aybuxaqlı,
İşıq saçan o saf ulduz.

Eşqin, hüsnün budağında
Yeni açmış çiçək idi.
İki igid ocağında
Ən sevimli dilək idi.

Bu şən elə, ailəyə
Xain çıxdı azğın dövran.
Çoxdan bəri bu ölkəyə
Göz dikmişdi Qəzənfər xan.

Basqın etdi birdən-birə
Soxuldu el torpağına.

Qırğın saldı o ellərə,
Aldı quzğun caynağına.

El düşmənə qarşı durdu,
At oynatdı igid Aslan.
Meydan açdı, qılınc vurdu,
İrmaq kimi çağladı qan.

Ucaldıqca kin şöləsi
Söykəndi cəmdək cəmdəyə,
Qılınc, toppuz, nərə səsi
Dəhşət verdi yerə, göyə.

Uzun sürdü qanlı savaş,
Xalqı ağır günlər aldı.
Gücdən düşdü yavaş-yavaş,
Düşmən artıq məskən saldı.

Ölkə batdı qəmə, yasa,
Bir bədbinlik aldı eli.
Hər tərəfi basa-basa
Axdı fəlakətlər seli.

Aslan saldı dağda məskən,
Dəstəsilə yaşar orda.
Elə ziyan versə düşmən
Qanadlanıb uçar yurda.

Qolu güclü, qılınc kəskin,
Zalımları biçər gedər.
Ürəyində intiqam, kin,
Sərin sudan içər gedər.

El gücünə güvənərək,
Xəbər göndərmişdi Aslan:
"Bu ölkədə gec-tez, gərək
Yoxa çıxsın Qəzənfər xan!"

Zalım düşmən batmış yasa,
Ürəyinə çökmüş qorxu,
Qan içir hey kasa-kasa,
Gözlərinə getmir yuxu.

Qəzənfər xan bir tərəfdən
Gündə belə fərman verir:
“Gərək Aslan ölsün, hökmən!
Nayiblərim görsün tədbir!

Rəiyyət doymuşdur cana,
Baş qaçırır çox vergidən.
Güvənirlər qoç Aslana –
Odur elə yol göstərən.

Ölsə, bu el gələr yola,
Dirçələr bu ağalıqlar.
At çaparaq sağa-sola,
Ömür keçər şən, bəxtiyar”.

* * *

Günəş yorğun pəri kimi çəkildikcə qərbə sarı,
Al şəfəqlər göy üzündə dəniz kimi dalğalanır;
Çökür axşam qəribliyi; göyün əlvan buludları
Min-bir rəngə boyanaraq, üfüqlərdə sönür-yanır.
Qurd-quş girir yuvasına, səssizliyə dalır hər yan.
Çəkildikcə son şəfəqlər təpələri alır duman.

Dağ başından ay ucalır, hakim olur göylər yerə.
Göyün üzü parıldayır, şeh düşmüş bir gülşən kimi...
Göz qırpan o ulduzlara boyun bükür çöl, dağ, dərə.
Yarpaqların arasından mahtab keçər ürkən kimi.
Sanki aya tənə vuran gümüş əndamlı bir pəri
Ağ çiynində qara saçlar çılpaq gəzir o çölləri...

Bir qayanın ətəyində dirsəklənmiş igid Aslan,
Ov qaçırmış tərlan kimi gözü qalmış üfüqlərdə:

Uzaqlarda bir səs mələr, əks etdirər onu hər yan,
İgid Aslan: – Kimdir, – dedi, – təbiəti salmış dərdə!
Ulduzlar göz qırpdı ona, həsrət ilə baxdı göyə,
İnlədi: – Ah, nə dadlıdır sövdalı axşamlar, – deyə.

Aslan qəlbi çırpınaraq, gözlərinə çökdü duman,
Xəyalında gözəl Gülyaz canlandı bir pəri kimi.
Yerindən dağ kimi qopdu: – Görməmişəm, – dedi, – çoxdan.
Qaçdı yaşıl bir yamaca, bağırdı sərsəri kimi:
– Ürəyimə düşüb Çimnaz, yetir məni ona, Ayaz!
Tərlan atım, tez qanad aç, gözü yolda qalmış Gülyaz.

Yatmamışdır hələ Gülyaz, gözlərinə yuxu girməz,
Pəncərəyə dirsəklənmiş, baxır ulduzlara, aya.
– Aslanların daş qəlbinə, – deyir, – sövda oxu girməz.
Baxır yaxın dərələrdən həzin-həzin axan çaya.
Düşündükcə mərd Aslanı, ürəyindən nələr keçər!
Qorxunc xəyal, acı duyğu gül bağrını dələr keçər!

Öz dərdini aya söylər, axan ulduzlara söylər.
Hər şey ona dilsiz kimi baxır, onu alır kədər.
Dərələrdə çiçəklərə, yaşıl yarpızlara söylər,
Yara almış ceyran kimi Gülyaz həzin-həzin inlər.
Deyər: – Aman, ürəyimi əritdi şam kimi sövda.
Ovçum çəkilmiş dağlara, məni salmış yanar oda.

Aslanından uzaqlarda, yağılardan gizlin yaşar,
Çox aramış Qəzənfər xan, çatmamışdır ona əli.
Fikir, xəyal şəhpərində çöllər keçər, dağlar aşar;
Dərdinə tapmaz bir çara, ona yalnız bir təsəlli
Olmuş dumanlı ömrünün şən qönçəsi, qızı Çimnaz,
Saf eşqinin qoxusunu bundan alır gözəl Gülyaz.

Birdən-birə bir səs duydu, inanmadı qulağına,
Ürkək ceyran kimi durdu, diqqətlə dinlədi səsi.
Qəlbindəki sövda odu axdı o gül yanağına,
Ayın yumşaq işığında gördü bir atlı kölgəsi.

“Aslanını gətirmişəm” – deyə kişnər köhlən Ayaz.
Könül quşu qanadlandı, o tərəfə döndü Gülyaz.

Saç dağınıq, ayaqyalın “Aslan!” – deyə qaçdı çölə,
Sevincindən, həyasından birdən-birə o ağladı.
At üstündən igid Aslan baxdı ona gülə-gülə.
– Vəfalı dost! – deyə Gülyaz əvvəl atı qucaqladı,
Öpdü onun yalmanından gözündən yaş axa-axa.
Şaşqın-şaşqın, dilsiz kimi qaldı yara baxa-baxa.

Ayaz yaxında otlayır, Gülyaz ilə igid Aslan
Kiçik çeşmə kənarında oturmuş bir daş üstünə.
Əli əlində Aslanın gülər, inlər ürkək ceyran,
İncə şehli yarpaqlardan tökülürdü yaş üstünə.
Ürəyində dalğalanan kədərini yana-yana,
Köyrəlmiş bir uşaq kimi, bir-bir açır mərd Aslana.

Deyir: – Aslan, qoymadı can məndə bu ayrılıq dərdi,
Gecə-gündüz ovçu kimi yollardadır gözüm mənim.
Düşünməkdən saralmışam, dərd üstümə qanad gərdi.
Elə arxa bir igidsən, buna yox bir sözüm mənim;
Ürəyimdə yağ qalmadı, sənsiz günüm keçir qara,
Ya gəl öldür, qurtar məni, ya məni də al dağlara.

Qorxma, sənə yük olmaram, Qorxmaz – atam, Ülkər – anam,
Ürəyimdə kinim coşur, el qızıyam, mərdəm mən də.
Sən adlı bir pəhlivansan, mən də igid bir aslanam.
Qoy düşmənlə bir çarpışaq, gör nə hünər vardır məndə.
Məni, qızım Çimnazımı götür, apar sən özünlə:
Analar nə qızlar doğmuş, – bunu sən gör öz gözünlə!

Gülümsünə-gülümsünə Aslan dedi: – Gözəl Gülyaz,
Fikrini mən anlayıram, ancaq vəfasızdır dünya.
Dəniz kimi coş, dalğalan, göl kimi gəl olma dayaz.
Zalım düşmən salır candan yazıq xalqı soya-soya,

Elə bağlı bir cavanam, varmı mənim başqa çaram?
Söylə, Gülyaz, nəyə gərək yas içində bu toy-bayram?

Qızı ismət təri basdı, əyildi köksünə başı,
"Olma dayaz" fikri onu düşündürdü dərin-dərin.
Ona yalnız cavab verdi gözlərindən axan yaşı.
Yavaş-yavaş dan ağarır, çeşmə axır sərin-sərin,
Aslan dərindən inlədi, ürəyində acı, sızı:
– Hər gecənin gündüzü var, düşünmə, ey dan ulduzu!

Hürüşür kənd köpəkləri, sayıq xoruz verirdi ban,
Sönürdü sayrışan ulduz, ay dolanırdı batmağa.
Oturduğu daş üstündən bir dağ kimi qopdu Aslan,
Görüşdülər, ayrıldılar, duman çəkilirdi dağa.
Yenə dönüb dan yelinə qanadlanır, uçur Ayaz,
Arxasından gözüyaşlı həsrət ilə baxır Gülyaz.

Yenə uçur tərlan kimi, toz qoparır şehli yoldan.
Şişmiş burun dəlikləri körük kimi duman saçır.
Sanki onu ovçu qovur, Ayaz olmuş ürkək ceyran,
Dərələrdə, təpələrdə tərlan kimi qanad açır.
Yavaş-yavaş sökür şəfəq, üfüqləri əlvan bəzər,
Sanki əlində bir fırça, hər güldə bir rəssam gəzər.

Uzandıqca yol uzanır, hər tərəfi qalın orman.
At kişnədi, Aslan duydu, qılınca əl atar-atmaz
İki yandan birdən-birə basqın etdi xain düşman.
Bir ovçuya döndü Aslan, bir tərlana döndü Ayaz,
Ayaqları üzəngidə, qüvvət verib Aslan qola,
Şimşək kimi qılıncını endirirdi sağa-sola.

Ayaz da diş-dırnağılə düşmənləri əzir, keçir,
Qılınc-qalxan şaqqıltısı qorxu salır ürəklərə,
Əks etdirir bunu dağlar, dərələri gəzir-keçir;
Şığıdıqca igid Aslan, çəkdikcə hər dəfə nərə,
Qarşısından düşmən qaçır beli bükülmüş yay kimi,
Söykənmiş cəmdək cəmdəyə, qan çağlayır bir çay kimi.

Aslandakı o qüvvətə boyun əydi xain düşman.
Qarşısından tülkü kimi qaçıb doldu ormanlara.
İgid geniş nəfəs aldı, qına girdi qılınc, qalxan.
Kişnəyərək tərlan Ayaz cəmdəkləri yara-yara
Bax, dördnala uçur yenə dərələrdə yellər kimi,
Eniş-yoxuş təpələrdə dağdan axan sellər kimi.

Bu qorxulu hadisədən xəbər tutdu Qəzənfər xan,
Eşitdi ki, nayiblərin oxu yenə dəymiş daşa.
Çeynədi dil-dodağını, coşdu, daşdı acığından,
Dedi: – Mən min fitnə qurdum, gəlmədi heç biri başa.
Sağ qalarsa yetim Aslan, keçəcəkdir günüm qara.
Ölməyibdir Qəzənfər xan, tapar bu dərdə bir çara!

Sular çoxdan qaralmışdı, çəkildi qoç Aslan dağa,
Öpdü atın üz-gözündən, dedi: – Sənsən igid tərlan!
Düşmən iyi duyan atım, yordum səni, çıx otlağa,
Həm otla, həm keşikdə dur; qoyma gələ xain düşman.
Tumarladı Ayazını, üz-gözünü öpdü yenə,
Sonra yatıb dincəlməkçin çəkildi bir kol dibinə.

Qapqaranlıq bir gecədir, hər tərəfi sarmış duman,
Ay-ulduz da buludlardan qara geymiş, yox bir işıq.
Bir təpənin ətəyində şirin-şirin yatır Aslan,
Sağda-solda qurdlar gəzir, kölgə kimi qat-qarışıq...
Parıldayır qılınc, toppuz... Bir cinayət var gizlicə.
(Xain vicdan kimi qaral, ey qaranlıq xain gecə!).

Ceyran Ayaz çox aradı, Aslandan tapmadı bir iz,
Yalnız təpə ətəyində laxta-laxta durmuşdu qan...
İyləyincə cinayəti duymuş kimi, qaldı səssiz,
Çox axtardı, çox kişnədi, yoxa çıxdı igid Aslan.
Sökmə, şəfəq! Doğma, günəş! Sən də matəm tut, ey səhər!
Ey dan yeli, tez qanadlan, elə getsin qara xəbər!

Səhər Gülyaz oyanmışdı, düşünürdü yatağında.
Ayrılıqdan kədərlənir, sıxılırdı onun canı.

Alışırdı sövda odu qəlbinin can otağında.
“Bir də haçan gələr?” – deyə xatırladı qoç Aslanı.
Aşağıda iti səslə kişnəyincə ceyran Ayaz,
Sıçradı bir dəli kimi, çölə qaçdı bizim Gülyaz.

Görməyincə qoç Aslanı, qaldı ata baxa-baxa,
Ürəyindən keçdi nələr!.. Birdən bağırdı: – Ax, aman!
Qucaqladı ceyran atı, gözündən yaş axa-axa,
Dedi: – Ayaz, tez ol söylə, hanı vəfalı qəhrəman?
Gözlərindən yaş tökərək, yeri eşdi ceyran Ayaz,
Duydu qanlı faciəni, üzüquylu düşdü Gülyaz...

* * *

Çobandı Qəzənfər xana Qoçpolad,
O, bu yaz dolmuşdu on səkkiz yaşa.
Yamaclar başında açardı qanad,
Tərlan tək qonardı hər gün bir daşa.
Soyuqda, boranda güdərdi sürü...
Çox yaman keçirdi o gənclik ömrü.

Axşamlar dağları alınca duman,
Bir təpə başında, yanında köpək,
Xan, nayib əlindən çəkərək aman,
Yanıqlı-yanıqlı çalırdı tütək...
Gecələr ətrafa çökəndə sükut,
Yastığı qayaydı, yorğanı bulud.

Həsrətdi anaya, obaya, elə,
Qəlbini yalqızlıq sıxırdı hər an.
Baxdıqca yamacda bitən hər gülə,
Qəlbinə çökərdi qara bir duman.
Köksündə çarpardı polad ürəyi,
Gözündə parlardı uca diləyi.

Elinin dərdləri düşdükcə yada,
Qoçpolad qayıtmaq istərdi kəndə.

Xan qorxu gələrək igid Polada,
Onu bu dağlarda salmışdı bəndə.
Haqqı da verilmir, sıxılır canı,
Qəlbində qaynayır intiqam qanı.

Dedi: – O xan isə, mən də Poladam!
Paylaram sürünü bu yoxsul elə.
Ona baş əymədi Qoçoğlu atam.
Dağ kimi köksünü gərdi hər selə.
İndi qoy xan gəlsin bu dağ-daşıma,
"Sürümü ver!" – deyə, çıxsın qarşıma.

Baxmasın igidlər doğuran elə
Kollara sığınan bir dovşan kimi.
Verərik varını, yoxunu yelə,
Köksünü dələrək bir aslan kimi.
Görməmiş o hələ elin gücünü,
Tək-tək qəhrəmanlar almış öcünü!

O gündən sürünü payladı Polad,
Qarşıya çıxana bir qoyun verdi.
Yoxsulun qəlbində göyərdi murad,
Xana qan qusduran bir oyun verdi.
Sonra da ağaya göndərdi xəbər:
– Dağda pay-puş oldu bütün sürülər.

Bu xəbər çatınca xan alovlandı,
On igid göndərdi tutmaqçın onu.
Kinindən od tutub bədəni yandı
Dedi: – Qandallayın tez əl-qolunu.
Atın yedəyində gətirin bura,
Gərək el içində çəkilsin dara!

Poladı tutmağa gedən igidlər
At sürüb çatdılar Alaca dağa.
Qoçoğlu bu işdən tutunca xəbər,
Əl atdı dəmirli iri çomağa.

Dedi: – Mən payladım sürünü elə,
Sizi də bu dağda verərəm yelə.

Gələnlər dedi: – Ey Qoçoğlu, azma!
Xan səni istəyir, boyun əy əmrə!
Özünə əlinlə bir quyu qazma.
O xandır, sən çoban, düşün bir kərə.
Tərs olma, əmrindən qaçırma boyun.
Gəl, Polad, bizimlə oynama oyun.

Qoçpolad kin ilə güldü onlara,
Dedi: – Bu dağların sultanı mənəm!
O xanı salaram döyüşdə dara,
Bu geniş çöllərin aslanı mənəm!
Siz gedin, xan gəlsin, bu dağ-daşıma,
"Sürümü ver!" – deyə çıxsın qarşıma.

Gələnlər dedi: – Ey südəmər sultan!
İldırım önündə güvənmə dağa!..
Düşmənlər hücuma keçdi dörd yandan.
Qoçoğlu əl atdı yenə çomağa.
Dedi: – Qoy, ildırım gücümü görsün,
Südəmər uşağam, öcümü görsün!

Hünərlə atıldı, girdi meydana,
Endirdi toppuzu... partladı başlar.
Düşməni qoymadı gəlsin yaxına,
Al qana boyandı torpaqlar, daşlar...
Leş kimi sərildi qarşı gələnlər,
Canını qurtardı tək bircə nəfər.

O qorxaq, ürəyi dişində qaçdı,
– Qoçoğlu igidmiş, – deyə inlədi,
Yollarda quş kimi qol-qanad açdı,
Çatınca baş əyib xana söylədi:
– Gedənlər birbəbir sərildi yerə,
Mən qaçıb gəlmişəm sənə xəbərə.

Mindi kin atına, xan eylədi əmr:
– Kəndlərdən min atlı gəlsin meydana!
Acıqlı gəzərək, tökürdü tədbir,
Deyirdi qəlbində od yana-yana:
“On səkkiz yaşı var... Bu körpə ilan
Böyüsə olacaq ikinci Aslan”.

Qoçpolad bilirdi, bu kinin donu
Get-gedə başqa bir şəklə girəcək.
Qanlı bir döyüşdür bu işin sonu...
“Ölsəm də qarşıdan qaçmayım gərək!
Qorxsam bu savaşdan, alçağam, alçaq!..
Evimiz könlümə düşmüşdür ancaq.

Üç yazdır görmədim ana üzünü,
Andıqca qəlbimin içi sızıldar.
Bilirəm, yollara dikmiş gözünü
Gecə də, gündüz də çəkir intizar...
Görüşüb halallıq alaram ondan,
Dönərəm, yenidən açaram meydan”.

Yolda bir qocayla gəldi üz-üzə,
Poladı görüncə şəfqətlə baxdı,
Dedi: – Bu fil gövdən gəlməsin gözə.
Görüşün qəlbimdə bir məşəl yaxdı.
Görüncə tanıdım, sənsən Qoçpolad.
Bir zaman dillərdə gəzəcək bu ad.

Bilirəm, Qoçoğlu, kiçikdir yaşın,
Bu yaşda göstərdin böyük bir hünər.
Tutsan bu sözümü, ucalar başın,
Elindən gətirdim sənə bir xəbər:
Xainin qəlbini bir qorxu dəlir,
Min atlı toplayıb üstünə gəlir.

Bu dağdan gəl çəkil, çox gəncsən hələ,
Kamala dolmadın, həm də ki, təksən.

Düşmənin güclüdür, sən düşsən ələ,
Bu elə bir fayda verməyəcəksən.
Tez çəkil o qarlı, boranlı dağa,
O yaşıl yamaclı gözəl ovlağa.

Qoçoğlu bir zaman düşünüb qaldı,
Sordu: – Sən kimsən, ey möhtərəm qoca?
Sözlərin qəlbimə bir yanğın saldı,
Hər fikrin yanımda bir dağdan uca –
Sözünü minnətlə tutardım, ancaq,
Ar gəlir düşmənin önündən qaçmaq.

Dedi: – El aşığı Toxtamış mənəm.
Belimi bükdü bu ölkənin dərdi.
El xəzinəsidir alovlu sinəm,
Dərd məni qax kimi günəşə sərdi,
Oğlum yox, qızım yox, eldir mənliyim,
Bu elə bağlıdır dərdim, şənliyim.

Oğlum, tut sözümü, tez çəkil burdan,
Ehtiyat özü də bir igidlikdir.
Qoçpolad düşündü yenə bir zaman,
Dedi: – Ey Toxtamış, qaçmaq ar gəlir,
Gedirəm anamla halallaşmağa,
Oradan yenə də dönərəm dağa.

Gözlərəm düşməni, baxaram işə,
Çox ağır gəlsə də qaçmaq Polada,
Tutaram sözünü, düşmə təşvişə,
Çoxdan var hörmətim bu qoca ada –
Görüşüb qocadan ayrıldı Polad,
Yollarda quş kimi açdı qol-qanad...

Gecəydi, üfüqlər, göylər dumanlı,
İşıqlar sönmüşdü göylərdə, yerdə.
Dağlar yuxu görür qəmli, heycanlı

Ətrafa qaranlıq çəkmişdir pərdə.
Dar, kiçik daxmada yalnız bir çıraq
Yanırdı sarımtıl işıq saçaraq.

Yatmamış, oyaqdır qoca Qızxanım,
Oturmuş daxmada mehriban ana.
Deyir: – Ah, bu dərddən kül oldu canım,
Ey tanrı, qol-qanad vermə düşmana.
Qəhrəman olsa da oğlum körpədir,
Deyirlər üstünə min atlı gedir.

Neylər min kişiyə bir körpə? Allah,
Oğlumu bu elə çox görmə, – dedi.
Səs gəldi, köksünü oynatdı bir "ah",
Gözləri böyüdü, qəlbi titrədi,
Gülərək baxırdı ona Qoçpolad,
Qarının qəlbində gül açdı murad.

Ana şəfqətilə açıldı qolu,
Sevincək nəzərlə baxdı bir ona.
Həsrətli gözləri yaş ilə doldu,
Sarıldı oğlunun şumal boynuna.
Görüşdü, öpüşdü anayla oğul,
Qızxanım dedi: – Ey Qoçoğlu, sağ ol!

Bu dərddən, qorxudan qurtardın məni,
Deyirlər, üstünə min atlı gəlir.
Canına qəsd etmiş ölkə düşməni,
Bu qara xəbərlər qəlbimi dəlir.
Gecələr gözümə getməyir yuxu,
Məndə can qoymadı intizar, qorxu.

Sən necə qorxmadın gəldin bu kəndə?
Bu işi xan bilsə, çəkəcək dara,
Səni də, məni də salacaq bəndə...
Amandır, görünmə bu azğınlara!

Gecəykən çəkil, get uzaq bir yerə,
Bir müddət məskənin olsun dağ-dərə.

Gülərək Qoçpolad söylədi: – Ana!
Gəlmişəm səninlə halallaşmağa.
Toxtamış aşıq da söyləmiş mana,
Deyir, get bir zaman Boranlı dağa.
Düz deyil yaxşılıq edəndən qaçmaq,
Ancaq ki, ar gəlir düşməndən qaçmaq.

Qızxanım heyrətlə baxdı oğluna:
– Atanın dostudur, – dedi, – Toxtamış,
Eldə ağsaqqaldır, qulaq as ona,
Atanla şikara gedərdi yaz-qış.
Mənim də bax budur səndən istəyim,
Gözümdə qalmasın arzum, diləyim.

Qocanın və mənim sözümü tutsan,
Əmdiyin təmiz süd halaldır sana,
Qəlbimi dağlarsan bunu unutsan!
Ox kimi batdı söz körpə Aslana,
Üzünü, gözünü sardı bir bulud,
Daxmanı bürüdü dilsiz bir sükut...

Orada gizli bir hazırlıq gedir,
İşıqda titrəşir canlı kölgələr.
Baş-başa çataraq məsləhət edir.
Sönərək əriyir birdən ləkələr.
Azacıq keçmədən yenə qarışıq
Kölgələr canlanır, titrəyir işıq.

Açıldı daxmanın kiçik qapısı,
Çökdü ortalığa qatı bir zülmət.
Kölgələr yeridi gecəyarısı, –
Səssizlik ətrafa yayırdı dəhşət.
Arabir hürüşən itlər, çaqqallar
O dilsiz sükutu dələr, parçalar.

Yeriyir o iki kölgə durmadan,
Yeriyir uzanan bir yola doğru.
Yeriyir gözündə qəzəb, həyəcan,
Yeriyir, yeriyir sol qola doğru.
Qarşıda ağardı yolun ayrıcı.

Səssizcə durdular,
Birisi acı,
Yanıqlı dil ilə dedi: – Ay oğul!
O dərdli daxmamda səndin pənahım.
Bu şərdən, zülmdən sən qaç, tez qurtul,
Dağlara düşməsin fəryadım, ahım.
Çarə yox – sən sığın qürbət ellərə,
Dərdimi söylərəm daşqın sellərə.

Sən ancaq ayrıcın sol qolilə get,
Çayı keç, dağı aş, sonra çöl gələr,
Uzaqdan qarlı dağ görünər, səbr et,
Hər gecə sonunda var aydın səhər...
Qolunu açaraq ona sarıldı,
Kirpiklər islandı, kölgə ayrıldı.

O kimdir gecənin zülmət çağında
Boranlı üfüqlər onu çağırır?
O kimdir vəhşətin sərt qucağında
Bir kölgə arxadan ona bağırır:
– Yavaş get, zülmətin kini var, sakın!
Yollar daş-kəsəkdir, qanar ayağın.

Səfərin haradır? Yolçu, mənə bax!
Hər yerdə o azğın qurdlar dolaşır.
Qurtuluş axtarma, göy, dəniz, torpaq –
Vəhşətdən sarsılmış, fəlakət daşır.
O yerdə insanlar insan gəmirir.
Ürək daş olsa da baxdıqca ərir.

Düşünmə, hər yerdə qurdlar varsa da,
Səninçin çırpınan ürəklər də var!

Bu geniş məmləkət sənə darsa da,
İradən, qüvvətin hər şey yaradar!
Ey yolçu, uğurlu olsun səfərin!
Buludsuz günəşlə dolsun səhərin!

Gənc yolçu çatmışdı Boran dağına.
Ona göz qırpırdı titrək işıqlar.
Heyrətlə baxırdı uzaq, yaxına,
Təbiət qoynunda bir hənirti var:
Göylərin gözünə işıq gəlirdi,
Gecənin bağrını şəfəq dəlirdi.

Başında min atlı xan çıxdı dağa
Acıqlı gözündən kin yağa-yağa.
Bağırdı: – Hanı bu dağın sultanı?
Gəldim dağ-daşına at oynatmağa.

Poladı tapmaqçın başlandı yarış,
Aranır dağ, dərə, çöl qarış-qarış...
Qoçoğlu tapılmır, o çıxmış yoxa,
Bir fayda vermədi uzun axtarış.

Keçərkən Boranlı dağın yanından,
Dedilər: – Bu yerdə yaşamaz insan!
Bu dağlar qaraquş, quzğunlar yurdu,
Hökm edir burada qasırğa, boran...

Döndülər, oxları dəymişdi daşa.
Toxtamış deyirdi: – Qoçoğlu, yaşa!
Bir gün sən gərəksən bu dərdli elə.
Xan coşdu kinindən, qan vurdu başa.

Acıqdan çeynədi dil-dodağını,
Hirsindən yeyirdi ürək yağını.
Bağırdı: – Heyvanlar, miskinlər kimi,
Dönməyin üstümə, tapın yağını!

Qoçpolad qalxmışdı Boranlı dağa,
Yalqızca yaşardı kin boğa-boğa.
O igid qəlbini sıxardı hər gün
El dərdi, yalqızlıq, bir də qasırğa.

Kinindən gözünə getməzdi yuxu,
Şahinlər yurdunda duymazdı qorxu.
Enirdi arabir Ceyran düzünə,
Görüncə ov, boşa çıxmazdı oxu.

Ceyranın ətindən yeyərdi kabab.
Qarların suyundan içərdi şərab.
Dağ çiçəklərindən bağlardı buta,
Şehlərdən üzünə vurardı gülab.

Qaranlıq çöküncə coşardı kədər.
Ayrılıq, yalqızlıq edərdi əsər.
Yatmaqçın girərdi qaya altına,
O igid qəlbindən keçərdi nələr...

Deyirdi: "Fikrimdən döndərdi anam,
Toxtamış qoymadı odlara yanam.
El üçün ölümdən qaçarmı igid?
Bu eldə mən ki, bir ovçu aslanam!

Andıqca qəlbimə saplanır bıçaq.
Xan məni o dağda çox axtaracaq.
Tapmayıb deyəcək, qarşımdan qaçdı,
Məni həm qorxaq, həm miskin sanacaq.

Qurd kimi sığındım mən bu dağlara,
Qəlbimin içində sızlayır yara.
Qorxuram o xain tapmayıb məni,
Kinindən anamı çəkdirsin dara.

Bu dərdə dözərmi Qoçoğlu Polad?
Ölüncə bir qara ləkədir bu ad.

Anamı buraxıb xain düşmənə,
Özüm bu dağlarda yaşasam azad.

Mənimlə oynama oyun, ey fələk!
Məndə var filləri susduran ürək.
Qarşıma dənizlər, dağlar çıxsa da,
O qoca anamı qurtarım gərək".

Qaranlıq çökdükcə sıxlaşır bulud,
Dağlara çökmüşdür həzin bir sükut.
A dağlar, qoynunda Qoçpolad yatır,
At qara çadranı, dərdini unut.

Dan yeri ağardı, qalxdı Qoçoğlu,
Ürəyi qəzəblə, həsrətlə dolu.
Enməyə başladı Boranlı dağı,
Qayalıq, ağaclıq kəsmişdi yolu.

Enirdi əlində toppuz durmadan.
Gözünə çökmüşdü qaranlıq duman.
Bir qaya yanından keçərkən Polad
Dəhşətli bir nərə qopardı qaplan.

Poladın qəlbindən keçdi bir ayaz,
Toppuzu qaldırdı, dayandı bir az.
Göz-gözə baxışdı iki qəhrəman,
Dedi: – Bir igiddən bir igid qorxmaz!

Qaplan pəncəsilə eşirdi yeri,
Üzündə, gözündə acıq əsəri.
Baxarkən arabir mırıldanırdı,
Şam kimi yanırdı yaşıl gözləri.

İkinci bir nərə qopardı qaplan,
Səsindən titrədi dağ, dərə, orman.
Dikəldi quyruğu, qoşa qulağı.
Dağ kimi yerindən oynadı düşman.

Atıldı ox kimi gəldi üz-üzə,
Baxışdı hər iki yağı göz-gözə,
Atarkən pəncəni toppuz oynadı,
Döndü qan fışqıran başı kəhrizə.

Nərələr qopardı o dönə-dönə,
Mərd kimi döyüşdən dönmədi yenə.
Hiddətlə atılmaq istərkən qaplan,
Qoçoğlu yenidən cumdu üstünə.

Toppuzu havada oynadı bir də,
Qaplanı yaralar salmışdı dərdə.
Ölümlə gələrək pəncə-pəncəyə,
İnləyə-inləyə çırpındı yerə.

Düşmənin gözündə qaraldı murad,
Başının üstünü aldı Qoçpolad.
Baxdıqca ürəyi yumşalıb dedi:
– Dağlar sultanıydın, yaşardın azad.

Dost bilib sığındım sənə, ey naşı!
Sandım ki, olarsan igid yoldaşı.
Doğru bir məsəlmiş ata-babadan:
“Girməz bir qazana iki qoç başı”.

Çirməndi, qaplanı durdu soymağa,
Öpüşdü onunla dodaq-dodağa.
Dedi: – Sən hakim ol heçlik elinə,
İndi mən hakiməm Boranlı dağa.

Hənirti eşitdi yaxın dərədən,
Polad o səs gələn səmtə dönərkən,
Gördü Toxtamışla anası gəlir,
Baxırlar ovçuya – Polada şən-şən.

Bağırdı: – Xoş gəldin, əzizim ana!
Toxtamış, canım da qurbandır sana.

Anamı düşməndən qurtarım deyə,
Gəlirdim, rast oldum quduz qaplana.

Oğlunun boynuna ana saldı qol:
– Boyuna bu ana qurban, ay oğul!
Ömrümün bir günü keçməsin sənsiz,
Qabağında ölüm, sən var ol, sağ ol!

Xan səni tapmadı, kəsildi çara,
Əmr etdi ananı çəksinlər dara.
Toxtamış bu işdən tutunca xəbər,
Gecəykən gizlincə qaçdıq dağlara...

Qoçpolad qocanın öpdü əlindən,
Dedi: – Əziz baba, min yaşa, əhsən!
Anamı qoymadın düşmən əlində,
Ölüncə bu elə, sənə qulam mən.

Toxtamış dedi ki: – Bu sözlər nədir?
Sağlığın bizimçin böyük töhfədir.
Görürəm, dönmüsən qızmış aslana,
Toppuzun dağlarda qaplan titrədir.

Sına bu gücünü dağlarda, sına!
İgidlər and içir sənin başına.
Bir zaman gələcək, yaxındır o gün,
Döyüşkən qılıncın sığmaz bu qına.

Toxtamış Poladla gülür, danışır,
Arabir ana da sözə qarışır.
Get-gedə uzanır dadlı söz-söhbət,
Poladın fərəhi başından aşır.

Gizlicə, astaca xan adamları,
Üz qoydu Boranlı oylağa sarı.
Qılınclı-qalxanlı yüzlərcə kişi,
Atları yedəkdə çıxdı yuxarı.

Yaxından gəlirdi ayaq səsləri,
Qızxanım dinləyib dönərkən geri,
Səslənib bağırdı: – Gələn var, oğul!
Qoçoğlu sıçrayıb getdi irəli.

Əyildi, ağaclar altından baxdı,
Gözündən dəhşətli tufanlar axdı.
Gördü, hey adamdır dırmanır dağa,
Elə bil köksündə ildırım çaxdı.

Səsləndi: – Toxtamış, tez ol, durmadan
Anamla bir qaya altında saxlan.
Sən ona ürək ver, düşünmə məni,
Üstümü almışdır amansız düşman.

Mən qaçdım, yer aldı namərd ayağı,
Həm sağdan, həm soldan bürüyüb dağı,
O bizi köməksiz, arxasız bilir,
Qoy görsün gücümü o xain yağı!

Atıldı ox kimi düşmən üstünə,
Toppuzdan keçirdi kim gəldi önə.
Vururdu, salırdı qara torpağa,
Meydanda sağ-sola hey dönə-dönə.

Atırdı qayanı, daşı bir yana,
Cəmdəyi bir yana, başı bir yana...
Toppuzdan əyilir yağı düşmənin
Gözləri bir yana, qaşı bir yana.

Bir kötük ardında qoca Toxtamış
Poladın yayını əlinə almış,
Ox ilə düşmənin bağrını dəlir,
Yağının gözündə dünya qaralmış.

Qoçpolad çəkdikcə hey qorxunc nərə,
Səsindən titrəyir bütün dağ-dərə.

İnadla çarpışan düşmən bağırır:
– Durmayın, leşini tez sərin yerə!..

* * *

Çimnaz da Gülyazdan, Aslandan sonra,
Oğlan paltarında düşmüş dağlara.
Arayır qatili, tapmayır əsər,
Qəlbində sızlayır o köhnə yara.

O gün də üz qoydu Boranlı dağa,
Kiçik bir cığırla dırmaşdı sağa.
Yoruldu, dincəlmək fikrilə Çimnaz,
Ayazı buraxdı yaşıl otlağa.

Dərənin döşündə otlayır Ayaz,
Çırpınır, kədərlə düşünür Çimnaz.
Poladın nərəsi coşdurdu onu,
Belə bir zamanda igid dayanmaz!

O səmtə qaçaraq baxdı meydana,
Gördü gənc bir igid batmış tər-qana,
Dörd yandan üstünə düşmən tökülmüş,
O isə dönmüş bir qızmış aslana.

Hünərlə kəsdirir düşmən yolunu,
Hər yana atırsa polad qolunu,
Əzilir baş-cəmdək, boşalır sağ-sol...
Bu qanlı döyüşdə bəyəndi onu.

“Mən də el qızıyam, qorxmuram”, – deyə
Siyirmə qılıncla getdi köməyə.
Sol yandan düşmənin aldı üstünü,
Onun da nərəsi ucaldı göyə.

İgidi görüncə sevindi Polad,
Meydanda yenidən açdı qol-qanad.

Zərbədə dördünü sərirdi yerə,
Düşmənin gözündə sönürdü həyat.

Yağıdan qalmışdı yalnız beş kişi,
Poladda görüncə bu tərpənişi
Üz qoyub qaçmağa; dedilər: – Əsla
Batmaz bu nəhəngə canavar dişi!

Çimnazla Qoçpolad kəsdi cəld yolu,
Hünərlə tutdular tez sağı-solu.
Qalmadı xana bir xəbər aparan,
Qalan beş atlının bağlandı qolu.

Elə ki büsbütün boşaldı meydan,
Şəfqətlə baxışdı iki pəhləvan.
Əvvəlcə Toxtamış, sonra Qızxanım
Sevinclə çıxdılar qaya altından.

Qoçpolad Çimnazla verdi əl-ələ,
Heyrətlə baxaraq o qönçə gülə
Dedi: – Dar günümdə köməyə çatdın,
Ey igid qəhrəman, sən kimsən, söylə?

Çimnazın köksünə əyildi başı,
Bir an heç dinmədi, çatıldı qaşı,
Söylədi: – Soruşma mən kiməm, bu gün
Düşmənin anası tökdü göz yaşı.

Çox sağ ol, bəyəndim, qoç igidsənmiş.
Səndə var igidə layiq tərpəniş.
Qarşında fillər də diz çökər, inan,
Qəlbimdə bir sevinc doğurdu bu iş.

Çəkildi yüz qədəm, əlində alma
Qız dedi: – Ey oğlan, nişan al, durma!
Qoçpolad yay ilə nişan alarkən,
Anası bağırdı: – Ay oğul, vurma!

Dəmirdir, uzanar, verərsən ziyan...
Qoçoğlu qəlbində duydu həyəcan,
Atdı bir tərəfə yay ilə oxu,
Heyrətlə, şəfqətlə baxdı bir zaman.

Dedi: – Yox, atmaram sənə bu oxu,
Qəlbimə çökdü bir dumanlı qorxu.
Bir ziyan olursa, biləyim düşsün,
Yozulmaz xeyrə bu şübhəli yuxu.

Almanı Polada ataraq Çimnaz
Dedi: – Al, kənarda çəkil dur bir az,
Bu oxum keçəcək tən ortasından,
Qorxma, ey qəhrəman, oxum yayınmaz!

Almanı ovcunda tutdu Qoçpolad,
Kamandan çıxınca ox açdı qanad.
Almanı tən yarı bölərək keçdi,
Qoçpolad bağırdı: – Afərin, ustad!

Əlində yay, Çimnaz ona yanaşdı,
Hamının sevinci qaynayıb daşdı.
Toxtamış Çimnaza diqqətlə baxıb:
– Ay oğul, sən kimsən? – deyə söz açdı. –

Biz dostuq, açıq ol, çəkinməyi at.
Sən hansı obadan, eldənsən?.. Anlat!
Bu dağa nə üçün gəlmişdin, söylə!
Gəl otur, bu kiçik məclisə bal qat!

Qocaya gülərək söylədi Çimnaz:
– Ay baba, soruşma, söyləmək olmaz.
Bir zaman bilərsən, indi çal-oxu,
Sənə çox yaraşır qoynundakı saz.

Eşitmək istərəm telli sazını,
Ellərə səs salan xoş avazını.

Çal–oxu el oğlu igid Aslandan:
Kim pozdu çiçəkli, güllü yazını?

Toxtamış gülərək əl atdı saza,
Güc verdi sinədən qopan avaza.
Qəhrəman Aslandan dastan oxudu,
Çimnazın ürəyi gəldi pərvaza.

Poladın qəlbində qopdu bir tufan.
Dedi: – Ey Toxtamış, kimdir bu Aslan?
Adını atamdan eşitdim bir az,
Bir az da anlatdı dağda bir çoban.

Bu canlı dastanın etdi çox əsər,
Sağmıdır? Ölmüşmü? Söylə bir xəbər!
Uşaqkən bağlandım igid Aslana,
Andıqca qəlbimin telləri titrər.

Sağ isə, gedərəm onun yanına,
Keşikçi olaram igid canına.
Ölmüşsə, taparam azğın qatili,
Boyaram mən onu murdar qanına.

Düşüncə içində susdu Toxtamış,
Könlünü üşütdü boranlı bir qış.
Dedi: – Ey Qoçoğlu, açma yaramı,
Könlümü, beynimi bir duman sarmış.

Çoxdandır, dağlarda, yaz gələn zaman
Bir kolun dibində yatarkən Aslan,
Gecəykən əlində qılınc, ox, toppuz,
Dörd yandan qurd kimi soxulmuş düşman...

Arada getdi o igidin qanı,
Göstərən olmadı xain düşmanı.
Çox gəzdik, dolaşdıq, tapılmadı iz.
Bu eldə elə bir qəhrəman hanı?

Bu qanlı xəbəri aparmış Ayaz.
İntiqam hissilə kükrəmiş Gülyaz
Qatilin izilə gəzdi çox zaman,
Qəhrəman qadındı, ölümdən qorxmaz.

Dumanlı düşüncə sardı Poladı,
Göylərə yüksəldi acı fəryadı:
– Qatili kim isə, tapılsın gərək!
Ölüm dəftərinə yazılsın adı!

O alçaq xaindən el qana düşər,
İntiqam atəşi hər cana düşər,
Qəhrəman Aslanın qanını almaq
Bir poladürəkli qaplana düşər.

Ucadan bağırdı acıqlı səslə:
– Gülyazı nə oldu? Keçdimi ələ?
– Yox, – dedi Toxtamış, – qəhrəman idi,
Analar belə qız doğmamış hələ.

Qanlının ardınca düşmüşdü izə,
Bir yerdə düşmənlə gəlmiş üz-üzə,
İnadla döyüşmüş bitincə gücü.
Özünü qayadan atmış dənizə.

Özündən qəhrəman, gözəl qızı var,
Üç ildir yalqızca ormanda yaşar,
Adı da Çimnazdır, bu qəhrəman qız
İntiqam hissilə qanlını arar.

Yaralı ov kimi Polad inlədi,
Köksünün içində bir ah dinlədi.
Bir zaman dalaraq düşüncələrə:
– O igid Çimnazı tapsaydım, – dedi.

Köksünə əyildi Çimnazın başı,
Qəlbinə töküldü gözünün yaşı.

Üzünü çən kimi bürüdü kədər,
Ürəyi döyündü, çatıldı qaşı.

Dözmədi bu hala, yerindən durdu:
– Sənədir, – dedi, – bu elin umudu,
Hazır ol, ayıq ol, güclüdür düşmən,
Qoru öz canını, qoru bu yurdu!

Cavan olsan da sən igidsən, yaşa!
Sonra o üz döndərdi Toxtamışa:
– Çox sağ ol, Toxtamış, sağ ol, ay ana! –
Deyib halallaşdı, qalxdı bir qaşa[1].

Hər üçü arxadan baxdılar ona,
Adını gizlədən gənc pəhləvana.
Qızxanım dedi: – Bu, qızdan gözəldir,
Bu igid bənzəmir əsla oğlana.

Toxtamış Polada axşama qədər
Saz çaldı, Aslandan oxudu nələr!
Yedilər, içdilər, uzandı söhbət,
Ürəkdən silindi sıxıntı, kədər.

Axşamdı... ətrafa çökürdü duman,
Günəşin ətəyi çəkilir dağdan...
Toxtamış yerindən qalxaraq dedi:
– Yolçu yolda gərək, ey igid oğlan!

Al, sənə bu sazım qalsın yadigar,
Bu incə simlərdə min-bir dastan var!
Bu sissiz dağlarda yar olsun sənə,
Çaldıqca qəlbindən qəm-qüssə qaçar.

Oğul, bir sözüm var, söyləyim sənə:
Seçilmiş igidlər topla dəstənə.

[1] Burada dik, təpə mənasında işlənmişdir.

“Tək əldən səs çıxmaz!” – demiş atalar,
Eldə sel gücü var, qulaq as mənə.

Bilirəm, çox çəkməz, telli sazımla,
Çıxaram qarşına şən avazımla.
Bir dastan düzərəm Polad adına,
Könlümdə gül açan güllü yazımla.

Toxtamış Polada möhkəm sarıldı,
Yaşaran gözlərə kirpik darıldı.
İgidin alnından öpərək qoca,
Mənalı gülüşlə ondan ayrıldı.

Qoçpolad həsrətlə baxdı arxadan.
Qaya da sızıldar qoparkən dağdan,
O iki sevimli – ana və oğul
Boranlı dağlarda qaldı bir zaman.

Poladla öyünür ölkəsi, eli,
Fərəhdən ağzına sığmayır dili.
Deyir: – Toppuzuna əl atsa Polad,
Düşmənin yay kimi əyilər beli.

Toxtamış arabir gedib-gəlirdi,
Baxdıqca Polada fərəhlənirdi.
Aslandan bir dastan deyib gedərkən,
Qoçpolad çox zaman kədərlənirdi.

Anası Qızxanım dağa gələli
Üstündə titrədi şəfqətli əli.
Keçmişdən dastanlar açırdı ona,
Polada verərdi bir az təsəlli.

Qoçoğlu dönürdü bir gün şikardan,
Dərədən keçərkən çiynində ceyran,
Yaxında inilti eşitdi birdən,
Əlində toppuzu qaçdı durmadan.

Gördü qurd ağzında can verir ana;
Dörd yandan daraşmış ac qurdlar ona.
Anası bağırır: – Yetiş, ay oğul! –
Əlləri, köynəyi bulaşmış qana.

Qurdların üstünə atıldı Polad,
Dəmirbaş toppuzu açdı qol-qanad.
Ac qurdlar torpağa sərildi bir-bir,
Qızxanım yaradan edirdi fəryad.

Buludlu gün idi, qopmuşdu boran,
Dağlara, dərəyə çökmüşdü duman.
Qoçoğlu Poladın qolu üstündə
Anası Qızxanım təslim etdi can.

Sanasan üstünə töküldü dağ-daş.
Dərdindən gözünü islatmadı yaş.
Meyitin üzünə həsrətlə baxdı,
Dedi: – Həm anaydın mənə, həm qardaş.

Boranlı bu dağda qalmaram sənsiz!
Tutardım səni mən canımdan əziz.
Həsrətli ölümün, ey əziz ana,
Qəlbimdə buraxdı silinməz bir iz.

Dırmaşdı ən uca qarlı bir qaşa,
Buludla, boranla çıxdı savaşa.
O qaşın başında bir məzar qazdı,
Dedi: – Kim dırmaşar bu dağa-daşa?

Anama burada olmaz toxunan;
Yastığı daş-torpaq, yorğanı duman...
Bu qarlı təpələr olsun keşikçi,
Məzarın yerini bilməsin düşman.

O gözəl vücudu uddu ac məzar,
Poladın başına dünya oldu dar.

Dedi: – Bu gün anam qonaqdır sənə,
Qoynunda hörmətlə saxla, a dağlar!

Siz də, ey qar-boran, ey duman, bulud,
İnləyin, sızlayın, etməyin sükut,
Kişnə, ey ildırım, ağla ey səma,
Qəribdir, anama hörmətlə yas tut!

Qəlbində kin, kədər, acıq, intiqam
Hayqırıb dedi: – Ey sevimli anam!
Qanlı köynəyindən ucaltdım bayraq,
Dost-düşmən qoy görsün hər səhər-axşam.

Qəbrinin üstündə oturdu bir az,
Poladı kəsirdi qar, boran, ayaz.
Gözünü üfüqdə batan günəşə
Dikərək oxudu, çaldı qəmli saz.

Dağdan qopsa ağır qaya,
Səsi dağa, daşa düşər.
Ayrılıqdan könül yansa,
Göz, kirpiklər yaşa düşər.

Nə yamandır hicran odu,
Toppuzumdan titrər ordu,
Qəhrəmanmış ölüm qurdu,
Atdığım ox boşa düşər.

Həsrət ilə öldün, ana.
Qoydun məni yana-yana.
Kinimlə mən doydum cana,
Bir gün düşmən başa düşər.

Hörmətlə süzərək o uca dağı,
Məzardan ayrıldı, endi aşağı,
Qəzəbindən bağrı odlanıb, dedi:
– Gəlirəm, hazır ol, ey miskin yağı!

* * *

Polad endi bir dərəyə,
Ürəyində min bir kədər.
Yaxınlaşdı bir çeşməyə,
Xəyalından keçdi nələr!
Baxdı o saf parlaq suya,
İçdi ondan doya-doya.

O çeşməyə baxdı bir də,
Dedi: – Söylə, sən ey bulaq,
Könlün neçin düşmüş dərdə?
Kəsilmiş dağ-dərə qulaq,
Dinlər səni həzin-həzin,
Söylə, nədir dərdin sənin?

Suyun gecə-gündüz çağlar,
Ömrüm kimi axar, gedər,
Nədir dərdi, neçin ağlar?
Ürəkləri yaxar, gedər.
Zülm əlindən sən də yoxsa,
Qan içirsən kasa-kasa?
Eldən çıxan igid Aslan
Söylə, bu yerdən keçdimi?
Ovuc-ovuc o qəhrəman
Sərin suyundan içdimi?
Anlat mənə, gözüm bulaq!
Sənə qurban özüm, bulaq!

Polad coşdu birdən-birə,
Basdı sazı tunc köksünə,
Toxundu incə tellərə,
Dağlar səs verdi səsinə...
O qəhrəman qoç Aslandan
Oxudu bir parça dastan:

Darandıqca qıvrılan tel
Üz üstündə yana düşər,

Əl vurma ki, bu coşqun el
Bircə teldən qana düşər.

Boynubükük bir gül kimi,
Yaralı bir bülbül kimi,
Saralar göy sünbül kimi,
Eşq atəşi cana düşər.

Əldə daraq, gözəl Gülyaz
Tel ayırar o sərvinaz,
Uzaqdan kişnəsə Ayaz,
Əlindəki şana düşər.

Qar-borandır uca dağlar,
Ətəyindən sellər çağlar,
Kəklik, turac gülər-ağlar,
Səsi gur ormana düşər.

Nə böyükdür elin dərdi!
Xalq gül əkdi, tikan dərdi.
Onun dağdan ağır dərdi
El oğlu Aslana düşər.

Oynadanda qılınc-qalxan,
Qarşısından qaçar düşman.
Ayaz kişnər, sular meydan,
Baş, cəmdək bir yana düşər.

Öpər atı, deyər: – Ayaz,
Gözü yolda qalmış Gülyaz,
Bir yelə dön, eylə pərvaz,
İndi mərdlik sənə düşər.

O çeşməyə yaxın yerdə
Yaşayırdı gözəl Çimnaz.
O fındıqlı dərələrdə

Keçirmişdi on səkkiz yaz.
Məhv olalı Gülyaz, Ayaz,
Hər baharı keçmiş xəzan...

Dinlədikcə bu dastanı,
Qəlbi yerindən oynadı.
Ürəyində coşdu qanı
Eşidincə Aslan adı.
Keçdi köksündən bir ayaz,
Səsə doğru qaçdı Çimnaz.

Dırmaşdı bir göy təpəyə,
Qəlbində min həsrət mələr.
– Ah, uğurlu günlər, – deyə
Ürəyindən keçdi nələr!..
Dinlədikcə o dastanı,
Xatırladı mərd Aslanı.

Poladsa oxuyur, çalır,
Keçdikcə o teldən-telə,
Çimnazı dərd-kədər alır,
Göz yaşları dönür selə.
Deyir: – Sənə, ey qəhrəman,
Necə qıydı xain düşman?

Dan yelinin xoş nəfəsi,
Oynadıqca təpələrdə,
Yayır ətrafa bu səsi,
Dağ-dərəni salır dərdə.
Polad inlər, sazı inlər,
Çimnaz gözü yaşlı dinlər.

Çevrilərkən Polad, birdən
Gözü ilişdi Çimnaza.
Ovçu kimi qalxdı yerdən,
Baxdı ürkək, ceyran qıza.

Görüncə o saf günəşi,
Qəlbini yaxdı atəşi.

Könül quşu uçdu birdən,
Qondu qızın şux telinə.
Polad dedi: – Əhsən, əhsən
Bu ölkənin gözəlinə!
Yetişdirir belə qızlar,
Aydan işıqlı ulduzlar.

Oğlan süzdü o şahbazı,
Əlindən getdi ixtiyar,
Unutdu dastanı, sazı,
Ovçu ova oldu şikar.
Sövda odu alovlandı,
Köksündə bir çıraq yandı.

Gözəl qıza verdi könül
Çırpınaraq Polad birdən.
Dedi ona: – Ey qönçə gül!
Könlün neçin deyildir şən?
Gəl, oxuyum, çalım, dinlə,
Aydın olsun halım, dinlə:

Ağladıqca şimşək gözün
Yaralı bulbulə bənzər.
Yanaqların, al dodağın
Yeni açmış gülə bənzər.
Söylə, kimin şən gülüsən?
Dolu vurmuş sünbülüsən?
Üz-gözündə oynar duman,
Söylə, ey qız, dərdinmi var?
Kimdir səni dərdə salan?
Dünya sənə olmuşmu dar?
İki gözün sel qaynağı,
Üzün kədər, qəm oynağı.

Yoxsa, ay qız, yaralısan,
Sövda salmış səni dərdə?
Hansı dağın maralısan,
Dolaşırsan bu yerlərdə?
Mən ovçuyam, sən bir ceyran,
Belə ova canım qurban!

Tanımışdı Çimnaz onu,
Qaldı gendən baxa-baxa.
Bükmüş o qəmli boynunu,
Gözündə yaş axa-axa.
Sildi əlilə gözünü,
Bir az doğrultdu özünü.

Dedi: – Sus, ey ovçu oğlan,
Çox da miskin sanma məni.
Bir ov ardınca mən çoxdan
Dolaşıram bu ölkəni.
Mən özüm də bir ovçuyam,
Qəlbimdə var kin, intiqam.

Polad dedi: – Anlat mənə,
Üz-gözündə nədir bu kin?
Daraldı kainat mənə,
Kimdən yaralıdır qəlbin?
Göstər mənə o düşmanı,
Pəncəmdə titrəsin canı.

Köyrəldi Çimnazın qəlbi,
Köksündə bir ümid doğdu.
Qumral gözü günəş kimi
Parıldayıb qəmi boğdu.
Çırpındı köksündə ürək,
Gözündə canlandı dilək.

Dedi: Dərdim dağdan böyük,
Soruşma ki, yoxdur çara.

Əzir məni ağır bir yük,
Çəkilir bu qəlbim dara.
Qaranlıqdır hər yan mənə,
Olmuş dünya zindan mənə.

Anam Gülyaz, atam Aslan;
Öz elinə arxa oldu.
Məskəniydi çöl, dağ, orman,
Xain düşmən kinə doldu.
Dağda yatarkən bir gecə
Onu məhv etdi gizlicə.

Yetim qızam, adım Çimnaz!,
Küləklərlə etdim yarış,
Bu elləri gəzdim qış-yaz,
Dolaşdım hey qarış-qarış.
O qatildən nişan yoxdur,
Ürəyimdə dərdim çoxdur.

Keçsəydi o qorxaq ələ,
Sağ qoymazdım onu bir an.
Düşmən gəzir gülə-gülə,
Torpaqlarda yatır Aslan.
Tapmayınca o xaini,
Sevindirməz dünya məni.

Polad əsdi acığından,
Zehnindən bir xəyal axdı;
Üz-gözünü sardı duman,
Köksündə bir şimşək çaxdı;
Dedi: – Kədərlənmə, Çimnaz!
İgid qanı yerdə qalmaz!
Mən taparam o xaini,
Sevindirrəm bir gün səni!..

Çarpışarkən zor düşmanla,
Bəyənmişdi qız Poladı.

Eldə təmiz bir vicdanla
Söylənirdi igid adı.
Ona gizli vermiş ürək,
Ancaq könlündə var dilək.

Sevinc ilə baxdı Çimnaz,
Dedi: – Oğlan, fikrin nədir?
"İgid qanı yerdə qalmaz!" –
Bu söz mənə bir töhfədir.
Tapsan o namərd xaini,
Sevindirrəm mən də səni.

Bağladılar əhdi-peyman,
İmzaladı günəşli yaz.
Ürəklərdən uçdu duman.
Gülə-gülə dedi Çimnaz:
– Səndə vardır el qüvvəti,
Sənə düşər el zəhməti.

* * *

Dan yeri söküldü, hər tərəf rəngin,
Şəfəqdən don geydi dağ, dərə əngin.
Saçıldı çöllərə min rəng, min boya,
Sonalar göllərdə baş vurdu suya.
Şehlərlə yuyundu hər ot, hər çiçək,
Qönçənin üzündən açıldı örpək.
Tel, birçək ayırdı nərgiz, bənövşə,
Təbiət özü mat qaldı bu işə.
Gül gülü çağırdı, bülbül bülbülü,
Saraltdı bu sövda dərdli sünbülü.
O ceyran Çimnazdan ayrıldı Polad,
Qəlbinə qazıldı bu sövdalı ad.
Köksündə çırpındı odlu bir ürək,
Dedi: – El xaini yox olsun gərək!
Əlində telli saz, el-el dolaşır,
Qoçpolad hər kəndə, şəhrə yanaşır,

Aslandan oxuyur bir parça dastan,
Bəlkə bu yol ilə tapılsın düşman.
Açılsın o xain qatilin dili,
Öyünsün ki, mənəm onun qatili.
Dolaşır bir aşiq qiyafəsində.
Titrəyir kin onun hər nəğməsində.
Sədəfli sazını köksündən asmış,
İgidin üzünü saç-saqqal basmış,
Bənzəyir çöllərdə gəzən dərvişə,
Görənlər ürkərək düşür təşvişə.
Beləcə dolaşıb gəzərkən aşıq
Ürəyi kədərli, fikri dolaşıq,
Dırmandı bir kiçik təpə qaşına,
Oradan endi bir bulaq başına.
O kəndin süddən ağ, güldən qırmızı
Şux, ceyran baxışlı gəlini, qızı,
Su üçün toplanmış sərin bulağa,
Təbiət gül üzə, yaqut dodağa
Vurmuşdu elə bir incə, şux boya,
Ay kimi şöləsi düşmüşdü suya.
Sanasan yuyunur bir dəstə pəri,
Ölkənin can alan bu gözəlləri
Sırayla oxuyur dadlı bir mahnı,
Dağlarda inlədir dərdli çobanı:

B i r i n c i q ı z

Bir ovçum var, mələr keçər,
Gül bağrımı dələr keçər,
Oğrun-oğrun baxar mənə,
Bir söz deməz, gülər keçər.

İ k i n c i q ı z

Bir ovçum var, günəşdən şən,
Ala dağda salmış məskən.
Kiçiklikdən sevər məni,
Fələk ayrı salmış məndən.

Ü ç ü n c ü  q ı z

Bir ovçum var, qurbanıyam,
Qorxu bilməz ceyranıyam,
O vurğundur bir marala,
Mən uzaqdan heyranıyam.

Qəhrəman Qoçpolad su içim deyə,
Sevinclə yanaşdı sərin çeşməyə.
Qız-gəlin, əlində güyüm ya səhəng,
Bir ceyran sürüsü kimi ürkərək,
Qaçışıb çəkildi hərə bir yana,
Uzaqdan heyrətlə baxdılar ona.
Qoçpolad atılıb irəli keçdi,
Əyildi bulaqdan sərin su içdi.
Sonra göz gəzdirdi ürkək qızlara,
Sanasan qəlbini çəkdilər dara.
Andı o nazənin ceyran Çimnazı,
Bağrına basdı tez sədəfli sazı:
– Ey gəlinlər, qönçə qızlar,
Sizi gördüm, yarı andım.
Urəyimin başı sızlar,
Bağçalarda barı andım.

Bostanımın göy tağında,
Elimin zümrüd bağında,
Yeniyetmə gül çağında
Şamamanı, narı andım.

Sönməz yanğın var canımda,
Qurdlar gəzir ormanımda,
Qorxu bilməz ceyranımda
Şimşək baxışları andım.

Qızların qəlbinə səpildi işıq,
Birisi gülərək söylədi: – Aşıq,

Bizim bu oymağın gəlini, qızı,
Süddən ağ, laləndən daha qırmızı,
Dediyin qızdan da gözəldir onlar...
Gözləri işıqlı ulduzdur, yanar,
Saçları qaranlıq gecədən qara,
Hörüklər toxunur ağ topuqlara.
Parlaq üzlərindən ay alır işıq,
Bu elə, ölkəyə verir yaraşıq.
Gəlinin sözünü kəsərək Bahar,
Söylədi: – Ay aşıq, bu gecə toy var.
Qiyamət olacaq Məmişin toyu,
Qızlar toplaşacaq bir meydan boyu.
Bu toya çağrılmış qoca Toxtamış,
Kişilər indidən ora yığışmış.
Keçərkən biz gördük başlanmış oyun,
Hər biri gətirmiş damazlıq qoyun.
Olduğu daxmanı el tikmiş ona,
Bir qız da vermişlər, bənzər ceyrana.
Poladın yerindən qopdu ürəyi,
Canlandı gözündə uca diləyi.
Düşündü: – Hər oyun açmışsa, yenə
Düşmən yol tapmamış elin qəlbinə.
Üstündən atlamış nə qədər boz qış,
Don, ayaz, fırtına, qasırğa, yağış,
Çiçəkli yaz kimi hələ də şəndir,
Günəşli, buludlu təzə gülşəndir.
El əliaçıqdır, ürəyi geniş,
Xəsislik, namərdlik, yalan bilməmiş.
Dərədən cığırla döndü Qoçoğlu,
Gözəllər kəndinə düşmüşdü yolu.
Kiçik bir təpəni aşınca Polad,
Gözünə ilişdi başqa bir həyat:
Gördü ki, o kəndin ahıl-cahılı
Qazmanın yanında oynayır yallı.
Tamaşa edənlər vurmuşdur halqa,
Qoçpolad güvəndi o coşqun xalqa.
Yanaşdı, ucadan verdi bir salam,

Dedi: – Hər gününüz keçsin toy-bayram,
El onu görüncə qaynayıb daşdı,
Coşqun bir sevinclə ona yanaşdı.
Oynayan gənclər də atdı oyunu,
Hərə bir dil ilə dindirdi onu.
Dedilər: – Hardansan, ey igid aşıq,
Verirsən ölkəyə, elə yaraşıq!
Sən sadə bir aşıq deyilsən; ancaq
Dağ gövdən, gur səsin, o pəncə-barmaq
Göstərir, ən güclü bir pəhləvansan,
Bəlkə də elində bir qəhrəmansan.
Sən hansı eldənsən? Gəl bunu anlat!
Üzünə nə üçün gülməmiş həyat?
Söylə bu qürbətə düşmüşsən nədən?
Gözündən bəllidir, qəlbin deyil şən.
Onlara baxaraq dedi Qoçpolad:
– Uzaq bir eldənəm, adımdır Murad.
Atam da, anam da olmuş bir yoxsul.
Həyat pəncəsində çırpınan bir qul
Bir qoca babam var, dəyər min cana,
Aşıqlıq babamdan qalmışdır mana.
Bir gecə var-yoxum qarışdı selə,
Çarəsiz üz qoydum bu qərib elə.
Getdikcə danışıq, sorğu uzandı,
Gün batdı, göylərin çırağı yandı,
Ətrafa yayıldı mavi aydınlıq,
Ortalıq kəsildi gündüzdən işıq.
Yenidən başlandı hərəkət, həyat,
Toy üçün çəməndə quruldu büsat.
Dedilər: – Ay aşıq, sən otur, əylən,
Bizim hər toyumuz keçir belə şən.
Bu elin aşığı qoca Toxtamış
Gələcək, o zaman başlanar yarış.
Qoçpolad oturdu kişilərlə bir,
Baxdıqca o coşqun elə sevinir.
Girdi bir halqaya qadınla erkək,
Qaynaşan uşaqlar olmuş sevincək.

Sıraya oturdu qız ilə oğlan.
Bir daşın üstündə qoca bir çoban
Tütəkdə çalırdı el oyunları,
Sırayla oynayır oğlan, qız, qarı.
Hər gəncin gövdəsi canlı bir qaya,
Qızların şöləsi toxunur aya.
Kəklik tək səkirlər bir meydan boyu,
Getdikcə şənlənir Məmişin toyu.
Ürəkdən silinmiş sıxıntı, kədər.
Günəşli dağlardan çən, duman gedər.
Qoçoğlu el ilə vurmuş bir halqa,
Baxdıqca o coşqun, o daşqın xalqa,
Qəhrəman qəlbinə dolurdu fərəh,
Sevincdən içirdi hey qədəh-qədəh.
Yığıncaq yerindən oynadı birdən,
Bir kişi bağırdı: – Mərhəba, əhsən!
Nər kimi kükrəyib gəlib Toxtamış,
Deyəsən meydanda qoç görüb qızmış.
Bu eldə yox ona çatan bir aşıq,
Sazilə toylara verir yaraşıq.
Tükənməz çeşmədir axan nəğməsi
Hayıf ki, qocalmış, inləyir səsi.
Bu işdən olduqca sevindi Polad,
Qəlbini oynatdı bu sevimli ad.
Gül kimi açıldı bəti-bənizi.
– Arardım, – dedi, – bu uğurlu izi,
Gəzirdim hər yerdə mən sorağilə.
Qoy gəlsin yanıma öz ayağilə.
Görsün ki, dağları buraxmış Polad,
Quş kimi elində açmış qol-qanad.
Yığıncaq yerindən bağırdı birdən:
– Yol verin, a dostlar, gələn var, gələn!
Toxtamış görüncə igid Poladı,
Köksünün içində qəlbi oynadı.
Düşündü: "Bu eldə çıxsa tanıyan,
Bu igid nəhəngi məhv edər o xan,
Bu nəhəng nə üçün girmiş bu dona?"

Polad da gözünü dikmişdi ona.
Qəlbindən keçəni duyurdu bir-bir.
Yığıncaq bağırdı: – Bu sükut nədir?
Qorxdunmu, nə üçün susdun, Toxtamış?
Durmayın, başlansın deyişmə, yarış!
Qoçoğlu gördü ki, dalğındır qoca,
Mənalı nəzərlə baxdı doyunca.
Dedi: – Mən söyləyim, o versin cavab,
Saçdığım güllərdən qoy çəksin gülab.
Sədəfli sazını basdı köksünə,
Qoşdu gur səsini sazın səsinə:

Ağ buxaqda qara xallar,
Ara-sıra qoşa düşər.
Duysa bunu canalan yar
Qəmzəsi göz-qaşa düşər.

Qanadlandı yenə sövda,
Ceyran Çimnaz düşdü yada.
Könül yanar qızğın oda,
Eşq atəşi başa düşər.

Eşqin ağır cəfası var,
Nəşəsi var, səfası var,
Aşiqin ki, vəfası var,
Enişə-yoxuşa düşər.

Toxtamış fərəhlə dedi: – Ey aşıq!
Sözlərin məclisə verir yaraşıq.
İndi də sən dinlə, mən çalım sazı,
Anladım Aslanı, gözəl Gülyazı:

Tərpənəndə igid Aslan
Dağdan ağır qaya düşər.
Qurşananda qılınc-qalxan,
Xain düşmən vaya düşər.

Elə verir xoş yaraşıq,
Ürəklərə salır işıq.
Görsə onu gənc bir aşıq,
Ürəyi qorxuya düşər.

Atı eniş-yoxuş duymaz,
Tərlan kimi edər pərvaz,
Kişnədikcə ceyran Ayaz,
Səsi daşqın çaya düşər.

Poladın qəlbində doğdu həyəcan,
O qoca aşığa vermədi aman.
Bir daha köksünə qaldırdı sazı,
Tərifə başladı gözəl Çimnazı:

Çimnazımın gül dodağı,
Unutdurdu bal-qaymağı.
Qızaranda al yanağı,
Şöləsi şux aya düşər.

Çırpınır bu vurğun könül,
Oxlamış bir saçı sünbül,
Aşıq, gülsə o qönçə gül,
Başım qızğın toya düşər.

Yığıncaq bağırdı: – Ey aşıq, yaşa,
Eşqinin oxları dəyməsin daşa!
Bitincə deyişmə, maraqlı dastan,
Bir oyun havası başladı çoban.
Ahıllar məclisdən ayrıldı şən-şən,
Toxtamış, Polad da durdu yerindən.
Gedənlər yanaşdı yenə aşığa,
Dedilər: – Çıxasan aydın işığa.
Sözlərin ruh verdi bizim ellərə,
Səsindən canlandı bütün dağ-dərə.
Var imiş gövdənə görə hünərin,

Ey qərib, haradır bu gün səfərin?
– Od saldın canıma, qonaq ol mənə,
Bircə oğlağım var, kəsərəm sənə.
Hər yandan səs qopdu: – Bu qərib aşıq,
Mənim dar daxmama salacaq işıq.
– Yox, mənə qonaqdır, düşsəm də qana.
Aşığı hər biri çəkdi bir yana.
Getdikcə ucaldı səs-haray, birdən
Toxtamış ox kimi tərpəndi yerdən,
Bağırdı: – A dostlar, dinləyin məni!
Qəribdir, yormayın yoldan gələni.
Görünür gəlmişdir uzaq bir eldən,
Çay keçmiş, atlanmış daşqından, seldən.
Bu aşıq kimə çox yaraşır, sizcə?
O mənə qonaqdır birinci gecə!
Mən aşıq, o aşıq – verib baş-başa,
Gecəni yatarıq bir yerdə qoşa.
Haydı, siz çəkilin, verməyin zəhmət,
Sabahdan hər gecə sizindir növbət.
Dedilər: – Ey qoca Toxtamış, inan,
Öl desən, tapılmaz boyun qaçıran.
Biz sənin sözündən çıxmadıq, ancaq
Sabahdan növbətlə bizimdir qonaq.
Yığıncaq ətrafa dağıldı bir-bir.
Gedənlər uzaşdı, yatdı səs-səmir.
İki dost baxışdı sevincə dalmış.
Poladın əlindən tutdu Toxtamış,
Çəkdi bir xəlvətə, ağac altına,
Gülərək heyrətlə söylədi ona:
– Polad, bu nə işdir? Görüncə inan,
Köksümün içində qopdu bir boran.
Nə üçün buraxdın Boranlı dağı,
Sənə arxa olan gözəl ovlağı?
Deyirlər tikmisən möhkəm bir qala,
Arxa durmaq üçün elə, yoxsula.
Başına yığılmış bir çox pəhləvan,

Döyüşə hazırdır hamı hər zaman.
Sel kimi oradan olacaq axın,
Çox çəkməz, deyirlər, o günlər yaxın:
Xan ilə nayiblər düşmüş təşvişə,
El isə sevinir bu gözəl işə.
Uzaqdan baxdıqca Boranlı dağa,
El səni salaraq dilə-dodağa,
Deyir ki: – Toxtamış, köhnəldi Aslan!
Poladın adına düz yeni dastan.
Qurtuluş Poladdan olacaq bizə,
Yenilməz igiddir, gəlməsin gözə.
El sənin haqqında bu fikirdəykən,
Meydana bu sazla atıldın nədən?
Tək bu saz uymayır igid adına,
Toppuz, yay, ox, qılınc yaraşır sana. –
Qəlbimi deşməkdə bu şübhəli sirr,
Bu sirri durma, gəl aç mənə bir-bir.
Durma ki, bağrımı çeynəyir kədər,
Qızxanım nə oldu? Ondan nə xəbər?
Poladın üzünü sardı boz duman,
Köksündə oynadı qasırğa, boran,
Dedi: – Ey Toxtamış, böyük dərdim var.
Onu məndən aldı amansız ruzgar.
Fələyin var imiş min-bir oyunu.
Təpənin üstündə dəfn etdim onu.
Mən onun ucundan düşmüşdüm bəndə,
Çəkildim oradan yaxın bir kəndə.
Bir çeşmə başında oxurkən dastan,
Gördüm ki, gözləri yaşlı bir ceyran
Dinləyir, gözündən axıdır qan, yaş.
Elə bil, başıma uçuldu dağ-daş.
Ürəkdən vuruldum o ceyran qıza,
Aslanın, Gülyazın qızı Çimnaza.
Çimnazı anınca dəyişdi Polad,
Qəlbinə od saldı bu sövdalı ad.
Gözündən qığılcım saçıldı yerə,

Hər kirpik döndü bir odlu neştərə.
Qoçpolad özünü topladı bir az,
Dedi: – Ey Toxtamış, bu ceyran Çimnaz
Ağlımı, huşumu başımdan aldı,
Qəlbimə dəhşətli bir yanğın saldı.
Bilməzdim dünyada nədir bu sövda,
Düşmüşəm indi mən yanar bir oda.
Andıqca kirpiyim, gözüm sulanır.
Qəlbimin başında millər dolanır.
Deyirlər, poladdan olsa da ürək,
Eşq onu eyləyər şüşədən kövrək!
Qarşımdan qaçarkən ovçu, aslanlar
Ah, məni bir ceyran eylədi şikar.
Bax pişik qılığlı çərxin işinə,
Qoçoğlu Poladı almış dişinə,
Gəzdirir, bu işlər deyilmi gülünc?
Köksümü əzir həm kədər, həm sevinc...
Ürəkdən bağlandım o şux ceyrana.
Ey ata, dərdimi açıram sana.
Deyir: "Kim qatili kəməndə salsa,
Öldürüb atamın qanını alsa,
Bu qəlbim onundur, onundur Çimnaz..."
Hörmətlə görüşdük, sevişdik bir az,
Söz verdik, söz aldıq, bağlandı peyman,
Gərəkdir tapılsın o namərd düşman!
Sazıma sarıldım, bax, bu məqsədlə:
O xain qatili keçirim ələ.
Tapılsa, güləcək Çimnazın üzü,
İşıq, gün görəcək Poladın gözü.
Fikrimi bildinmi indi, ey ata?
Atılmaq istərəm qızğın həyata.
İnan ki, qatili tapdıqdan sonra,
Düşmənin bağrında açaram yara.
Qurtular elimin qızı və oğlu,
Bax, budur ölkəmin qurtuluş yolu!
Elimlə olaram mən də bəxtiyar.

Onsuz bəxtiyarlıq, de, nəyə yarar?
Yetişər bu qara günlərin sonu...
Toxtamış sükutla dinlədi onu.
Başını heyrətlə qaldırdı birdən,
Dedi: – Bu fikrini bəyəndim, əhsən!
Bəs Çimnaz, de görüm, harda yaşayır?
El onu çoxdan məhv olmuşdur sayır.
Deyirlər, anası Gülyazdan sonra
Gözünə günəş də kəsilmiş qara.
Gəlincə onun da ölüm xəbəri,
Meşəyə çəkilmiş, dönməmiş geri.
Çox gəzdi, aradı onu nayiblər,
O ceyran Çimnazdan tapmadı əsər.
Bu xəbər bir gündə yayıldı elə.
Düşdü xalq içində o dildən-dilə.
Kimisi söyləyir dırmanmış dağa,
Oradan atılmış dərin buzlağa.
Qurdlara yem olmuş, deyənlər də var.
Görünür yalanmış bu uydurmalar.
Solğun bir gül kimi qəlbi yaralı,
Yaşayır bu elin gözəl maralı.
Hünərin, Qoçoğlu, gəlməyir saya,
Sən bizə yenidən açdın bir dünya.
Doğrusu, ürəkdən sevindim buna,
Elimin Çimnazı halaldır sana.
Burada, Qoçoğlu, yalnız bir iş var,
Çox çətin tapılar xain canavar.
Mən özüm nə qədər aradım, ancaq
Tapmadım nə bir iz, nə də bir soraq.
İstəsən, sən də bir eylə imtahan,
Ancaq çox ayıq ol, yatmamış düşman.
Gecəni, gündüzü bir yerdə qoşa,
Saz ilə, söhbətlə vurdular başa.
Sabahdan elin də qəlbini aldı.
Aslandan, Gülyazdan oxudu, çaldı.
Yenidən yol aldı, keçdi dağ-dərə,

Çatdı hansı kəndə, hansı şəhərə,
Aslandan, Gülyazdan oxudu dastan,
Maraqla dinlədi onu hər insan.
Yenə də qatildən tapmadı əsər,
Çıxmadı tanıyan onu bir nəfər.
O polad ürəkli, sövda vurğunu
Olmuşdu bu uzaq yollar yorğunu.
Andıqca qatili, igid Aslanı,
Çimnaza verdiyi əhdü peymanı,
Köksünə düşürdü əyilməz başı,
Yay kimi çatılıb düyümlü qaşı,
Üstünə qəm, kədər hey axın-axın
Gələrək hər yandan edirdi basqın.
Alnı bənzəyirdi buludlu göyə,
Gözləri dönürdü odlu şimşəyə.
Köksünü dəlirdi düşüncə, kədər,
O polad qəlbindən keçirdi nələr?
İçindən gülürdü acı duyğuya,
Gülürdü üstünə gələn orduya.
Bağrına basırdı üçtelli sazı.
Anırdı sevimli, gözəl Çimnazı:

Bir səhər dan yeri alarkən nəfəs,
O qumral saçına sən şana vurdun.
Mən ceyran gözünə eylədim həvəs,
Sən qoydun qəlbimi nişana, vurdun.

Başımdan ağlımı, huşumu aldın,
Köksümdən qəlbimi, duyğumu çaldın,
Canıma sönməyən bir yanğın saldın.
O necə ox idi hər yana vurdun?

Köksümün içində tikdim bir qala,
Eşqimlə orada gəzdin qol-qola,
Qəlbimin sazını sən çala-çala
Nə yaman od idi bu cana vurdun.

Çox gəzdi, aradı o polad ürək,
Qəlbində sönmədi sevimli dilək.
O xain bu eldən çıxmamış, – deyə, –
Araya-araya döndü geriyə.
Az getdi, üz getdi, çatdı bir dağa,
O eldə ən məşhur olan ovlağa.
Uzaqdan üzünə güldü yamaclar.
Düşündü: "Çoxdandır etmədim şikar".
Dırmaşdı ceyranlı yaşıl yamaca,
Gözünü gəzdirdi şikar ardınca.
Elə ki Poladdan ayrıldı Çimnaz,
Köksündən keçdi bir dumanlı ayaz.
Ona heç bilmədən vermişdi könül,
Eşqinin fidanı açdı qızıl gül.
Ətrindən bayıldı hər qoxladıqca,
Sevimli diləyi eşqindən uca.
Gözləyir qatildən, Poladdan xəbər,
Qəlbini çeynəyir düşüncə, kədər:
Üç aydır gedəli, dönmədi geri.
Çimnazı titrətdi eşqin əsəri.
Geyindi-kecindi pəhləvan kimi,
Atlandı Ayaza qoç Aslan kimi.
Poladın ardınca düşdü çöllərə.
Çox gəzdi, aradı, keçdi dağ-dərə,
Soruşa-soruşa düşdü izinə,
Uzaqdan qaraltı dəydi gözünə.
Yüyəni çəkərək diqqətlə baxdı,
Qara gözlərində şimşəklər çaxdı,
Gördü ki, Poladdır, dırmanır dağa,
Ceyranlar yatağı olan ovlağa,
Dumanlı gözündə oynadı boran,
Dərindən inlədi o ovçu ceyran:
– Baxsana, ürəyi nə qədər sərin,
Vəfası az olur bu igidlərin.
Mən onu düşünüb çəkirəm qorxu,
Gecələr gözümə girməyir yuxu.

Bir saat ayrılıq il keçir mana,
Həsrətli intizar od vurur cana.
Ürəyim elə bil çəkilmiş dara,
O isə keyf üçün çıxır şikara.
Unutmuş ilqarı, eli, Çimnazı,
Bağrına basmış da üçtelli sazı.
Oxuyub çalaraq, dolaşır eli,
Eşqimi çalmayır qəlbinin teli.
Mən onu edərəm bir də imtahan.
Dönmüşmü verdiyi əhdü peymandan?
Qarşıya çıxmaqçın o dağ boyunca
Dırmandı ceyranlı yaşıl yamaca.
Ayazı buraxdı yaşıl otlağa,
Ağaclar altından tez döndü sağa,
Araya-araya çıxarkən düzə,
Otlayan ceyranla çıxdı üz-üzə.
Yay ilə ceyranı tez aldı nişan,
Oxunu atmamış yıxıldı ceyran.
Ovçu qız bu işə eylədi heyrət.
Baxdı hər tərəfə, gözündə hiddət.
Ovunun üstünə yüyürdü Polad,
Qız onu görüncə qopardı fəryad,
Yanaşıb söylədi: – Ey ovçu, dayan!
Bu gözəl ceyranı mən aldım nişan,
Nə üçün ovumu əlimdən aldın?
Qəlbimə kin saçan bir ataş saldın?
Etdi saymazlığın qəlbimi kabab,
Haydı, çıx qarşıma, ver mənə cavab!
Deyərək qılıncı siyirdi qından,
İgidə heyrətlə baxdı qəhrəman.
Tanıdı köməyə gələn igidi,
Gülərək ona çox şəfqətlə dedi:
– Bağışla, bilmədim, etdim bir xəta,
Biz dostuq, suçumdan keç, eylə əta,
Ey igid, sənə bu ov olsun qurban,
Çıxmaram mən sənə qarşı, pəhləvan.

Vəfalı Çimnazın yumşaldı qəlbi,
Titrədi ağacda bir yarpaq kimi.
Köksündə gülləndi bir günəşli yaz,
Şəfqətli nəzərlə baxarkən Çimnaz,
Qəlbini tutaraq Qoçoğlu Polad,
"Ah, o gözlər!" – deyə qopardı fəryad.
Yenidən yanaşdı ona hörmətlə,
Diqqətlə baxaraq sordu həsrətlə:
– Pəhləvan, sən kimsən? Gəl anlat mənə,
Könlümün tərlanı qonmuşdur sənə.
Alıcı gözlərin çox tanış gəlir,
Baxdıqca köksümü ox kimi dəlir.
Yoxsa, var nisbətin ceyran Çimnaza,
O qartal baxışlı tərlan Çimnaza?
Gözlərin elə bil gözüdür onun,
Baxışın, duruşun özüdür onun.
O Çimnaz nəyindir? Sən kimsən? Anlat!
Bu könlüm nə üçün açır qol-qanad?
Uf! Bağrım alışdı, andım Çimnazı.
Oxuya-oxuya köklədi sazı:

– Haralısan, ey pəhləvan, haralı?
Çimnazıma bənzər qara gözlərin.
Bir aşiqəm, ürəyindən yaralı,
Etsə edər mənə çara gözlərin.

Qış-borandan çıxdım odlu bir yaza,
Bir qığılcım düşdü bu coşqun saza.
Xəbər apar o vəfalı Çimnaza
Qoçpoladı çəkdi dara gözlərin.
Vəfalı Çimnazın doldu gözləri,
Yandırdı igidin odlu sözləri.
Yenidən istədi etsin imtahan,
Kükrəyib dedi: – Ey igid qəhrəman,
Bir bəla kəsildin dərdli başıma,
Hər yerdə çıxırsan mənim qarşıma.

O Çimnaz məni də salmışdır oda,
Ciyərim qovrulur düşdükcə yada.
Mən çoxdan vurğunam o şux ceyrana,
İndi də gözünü dikmisən ona?
Ceyranı əlimdən aldınsa, ancaq
Çimnazdan keçmərəm, inadı burax!
Mənimdir, mənimdir o gözəl ceyran!
Ondan əl çəkməsən, bu sən, bu meydan!
Gülərək dərindən inlədi Polad,
Yenidən qopardı bir acı fəryad.
Bağrına basaraq üçtelli sazı,
Tərifə başladı gözəl Çimnazı:

– Bir-birinə dəysə yer, göy, pəhləvan,
Mən vəfalı Çimnazımdan keçmərəm!
Ürəyimin tellərini oynadan
Sövda simli ilk sazımdan keçmərəm!

Mənim yarım gözəllərin başıdır,
Dünya tacdır, o isə daş-qaşıdır,
İlk sövdamın ayrılmaz yoldaşıdır,
Gül yanağı solmazımdan keçmərəm!

Çimnaz gülümsəyib dedi: – Qəhrəman!
Sınadım, çox gözəl verdin imtahan.
Doğrudan aşiqsən gözəl ceyrana,
Sevgili Çimnazın halaldır sana.
Dostuna quzusan, düşmənə aslan,
Ürəyin yaranmış atəşdən, sudan.
Mərdlikdə payın var, ər oğlu ərsən!
Məhəbbət yolunda candan keçərsən!
Gəl, bir də səninlə bağlayaq peyman,
Qalsın bu səmimi dostluq hər zaman.
Polada yanaşdı o gülə-gülə,
Onunla dost kimi verdi əl-ələ.

* * *

Moruqlu yaylaqdan el döndü yenə,
Aran da qovuşdu diləkli günə,
Qolunu açaraq daşqın sevinclə,
Oğlunu, qızını basdı köksünə.

Yenidən canlandı həsrətli aran,
Dağların başını aldı çən-duman.
Qaldı marallara düzlər, çəmənlər,
Təpədə, yamacda vaz atdı ceyran.

Könül şən olarmı zülm olan yerdə?
Bülbüllər ötərmi gül solan yerdə?
Ocaqlar, gərdəklər batmazmı yasa,
Analar, gəlinlər saç yolan yerdə?

Aran da dağ kimi düşmüşdü dərdə,
Üzünə çəkmişdi qəmli bir pərdə.
Yaralı ov kimi dərindən inlər,
Qoyun tək soyular xeyirdə, şərdə...

Koxalar, nayiblər başlamış işə,
Ölkəni salmışdı dərin təşvişə.
Toypayı toplanır Qəzənfər xana,
Dil-dodaq çeynəyir el bu gedişə.

Hər gün bu zalım xan girir bir dona,
Toy etmək istəyir azğın oğluna.
Varından-yoxundan çıxacaqdır el,
Bu uğursuz toyu çatınca sona.

Ey Aran! Qəlbini, aç söylə mana,
Dinlərəm dərdini mən yana-yana.
Qabıqdan çıxınca çalışdın hər gün,
Nə qədər bac verdin Qəzənfər xana?

Başından nə qədər macəra keçdi?!
Qəlbinin içindən min yara keçdi.
Nə üzün güldü, nə alnın açıldı,
Nə üçün günlərin hey qara keçdi?

Ey Aran! Qəlbində anlat, nələr var?
Tükənməz dərdlərin dağlardan aşar.
Başının üstündə, əlində qamçı,
Nə qədər hökm etdi Qəzənfər xanlar?

Elləri yoxlaya-yoxlaya Polad,
Aranda, yaylaqda açırdı qanad,
Hər görüş igidi bağlayır elə,
İnlədir qəlbini o miskin həyat.

Uzaqdan göründü Çimnazın kəndi.
İgidlər doğuran elə güvəndi.
Qəlbində həm qayğı, həm kin, həm sevinc,
Zoğallı, fındıqlı dərəyə endi.

Fəzanı həm günəş, həm bulud almış,
Keçdiyi yerlərə boz kölgə salmış.
Kəsmə bir cığırla gedərkən Polad,
Yolunu suladı günəşli yağış.

Uzaqdan ildırım şığıyır tək-tək.
Başının üstündə oynayır şimşək.
Yarpaqlar ucundan sallanan damcı
Günəşdə parlayır, yanır inci tək.

Polad hər tərəfi edir tamaşa,
Saçaqlı fındıqlar vermiş baş-başa,
Budaqlar zoğaldan gərdənlik taxmış,
Ağaclar bürünmüş əlvan qumaşa.

Çinara dırmaşmış vəhşi meynələr,
Qaralmış göyəmlər, deyir: məni dər!

Üfüqə çəkilmiş hilali qurşaq,
Al-əlvan rənglərlə göyə gülümsər.

Getdikcə uzanır cığırlı dərə.
O incə təbiət, gözəl mənzərə
Poladın gözünə ox kimi batır,
Yeriyir, dalaraq düşüncələrə.

Yeriyir, qəlbində dadlı istəyi,
Canlanır gözündə uca diləyi.
Andıqca düşmənin ağır zülmünü,
Xalqının halına yanır ürəyi.

Al günəş çəkildi dağ arxasına,
Dilsiz bir qaranlıq çökdü hər yana.
Buludlu göylər də batdı kədərə,
Dərələr büründü çənə, dumana.

Qaranlıq yollarda düşmədi bəndə,
Qoçpolad gecəykən yetişdi kəndə.
Dərindən inlədi: "Ah, ceyran qıza
Söz verdim, kişilik olmadı məndə.

Tapmadım qatili, bilirəm, Çimnaz
Dərdlənər, bu işdən könlü açılmaz..."
Endi tez orada çeşmə başına,
Otların üstündə dincəldi bir az.

Dərdindən yatmayır igid qəhrəman,
Dörd yanı düşüncə, xəyal, çən, duman,
Çəkil, ey qaranlıq, açıl, ey səhər!
Gülməsin o qara fikirli düşman.

Qaranlıq göylərin yükü ağırdı,
Torpağa müsibət, kədər yağırdı.
Dağların başında şəfəq sökməmiş
Budaqda bir bülbül mahnı çağırdı.

Oyanan quşların coşdu həvəsi,
Ətrafa yayıldı incə nəğməsi,
Təbiət oldu bir mahir dirijor,
Dərəyə səs saldı quşların səsi.

Ey gözəl təbiət, səndə var nələr!
Sövdalı axşamlar, aydın gecələr.
Hər dərə, hər üfüq, hər dağ lövhədir,
Şəfəqlər parlarkən göydə hər səhər.

Yüksəldi al günəş dağlar başından,
Yenə də şənləndi tarla, bağ, bostan.
El isə batmışdı kədərli yasa,
Min-bir dərd içində çırpınır Aran.

Poladın köksündə dağların qarı,
Qəlbində gül açan sövdanın barı,
Çimnazın evinin yanından keçdi,
Həsrətlə üz qoydu o kəndə sarı.

Oğlunun toyunu başlamışdı xan.
Yırtıcı qurdlarla dolmuşdu eyvan.
Poladı görüncə bağırdı: – Aşıq,
Otur daş üstündə, oxu bir dastan!

Çırpındı igidin parlaq umudu,
Məclisdə tapmaqçın o xain qurdu.
Sazını tez basdı odlu bağrına,
Aslanın haqqında çaldı, oxudu:

Qəhrəmandır igid Aslan,
Adı düşmüş dildən-dilə.
Yoxdur ona qarşı duran,
Dağ kimi arxadır elə.

Onu bütün ölkə sevər,
Elin çarpan ürəyidir.

Kölgəsindən aslan ürkər,
Uçuq evin dirəyidir.

Dünya olsa ona düşman,
Ürəyinə girməz qorxu,
Qurşandımı qılınc, qalxan,
Daşa dəyər düşmən oxu.

Aslan salmış dağda məskən,
Dəstəsilə yaşar orda,
Çıxsa elə ziyan verən,
Qanadlanıb uçar yurda!..

Yerindən sıçrayıb xan birdən durdu,
Bağırdı: – Öymə o yırtıcı qurdu! –
Sonra nayiblərə çevrilib dedi:
– Bilsəniz mülkümə nə ziyan vurdu?!

"Xana bac verməyin", – deyirdi elə,
Əlindən var-yoxum dönmüşdü külə.
Özü bir orduya bərabər idi,
Meydanda dönərdi qızğın bir filə.

Doğrudan igiddi, bilməzdi qorxu.
Gecələr gözümə girməzdi yuxu,
Gördüm ki, nə qədər sağdır bu quldur,
Qorxuyla keçəcək ömrümün çoxu.

Bir gecə gizlincə oğlum Şahmar xan,
Bir də on beş nəfər igid pəhləvan.
Xəncərlə, qılıncla, toppuzla getdik,
Dörd yandan soxulduq yatarkən Aslan.

Hər yandan qulduru salmışdıq dara,
Cəmdəyi olmuşkən nişan oxlara,
Qılıncı əlimdən çəkərək birdən
Köksümün başında açdı bir yara.

Nəhayət ömrünü verdik biz bada,
Canımdan, mülkümdən sovuşdu qada,
Çox çəkməz, dayanın, böylə bir oyun
Verərəm Qoçoğlu quldur Polada!

Poladın qəlbində açıldı çiçək,
Gözünün önündə canlandı dilək.
Qonaqlar yanında öyünərkən xan,
Çimnazın yanına qaçdı sevincək.

Qoçoğlu Poladı görüncə Çimnaz,
Gül kimi açıldı, keyfi oldu saz,
Dedi: – Sən xoş gəldin, ey daşqın dəniz!
Çay kimi deyilsən, bulanlıq, dayaz.

Sözünə sadiqsən, ey ər oğlu ər,
Görürəm çox şənsən, üzün gülümsər.
Durma ki, tükəndi səbrim, qərarım,
Eşitdiklərindən ver mənə xəbər!

Qoçoğlu bağırdı: – Gözlərin aydın,
Tapıldı nəhayət namərd düşmanın.
Köksümün içində bir toy çalınır,
Alaram qanını igid Aslanın.

Dərindən sızlayır közlənmiş yaram,
Xalqımın yolunda ölüncə varam!..
Ölkədən düşmənlər qovulsun gərək,
Əlimə müjdə ver, yaxındır bayram!..

Dedi: – Ey qəhrəman, burax bu sazı,
Sevindir ürəyi dərdli Çimnazı.
Aslanın qılıncı, atı məndədir,
Bu günçün saxladım gözəl Ayazı.

Çox yaşa, qəlbimdən silindi kədər,
Sən gözlə, Ayaza mən vurum yəhər.

Elin düşmənindən intiqam üçün,
Qoçoğlu, səninlə gedək bərabər.

Sevincək həyətə yüyürdü Çimnaz,
Geyindi, qurşandı, keçmədi bir az
Həmin gənc pəhləvan qiyafəsində,
Polada göründü, yedəkdə Ayaz.

Qoçoğlu görüncə tanıdı onu,
Bildi ki, ceyrandır, dəyişmiş donu
Əlindən tutaraq söylədi: – Neçin,
Oynadın mənimlə belə oyunu?

Qız baxdı Polada, mənalı güldü,
Qırmızı yaqutu ikiyə böldü.
Sədəfin içində parladı inci,
Yenə də yaqutdan hörük hörüldü.

Dedi: – Mən ilk dəfə gəldim köməyə,
Vəzifəm çağırdı böyük diləyə.
İkinci dəfə də sınadım səni,
Sövda butəsində vurdum məhəyə.

Bəyəndim, çox gözəl verdin imtahan,
Vuruldum sənə, ey igid qəhrəman!
Deyirlər, yolçuya söhbət haramdır,
Gəl, bizi gözləyir o xain duşman.

Qoçoğlu dedi: – Ey hüsnün çırağı!
Atandır, anandır ellər dayağı.
Bilirəm, igidsən, soyun-sopun[1] var.
Qoy mənim əlimdə inləsin yağı.

Mənəm öz xalqımın intiqam səsi,
El oğlu Aslanın doğma varisi.

[1] Əsil-nəsəbin

Qanını almaq da mənə düşməzmi?
Sən özün insaf et, ey dağ pərisi!

Yaşardı Çimnazın ceyran gözləri,
Əliylə yüyəni çəkdi irəli,
Dedi: – Al, atamın qılıncı, atı!
İntiqam almamış dönməzsən geri!

Qoçoğlu mənalı baxdı Çimnaza,
Quş kimi atıldı ceyran Ayaza.
Əlini yuxarı qaldırınca o,
Ayaz bir quş kimi gəldi pərvaza.

Polada həsrətlə baxdı arxadan,
Çimnazın qəlbində qopdu həyəcan.
Nə qədər bənzərmiş igid igidə!
Hər görən sanacaq dirilmiş Aslan.

Şahmar xan çıxmışdı o gün cıdıra,
Atlını bölmüşdü iki tabura,
Uçurdu atlılar, öndə toy bəyi,
Göylərə qalxırdı toz bura-bura.

Uzaqdan görüncə, Poladın qanı
Sıçradı başına, alışdı canı.
Ayazı sürdü tez onun önünə,
Bağırdı: – Qaçma dur, ey el düşmanı!

Gəlmişəm ki, cıdır öyrədim sana,
Toyunda əlimi bulayım qana.
Qarşı çıx, dayanma, bu meydan, bu sən! –
Deyərək əl atdı qılınc-qalxana.

Şahmar xan o qızmış aslana baxdı,
Kinindən dönərək bir yana baxdı.
Nifrətlə çox acı gülümsəyərək,
O igid gövdəli oğlana baxdı.

Dedi: – Sən kimsən, ey pəhləvan, söylə,
Neçin oynayırsan öz əcəlinlə?
Çox böyük hünərdir, məni bir kimsə
Ömrümdə heç təhqir etməmiş belə.

Dedi: – Mən Qoçoğlu igid Poladam,
Qəzənfər xanlara düşmənəm yadam.
Aslanın qanını almağa gəldim,
Çıx mənim qarşıma, ey xain adam!

Qılıncı hiddətlə çıxardı qından,
Atını irəli sürdü Şahmar xan.
Kin ilə parladı göydə qılınclar,
Üz-üzə kükrədi hər iki düşman.

Qoçpolad atıldı Şahmara qarşı,
Titrətdi çəkdiyi nərə dağ-daşı.
Havada parlayıb oynarkən qılınc,
Yerlərdə çırpındı düşmənin başı.

Dəydi bir-birinə xan adamları,
Atılıb cumdular Polada sarı,
Dedilər: – Biz xana nə cavab verək,
Xəzanə döndərdin bu şən baharı.

Xan kinə dolunca qıracaq eli,
Axacaq günahsız qanların seli.
Bilirik, ölkəmiz batacaq yasa,
Qırıldı bu dərdli ölkənin beli.

Qoçpolad bağırdı: – Ey qoç igidlər!
Ananız, bacınız zülmdən inlər.
Ölkəni zindana çevirmiş bu xan,
El yasa batmışdır, düşmən gülümsər.

Bu xandan ölkəmiz doymuşdur cana,
Əl atır qurtuluş deyə hər yana,

Kim elin oğludur arxamca gəlsin,
Dərs vermək istərəm Qəzənfər xana!

Oynadı yerindən böyük bir kütlə,
Dedilər: – Gedirik biz də səninlə.
Bu qurdlar ölkəni, xalqı taladı,
Bir də düşməyəcək bu fürsət ələ!

Oradan gəldilər xan sarayına:
Həyətdə qurulmuş böyük toyxana,
Aşıqlar könülsüz oxuyur, çalır,
Oynayan qız-oğlan baş əyir xana.

Xan başda oturmuş nayibləriylə
Əmr etdi bir qıza o gülə-gülə:
– Qalx, Telli, bizə bir "Qaytarma" oyna,
Əkinin, mal-qaran düşməsin selə!
Qoçpolad dostlarla girdi həyətə,
Baxdı o məclisdə olan şövkətə,
Dedi: – Xan, hər gün toy-bayramdır sənə,
Xalq isə düşmüşdür ağır zillətə.

Cıdırda oğlunun ölçdüm boyunu,
Oradan "təbrikə" gəldim toyunu.
Eşitdim mənə də açmaq istərsən
Aslana açdığın xain oyunu.

Gəlmişəm mənə də açasan oyun,
Bir az da şənlənsin bu yaslı toyun.
El gəlmiş qapına, haqqını istər,
Onları sandınmı bir sürü qoyun?

Qoçpolad adını eşidincə xan,
Qəlbinin içində qopdu bir tufan.
"Həm malım, həm canım gedəcək, dedi,
Nə riyakarmış bu vəfasız dövran!"

Bitirər-bitirməz ürək sözünü,
Yenidən topladı bir az özünü.
Kükrədi Qoçoğlu Polad üstünə,
Kin, acıq göynətdi könül gözünü.

Bağırdı: – Dağlara get kəsil darğa!
Alıcı tərlanı sanma bir qarğa!
Əcəlin gətirmiş səni qapıma,
Gəl, pəncəm öyrənmiş dəri soymağa.

İgidlər bağırdı qudurğan xana:
– Bu qədər öyünmə, gəl çıx meydana!
Ölümlə gələrsən pəncə-pəncəyə,
Hünəri bu qılınc bildirər sana!

Aslanlar doğuran bu el, bu ölkə,
Qudurğan, zülmündən gəlmişdir təngə.
Biz ölüm, ya dirim eşqilə bu gün
İntiqam namına girmişik cəngə.

Toy tamam pozuldu, qarışdı ara,
Xan ilə nayiblər düşdülər dara.
Poladla igidlər aslana döndü,
Qılınclar toy tutdu xain başlara.

Qılıncın, toppuzun, süngünün səsi,
Poladın arabir aslan nərəsi,
O qanlı meydana verirdi dəhşət,
Elə bil coşurdu döyüş nəğməsi.

Hamının ürəyi kin ilə dolu,
İgidlər çeynəyir sağ ilə solu.
Qoçoğlu dörd yana endirir qılınc,
Bağlanmış düşmənin qurtuluş yolu.

Endikcə qılınclar qızışır meydan,
Yaralı cəmdəklə dolmuşdu hər yan,

Səs-küydən, nərədən qulaq tutulur,
Qorxudan qaçmağa can atırdı xan.

Qoçpolad yerindən bağırdı xana:
– Özün çıx, kişisən, buyur meydana.
Siyirmə qılıncla üstünü aldı,
Qılıncı endirdi xain düşmana.

Xan fəryad eləyib yıxıldı yerə,
Bir titrətmə düşdü o nayiblərə.
Yavaşca Polada dəydi bir qılınc,
Qulağı dibində qopdu bir nərə.

Baxarkən sağına o qızmış aslan,
Gördü ki, vururkən onu bir düşman,
Ox kimi üstünə şığıdı Çimnaz,
O azğın xainə vermədi aman.

Başında parladı tarixi toppuz,
Poladın qəlbinə yapışdı bir buz.
İçindən sevinclə gülərək dedi:
– Dünyada bir günüm olmasın bunsuz!

Yenidən əl atdı kəskin qılınca,
Hiddətlə sağa, həm sola vurunca,
Düşmənlər bağırdı: – Təslim oluruq!
Qoçpolad baxdı bir meydan boyunca.

Düşmənin istəyi dəymişdi daşa,
Nəhayət verildi qanlı savaşa.
El birdən coşaraq bağırdı: – Var ol,
Yaşa, ey el oğlu Polad, min yaşa!..

Toxtamış eşidib gəlmiş uzaqdan,
Həyəti görüncə bir qanlı meydan,

Şaşırıb heyrətlə gendən baxırdı.
Elə ki “təsliməm” – bağırdı düşman.

Sevincdən dönərək açılmış gülə.
Yanaşdı meydanda o qızmış filə.
Dedi: – Ey igidlər, dinləyin məni!
Barmaqlar oynadı, saz gəldi dilə:

– Uğur olsun, çiçəkləndi diləyin,
Yurdumuzun qəhrəmanı Qoçpolad!
Tilsimli zindanı qırdı biləyin,
Elin qəlbi, elin canı Qoçpolad!

Xalq olmuşdu dilsiz, miskin bir kölə,
Dar günündə kömək oldun bu elə,
Döndün dağdan axan daşqın bir selə,
Yerə soxdun o düşmanı, Qoçpolad!

Geniş qəlbin bulanmayan bir dəniz,
Gündən aydın, çeşmələrdən saf, təmiz,
Qoy adınla fəxr eləsin ölkəmiz.
Elin igid qəhrəmanı Qoçpolad!

Qış olmasın ay-günəşli bu yazın,
Ocaqları şənləndirdi avazın,
Toya gəldim, hanı gözəl Çimnazın?
Çağır gəlsin o ceyranı, Qoçpolad!

El yolunda həm can qoydun, həm əmək,
El atından, üzəngi tut, ey fələk!
Yasdan sonra elə şanlı toy gərək.
Gəl sevindir el-obanı, Qoçpolad!

*1938*

## ZƏHMƏT VƏ ZİNƏT

Kənd içində Alış dayı
Adlı-sanlı əkinçiydi.
Əməyinə düşən payı
Ürəyinin sevinciydi.

İki çarıqcığı vardı,
Biri Zəhmət, biri Zinət.
Zinəti çox dost tutardı,
Bəsləyərdi ona hörmət.

Vurğun idi bu çarığa,
Səhər-axşam yağlayardı.
Qoyub dəmir bir sandığa,
Açar ilə bağlayardı.

İş zamanı Zəhmət yalnız
Ona sadiq yoldaş idi.
Hər bir çətin, hər amansız
Qara gündə qardaş idi.

Yer şumlayır, biçir, əkir
Toz-torpağa bürünərək.
Hər bir yükü Zəhmət çəkir
Ayaqlarda sürünərək.

Göy çırağı axşam sönür,
Yavaş-yavaş çökür zülmət.
Alış dayı evə dönür,
Ayağında tozlu Zəhmət.

Dəhlizə çatdığı zaman
Onu atır bir bucağa.
Zəhmət sızlar bu yaradan.
Tapdaq olur hər uşağa.

Qapıdan hər girən, çıxan,
Ayaqlayıb keçər onu.
İt-pişik də verməz aman,
Dırnağilə didər onu.

Alış bir gün döndü evə,
Açdı dəmir sandığını,
Dil tökərək sevə-sevə,
Yağladı öz çarığını.

Bu hörməti gördü Zinət,
Böyük qürur gəldi ona.
Toz-torpaqda yatan Zəhmət
Baxdı ona yana-yana.

Dedi: – Zinət, biz yoldaşıq,
Ey sevimli gözəl qardaş,
Mən varlığam, sən yaraşıq,
Varlıq olur hər yerdə baş.

Bu haqqını yoxdur danan,
Bizə sənsən zinət, bəzək.
Mənəm sizi canlandıran,
Qardaşa da hörmət gərək!

Nədən doğur bu başqalıq?
Sən başda, mən ayaqlarda?
Bu haqsızlıq, bu lovğalıq
Dastan olmuş dodaqlarda.

Zinət dedi: – Əziz qardaş,
Neyləmək, belədir insan!
Bu gün mənəm hər yerdə baş,
Sən də kölgəmdə gəz, dolan.

Bax, özün də etdin iqrar,
Mənsiz həyat nəyə gərək!

Düzdür, az-çox xidmətin var.
Sən göz olsan, mənəm bəbək.

Bu faydasız deyişmələr
Uzandıqca hey uzandı.
Ayranına kim turş deyər?
Biri yandı, biri qandı.

İl dolandı, zaman keçdi,
Dəyişmədi onun halı.
Hey çalışdı, əkdi, biçdi,
Gördü yoxdur istiqbalı.

Hey çalışır səhər-axşam,
Ancaq verilməyir qiymət.
Zinətə hər gündür bayram,
Buna qara gündür qismət.

Dedi: – Xeyrə qiymət verən
Tapılmayır bu torpaqda.
Əzizlənir zinət verən,
Mən çeynəndim hər ayaqda.

Alış dayı, Alış dayı,
Yaxşılığın bumu payı?

Zəhmət ordan uzaqlaşdı,
Az getdi o, üz getdi o,
Çaylar keçdi, dağlar aşdı,
Dərə-təpə düz getdi o.

Hər yerə ki basdı ayaq,
Yaşıllandı, çox şən oldu.
Hər bataqlıq, hər şor torpaq
Könül açan gülşən oldu.
Şənlik endi çəmənlərə,
Yaşıl geydi hər dağ-dərə.

Alış dayı o gün səhər.
Oyanmışdı qaranlıqdan.
Əkin-biçin onu gözlər,
Əsər yoxdur çarığından.

Hər tərəfə tez baş vurdu,
Alt-üst etdi o həyəti,
Ev xalqından bir-bir sordu,
Görən yox idi Zəhməti.

Bir-birinə vurdu kəndi,
Xəbər aldı hər yetəndən.
– Zəhmət! – deyə, çox səsləndi,
Tapılmadı görən, bilən.

Yorğun-arğın döndü evə,
Unutdu artıq Zəhməti.
Oxşayaraq sevə-sevə
Yağladı nazlı Zinəti.

Könül quşu oldu Zinət,
Səhər-axşam keyfə daldı.
Yedi, içdi bir az müddət
Təknələrə təpik çaldı.

İşsizlik tez yordu onu,
Daha gül açmadı murad.
Əyyaşlığın yoxdur sonu,
Dadsızdır zəhmətsiz həyat.

Artıq darıxırdı Alış,
Sanma hər keyf ömürlükdür.
Könlündəki nəşə qaçmış,
Həyat ona ağır yükdür.

Azuqəsi çıxmış əldən,
Kənddə ac və çaşqın gəzir.
Hər gün töhmət alır eldən,
Ürəyini tənə əzir.

Zinətin də rəngi qaçmış,
Gündən-günə saralırdı.
Dərdi-qəmi başdan aşmış,
Xəstə kimi sozalırdı.

İnlədi: – Ah, keçən günlər,
Zəhmət ilə qəlbim şəndi.
Bu tarlalar, çöl-çəmənlər
Mənim üçün bir gülşəndi.

– Alış, səndə oldu təqsir,
Küsdürdün dostun Zəhməti.
Bizdən ancaq gördü təhqir,
Etmədik lazım hörməti.

İnləyərək dedi Alış:
– Zəhmət imiş bizə kömək!
Bu çölləri qarış-qarış
Gəzib onu tapam gərək!

Hər ikisi qalxdı birdən.
Ulduz göz qırpırdı aya.
Gəzə-gəzə o çölləri
Çatdılar köhnə tarlaya.

Bir qayanın ətəyində
Bardaş qurdu Zinət ilə.
Keçmişləri ürəyində
Xatırladı həsrət ilə.

Döndü cansız bir qayaya,
Gözlərinə çökdü duman.
Baxdı işıq saçan aya.
Qəlbində qopdu həyəcan.

Dedi: – Zinət, bir baxsana,
Tayalardan yoxdur əsər.
Nəzər saldıqca hər yana,
Ürəyimi yeyir kədər.

Ahım ucalır göylərə,
Qəlbim yanıb külə dönür.
Kədər verir bu mənzərə,
Gözlərimin odu sönür.

Zəhmət bir dağ çəkdi mənə.
Söylə, Zinət, biz neyləyək?
– Dərdimi artırma yenə,
Çox inləmə, tez dur, gedək!

Alış döndü boz qayaya,
Gözlərinə çökdü duman.
Bu ağrını duya-duya
Yol ilə getdiyi zaman.

Qarşısına bir qab çıxdı.
Alış götürüb tez açdı;
İçindən bir kitab çıxdı.
Oxuyunca rəngi qaçdı:

“Bu dünyada sev zəhməti,
Odur həyatın zinəti!”
Daldı dərin düşüncəyə,
Bir ah qopdu dodağından:

“Ey sevimli Zəhmət!” – deyə
Yaş töküldü yanağından.
Dedi: – Səni, gözəl əmək,
Harda olsan, tapam gərək!

Baş götürüb düşdü yola,
Xəbər tutdu hər yetəndən.
Yollarda çatıb hər elə
Soruşurdu hər ötəndən.

Zinət ilə dağı-daşı,
Dəli kimi dolaşırdı.
Dincəlib hər keçid başı,
Başqa dərə, dağ aşırdı.

Çox axtardı, çox dolaşdı,
Gecələri etdi səhər.
Çöllər gəzdi, dağlar aşdı,
Zəhmətdən yox verən xəbər.

Çıxdı uca dik bir dağa,
Hər tərəfə etdi diqqət.
Göz gəzdirdi sola-sağa,
Yenə görünmədi Zəhmət.

Gördü döşündə iynə var.
Onu sancdı dağ qaşına.
İynə oldu böyük çinar,
Çıxdı çinarın başına.

Boylandı, əl göz üstündə,
Hər tərəfə saldı nəzər.
Qəlbi yandı köz üstündə,
Zəhmətdən görmədi əsər.

Bir də baxdı uzaqlara,
Gördü Zəhmət sürür kotan.
Toz-torpağı yara-yara
Hey çalışır yorulmadan.

Şumladığı yerin, gerçək,
Nə ucu var, nə bucağı.
Doğru imiş, dedi, əmək
Şənləndirir hər torpağı.

Alış dayı endi dağdan,
İri-iri addım atdı.
Qəlbində odlu həyəcan
Gəldi o, Zəhmətə çatdı.

Salam verib hörmət ilə,
Dedi: – Zəhmət, bu nə işdir!
Məndən neçin küsdün, söylə?
Aman, bu nə tərpənişdir?

Ellər tənə vurur bizə,
Dostu atmaq nəyə gərək!
Gəl, qayıdaq evimizə,
At kotanı, durma, gedək!

Zəhmət dedi: – Alış dayı,
Get, səninlə barışmaram.
Bilməyirsən haqqı-sayı,
Köksümdə sızlayır yaram.

Məndən əl çək sən bir kərrə,
Unut artıq, at daşımı.
Yox, dözmərəm o təhqirə,
Alçaltdın yüksək başımı.

Mənəm səni şənləndirən,
Mənəm sənə həyat verən,
Sərvət verən, zinət verən,
Uçmağa qol-qanad verən.

Yanında heç hörmətim yox,
Sən eylədin tapdaq məni.
İndi ki bir qiymətim yox,
Zinəti sev, burax məni.

Onu yağla, qoy sandığa,
Səninçin artıq mən nəyəm!
Get, hörmət et o çarığa,
O doğmadır, mən ögəyəm.

Alış dayı: – Sən haqlısan,
Ey canım, vicdanım Zəhmət!
Barışaq, keç günahımdan,
Məndən sənə min-min hörmət!

Başım dəydi daşdan-daşa,
Bildim daha qiymətini.
Düzdür, zinət gəlir xoşa,
Mən tutaram hörmətini!

Zəhmət sevimli həyatdır,
Sənsən mənim qəlbim, canım.
Zinət bizə qol-qanaddır,
Ey istəkli mehribanım!

O gündən ki bu torpağa
Babalarım qoymuş ayaq,
Bu ölkədə hər ocağa
Şənlik saçan sənsən ancaq!

Bunu deyib o, Zəhməti
Birdən-birə qucaqladı,
Zinətin coşdu şəfqəti,
Onu gül kimi qoxladı.

Dedi: – Qardaş, bir bax, sənsiz
Heyva kimi saralmışıq.
Səhvimizi anladıq biz,
Bu işdən ibrət almışıq.

Zəhmət uydu şirin dilə,
Dostlarımız barışdılar.
Yenə verdilər əl-ələ.
Təbiətlə yarışdılar.

Hər bir işə sevgi gərək,
Hey çalışır Zəhmət, Alış.
Yerin bağrını sökərək
Əkir, biçir, qarış-qarış.

Tarla geyib qızıl atlas,
Dəniz kimi dalğalanır.
Geniş-geniş alır nəfəs,
Beşik kimi yırğalanır.

Budaqlarda ötür bülbül,
Ətir saçır çəmən, çayır.
Ağır başlı sarı sünbül
Boynun bükmüş, parıldayır.

Ona baxdıqca hər könül
Doymaz, alar nəşə, sevinc.
Dənə dolmuş sarı sünbül
Deyir: "Zəhmət, gəl bizi biç!"

Zəhmət girdi o tarlaya,
Biçdi qızıl sünbülləri.
Hər tərəfdə vurdu taya,
Şənləndirdi könülləri.

Göydə parlayan ay, ulduz,
Yerə saçırdı aydınlıq.
Gecə olmuşdu bir gündüz,
Hər yana hakimdi işıq.

Mürgü çökmüş çölə, dağa,
Qalın meşə görür yuxu.
Qonmuş yaşıl bir budağa,
Kəsik-kəsik ötür ququ.

Ulduzlarla əylənərək
Ay göz qırpır, Zəhmət, Zinət
Tayalara söykənərək,
Şirin-şirin edir söhbət.

Hər tərəfə Alış baxdı,
Qəlbi güldü al şəfəq tək.
Gözlərində şimşək çaxdı,
Kişi oldu lap sevincək.

Hələ Zəhməti, Zinəti
Görüncə bir yerdə çox şən,
Ürəyində məhəbbəti
Dəniz kimi coşdu birdən.

Qaçıb girdi gülə-gülə
İki dostun arasına.
Saldı böyük fərəh ilə
Hər qolunu bir boyuna.

Bir yanında gözəl Zəhmət,
Ürəyinə saçır işıq.
Bir yanında nazlı Zinət
Verir həyata yaraşıq.

Baxdı coşqun təbiətə,
Gördü mahtab aləm açmış.
Baxdı Zəhmətə, Zinətə,
Dedi: – Kitab doğru yazmış:
“Bu dünyada sev zəhməti,
Odur həyatın zinəti!”

*1944*

# Pyeslər

# QAFQAZ ÇİÇƏYİ

*4 Pərdədə faciə*

Ə Ş X A S

J i r i k o v – baş komandan
Q o d u n o v – kapitan
Z ə h r a – əsir ləzgi qızı, Amolun qızı
A s l a n – Zəhranın sevgilisi
Q a z a q
Z a b i t və ə s g ə r l ə r
Ş a m i l ə f ə n d i
B i r i n c i s ə r k ə r d ə
İ k i n c i s ə r k ə r d ə
A m o l – Zəhranın atası
L ə z g i l ə r

## BİRİNCİ PƏRDƏ

Səhnə Jirikovun çadırını təsvir edir. O, Qodunov ilə nərd oynayır.

Q o d u n o v (*zərləri atır*). Do ba yek.

J i r i k o v. Pənco çahar.

Q o d u n o v. Dur, bu Kaxetiya şərabından bir qədər içim. (*İçir*). Ox, ruh verir, ruh. Oynayaq, dostum, çahar sə.

J i r i k o v. Do pənc.

Q o d u n o v. Do pənc, demək, maaşımın hamısı getdi. (*Almas üzüyü barmağından çıxarıb*) Mən bu almas üzükdən keçirəm, sən də o Qafqaz çiçəyini ortaya qoymalısan.

J i r i k o v. Zəhranımı?

Q o d u n o v. Zəhranı, Zəhranı!

J i r i k o v. Səni qırmızı şərab söylədir.

Qodunov. Xeyr, məni söylədən talesizliyimdir. Səndən igid, səndən bacarıqlı olduğum halda, daima arxada qalıram. Mən də gənc bir insanam, mən də gözəllərlə bəxtiyar bir həyat sürmək istəyirəm. O Qafqaz çiçəyinin uğrunda hər şeydən keçməyə qərar verdim.

J i r i k o v. Dəf ol, o yalnız mənimdir. Sən məni təhqir edirsən. Sən mənim namusum və heysiyyətimlə oynayırsan. Mən oynamıram.

Q o d u n o v. Əlbəttə, oynamazsan. Oyunu qazandıqdan sonra qaçmaq – bu da bir növ oğurluqdur.

J i r i k o v (*paraları masaya ataraq*). Al paralarını!

Q o d u n o v. Dırıjıkov!

J i r i k o v. Götür!

Q o d u n o v. Bu mənim yaralarımı sağaltmaz. Mənə Zəhra gərəkdir, Zəhra!

J i r i k o v. Sənin əlin gətirməyir.

Q o d u n o v. O məni əsla düşündürmür. Bu oyunları çox gördük. Mən açıq səhralarda doğulmuş azad bir insanam. Bu rütbəm, bu vəzifəm mənə nə vermiş? Heç bir şey! Çünki axmağam. Çünki heç bir təsadüfdən istifadə edə bilmirəm. And olsun Şərqə və Qərbə, bu təsadüfdən əl çəkməyəcəyəm. Zəhra mənim olmalıdır.

J i r i k o v. Azma, bura qul bazarı, Zəhra da satılıq mal deyil! Bilirəm, siz mənə həsəd edirsiniz. Mən ləzgilərə əsir düşdüyüm zaman bu qız həftələrlə mənə xidmət etmiş və qaçıb qurtarmağıma səbəb olmuşdu. Dargo qalasını aldığımız zaman qudurmuş qazaqlar onun arxasınca qaçırdı, mən yetişib bu gözəl şikarı onların əlindən aldım. O məni tanıdı, vəhşətdən iri-iri açılmış qara gözlərini üzümə dikib qaldı. O alıcı gözlər mənə qarşı kinlə deyil, hörmət və məhəbbətlə parlayırdı.

Q o d u n o v. Sən taleyin bu süni boyaları ilə rəssamlığa qalxışma! Bunlar mənim mətanətimi qırmaz. Mənə acıqmı verirsən?

J i r i k o v. Bu sözləri onun üçün söyləyirəm ki, bu əsir qızın yalnız mənə məxsus olduğunu anlayasan. Mən daima öz eşqimin qaraulundayam. Zəhranı kimsə məndən ayırmaz! Sən bu tərsliyin ilə özünə dərin bir fəlakət quyusu qazırsan.

Q o d u n o v. Götür manatlarını, xoşbəxt insan! Fəqət unutma ki, məni bu fikrimdən heç bir qüvvət çəkindirməz, qərarım qətidir; ya səadət, ya ölüm! (*Gedir*)

Jirikov yalnız. Bir az sonra qazaq, əlində məktub, daxil olur.

J i r i k o v. Yazıq! Sənin nəsibin ancaq ölüm və fəlakətdir. (*Qazağa*) Nə xəbər?

Q a z a q. Şövkətli əfəndimiz, əlahəzrət qraf Varansovdan sizə məktub var. (*Məktubu verib gedir*)

J i r i k o v (*məktubu oxur*). Nə böyük səadət, məni padşahım öz hüzuruna çağırır. Şübhəsiz, bu yenə qrafinya Şumilina xanımın işi ola-

caq. Birlikdə keçirdiyimiz o gözəl qış gecələrini xatırlamış da, ayrılığa nəhayət vermək istəyir. Bu çox gözəl! Fəqət Zəhra?.. O da mənimlə getməlidir. Bu iki eşqi bir hiylə ilə bir-birindən gizlətmək şərtilə!

Z ə h r a (*daxil olur*). Ah, sıxılıram, knyaz.

J i r i k o v. Sən düşünürsən, Zəhra! Bət-bənizin qaçmış. Səni rahatsız edən nə şeydir, söylə?

Z ə h r a. Mən namussuz və günahkar bir qızam, knyaz!

J i r i k o v. Burax bu sözləri, Zəhra!

Z ə h r a. Bu gün yaşıl bir təpədə oturmuşdum. Bir də gördüm, Aslan qarşımda durur və məhəbbətlə məni oxşayıb deyir: Zəhra, sən mənimsən. O, məni sevə-sevə iki qolları arasına aldı. Mən vəhşi ahu kimi ondan qaçdım.

J i r i k o v. Zəhra, mənə sənin qəzavü-qədərin lazım deyil. Burax onlar bu vəhşi dağlarda qalsın. Söylə görüm, mənimlə başqa ölkəyə gedərmisən?

Z ə h r a. Haraya?

J i r i k o v. Başqa bir məmləkətə.

Z ə h r a. Bu gözəl yerlərdən uzaqlaramı?

J i r i k o v. Şimala, Rusiya paytaxtı olan Peterburqa.

Z ə h r a. Of, nə ağır təklif. Məgər sən gedirsən?

J i r i k o v. Sabah, səhər ertə.

Z ə h r a. Səbəb?

J i r i k o v. Əlahəzrət padşahımız məni öz yanına çağırır və mənə uca bir rütbə və vəzifə verir.

Z ə h r a. Düşmənimin ölkəsinəmi?

J i r i k o v. Nə söyləyirsən, Zəhra?! Bax, gör sən hardasan?

Z ə h r a. Öz düşmənimin çadırında.

J i r i k o v. Zəhra, məgər mən sənə düşmənəm? (*Zəhra sükut edir*) Cavab ver. Sən mənimlə Peterburqa gedəcəkmisən? Ora bizim paytəxtdir. Əzəmətli saraylar, yüksək binalar, böyük idarələr, geniş küçələr, qaldırımlar, hər şeydən artıq eyş və səadət...

Z ə h r a. Yox, mənim orada nə işim var? Onlar bizim sərbəst yaşamış xalqımızı, azad ölkəmizi boyunduruq altına alıb əsir etmək istəyir. Yox. Mən bu yoxsul xalqdan, bu uca dağlardan, bu yaşıl təpə və yamaclardan ayrılmaram.

J i r i k o v. Yoxsa səni Aslanın məhəbbəti saxlayır?

Z ə h r a. Yox, o artıq məni sevmir.

J i r i k o v. Yoxsa ümidvar olursan ki, atan səni bağışlayacaq?

Z ə h r a. O da mənə lənət oxuyur.

J i r i k o v. Ya qardaşlarına güvənirsən?

Z ə h r a. Of! Xain bir qızı kim sevər?

J i r i k o v. O halda vətən və millətin üçün silahlanmaq istəyirsən.

Z ə h r a. Ax, mən artıq kimə lazımam? Yer, göy mənə lənət oxuyur.

J i r i k o v. Axmaq! Səni burada lənət, nifrət, orada məhəbbət və səadət bəkləyir. Mən gedirəm, bu gün son fikrini mənə söylərsən!

Z ə h r a (*yalnız*). Ah, mən burada sarp və yalçın qaya başından uçuruma doğru atılmaq istəyən vəhşi bir ceyran vəziyyətindəyəm. Ey gözəl Qafqazın mətin qayaları, mən sizdən ayrıla bilərmiyəm? İndi məni qolları arasında sevə-sevə böyüdən atam, qardaşlarım mənə lənət oxuyur. Ölkəmizin qəhrəmanları məndən nifrətlə üz çevirir. Aslan da gurlayan səsilə: "Zəhra, lənət olsun sənə!" – deyə bağırır. Rəhmətlik anacığım da gəmik əllərini məzardan çıxarıb: "Zəhra, Zəhra, lənətlər olsun sənə, sən mənim qızım deyilsən!" – deyir. Ah, anacığım, anacığım!

(*Yıxılır*)

P ə r d ə

## İKİNCİ PƏRDƏ

Səhnə Jirikovun evini təsvir edir

Z ə h r a (*yalnız*). Of, nə ağır, nə çətin vəziyyət. Orda məni lənət və nifrət, burda namussuzluq və xəyanət gözləyir. Ey məni böyüdən, yaşadan yerlər, sənə son göz yaşlarımı tökürəm.

A s l a n (*yapıncıya bürünmüş halda*). Zəhra!

Z ə h r a (*görməyib*). Bu kimdir?

A s l a n. Zəhra!

Z ə h r a. Ah, Aslan! Məni öldürməyəmi gəldin? İntiqam almaqmı istəyirsən? Öldür məni, öldür! Mən ölməyə çoxdan razıyam.

A s l a n. Qorxma, Zəhra, sənə nicat verməyə gəldim.

Z ə h r a. Nicat verməyə?

A s l a n. Nicat verməyə, tez ol gedəlim!

Z ə h r a. Mənə nicat vermək istərkən özünü təhlükəyə saldın.

A s l a n. Sənin yolunda hər şeydən keçirəm, Zəhra!

Z ə h r a. Söylə, Aslan, səndəmi mənə lənət oxuyursan?

A s l a n. Yox, Zəhra! Qəlbim yenə də sənə qarşı daşqın bir məhəbbətlə çarpır, vaxt keçir, tez gedəlim!

Z ə h r a. Hara?

A s l a n. Bu gün düşmənə hücum olacaq. Bu qalalar, səngərlər atəş və alov içində qalacaq.

Z ə h r a. Nə böyük müjdə. Fəqət mən gedə bilməyəcəyəm.

A s l a n. Ölkənin bütün qəhrəmanları silahlanmış, hamısı Şamilin bir işarəsini gözləyir. Bu qalalar kül olmamış gəl buradan çıxalım! Qorxma, bu yapıncı rus qaradavoylarını aldadar.

Z ə h r a. Aslan, sən məni qurtarmağa gəldin, fəqət özün düşmən əlindəsən. Qaç, qaç qurtar.

A s l a n. Sənsiz getmərəm, Zəhra! Burada sənin üçün ölüm və əsarət, orda azadlıq və səadət var. Atımız bizi bəkləyir.

Z ə h r a. Aslan, bilmirsən mən kiməm? Xain bir qız, düşmənlərimizin sevgilisi, mənim aldadıcı və xain qəlbimdə sizin üçün heç bir şey yox!

A s l a n. Gözəl Zəhra, belə söyləmə!

Z ə h r a. Mən səni sevmirəm. Sən burada nə edirsən?

A s l a n. Ah, Zəhra! Mən məhəbbət əsiriyəm. Hər tərəfə istəsə çəkir. Bu qalalar alovlanmamış sənə nicat vermək istəyirəm.

Z ə h r a. Məni nə üçün ora çəkirsən? Orda məni lənət və fəlakət bəkləyir.

A s l a n. Yox, Zəhra, yanılırsan, orda səni azadlıq və səadət bəkləyir.

Z ə h r a. Çox razıyam, Aslan! Məni sevirsənsə Jirikovu bu təhlükədən qurtar, ona kömək ol, Aslan!

A s l a n. Rus knyazı Jirikovumu?

Z ə h r a. Göstər mənə olan məhəbbətini, göstər!

A s l a n. Bu, alçaqlıq və namussuzluqdur. Quşlar qədər azad yaşamış olan bu dağ igidlərini əsir etmək istəyən düşməni qurtarmaq olurmu? Bax, Zəhra, Elbrus dağının ətəklərində, Quban çayının dəhşətli dalğaları arasında al qan içində çeynənən bu dağ qəhrəmanları başlarını qaldırıb bağırır: qalxınız, ey dağların azad övladı, qalxınız!..

Z ə h r a. Aslan, Jirikova nicat ver, rica edirəm, Aslan!

A s l a n. Bu nə qədər ağır təklif olsa da, sənin xatirin üçün onu qurtarmağa söz verirəm.

Z ə h r a. Sağ ol, Aslan! Sənin qəlbin dağ çeşmələrindən də saf və parlaqdır.

A s l a n. Mən bu çadıra hücum edib Jirikovu salamat tutaram. Əmin ol, fəqət sənə indi nicat verməyə hazıram.

Jirikov, Qodunov daxil olur.

J i r i k o v (*uzaqdan Qodunova*). Əmr ver, ordugahdan keçməyə kimsəni buraxmasınlar!

Z ə h r a. Aslan, işin bitdi. Sən məhv oldun. Tez gizlən!

A s l a n. Gecdir, Zəhra!

J i r i k o v (*Qodunova*). Bu nədir? Bizim çadırımızın qarşısında çərkəs atı. (*Onları görür*) Zəhra, burada nə edirsən?

A s l a n. Knyaz, şikayətə gəldim.

J i r i k o v. Kimdən?

A s l a n. Üçüncü tabur qazaqlarından.

J i r i k o v. Bilmirmisən böyüklərin hüzuruna yapıncı və papaq ilə gəlmək olmaz? Götür yapıncını! (*Götürməz*) Qaravul! Qaravul!

Q o d u n o v. Məğrur adam! (*Bir zabit, altı əsgər içəri girir*)

J i r i k o v. Alınız yapıncını, həbs ediniz?

Zabit yapıncını almaq istəyir, Aslan verməz, əsgərlər dartıb alır. Aslan çərkəs libasında, əynində dava geyimi, belində qılınc.

A s l a n (*qılıncı çəkər*). Buraxın məni!

J i r i k o v. Vurun! (*Əsgərlər tüfəngləri qaldırır*)

Z ə h r a (*aralığa atılıb*). Durun! Səbir et, Aslan! Ver bura qılıncı! (*Qılıncı alıb Jirikova verir*)

J i r i k o v. Burada bir sirr var.

Z ə h r a. Bu mənim qardaşımdır, görüşməyə gəlmiş.

J i r i k o v (*Aslana*). Adın nədir?

A s l a n. Aslan!

J i r i k o v. Çox gözəl, anladım. (*Qodunova*) Ehtiyatlı ol! Qaravulları ikiqat artır, bu casusdur, əsgərlərə xəbər ver. Bu axşam edam ediləcək.

Z ə h r a. Of, sən kömək ol, Allah!

Q o d u n o v. İtaət. (*Gedir*)

Z ə h r a (*Jirikovun qarşısında diz çökərək*). Sevimli knyaz, bu əsiri bağışla mənə.

J i r i k o v. Qalx, boş yerə yalvarma. Bilirəm, sən öz sevgilini qurtarmaq istəyirsən. Mən öz səadətimi bir dağ vəhşisilə bölüşə bilmərəm.

Z ə h r a. And olsun inandığın Allaha, müqəddəs bildiyin hər şeyə, and olsun sənə olan eşqimə, mən onu sevmirəm.

J i r i k o v. Yox, o məhv olmalıdır! Müharibə qanunu bunu tələb edir. Onların məğrur başları bizim təpiklərimiz altında əzilməyincə, onlar padşahımıza itaət etməz.

A s l a n. Bu heç bir zaman olmayacaq. Sənin padşahının sağ əli bizim buzlaqlara çatmaz.

Z ə h r a (*qalxar*). İnsafsız, sən məni heçmi sevməyirsən? Ah, axmaqlıq, sadəlik, aldandım... Belə olmaz, knyaz, son sözünü söylə, mənim bütün həyatım ondan asılıdır.

J i r i k o v. Mən rəhmsiz deyiləm. Sənin dostunu qurtarmaq üçün bir çarə var.

Z ə h r a. Nədir? Tez söylə!

J i r i k o v (*Aslana*). Aslan, and iç ki, bizim padşaha sədaqətlə itaət və xidmət edərsən, mən sənin qanından keçərəm.

A s l a n. Heç bir zaman!

J i r i k o v. Tərs axmaq! Bu gecə edam ediləcək!

Z ə h r a. Aslan! Aslan!

J i r i k o v. O edam edilməlidir. Qoy bu qanlı xəbər dağlarda yaşayan kəndləri dəhşətə gətirsin.

A s l a n. Nə axmaq xülya... Mənim qanım bu azad dağlarda kin və intiqam alovunu yüz qat daha artırar. Hamısı bir əl kimi intiqama qalxar. Onların dəhşətli nərələri şimal dağlarını titrədər. Bu səbəbə görə ölüm mənim üçün bir səadətdir. Yaxın bir zamanda sizin müstəbid padşahınızın qüruru qırılır.

J i r i k o v. Yazıqlar! Bizim padşahımızın qüvvət və iradəsi bitməz, tükənməzdir. Dünyanın yarısı onun ayaqları altındadır. Onun atəşli əmrlərinə bütün dünya itaət edir. Onun bir işarəsilə Şərqdə doğan bütün xam xəyalat bir anda sönər və hamısı qarşısında diz çökər. O, bütün Avropanı yalnız bir kirpiyində saxlayır. İndiyə qədər biz sizinlə oynayırdıq. Yaxın zamanda padşahımızın səbir kasası daşar, o zaman sizin dərələr, çöllər saysız qüvvətlə dolar. Dağların başından hiddət və dəhşət topları partlar. Nə qədər ki Qafqazın müdhiş uçurum-

ları, Quban çayının qanlı dalğaları sizin cəmdəklərinizi udmamış, padşahımızın kin və hiddət təpiyi sizi əzəcək.

A s l a n. Siz bizlərdən tək-tək öldürə bilərsiniz, fəqət müzəffər və qalib ola bilməyəcəksiniz.

Z ə h r a (*bu söhbətlər arasında dalmış kimi durar, birdən-birə*). Knyaz, axırıncı dəfə olaraq mənim ricamı qəbul et! Kömək ol Aslana!

J i r i k o v. Sus, alçaq! Hərb işlərinə qarışma. Bu cəsarəti sənə mənim məhəbbətim verirsə, unutma ki, sən əsir bir qızsan.

Z ə h r a. Knyaz, sən bu çirkin hərəkətinlə aramızda elə bir uçurum açdın ki, o məhəbbətlər ora gömüləcək və bir daha qayıtmayacaq.

A s l a n. Yaşa, uca dağların azad qızı! Düşmən qarşısında boyun bükmə, cəsur və məğrur ol!

Z ə h r a (*başını Aslanın umuzuna qoyaraq*). İgid Aslan! Sən məni sevirdin, öyləmi?

J i r i k o v. Mənim hüzurumda... (*onları hiddətlə bir-birindən ayırır*).

A s l a n. Yaşa, Zəhra, yaşa! Sən mənə cənnət məhəbbəti bəxş etdin!.. (*Jirikova*) Bundan sonra sizin qurşunlarınız məni qorxutmaz. Pəmbə buludlara bürünmüş günəş axşama qədər sönməyəcək.

Z ə h r a. İnan, Aslan, səni qurtaracağam (*Jirikova*) Ürəksiz, vicdansız, mərhəmətsiz!

J i r i k o v. Sus, azğın qadın!

Z ə h r a. Tiflisin ey gözəl gecələri, siz şahid olun ki, bu mənə istehza etdi. (*Başından almas cıqqanı dartıb yerə atar*) Ey xəyanət və namussuzluq cıqqası, sənin yerin başım deyil, ayaqlarım altıdır. (*Boynundan inciləri dartıb yerə atar)* Al, bu da sənin bəxşişindir. Ey məhəbbətlərim, siz də bunlar kimi dağılın! Sən mənim, xalqın, ölkəmin düşmənisən. Tez ol, alçaq, qaytar mənim namusumu!

J i r i k o v. Axmaq! Sən öz müqəddəratınla oynayırsan!

Z ə h r a. Lənət olsun sənə rast olduğum günə! O gün qəlbim nə üçün parçalanmadı? Nə üçün dəhşətli ildırımlar yandırıb məni kül etmədi? Bu azad dağlar şərəfinə namussuzluq düyününü açıb uca səslə deyirəm: lənət olsun mənə və sənə.

A s l a n. Yaşa, Zəhra, yaşa!

J i r i k o v. Əsiri götürün. Axşam edam edilməlidir. (*Zəhraya*) Səbir et, sən də cəzasız qalmayacaqsan! (*Zabit Aslanı götürür, Jirikov da dalınca gedir*)

Z ə h r a. Of, bu vicdansızın qəlbini heç bir şey yumşaltmadı. Aslan isə ona nicat verməyə söz verdi. O mənimlə oynayırdı, o mənim məhəbbətimi bir oyuncaq kimi ölçüb-biçirdi. O məni şəfəqli göylərdən dərin uçurumlara atdı. Onun yolunda xar oldum, xain oldum, namussuz oldum. Yox, Aslan! Mən sənə nicat verməliyəm! (*Düşünür, çıxmaq istərkən Qodunov daxil olur*)

Q o d u n o v. Dur, Qafqaz çiçəyi, dur!

Z ə h r a. Dəf ol, burax məni.

Q o d u n o v. Sevirəm səni, Zəhra!

Z ə h r a. Mən sizdən nifrət edirəm.

Q o d u n o v. Zəhra, Zəhra!

Z ə h r a. Rədd ol, deyirəm sənə.

Q o d u n o v. Mən dolu ciblə bazara gəlmişəm. Aslanın həyatı mənim əlimdədir. Söylə, məni sevirmisən?

Z ə h r a. Sənə rədd ol deyirəm.

Q o d u n o v. Almasa sədaqət gözilə baxmaq padşahımızın əmridir. Amma sən almasdan da gözəlsən, yanaqlarının şüası gözlərimi qamaşdırır. Söylə, Zəhra, məni sevirmisən?

Z ə h r a. Nə bura satqı bazarı, nə də mən satılıq qulam. Yoxsa bizləri əsir, qul zənn edirsiniz? Rədd ol başımdan. (*Getmək istəyir*)

Q o d u n o v (*onu qarşılayıb*). Pəncəmdən qurtara bilməzsən. Yaxşı düşün!

Z ə h r a. Düşünməyə ehtiyac yox, rədd ol!

Q o d u n o v. Acı mənə, Zəhra, nicat ver mənə!

Z ə h r a. Əl çək, alçaq!

Q o d u n o v. Yaşıl dağların sevimli çiçəyi, pəncəmdən qurtara bilməyəcəksən. (*Yaxınlaşır*)

Z ə h r a (*onun qılıncını qılafından dartıb çıxarır*). Mən daha qorxmuram, alçaq!

Q o d u n o v. Axmaq, bu səs-küy nəyə lazım? Bu çocuq hərəkətləri nəyə gərək?

Z ə h r a (*bir az düşündükdən sonra kənara çəkilib özü-özünə*). Burada bir nicat yolu var. (*Qodunova*) Bura bax, sənə bağlı olmayan bir qəlbi məcbur etmək olmaz. Sən onu heç bir zaman ələ gətirə bilməyəcəksən. Amma o, Jirikovu həmişəlik itirəcək. Mənə kömək et!

Q o d u n o v. Nə olmuş, Zəhra?

Z ə h r a. Mən ondan nifrət edirəm, onunla yaşamaq istəmirəm. Onu sən də sevməyirsən, bilirəm, fikrimiz birdir. Nicat ver mənə.

Q o d u n o v. Mən nə edə bilərəm?

Z ə h r a. Məni bu qaladan çıxar. Qaradavoylar səni tanıyır. Atları yəhərləyək, səyahət bəhanəsilə qaladan çıxaq. Mən də sənin yağmurluğuna bürünərəm. Qaravullar məni tanımaz.

Q o d u n o v. Anladım, sən qaçmaq istəyirsən.

Z ə h r a. Bu təsadüfə məgər sən heç bir qiymət vermirsən? Bu xaindən intiqam almaq istəmirsənmi? O mənə bir qul, bir əsir kimi baxır.

Q o d u n o v. Gözəl fikirdir, hazıram, Zəhra!

Z ə h r a. Söz verirmisən?

Q o d u n o v. Verirəm. Heç olmazsa onun səadət bağçasından mən də bir çiçək qoparım. Onun qəlbinə öz əlimlə mən də bir yara vurum. Bu iş məni son dərəcədə sevindirir.

Z ə h r a. Elə isə al qılıncını! (*Qılıncı verir*)

Q o d u n o v (*qılıncı alırkən*). Səadət bölgüsündə mənə ancaq boş qılaf qalır. Gedək, Zəhra, gedək!

Z ə h r a. Gedək! (*Çıxırlar*).

P ə r d ə

## ÜÇÜNCÜ PƏRDƏ

Təbii bir dağ üstündə vəhşi ağaclar, çalılar. Səhnənin nəhayətində uca qarlı dağlar, qayalar, ətəklərində çalılar. Sağ tərəfdə, səhnənin ikinci kolissasında (səhnənin yan pərdəsi yanında) iri palıd ağacı, ortasında yarğan, uçurum, sarp, yalçın qayalar, onların üzərində bir neçə dar cığır.

Z ə h r a. Məqsədimə çatdım. Dörd tərəfim çocuqluqda oynadığım yerlər. Ey qarlı uca dağların havası, qəlbi sərinlət! (*Təbil çalınır*) Bu təbil sərkərdələri palıd ağacı altına məsləhətə çağırır. Bu səs ədalət səsi kimi məni də çağırır.

Təbil çalınınca sərkərdələr, ləzgilər palıd ağacı altına toplanır və bir qismi cığırlarla aşağı enir. Bir az uzaqda qayanın çuxurlarında ləzgilər toplanıb qonuşur. Sağdan, ikinci kolissanın dalından Şamil bir bayraq və yanında iki sərkərdə ilə gəlir.

L ə z g i l ə r. Salam!

Ş a m i l. Salam, salam!.. Sərkərdələr toplanmışmı?

I s ə r k ə r d ə. Amol ilə Aslandan başqa hamı hazır.

Z ə h r a (*tərəfə*). Yazıq atamı deyir. Mən onların üzünə necə baxa biləcəyəm?

Ş a m i l. Sonuncu məclisdə bu gün gecə yarısı qalaya hücum etməyə qərar verildi. Bugünkü çağırışdan məqsəd hər kəsə öz vəzifəsini bildirməkdir. Biz dörd tərəfdən dağların, ağacların arasından yavaş-yavaş aşağı enəcəyik. Tüfəngləri keçələrə bürüyün ki, səsi olmasın. Açıqlığa çatdığımız zaman yumşaq otların arasına soxulub ilan kimi sürünərsiniz. Düşmən ovcunuzun içində olduğunu yəqin etdikdən sonra hücum edib, qurşunu dolu kimi yağdırarsınız və düşməni elə bir dəhşətə salarsınız ki, qaçıb gizlənməyə də yer tapmasın.

I s ə r k ə r d ə. Elə olsun, biz hazırıq!

H a m ı s ı. Gecə yarısı.

Z ə h r a (*çıxaraq*). Yox, o çox gecdir.

I s ə r k ə r d ə. Bu qız kimdir?

II s ə r k ə r d ə. Tanıyıram, Amolun qızı Zəhradır.

H a m ı s ı. Zəhradır?

I s ə r k ə r d ə. Demək, düşmənlərimizin dostu, məmləkətin xainidir.

Z ə h r a. Doğrudur, mən o xain Zəhrayam.

H a m ı sı. Lənət olsun sənə, xain!

Z ə h r a (*üzünü tutar*). Səbr et, vətənimin bu həniz ilk salamıdır.

I s ə r k ə r d ə. Bu dağlara qayıtmağa necə cürət etdin? Bilmirsənmi Qaqri dağlarının ətəklərindən ta Abşeron yarımadasının sahillərinə qədər sənin kirli və namussuz adın ağızlarda dolaşacaq? Qızlar mahnılarında, çobanlar tütəklərində oxuyacaq. Dağlar, qayalar sənə lənət yağdıracaq.

Z ə h r a. Ah, lənət olsun mənə... gecə yarısı çox gecdir. O zaman Aslanın həyatı sönmüş olacaq.

II s ə r k ə r d ə. Məgər Aslan əsir düşmüş?

I s ə r k ə r d ə. Bu xainə nicat vermək üçün getmişdi.

Z ə h r a. O mənə nicat vermək istəyirdi, özü düşmənə əsir düşdü. Günəş qürub edincəyə qədər hücum etməliyiz.

A m o l (*bir nəfər ləzgi onun əlindən tutub gətirir. Söhbətin axırında daxil olur*). Bu nə səsdir?

Z ə h r a (*onu görməyib*). Vaxt keçir. Aslanı hər dəqiqədə ölüm gözləyir.

A m o l. Qulaq asmayın ona!

Z ə h r a (*sıçrayıb üzünü tutur*). Vay, bu, atamın səsidir.

I s ə r k ə r d ə. Öz atası ona inanmayır. Xain bir qıza inanmaq olmaz.

A m o l. Onun fitnə sözlərinə inanmayın! O, xaindir.

Z ə h r a (*diz çökərək*). Sevgili atacığım, sənmisən? İzin ver o sevimli üzünə doyunca baxım.

A m o l. Gözlərimin ildırımı çoxdan sönmüş. Sən mənə istehza gözilə istədiyin qədər baxa bilərsən.

Z ə h r a. Aman Allah, atam kor olmuş.

A m o l. Sənin dostlarının qurşunları gözlərimin işığını almış. Bəlkə də sənin doldurub vermiş olduğun tüfəngin qurşunudur.

Z ə h r a. Ata, ata! Bu sözlərin neştər kimi qəlbimi parçalayır. (*Diz çökərək atasının əlini tutar*)

A m o l. Bu sənin əlinmidir? Rədd ol, azğın övlad! Mən səni çoxdan unutdum.

Z ə h r a. Bu azad dağlarda məndən talesiz insan yoxdur. Həyatım rəngsiz kölgə, havada uçan buludlar kimi zəhərlənmiş, əfv et, atacığım!

A m o l. Bağışlamaqmı? Əsla! Sənin kirli adını mən üzərimdə daşıya bilmərəm. Rədd ol!

Z ə h r a. Of! (*Şamilə*) Mərhəmətli Şamil əfəndimiz, əmr et hücuma!

I s ə r k ə r d ə. Bu kurnaz göz yaşlarıyla bizi aldatmaqmı istəyir? Bu mütləq sənin sevgilinin qurduğu plandır. Tutun bu qızı!

Ş a m i l. Zəhra!

Z ə h r a. Bəli!

Ş a m i l. Mən səni anlayıram.

Z ə h r a. Anlayırsınız, öyləmi?

Ş a m i l. Bilirəm, sən öz günahını bağışlatmaq istəyirsən. Sənə inanıram, Zəhra!

Z ə h r a. Təşəkkür edirəm, Şamil əfəndi.

Ş a m i l. Bayraqları gətirin! (*Ləzgilər bayraqları gətirirlər*) Zəhra, bu pak və ləkəsiz bayrağı sənin əlinə tapşırıram.

I s ə r k ə r d ə. O bizi fəlakətə aparır.

Ş a m i l. Yox, bu qız doğru deyir. Aslan ora getmədən əvvəl mənimlə görüşmüşdü. Əhvalatı bilirəm. O, əsir olub qayıtmadı. Amma Zəhra ona nicat vermək üçün gəlmiş. Aslanı qurtarmalıyıq! (*Təbil səsi*)

Z ə h r a (*əlində bayraq, atasına yanaşır*). Atacığım, bax! Şamil əfəndimiz bayrağı mənə tapşırmış. Aslanı qurtarmağa gedirik. Ver

mənə qılıncını, keç mənim günahlarımdan. Ata qəlbilə mənə xeyir-dua ver.

A m o l. Bədbəxt övladım! Sən ölümün istiqbalına gedirsən (*Qılıncı siyirir*). Diz çök qarşımda. Gözlərini qapa! Ata-babalarımızın bu şərafətli qılıncı ilə səni yüksəldirəm. Bu qanlı müharibənin ruzigarı sənin ölüm xəbərini mənə gətirməlidir. Lənət və namussuzluq əbədi olaraq sənin başından uçmalıdır. (*Qucaqlayıb öpər və qılıncı verər*) Al, bu qılınc.

Z ə h r a (*qılıncı öpər*). Sağ ol, atacığım! Əlvida, sevgili vətən!

(*Bir əlində bayraq, bir əlində qılınc olduğu halda qayanın başına çıxar*)

Buradan dərəyə dağlardan axan gurultulu sel kimi enməliyiz. Arş irəli!..

P ə r d ə

## DÖRDÜNCÜ PƏRDƏ

Səhnə Jirikovun çadırını təsvir edir.

J i r i k o v. Zəhra qaçmış, heç inanmıram.

Q o d u n o v. İndi hər ikimiz subayıq. Aramızda heç bir fərq yox. Bu dəfə bakalı dostum Jirikovun sağlığına qaldıracağam.

J i r i k o v. Sən mənə istehza edirsən. Bilirəm, onun qaçmağına səbəb sənsən. O məni atıb getməzdi. Sabah əlində qılınc mənə cavab verəcəksən.

Q o d u n o v (*töküb içir*). Çox gözəl, sabah, bu gün ki biz dostuq, mənim də könlüm şad, piyaləmin ətrafında Qafqaz güllərinin ətri uçuşur, Vaqifin, Mirzə Şəfinin şərqiləri oxunur. Yaşasın şərab və məhəbbət!

J i r i k o v. Qəlbim heç rahət deyil. Düşmənlərdən bir xəbər bilmək lazımdır. (*Çadırdan səslənir*) Əsiri gətirin! O, düşmənin sayını, planını bizə söyləməlidir.

Q o d u n o v. Kədərlənmə, knyaz! Sən Peterburqa padşahımızın hüzuruna getməmiş düşmənləri məğlub edərik. Yaşasın axmaqlıq bakalı, ura!.. (*Bakalını Jirikovun bakalına vurmaq istəyərək*) Dostum, götür bakalını. Əyri qılınclar sabah şaqqıldayacaq. Zəhranın sağlığına bu gün bakalları şaqqıldadalım!

J i r i k o v. Sən sərxoşsan, kapitan!

Q o d u n o v. Kaxetiya şərabı nəcib içkidir. Onun nəşəsindən qəlbimdə min-bir sövda uçuşur. Mən özümü bir general-mayor bilirəm. Mayorluğu satın almağa pulum olmasa da, sağ olsun dostum Jirikov. Onun təşəbbüsü ilə general-mayor da olaram.

J i r i k o v. Get yat, kapitan!

Q o d u n o v. Sabah sənə qılınc çəkmərəm, qorxma! Başını bədənindən ayırmaram. Sən mayor olmağıma söz vermisən? Ura! Mayor, mayor, ümidlə yaşa. Qazaq beşiyinin çocuğu!

Aslan, qollarında qandal. Əvvəlki əsgərlər.

J i r i k o v. Sizin əsgərlər hardadır? (*Cavab verməz*) Onların sayı nə qədərdir?

A s l a n. Axmaq sual.

J i r i k o v. İnad etmə, cavab ver, səni ölümdən ancaq doğru cavabın qurtara biləcək.

A s l a n. Siz vicdanlara ucuz məzənnə ilə qiymət verirsiniz. Mən o qiymətə sata bilmərəm.

J i r i k o v. Tez ol cavab ver, səni bağışlayıb Ural dağlarına göndərərəm.

A s l a n. Məni ölümlə qorxutma!

J i r i k o v (*yanaşıb*). Sən Zəhranı sevirdinmi?

A s l a n. Sevirdim.

J i r i k o v. Yenə də sevirmisən?

A s l a n. Ölüncüyə qədər sevəcəyəm!

J i r i k o v. O ki səni sevmir. Səni dağlarda atıb qaçmışdı.

A s l a n. Məhəbbət o yerlərə əl atmaz.

J i r i k o v. Axmaq cavab... (*istehza ilə*) Məhəbbət o yerlərə əl atmaz... Məhəbbət nədir? Aldadıcı bir şölə. Sənin Zəhraya layiq olduğunu bilmək istərdim. Sən buz kimi soyuqsan, ona görə də Zəhra səni atıb qaçmışdı.

A s l a n. Sən anlatdığın məhəbbət şimal buzlaqlarına məxsusdur. Bizim azad və məğrur dağların məhəbbəti başqa dürlüdür. Hər fədakarlığa hazıram. Bu acı və axmaq suallarla ürəyimi sıxma.

Təbil və qurşun səsi

Q o d u n o v (*sərxoş halda*). Atırlar, ura!.. Bu, şadlıq atışmasıdır, ura!

J i r i k o v. Düşmən hücum edir, tez şeypur çalın, müharibəyə hazır olun!

Q o d u n o v (*sərxoş hərəkatlərlə*). Mənim qılıncım hanı, bax, buradan asılmış. Mən bu gün quduz köpək kimi çarpışacağam. Knyaz, mənə qəhrəmanlara yakışan xeyir-dua ver! Gedəlim! Gedəlim! (*Gedirlər. Zabit, əsgərlər və Aslan*)

A s l a n. Hücum var, bu bizim təbilin səsidir. Aman Allah, belə gündə əli-qolu bağlı durub uzaqdan tamaşa etmək mənə yaraşarmı? Hanı mənim kəskin qılıncım? (*Səs yaxınlaşır, top səsi*) Haydı, qardaşlarım, ildırım kimi düşmənə həmlə edin! Vurun sərkərdələrin ürəyinin başından. Bax, qəhrəman ordumuzun heybətindən yer-göy titrəyir, toplar atılır, qılınclar şaqqıldayır, oxlar, qurşunlar vıyıldayır, bağçaların ətrafında qığılcımlar uçuşur. Qalalar və səngərlər atəş və alov içində üzür. Tez bir zamanda qüvvətli simürğ quşu iri qanadlarını üzərimizdə açacaq...

Zəhra, əlində qılınc və bayraq, ləzgilər və Jirikov əli-qolu bağlı daxil olurlar.

Z ə h r a (*Aslana işarə edərək*). Açın qollarını! Çox şükür, Aslan, səni sağ-salamat gördüm.

A s l a n. Sağ ol, Zəhra! Gəl yanıma, səni doyunca bağrıma basım.

Z ə h r a. Yox, Aslan. Mən ancaq sözümə sadiq qalıb sənə nicat verdim. Qəlbim isə, ah, onu məcbur edə bilmirəm. O, Jirikovundur.

J i r i k o v. Ah, mən nə eşidirəm?

Z ə h r a. O, Jirikovundur. (*Jirikova*) Sən əsarət zəncirindəsən, mən də bədnamlıq buxovunda, sən məni ayaqlar altına atdınsa da, mən səni ata bilmədim.

J i r i k o v. Gəl yanıma, vəfalı Zəhra, gəl!

Z ə h r a. Yox, bahar keçdi, çiçəklər soldu, quşlar susdu. Belə əfsanələrə daha inanmıram. Bu qalanı külə döndərən atəş nə qədər kəskin olsa, yenə mənim namussuzluq ləkəmi yandırıb məhv edə bilməz.

A s l a n. Sağ ol, Zəhra, sağ ol!

Şamil və sərkərdələr daxil olurlar.

Ş a m i l. Hanı Aslan?

A s l a n. Burdayam, əfəndi, təşəkkür edirəm.

Ş a m i l. Zəhraya təşəkkür et, bu qalanın alınmasına səbəb odur.

L ə z g i l ə r. Yaşasın Zəhra!

Z ə h r a. Bu təşəkkürlər, bu tariflər mənə lənət oxuyur. Lənət olsun mənə, bu knyazı sevdiyim üçün.

Ş a m i l. Bədbəxt! (*Sükut*)

Z ə h r a. Bu knyazı sevməkdən böyük bədnamlıq yoxdur. Bu alçaq namussuzluğu dənizlər belə təmizləyə bilməz. Ona görə bu əks-səda kimi havada səslənmək istəyirəm.

A s l a n. Yox, Zəhra, sənin bu son hərəkətin bütün bədnamlığını təmizlədi. Sən artıq bizimsən.

Z ə h r a. Ah, bu yeniləşmiş ruhumu yenidən sizə qaytara bilsəydim, nə qədər bəxtiyar idim! Fəqət heyhat, onu bacarmıram. Mən azad bir ölkəni əsir etmək istəyən düşməni sevirəm. Şamil əfəndimiz, mənim bu son ricamı qəbul et! (*Jirikova işarə edərək*) Bunu azad edin!

Ş a m i l. Bugünkü qalibiyyətin baisi Zəhradır. Onun qəhrəmanlığı şərəfinə bu əsiri azad edirəm.

Z ə h r a. Təşəkkür edirəm, Şamil əfəndimiz! (*Jirikova*) Get adamlarının yanına, səndə sevən ürək, çırpınan ruh yoxdur. Şükufə ikən nə qədər bəxtiyar idim. Yenə qönçə kimi yumulmaq istəyirəm.

J i r i k o v. Zəhra, Zəhra!

Z ə h r a (*sərkərdələrə*). Sizə baxdıqca vücudumu acı bir tər alır. Bu namussuzluğu başqa bir günah ilə almaq istəyirəm. Əlvida! (*Özünü qılınc ilə öldürür*).

A s l a n. Zəhra! Zəhra!

J i r i k o v. Ah, neçin mən də Qodunov kimi müharibə meydanında həlak olmadım?

Ş a m i l (*bayrağı onun üzərinə açdıraraq*). Ey hazır olan cəsur qəhrəmanlar! Siz şahid olun ki, mən bu qəhrəman qızın qarşısında əyilir və ona xeyir-dua verirəm. Lal olsun onu töhmətləndirən dillər. Kim ona artıq xain və namussuz adını verə bilər? O öz günahını tamamilə yuyub təmizlədi və yüksək bir nam və mövqe qazandı.

Şamilin işarəsilə çadırların pərdələri qalxır, səhnənin nəhayətində Qafqaz dağları və rus qalaları görünür. Qalalar atəş içində. Çərkəslər əllərində qılınc. Təbil çalınır. Səhnə rəngin işıqlarla rənglənir.

P ə r d ə

# ŞAİR VƏ QADIN

*Dramatik poema*

Ş Ə X S L Ə R

Ş a i r – 25 yaşında xəyalpərvər, sövdaməzac bir gənc
Q a d ı n – 22 yaşında ruhnəvaz, həssas, dilbər bir qadın
Pərişan saçlı, əsmər çöhrəli gənc bir qadın kölgəsi. Şairin vəfat etmiş sevgilisi.

Aydın gecə... İki tərəfi ağaclıq, qayalıq, qocaman daşlar, yaşıl otlar, sarmaşıqlar və yabanı çiçəklərlə təzyin edilmiş coşqun bir dərə... Seyrək ağaclı bir qaya üzərindən ensiz bir cığırla Qadın və Şair dərəyə enərkən

Ş a i r

Sallanaraq, canım, böylə nerəyə?

Q a d ı n

Bax, bu cığır enir bir şux dərəyə.
Tut izimi, arxamca gəl, tez gedək,
O sevdiyim yerləri bir seyr edək.
Çoxdandır həsrətəm o mənzərəyə,
Ay doğmuşkən gəl enək bu dərəyə.

Ş a i r

Tələsməyin nə mənası? Bir dayan...

Q a d ı n

Gəl ki, qiymətlidir bu an, bu zaman.
Bu sərinlik, bu aydınlıq, bu hava,
Qənimətdir, ələ düşməz bir daha.
Əmdiyimiz aydınlığı saçan ay,
Bir bulud altına girərsə, hay-hay,
Görənmərik sövda üzlü o yeri.

Ş a i r (*tərəfə*)

Qadın deyil, göydən enmiş bir pəri.
Bu ruh, bu zövqdə bəşər tapılmaz.

Q a d ı n

Tut izimi, ehtiyatlı ol bir az,
Ağaclıqdır, qaranlıqdır, bax, sakın!
Qayalardan büdrəməsin ayağın.

Ş a i r

Ay, günəş ki, aydınladır fəzanı,
Səndən alır bu tükənməz ziyanı.
Sənin nurun mənim üçün çıraqdır,
Ay, ulduzdan, günəşdən də parlaqdır.
Bir quş olub uçsan da dağ, yamaca,
Ətək kimi sürünərəm arxanca.
Göy yarılsa, qiyamət etsə qiyam,
Kölgən kimi səndən mən ayrılmaram.

Q a d ı n

Dostum, şairliyin gəlmiş sırası,
Bu sövdalı yerin incə xülyası
Daş ürəkli insanları yumşaldır,
Diz çökdürür, bulud kimi ağladır.
Yaşıl aydınlığı əmən bu axşam,
Bir şairə çoxmu, verərsə ilham?
Hər şeydə bir həzin sövda bildirir.

Ş a i r

Hər şey sənin kimi incə bir şeir.

(*Qadın dərəyə atıldıqdan sonra ətrafı həsrətlə süzərək həyəcanlı*)

Q a d ı n

Gəl, dostum, gəl, artıq endik dərəyə,
Ah, məftunəm bu dilbər mənzərəyə.
Baxsanız a, nur parlayan yarpaqlar,
Bu çağlayan dərə, coşqun irmaqlar,
Sanki bir çox dadlı sirlər anladır,
Donuq, sönük ürəkləri oynadır.
Bu yosunlu daş üstündə gəl, əylən.

Ş a i r

Bu yerlər bir nümunədir cənnətdən,
Yarpaq kimi baxdıqca ruhum titrər.
Ətrafımda uçan bu şux nəğmələr.

Q a d ı n

Hər bir şeyi unutdurur insana.

Ş a i r

İşıq saçan ruhə, qəlbə, vicdana,
Gözəllikdir, sudur, yaşıllıq bir də.
Hər üçü toplanmış bu məsud yerdə.

Q a d ı n

Hər qəlbi bu yerlər etməz bəxtiyar,
Atılmış yoxluğa incə bir şey var.

Ş a i r

Nədir?

Q a d ı n

Nədir? O bir şeydir ki, mümtaz[1] –
Hər adama hər zaman qismət olmaz.
Bu pərişan gözəlliklər, nəğmələr,
Xəyal kimi tutulmayan kölgələr,
Qarşımızda bu canlanmış təbiət,
Yalnız mənə bunlar verir təsliyət,
Bu gözəllik bir qüvvətin əlilə,
Silinirsə...

Ş a i r

Sən bir şair dililə,
Şair hissilə söz söylərsən, aman.
Sənin bu şairanə hallarından
Bütün-bütün, canım, heyrətdəyəm mən,

Sən ən həssas, gözəl qəlbə maliksən,
Bir ürək ki, şairlərin şerinin
Həm ruhudur, həm qəlbi, ey nazənin.
Bir ürək ki, qızğın sevgi bağlamış,
Bir ürək ki, sevmiş, gülmüş, ağlamış.
Bir ürək ki, böylə aydın gecədə,
Həyəcanlar keçirmişdir yenə də.
O ürəkdə qızğın sevgi, atəş var,
Bir ürək ki, sevmiş, olmuş bəxtiyar.

Q a d ı n

Bax yenə də qızğındır, sönməmişdir,
Dönük çərxi-fələk tək dönməmişdir.
Sus, toxunma bu yaralı könlümə,
Keçmişləri gətirmə göz önümə,
Bir səfili üzmə, mərhəmət eylə!

Ş a i r

Söylə, dediklərim yalanmı, söylə?!
Bir ürək ki, mahtablara bürünmüş,
Sevdiyinin arxasınca sürünmüş.
Bir ürək ki, dadmış nəşə, həm kədər,
Bir ürək ki, çırpınmış sübhə qədər,
Çox bəxtiyar yaşamış.

Q a d ı n

Çox bəxtiyar!
Səndə əsrar duyan haqqın dili var,
Şairlərə doğrumu ilham olur?

Ş a i r

Bir çox zaman ilham olur, doğrudur,
Bu tarixi gözlərindən oxudum.

---

[1] Seçilmiş, fərqli

Q a d ı n

Tarixmi? Yox, o qorxunc bir uçurum –
(*bir az sükutdan sonra həyəcanla*)

Çox xoş günlər gördüm, çox da səfalət,
Nə dadlıdır ilk sevgi, ilk məhəbbət!
Mən bir gəncə qızğın sevgi bağladım,
İl uzunu sevdim, güldüm, ağladım.
Durğun göydə oynaşan saf mahtabdan
Şən, bəxtiyar keçindik biz bir zaman.
Ona bütün ürəyimi vermişdim,
Ən nəşəli səadətə irmişdim.
Mahtabların kölgəsində hər gecə,
Əhd-peyman bağlamışdıq gizlicə.
Bu yumuşaq saf ürəkli torpaqlar,
Bu ağaclar, pıçıldaşan yarpaqlar,
Ətək-ətək nur səpən ay və ulduz,
Şahiddir ki, pak niyyətli eşqimiz
Məsum çocuq sevgisindən parlaqdı.
Hava buludlandı, boz şimşək çaxdı,
Üz çevirdi məndən o etibarsız,
Getdi uzaq ölkələrə o yalnız.
Nə məktub var ondan, nə də bir xəbər,
Eşqi olur ürəyimdə şöləvər[1].
İndi böylə xatırladıqca hər an,
Əfi udmuş kimi bağrım olur qan.
Ah, ilk sevgi, ilk müqəddəs xatirə...

Ş a i r

İndi xəyal kimi gəlir nəzərə.

Q a d ı n

Keçmişlərim yalnız mənə təsəlli,
Aramıza xain hicran girəli,
Yuxu belə gözlərimə düşmandır.

[1] Alovlu

Yediyim qəm, kədər, içdiyim qandır.
Gecə-gündüz yetim kimi inlərəm,
Fəryadımı yalnız özüm dinlərəm.
O baharı mən xəzansız sanırdım,
Çocuq kimi yatırdım, oyanırdım.
Mənə dövran da bəndəlik edərdi,
Silmişdi qəlbimdən kədəri, dərdi.
Zənn edərdim, daşqın, coşqun bu həyat
Əbədidir, indi solmuş kainat.
Sanki yer, göy dönmüş bütün tərsinə,
Hər şey saxta, müzlüm görünür mənə.
Həyat yalnız mənimçin bisəmərdir,
Udduqlarım hava deyil, zəhərdir.
Ah, ilk sevgi, ilk səmimi məhəbbət!
O uğursuz sevgini mən nəhayət
Gömdüm həsrətli könlümün içinə.
Soldum, söndüm, tükəndim gündən-günə.
O günləri andıqca mən hər zaman,
Bahar ömrüm olur boranlı xəzan.
Titrəyirəm solğun bir yarpaq kimi,
Sızlayıram dalğın, çılğın, əsəbi.
Yox səbr, taqətim daha bu dərdə,
Nə xoş günlər keçirmişik bu yerdə.

Qadın əlilə o yeri göstərib, hıçqırıqlarla
bir daş üzərinə düşür

Ş a i r

Bir zamanlar mən də çox bəxtiyardım,
Sevgilimin gözlərində yaşardım.
Qarşılıqlı, qızğın, daşqın bir sövda,
Bizi sərməst etmişdi. Bu arada
Hicran girdi aramıza, o şən gün
Matəm oldu, qara geydi büsbütün.
Yerdən, göydən əli üzülmüş kimi,
Sızlayırdım şaşqın, çılğın, əsəbi.
Hissiz əllər gömdü onu məzara,

Ürəyimdə daim sızlar o yara.
Ah, o hicran etdi məni bir sərsəm,
Hər tərəfə həsrətlə üz çevirsəm,
Tavus kimi cilvələnir o canan,
Göz önündə dərhal olur nümayan[1].
Heç şən deyil, həzin bir sima daşır,
Pəri kimi yavaş-yavaş yanaşır:
Biləyinə toxunurkən bir kərə,
Xəyal kimi qeyb olur birdən-birə.
Yumruğumu sıxıb dalğın inlərəm,
Təsəlliyçin ay, ulduzu dinlərəm.

(*Qadın, Şairə bir məktub uzadaraq:*)

Q a d ı n

Onun mənə, bax, ilk elani-eşqi,
İlk məktubu, ilk verdiyi sərməşqi.

(*Şair məktubu oxuyur*)

"Söylə, quzum, sevgi nədir daddınmı?
Qızdırmalı röyalarla yatdınmı?
Mürgülərkən şux təbiət hər gecə,
Ulduzlarla qonuşdunmu gizlicə?
Yarpaqlarda inci kimi müntəzəm
Göz yaşlarından heç durmuşmu şəbnəm?
Bu zövqü dadmış olsan, bəxtiyarsan,
Yoxsa, yazıq sənə, necə yaşarsan?"

Ş a i r

(*mütəəssir*)

Çox aşiqanə, şairanə sözlər,
Məhəbbətə qapılmış gəncə bənzər.
Saf ürəkdən doğan ülvi bir xitab,
Siz ona heç vermədinizmi cavab?

[1] Zahir

Q a d ı n

Bu məktubu aldıqdan sonra bütün,
Tərəddüdlə keçindim beş-altı gün.
Ancaq mən də ona məftun olmuşdum,
Az zamanda çiçək kimi solmuşdum.
Qalmamışdı taqətim, ən nəhayət
Cavab verdim. Ah, yakıcı məhəbbət!..

(*Şairə başqa məktub uzadır, Şair alıb oxuyur*)

"Mən də bir insanam, camad[1] deyiləm,
Açılmamış ismətli bir qönçəyəm.
Kipriklərimdən şəbnəmlər damlayır,
Yanağımdan inci kimi parlayır.
Aydınlığı sevsəm də yaxlaşmaram,
Əsrarımı göylərə də açmaram.
Qəlbim coşqun məhəbbət ilə çarpar,
Qəndil kimi ümid çırağım parlar.
O öylə bir sağlam, mətin qəlēdir,
Şairləri, sultanları titrədir".

Ş a i r

Çox iffətli[2], mənalı bir cavabdır,
Qızıl güldən çəkilmiş saf gülabdır.

Q a d ı n

Bunlardı eşqimin ilk çiçəkləri,
İndi gözümdə bir hicran dəftəri.
Lənət olsun sənə ah, ey vicdansız!
Səninlə mən nəfəs alırdım yalnız.
Noldu söylə, o yəminlər[3], peymanlar?
Ah, nə qədər riyakarmış insanlar!

---

[1] Cansız cism
[2] Namuslu
[3] Andlar

Ş a i r

Səmimiydi mənim sevgim, peymanım,
Buna şahid o pəriyi-vicdanım.

Ağaclar arasında pərişan saçlı, əsmər çöhrəli bir qadın kölgəsi zahir olur. Əsəbi gülüşlərlə Şairə doğru irəliləyir. Şair ona xitabən:

Ey nazənin, sevimli, dilbər kölgə,
Dediklərim yalanmıdır, sən söylə?
Təbəssümlə məni salamlayır, ya.
Ay, o gülüş, bax o baxış, o sima,
Çəkildimi adı, qarşımda hazır.
Mənim kimi o da məni arayır.
Yanaşınca birdən-birə küsərək,
Uçar, gedər o zərrinpər kəpənək.
Həyatdanmı qorxar, nədir bu əsrar?
Yoxsa onlar bizdən məsud yaşarlar?
Bu görüşlər məni dəvət üçünmü?
Nədir bu, ya bir üqubət[1] üçünmü?
Həyat, məmat[2] dönmüş günəşə, aya –
Neçin girməz ikisi bir araya?

(*Dərin sükutdan sonra mütəfəkkiranə*)

Həyat, məmat – hər ikisi bir xülya!

Q a d ı n

Hər ikisi qorxunc, müdhiş bir röya!

Sevgilisinin kölgəsi Şairi işarətlə çağırır kimi görünür

Ş a i r

Bax, nə qədər həzin, dalğın sürünür,
Məni dəvət edər kimi görünür.
Çoxdan məni məhv etmiş idi hicran,
Yalnız bu kölgədir məni yaşadan.

---

[1] Cəza, əziyyət

[2] Ölüm

Ox, nə qədər canlandı şux kölgəsi,
Sanki qulağımı oxşar şən səsi.

(*Kölgə onu dəvət edər kimi görünür, Şair qaçaraq onu təqib edir*)

Həyatından mənə xəbər verəcək,
Gəldim, gəldim, məndən ayrılmaz mələk.

Şair kölgəni təqib edir, hər ikisi ağaclar arasında qayib olur. Qadın onları əsəbi və şairanə baxışlarla süzdükdən sonra

Q a d ı n

Ah, bəxtiyar, get arxasınca, izlə!
Böyük təskin, təsəllidir bu, məncə.
Maraq sevmək, sevilməkdir həyatda,
Bu olmazsa, yox nəşə kainatda.
Bu olmazsa, yoxluq varlıqdan əfzəl,
Böylə varlıq vücud üçün bir əngəl.

(*həyəcanlı*)

Dünyanın bəxtiyarlığından yalnız
Göz yaşlarım qalmış, o da səbatsız.
Durma, durma qəlbimin ta içindən
Boşan, sən də ülfətini kəs məndən.
Bir zamanlar qəhqəhə, nəşəmizdən,
Zövq alan bu dərə, mehtab, dağ, çəmən,
Hər an bizə qibtə edər kimiydi.
Ancaq ətrafımı alanlar indi
Sanki mənə eyləyirlər istehza,
Hər an mənimlə əylənirlər guya.
Kəskin, acı, təhqiramiz nəzərlər,
Neştər kimi qəlbimə təsir edər.
Yox, bu səfalətə boyun əymərəm,
Gecə-gündüz göz yaşımı tökərəm.
Yaşamaram mən duyğusuz, vicdansız,
Yaşamaram sevgi, ümid, imansız.

(*Dərəyə xitabən*)

Sən ey coşqun, daşqın dərə, bir zaman
Bu səfilə qucağında ver məkan.
Dalğaların köpüklənsin, yüksəlsin,
Yorğun cismim qucağında dincəlsin.
Əlvida ey səfil həyat, əlvida!
Ram olamaram sənə, heyhat, əlvida!
Əlvida ey təhqir edən nəzərlər,
Siz baxdıqca həyatım, ruhum inlər.
Əlvida ey qatı, yumşaq ürəklər!
Əlvida ey iblislər, ey mələklər!
Əlvida ey səhərlər, ey axşamlar!
Sizə gömdüm həsrətli bir yadigar.
Əlvida ey yerlər, göylər, əlvida!..

Bu sözləri deyib Qadın dərəyə atılır. Şair uzaqda sevgilisinin gəlməsini təqib edər kimi görünür.

*1911*

# KİMDİR HAQLI?

*İki pərdəli mənzum komediya*
L.N.Tolstoydan iqtibas

İ Ş T İ R A K  E D Ə N L Ə R:

R ü s t ə m – əkinçi
G ü l s ə n ə m – onun arvadı
Q ə m ə r – Rüstəmin anası
F a t ı – Rüstəmin qızı
S ə a d ə t, Z ə h r a, M ə l ə k – iməci qonşu qadınlar
M u r a d – qonşu uşağı
Y u n i s – Gülsənəmin qardaşı
G ü l p ə r i – kürəkənin xalası
Ə h m ə d – Gülpərinin oğlu
N a z l ı – Gülpərinin qızı

## BİRİNCİ PƏRDƏ

Səhnə Azərbaycan kəndlərinin birində əkinçi Rüstəmin evini təsvir edir. Gülsənəm, qızı Fatıya cehiz hazırlayır. Sadə, fəqiranə döşənmiş bir otaqda iməci qadınlar oturub yun darayır, səs-səsə verib oxuyurlar.

Q a d ı n l a r

Oturmuşdum səkidə,
Ürəyim sək-səkidə,
Yardan bir alma gəldi
Bir qızıl nəlbəkidə.

Ucadır eyvanımız,
Qoşadır xırmanımız,
Sən ordan çıx, mən burdan,
Kor olsun düşmanımız.

Mənim ərim molladır,
Atını gümüş nalladır,

Əlində bir alma var,
Gah verir, gah alladır.

M ə l ə k

Oğul evləndirmək, ya qız köçürmək
Hər könüldə böyük diləkdir, dilək.

S ə a d ə t

(*Gülsənəmə*)

Ay qız, haçandır toy?

G ü l s ə n ə m

Adına axşamı.

Z ə h r a

Xoşbəxt olsun, yansın işıqlı şamı.

M ə l ə k

Dörd yanını, görüm, oğul-qız alsın.

S ə a d ə t

Ömrü çiçəklənsin, bəxti əl çalsın.

Z ə h r a

Qorxuram ki, utanaq biz o gecə,
İş yarımçıq qalar mənim fikrimcə.

G ü l s ə n ə m

Nə çox iş var? Bir xurcundur, bir cecim,
İki farmaş, üç-dörd örkən və sicim,
Bir də yeznəmizə qışlıq bir qartı.

S ə a d ə t

Hara gedib, görünməyir bu Fatı?
Xeyir işdir, əl-qol açsın o gərək,
Barı, azdan-çoxdan eyləsin kömək.

Q ə m ə r

Utancaqdır, qaçıb sizdən gizlənmiş.

G ü l s ə n ə m

Birdən-birə baş verdi bu xeyir iş.
Qız nəm-nüm etdi, baxmadıq sözünə.

Z ə h r a

Yeznənizdən nə aldınız, ay nənə?
Sən söylə barı, gəlinin gizləyir.

Q ə m ə r

Gizlin şey yoxdur, söyləyim qoy bir-bir.

G ü l s ə n ə m

Söylə, söylə, bilsinlər, gizlin nə var!

Q ə m ə r

Üç yüz manat başlıq, iki dəst paltar,
Tafta gərdək, tafta köynək və tuman,
Bir baş şalı, başmaq, boğazlıq mərcan,
Gümüş kəmər, iki üzük, bir xəli.

S ə a d ə t

Kişi oğlu yaxşı durub irəli.

M ə l ə k

Avand olsun, boş qalmasın təknəniz.

Z ə h r a

Oğlunuzdan, qızınızdan görün siz.

S ə a d ə t

Bu adamlar baxmayır ağ, bozuna,
Dünən çopur Gülcahanın qızına

Əyriburun Güləhmədin arvadı
Elçi getdi.

M ə l ə k

Göyərdimi muradı?

G ü l s ə n ə m

Eşitmişəm, söylə, düzəldimi iş?

S ə a d ə t

Baş tutmadı.

M ə l ə k

Niyə?

S ə a d ə t

Anası kəsmiş
Beş yüz manat başlıq tələb eylədi.

Z ə h r a

Onun qızı gün bürcündənmi gəldi?
Cırtdan qızı sarsaqlayıbdır, nədir?
O başlıq heç bəy qızına verilmir,
Öz aybını neçin bilmir bu insan?

Q ə m ə r

Gödəklərdən özləri qız alırkən,
Yüz əllicə manat başlıq verdilər.

G ü l s ə n ə m

Eyb içində üzənlər xalqa gülər.

Q ə m ə r

Verdikləri vədələrdən qaçdılar,
Başlarına it oyunu açdılar.

Z ə h r a

Kosalardan qız aldı Aslan qoçaq,
Yoxsulca bir oğlan idi o ancaq,
Gördünüzmü necə xərc tökdü oğlan?

M ə l ə k

Nəyə gərək, indi ölür acından,
Qapısında bircə inək də yoxdur.

G ü l s ə n ə m

El içində ancaq hörməti çoxdur.

S ə a d ə t

Kosaqızı Tellini cunbul Cabbar,
Çox istədi, ucadan başladılar.
Oğlan bir gün qızı götürdü, qaçdı.

Z ə h r a

Kənd içində ana qiyamət açdı.

S ə a d ə t

Deyirlər ki, qız sevirmiş oğlanı.

Q ə m ə r

Alt-üstünə dönsün belə dövranı.

M ə l ə k

Bax, bu dünya necə xarab olubdur,
Abır, həya, namus heç qalmayıbdır.

Q ə m ə r

Belə-belə adamların üzünə,
Yarəb, neçin dağılmayır zəmanə?
Yer, göy bizə düşmən kəsilsin gərək!

Z ə h r a

Axşam oldu, getməyəkmi?

S ə a d ə t

Qalx, gedək!

G ü l s ə n ə m

Çox razıyam, ağrımasın əliniz.

Q ə m ə r

Oğlunuzdan-qızınızdan görəsiz.

S ə a d ə t

Sağ ol.

Z ə h r a

Sağ ol, şad yaşasınlar qoşa,
Şənliklə vursunlar dövranı başa.

G ü l s ə n ə m

Çox sağ olun, yanınızda xəciləm.

Z ə h r a

Elə demə, sən allah, ay Gülsənəm,
Bizim azmı huyumuza yetmisən,
Xeyrimizə, şərimizə getmisən.

S ə a d ə t

Ay qız, sənin boynumuzda haqqın var.

M ə l ə k

Sənə işıq gün versin pərvərdigar.

(*Gedirlər*)

Q ə m ə r

Yun darandı, bunları qoy bir yana,

G ü l s ə n ə m

Sabah tezdən gərək qurulsun xana.

Q ə m ə r

Tez ol, durma, yığışdır görək,
Rüstəm indi gələr.

G ü l s ə n ə m

Gəlsin, neyləyək,
Görürsən ki, çalışıram səhərdən.

Q ə m ə r

Öz kişini tanımayırsanmı sən?
Bütün evi alt-üst edər o kişi,
Səbirsizdir, təhərsizdir hər işi.

Gülsənəm uşağın beşiyinə tərəf gedir, diqqətlə yatan uşağa baxır.

G ü l s ə n ə m

O tumbul əllərə qurban olum mən,
Xala, bu gün çox yaxşı yatdı nəvən.

Rüstəm, əlində matraq, içəri girir, matraqı şaqqıldadaraq ucadan

R ü s t ə m

Ay Gülsənəm, lap ölürəm acından,
Nəyin varsa tez ol, gətir.

G ü l s ə n ə m

Bir dayan!
Nə xəbərdir, baş gətirib deyəsən.

R ü s t ə m

Çox danışma, gətir qatıq-çörəkdən,
Bir bax, ilan kimi qabıq qoymuşam,
Əziyyətdən, arvad, cana doymuşam.
Qan-tər içindəyəm, görmürmü gözün?

G ü l s ə n ə m

Yaxşı, yaxşı, söylə nədir bir sözün?
Beş-on addım yer sürmüş, hay-küyə bax

Q ə m ə r

Kişi deyil, yanar ocaqdır, ocaq.

G ü l s ə n ə m

Mən də işləmişəm.

R ü s t ə m

Gəl başımı yar!
Neyləmisən, söylə görüm, a yassar?
Mənim kimi gün altında bişmisən?
Əlləşməkdən əldən-dildən düşmüsən?
Əllərini qayış, kotan yeyibdir?

(*Əllərini göstərir*)

Belə qabar, suluqmu eləyibdir?
Əyilməkdən çəkəmmirəm belimi.

G ü l s ə n ə m

Yaxşı, yaxşı, açma mənim dilimi.
Görünür mən bu evdə oynamışam.
His, tüstüdən bir bax mən də yanmışam,
Əlləşirəm dan açılandan bəri,
İşdən, gücdən durmamışam ki, geri.
Sən on ayı yeyirsən, sallanırsan,
Bir-iki ay zəhmətə qatlanırsan.

Nə var sənə, bir kotandır, bir başın,
Mənim kimi yoxdur ki, min-bir işin.
Toy qabaqda, mənimlədir hər zəhmət.

R ü s t ə m

Doğru deyirsən, ay atana rəhmət,
Nə çox iş-güc deyirsən, söylə görüm,
Nədir işin?

G ü l s ə n ə m

Dayan bir-bir söyləyim:
Sac asıram, fətir, əppək yapıram.
Atlı kimi ora-bura çapıram,
Odun daşıyıram hey şələ-şələ...

R ü s t ə m

Sonra?

G ü l s ə n ə m

Dayan, qurtarmadım mən hələ.
Allahın var günü – hər səhər-axşam,
İnəyini, qoyununu sağıram,
Becərirəm bostanını, bağını.
Saxlayıram bu şıltaq uşağını.
İki gündən bir yağ-pendir tuturam,
Dinclik, dirlik mənə olubdur haram.
Dana, buzov, cücə əlindən hələ
Qalmamışdır məndə daha hövsələ.
Mən bunların hansı birin söyləyim?

R ü s t ə m

Bir neçə iş də qoy sənə mən deyim:
Qıllı itə axşamlar yal tökürsən,
Pal-paltarın yamağını tikirsən.
Hər gün axşam güclü ocaq çatırsan,

Mürgüləyib camış kimi yatırsan.
Hay-hay, Sənəm, bunlara mən iş desəm,
Bu dilimi lap kökündən kəsərəm.

G ü l s ə n ə m

İş deyil, bəs nədir?

R ü s t ə m

Nədir? Oyuncaq!

G ü l s ə n ə m

Sən iş nəyə deyirsən bəs, ay qoçaq?

R ü s t ə m

Gün altında bir gün kotan sürərsən,
Nəyə deyərlər iş, onda görərsən.

Q ə m ə r

Sənin işin yalnız əkin-biçindir,
Ev işi də, baxma, oğlum, çətindir,
Kişi fəhlə, arvad isə bənnadı.

R ü s t ə m

Yaxşı, yaxşı, bu da burdan bannadı.
Bənna olmuş bir de görüm, neyləyir?
Mən çalışıb qazanıram, o yeyir.

G ü l s ə n ə m

Qəbul etsəm canıma min zəhməti,
Sənin yanında heç yoxdur qiyməti.
İndi ki bu yerə gətirdin işi,
Otur evdə, sən arvad ol, mən kişi.
Ev işini sən gör, çöl işini mən,
Sən də bir gör mən görən rahətlikdən.

R ü s t ə m

Razıyam!

G ü l s ə n ə m

Ver əlini!
Ancaq sonra dəyişdirmə dilini.

R ü s t ə m

Mən sözümdən qaçmaram, qorxma.

G ü l s ə n ə m

Yəqin?

R ü s t ə m

Bir saatlıq işdir sənin işlərin,
Nə var onda, su içməkdən asandır.

G ü l s ə n ə m

Sənin işin ancaq xışdır, kotandır,
Zəhmətimə qiymət qoyan yox ancaq.

R ü s t ə m

İşlər sabah məlum olar, ay qoçaq.
Bu gün hələ pozma öz əhvalını.

G ü l s ə n ə m

Bircə səbr et, sabah görrəm halını.

P ə r d ə

## İKİNCİ PƏRDƏ

Rüstəm qapı ağzında bir kötük üzərində oturub çubuq çəkir, anası Qəmər bir tərəfdə palaz salıb cəhrə əyirir. Gülsənəm, əlində matraq, ayaqlarında çarıq, patava gəlir. Rüstəmə mənalı baxaraq

G ü l s ə n ə m

Öküzləri qoşub cütə gedirəm,
Bax, sənə bu vəsiyyəti edirəm:
Mən gəlincə süpür qapı-bacanı,
Uşağım ki, hələ Allah amanı.
Yaxşı saxla, ağlatma, göz-qulaq ol,
Cücələrdən, toyuqlardan sayaq ol,
Gözlə aparmasın quzğun, çalağan.

R ü s t ə m

Bildim, bildim...

G ü l s ə n ə m

Kişi, darıxma, dayan!
Nəhrə çalxalayıb bir az da yağ tut,
Qaynar qazan as, paltarı yu-qurut.
Qoymayasan dana-buzovu gözdən,
Şələ tutub odun gətir meşədən.
Xəmir yoğur, sac as, ocağı qala,
Mən gəlincə hər bir şeyi hazırla!
Qatıq üçün çalası qoydum cama.

(*Donunu ona ataraq*)

Mən gəlincə donumu da al, yama!
Boz inəyi, qoyunu get durma sağ,
Südü bişir, üzə qoy tutsun qaymaq.

R ü s t ə m

Bildim, bildim, hamısını anladım.

G ü l s ə n ə m

Mən gedirəm.

R ü s t ə m

Allaha ismarladım.

(*Gülsənəm gedir, Rüstəm başını oynada-oynada*)

Hay-hay, duza gedirsən, ey binəva,
Axşam qayıdanda vardır tamaşa.
El tənəsi çox ağırdır, bu doğru,
Cüt sürməyin ləzzətin qoy dadsın bu.

(*Qəmərə yaxınlaşaraq*)

Ana, neçin qəmgin durursan belə?
Çiçək kimi açıl, danış, gül, söylə.

Q ə m ə r

Nə söyləyim, açıl mənim başımdan!

R ü s t ə m

Keçmişlərdən bir az danış, ana can.
Uşaqlıqdan bu fikir yormuş məni,
Sən atamı sevdin, yoxsa o səni?

Q ə m ə r

Ələ salma məni, rədd ol, ay çağa!

R ü s t ə m

Salarammı səni ələ-ayağa?
Ana-oğul edək bir azca söhbət.

Q ə m ə r

Ah, keçmişlər, sizlərə min-min rəhmət!
Açıl başımdan, qalx, azma yolunu.
Arvad iş tapşırdı, çirmə qolunu.

R ü s t ə m

Demək, mənimlə sən etmirsən söhbət.

(*tərəfə*)

Bülbül kimi dil açarsan bu saət.
Hanı tütək, hanı? Əlimə alım,
Bir az anam üçün oxuyum, çalım.

(*Tütəyi çalıb oxuyur*)

Gəl-gəl maral balası,
Dur gəl, gözüm qarası.
Dəsmal gətir, gül apar,
Xəlvətdən bağ arası.

Yaqut yəməni neylər,
Ördək çəməni neylər,
Kətan köynək, ağ bədən,
Gündə hamamı neylər.

Q ə m ə r

Bu havanı gözəl çalırdı atan,
Oxuduqca ləzzət alırdı insan.

R ü s t ə m

Mənim atam olmuş başqa bir kişi,
Rəhmətliyin dastan imiş hər işi.
Gözəl, ucaboylu bir oğlan imiş,
Eldə adlı-sanlı qəhrəman imiş.
Söylə görüm atammı sevdi səni?
Yoxsa ki, sən?

Q ə m ə r

Yox, yox, o sevdi məni.

R ü s t ə m

Atam sevmiş səni? Bəs mən eşidən,
Atama sən vurulmusan qız ikən.

Gecə qapıları özün açmısan,
Rəhmətliyə qoşulub tez qaçmısan.

Q ə m ə r

Utan, utan, danışma çox, Allahsız.

R ü s t ə m

Aləm deyir, mən demirəm ki, yalnız.
Söyləyirlər, çox gözəl imiş atan,
Anan sevib getdi.

Q ə m ə r

Böhtandır, böhtan!
Yoxsa ondan əskik idim mən özüm?
Oğlanlardan can alırdı qaş-gözüm.
Yaraşıqlı, gözəl idim, çağ idim,
Lalədən qırmızı, süddən ağ idim.
Atan hər gün su başında dururdu,
Mən keçərkən bığlarını bururdu.

R ü s t ə m

Od vurmusan mənim yazıq atama,
Belə zülmü etməz adam adama.
Çox sevirmiş səni, ancaq bir anlat
Sən də onu sevirdinmi?

Q ə m ə r

Ay bədzat!
Heç kəs mənim ürəyimi bilmədi,
O öləndən bəri qəlbim gülmədi.
Beş yaşında uşaq idin sən onda,
Təkbaşına oynayırdın bir yanda...
Ondan sonra mən dirilik etmədim,
Çox istəyən oldu, ərə getmədim.

Qonşu oğlan M u r a d qaça-qaça gəlir.

M u r a d

Rüstəm dayı, sizin buzov və dana,
Çəpərləri yarıb, girdi bostana.
Yedi bütün qovun, qarpız tağını,
Dağıdır indi də qonşu bağını.

R ü s t ə m

Vay-vay!..

Q ə m ə r

Tez ol, durma, sən bir başa bax,
Naqqallıq eləyir mənə bu axmaq.
Arvad kişi kimi çöldə işləyir,
Bu, uşaq tək evdə milçək kişləyir.
Ah, ay keçən günlər, keçən kişilər,
İndikilər də adını qoymuş ər.
İş üstündə arvadla höcətləşir,
Mənim işim səndən çətindir deyir.
Biz ki belə şeyləri heç görmədik,
Dünyada bilmədik nədir tənbəllik.
İndikilər öz canını bəsləyir,
Bilməyirlər ki, ər-arvadlıq nədir.
Biz işi bir-birimizdən qapırdıq,
İş üstünə atlı kimi çapırdıq.
Bu ondandır ki, yox sevgi, məhəbbət,
İndikilərdə yox düzlük, sədaqət.

(*Rüstəm acıqlı gəlir*)

Rüstəm, nə var?

R ü s t ə m

Nə olacaq, ay ana,
Çər dəymişlər od vurmuş bağa-bostana.
Neyləyim, ah, neyləyim, heç bilmirəm?
Saman təpəcək dərimə Gülsənəm.

Q ə m ə r

Qan olsa ud, öz suçundur[1], darıxma,

R ü s t ə m

Sus, qəlbimi sən də bir yandan sıxma!..

(*Tarlaya baxaraq*)

Nə həvəslə işləyir, bir ora bax!
Zalım qızı bilmir nədir yorulmaq.
Gedim bir az pendir tutum, yağ tutum,
Bu paltarı harda yuyub-qurudum?
Bir iş deyil, ürək sıxır, yassardır,
Arvad işi özü kimi murdardır.
Bu günlər də nə tez keçir, dan atır,
Papağını çevirirsən gün batır.
Təknə boşdur, nə fətir var, nə çörək,
Axşam oldu, xamır yoğurmaq gərək!

(*Otağa girir*)

Q ə m ə r

Eşitmişəm keçmiş ata-babadan,
Çox çəkməz ki, gələr öylə bir zaman,
Kişi arvad olar, arvadlar kişi,
Zəmanənin üzüqara gedişi
Göstərir ki, yaxınlaşır o dövran.
Ah, başında nələr vardır, ay insan!

Toyuq-cücələrin qışqırığı gəlir

R ü s t ə m

(*Otaqdan*)

Nə var, ana?

---

[1] Günahındır

Q ə m ə r

Ay aman!
Cücələri vurub getdi çalağan.

Rüstəm əlləri xamırlı gəlir.

R ü s t ə m

Allah, Allah, başım düşdü cəncələ,
Öz-özümü saldım əcəb əngələ!

(*Ağac götürüb evin arxa tərəfinə keçir, bir az sonra qayıdıb otağa girir*)

Vay-vay, bura bax, it yeyir xəmiri,
Zəhrimar ye... Aha, quduzun biri.

(*İti vurur, it içəridə zingildəyir, Rüstəm həyətə çıxır*)

Hanı o it?

Q ə m ə r

Mən nə bilim!..

R ü s t ə m

De görək,
Bu otağa hardan girdi o köpək?

Q ə m ə r

Ay yaramaz, vecsiz, köndələnyatan,
Görmürsənmi girmiş arxa qapıdan?!

R ü s t ə m

Başımı lap itirmişəm, neyləyim?
Axşam oldu, Gülsənəmə nə deyim?

(*Uzaqda qızı Nazlı ilə Gülpəri görünür*)

Bunlar kimdir?

Q ə m ə r

Qudalardır deyəsən.

R ü s t ə m

Ay nəsliniz kəsilsin yer üzündən
Duran yerdə əcəb düşdüm kələyə!..
Bunlar da vaxt tapdı qonaq gəlməyə.

Q ə m ə r

Rüstəm, Rüstəm, ağlın azıbdır, nədir?
Durma, salam ver, xoş dil ilə dindir.

R ü s t ə m

Sən allah, rədd olun mənim başımdan,
Cücələri çalıb getdi çalağan,
Bostan orda, xəmir burda yeyildi,
Arvad ilə aramız da əyildi.
Onlar ilə qohum olandan bəri
Xərçəng kimi hey gedirik biz geri.
Çarxımız döndü, işləmir bəxtimiz.

G ü l p ə r i

Allah iraq eyləsin, neylədik biz?

Q ə m ə r

Rüstəm, Rüstəm!.. İnciməyin, ay quda,
İş üstündə acıqlanıb arvada.
Odur olubdur bu zəhər bulağı,
Bir də onun çox zaman axşam çağı,
Birdən-birə halı olur çox yaman.

G ü l p ə r i

Baxsana bu nələr tökür ağzından.
Bu sözləri bilsə bizim kişilər,
Allah göstərməsin, böyük qan düşər.

Q ə m ə r

Siz allah, ay quda, bir söz deməyin.

R ü s t ə m

Gedin, hər nə bilirsiniz söyləyin!

Q ə m ə r

Azma, azma sən, ay zəhərli tuluq.

G ü l p ə r i

Olmaz belə adam ilə qohumluq.

Q ə m ə r

Ay qudalar, bağışlayın.

N a z l ı

Gəl, gedək!

G ü l p ə r i

Zor-güc ilə qohum olmaq nə gərək:
Acı olar belə ağacın barı.

(*Gedirlər*)

Q ə m ə r

Öləydim kaş, görməyəydim bunları.
Bu yaramaz gördünüzmü nə etdi?
Namus getdi, hörmət, həyamız getdi.

(*Rüstəm acıqlı-acıqlı gəzinir*)

R ü s t ə m

Xamır yeyildi, tapdalandı bostan,
Cücələri vurub getdi çalağan.
Neyləyim mən?

Q ə m ə r

Zəhrimar et canına.
Görüm səni bulanasan qanına.

(*Uşaq beşikdə ağlayır*)

R ü s t ə m

Kəs səsini, murdar oğlu, bihəya,
İstəyirsən canın çıxınca ağla!
Mənim indi sənlik yoxdur macalım,
İt günündən yaman olubdur halım.
Ancaq yaxşı tədbir çəkdim bu işə,
Qudalar ilə başladım deyişə.
Gülsənəmə bu iş olsa aşikar,
Bostan, xamır, cücə yadından çıxar.

Gülsənəm gülə-gülə, əlində matraq, oxuya-oxuya gəlir.

G ü l s ə n ə m

Dağların başında sərildim yatdım,
Aynalı tüfəngi doldurdum, atdım.
Tarlamı şumladım, məqsədə çatdım,
Soruşma, ay kişi, haralıyam mən!
Dağların, çöllərin maralıyam mən!
Ay kişi, bu uşaq nöşün ağlayır?
Bağırtı, şivəni ürək dağlayır.

R ü s t ə m

Qoy ağlasın, işim vardır, neyləyim!

G ü l s ə n ə m

Ağlama, ağlama, gözüm, ürəyim!

(*Uşağı qucağına alır*)

Nə var, nə yox?

Q ə m ə r

Heç soruşma olanı.
Dana-buzov dağıtdı bağ-bostanı.
İki cücə vurub getdi çalağan.

G ü l s ə n ə m

Siz burada deyildinizmi insan?

R ü s t ə m

Mən neyləyim? Boz it yedi xəmiri?

G ü l s ə n ə m

Neyləyirsən bəs bu səhərdən bəri?

R ü s t ə m

Yaman yerdə axşamladım, neyləyim,
Bu qədər iş yalnız başımdır mənim.
Bunlar ilə mən nə sayaq çarpışım?
Heç bilmirəm hansı işə yapışım?
Bu yandan da gəldi azğın qudalar,
İş tökülüb qaldı.

Q ə m ə r

Danışma, yassar.
Hələ işlər var ki, deyə bilmirəm.

G ü l s ə n ə m

Nə var, nənə?

Q ə m ə r

Nə deyim, ay Gülsənəm!
Allah bizi nə pis gündə yaratdı,
Qudaların üzü üstə qayıtdı.

Fatı ilə Yunis gəlir

Y u n i s

(*Qəmərə*)

Niyə?

G ü l s ə n ə m

(*Yunisə*)

Yavaş görək.

Y u n i s

Nə olmuş məgər?

G ü l s ə n ə m

Bir aman ver söyləsin, ay bəxtəvər.

Y u n i s

Rüstəm, nə var?

G ü l s ə n ə m

(*Qəmərə*)

Söylə görüm nə oldu?

Q ə m ə r

Qızın bəxti yenə gül kimi soldu.
Qudalara sözlər dedi bu nadan,
Dedi, dedi, hər nə çıxdı ağzından.
Qudaların qayıtdı kor-peşiman.

F a t ı

(*Tərəfə*)

Bəxtim düyümləndi yenə, ay Allah,
Görürsənmi nə iş açdı bu, eyvah!

Y u n i s

Rüstəm, bu nə oyundur açdın yenə?

R ü s t ə m

Qulaq vermə arvadların sözünə.

Q ə m ə r

Qorxuram ki, geriləsinlər qızı.

G ü l s ə n ə m

Görüm Allah qırsın sizin hamınızı,
Görüm sənin daş düşsün o başına,
Zəhər qatılsın, ay kişi, aşına.

R ü s t ə m

Daş da düşsün, dağ da ensin üstünə,
Qarğa kimi nə hey ötürsən yenə!
Bulud kimi nə çıxmısan özündən,
Duman yağır boranlı üz-gözündən.
Baş-qulağım yoruldu, bəsdir, bəsdir.
Oraq kimi, bax, nə doğrayıb, biçir.
Nə var, nolmuş, göylərmi parçalandı?
Ocaqda qaynayan südmü calandı?
Mal-qaraya bir azarmı daraşdı?
Tufan qopub, sel çaylardanmı aşdı?
Qızıl ilə yazmalı bu məsəli:
"Qara toyuqca arvadın yox əqli".

G ü l s ə n ə m

Ha, görürəm çoxdur ağlın, kamalın,
Ancaq vardır zorba bığın, saqqalın.

R ü s t ə m

Sizin ilə danışmağa baş gərək.

(*Rüstəm gedir*)

Y u n i s

Fikr eləmə, bir az sakit ol görək,
Kişi kimi söz verirəm, sən inan,
Qudaların əl çəkməz bu Fatıdan,
Əmlik kimi belə bir qız harda var?
Tapammazlar çıraqla axtarsalar.

G ü l s ə n ə m

Bu Rüstəmi görüm gəlsin qılınca,
Dava açar, qoy gedim mən ardınca.

Yunis gedir. Gülpəri gəlir. Gülsənəm onu hörmətlə qarşılayaraq

Nə var, quda, xoş gördük, ay Gülpəri.

G ü l p ə r i

Aparmağa gəldim bizim şeyləri.

G ü l s ə n ə m

Niyə?

G ü l p ə r i

Elə!..

G ü l s ə n ə m

Axır niyə?

G ü l p ə r i

Elə-belə...

G ü l s ə n ə m

Nə olmuş ki, durma, səbəbin söylə!
Qapıdakı kimdir?

G ü l p ə r i

Əhməd qudandır.

G ü l s ə n ə m

Gəl, ay quda, görməmişəm haçandır.
Gendən baxırsan, gəl otur, danışaq.

Ə h m ə d

Yox, gedirəm.

G ü l s ə n ə m

Gəl, ay quda, barışaq.
Qohumluqda çəkişməyən, bərkişməz,
Hər söz ilə yaman bir fikrə düşməz.
Xoş gəldiniz, ay qudalar, əyləşin.

Ə h m ə d

Əyləşməyə üz qoyubdurmu kişin?

G ü l s ə n ə m

Nə eyləmək, xasiyyəti belədir.

Ə h m ə d

Gözəl sifət insanda – hövsələdir.

G ü l p ə r i

Hər bir şeyin, quda, bir ölçüsü var.

G ü l s ə n ə m

Bu sözləri buraxın, ay qudalar,
Fatı kimi qızdan keçmək olarmı?
Bu dağlarda ondan gözəl qız varmı?

G ü l p ə r i

Biz gəlindən yerdən-göyə razıyıq.

G ü l s ə n ə m

Demək, quda, yaman yerdə biz qaldıq.

G ü l p ə r i

Yox, yox, quda...

G ü l s ə n ə m

Belə çıxır sözündən.

(*Rüstəm gəlir, acıqlı keçir*)

Zəhər yağır kişinin üz-gözündən.
De bir görüm, kürəkənim necədir?
Qəlbim nanə yarpağından incədir.
Könlümə çox yaman düşür arabir.

Ə h m ə d

Quda, o da sizi yaman istəyir,

(*Gülpəriyə*)

Xalam gözü yolda qalıb, dur gedək!

G ü l s ə n ə m

Qan olmuşmu, nə var?

G ü l p ə r i

Quda, nə demək,
Ana qəlbi olduqca köyrək olur.

Ə h m ə d

Ürəyi qoy sakit olsun.

Q ə m ə r

Doğrudur!..

G ü l s ə n ə m

Xoş gəldiniz, məndən qudama söylə,
Hay-hay, qohumluq heç olurmu belə?
Boş söz üçün necə keçir Fatıdan?

Ə h m ə d

Mən onu sakit eylərəm.

G ü l s ə n ə m

Əhməd can,
Unutma bizləri, gəl-get arabir.

Ə h m ə d

Sağ ol!

G ü l s ə n ə m

Sağ ol!

(*Gedirlər*)

R ü s t ə m

Bunlarda bu dil nədir?

F a t ı

Yarəb, anamı sən alma əlimdən.
Bu dünyada anasız qalmayım mən.

Q ə m ə r

(*Gülsənəm*)

O ağlına, kamalına mən qurban.

G ü l s ə n ə m

Razı getdi qudalar, ay can, ay can.

R ü s t ə m

Bu yağlı dil ki, bu arvadlarda var,
İlanı da yuvasından çıxardar.

Gülsənəm oynayır, sonra Qəmər də ona qoşulub oynayır.

G ü l s ə n ə m

Ağacda alma turş olar,
Yerə düşər meyxoş olar,
Bəzi kişi sərxoş olar,
Yarın canı, turun canı,
Sənə qurban yarın canı.

R ü s t ə m

(*Oynaya-oynaya*)

Öküz kimi işlətmişəm arvadı,
Evdə oturmağın var imiş dadı,
Cücə, bostan, xəmir çıxdı yadından,
Uşağım da ağlamır, ay can, ay can.
Olmasaydı bizim əziz qudalar,
Saman təpərdi dərimə bu yassar...

P ə r d ə

*1912*

# İDEAL VƏ İNSANLIQ

## İ Ş T İ R A K  E D Ə N L Ə R

İ n s a n l ı q – İnsanlığın heykəlini təsvir edən orta yaşlı, alicənab bir qadın
İ d e a l – İnsanlığın idealını təsvir edən on iki yaşında nurani bir uşaq
V i c d a n, Ə d a l ə t, M ə r h ə m ə t, S ə a d ə t – ağ qanadlı, təmiz geyinmiş nurani gənclər
F ə l a k ə t, Z ü l m, Ş e y t a n – qara qanadlı, çirkin və qorxunc simalı adamlar

Səhnə alçaq və fəqiranə döşənmiş bir otağı təsvir edir. Otağın sağa, sola və arxaya açılan üç qapısı var. Pərdə açıldıqda İdeal xəstə bir halda yatağına uzanmış; İnsanlıq İdealın başı ucunda durmuş və həzin bir vəziyyət almışdır. Fəlakət qara, iri qanadlarını qürur ilə onların üstünə gərmiş.

İ d e a l

(*həyəcanla*)

Nədir üstümdə bu ağır pərdələr?
Ətrafımda qaranlıqlar rəqs edər.

(*Əllərini havada oynadaraq*)

Qaldır, anam, yırt, parçala bunları!

İ n s a n l ı q

(*müztərib*)

Dərdindən, ah, sayıqlayır, ey tanrı.
Sən şəfa ver!

İ d e a l

Ox! Həyatım çəkilir,
Bir güc altında varlığım əzilir.
Aman Allah, söndüm, bitdim, tükəndim!

(*Taqətsiz halda İnsanlığa sarılır. İnsanlıq İdealın başını qolları arasında oxşaya-oxşaya*)

İ n s a n l ı q

Müztərib olma ey əməl çiçəyim!
İnləmə çox, sən inlədikcə hər an,
Qəlbimdə bayquşlar edər aşiyan.
Diləyimin ətir saçan gülüsən,
Açılmadan solub sönürsən nədən?
Sən mənim yolgöstərən ülkərimsən,
Bütün səadətim asılmış səndən.
Sən sönsən, ah, mən də solar, sönərəm,
Xəzan vurmuş bir bağçaya dönərəm.
Qaranlıqda saparam hər bir yola,
Sükansız bir gəmi kimi sağ-sola.

İ d e a l

Anam, sus, səndə artdıqca həyəcan,
Ürəyimdə qopur amansız tufan.

İ n s a n l ı q

Gözəl oğlum, mən susaram, kaş ki sən,
Dincəl, sağal.

İ d e a l

Çox uzaqdır o, məndən.

Ağ paltarda gözəl, nurani bir qadın zahir olur, xəstə İdeala və İnsanlığa həzin-həzin baxdıqdan sonra İnsanlığa deyir

Q a d ı n

Sən udduqca iblisanə qidalar,
Bu xəstə oğlunu gec-tez məhv edər.
Səndə davam eylədikcə şaşqın hal,
İnləyəcək bəslədiyin ideal.
Məmələrindən əmdiyi zəhərdir,
Xəstə sənsən, xəstəlik səndən gəlir.

İ n s a n l ı q

Ah, sən kimsən, ey nur saçan bəxtiyar?

Q a d ı n

Bir nurəm ki, məni salehlər[1] arar!

İ n s a n l ı q

Səninlə mən çoxdan tanış kimiyəm,
Doğru deyirsən, mən bir az xəstəyəm.

Q a d ı n

O sağalmaz səndəki xəstəliklə
Ürəyini, vicdanını təmizlə!
Hər tərəfin daş-qayadır, uçurum,
Sənə hakim olmuş həsəd, kin, zulum.
Bunlar qidasını nəfsindən alır,
İdeal, İnsanlıq bundan alçalır.
Öz nəfsindən doğar fitnə, kin, qürur,
Sarıldığı hər çiçəyi soldurur.

İ n s a n l ı q

Dünyaya gəldiyi gündən xəstədir,
Yaralanmış tərlan kimi inləyir.

Səhnənin arxa tərəfində Səadət, Ədalət, Mərhəmət və Vicdan ağ qanadda bir tərəfdə; qara qanadlı Şeytan, Fəlakət, Zülm bir tərəfdə durmuş, bir-birinə kinli baxışlarla baxar. İnsanlıq heyrətli və işıqlı baxışlarla onları seyr edər.

Q a d ı n

Durma, o çirkin simalardan ayrıl!
Yalnız gözəl simalara get, sarıl!

Səhnədə bir həmhəmə və gurultu qopar, Şeytan qorxunc bir simada daxil olur, Qadın və başqaları qeyb olur.

[1] Yaxşılar

Ş e y t a n

Bu xəstə kim?

İ n s a n l ı q

Oğlum, adı – İdeal!

Ş e y t a n

Son zamanlar qadın səndə başqa hal
Hiss edirəm, neçin belə dəyişdin?
Hansı xain bir şəfəqə ilişdin?
Ondan doğdun bu naxələf çocuğu.
Tez ol, göstər!..

İ d e a l

(*qorxu və həyəcan içində*)

Ana, ana kimdir bu?

Şeytan ayağını yerə vurur, Zülm və Fəlakət hazır olur, İdeal onları gördükdə daha da həyəcanlanır.

Bu qorxunc simalar bax, ana, kimdir?
Sanki məni boğmaq, əzmək istəyir.
Dəmir barmaqları başdan-başa qan!

İ n s a n l ı q

Qorxma, oğlum, onlar da adi insan.

İ d e a l

İnsan bumu?

Ş e y t a n

Budur, ey xain çocuq!

İ d e a l

Bunlarda mərhəmət, ədalət heç yox,
Hamısı qan tökən, qan içən cəllad.

Z ü l m

Çaşma, ey naxələf və azğın övlad!

(*Zülm qanadı ilə İdealı vurur*)

İ n s a n l ı q

Haqq eşqinə, dəymə xəstə oğluma,
Mərhəmət et, yaxın gəlmə, toxunma.

Ş e y t a n

Mərhəmətdən mərəz doğar, deyərlər,
Nankor, sənə nələr verdim mən, nələr!
Sərvət verdim, dövlət verdim, şan verdim,
Məmləkətlər, ölkələr fəth etdirdim.
Şöhrət üçün səltənətlər qurdurdum,
Dəbdəbəyə, təntənəyə uydurdum.
Yapdırdın hey şəddadanə saraylar,
Dörd yanında qulam, kəniz, alaylar.
Ordu çəkdin, düşməndən taxt-tac aldın,
Məmləkətlər yakdın, yıxdın, bac aldın.
Xəzinələr əldən-ələ keçirdin,
Rəyasətin iksirini içirdin.
Qazandınız sərvət, şövkət, şöhrət, şan,
Anladınız nədir o miskin insan?
Sizə daha nələr, nələr verdim mən,
Bunlara qarşı hər halda derdim mən,
Başqasına könül verməzsən, lakin...

İ n s a n l ı q

İncitməyin oğlumu.

Ş e y t a n

Sus, ey miskin!

Zülmət və Fəlakət qanadları ilə İdealı vurur.
İnsanlıq onu müdafiə edib yalvarır

İ n s a n l ı q

Allah üçün vurmayınız, bu əllər
Sizdən bir mərhəmət, ədalət bəklər.

Z ü l m

Bütün yer, göy bu araya yığılsa,
Atəş alsa, tamam yanıb kül olsa,
Bizlərdən mərhəmət mahal əmrdir.

İ n s a n l ı q

Ey haq! Gözün bizi heçmi görməyir?

Ş e y t a n

Haq da, həqiqət də mənəm, bunu bil!
Adəm oğlu qoy olsun alçaq, səfil!

(*Şeytan İdealı vurmaq kimi bir vəziyyət alır*)

İ n s a n l ı q

Toxunmayın, ah, insanlıq eşqinə!

Z ü l m

Sus, ey qarı, insanlıqdan mənə nə?
Sən ey miskin insanlığın anası,
Mənə yaddır bu sözlərin mənası.
Mənə şəxsi mənfəətimdən danış,
Beşikdəykən oldum onunla tanış.
Mən tək onun ruhuyla bəslənmişəm,
Öz xeyrimi güdmək olmuşdur peşəm.
Mən yaşayım, aləm məhv olsun, batsın,
Kaş istəyim mənim vaxtında çatsın.

Ş e y t a n

Bu sözlərin ildırımdan qüvvətli,
Bir həqiqət ki, topdan da dəhşətli.
Afərin bu parlaq, doğru sözlərə!

Z ü l m

Belə səfil, uçuq, ölgün üzlərə
Baxdıqca ruhum, ürəyim şadlanır.

İ n s a n l ı q

Mərhəmətsiz! Ruhun, qəlbin aldanır,
Aldanır hey nəfsin kimi şeytana.

İ d e a l

(*həyəcanla İnsanlığa sarılaraq*).

Gəl-gəl, qanadlanıb uçaq bir yana!

İ n s a n l ı q

*(şəfqətlə)*

Pərəstiş etdiyim oğlum, nereyə?

İ d e a l

Bu aləmdən çox uzaq bir kürəyə.

Ş e y t a n

(*istehza ilə*)

Uçanmazsan! Qanadların əzilir.

İ d e a l

Bu aləmdə insan insan gəmirir.
Yer, göy bütün qandır, ana, qandır, qan!

(*Acı və sönük bir qəhqəhədən yatağına düşər*)

İ n s a n l ı q

Sən yardım et oğluma, ey yaradan!
Yox olasan səni ah, ey Fəlakət!

F ə l a k ə t

(*hiddətlə*).

Qadın, mən ki daim tapdıqca fürsət,
Sizin ilə tanış olandan bəri,
Durmamışam bir an xidmətdən geri.

İ n s a n l ı q

Durmadın, sən qəlbimizi gəmirdin.
Şeytan ilə əlaqəyə hey girdin.
Ey Ədalət, ey Mərhəmət, ey Vicdan!

Ş e y t a n

Biz varkən onlar olanmaz hökmran.

Ədalət, Mərhəmət və Vicdan sağ qapıdan daxil olur.

V i c d a n

Alicənab qadın, nədir istəyin?

İ n s a n l ı q

(*heyrətlə*)

Siz kimsiniz?

M ə r h ə m ə t

Bizlər, adın çəkdiyin.
Vicdan, Ədalət.

İ n s a n l ı q

Ey mələksimalar,
Xəzan vurmuş yarpaqtək oğlum inlər.
Haqq eşqinə, balamı qurtarınız!
Kimsəsizdir yetim.

Ə d a l ə t

Əmin olun siz!

V i c d a n

(*İdealı diqqətlə süzdükdən sonra*).

Dəhşətlidir bu xəstənin əhvalı,
İnsanlığın ölgün, solğun idealı!
Milyon illik tarix alnında zahir,
Gələcək də dumanlıdır kim bilir?!
Halın isə acınacaq bir haldır,

Ş e y t a n

Bu haldan qurtarmaq ona mahaldır.

Ə d a l ə t

Tez qurtulur, təmiz vicdan olarsa.

Z ü l m

Məncə bütün dünya, aləm yığılsa,
qurtulmaz!

İ d e a l

Bir saçma sözdür bunlar,
Ədalət, Mərhəmət, Vicdan qurtarar.

Ş e y t a n

Hər birinin qarşısında min güc var.

V i c d a n

O güclər bir anda olar tarmar.

Ş e y t a n

Fəlakətə qarşı varmı bir qüvvət?

M ə r h ə m ə t

Parlar səadət, məhv olar fəlakət.

Z ü l m

Məhv olmayınca biz, o da məhv olmaz!

Ə d a l ə t

(*əlini qılıncına uzadaraq, amiranə*)

Çəkilin tez, haydı alçaq, yaramaz!

İ n s a n l ı q

Üstümüzə qanad aç, ey Səadət!

Ş e y t a n

Nə durmusan? Ey sütunlu Fəlakət!

Ə d a l ə t

(*qılıncını çəkərək*)

Bax! Bu qılınc haqsızları titrədir.

Z ü l m

(*qılıncını çəkərək*)

Bax bu qılınc ondan daha kəskindir.

Ə d a l ə t

Sözlə deyil, işi əməl bildirir.

(*hücum edər*)

Al, yaramaz!

Z ü l m

(*yıxılır*)

Bitdim, tükəndim, eyvah!

M ə r h ə m ə t

Məhv ol, gəbər, haqqa köməkdir Allah!

Vicdan, Ədalət və Mərhəmət şən və müzəfferanə bir vəziyyət alaraq, qadına və ço-cuğa yaxınlaşırlar

M ə r h ə m ə t

Ey ana, ey oğul, açıl, gül, sevin!
Bundan sonra artıq olun siz əmin!

İ n s a n l ı q

Çox sağ olun, min-min təşəkkür sizə,
Çətin gündə kömək etdiniz bizə.

Bu aralıq zülm yavaşca durar, kimsə görmədən sol qapıdan çıxar, daha sonra Şeytan çıxar, Fəlakət sağ qapıdan qaçmaq istərkən Səadət daxil olur və Fəlakəti yaxalayaraq

S ə a d ə t

Getmə! Dur! Mərhəmətsiz, alçaq, azğın!
Artıq yetər, yetər bidad etdiyin.
Al haqqını!

F ə l a k ə t

(*yerə yıxılır*)

Uf, məhv oldum, ey alçaq!

M ə r h ə m ə t

Ucalacaq daim, alçalmayacaq.

V i c d a n

Zalimlərdən alacaqdır intiqam.

Səadət nurani qanadlarını qadınla çocuğun üstünə açar, səhnə aydınlaşır.

M ə r h ə m ə t

(*İdeala yanaşıb*)

Dur, oğlum, dur!

İ d e a l

Hələ deyiləm sağlam.

İ n s a n l ı q

Oğlum, dur ki, məhv oldu şum Fəlakət
Üstümüzdə qanad açmış Səadət.
Hər zaman zülməti görən gözlərin,
İndi işıq görsün, bir az sevinsin.
Bax necə parlayır Ədalət, Vicdan,
İçimizdə haqq olmaqda hökmran.
Çiçək kimi açıl, gün kimi parla!
Dur, oğlum, dur, insanlığı alqışla!

İ d e a l

Hay, hay, ana, bu işığa aldanma!
Bir gül açılmaqla bahardır, sanma.
Barmağımın ucundan diqqətlə bax!

Səhnənin işığı azalır, arxa qapı açılır, duman, tüstü, alov içində bir səhra görünür, ildırım şiddətlə çaxır, qorxunc səslər eşidilir. İdeal səhranı göstərərək

Qan içində üzür sərasər afaq,
Yer, göy bütün atəş, dumandır, qandır,
Zülmün dəmir pəncəsi hökmrandır.
Vuran, boğan, ölən, əzən, əzilən,
Qovan, qaçan, düşən, kəsən, kəsilən.
Bunlar deyilmidir sənin övladın?
Hamısı da vəhşi, zalım və azğın.
Hər yerdə bax, insan insan gəmirir.

İ n s a n l ı q

Buna, oğlum, yoxmu bir çarə, tədbir?

İ d e a l

Var, ana, var, bu dərdə yalqız dərman,
İslah etsin özünü hər bir insan.
Uymasın öz içindəki iblisə,
Bir yamanlıq eyləməsin heç kəsə.
İnsanlığın mənasını öyrənsin,
Sağlam əqlə, təmiz qəlbə güvənsin.

Sarılsın bu sevimli qüvvətlərə,
Zülmətlərdən uzaqlaşsın bir kərə.
Bu sözümü tutsa, parlar iqbalım,

İ n s a n l ı q
Sən parlasan, çiçəklənər amalım.

İ d e a l
Getməliyəm mən içinizdən hələ.
(*Qanadlanıb uçmaq istər*)

İ n s a n l ı q
Məni kimə buraxırsan bu dərdlə?
(*İdeal Səadətə, Ədalətə, Mərhəmətə işarə edərək*)

İ d e a l
Ədalətə, Mərhəmətə, Vicdana,
Onlardan sən, ana, bir an ayrılma!
Hər əmrinə, hökmünə qıl itaət,
Bu itaət sənə verər səadət.

(*Üzünü onlara tutaraq*)

Sən ey insanlığın işıq məşəli!
Haqqın bükülməyən qüvvətli əli!
Bu anamı sizlərə təslim etdim,
Kömək olun, mən içinizdən getdim.

(*İdeal rəngin şəfəqlərə bürünüb yavaş-yavaş göyə ucalır*)

İ n s a n l ı q
Bay, nə qədər gözəlləndi, mələyim!
Gəl yanıma, gəl, nazənin diləyim.
Gəl, könlümü yar, içində tut məskən.
Sarıl mənə, bir an getmə gözümdən.
Şəfəqlərin könlümü aydınladır.

Sönük, acı həyatıma bal qatır.
Dostlar, nədir məndə bu nazənin hal?

Ə d a l ə t

Gülümsəyir bəslədiyin İdeal.

V i c d a n

Şəfəqlərin qanadında yüksəlir.

İ n s a n l ı q

Baxdıqca, ah, gözlərimə nur gəlir.
Uf, mələyim, sevgili idealım!
Sənsiz necə keçər həyatım, halım?!
Ey Səadət, ey dostum, ey parlaq nur!
Anasına oğlunu tez qovuşdur!

*1914*

# AYDOĞDU

## İ Ş T İ R A K  E D Ə N L Ə R:

A y d o ğ d u – 30 yaşında gənc
Z ə q q u m ə – Aydoğdunun qadını
U ğ u r l u – yoldan keçən ixtiyar bir kişi
Ə j d a h a
M u ğ a n  x a n – padşah, 45 yaşında
Ü l k ə r  x a n ı m – xanın qadını, 35 yaşında
G ü n ə ş  x a n ı m – xanın qızı, 18 yaşında
T ə r l a n – Günəş xanımın dayəsi, 40 yaşında
B a t ı  x a n – Türkmən xanın qardaşı, elçi, 40 yaşında
G ü l t ə k i n  x a n ı m – Türkmən xanın qızı, 18 yaşında
Ə f s u n ç u b a ş ı
X i d m ə t ç i l ə r, ə f s u n ç u l a r

## BİRİNCİ SƏHNƏ

Orman. Quyu. Aydoğdu bir daş üstündə oturub həzin-həzin düşünür. Qəmli musiqi çalınır. Sonra çalıb-oxuyur. Uğurlu yoldan keçərkən oturub qulaq asır.

A y d o ğ d u

Bir dərdim var ki, söyləsəm el yanar,
Söyləməsəm ürək yanar, dil yanar,
Bu çöllərdə ah çəkməyə qorxaram,
Çəmən yanar, çiçək yanar, gül yanar.

Göy üzündə ötən durna, uçan qaz,
Getmə, getmə, qanad saxla, dur bir az.
Yaz girincə hər yan gülər, şənlənər,
Mənim könlüm nədən gülməz qış və yaz?

Uca dağlar, duman çökmüş başına,
Qəm ələnir torpağına, daşına,
Öz yurdunda qərib olan mənim tək,
Sənin kimi güc verər göz yaşına.

U ğ u r l u. Oğlum, qəribmisən? Bir dərdinmi var? Bu sazın incə tellərini nə qədər yanıq və acı-acı söylədirsən! Dərdin nədir? Söylə!

A y d o ğ d u. Uf! Dərdimi sorma, baba! Bilsən nə qədər dərdlərim var! Dağlar qədər, dunyalar qədər.

U ğ u r l u. Söylə, dərdini söylə. Yer üzündə çarəsi olmayan bir dərd yoxdur.

A y d o ğ d u. Dərdim söylənilməli dərd deyil. Öylə bir dərddir ki, söyləsəm özgəni, söyləməsəm özümü yandırar.

U ğ u r l u. Oğlum, dərd saxlanılmaz, söylə ki...

A y d o ğ d u. Baba, mənim dərdim xatun dərdidir.

U ğ u r lu. Qızmı sevdin? Sazı acı-acı söylətməndən bir şey duymuşdum.

A y d o ğ d u. Yox, baba, qız, filan sevmədim. Kaş ki, dərdim o olaydı...

U ğ u r l u. Xatun dərdi daha nə ola bilər?

A y d o ğ d u. Görünür ki, baba, çox bəxtəvər adamsan. Ya evlənməmişsən, ya pis xatuna rast gəlməmişsən. Sağ əlin başıma.

U ğ u r l u. Oğlum, mən dünya görmüş, isti-soyuq dadmış, bir çox dərdlilərin işinə yaramış bir adamam. Uzatma, söylə dərdini.

A y d o ğ d u. Baba, indi ki mənim dərdimi bilməyə bu qədər can atırsan, söyləyim: mənim bir xatunum var, ilan qılıqlı, köpək xoylu... Onun əlində yanır-yaxılıram, baba! Evimdən, eşiyimdən avara düşüb bu çöllərdə sərsəri dolaşıram.

U ğ u r l u. Adam, bir xatun əlindəmi aciz qaldın? Xatun nədir ki!..

A y d o ğ d u. Bu sözləri çox eşitmişəm. O xatunu görməyincə mənim dərdimdən baş aça bilməzsən. Xatun deyil, yandırıcı, yaxıcı cəhənnəm odudur.

Zəqqumə xanım, əlində odlu kösöy, uzaqda bağıra-bağıra gəlir.

A y d o ğ d u (*xatunu əlilə göstərib*). Ay! Evim yıxıldı. Xatun odur gəlir, baba, tanrı eşqinə, məni qoru. (*Uğurlunun arxasınca keçər*)

U ğ u r l u. Qorxma, adam, burax gəlsin. Mən çarəsini edərəm.

Z ə q q u m ə (*yaxınlaşıb*). Ay həyasız oğlu, dinsiz oğlu, murdar oğlu, heyvan oğlu, sənin başını bu yarmaça[1] ilə it başı kimi yaracağam. Ev-eşiyini atıb subay oğlanlar kimi qoltuğunda saz aşiqlik edir. (*Aydoğdunu vurmaq istər. Aydoğdu Uğurlunun arxasına keçər*)

[1] Odun parçası

U ğ u r l u. Xatun, bu yazıq kişidən nə istəyirsən? Əl çək!..

Z ə q q u m ə. (*Uğurluya*). Sən mırtıldama. Sənə nə, bizim işimizə qarışırsan? Ver mənə o qansız oğlunu öldürüm. (*Aydoğduya hücum edər*)

U ğ u r l u (*onu tutub*). Dur!

Z ə q q u m ə. Dura bilmərəm, çəkil bir yana. Axmaq oğlu axmaq, sən nə qarışırsan?

U ğ u r l u. Sus, tərbiyəsiz, alçaq! Xatun ağzından söyüş çıxmaz!

Z ə q q u m ə. Buna bax, saqqalını çox yırğalama, sənin kimi kişiləri çox barmağımda oynatdım. Çəkil bu yana deyirəm, yoxsa bu yarmaçanı başından elə endirrəm ki, gözlərinə qaranlıq çökər. (*Aydoğduya hücum edir*)

A y d o ğ d u. Aman, baba qoyma!

U ğ u r l u (*xatunun əllərini tutub*). Oğlan, götür, gedək. Bunun cəzasını mən özüm verəcəyəm. Çünki bu kimi qadınlar insanlığı zəhərləməkdən başqa bir işə yaramaz. (*İki tərəfdən xatunu tutub quyunun ağzına gətirirlər. Quyunun ağzını açıb xatunu ora saldıqdan sonra ağzını daşla qapayırlar*) Get yarmaçanla əjdahaların başını yar!..

A y d o ğ d u (*geniş nəfəs alıb*). Uf, qurtuldum. Başına dönüm, baba, bu quyudan bir daha çıxmaz ki?

U ğ u r l u. Qorxma, çıxmaz, burası əjdaha yuvasıdır. Əjdahanın əlindən qurtulmaz... haydı, get evinə, rahat-rahat yaşa!

A y d o ğ d u. Çox sağ ol, baba, bu yaxşılığı ölüncəyə qədər unutmaram. Tanrı sənə yar olsun! Səni mənə yardım üçün göy tanrıları göndərmiş.

U ğ u r l u. Sağ ol, oğlum, Allaha ismarladım. (*Uğurlu gedər*)

A y d o ğ d u. Sağ ol, baba! (*Yalnız, əllərini göylərə qaldırıb*) Ey yaradanların yaradanı, Qaraxan tanrı! Ey Altun dağda, altun urun[1] üzərində oturub buyruq verən bay, ölkən[2] tanrı!.. Ey ağ ölkədə yaşayan ulu babalarımızın ruhları!.. Bu uğursuz xatundan siz məni qurtardınız. Mən də bundan sonra heç bir suç və günah tutmayacağam, yalnız sizi tanıyacağam, sizin üçün ağ qoyunlar kəsib, yaratdığınız hər canlı məxluqə köməklər edəcəyəm... Sizlərə uğurluqlar və aydınlıqlar... (*Quyudan səs gəlir. Yazıq döyüküb*) Bu nə səsdir? Yoxsa xatun quyudan çıx-

---

[1] Taxt

[2] Böyük, əzəmətli

maq istəyir? (*Quyunun ağzına gəlib qulağını quyunun ağzına qoyub dinləyir. Quyudan səslər gəlir*) Bu şeytan qızı burada da rahat oturmayır. Kimi isə tapıb yazığa cəhənnəm odu qusdurur. (*Yenə qulağını quyunun ağzına qoyur*) Bu kim ilə vuruşur? Daşı qaldırıb bir baxım. (*Daşı qaldırmaq istərkən birdən qorxub çəkilir*) Mən nə yapıram? Yenicə bu bəladan qurtuldum. Öz əlimlə özümə quyu qazıram. (*Düşünür*) Bu xatun kim ilə vuruşduğunu bircə bilsəydim... (*Düşünür və cürətlə*) Hər nə olsa açıb baxacayam. O, quyudan bir daha çıxamı bilər? (*Quyunun daşını bir az qaldıran kimi əjdaha başını çıxarır*)

Ə j d a h a. Ey bəni -adəm, aman günüdür, məni qurtar.

A y d o ğ d u (*əvvəlcə diksinib*). Sən kimsən bu quyuda?

Ə j d a h a. Mən əjdahayam... Bu quyu mənim yuvamdır. Bura bir xatun gəlmiş, onun əlindən yandım, yandım, yandım! Aman günüdür, məni qurtar!

A y d o ğ d u. Yox, mən səni qurtara bilmərəm, qorxuram...

Ə j d a h a. Qorxma, imanım, vicdanım haqqı qorxma, məndən sənə zərər dəyməz.

A y d o ğ d u. Yox, canım, sən əjdaha, mən insan, necə qorxmayım?

Ə j d a h a. Ey insan, hər kəsə qorxunc olsam da, sənə qul olacağam. Nə istərsən sənə yapacağam, göy tanrı eşqinə, qurtar məni...

A y d o ğ d u. İndi ki and verirsən, çarə nədir. (*Daşı qaldırıb*) Çıx, tez ol, aman günüdür, xatun çıxmasın. (*Əjdaha çıxar, oğlan quyunun ağzını qapar*)

Ə j d a h a (*dərin bir nəfəs alıb*). Ox, qurtuldum. Oğlan, sən ki bu cəhənnəm odundan məni qurtardın, mən də sənə bir yaxşılıq edəcəyəm. Bax, Muğan xanı bu yaxında olur. Onun Günəş xanım adlı gözəl bir qızı var. Mən gedib onun boğazına yapışacağam. Hər kəs gəlsə açılmaram. Sonra qızını sənə verməyə razı olarsa, sən gələrsən, mən açılıb gedərəm. Sən də qıza və padşahlığa sahib olarsan... Sonra artıq mənim işimə qarışma! Hər kəsin boğazından yapışdımmı, göndərsələr, gəlməzsən, gəlsən, səni öldürərəm... Allaha ismarladıq.

A y d o ğ d u. Allaha ismarladıq. (*Hər ikisi gedir*)

## İKİNCİ SƏHNƏ

Bağça, Muğan xanın salonu. Muğan xanın qızı Günəş xanım, dayəsi Tərlan bağçaya çıxırlar, bir iskəmlə üzərində oturub qonuşurlar.

T ə r l a n. Qızım, səni hər zamankından pozğun görürəm. Çox düşünürsən. Şükür... elçilər gəlmiş, bu gün-sabah toyun olacaq, artıq düşünmənin nə yeri?

G ü n ə ş x a n ı m. Eh, ay nənə, insanın başında o qədər qəzavü qədər vardır ki, kim bilir nə olacaqdır?! Getmək bir dərd, qalmaq bir dərd, bunlar düşüncə deyilmi?

T ə r l a n. Qız, sən də keçmişləri, gələcəkləri nə qarışdırırsan? Qaraxan kimi nişanlın, Türkmən xanı kimi qayınatan, Gültəkin kimi baldızın var, səndəmi düşünürsən?

G ü n ə ş x a n ı m. Ah... bəlkə atam heç verməyəcək?

T ə r l a n. Ona verməyib də kimə verəcək? Çoxdan toy görmədik. Mənim ürəyim söyləyir ki, bu iş baş tutacaq. (*Qızı öpür*) Sən heç düşünmə! (*Tərlan gedir, Günəş yalqız*)

G ü n ə ş x a n ı m (*bağçada gəzinir və öz-özünə oxuyur*).

Əziziyəm yüz yerdən,
Əlli yerdən, yüz yerdən,
Əllərin sal boynuma,
Ayaqların üz yerdən.

Qaşların balxı-balxı,
Gözlərin bostan arxı,
Toyumuzu tez başla,
İntizar qoyma xalxı.

(*durub düşünür və diz üstə çökərək*)

Ey yaradan! Bu intizardan məni qurtar. Dağ pərilərinə, müqəddəs ağaclarına, qurbanlarına qurbanlar gətirim. (*Əlləri göydə olduğu halda əjdaha arxadan gəlib boğazından yapışır. Qız yerindən tərpənməyir. Muğan xan, Batı xan, Gültəkin xanım salona daxil olurlar*)

B a t ı  x a n. Bizim burada bu qədər qalmağımız doğru deyil. Çünki qardaşım müntəzirdir.

G ü l t ə k i n. Qardaşım Qaraxanın bir günü bir il keçir.

B a t ı  x a n. Xeyir işi tez başlamaq lazımdır.

M u ğ a n  x a n. Bizim deyəcəyimiz yox. Ancaq...

Ü l k ə r  x a n ı m. Yeznəmiz Qaraxan özü gəlsəydi, daha yaxşı olmazdımı? Həm özünü görərdik, həm də toyunu edib qızı götürüb gedərdi.

G ü l t ə k i n. Bizim də fikrimiz odur. Məktub yazaq, Qaraxan özü gəlsin.

Ü l k ə r  x a n ı m. Bu çox gözəl olardı... Amma mən Günəş xanımsız necə yaşayacağam?

B a t ı  x a n. Sağlıq olsun, tez-tez gələr, görüşərsiniz.

M u ğ a n  x a n. Çox gözəl, siz məktub yazın, biz toy tədarükünə hazırlaşaq.

G ü l t ə k i n. Mən gedib Günəş xanımı müjdələyim.

Bu vaxt Günəş xanımın dayəsi Tərlan bağçaya çıxarkən qızı elə görüb bağırır və dili tutula-tutula qaçıb salona daxil olur.

T ə r l a n. Hə, hə, hə, Günəş... xanım

Hamısı heyrətlə baxar.

M u ğ a n  x a n. Tərlan, nə olub?

T ə r l a n. Bağçada... Günəş... xanımı...

Ü l k ə r  x a n ı m. Ay qız, tez ol söylə, nə olmuş?

T ə r l a n. Əjdaha... əjdaha... bağçada.

Hamısı ayağa qalxıb, qorxu içində

Ü l k ə r  x a n ı m. Günəş xanım... bağçada... əjdaha deyir... (*Sürətlə bağçaya enir və hamısı onun arxasınca gəlir, qızı o halda görüncə Ülkər bağırır*) Vay, vay...

M u ğ a n  x a n. Tərpənməyin! (*Xidmətçilərə*) Bizim əfsunçulara xəbər verin gəlsinlər və şəhərdə car çəkdirin, hər kəs qızımı bu əjdahadan qurtarsa, dünya malından onu sirab edəcəyəm.

Xidmətçilər gedir.

Ü l k ə r  x a n ı m. Uf, yazıq balam, bədbəxt balam, biz sənə toy üçün hazırlanırdıq. Bu nə işdir başımıza gəldi?

B a t ı  x a n. Xan, izn verin, ox ilə əjdahanı vurub öldürüm. (*Kamanı çıxardıb nişan almaq istəyir*)

M u ğ a n  x a n. Amandır, yapma, əjdaha acıqlanıb qızı tələf edər.

Əfsunçular daxil olur.

Haydı, oğullarım, qızımı sizdən istəyirəm.

Əfsunçular mis qabları cingildədib dua oxuyurlar. Bir əfsunçu əlində bir daş tutub oxuyur: çocuğum qarım olsun, suç tanımayacağam, yalnız səni tanıyacağam, ey yat daşı, bu qızı pis ruhların əlindən qurtar!

M u ğ a n  x a n. Görünür bir şey bacarmırsınız!

Ə f s u n ç u b a ş ı. Görək, xan, qurtaran tanrıdır.

Ü l k ə r  x a n ı m. Qızım öldü ki... Tez olun qurtarın... (*Ağlayır*)

G ü l t ə k i n. Göy tanrı, sən qurtar! (*Dua edir. Əfsunçular daxil olur*)

M u ğ a n  x a n (*birinci əfsunçulara*). Artıq siz çəkilin! (*İkinci əfsunçulara*) Gəlin, oğullarım! İşiniz avand olsun!

Əfsunçular şam yandırıb dua oxuyurlar və təştə su içinə bir para şeylər tökürlər, at quyruğu ilə kiş-kiş edib pis ruhları qovlayırlar.

Ü l k ə r  x a n ı m. Xaqanlığı da istəmirəm, xanlığı da istəmirəm, kaş ki, qızım sağalsın.

M u ğ a n  x a n (*əfsunçulara baxıb*). Sizin də əlinizdən bir iş gəlməyəcək görürəm. Bax, deyirəm, sözüm sözdür, hər kəs bu qızı sağaltsa, ona verəcəyəm.

X i d m ə t ç i. Uğurlar olsun, xan. Bir adam gəlmiş, əjdahanı mən qaçırıram, bacarmazsam, başımla cavab verirəm deyir.

M u ğ a n  x a n. Durma, söylə gəlsin! Bu da bacara bilməzsə, yazıq qız.

Ü l k ə r  x a n ı m. Nə bilim... kaş ki, o sağalsın, yeddi addım yer yalaram.

Aydoğdu daxil olur.

A y d o ğ d u. Uğurlar olsun, xanım!

M u ğ a n  x a n. Uğurlar... Gəl, oğlum, gəl! (*Əfsunçulara*) Siz çəkilin!

A y d o ğ d u. Hər kəs çəkilsin, yol açılsın, bu bağçada qızdan və məndən başqa kimsə qalmasın.

Hamısı salona çıxarlar, məyus bir halda bəklərlər.

A y d o ğ d u (*əlini havada oynadıb*). Çəkil get!

Əjdaha dərhal açılıb gedir. Oğlan qızın əlindən tutub qaldırır və salona gətirir. Ay göy üzündə görünür.

Ü l k ə r  x a n ı m. Ay doğdu!.. (*Hamısı səcdəyə düşər*)

M u ğ a n  x a n (*Aya*). Ey ata Ay! Səni ana Günəşə and verirəm, qızımı bu pis ruhun pəncəsindən qurtar!

B a t ı  x a n. Gündüz günəş varkən ay pək az olur ki, doğsun.

M u ğ a n  x a n. Həm də nə qədər gözəl doğmuş! Dostu günəşə qovuşmağa can atır.

A y d o ğ d u (*Günəş xanımın əli əlində salona girər*). Buyur, xan, bu sizin qızınız.

Salonda hər kəs sevinc içində onlara doğru qoşar.

M u ğ a n  x a n. Mənim qonağımda da Günəş ilə Ay doğdu. Həm də nə qədər gözəl. (*Qızı və oğlanı öpüb*) Oğlum, nə istəyirsən? Söylə!

Ay d o ğ d u. Vədə verdiyinizdən başqa bir şey istəməm.

M u ğ a n  x a n. Haqlısan, oğlum, mən sözümdən qaçmaram, adın nədir?

A y d o ğ d u. Adım Aydoğdudur.

M u ğ a n  x a n. Aydoğdu? Ox, nə gözəl təsadüf. Göydə Ay doğarkən, sən də qızım Günəşlə bərabər. Bu uğurlu bir faldır. Qızım, Günəş, Aydoğdu xan səni ölümdən qurtardı, o olmasaydı, sən ölmüşdün. Əhdimə görə, səni ona verməliyəm. (*Aydoğduya*) Haydı, oğlum, Aydoğdu! Qızım Günəşlə get, o biri odada bəyəndiyiniz geyimlərdən geyib, bəzənib gəliniz. Haydı, şən quzularım. Üstünüzə uğurlar, aydınlıqlar yağsın (*Hər ikisi Muğan xana baş əyir və gedir. Sükut*).

B a t ı  x a n. Bəs Qaraxan?

M u ğ a n  x a n. O da öz taleyindən küssün. Başımıza gələni görmədinizmi? (*Sükut*) Bu gün mən çox qorxdum, yaradan qızım Günəşi

bizə ikinci dəfə verdi. Bu gün onun ikinci dəfə anadan olduğu gündür. Bu günü hər il bayram və şənlik edəcəyimə əhd edirəm. Bu qədər qorxu və kədərdən sonra könlüm bir toy, bir kef məclisi görmək istəyir, qızımın toyunu bu gün başlayacağam. Çalğıçılar gəlsin!..

B a t ı x a n. Xan, bu işin sonunu çox qorxunc görürəm. Gedib qardaşım Türkmən xana, oğlu Qaraxana nə söyləyim?

M u ğ a n x a n. Mən sizin yanınızda çox məhcub[1] oldum. Bağışlayasınız. Gedib gördüyünüzü söyləyin, yaradan böylə töcü tökmüş[2], nə edəlim?!

Ü l k ə r x a n ı m. Böyük tanrının işinə qarışmaq olmaz. Biz onun suçlu, qaraüzlü, bacarıqsız qulları nə yapa bilərik? (*Sükut*).

G ü l t ə k i n (*çıxar, bağçaya gedib iskəmlədə başını əlləri içinə alıb düşünür. Həzin musiqi çalınır*). Ox, Qaraxan! Bacın kaş yerlərə keçəydi, qaranlıq ölkədə qorxunc ruhlarla birlikdə yaşaya idi, sənin yanına üzüqara dönməyəydi. Artıq üzünə nasıl baxacağam, qardaşım? (*Ağlayıb iskəmləyə yıxılır, əjdaha gəlib onu tutur*)

Çalğıçılar daxil olur.

B a t ı x a n (*Muğan xana*). Bundan sonra bizim burada qalmağımız artıqdır. (*Xidmətçiyə*) Gültəkin nerədə? Çağır gəlsin. (*Əsəbi dolaşır, xidmətçi gedər qızı əjdahanın ağzında görüncə dönər*)

M u ğ a n x a n. Mən qızımı qardaşın oğlu Qaraxana verməkdən boyun qaçırmadım. Sizin böylə əfkələnməyiniz[3] artıqdır...

Günəş xanımla Aydoğdu salona daxil olunca musiqi başlar və haman xidmətçi qorxunc bir halda daxil olur.

X i d m ə t ç i. Xan! Gültəkin xanımı bağçada haman əjdaha tutmuş.

Hamı qorxu və heyrət içində ayağa qalxır, musiqi susar.

M u ğ a n x a n (*hamıya*). Siz heç yerinizdən tərpənməyin!

B a t ı x a n (*əsəbi*). Ox! Bu nə bəla idi düşdük? (*Dolaşır. Xana*) Xan, Gültəkini sizdən istəyirəm.

---

[1] Xəcalətli oldum

[2] Lazım bilmiş, layiq görmüş

[3] Qəzəblənməyiniz

M u ğ a n  x a n (*Aydoğduya*). Oğlum, Aydoğdu! Bu artıq sənin vəzifəndir.

A y d o ğ d u (*mütəəssir*). Mən... artıq... bacarmaram.

M u ğ a n  x a n (*sözünü kəsərək*). Oğlum, elçilər əliboş gedir, Gültəkin xanım da böylə olsa, işin sonu yaxşı olmaz. Haydı, oğlum!

A y d o ğ d u (*düşündükdən sonra*). Mən sizin buyruğunuzdan çıxmaram. Gedirəm, tanrı ya ona verəcək, ya sənə!.. (*Gedir*)

G ü n ə ş  x a n ı m (*mütəəssir*). Oh! Bu nə işlərdir, ey yaradan?!

M u ğ a n  x a n Tanrı yar olsun sənə!

Ü l k ə r  x a n ı m Tanrı yar olsun sənə! (*Sükut*)

Aydoğdu bağçaya girir, əjdaha başını qaldırıb

Ə j d a h a. Oğlan, şərtimizi unutdunmu? Demədimmi sənə ikinci dəfə gəlmə?!

A y d o ğ d u. Gözüm, quzum, mən sənə təvəqqe üçün gəlmədim. Bir qara xəbər verəcəyəm, qorxma!

Ə j d a h a (*qorxub*). Nə xəbər?

A y d o ğ d u. Evimiz yıxıldı, quyunun ağzını açmışlar. O xatun quyudan çıxıb budur ağzı köpüklü gəlir, çarə nədir?

Ə j d a h a (*qorxulu*). Qaçmaqdan başqa çarə yox! (*Qızın boğazından açılıb tələsik gedər. Aydoğdu qızın əlindən tutub qaldırır və onu salona gətirir. Hamı ucadan bağırır*) Yaşasın Aydoğdu xan!

Balet, musiqi

P ə r d ə

## YAZIYA POZU YOXDUR

İ Ş T İ R A K  E D Ə N L Ə R

Q ə z a v ü  q ə d ər  m ə l ə y i – qoca ağsaqqal kişi
P ə r i l ə r – gənc qızlar şəklində
B a s y a t – türk xaqanının oğlu. 20 yaşında
T a p d ı q – çoban. 40 yaşında
A l a g ö z – Tapdığın qadını. 35 yaşında
G ö z ə l – Tapdığın qızı. 18 yaşında
D i v

### BİRİNCİ SƏHNƏ

Orman. Ağaclıq. Qəzavü qədər mələyi əski türk ruhaniləri qiyafəsində olaraq bir kötük üstündə oturmuş, önündə böyük bir kitab vərəqləyib bir takım şeylər yazır. Basyat mütərəddid addımlarla daxil olur. Daha sonra iki yandan pərilər oxuya-oxuya gəlib Qəza mələyinin ətrafında sıra ilə durar və oynarlar.

B a s y a t (*səhnəyə daxil olub Qəza mələyinə*). Gün aydın, baba!

Q ə z a  m ə l ə y i (*heyrətlə baxaraq*). Aydınlar olsun, oğlum! Bura quş gəlsə qanad salar, qatır gəlsə dırnaq, sən buralarda nə dolaşırsan?

B a s y a t. Mən Kişmir xaqanının oğlu Basyatam. Bu ormanda bir ov qaçırdım, onu araya-araya gəlib bura çıxdım... Söylə, sən kimsən? Dostsan, ya düşmən? Bu kitab nədir? Ona nə yazırsan?

Q ə z a  m ə l ə y i. Oğlum, sorma! Mənim kim olduğumu bilmək nəyinə lazımdır? Tanrı qonağısan, otur yorğunluğunu al. (*Taxtın ucunu göstərir*)

B a s y a t. Yox, baba, kim olduğunu bilməyincə, oturmaram. Söylə sən kimsən?

Q ə z a  m ə l ə y i. Sorma deyirəm, oğlum. Mənim kim olduğumu bilməkdə sənə bir fayda yox, başqa bir işin-gücün varsa, söylə, əlimdən gələn yaxşılığı səndən əsirgəmərəm.

B a s y a t (*Qəza mələyinin ətəyindən tutub*). Baba, inan, kim olduğunu bilməyincə buradan getməyəcəyəm. And verirəm səni dağ və

orman pərilərinin cadu gözlərinə, and verirəm böyüklər böyüyü göy tanrıya, and verirəm gözəlliklər və aydınlıqlar tanrısı günəşə, kim olduğunu mənə söylə!

Q ə z a m ə l ə y i. Mənim kim olduğumu indi ki bilməyə bu qədər can atırsan, söylərəm, oğlum! Mən qəzavü qədər mələyiyəm. Dünyanın qurtaracağı olan bu ormanda oturub bütün insanların başına gələcək qəza və qədəri bu kitaba yazıram.

B a s y a t (*heyrətlə*). Mənim qəzavü qədərim də yazılmışmı, baba?

Q ə z a m ə l ə y i. Yazılmışdır, oğlum, türk elləri sənin qədər uğurlu igid yetişdirməmiş. Türk elinin ən böyük yağısı olan yeddibaşlı divi sən öldürüb, onun əsiri olan dünya gözəlini sən qurtaracaqsan. Onunla qızıl alma bağında şən-şən yaşayacaqsan.

B a s y a t. Dünya gözəlini? (*Heyrətlə*)

Q ə z a m ə l ə y i. Oğlum, dünya gözəlinə sahib olacaq və türkliyə ön və şan qazandıracaqsan.

B a s y a t. Oh, baba! Sən mənə nələr söyləyir və nələr xatırlatıyorsan? Üç ay əvvəl yuxuda görüb ismini öyrəndiyim və o zamandan bəri eşqində gecə-gündüz çırpındığım gözəldən xəbər verirsən.

Q ə z a m ə l ə y i (*kitabın yarpaqlarını barmaqları ilə çevirə-çevirə*). Oğlum, bu kitabda sənin qəzavü qədərini müfəssələn yazmışam. İndi sənə bir çox şeylər anladacağam.

Uzaqda musiqi və nəğmə səsi eşidilir, get-gedə səs yaxınlaşır,
orman pəriləri səhnəyə daxil olub oxuyurlar.

O r m a n p ə r i l ə r i (*mələyə*)

Gün aydın orman xaqanı,
Sən bəzətdin bu ormanı,
Bu yerlərdə şux pərilər,
Sənə tapar, səcdə eylər.
Sənin kölgən bizə cənnət,
Bizdən sana min-min hörmət.

(*Oynayıb oxuyurlar*)

Bu ormanın pəriləri,
Yıldız, çiçəkdir hər biri.
Şəfəqlərlə oyanırıq,
Rəngə, ətrə boyanırıq.

Yıkanırıq[1] süd göllərdə,
Sevilirik şən ellərdə.
Ormanlıqda uçarıq biz,
Yad görüncə qaçarıq biz.
Ay və günəş batan yerlər,
Gözəl ruhlar yatan yerlər.
Gəzdiyimiz, yatağımız,
Sönməz bizim ocağımız.

Hər birimiz pəri bir qız,
Qibtə edər bizə yıldız.
Bizə məftun qəhrəmanlar,
Yolumuzda qoyar canlar.
Gülüşümüzdən çiçək doğar,
Baxışımız şimşək boğar.

B a s y a t (*heyrətlər içində sazı çalıb oxuyur*)

Bir dünya gözəli röyada gördüm,
Dağınıq saçını daradım, hördüm.
Elbəel dolaşdım, hər kəsdən sordum,
O nur əndamlıdan xəbər verən yox.

Sizə çox bənzərdi boyu, buxunu,
Baxışı, gülüşü, incə tül donu,
Yıldızdan, günəşdən soraram onu,
Pərivicdanımdan xəbər verən yox.

Başında ondördcə örük saçı var,
Ağlarkən gözündən incilər damlar,
Divə qul oldum der, gəl bəni qurtar,
O nazlı yarımdan xəbər verən yox.

P ə r i l ə r (*Basyata oxuyurlar*)
O dünya gözəli alma bağında,

[1] Yuyunuruq

Yeddibaşlı divin başı qucağında,
Öpüş ləkəsi var al yanağında,
Gecə-gündüz ağlar, oğlan, durma get!

B a s y a t (*sazı əlindən ataraq gəzinir və bığlarını çeynəyir*). Ox, vətənin parlaq günəşi sönmüş, rəngin çiçəkləri solmuş, coşqun irmaqları qurumuş... Dünya gözəli div qucağında saralıb-soluyor. "İntizara söhbət haramdır" deyərlər, yolçu yolda gərəkdir. (*Qəza mələyinə*) Baba, mən getməli oldum. Bu səfərdə mənə nələr görünüyor?

Q ə z a m ə l ə y i (*kitabı vərəqləyib*). Oğlum, bu səfərin çox uğurludur. Bu kitabda yazıldığına görə, gedərkən yolda Tapdıq adlı yoxsul bir çobanla görüşəcəksən. Onun gözəl bir qızı var, bir neçə ildir ki, qarnından xəstədir. O qızı xəstəlikdən qurtarıb, sonra ona evlənəcəksən.

B a s y a t (*əli xəncərinin qəbzəsində*). Sus, qoca falçı! Xaqan oğlu Basyat bir çoban qızına evlənməz, suyu-boyu bəlli olmayan bir qız Basyatın ocağına girməz! (*Hiddətlə Qəza mələyinə baxır*)

P ə r i l ə r (*Basyata üzlərini tutub oxuyurlar*)

Türk soyunda xan yoxdur, xaqan yoxdur,
Yalqız el, oymaq var, bir də vicdan var.
Qızğın bir sevgi var, coşqun iman var,
Qeysər və Kəsra yoxdur, sultan yoxdur.

Q ə z a m ə l ə y i (*acıqlı*). Oğlan! Mən olacağı söyləyirəm. Yazıya pozu yoxdur!

B a s y a t (*əli qınından yarı çıxmış xəncərinin qəbzəsində olduğu halda*). Axmaq falçı! Tfu sənə və yazdığın kitaba, yazı-pozuya! (*Əli xəncərində, odlu baxışlar və mütərəddid addımlarla çıxır)*

P ə r d ə

## İKİNCİ SƏHNƏ

Çoban Tapdıq kiçik bir təpə üzərində tütək çalır. Təpənin dalında kiçik bir daxmada qızı Gözəl xəstə yatıyor, qadını Alagöz xəstə qızının başı üstündə oturub, onu əlilə oxşayır. Basyat o biri təpə başında görünür və yavaş-yavaş Tapdığa tərəf gəlir. Orta pərdə. Onun arxasında zümrüd köşk, önündə qızıl alma bağı. Bağda bir xalıça üzərində dünya gözəli oturmuş, div də başını onun dizinə qoyub yatır.

B a s y a t (*çobana yanaşıb*). Tün[1] aydın, dayı!

T a p d ı q (*ayağa durub*). Tün aydın, bəyim, uğurlar olsun!..

B a s y a t. Dayı, yol itirmiş bir yolçuyam. Nə istərsən sənə verim, qalx, mənə yolu göstər.

T a p d ı q. Bəyim! Yolu sizə göstərərəm, ancaq şəhər buradan çox uzaqdır. Həm də sular qararmış, göy üzü də dumanlıdır. Gecə vaxtı yolu bilmək çox çətindir. Bir də, yollar hərami və quldurlarla doludur. Gecəni burada keçirə bilsəniz, dan ertə yolu sizə göstərərəm.

B a s y a t (*düşünərək*). Çarə yox, gecəni keçirə bilmək üçün bir yer olsaydı?

T a p d ı q. Bəyim! Sizi bu kiçik daxmama ala bilərəm. Ancaq xəstə bir qızım var, gecələr ağrıdan zarıyır. Sizi rahətsiz etməzsə!

B a s y a t (*titrəyə-titrəyə*). Xəstə qızın var? Dayı, sən kimsən?

T a p d ı q. Yoxsul bir çobanam, bəy, sanki bu yoxsulluq bəs gəlmirmiş ki, yaradan mənə yalnız bir qız vermiş, o da xəstə. Görünür ki, tanrının suçlu quluyam.

B a s y a t. Xəstəliyi nədir?

T a p d ı q. Bilmirəm, bəy, hər xəstəliyi qarnındadır. Yazıq qız yerindən qımıldana bilmir.

B a s y a t (*düşünür*). Çarə yox, dayı! Dışarıda qalmaq olmaz, buyur gedək.

T a p d ı q (*tələsik evə girib Alagözə*). Haydı, haydı, qonaq gəlir, evi təmizləyin.

B a s y a t. Bu adam qoca falçı dediyi çobandır. Bu xəstə də haman qızdır. Gecə bunun çarəsini edərəm. Axmaq falçı, mənim qəzavü qədərimi burax istədiyi kimi yazsın.

T a p d ı q (*qapıdan*). Buyur, bəy!

---

[1] Gecə

B a s y a t (*evə girib, uzaqdan xəstə qızı gözucu süzərək*). Tün aydın, xala!

A l a g ö z. Aydınlar olsun, oğlum, xoş gəldiniz.

B a s y a t (*guşədəki xəstə qızı gözucu süzərək*). Xəstə qızınız bumu?

T a p d ı q. Budur, bəy!

A l a g ö z. Çoxdan xəstədir, oğlum. Nə ölür, nə də sağalır.

B a s y a t. Mənim ayağım uğurludur. Tanrının buyruğu ilə sağalar, siz və o rahat olarsınız.

A l a g ö z. Ayağınıza qurban olum, kaş ki... bu qədər dağ pərilərinə nəzir və qurban götürdüm, bir şey olmadı. Onun işi bir göy tanrıya qalmış.

G ö z ə l (*gözlərini açar, oğlana baxar, oğlan da ona baxar*). Ox... Ürəyim... Odur! Özüdür! (*Əllərilə üzünü örtər*)

A l a g ö z. Qızım, nədən qorxursan? Qonaqdır. (*Yanında oturub əlilə başını oxşar*)

B a s y a t. Nə canalıcı gözləri var! Hələ xəstədir. (*Düşünür*) Yox, bu gecə qurtarram. (*Ucadan*) Yoxsa Basyat...

T a p d ı q. Nə buyurdun, bəy?

B a s y a t. Heç! Üç gündür yatmamışam, çox yorğunam, yatmaq istərəm.

A l a g ö z (*ayağa durub*). Yemək yeyiniz də sonra...

B a s y a t. Yox, xala, çox sağ ol. Heç bir şey gərək deyil. Başım üstümdə durmayır, çox rahatsızam.

A l a g ö z. Çox yorulmusunuz, görünür. Yuxu hər şeydən dadlıdır. (*Bir tərəfdə yastıq qoyub*) Buyurun, bəy!

Oğlan uzanır, Tapdıq, Alagöz dışarı çıxıb yatarlar, qız arabir zarıyır.

B a s y a t (*qalxıb ətrafına baxar, qılıncı çıxarıb xəstə qızın qarnından vurar, qız bir dəfə bağırır*). Qoca falçı, sən kitabına bunu da yaz! (*Acı qəhqəhə ilə çıxıb gedər*)

G ö z ə l (*zarıyır*). Ana, ana! (*Səslənir*) Ana! U!.. Ay ana!

A l a g ö z (*durub*). Qızım, nə deyirsən?

G ö z ə l. Gəl, yorğanı qaldır, gör bu yaş nədir?

A l a g ö z (*cəld gəlib yorğanı qaldırır, irin və qanı görüncə qorxulu*). Ay! Bu qan, irin nədir? (*Kişini çağırır*) Tapdıq, Tapdıq!

T a p d ı q. Ha, nə var?

A l a g ö z. Tez ol, gəl bura. Yoxsa, qızım, yaran deşilibdir?

T a p d ı q (*gəlib baxar*). Yarası deşilib... Şükür...

G ö z ə l. O qədər yüngüləm ki, ana, sanki heç xəstə deyildim.

T a p d ı q v ə A l a g ö z (*hər ikisi*). Yaradana şükürlər... (*Qızı öpər və oxşarlar*)

T a p d ı q. Qonağımızın ayağı uğurlu imiş. (*Baxar qonağın yatağına*) Ay! Qonaq hanı?

A l a g ö z. Doğru, nə oldu? Yoxsa dışarıya çıxmış?

G ö z ə l. Qonaq yəqin qaçıb getmişdir.

A l a g ö z. Nədən qaçsın, qızım?

G ö z ə l (*əvvəlcə oturub, sonra ayağa qalxıb*). Gecə məni öldürmək istəyirdi.

H ə r i k i s i. Necə? Öldürmək? (*Hər ikisi qızı iki tərəfdən tutar*)

G ö z ə l. Bu gecə mən heç yatmadım. Ürəyim nədənsə çırpınırdı. Gözlərimi yumunca gördüm ki, gözəl bir bağçada gəzirəm. Pərilər ətrafımı alıb başıma çiçək səpirlər. Öylə bu yerdə qarnımın üstündən xəncərlə vuruldu, gözlərimi qorxulu açdığım zaman oğlan, əlində xəncər, başımın üstündə durmuşdu. Bircə dəfə bağırıb bihuş düşdüm.

A l a g ö z (*heyrətlə*). Qonaq qızımızı nədən öldürmək istəsin?

T a p d ı q. Bilməm!

G ö z ə l. Ana, mən tamamilə sağalmışam. Heç bir yerim ağrımayır. Ox, nə qədər sevinirəm. (*Anasını, atasını qucaqlayır*)

A l a g ö z. Ox, nə qədər bəxtiyar olduq. İrəlidə görəcək günlərimiz varmış.

Bu arada göy gurlar, gurultu, patırtı olur, hər üçü qorxub guşəyə sıxılır.

G ö z ə l. Div gəlir, baba!

T a p d ı q. Qorxma, qızım!

G ö z ə l. Baba, div gəlib bizi yeyəcək, qorxuram.

A l a g ö z. Qorxma, qızım! (*Onu qucaqlayır*)

D i v (*daxmaya yanaşıb*). Adam, çıx dişarı! Çıx! (*Səs yox*) Çıx deyirəm, yoxsa!

G ö z ə l. Baba, qorxuram... (*Ağlar*)

D i v. Haydı çapuq ol, çıx, deyirəm.

A l a g ö z (*Tapdığı əlilə itələyib*). Görürsən ki, qız qorxusundan divara dırmanır, çıx onu bir tövr sakit elə.

T a p d ı q (*qapıya gəlib*). Tün aydın, dayı!

D i v (*istehza ilə*). Aydınlar... Türk xaqanının qaynatası olacaq çoban, (*Acıqlı*) sənin nəslini kökündən kəsəcəyəm.

T a p d ı q. Sənə bir yamanlıq etdiyim yox.

D i v. Etdiyin yox, edəcəyin çox. Sizin "baxşı" dediyiniz sahirlərin sözlərinə görə, xaqanın nəsli sənin ocağından parlayacaq.

T a p d ı q. İnanma, dayı! Sahir sözüdür.

D i v. Yox, bu ocağı söndürməyincə rahat ola bilmərəm. (*Əlindəki toppuzla Tapdığı vurub öldürür, daxmaya girir, qız və qadın bağırır, hər ikisini tutub dışarı çıxarır. Qadını öldürmək istəyir*) Al bu toppuz da sənin.

G ö z ə l (*yalvarır*). Əvvəlcə məni öldür!

A l a g ö z. Yox, onu öldürmə! Məni öldür də onu azad et! And verirəm səni qaranlıq ifritəsinə!

Div qadını öldürür, qız bayılır. Div onu qolları arasına alır.

D i v (*qıza diqqətlə baxıb*). Ah, bu çapqın gözlər, içimdə bir şimşək kimi çaxdı, qollarımı gücsüz buraxdı. Ox! Gözəllik! Mənim dəmirdən qatı olan ürəyimi yumşaltdı. (*Düşünür*) Yox, bu gözəlliyə aldanırsam, sonra bir bəla açar. (*Öldürmək istərkən qız gözlərini açar*) Of, yenə o baxışlar ürəyimə saplandı. (*Əyilib öpmək istər*)

G ö z ə l (*divi əli ilə itələyib*). Uzaq ol, alçaq, öldür məni də!

D i v (*ona bir qədər baxdıqdan sonra*). Qız, gəl inad etmə, səni zümrüd köşkə götürüm, qızıl alma bağında şən-şən yaşayaq. Bu don heç çənin kimi gözələ yaraşırmı? Sənə elə gözəl donlar geyindirim ki...

G ö z ə l. İstəmirəm, sənin kimi alçaqla yaşamaqdansa, şanlı ölmək xoşdur. İncitmə, öldür məni də!

D i v (*acıqlı baxar, birdən ürəyini tutub*). Tərs və inad qız, əllərimi sənin qanınla boyamaram, haydı gedək. (*Qızı qucağına alır... Göy gurlar, dörd-beş dəqiqə səhnə qaranlıq qalır. Ara-sıra göy gurlaması eşidilir. Orta pərdə qalxar, səhnə işıqlanır, zümrüd köşk qarşısındakı alma bağında, Gözəl bir xalça üstündə oturmuş və div də başını onun dizinə qoyub yatır*)

B a s y a t (*əlində saz, görünür, yavaş-yavaş sazı çalıb-oxuyur*).

Bulud könlüm açılmaz, qış-yaz ağlar,
Vəfasızdır könlüm hələ az ağlar.
Ovundan ayrı düşmüş bir ovçuyam,

Ov ağlar, ovçu ağlar, həm saz ağlar.
Gecə-gündüz yanaram, əhvalıma
Kəklik ağlar, turac ağlar, qaz ağlar.

Basyat qızı, qız da Basyatı görür, Basyat çalıb-oxuyur.

İtirdiyim ovun buldum izini,
Dünya Gözəlini görməyə gəldim.
Dərə, dağlar aşıb həsrətlə bu gün,
Üzümü üzünə sürtməyə gəldim.

D ü n y a g ö z ə l i (*oxuyur*)

Nə gəzirsən, oğlan, bu qanlı yerdə?
Saldın öz əlinlə özünü dərdə,
Ölüm, itim var bu qorxunc səfərdə,
Oğlan, div oyanar, yazıqsan, var get!

B a s y a t

Getmərəm, gözəlim, sənə çatmayınca,
Dodaq dodağına uzatmayınca.
Divin başın kəsib ta atmayınca,
Yolunda canu baş verməyə gəldim.

D ü n y a g ö z ə l i

Aşna gəlir mənə səsin və özün,
Yoxdur, oğlan, sənin heç ovçu gözün,
Ovun bir bulmuşdun, itirdin izin,
Oğlan, div oyanar, yazıqsan, var get!

B a s y a t

Eşitdim yıldızın oyanmamışdır,
Dağınıq tellərin daranmamışdır,
Sevginlə çarpan qəlb dayanmamışdır,
Tellərin darayıb, hörməyə gəldim.

Dünya gözəli ağlar, Basyat yaxınlaşıb divin ayağını xəncər ilə deşər. Div oyanır.

B a s y a t. Qalx, alçaq, sonra demə məni yuxuda namərdliklə öldürdü.

D i v (*yerindən sıçrayıb toppuzunu alar, Basyata hücum edər*). Ey bəni-adəm, eşitdinmi, bu yerlərə başlı gələn, başsız gedər!

B a s y a t (*istehza ilə*). Eşitdim, alçaq! Mən də qol gücünü sınamaq üçün gəldim.

D i v (*toppuzunu oğlana atır*). Al toppuzu!

Basyat qılıncı ilə toppuzu rədd edər, bir qədər vuruşurlar, heç birisi qalib gəlməz. Div toppuzu atıb, güləşməyə başlar, güləşirlər, oğlan divi yıxır, beybud ilə nə qədər vurur, bir şey olmayır.

D ü n y a g ö z ə l i. Oğlan, onun canı gözlərindədir, beybudu gözlərinə sox.

B a s y a t (*beybudu gözlərinə soxunca, div bağırıb ölər, göy gurlar, Basyat gəlib Dünya gözəlinin əlindən tutub, önündə diz çökər*). Yuxumda gördüyüm gündən bəri sənə yetişmək üçün hər zəhmətə qatlandım. Bu gün səni görməklə gözlərim işıqlandı. (*Əllərini tutub öpmək istər*)

D ü n y a g ö z ə l i (*əllərini çəkib*). Mən əllərimi deyil, dodaqlarımı sənə təslim edəcəyəm. Sən məni iki böyük bəladan qurtardın: biri bu, biri də atamın evində xəstə yatarkən.

B a s y a t (*qızın əlləri əlləri içində, ayağa qalxıb heyrətlə*). Məgər sən kimsən?

D ü n y a g ö z ə l i. Mən Tapdıq çobanın qızıyam!

B a s y a t (*əllərini çəkib*). Tapdıq çobanın qızı? (*Üzünü məyusluq və hiddətlə çevirir, sonra gözləri qızın gözlərinə sataşınca gülümsəyir*) Yazıya pozu yoxdur, gözəlim! (*Qıza sarılır. Pəri qızlar dəstə-dəstə gəlib onların başlarına çiçək səpərlər. Balet başlar*)

P ə r d ə

*1921*

# HƏQİQƏTƏ DOĞRU

*Bir pərdəli dram*

ƏHLİ-MƏCLİS

K a m i l – 20 yaşında gənc tələbə. Mütəfəkkir, xəyalpərvər
K a m a l – 50 yaşında qocaman müəllim
X ə l u q – şair, 40 yaşında
C ə m i l – Kamalın qardaşı, 30 yaşında
Ü l k ə r x a n ı m – Kamilin anası, 40 yaşında
Ə h m ə d – Kamilin kiçik qardaşı, 13 yaşında
P ə r i – nurani bir qız
T e l e q r a f ç ı

K a m i l (*"Həyati-müxəyyəl"ə ya "Hilal üzərində yeni dünya" kitablarını bir-bir göstərib*). Bunları hər zaman oxuduqca, hissiyyatım o qədər coşur, ruhum, qəlbim o qədər dəyişir ki, bu aləmdən tamamilə uzaqlaşıb, özümü başqa bir həqiqət və ziya aləmində hiss edirəm. Oraları dolaşır, oraları seyr edir və saatlarca dalıb gedirəm. O zaman qat-qat duran buludları nurlu əllərilə yırtaraq, işıq və gözəllik heykəlinə bənzər bir pəri qarşımda zahir olur. Yavaş-yavaş ta ora qədər yaxınlaşır. Ona yaxınlaşmaq istədikcə uzaqlaşır və əllərilə buludların arxasını göstərərək "aradığın oradadır" deyə, o alıcı qara gözlərini üzümə dikərək gülümsər, o gülümsədikcə mühitimi bürüyən pərdə-pərdə kəsif hava yırtılır, önümdə sənələrdən bəri ona yetişmək üçün can atdığım o həqiqət aləmi, o işıq dünyası görünür. Biixtiyar yerimdən fırlar, oraya qoşuram. (*Sol tərəfdəki söyüdlər arasından bir pəri zahir olur, qırmızı şəfəqlər içində haman qayib olur*) Odur, bax, dan ulduzu kimi doğur... Of, yenə də söndü, getdi... getdi...

C ə m i l. Yazıq sənə, Kamil, bu kitablar sənin beynini və ruhunu zəhərləmiş. At, at bu kitabları, oxuma. İnsan bu qədər hissiyyata qapılmaz. Hiss və xəyal insanları hər zaman aldadır. O həqiqət və işıq dünyası dediyin xəyalın yaratmış olduğu mövhumatdan başqa bir şey deyildir.

K a m i l. Unutma ki, hər həqiqət xəyaldan doğar. İnsanların xəyal sandıqları bir çox həqiqət bu gün aramızda bütün əzəməti və böyüklüyü ilə təcəlli etməkdə deyilmi? Yox, mən bu dünya üçün doğulmadım.

C ə m i l. “Mənim ruhum genişdir, bu dünya ona dar gəlir” deməkmi istəyirsən? Bunların hamısı xəyalın və hissiyyatın aldadıcı nümayişləridir. Sən həqiqəti yalnız məişətdə ara və onu təminə çalış!

K a m i l. Təmin nəyə deyirsən? Kəndim üçün uca saraylarmı, möhtəşəm ehramlarmı yapdırım? Ömrümün ən dəyərli saatlarını ləhvi-ləəbə[1], eyş və işrətəmi fəda edim? Sən bunu bəxtiyarlıqmı sanırsan?

C ə m i l. Yazıq sənə, o qoca müəllim Kamal da sənin ruhunu azca zəhərləməmiş, onun sənin üzərində böyük təsiri olduğunu bilirəm. Kamil, ona çox da uyub aldanma. (*Yaxınlaşaraq*) Bilirmisən, müəllimlər bəşəriyyətin qurbanlarıdır. Onlar bəşəriyyətin səadəti üçün çalışıb-çapalarkan, bir kərə də onların kəndi həyat və məişətlərinə dönüb baxsana! Allah üçün, bu yaşamaqmıdır? Yox, yaşamaq deyil, sürünməkdir! Bu məişətin bu ağırlığı onlarda ancaq bir ümid və xəyal doğurmuş və onunla kəndilərini təsəlli edirlər. Şairlər də elədir, sən gəl at bu kitabları, oxuma!

K a m i l. Yanılırsan, dünyada ən ziyada sevdiyim və ən səmimi hörmət və məhəbbət bəslədiyim ancaq şairlər və müəllimlərdir. Biri mənim dimağım, biri qəlbimdir, onlar mənim iki qanadımdırlar. (*Müəllim Kamal və şair Xəluq dışarıdan*) Kamil evdəmidir? (*Qapı ağzında ailə xalqından birisi*) Evdədir. (*Qonuşurlar*)

C ə m i l. İştə iki qanadın. (*Qalxaraq*) Onlara sarıl da, həqiqət və işıq aləmini ara bul. Onlar gəlmədən sovuşayım, sağ ol!

K a m i l. Günəşdən xoşlanmayan yarasalar kimi gözlərin qamaşmadan sovuş...

C ə m i l (*gedə-gedə*). Onlar sənin ağlının nurunu əyə bilər.

Kamal və Xəluq daxil olur. Cəmil gedir.

K a m i l. Oh, nə böyük səadət! Sizi gördüyüm zaman ruhumda, dimağımda və hissiyyatımda başqa bir hal və inqilab hiss edirəm. Ta çocuqluğumdan bəri içimdə doğurmuş olduğun qığılcım böyüyüb alovlanır. Onunla bütün bu kainatın pisliklərini yıxıb yaxmaq, bu kiçik zəif qollarımla kürreyi-ərzi qoruyub bir an hərəkətdən durdurmaq, sonra onun məhvərini dəyişdirib istədiyim kimi dolandırmaq istəyirəm.

K a m a l. Kamil, sən bu dünya üçün deyil, başqa bir aləm üçün yarandın.

---

[1] Faydasız işə, əyləncəyə

K a m i l. Bunu mən də hiss edirəm. Mən iştə bu dünya üçün yaranmışam. Bura qovuşmaq, burada keçinmək istəyirəm. (*Kitabı göstərir*)

K a m a l. Yanılmırsan, bu gün kainat hiss ilə yaşar. Yer üzündən hissiyyatın qalxdığı gün həyat sönmüş və qiyamət bərpa olmuş deməkdir. Hissiyyatı tərbiyə edən, insanlarda eşq və ümid doğuran şairlərimizdir. (*Xəluqə işarə edir*)

X ə l u q. Dimağındakı oyanıqlığı və fəaliyyəti sənə bəxş edən müəllimlərdir. (*Kamala işarə edər*)

K a m i l. Demək ki, siz mənim iki qanadımsınız. Onlarla havalanıb göylərdəki al şəfəqlərə qədər yüksəldikdən sonra gecə-gündüz düşündüyüm həqiqət və işıq aləminə atıla biləcəyəm.

K a m a l. Səadət uzaqlarda deyil, evin içindədir. Onu əldə etməyə çalış! Bir də, o həqiqət doğmuş, sizlər onu yalnız ikmala[1] çalışacaqsınız.

K a m i l. Mən aradığım həqiqət aləmini daha parlaq görmək istərəm.

X ə l u q (*kitabları göstərir*). Bu əsərlər səni aldatmasın. Haman həqiqət aləmi buradadır.

K a m a l. O həqiqət aləmini siz gənclər yaratmalısınız!

K a m i l. Nə surətlə?

K a m a l. Pislikləri qaldırmaqla, bu fikrə gəncliyi hazırlamaqla. Bu yolda sizə həqiqi yardımçı şairlər olacaqdır.

X ə l u q. Bu həqiqətə sizi həqiqi müəllimlər yetişdirəcək.

K a m a l. Ən ağır olan icra vəzifəsi sizin üzərinizə düşəcək. Ona görə də sarsılmaz bir əzm, səbat və iradəyə malik olmalısınız.

K a m i l. Göylərin günəşləri, ulduzları əriyib bir yerə tökülsə, yerlərin vulkanları, ümmanları göylərə axsa, cəhənnəmi atəşlər, göylərə qədər yüksəlmiş dağlar, dərin uçurumlar, yaxıcı qum çölləri önə çıxsa, məni əzm və iradəmdən döndərməz.

K a m a l. İncə və mühüm bir məsələ daha vardır. Bilirmisən nədir?

K a m i l. Əskiliyi yıxıb-yaxmaq.

K a m a l. O pək qolay bir işdir.

K a m i l. Daha nə ola bilər?

K a m a l. Ən mühüm məsələ əskiliyi yıxıb-yaxmaq və yeniliyi yaratmaq üçün nə şərait ilə çalışmaq və buna nasıl yaxlaşmaq məsə-

[1] Tamamlamağa, kamala çatdırmağa

ləsidir. Həyati-ictimaiyyəsində inqilab yaratmaq istədiyin xalqın dilinə, dininə, adət və ənənəsinə, tarixinə və əhvali-ruhiyyəsinə gözəlcə aşina olmaqdır. Yalnız bu surətlə müvəffəq olur və yaratmaq istədiyin aləmin əsas qanunlarını pək ehtiyat ilə tədricən qura bilərsən. Yenə deyirəm, dilini, əhvali-ruhiyyəsini bilmədiyin xalq içinə soxulma. Onların daxili, xarici işlərinə qarışma, zira ki, sənin orada çalışman indiki zamanda xeyirdən çox ziyan verər. Sonda daha fəna nəticələr törədə bilər. Oralarda özlərindən sizə həmfikir gənclər yetişdirməyə çalış; çünki lalın dilini nənəsi bilər.

X ə l u q. İncə bir məsələ daha vardır. Şərq millətləri əsrlərdən bəri məhkum bir millət olub əsarət altında yaşamaqdan bıkmış və o hakim millətlərə qarşı onların qəlbində intiqam diləyi, fikri oyanmışdır. O hakim millətlər bu gün nə qədər mələk kisvəsinə[1] bürünsələr də, Şərq onlara inanmaz. Yaşadığı məmləkətə bağlı olan şərqlilər onu hər kəsdən qısqanır və onu müdafiə üçün heç bir şeydən çəkinməz.

K a m a l. Həqiqət aləmini doğrudan-doğruya yaratmaq üçün həqiqi müəllimlər yetişdirmək, ali-tali darülmüəllimlər açmaq lazımdır.

X ə l u q. Kamil, sən özün gözəl müəllim ola bilərsən. O həqiqətə yetişmək üçün bundan sadə, bundan qısa yol yoxdur.

K a m a l. Bu fikrə mən də, mən də şərikəm. Sənin kimi yenilik ruhunu daşıyan gəncləri müəllim görmək istərəm.

K a m i l. Məmnuniyyətlə qəbul edərəm. Oh, nə gözəl bir fikir. Bu fikri mənə verdiyinizdən dolayı sizə indidən izhari-təşəkkür edərəm.

K a m a l. Qəbul etdiyin təqdirdə ali darülmüəlliminə girməlisən.

K a m i l. Nə surətlə?

X ə l u q. Bir teleqraf çək. Həm də gecikmə, indi yaz! (*Qalxarlar*) Cavab gəldiyi təqdirdə getmədən əvvəl bir daha görüşərik.

K a m i l. Şübhəsiz! Gedirsiniz? Yenə məni yalqız buraxırsız?

K a m a l. Artıq yalqız deyilsən. Sağ ol! (*Gedirlər*)

K a m i l. Sağ olun! Siz mənim yolgöstərən ülkərlərim! (*Bir teleqraf yazıb diplomlarını çıxarır və ərizəni oxuyur. Kiçik qardaşı Əhməd daxil olur*)

Ə h m ə d. Qardaş, yemək hazırdır. Atam deyir gəlsin.

K a m i l. Söylə mən ac deyiləm. Yemək yeməyəcəyəm, yorğunam, yatacağam. (*Teleqrafı ona uzadaraq*) Əhməd, bu teleqrafı ça-

[1] Donuna

pık çək də gəl. (*Əhməd alıb gedər. Kamil gəzinə-gəzinə*) Uca bir fikir, müqəddəs qayə... Ah, həqiqət aləmi, sənə yetişmək üçün hər fədakarlığa qatlaşacağam! (*Düşünür*) Yorğunam, bir yatım. (*Yatağa girir, bir az sonra yuxu görməyə başlayır. Yavaş-yavaş qaranlıq çökür*) Oy, boğuldum, qaranlıq... (*Əllərini havada oynadır; səhnə qaranlıqlaşır. Kamil yataqdan çıxır, röyasında kəndisi də iştirak edir və hər əlində bir kitabla qaranlıqları qovur*) Dəf olunuz, ruhumun, dimağımın düşmənləri! Sizin üçün mənim qəlbimdə və yaşadığım mühitdə yer yoxdur. (*Səhnə yavaş-yavaş qırmızı şəfəqlərlə aydınlaşır*) Mən aydınlığa, işıq dünyasına aşiqəm, ona qovuşmaq, orada yaşamaq ən son diləyimdir. (*Pəri zahir olur*) İşıq dünyasının adı çəkilincə bu gözəllik pərisi önümə dikilir. Of, nə qədər gözəl, nə qədər dilbər!

Şəfəqlər sökərkən öpüşlərindən,
Yaranmış ağ, pənbə yanağın sənin!
Çiçəklər açarkən gülüşlərindən,
Xəlq olmuş o qönçə dodağın sənin!

Mehtabda ulduzlar oynar, uçarkən,
Yamacda ceyranlar ürküb qaçarkən,
Qaranlıq gecələr sövda saçarkən,
Doğmuş zülfün, gözün, buxağın sənin!

O süzgün baxışlı baygın gözlərin,
Can alıb, can verən çapğın gözlərin,
Könlümə salıbdır yanğın gözlərin,
Eşq ocağıdır iki qaynağın sənin!

Pərilərə sordum – çiçək dedilər,
Çiçəklərə sir açdım – mələk dedilər.
Ay, ulduz, ülkərdir, gündür – dedilər,
Nəsən? Heç verən yox sorağın sənin!

(*Pəriyə yaxınlaşıb*) Ey gözəl pəri, söylə kimsən? Hər zaman mənə bir dost kimi görünürsən, bunu gözünün baxışlarından, dodaqlarının gülüş-

lərindən anlayıram. Qaliba mənə bir çox söz söyləyəcək, sirr açacaq kimi görünürsən. Söylə kimsən? Artıq məndə səbr və taqət qalmadı. Bəşəriyyətin böyük idealı, işıq və həqiqət dünyası eşqinə, söylə!

P ə r i. Mən sənin kimi həqiqətpərəst, inqilab ruhu daşıyan gənclərin sevgilisi, bəşəriyyət idealıyam.

K a m i l. Bəşəriyyət idealı? (*Ayaqlarına qapanmaq üçün yıxılır*)

P ə r i. Qalx, əlin əlimə yetişmək üçün ən əvvəl içərini, dışarını təmizləməlisən. Saf vicdan və kəskin bir iman qazandığın gün işıq dünyasında görüşəriz. (*Əllərilə buludlardan mütəşəkkil dağın başını göstərir. Dağın başı qırmızı şəfəqlərlə örtülmüşdür*)

K a m i l (*heyrətlə baxaraq*). Orası həqiqət dünyasımıdır?

P ə r i. Bu dağ kimi görünən qara buludları yırtıb atdıqdan sonra həqiqət dünyasına yetişmək mümkündür. Oranı görmək istərsənmi?

K a m i l. Hay, hay! Oraya qovuşmaq üçün min canım olsa, əsirgəməm.

P ə r i. Elə isə arxamca gəl.

Səhnədən çıxırlar, səhnə qaranlıqlaşır, o biri pərdə açılır. Səhnə solu ağaclıq bir şəhəri təsvir edər: uca imarətlər, müəllimlər sarayı, şairlər sarayı, alimlər sarayı, fəhlələr sarayı, əkinçilər sarayı. Hər tərəfdən şəfəqlər saçılır. Pəri zahir olur. Kamil onun arxasınca heyrətlər içində ufaq-ufaq addımlarla irəliləyir.

K a m i l. Ah, sənələrdən bəri uğrunda çırpındığım həqiqət dünyası! (*Səhnə qaranlıqlaşır. Kamil yatağında. Səhnə aydınlaşır*) Oh, ey işıq, həqiqət aləmi!.. Nə qədər gözəl, nə qədər dilbərsən! Nə qədər bəxtiyaram! (*Oyanır, heyrətlər içində*) Eyvah, mən nerədəyəm? Gördüklərim röya imiş? Uf! (*Durub gəzişir*) Nə qədər bəxtiyar idim! Kaş ki, oyanmaya idim, ömrümün sonuna qədər o röya aləmində yaşaya idim. (*Düşünür. Teleqrafçı qapını döyür*) Kimdir o? Girin!

T e l e q r a f ç ı (*daxil olur, teleqrafı uzadır*). Sizə teleqram var.

K a m i l (*açıb oxuyur*). Kamil! Darülmüəlliminə qəbul olundunuz. Teleqramı alınca hərəkət ediniz! (*Geniş nəfəs alaraq*) Vaxtı öldürmək haramdır, bu gün hərəkət etməliyəm. (*Kitablarını toplamağa başlar*)

T e l e q r a f ç ı. Mən getməliyəm, bu kağıza imza ediniz. (*Kamil eşitməz, əlində teleqram çıxır*)

T e l e q r a f ç ı. Bu adama nə oldu, çıldırdımı? (*İskamyaya oturur*)

K a m i l (*validəsi özü ilə daxil olur*). Ana, mənim getməyimə, mənim bəxtiyarlığıma heç mane olma, məni bu əzmimdən heç bir qüvvət döndərə bilməz!

Ü l k ə r x a n ı m. Oğlum, kaş sən xoşbəxt ol! İndi ki getməyi...

T e l e q r a f ç ı. Lütfən bunu imza edin, mən gedim.

Ü l k ə r x a n ı m. Bu nə deyir? Kamil?

K a m i l. Ay... Siz hənuz buradasınız? Bağışlayasınız, sizin vaxtınızı aldım. (*İmzalayıb verir*) Bağışla... (*Teleqrafçı çıxır. Kamil hazırlıqda davam edir. Kamal və Xəluq daxil olurlar*)

K a m i l. Mənim rəhbərlərim, xoş gəldiniz. Həyatımın işıq və qaranlıq günlərində hər zaman önümdə sizi görürəm. Bu gün bəxtiyaram. (*Teleqramı göstərir*) Gedirəm.

K a m a l. Təbrik edirəm, Kamil!

X ə l u q. Tofiq dilərəm, Kamil!

K a m i l. Sağ olun, mənim vicdanımın iki qanadı.

Ü l k ə r x a n ı m. Bu fikri Kamilin başına, görünür ki, siz qoymusunuz?

K a m i l. Çocuqluqdan bəri hər fikrimi mənə verdikləri kimi.

Ü l k ə r x a n ı m. Yaxşıdır, səni də öz günlərinə salmışlar.

K a m a l. Biz nasılız, həmişirə?

Ü l k ə r x a n ı m. Necə olacaqsınız? Dünyada mən sizlərdən bədbəxt adam tanımıram.

K a m i l. Onlar necə bədbəxt ola bilər ki, bütün dünya işığı onlardan alır.

K a m a l. Biz necə bədbəxt ola bilərik ki, minlərlə Kamil kimi uca fikirli gənc yetişdirdik? Minlərcə Kamil kimi övladımız var?

K a m i l. Bundan böyük bəxtiyarlıq nə ola bilər? Kaş mən də sizin qədər müvəffəq ola biləydim.

X ə l u q. Daha çox müvəffəq olarsan.

K a m i l (*saata baxaraq*). Vaxt yetişdi, ayrılmaq zamanı gəldi.

K a m a l. Qalx gedəlim. Biz də səni moqifə[1] qədər təşyi[2] edərik.

K a m i l. Zəhmət olar, mən razı deyiləm.

X ə l u q. Xoşdur. (*Qalxarlar*)

---

[1] Duracağa

[2] Ötürərik

K a m i l (*anası ilə öpüşür*). Sağ ol, anacığım! Darıxma, səbr elə.

Ü l k ə r  x a n ı m. Allaha tapşırdım, oğlum. Sağ-səlamət gələsən.

Çıxırlar. Ülkər əlindəki kasadakı suyu ardlarınca atar, bir qədər həsrətlə baxar. Səhnə bağlanır və qaranlıqlaşır, pərdə qalxar. Kamil, əlində çamadanı, Ali Darülmüəllimin binasının önündə durub oxuyur.

K a m i l. Azərbaycan 1-ci Ali Darülmüəllimini. (*Müəllimlərdən birinə təsadüf edər*) Tələbəyəm, Darülmüəlliminin yolu haradandır?

M ü ə l l i m. Bu nərdivanlarla ən üst qata qalx!

P ə r d ə.

*1921*

# İLDIRIM

*Beş pərdəli dram*

İ Ş T İ R A K  E D Ə N L Ə R:

İ l d ı r ı m – inqilabçı kəndli
M i r z ə  M ö h s ü n – kənd müəllimi
G ü n ə ş – Mirzə Möhsünün bacısı
S ə f i  b ə y – varlı mülkədar
S o l t a n  x a n ı m – onun arvadı
Ü l k ə r – Səfi bəyin qızı
F ə r r u x – Səfi bəyin oğlu
Ş ü k ü r  b ə y – kənd hakimi
N i k o l a y  P e t r o v i ç – qəza hakimi
R i z v a n
R ə ş i d – Bakıdan gəlmiş fəhlələr
R ü s t ə m
M ü r ş ü d
Q o c a  k ə n d l i
C a v a n  k ə n d l i – yoxsul kəndlilər
1-c i  k ə n d l i
2-c i  k ə n d l i
N a z l ı – Rüstəmin arvadı
B a l a x a n ı m – dul qadın
Q ı z  və  o ğ l a n – Balaxanımın uşaqları
R ə c ə b
D u r s u n – Rüstəmin oğlanları. Səfi bəyin nökərləri
Q u r b a n
Q a s ı m – İldırımın dəstəsindən olan kəndlilər
K o x a
X u d u ş – Şükür bəyin yasavulu
K ə r i m – Səfi bəyin xəfiyyəsi
H e y d ə r – Səfi bəyin qonşusu, Fərruxun uşaqlıq dostu
M ə h k ə m ə  i ş ç i s i
Q a r ı
Y a s a v u l l a r
K a z a k l a r

## BİRİNCİ PƏRDƏ

Səhnə. Azərbaycan kəndlərindən birini təsvir edir. Qabaq tərəfdə kəndə gedən dar bir yol, sağ tərəfdə İldırımın kiçik bağı və dəyirmanı. Sol tərəfdə B a l a x a n ı m ı n evinin pəncərələri, qapısı və iki-üç pilləsi. Səhnənin arxası sıx meşəlikdir. İldırımın bağının yanından meşəyə ensiz bir cığır gedir. Arxasında dağarcıq, yoxsul müsafir qiyafəsində olan Rüstəmlə Mürşüd danışa-danışa gəlirlər. İ l d ı r ı m ı n bağını görüncə, hər ikisi dayanıb mənalı baxışlarla bağı və dəyirmanı süzür.

R ü s t ə m. Ey dünya! Hər zaman burdan keçəndə İldırımın odlu mahnılarını, dəyirmanın "taq-tuq" səsini eşidirdik. İndi səssizlikdən qulaq batır. Atalar yaxşı deyib: "Sahibsiz mal ağlar". Dəyirmana, ağaclara baxsana, necə yetim kimi qəmli-qəmli durur!.. Ax, İldırım! Bu bədbəxt ölkədə nə qədər igid olsan, yenə də axırın yoxdur. Bu bağ, bu dəyirman da bir gün acgöz səfilərə mal olacaq.

M ü r ş ü d. Ona Qorxmaz oğlu İldırım deyərlər, a kişi, sən öz dərdinə qal.

R ü s t ə m. Hansı dərdimə qalım? Bəs mən nə üçün öz kəndimdən baş götürüb gedirəm? Səfi ilə Şükürün, görüm, evi yıxılsın, evim, eşiyim, qoç kimi oğlum onların keyfinə qurban oldu. Bu zülm toxmağı kimin evini yıxmadı? Bu toxmaq bir gün İldırımın da başından enəcək, ondan qorxuram.

M ü r ş ü d. Qorxma, İldırım qoçaq igiddir, ona batmaq çətindir.

R ü s t ə m. A kişi, igidliyə baxan kimdir? İldən artıqdır ki, zindanda çürüyür.

M ü r ş ü d. Rüstəm, bu işdə Səfinin də əli var?

Səfi bəy ovçu qiyafəsində gəlirkən Rüstəm onu görür.

R ü s t ə m. Sus! Qurd dedin, qulağı göründü, bizi burda görməsin.

Hər ikisi bağda ağac altında gizlənir. Səfi bəy ovçu qiyafəsində, sağ qolunda qızıl quş, məğrur və kinli baxışlarla İldırımın bağına və dəyirmanına baxır.

S ə f i b ə y. Gəldiyini bilirəm. Əyilməyən başları mən belə əyərəm, bax! Bu kəndlərdə mənə burun qalxızan bir kişi qoymayacağam. Hələ dur, bu bağ, bu dəyirman də mənim olacaq.

Acıqlı baxışlarla meşəyə doğru gedir. Rüstəm və Mürşüd çıxırlar.

R ü s t ə m. Ay gorbagor olasan sənin kimi oğul qoyub gedən ata!

M ü r ş ü d. Rüstəm, hələ bir fikir verdin nə deyirdi? Deyir ki, İldırım gəlibdir.

R ü s t ə m. Görəsən, bu da nə hiylədir. Onu, görüm yox olsun! Bu qəzanı kor qoyanlardan biri də o deyilmi? Onun söndürmədiyi bir ocaqmı var? İldırımı dolaşdıran o olmadımı?

M ü r ş ü d. Doğrusu, bundan xəbərim yoxdur.

R ü s t ə m. Sən də, rəhmətliyin oğlu, dünyadan xəbərsizsən ki... Koxa Xankişini döyürdü, İldırım yetişib ona dedi ki, kəndliləri bu qədər incitmə, bir də adam döydüyünü görsəm, bu kənddə ya sən qalacaqsan, ya mən. Bu söz üstündə Səfi ilə Şükür onu dolaşdırdılar.

M ü r ş ü d. Eh... görəsən, bu zülmlərə göy nə üçün dinmir?

R ü s t ə m. Əyə, yurd yiyəsiz qalanda donuz təpəyə çıxar. Bu dərdləri deməklə qurtarmaz. Yolçu yolda gərək, sağ ol. Mürşüd, halal elə məni.

M ü r ş ü d. Xoş gəldin. İşin avand olsun, Rüstəm.

Bir-birindən ayrılırlar. Rüstəm həsrətli baxışlarla kəndə baxır və başıyla onu salamlar kimi olur. Mütərəddid, yorğun addımlarla meşəyə doğru gedir. Mirzə Möhsün və İldırım daxil olurlar.

M i r z ə  M ö h s ü n. Sən necə oldu qurtardın?

İ l d ı r ı m. Qardaşın İmran qurtardı. Yazıq gecə-gündüz çalışırdı. Onun yanında çox xəcalətəm.

M i r z ə  M ö h s ü n. Borcudur! (*Əlini onun çiyninə qoyaraq*) Dostum, bu bəlanı da başdan sovduq. Bundan sonra bir qədər ehtiyatlı olmalısan...

İ l d ı r ı m. Ehtiyatlı olmaq sən nəyə deyirsən? Bu xainlərin hər buyruğuna boyun əyib, hər işinə susmaqmı? Onu mən bacarmayacağam.

M i r z ə  M ö h s ü n. İldırım, igidliyinə çox güvənmə. Hər işdə tədbir lazımdır.

İ l d ı r ı m. Mirzə Möhsün, sən üç il mənim müəllimim oldun. Səni tanıdığım gündən söylədiyin hər sözə fikir verirəm. Bəyəndiyim sözlərinə əməl edirəm. Yadındadırmı, deyirdin ki, "zalimləri yaşadan məzlumlardır, zülmə boyun əymək, insanlığı alçaltmaqdır, zülmə qarşı zülm ədalətdir". Bax, bu sözlərin beynimə çoxdan mıxlanıb. Bir də deyirdin: "Bugünkü məsələni bu gün həll etmək lazımdır. Zaman nə doğsa, ona görə iş görməlidir". Bu sözlərinin misli yoxdur.

M i r z ə  M ö h s ü n. Bu sözlər mənimdir, inkar etmirəm. Ancaq hər zamanın hökmünü dərindən düşünmək lazımdır. Məsələnin ən çətin cəhəti də burasıdır. Mən başqa sözlər də söyləmişəm, bəs onlara nə üçün əməl etmirsən?

İ l d ı r ı m. Beynimə batmadığı üçün. Yalnız bu iki sehrli fikrin məni əsir etmişdir. Bu zəhərlənmiş ölkənin qoxumuş havasında yalnız bu iki qüvvətlə nəfəs alıram. Gələcəyi bunlar mənim qarşımda canlandırır.

Ülkər və Günəş gəlir, onları görüncə ağac arxasında gizlənirlər.

M i r z ə  M ö h s ü n. Bir gül ilə bahar olmaz. Səni, məni və bütün xalqı ağır pəncəsi altında əzən çar hakimliyidir, çar istibdadıdır. Bu ikibaşlı qartalın öldürücü pəncəsindən qurtarmaq üçün xalq içinə girməli, ona yavaş-yavaş hüququnu, mənliyini anlatmalıdır. Xalq ayılmayınca, sənin, mənim çıxışlarım fayda verməz!

İ l d ı r ı m. Ona sözüm yoxdur. İnan, Mirzə Möhsün, nə qədər ki xalq bu iki qüvvətə sarılmayıb, zəncirlər qırılmaz. Bizim xalq mələməzdir, hər zülmə qarşı susur, hər əmrə boyun bükür. Çarpışmaq lazımdır!

M i r z ə  M ö h s ü n. Hüququnu anlayan kişi susmaz!

İ l d ı r ı m. Susanlar azdırmı?

M i r z ə  M ö h s ü n. Onlar zamanı düşünürlər.

İ l d ı r ı m. Yox, onlar özlərini düşünürlər. Hər iş nə zaman görülsə, faydalıdır, "əldən qalan əlli il qalar".

M i r z ə  M ö h s ü n. Hər meyvənin bir mövsümü olduğu kimi, hər fikrin də bir zamanı var. Vaxtından əvvəl yetişmiş meyvələr qurdlu olur.

İ l d ı r ı m. Fikir meyvəyə bənzəməz. Sən bu iki fikri nə qədər ayıblamağa çalışsan, qəbul etməyəcəyəm. Əgər günəşi sağına, ayı soluma qoysan, bu fikirlərinlə qəlbimdə yaxdığın şöləni söndürə bilməzsən. Məsləkcə səninlə bir olsam da, bəzi yerdə fikircə ayrılırıq. Hələ de görüm işlər necə gedir?

M i r z ə  M ö h s ü n. Çox yaxşı. Ancaq irtica gündən-günə güclənir... İnqilabçılara möhkəm divan tutulur. Arabir əlimə keçən qəzetlərdən görürəm ki, firqəmiz gizli işə keçsə də, fəhlələrin tətilləri, nümayişləri davam edir. Biz buradakı işimizi onlarla birləşdirməliyik.

Yoxsa bir pristavı, bir yasavulu, bir şəhər hakimini öldürməklə yaramız sağalmaz!

İ l d ı r ı m. Həbsxanada olduğum zaman bir çox inqilabçı ilə görüşdüm. Məsləki yolunda öz canlarını qurban verən bu adamlarda aslan ürəyi var.

M i r z ə  M ö h s ü n. Əlbəttə! Bu saat hər yerdə qızğın təbliğat gedir. Bax, belə, onlar kimi əlbir işləmək lazımdır!

İ l d ı r ı m. O da lazımdır, bu da lazımdır. Nə isə, bu məsələ hələ qalsın... Müəllim, çoxdan səninlə ova getməmişik, nə deyirsən, gedirsənmi?

M i r z ə  M ö h s ü n. Gedək! Ancaq, dostum, zindan səni yaman inqilabçı edib. Təzyiq əkstəzyiq göstərib.

İ l d ı r ı m (*gedə-gedə*). Hələ orada bir-iki siyasi kitab da oxumuşam.

Onlar gedirlər. Günəş ilə Ülkər ağac arxasından çıxırlar.

G ü n ə ş. Eh, getdilər, görüşə bilmədim. (*Düşünür*) Ülkər, qardaşımla İldırımın söhbətini eşidirdin? Məncə, İldırım haqlıdır. Ülkər, məni əsir edən, qırılmaz tellərlə ona bağlayan da bu qüvvətdir. Sən hansını haqlı görürsən?

Ü l k ə r. İldırım igiddir, ancaq mən bir az da qardaşın Mirzə Möhsünü haqlı görürəm.

G ü n ə ş (*düşünür*). Ülkər, sən burada dur, qardaşım gəlincə İldırımla görüşüm. Bilirəm o, tüfəngini evdən alıb yol ağzında qardaşımı gözləyəcək.

Günəş sürətlə gedir. Ülkər arxasınca baxaraq

Ü l k ə r. Bu da İldırımın dəlisi. Mənim də bura İldırım üçün gəldiyimi bilmir. Ax, İldırım, sən nə bəlasan!

Bir daş üstündə oturub həzin-həzin düşünür. İldırım və Günəş gəlir.

G ü n ə ş. Çox şükür, sizi bir də görə bildim.

İ l d ı r ı m. Sağ ol, Günəş xanım, çox sağ ol!

Ü l k ə r (*onları görməyib oxuyur*)

Səndən düşdüm aralı,
Qəlbim oldu yaralı,
Bir ildən artıq oldu
Sən xatirim soralı.

G ü n ə ş. Ülkərdir!
İ l d ı r ı m. Sus, Günəş! (*Hər ikisi onu dinlər*)

Çürüdün yad ellərdə,
Adın qaldı dillərdə,
Ovçu qəlbim çöllərdə
Gəzər, tapmaz maralı.

İstəyimə irmədim,
Yada könül vermədim,
Mən mislini görmədim,
Dünya məclis quralı.

Hicran ömür biçmədə,
Qəlbim zəhər içmədə,
Gəl ki, ömür keçmədə
Fırtınalı, boralı.

G ü n ə ş. Of, nə yaman mələyir.
İ l d ı r ı m (*özünü Ülkərə göstərmək istər, yüksəkdən*). Mənim kiçik bağça-bağım bu gün nə qədər şənlənmiş! Günəş doğmuş, ülkər də parlayır...

Ü l k ə r onları görüncə utancaq bir tövr alır.

G ü n ə ş. İldırım da gurlayır!
İ l d ı r ı m. Mən işığımı günəşdən və ülkərdən alıram. (*Ülkər yaxınlaşır*) Uğurlar olsun, Ülkər!
Ü l k ə r (*məhcub*). Sağ ol!
İ l d ı r ı m. Amma nə qədər gözəl səsin var. Sən buralarda nə gəzirsən? Bizimlə görüşməkdən qorxmursanmı?
Ü l k ə r. Kimdən qorxacağam?
İ l d ı r ı m. Atandan. O ki bizi düşmən tutur.
Ü l k ə r. O başqa, mən başqa.
M i r z ə M ö h s ü n (*yol ağzında durur*). İldırım, gəl gedək!
İ l d ı r ı m. Tələsmə, gəl bura!
M i r z ə M ö h s ü n (*gəlir. Ülkəri görüncə əlini ona uzadaraq*). Uğurlar olsun, Ülkər!

Ü l k ə r. Sağ ol!

M i r z ə  M ö h s ü n. Sizi bura mələklərmi çəkib gətirmiş?

Ü l k ə r. Nə bilim, bəlkə də...

İ l d ı r ı m. Şübhəsiz, onun şeytanlarla işi yoxdur.

M i r z ə  M ö h s ü n. Əvvəllər bacım Günəş ilə tez-tez görüşürdünüz. Son zamanlar bizi unutmuşsunuz, yəqin atanız izn vermir.

Ü l k ə r. Unutmadım. İşim elədir ki...

M i r z ə  M ö h s ü n. Hər halda dövlətli Səfi bəyin qızısınız, bizlərə tənəzzül etməzsiniz.

Ü l k ə r. Mənim yanımda dövlətin heç bir qiyməti yoxdur. Elə olsaydı, sizin içinizə gəlməzdim.

İ l d ı r ı m. Ülkər bizdəndir, o bizimdir!

Hamısı mənalı təbəssümlə susar.

Ü l k ə r. İzn verin gedim!

M i r z ə  M ö h s ü n. Siz sərbəst bir quşsunuz... Buyurun...

G ü n ə ş (*Ülkərin əlindən tutub*). Bərabər gedək!

Ü l k ə r. Sağ olun.

İ l d ı r ı m. Sağ ol!

M i r z ə  M ö h s ü n. Səfalarla... (*Hər ikisi arxalarınca baxar. Ağır və həyəcanlı sükutdan sonra*) İldırım, Ülkər buraya nə üçün gəlmişdi?

İ l d ı r ı m. Məni görmək üçün!

M i r z ə  M ö h s ü n. Demək, səni sevir, eləmi?

İ l d ı r ı m. Elədir ki, var. Özü də, deyəsən, lap möhkəm.

M i r z ə  M ö h s ü n. Sən də onu sevirsənmi?

İ l d ı r ı m. Elə qızı heç sevməmək olarmı? Görüncə qəlbimdə çiçəklər açır... hələ o gözlər... İnsanın canını alır. (*Müəllimin rəngi qaçır, bihal görünür*) Sənə nə oldu, Möhsün?

M i r  z ə  M ö h s ü n. Heç.

İ l d ı r ı m. Yoxsa, sən də Ülkəri sevirsən?

M i r z ə  M ö h s ü n. Vaz keç, İldırım!

İ l d ı r ı m. Söylə... Dostluğumuz eşqinə, söylə!

M i r z ə  M ö h s ü n. Yox... Ancaq çox xoşuma gəlir. Bir də ki, sən onu sevdikdən sonra bunun nə əhəmiyyəti...

İ l d ı r ı m. Haqqın var, o, sevilməyə layiq qızdır.

M i r z ə  M ö h s ü n. Zahiri qədər batini də gözəldir.

İ l d ı r ı m. Səfi bəy kimi acgöz zalım bir adamdan belə övlad!.. Çox təəccüblüdür. Hətta atasının tutduğu işlərə qarşı dərin nifrəti vardır.

M i r z ə  M ö h s ü n. Elədir, bunu mənə Günəş də söyləmişdir. Ancaq ehtiyatlı ol, hər halda bəy qızıdır.

İ l d ı r ı m. Qorxma, müəllim, bu kəndli balasının ürəyində elə şam yanmır ki, onu Səfi bəylərin qızı söndürə bilsin. Məhəbbətin öz yeri var, məsləkin öz yeri.

Hər ikisi meşəyə doğru gedir. Səhnə bir anlığa qaranlıqlaşıb yenidən işıqlanır. Səfi bəy Rüstəmi qabağına salıb səhnəyə çıxarır.

S ə f i  b ə y. İt balası, qırqovulu nə üçün qaçırtdın?

R ü s t ə m. Bağışla, bəy, bilmədim.

S ə f i  b ə y. İndi bilərsən. (*Bir şillə vurur*)

R ü s t ə m. Səni uzaqdan gördüyüm üçün ağacların arasında gizlənə-gizlənə gedirdim, qırqovul ovladığını bilmədim, bağışla.

S ə f i  b ə y. Dur, bağışlayım. (*Bir şillə də vurur*)

R ü s t ə m. Məni nə üçün vurursan?

S ə f i  b ə y. Sən bağışla deyirsən, mən də bağışlayıram. Daha nə mırıldayırsan? (*Yenə vurur*)

R ü s t ə m. Vurma, bəy, ocağımı söndürən sənin bu baxşışların olmadımı? Zülmündən baş götürüb gedirdim, yenə sənin toxmağına rast gəldim.

Uzaqdan İldırım və Mirzə Möhsün bunları görüb seyr edirlər.

M i r z ə  M ö h s ü n. Bu istibdad quyruğu yenə kimi vurur?

İ l d ı r ı m. Gözəl fürsətdir, qırqovul ovu olmasın, qaban ovu olsun! (*Nişan alıb vurmaq istəyir*)

M i r z ə  M ö h s ü n (*onu tutur*). İldırım! Nə edirsən?

İ l d ı r ı m. Bu bədbəxt kəndi bu qabanın zülmündən qurtarmaq istəyirəm. Bir də ki, öz intiqamımı...

M i r z ə  M ö h s ü n. Yox, dayan!

S ə f i  b ə y (*Rüstəmi vurur*). Al, bu da biri!

İ l d ı r ı m. Yazıq kəndlini, bax, necə mələdir. Heç olmasa, başı üstündən atım ki, qorxub qaçsın.

M i r z ə  M ö h s ü n. Belə olar.

Atəş açır, Səfi bəy qorxub ətrafa baxır. İldırım bir də atır. Səfi bəy qorxu içərisində, səndələyə-səndələyə səhnədən çıxır. Mirzə Möhsün və İldırım Rüstəmə yanaşırlar.

İ l d ı r ı m. Rüstəm əmi, sənsən? Bu qaban səni nə üçün yenə vururdu?

R ü s t ə m. Əlinə bəhanə düşmüşdü, ovunu qaçırmışdım.

M i r z ə  M ö h s ü n. Meşədə nə işin vardı ki?

R ü s t ə m. Baş götürüb Dağıstana gedirdim.

İ l d ı r ı m. Bu nə üçün?

R ü s t ə m. Bu zalımın zülmündən qurtarmaq üçün... A kişi, başımda tərs dəyirman işlədir. Keçən il mən başı daşlı bundan iyirmi manata topal bir yabı almışdım. On manat verdim, on manat da borclu qaldım. Dedi, tələsmə, nə vaxt pulun olsa verərsən. A başına dönüm, mən də inandım. Axırda o borcu şişirdib yüz altmış manata çıxardı. Evimi, eşiyimi satdırdı, qapımdan inəyimi, öz topal yabısını çəkib apardı... Bunlar bəs gəlmədi, indi də oğlumu borcun əvəzində işlədir... Doğrusu, bu zülmlərə tab gətirə bilmədim, baş götürüb gedirdim ki, yolda yenə də ona rast gəldim.

M i r z ə  M ö h s ü n. Bir kəsə şikayət etmədin?

İ l d ı r ı m. Şikayət haqq olan yerdə olar. (*Əlini havada oynadaraq*) Haqq isə budur: qolun güclüdür – haqlısan.

R ü s t ə m. Girmədiyim qapı qalmadı. Hər yerə baş soxdum, yasavullar, kazaklar tüfəng ilə döşümdən vurub çıxardılar... Neyləyim! İldırım haqlıdır.

İ l d ı r ı m (*Rüstəmin döşündən tutub hiddətlə çəkərək*). A kişi, topalsan, görmürsən, sənə bu qədər zülm olur, nə üçün susursan?

R ü s t ə m. Neyləyim, İldırım?

İ l d ı r ı m. Canına çor elə. Elə namərdləri başımıza çıxaran sənin kimi qorxaqlar, zülmə boyun əyənlərdir. Mərdlik insanlığın zinətidir. (*Acıqlı halda kənara çəkilir*)

R ü s t ə m. Nə edim, onu bacarmıram, qurdla qurdluq edə bilmirəm. Amma yaxşı dadıma çatdınız, yoxsa o dünyalıq olmuşdum.

İ l d ı r ı m. Əksinə, sənin xoşbəxtliyinə mane olduq. Ölsəydin, daha bəxtiyar olardın!

R ü s t ə m. Bu da doğrudur, amma yaşamaq da şirindir. Elə onun ucundan elimdən, obamdan didərgin düşürəm. Görək taleyim nə göstərir. Hələlik sağ olun. Balalarımı sizə tapşırıram.

M i r z ə  M ö h s ü n. Arxayın ol! Yaxşı yol!

Rüstəm gedir. İldırım bir müddət dinməz durur.

İ l d ı r ı m. Belə miskinlər də yaşamaq istəyir.

Mirzə Möhsün və İldırım getmək istərkən uzaqdan məhkəmə işçisinin, koxa və yasavulların gəldiyini görüb, ağac altında dayanırlar. Məhkəmə işçisi, koxa və yasavul lar Balaxanımın evi qarşısına gəlirlər.

K o x a. Bu evdir, bağı da dal tərəfdədir.

M ə h k ə m ə  i ş ç i s i. Bağ sahibini çağır gəlsin.

K o x a (*bağırır*). Ay ev yiyəsi... ay ev yiyəsi...

B a l a x a n ı m (*pilləkən başına çıxır*). Kimdir soruşan? Nə olub?

K o x a. Sud gəlib, bağı yazırlar, aşağı en!

B a l a x a n ı m. Nə üçün yazırlar?

K o x a. Fərzəlinin Səfi bəyə olan borcuna.

B a l a x a n ı m (*aşağı enir*). Fərzəlinin hansı borcuna? Onun Səfi bəyə borcu yoxdur.

K o x a. Sən deyirsən yoxdur, amma bu təməssük[1] deyir ki, var.

B a l a x a n ı m. Kişinin vəsiyyəti var. Borcu olsaydı yazdırardı.

İldırım və Mirzə Möhsün onlara doğru gəlirlər.

İ l d ı r ı m. Yenə nə var? Nə olub?

B a l a x a n ı m. Ay İldırım qardaş, evimi yıxırlar, ev-eşiyimi yazırlar...

İ l d ı r ı m. Nə deyib yazırlar?

M ə h k ə m ə  i ş ç i s i. Fərzəli üç yüz manat borc alıb; evi, bağı Səfi bəyin yanında girov qoyubdur. Vekseli var. (*Vekseli göstərir*)

B a l a x a n ı m. Yalandır, atam, onun evi yıxılsın. Fərzəlinin qırxı çıxmamışdı, mənə elçi göndərdi. Cavab verdim ki, mənim evimi, bağımı alırsa, o, yetimlərindir, mənim deyil. Əgər məni alırsa, arvadı Soltan xanım məndən də ağ-çağ, yumurta kimi arvaddır. İndi o acıqdır ki, məndən alır.

M ə h k ə m ə  i ş ç i s i. Bəs onda kənd mollası Səməd əfəndinin, koxanın və özünün qoluna nə deyirsən? Bu ki, yalan deyil?

B a l a x a n ı m. Nə yaxşı adamların qolu var. Fərzəli binəva, heç yazı-pozu bilirdi?

M i r z ə  M ö h s ü n. Bacım, bu vekseli saxta bilirsinizsə, şəhər məhkəməsinə şikayət edin.

---

[1] Veksel

K o x a. Müəllim Mirzə Möhsün də sənə vəkil olar.

İ l d ı r ı m. Bir şərtlə: ancaq sizlərin müttəhim olduğunuz gün hakim olmaq şərtilə... Ey koxa, bu arvada çox dolaşmayın ki, xeyir görməzsiniz.

K o xa. Biz heç kəsə dolaşmırıq, vəzifəmizdir.

M ə h k ə m ə i ş ç i s i. Üç günə kimi evi və bağı Səfi bəyə təslim verməlisiniz. Məhkəmənin qərarı belədir.

B a l a x a n ı m (*ağlayır*). Belə zülm olar! Mən bu yetimləri hara aparım...

İ l d ı r ı m. Sən buradan heç yerə getməyəcəksən! Bircə bu birbirinə hörümçək toru kimi bağlı tüfeylilərin nəslinə son qoya bilsəydim... (*Məhkəmə işçisi, koxa və yasavullar yavaşca aradan çıxırlar*) Nə edim, əlimdən nə gəlir... Bu qırılmışlar, müəllim demişkən, bir deyil, iki deyil ki, tumlarını kəsəsən.

Balaxanım hıçqıraraq ağlayır. Onun səsinə uşaqları gəlib başına yığılır, anaları ilə bərabər ağlamağa başlayırlar.

M i r z ə M ö h s ü n (*havada yumruğunu sıxaraq*). Ey qartalbaşlı zülm heykəli, sən istədiyin qədər yıx, dağıt! Əmin ol, o qanlı taxt-tacını məzlumların qəlbində yanan bu kin və intiqam ildırımı bir gün məhv edəcək.

P ə r d ə

## İKİNCİ PƏRDƏ

Səhnə Səfi bəyin evini təsvir edir. Küçə tərəfdən iki pəncərə və həyətə açılan böyük qapı. Həyət tərəfdə otaqların artırması. Ülkər pəncərədən küçəyə baxır. İldırım keçərkən onu görüb yanaşır.

İ l d ı r ı m. Kimi gözləyirsən?

Ü l k ə r (*utancaq bir əda ilə*). Hər an, hər dəqiqə gözlədiyimi.

İ l d ı r ı m. Elə isə mane olmayım. (*Getmək istəyir*)

Ü l k ə r. Yenidən gözlətmək üçünmü gedirsən?

İ l d ı r ı m. Mənimi gözləyirdin?

Ü l k ə r. Səncə, bəs kimi? (*Başını aşağı dikir*)

İ l d ı r ı m. Yerə nə üçün baxırsan? Yoxsa o gözləri məndən qısqanırsan?

Ü l k ə r. Səndən qısqandığım heç bir şey yoxdur.

İ l d ı r ı m. Ax, Ülkər, şeytandan mələk, divdən pəri doğduğunu heç görməmişdim.

Ü l k ə r. Pəri olduğumu nədən bilirsən?

İ l d ı r ı m. Onu mənə qəlbim söyləyir. (*Əlindəki çiçəyi bir söz söyləmədən Ülkərə verir. Ülkər alıb qoxulayır*)

Ü l k ə r. Qəlbin səni aldadır.

İ l d ı r ı m. O məni heç bir zaman aldatmayıb, dostunu, düşmənini çox gözəl tanıyır. (*Əllərini əlləri içinə alır*) Ax, o əllər yıxır, bu əllər tikir.

Ü l k ə r. Yıxan hansı əllərdir?

İ l d ı r ı m. Bu əlləri doğan əllər?

Ü l k ə r. Doğrudur, o əllər yalnız səni yıxa bilmir.

İ l d ı r ı m. Əvəzinə bütün xalqa divan tutur. Mən buna dözə bilmirəm, Ülkər! Mən bütün varlığımla ona bağlıyam, onunla nəfəs alıram. Bəs sən necə?

Ü l k ə r. Bunu nə üçün soruşursan?

İ l d ı r ı m. Bilmək istəyirəm.

Ü l k ə r. Bu aydın deyilmi? Bəs sən kimsən?

İ l d ı r ı m (*həyəcanlı*). Bu sözləri sənə kim öyrədir, Ülkər?

Ü l k ə r. Sənin gözlərindəki ildırım.

İ l d ı r ı m. Gözlərimdəki ildırım şimşəyi səndən alır... Demək, məqsədimiz birdir. Bəs o halda bu məzlumları əsirlikdən qurtarmaq istəmirsənmi?

Ü l k ə r. Ax... atamın əsirliyindənmi?

İ l d ı r ı m (*hiddətli*). Bəli, atanın, atan kimilərin əlinə qılınc verən Nikolay siyasəti, çar səltənətidir... Onu kökündən qoparıb atmaq lazımdır.

Ü l k ə r. Onu görüm, kor olsun, o heç yıxılan qüvvətdirmi?

İ l d ı r ı m. Əllərin əllərim içində olarsa, göyləri yerlərə yıxaram. Sən yalnız mənə söz ver!

Ü l k ə r. Bu lazımdırsa, verirəm.

İ l d ı r ı m. O halda and iç!

Ü l k ə r. Nəyə?

İ l d ı r ı m. Bu məzlum xalqın ayaqlanmış hüququna, əzilmiş mənliyinə!

Ü l k ə r. Hər üçünə and içirəm!

İ l d ı r ı m. Üçüncü nədir?

Ü l k ə r. Bir də İldırıma olan eşqimə!

İ l d ı r ı m. Ülkər, sənin bu hazırcavablığın ağlımı başımdan alır. (*Əlini alıb öpmək istəyir. Nəyi isə xatırlamış kimi birdən durur, Ülkərin əlini buraxır*) Səni görüncə hər şeyi unuduram...

Ü l k ə r. Sənə nə oldu? Yoxsa...

İ l d ı r ı m. Ah, Ülkər... Mən sənə nə anlatmağa gəlmişdim, nələr dedim.

Ü l k ə r. Allah xatirinə, söylə, söylə ki, ürəyimdəki bu şübhələr çıxsın, söylə!

İ l d ı r ı m (*ciddi*). Ülkər, bilirsən ki, mənim sənə olan eşqim köpüklü çaylar qədər coşqun, sahilsiz ümmanlar qədər genişdir. (*Ülkər əlindəki çiçəyi qoxulayır. İldırıma aşiqanə nəzərlərlə baxır*) Ancaq bizim dinc həyat qurmağımıza heç inana bilmirəm. Axı, mənim getdiyim yol çox qorxuludur. Mən ya zindanlarda çürüyəcəyəm, ya da günüm qaçaqlıqda, dağlarda, meşələrdə keçəcək. Sən isə mənim ucumdan gül kimi solub müsibətlər çəkəcəksən. Doğrusu, bunu mən istəmirəm.

Ü l k ə r (*əlindəki çiçəyi başıaşağı tutaraq, düşüncəli*). Anlayıram, demək, belə, ürəyindən keçənlər məlum oldu.

İ l d ı r ı m. İnan, Ülkər, mən bunları yalnız, yalnız sənin xoşbəxtliyin üçün istəyirəm. Sən bir başqasını sevsən, daha bəxtiyar olarsan.

Ü l k ə r. Sən bir başqasını sevib bəxtiyar olduğun kimi.

İ l d ı r ı m. Bilirəm nəyə işarə edirsən. Günəşə mən dostumun bacısı kimi hörmət bəsləyirəm. Ona qarşı ürəyimdə heç bir hiss yoxdur. Səni isə bizim kənddə xoşbəxt edəcək adamlar vardır.

Ü l k ə r. Yoxsa özünü əvəz edəcək adamı da tapmısan?

İ l d ı r ı m. Elədir ki, var. Ancaq onu mən tapmamışam, o səni tapıb.

Ü l k ə r. Eh, İldırım, bilirəm kimi deyirsən. Sən məhəbbətdə də öz mərdliyini, cəsarətini göstərmək istəyirsən. Ancaq bu baş tutan şey deyil. Sən öz dostuna məhəbbətini qurban vermək istəyirsən, eləmi? Bunu sən bəlkə bacararsan, qadın ürəyi bacarmaz. Ah, nə ağır təklif... (*Əlindəki çiçəyin son ləçəklərini qırıb yerə səpir*) Ey qəlbimdə açan təzə çiçəklər, siz də tökülün. (*Birdən hıçqıraraq ağlayır*)

İ l d ı r ı m. Onlar tökülsün, yerində daha təzə, daha şux çiçəklər açılsın. Qoy o çiçəklər inqilab bayramını bəzəmək üçün bir dəstə gülə çevrilsin.

Ü l k ə r (*ağlayır*). Demək, hər şey bitdi. O gözəl günlər bahar buludları kimi uçdu, getdi.

İ l d ı r ı m. Ülkər, Ülkər, ağlama, mən...

Soltan xanımın səsi eşidilir.

Ülkər, sağ ol, gələn var, mən getdim. Görüşə qədər. (*Gedir*)

Ü l k ə r. Görüşə qədər, heç nə anlamıram. Ey ömrümün əjdahaağızlı sirləri, dərdlərimi sən sil.

S o l t a n x an ı m (*gəlir, Ülkəri ağlayan görüb*). Qızım, niyə ağlayırsan?

Ü l k ə r. Heç...

S o l t a n x a n ı m. Necə heç... Yoxsa, yenə o gədənin tıspısıdır? Allaha and olsun, atan bilsə, ətini şişə çəkər. Bir o qalmışdı: rəiyyət, Səfi bəyin qızı! Eşidən nə deyər?

Ü l k ə r. Rəiyyət olanda nə olar? Mən onun bir tükünü yüz bəy oğluna dəyişmərəm.

S o l t a n x a n ı m (*bir qədər yumşalır, Ülkərə yaxınlaşır*). O da heç olmasa səni istəyirmi?

Ü l k ə r. Heç baş açmıram, ancaq...

S o l t a n x a n ı m. Yoxsa minnət qoyur? Burda deyiblər ki, qudurasan qurbağa, quruldayan yerində. Sənin kimi gözəl, mələk qıza ərmi tapılmır?

Ü l k ə r. Mən nə gözələm, nə də mələk.

S o l t a n x a n ı m. Bəs nəsən?

Ü l k ə r. Səfinin qızı Ülkərəm.

S o l t a n x a n ı m. Axmaq, Səfinin qızı olduğuna yoxsa peşmansan? Başqaları sənə həsəd edir.

Ü l k ə r. Mən onlara həsəd etdiyim kimi, hamı mənə nifrət edir.

S o l t a n x a n ı m. Sənə nə üçün nifrət etsinlər? Sən onlara nə pislik etmisən ki?

Ü l k ə r. Etmədiyimiz nə qaldı? Yıxmadığımız bir ev, uçurmadığımız bir yuvamı var?

S o l t a n x a n ı m. Qızım, bu fikirləri başından çıxar, bilirəm, bunları sənə o şeytan qılıqlı İldırım öyrədir.

Ü l k ə r. Şeytan deyil, vicdan adlı bir mələk. Burada İldırımın nə təqsiri var? Gözüm kor deyil ki... (*Səsini dəyişərək*) Ana, heç insafın yoxdurmu? O sandıqlar dolusu zinətlər, o anbar dolusu mis qablar kimindir? Dul arvadların, yetimlərin göz yaşları deyilmi? Atamın doğruluqla qazandığı bir şeymi var?

S o l t a n x a n ı m. Ay qızım, kişinin öz haqqıdır, alır. Bir də, tutaq ki, sən deyənlər doğrudur, atandır, neyləyək?

Ü l k ə r. Axı, o, nə üçün belə edir?

Səfi bəyin ayaq səsləri eşidilir.

S o l t a n x a n ı m. Sus, qızım, deyəsən, atan gəlir.

S ə f i b ə y. Rəcəb... Rəcəb... (*Rəcəb qozbel kimi ikiqat olub topalayaraq gəlir. Səfi onu başdan ayağa süzərək*) Yenə kirpi kimi nə büzülübsən? Nə üçün axsayırsan?

R ə c ə b. Çoxdan axsayıram, sınıqçıya göstərmişəm, deyir ki, sağalan şeyə oxşamır.

S ə f i b ə y. Ay tülkü, tənbəllikdən bilmir nə kələk qursun.

R ə c ə b. Yük daşımaqdan belim büküldü, topal oldum, yenə adım tənbəldir. Bir aydır ki, ayaqlarımın ağrısından nə gəzə bilirəm, nə də yata...

S ə f i b ə y. Yaxşı, çox zarıma. Get, Mürşüd kişini çağır gəlsin. (*Rəcəb gedir, əvvəlcə veksellləri, sonra qızılları, qadın zinətlərini birbir çıxarıb baxır, yenə sandığa qoyur. Bir qızıl boyunbağı götürüb Soltan xanıma göstərir*) Ay arvad, bax, nə gözəl boyunbağıdır. Bunu Ülkərə al!

S o l t a n x a n ı m. Mənim pulum hanı alım.

S ə f i b ə y. Dayısı alıb bağışlasın.

S o l t a n x a n ı m. Səninki azmı düşüb? Sən qızına bir boyunbağı qıymırsan, dayı qıyarmı?

Ü l k ə r. Mənə heç bir şey lazım deyil.

S ə f i b ə y (*boyunbağını havada iki əli ilə tutaraq*). Çıraq kimi yanır. Baxdıqca insanın gözləri işıqlanır.

Ü l k ə r. Onlar yalnız sənin gözlərini işıqlandıra bilər. Heç kafirə də qismət olmasın, yazıqdır.

S ə f i b ə y. Neçin?

Ü l k ə r. Onlarda o qədər göz var ki... hamısı yetim-yesirin qanlı göz yaşıdır.

S ə f i  b ə y. Nə zaman sənə verdim, alma!

Ü l k ə r. Sənin heç bir şeyin mənə lazım deyil!

F ə r r u x (*sürətlə daxil olur*). Ata, bu kənddə mən yaşaya bilməyəcəyəm. Burda savaşmadığım gün yoxdur. Bir gün ya məni öldürəcəklər, ya da bu kənddə bir qan edəcəyəm ki, hamı tamaşasına dursun.

S ə f i  b ə  y. Nə üçün savaşırsan?

F ə r r u x. Sənin ucundan... hər kəs bir söz deyir. Elə sözlər söyləyirlər ki, susmaq olmur, adam özündən çıxır.

S o l t a n  x a n ı m. Qoy söyləsinlər, sən heç fikir vermə.

F ə r r u x. Mümkün olmur, ana... Şəhərə köçməkdən başqa çarəm yoxdur.

S o l t a n  x a n ı m. Oğlum, bu işlərə qarışma, atandan söz açılanda, sən qalx, get.

F ə r r u x (*hiddətli*). Söz danışdı... Camaat lap qudurub, ipə-sapa sığmayır... Deyirlər ki, sizin ağalığınızın axırıdır.

S ə f i  b ə y. Qorxma, oğlum, düşmənin qabağından qaçma, tülkü kimi quyruq bulama. Onları itaətdə saxlamağa hələ gücümüz çoxdur.

Mürşüd gəlir.

S ə f i  b ə y (*Mürşüdü görüncə bağırır*). Bura gəl!

Ülkər, Fərrux və Soltan xanım gedirlər.

M ü  r ş ü d. Nə buyurursan, ağa?

S ə f i  b ə y. Bizim borcu nə üçün vermirsən?

M ü r ş ü d. Hansı borcu?

S ə f i  b ə y. On doqquz manatı!

M ü r ş ü d (*heyrətlə*). Hansı on doqquz manatı?

S ə f i  b ə y. Axmaq, öküz başını unutdunmu?

M ü r ş ü d. Öküz başı... ha...

S ə f i  b ə y. Ha...

M ü r ş ü d. Onu mən sizdən altı şahıya almışdım. Bugünkü kimi yadımdadır. Öküzün araba altında ölmüşdü. Ətini gədələrə satdırdın. Başını da altı şahıya mənə verdin.

S ə f i  b ə y (*cib dəftərçəsini çıxarıb baxır*). Altı şahıya satmışdım, doğru, indi altı aydır.

M ü r ş ü d. Altı şahı altı ayda necə on doqquz manat oldu?

S ə f i  b ə y. Sizin kimi heyvanlarla alış-veriş etməkdən pis şey yoxdur. (*Hesab çotkəsinə salır*) Altı şahı+altı şahı üç abbası – bir ayda.

Üç abbası+üç abbası – altı abbası iki ayda. Altı abbası+altı abbası – iki manat iki abbası üç ayda. İki manat iki abbası+iki manat iki abbası – dörd manat dörd abbası dörd ayda. Dörd manat dörd abbası+dörd manat dörd abbası – doqquz manat üç abbası beş ayda. Doqquz manat üç abbası+doqquz manat üç abbası – on doqquz manat bir abbası. Bir abbası da sənə qurban. Düz on doqquz manat eylər. Bu açıq hesabı da anlamaq istəmirsən!

M ü r ş ü d (*özünü şaşırıb barmaqları ilə hesablayır, başını titrədir*). Ağa, bu hesabdan mənim heç başım çıxmır.

S ə f i  b ə y. Çıxmaz, əlbəttə, çıxmaz!..

M ü r ş ü d. Ağa, başın üçün, mən elə bildim ki, o öküz başını mənə bağışladın. Kasıb kişisən, götür get, nə zaman olsa, verərsən, dedin.

S ə f i  b ə y. Axmaq, dədəmə ehsan verirdim? Pulu ver!

M ü r ş ü d. Aman, ağa, mənim pulum hanı? Olsaydı vaxtında altı şahını verərdim.

S ə f i  b ə y. O mənim işim deyil. On doqquz manatı gətir!

M ü r ş ü d. Yoxdan nə verim? Altı şahı – on doqquz manat, heç səndə insaf yoxdur?

Səsə yoldan ötən kəndlilər və İldırım gəlir. Mürşüd və kəndlilər İldırımı görüb Səfi bəylə bir qədər cəsarətlə danışırlar. İldırım çəkilib kənarda durur.

S ə f i  b ə y. Sus, axmaq. Kişi borcunu gülə-gülə alar, gülə-gülə də verər. Hamınız beləsiniz. (*Bir kağız göstərib*) Bura bir qol çək, sonra görüşərik.

M ü r ş ü d. Mənim yazı-pozum yoxdur. Olsa da çəkmərəm.

Səfi bəy. Mən çəkdirərəm. (*Üzünü kəndlilərə tutur*) Yaz gələndə ac quzğun kimi üstümü alıb, hamınız tülkü kimi quyruq bulayırsınız. Min hiylə qurub hərə bir şey istəyir, ilan dili çıxarır, yalvarır, yaxarır, ayaqlarıma döşənir. Payız gəlincə hamısı mənə düşmən kəsilir.

Q o c a  k ə n d l i. Sənə ki pislik etmirik?! Nə almışıq, on qat artığıyla vermişik. Bu kənddə bir çuvala on çuval, bir manata on manat verməyən adam yoxdur.

S ə f i  b ə y . Yoxdur!.. Onu məndən soruş.

Rüstəmin arvadı Nazlı gəlir.

C a v a n  k ə n d l i. Bizim mümkünümüz olsa nə üçün alırıq? Bir verirsən, on alırsan. Daha nə istəyirsən?

S ə f i  b ə y. Nankorlar! Yaxşılığım gözlərinizi tutsun. Gedin, bundan sonra dən yerinə sizə zəhirmar verərəm.

C a v a n  k ə n d l i. Siz yağ içində böyrək kimi bəslənirsiniz, bizim malımızı it, yaxamızı bit yeyir.

Q o c a  k ə n d l i. Ay bəy, bunlar bir şey ki demir. Yəni deyirlər ki, versən də alırsan.

Rəcəb görünür. Nazlı onu görüncə.

N a z l ı. Ax... Bir topal yabıya qurban olan balalarım!

Q o c a  k ə n d l i. Bəy, bax, biz belə işləri deyirik. Biz səndən haqq, ədalət istəyirik.

N a z l ı. Onu kimdən istəyirsən? Bundanmı? Kəfən oğrusundan insaf umursan?

S ə f i  b ə y. Sən sus, qarı. Yoxsa...

N a z l ı. Çox susdum... Dərdimi hər kəsə açdım. Döymədiyim qapı qalmadı. Mən indi qışqırmaq istəyirəm. Ver oğlumu, zalım, ver! Ətini yedin, qanını əmdin, sümüklərinidəmi gəmirmək istəyirsən?

Səfi bəy İldırımın həyəcanlandığını görərək bir qədər yumşalır. Hərdənbir gözaltı İldırımın nəzərdən keçirir.

S ə f i  b ə y. Ağlama, qarı. Sənin topal oğlun heç kəsə lazım deyil. Sabah Dursunu gətir, bunu apar.

N a z l ı. O topal idimi? Yük daşımaqdan beli bükülüb, ayaqları topal olub. İndi də gözünü Dursuna dikmisən? Onu görə bilməzsən, evini daşqalaq edərəm!

S ə f i  b ə y. Atalarının borcunu ödəməyincə, mənə qulluq edəcəklər.

Fərrux gəlib dinləyir.

C a v a n  k ə n d l i. Bəy ilə bostan əkənin tağı çiynində bitər!

N a z l ı. Hansı borcu? Topal yabının pulunumu? Onu iyirmi manata almışdıq. On manatını o zaman verdik. Qalan on manat əvəzinə qapımdan qızıl inəyimi aparmadınmı? O da borcunu ödəmədi. Evimi, eşiyimi satdırmadınmı? Bunlar bəs gəlmədi, indi də oğlanlarıma göz dikmisən? Bir qoyundan iki dəri soyulmaz...

S ə f i  b ə y. O mənim haqqımdır, istəyəcəyəm.

İ l d ı r ı m. Səfi bəy, belə olmaz, haqsızlığın da bir ölçüsü var! Bu qarının oğlunu ver getsin, onu bu qədər mələtmə!

S ə f i  b ə y. İldırım! Sən bir igid oğlansan, bizim ticarət işimizə qarışma!

İ l d ı r ı m (*həyəcanla*). Bu, ticarət deyil, quldurluqdur!

S ə f i  b ə y. Sən hələ uşaqsan, bu işləri qanmazsan!

İ l d ı r ı m. Sənin kimi yaşlı uşaqları qandırmağa daha çox ehtiyac var.

F ə r r u x (*irəli gəlib hiddətlə*). İldırım, sən cığırından çıxırsan.

İ l d ı r ı m. Şeytan yumurtası, sən sus!

F ə r r u x. Hər zaman bizi təhqir edirsən. Mən susmaq deyil, susdurmaq istəyirəm, al!

Tapançasını çıxarıb İldırımı vurmaq istəyir. Güllə Mürşüdə dəyir.

M ü r ş ü d. Ax... (*Ürəyini tutub yerə yıxılır*)

İ l d ı r ı m. Xəyanət toxumu, sən nə etdin? (*Fərruxu yaxalayıb əlindən tapançasını alır*) Bilmirsənmi sənin kimi qorxaqların gülləsi İldırıma dəyməz. Kələ-kölələr neylədi ki, kərtənkələlər neyləsin... Bu işi üstümə götürdüyüm üçün məzlumların qanını almaq mənə düşər. (*Fərruxu tapançanın dalı ilə vurur*)

F ə r r u x. Burax!

S ə f i  b ə y (*vəziyyətini pozmamağa çalışaraq*). İldırım, o da bir igiddir. Bu dəfə onu mənə bağışla!

İ l d ı r ı m. Qorxmayın, onu mən özüm öldürməyəcəyəm. Bir uşağın qanına əl bulamaq özü alçaqlıqdır. Sənə öz qanunlarınızla cəza verdirəcəyəm. Bu qanı, bunların qanını isə mən sizin hamınızdan alacağam, gedək!

Bu zaman Mürşüdün iniltisi eşidilir.

M ü r ş ü d. Uf... Ölürəm, su!..

İ l d ı r ı m. Ölməzsən, qorxma.

Rəcəb su gətirir. Mürşüd suyu alıb içir.

M ü r ş ü d. İldırım, uşaqlarım əmanəti.

(*Canını təslim edir*)

İ l d ı r ı m. Miskinlər üçün ölüm ən böyük səadətdir.

Bir neçə kəndli ilə Fərruxu qabağına salıb aparır.

P ə r d ə

## ÜÇÜNCÜ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Səhnə kənd hakimi Şükür bəyin evini təsvir edir. Şükür bəy həyət artırmasında Səfi b ə y ilə oturub şərab içir və nərd oynayır. Həyətdə yasavul Xuduş dustaqxanaya qarovul çəkir. Bir neçə kəndli dustaqxananın ətrafında dolaşır.

Ş ü k ü r b ə y. Müharibə başlayalı kəndlərdə bəzilərinin dili çox uzanıb. (*Zərləri atıb oynayır*)

S ə f i b ə y. Yaman uzanıb. Kəndli nəydi, bəyə söz qaytardı nəydi. Mirzə Möhsün ilə İldırım ki, lap ipdən, sapdan çıxıblar. Onların əlindən göz aça bilmirik. Sən də ki, adını hakim qoymusan, əlindən bir iş gəlmir. (*Zərləri atıb oynayır*)

Ş ü k ü r b ə y. Mən əlimdən gələni etmişəm. Bir neçə dəfə naçalnikin yanına gedib Mirzə Möhsünün bizə düşmən cəbhə açdığını, kəndliləri yoldan çıxardığını söyləmişəm. Cavabında bir dəfə mənə dedi ki, "Mən Mirzə Möhsün haqqında Bakı polis idarəsi rəisinə məlumat vermişəm. Mənə cavab verdilər ki, Mirzə Möhsünlə hələlik işiniz olmasın". Naçalnik sonra dedi ki: "Görünür müəllimin qardaşı İmrandan çəkinirlər. O, axı qubernator həzrətlərinin dəftərxanasında işləyir. Qubernatorun ona böyük etimadı var. Bu nə sirrdir, bilmirəm". Sonra gülə-gülə əlavə etdi: "Bəlkə o da bu dəstədəndir?" Fərruxu da didərgin salan o olmadımı? Gör necədir ki, qızıl da kara gəlmədi. On ilə kim ölə, kim qala. İldırım da ki, bu yandan. Elə Nikolay Petroviç doğru deyir, deyəsən, bunlarla əlbirdir.

S ə f i b ə y. Elə olsa, vay halımıza. (*Əlindəki zərləri atır*)

Ş ü k ü r b ə y. Zarafat ilə dedi. Ancaq gərək tədbirlə iş görək. (*Oyuna diqqət ilə baxaraq*) Sənə qızıl medal gətirtmək mənim üçün çətin iş deyildir, yazıq sənə ki, o maralgözlü, ceyranayaqlı kəhər atından ayrılacaqsan.

S ə f i b ə y. Kəhər atsız qızıl medalın nə ləzzəti. (*Oynayır*) Oyun mənimdir. Sən qələm, mürəkkəb hazırla.

Ş ü k ü r b ə y. Amma oynadın ha... Qızıl medalın şövqü ağlının işığını elə alıb ki, oyunu da unutmusan. (*Zəri atıb oynayır*)

S ə f i b ə y. Kəhər at sənin ağlının işığını aldığı kimi.

Ş ü k ü r b ə y. Mənim ağlımın işığını alan kəhər at deyil, başqa şeydir. (*Qədəhi qalxızıb başına çəkir, zəri atıb oynayır, çırtıq çala-çala oxuyur*)

Haralısan, haralı,
Qəlbim kimi yaralı,
Bir gözəl qız sevmişəm
Bu dağların maralı.

S ə f i b ə y. Sən keflisən, bəy?

Ş ü k ü r b ə y. Onun keflisiyəm.

S ə f i b ə y. O bir xəyaldır!

Ş ü k ü r b ə y. Sənin xəyal sandığın bir gün ulduz kimi sağımda, solumda parlayacaq. (*Zəri ata-ata*) Hətta sənin qızıl medalının işığı onun şəfəqləri yanında sönəcəkdir.

S ə f i b ə y. İnsan qızıl medalın işığından parlaq ola bilməz. Ağzında qızıl deyirsən, üstəlik bir medal da. Sən nə bilirsən qızıl nədir?

Ş ü k ü r b ə y. Kəhər atı, deyəsən, qazanıram, hərif, işin xarabdır. Sonra səninlə Ülkərdən oynayacağam.

S ə f i b ə y (*heyrət içində*). Hansı, hansı Ülkərdən?

Ş ü k ü r b ə y. Mənim taleyimin ülkərindən... Ülkərim də mənə kömək edir. Oyunu mən apardım.

S ə f i b ə y (*mütəəssir halda*). Elədir, əlim gətirmədi. Şükür bəy, borc olsun!

Ş ü k ü r b ə y (*bir qədəh qaldırıb içir*). Hünərin çatırsa, ikincini də başlayaq. Udsam, Ülkər mənim, sən aparsan, hər şeyə razıyam.

S ə f i b ə y (*hiddətlə*). Ülkər kimdir, bəy? Sən keflisən! Yoxsa...

Ş ü k ü r b ə y. Çoxdan sərxoşam...

Xuduş, arxada bir qazak daxil olur.

X u d u ş. Ağa, nəçərnikin qazağı sizi görmək istəyir.

Qazak əsgəri salam verdikdən sonra məktubu uzadır.

Q a z a k. Pristav cənabları, naçalnik Nikolay Petroviç həzrətləri sizə məktub göndərmişdir.

Ş ü k ü r b ə y. Çox yaxşı... Nikolay Petroviç həzrətlərinə mənim xüsusi salamımı yetir. Sonra de ki, hər əmrinə hazıram. Yazdıqları yerinə yetiriləcəkdir.

Q a z a k. Salamat qalın. (*Gedir*)

S ə f i b ə y. De görüm nə yazır?

Ş ü k ü r b ə y. Şənbə günü camaat ilə danışmaq üçün gəlmək istəyir. Görünür, aldığım təzə əmr haqqında tədbir tökməyə gəlir. Sizin kəndi müharibə qaçqınları və əlilləri üçün – ruslar üçün boşaltmaq istəyir.

S ə f i  b ə y. Vay, bu ki lap qara xəbər oldu. Hara köçürürlər?

Ş ü k ü r  b ə y. Hara istəsələr, ora! Bu haqda əmr var.

S ə f i  b ə y (*əllərini bir-birinə vuraraq*). Bəs mənim torpaqlarım, bağlarım nə olacaq?

Ş ü k ü r  b ə y. Sən də qorxursan? Sənə, mənə zaval yoxdur. Əvəzini alacaqsan, arxayın ol!

S ə f i  b ə y. Yaxşı yadıma düşdü, Balaxanımın bağı üçün məhkəməyə verdiyim ərizə üstümə qayıdıb, bu nə məsələdir?

Ş ü k ü r  b ə y. Mirzə Möhsünlə İldırımın işləridir. Görünür, məhkəmədə onların sübutlarına bata bilməyiblər. Bəy olduğuna görə məhkəmə də səni çağırmayıb, işi əncamsız qoyubdur.

S ə f i  b ə y. Bəs onda necə olsun? Bu işə ətək dolusu pul tökmüşəm. Yox, buna gərək bir əncam çəkəsən, yoxsa bağrım çatlar. Pul cəhənnəmə, camaat deyər ki, Səfi bəy bir lütün əlində aciz qaldı. Buna mən dözə bilmərəm. A kişi, bir ətək pul qoymuşam.

Ş ü k ü r  b ə y . Çox elə də güman eləmə. İndi o lüt dediklərinin arxası çox möhkəmlənib. Görmürsən Nikolay kimi padşah onların qorxusundan tük salır... Rəhmətliyin oğlu, belə şeylərə çox da bənd olma. Dünya beş gündür, kefini çək... gəl, gəl bir-iki rumka da ataq. (*Səfi bəyin qolundan çəkə-çəkə yan otağa aparır*)

Səhnənin həyət tərəfi canlanır

X u d u ş (*koxaya*). Ay üzüqara, yenə əliboş gəlmisən?

K o x a. Hər gün şaban, bir gün də ramazan. Həmişə əlidolu gəlmək olmaz ki...

X u d u ş. Ağlamaq sizə peşədir. Xalqın dərisini soyursunuz, bizə gələndə, yeddi dəsmal ilə ağlayırsız.

K o x a. Nə qədər soysaq, yağlı tikəsi yenə sizə düşür. (*Gülüşürlər*) Yeddi dəsmal ilə ağlayan da sizsiniz, ha veririk, doymaq bilmirsiniz.

Bir qarı dustaqxananın barmaqlığından bir dustaqla danışır. Xuduş bunu görüncə hücum edib qarını qırmancla vurur.

X u d u ş. Ey, çəkil!

Q a r ı. Bala, oğlumdur, danışmaq da olmaz?

X u d u ş. Olmaz!

Q a r ı. Neyçün tutubsunuz, onu bilmək istəyirəm.

X u d u ş. Bilərsən, tələsmə!

Q a r ı. Nə zaman? Bu gün bir həftədir ac-susuz, quru yerdə sürünür.

X u d u ş. İstəyir lap ölsün!

Q a r ı. Axı niyə? Günahı nədir?

C a v a n k ə n d l i. Günahı yoxsulluq. Bundan böyük günah?!

Q o c a k ə n d l i (*Xuduşa*). Bəy bu gün çölə çıxacaqmı?

X u d u ş. Mən bəy, nə işin var?

Q o c a k ə n d l i. Şikayətim var, dərdim var.

X u d u ş. Dərdin dağa-daşa, ona bəy neyləsin?

Q o c a k ə n d l i. Dərdi verən odur, dərmanını da ondan istəyirəm. İyirmi verst yol gəlmişəm, onu görməmiş getməyəcəyəm.

X u d u ş. Bəyin qonağı var.

Q a r ı. Oğul, bir həftədir gəlib-gedirəm, hər gün bəyin qonağı var, deyirsən.

C a v a n k ə n d l i. Kimə gedək, kimdən kömək istəyək? Şeytan da, heyvan da bunlardan rəhmlidir. On gündür gəlib-gedirəm, üzünü də görə bilmirəm.

X u d u ş. Öl qurtar.

C a v a n k ə n d l i. Ey! Sən ağzının ipini çək. Yoxsa, onu elə çəkərəm ki...

X u d u ş. Bay, yarma da coşarmış. (*Ona hücum edir*) Yaramaz!

C a v a n k ə n d l i (*qəməsini çəkir*). Yaxın gəl, yarmanın nə cür coşduğunu göstərim. (*Koxa onu tutmaq istəyir. Cavan kəndli qəməni oynadaraq*) Yaxın gəlməyin.

Q o c a k ə n d l i. Adamın dəlisini görəndə it kimi quyruqlarını gör necə böyürlərinə qısırlar.

Şükür bəy və Səfi bəy artırmaya çıxırlar.

Ş ü k ü r b ə y. Xuduş!..

X u d u ş. Nə buyurursan, ağa?

Ş ü k ü r b ə y. Mehtərə denən atları bayıra çəksin. Özün də xəbər verdir ki, bütün kəndlilər şənbə günü səhərdən meydançaya yığılsınlar. Naçalnikin onlara sözü var.

X u d u ş. Baş üstə, ağa. (*Gedir*)

S ə f i b ə y. Amma Xuduş da bir Xuduşdur, xalis əl tulası. İndi kəndlilərdən belə tapmazsan.

Ş ü k ü r b ə y. Olmasa da oldurarıq. Nikolay Petroviçin ağzı bir bunlara dəysin, görüm necə olmur. Allah onu bizim başımızın üstün-

dən əskik eləməsin. Mirzə Möhsünə də, İldırıma da elə onun əliylə bata biləcəyik.

S ə f i  b ə y. Doğru deyirsən, o kişidə qurd ürəyi var.

Ş ü k ü r  b ə y. Odur, atları çıxardırlar, gəl bir havamızı dəyişək. Kəndlərə dəyməliyəm, kəndlilər gərək sabah hamısı yığılsınlar.

Həyətə açılan qapıdan çıxırlar. Kəndlilər onları görən kimi əhatə edirlər.

Ş ü k ü r  b ə y. Yenə nə üçün yığılmısınız?

Q o c a  k ə n d l i. Uzaq kənddən gəlmişəm. Səni görmək istəyirəm, bəy.

Ş ü k ü r  b ə y. Bu gün vaxtım yoxdur, tələsirəm. (*Üzünü Səfi bəyə tutub*) Qoymazlar bir az rahatlanaq. Bayıra çıxmağa aman vermirlər.

C a v a n  k ə n d l i. O rahatlığı biz də istəyirik, bəy.

Ş ü k ü r  b ə y. Yaxşı, yaxşı, çox uzun müşərrəf eləməyin, sabah gələrsiz, danışarıq, gəl, gəl, atlar bizi gözləyir.

Kəndlilərin arasından saymazyana çıxıb gedirlər.

Q o c a  k ə n d l i. Bu da pənah gətirdiyimiz böyüklər. Bunların ağına da lənət, qarasına da.

C a v a n  k ə n d l i. Görmürsən burun-buruna verib nə xosunlaşırlar. Elə səni tora salanların başçısı bunlardır. Bunlarla gərək güclə, dəyənəklə, özlərinin bizə işlətdiyi güllə ilə danışasan.

P ə r d ə

## İKİNCİ ŞƏKİL

Kəndin kənarında geniş bir meydança. Kəndlilər yavaş-yavaş yığılırlar.

Q o c a  k ə n d l i. Bizi yenə niyə yığırlar? Xeyir olsun!

C a v a n  k ə n d l i. Bunlardan xeyir gözləmə, görəsən yenə nə oyunları var.

Mirzə Möhsün ilə İldırım danışa-danışa gəlir.

İ l d ı r ı m (*üzünü kəndlilərə tutaraq*). Nə qədər ki xalq öz hüququnu anlamayıb, bu ağalar başımızda bostan əkəcək. Zülm və istibdadı hər yerdə yaşadan bizim kimi miskinlərdir.

M i r z ə  M ö h s ü n. Bu doğrudur, ancaq torpağımız heç vaxt miskin oğullar yetişdirməmişdir. Onları miskin eyləyən əsrlərdən bəri gördükləri bəlalardan, çəkdikləri fəlakətlərdən almış olduqları təcrübədir. O indi susur, guruldamaq vaxtını yaxşı bildiyi üçün susur. Bu xalq iki şeyi heç bir zaman unutmaz: biri yaxşılıq, biri də yamanlıq.

İ l d ı r ı m. Eh... Bizlər nə görmədik?! Bundan daha müstəbid sultanları, daha zalım şahları başdan sovduq. İndi dinc və sakit görünən bu miskinlərin bir gün qızmış aslan kimi kükrədiyini, qasırğalı dəniz kimi sahilləri çeynədiyini görəcəksən. O zaman şairlərimiz bu xalqın qəhrəmanlıq şahnaməsini yazacaqlar.

Q o c a  k ə n d l i. Ağzına qurban olaq, doğru deyirsən, sənin hər sözün qızıldır.

İ l d ı r ı m. İnan, dostum, o zaman aslan kimi kükrəyənlər də miskinlik zəncirini parçalayan adamlar olacaqdır. Bu gün sənin fəhlən inləyir, kəndçin inləyir, ziyalıların inləyir. Onları inlədən çar istibdadının zülm toxmağıdır. İstibdad yuvaladığı yerdən ayrılmaq istəməz. Onu kökündən qırıb atmaq lazımdır. Susmaq – zalimlərə təslim olmaq deməkdir. Yaşamaq istəyənlər susmaz!

Q o c a  k ə n d l i. İldırım, xalqı ipindən, sapından çıxarma. Bunları sən hara aparırsan?

İ l d ı r ı m. İki yoldan birinə: ya namusla ölməyə, ya şərəflə yaşamağa.

Bir neçə kəndli gəlir.

1-c i  k ə n d l i. Kənddə adam qalmadı. Koxalar, əllərində qamçı, hamını bura gəlməyə məcbur edirlər.

2-c i  k ə n d l i. Qonşumuz Neman bir həftədir qızdırmadan gözlərini aça bilmir. "Mən naxoşam, – dedi, – gələ bilməyəcəyəm". Koxa şallaq ilə yazığın dərisini soydu. Çoluq-çocuğu qoyun kimi mələşirdi.

İ l d ı r ı m. Mələmək – zəiflərin üsyanıdır.

C a v a n  k ə n d l i. Qurd sürüyə daraşanda qoyunlar mələşir.

Koxa, əlində qırmanc, bir neçə kəndli ilə gəlir.

1-c i  k ə n d l i. Quyruqların quyruğu görək nə xəbərlə gəlir.

K o x a. Naçalnik indicə gələcək. Sizə sözü var.

Q ə l ə b ə l i k d ə n  b i r  n ə f ə r (*istehza ilə*). Bəlkə o sözü sən bizə deyəsən?

K o x a. Mənim bildiyim şey deyil. Ancaq-ancaq əmr quluyuq.

C a v a n k ə n d l i. Şərəfsiz, ondan başqa heç nəyə yaramazsınız.

K o x a. O kim idi?

C a v a n k ə n d l i. Səs o tərəfdən gəldi.

2-c i k ə n d l i. Yox, bu tərəfdən gəldi.

K o x a (*farağat vəziyyəti alaraq*). Ağalar gəlir, sakit olun!

Şükür bəy, Səfi bəy, ortalıqda qəza hakimi Nikolay Petroviç, arxada iki qazak, iki yasavul gəlir. Camaat baş əyir.

Q o c a k ə n d l i. Xoş gəlmisiniz, nəçərnik!

N i k o l a y P e t r o v i ç (*ciddi görkəm alaraq*). Mənim əmrlərimi, şübhəsiz, Şükür bəy sizə yetirir. (*Şükür bəy təzim edir*) Əlahəzrət imperator sizin üçün əlindən gələni əsirgəmir. Ancaq siz də gərək onun iradəsinə əks olmayasınız. Verdiyim əmrlərə, görürəm, soyuq baxırsınız. Bu gün hər yerdə qanlı vuruşmalar gedir. Cəbhələrdə bir neçə milyon əsgər vuruşur. Hökumətimizin belə çətin vaxtında maddi və mənəvi kömək lazımdır. Halbuki vergilər vaxtlı-vaxtında verilmir. Orduya lazım olan at, ot, saman verilmir. Qaçaqlıq, quldurluq gündən-günə artır.

Q o c a k ə n d l i. Nəçərnik, bu ilin vergisini biz vermişik.

N i k o l a y P e t r o v i ç. Hələ o gün verdiyim əmrə, Şükür bəy deyir ki, razılıq verməyənlər var. Şəhər cəbhələrdən gəlmiş yaralılarla, qaçqınlarla doludur. Hökumətin göstərişi ilə onları qəzalara, kəndlərə yerləşdirmək lazımdır. Bu, əlahəzrət imperatorun əmridir. Ona tabe olmayanlar üsyankar hesab olunacaq, cəzası da edamdır. Onu bilin ki, hökumətimizə boyun əymək istəməyən məğrur başları əymək üçün kifayət qədər süngümüz var. Əmr aldığınız halda indiyə qədər kəndi boşaltmamanıza səbəb nədir? Ən əvvəl bunu bilmək istəyirəm, cavab verin! (*Hamı susur*) Cavab verin! Qarşımda susmaqdan nə çıxar? Bu mənə bir şey anlatmır.

C a v a n k ə n d l i. Əmrinizdən xəbər tutalı kənd dəniz kimi çalxalanır. Ancaq ata-babadan bu yerlərə öyrənmiş xalq yurdundan ayrılmaq istəmir. Evi, eşiyi, bağı, bostanı var, necə ayrılsın?

N i k o l a y P e t r o v i ç. Biz ayırarıq, vəhşilər... Sizin yurdunuz, yuvanız var? Sizlər, rəiyyət əlahəzrət imperatorun hər arzusunun quludur, bunu hələ bilmirsiniz? Bu qoçağı yaxalayın. Tez götürün, gözüm görməsin. Qoy bilsin ki, hökumətə ağ olmaq nə deməkdir!

Q o c a  k ə n d l i. Sizin əmrinizə bizim heç bir sözümüz yoxdur, itaət borcumuzdur. Ancaq yer göstərin, hara köçək?

N i k o l a y  P e t r o v i ç. Hara köçəcəyinizi, yəqin ki, Şükür bəy sizə söyləmişdir. Mən də təkrar söyləyirəm, hər kəs hara istəyir köçsün. Bu xüsusda sizə tam sərbəstlik verilir.

B i r  k ə n d l i. Bu işdə padşahımız bizə kömək etməyəcəkmi?

M i r z ə  M ö h s ü n. Quyruqlar yavaş-yavaş işə qarışır.

N i k o l a y  P e t r o v i ç. Bu haqda sizə qəti bir söz deyə bilmərəm, hökumətin yardım etməsi üçün mümkün qədər mən də çalışıram.

B i r  k ə n d l i. Çox təvəqqə edirik.

N i k o l a y  P e t r o v i ç. Çox yaxşı, bu bütün kəndinmi fikridir? (*Sükut*) Köçməyə razı olanlar sağ tərəfə keçsinlər. Razı olmayanlar yerlərində qalsınlar. (*Üç-dörd kəndli keçir, bir neçəsi tərəddüd edir*)

İ l d ı r ı m. Tülküyə bax, kənddəki üsyançıları öyrənmək istəyir.

N i k o l a y  P e t r o v i ç (*əllərini bığlarına aparıb düşünür*). Hə... demək, cəmi üç-dörd nəfər. Çox yaxşı... (*Üzünü itaət göstərməyən kəndlilərə tutaraq*) Bəs siz niyə köçmək istəmirsiniz?

Q o c a  k ə n d l i (*İldırıma*). Niyə dinmirsən? Guruldasana!

İ l d ı r ı m. Sən sus. Mən guruldayacağım zamanı bilirəm.

N i k o l a y  P e t r o v i ç eşitməməzliyə vurur.
Ş ü k ü r  b ə y,  S ə f i  b ə y yerlərində hərəkətə gəlirlər.

N i k o l a y  P e t r ov i ç. Hə, niyə dinmirsiniz? Yoxsa...

1-c i  k ə n d l i. Dinirik cəza, dinmirik cəza. Bizim sözümüz bəllidir.

N i k o l a y  P e t r o v i ç. Bilirəm, hamısını bilirəm. İçinizdə sizə dil verənləri də bir-bir tanıyıram. Fikrinizi çox yaxşı bilirəm. Ancaq... (*Özünü itirir*)

2-c i  k ə n d l i. Bilirsiz, daha niyə soruşursunuz?

N i k o l a y  P e t r o v i ç (*əsəbi halda*). Şükür bəy, bu nədir? Bütün qəbahət səndədir. Bunların arpasını çox vermisən, qudurublar.

1-c i  k ə n d l i. Bizə yeyəcək arpa qalmır. Əlimizə düşəni sizə veririk.

N i k o l a y  P e t r o v i ç (*yasavullara*). Tutun bu gədəni. Tez-tez... Bu hərif məni lap sarsıtdı... Məni heyvan etdi... Yaxalayın onu.

Yasavullar onu tutmaq istəyirlər. İ l d ı r ı m kömək etmək üçün tərpənir, müəllim yavaşca qolundan tutub saxlayır. Kəndlini tutub gətirirlər.

Ş ü k ü r  b ə y. A gədə, apar onu dama qat!

Y a s a v u l. Baş üstə, ağa.

Yasavullar kəndlinin arxalığının boğazından tutub çəkirlər

N i k o l a y  P e t r o v i ç. Biz onları itaətə öyrədərik. (*Kəndlilərə*) Demək, razılıq vermirsiniz? O halda sabahdan süngü gücü ilə sizi buradan çıxarmalı olacağıq.

K ə n d l i l ə r d ə n  b i r i. Biz heç yerə köçməyəcəyik. Lazım gəlsə, biz də topal deyilik.

N i k o l a y  P e t r o v i ç. Şükür bəy. Bunlardan üsyan qoxusu gəlir. Onlara bu fikri verən yoxsa sənsən?

Ş ü k ü r  b ə y. Naçalnik həzrətləri, heç bu ağlasığan şeydirmi? Mən nə üçün...

N i k o l a y  P e t r o v i ç. Bəs kimdir?

Ş ü k ü r  b ə y. Sizə dediyim adamlar.

S ə f i  b ə y (*yırğalana-yırğalana*). Ha, ha... Fitnə törədən bunlardır...

2-c i  k ə n d l i. Bir o Səfiyə baxın, yekə qarnını yırğalaya-yırğalaya görəsən nə mızıldayır. (*Gülüşmə*)

N i k o l a y  P e t r o v i ç (*Şükür bəyə*). Sən vəzifəndə möhkəm deyilsən. Sənin kimi adamlara maaş vermək, rütbə vermək, nişan vermək nə üçündür? Üsyançı yetişdirmək üçün?

Ş ü k ü r  b ə y. Mən üsyançı deyiləm ki, üsyançı yetişdirəm.

N i k o l a y  P e t r o v i ç. Bilirəm, baxsana, bunların ağzı hələ söz tutur. Hökumətin əmrindən boyun qaçırır, bunlar nədəndir? Sənin zəifliyindən deyilmi? Baxsana, bunlar bizimlə əylənir.

Ş ü k ü r  b ə y. Naçalnik həzrətləri, vermədiyim cəza qalmayıb... Əmrinizi yerinə yetirmək istədiyim zaman, gecələr də gözlərimə yuxu getmir. Vəzifəmi yerinə yetirməkdə qüsurum olmayıbdır.

N i k o l a y  P e t r o v i ç. Bəs bu üsyankarlığa səbəb nədir?

M i r z ə  M ö h s ü n. Bu vaxta qədər onu bilməyirsinizmi?

N i k o l a y  P e t r o v i ç. Səndən söz öyrənəcək qədər cahil deyilik.

M i r z ə  M ö h s ü n. Madamki bilirsiniz, daha nə üçün soruşursunuz?

N i k o l a y  P e t r o v i ç. Sizin kimi cahilləri susdurmaq üçün!

M i r z ə  M ö h s ü n. İstədiyiniz qədər susdurun, yanar atəş üzərinə su səpməklə sönməz!

N i k o l a y  P e t r o v i ç. Atəş səpsək, yenədəmi sönməz?

İ l d ı r ı m. Yox, daha da çox şölələnər!

N i k o l a y  P e t r o v i ç. Yoxsa, üsyan atəşini bunlara aşılayan sənsən?

M i r z ə  M ö h s ü n. Biz deyilik, siz özünüzsünüz!

N i k o l a y  P e t r o v i ç. Bu çox qəribədir.

M i r z ə  M ö h s ü n. Qəribəliyi yoxdur. Bu qədər təzyiq, bu qədər təhqir, bu qədər haqsızlıq "üsyan et" demək deyilmi? Üç min illik tarixi, mədəniyyəti olan bir xalq ilə əylənirsiniz. Sizin ən böyük səhviniz bu xalqı tanımamağınızdır. Siz onların ağlını, şüurunu, idrakını, mühakiməsini başlarındakı iri tüklü papaqları və sizə yabançı görünən qiyafələrilə ölçürsünüz. Bunda çox yanılırsınız. Onlar hər şeyi incədən-incəyə tədqiq edər, qılı qıldan seçər, hər məsələ, hər siyasəti duyar, anlar, lakin susar. Təzyiq son dərəcəyə çatınca nə edəcəyini çox yaxşı bilər. Rəhbərə ehtiyac hiss etməz. Bu təzyiq rəhbər deyilmi? İndi xalqda üsyan fikrini oyadan səbəbi bildinizmi?

C a m a a t. Sağ ol, Möhsün!..

N i k o l a y  P e t r o v i ç. Sən böyük natiqsənmiş. (*İstehza ilə ona baxaraq*) Kim olursa-olsun, bizi heç bir şey qorxuda bilməz. Hər cür üsyanı yatırmağa gücümüz çatar. Əlahəzrət imperatorun qəhrəman ordularının süngüləri bu dağlarda parladığı zaman hesablaşarıq. Sizin qərarınıza qarşı hökumətin qərarı belədir. Yaxın günlərdə görüşərik. (*Getmək istəyir*)

İ l d ı r ı m (*irəli yeriyərək*). Naçalnik, getməyə tələsməyin, camaat tələb edir ki, tutduğunuz kəndlini azad edəsiniz.

N i k o l a y  P e t r o v i ç. Həbsə alınan istintaqsız azad edilə bilməz.

C a m a a t. Azad olunmalıdır!

İ l d ı r ı m. Naçalnik, qazaklarına, yasavullarına güvənmə, camaatın tələbinə əməl et! Yoxsa...

N i k o l a y  P e t r o v i ç. Yoxsa neylərsən?

İ l d ı r ı m. Yoxsa hər üçünüzün leşini yerə sərərəm.

N i k o l a y  P e t r o v i ç. Bay, bunların hamısı quldur imiş! Tez, tez, tutun onu!

Yasavullar onu tutmaq istəyirlər. İldırım tapançasını çıxaranda çəkilirlər. Nişan alıb naçalniki vurur. O yıxılır. Qarışıqlıq düşür.

İ l d ı r ı m. Sənin əsil mükafatın budur!

M i r z ə  M ö h s ü n. İldırım, sən nə etdin?
İ l d ı r ı m. Zalimlərdən birini gəbərtdim!
C a m a a t. İldırım, qaç, çətin ayaqda qaçmaq da igidlikdəndir.

İldırım qaçır. İki yasavul və qazaklar onun dalınca yüyürürlər. İldırım tapançadan atəş aça-aça qaçır. Yasavullardan biri yıxılır. Camaat həyəcan içində

2-c i  k ə n d l i. Vura bilmədilər.
C a m a a t. Qaçıb qurtardı.

P ə r d ə

## DÖRDÜNCÜ PƏRDƏ

Bir neçə il keçmişdir. Dörd tərəfdən ağaclarla əhatə edilmiş yaşıl bir tala. Mirzə Möhsün, Rizvan (şəhərdən gəlmiş inqilabçı), Qurban, Qasım, Kərim oturub söhbət edirlər. Silahlı kəndlilər ətrafda dincəlirlər.

M i r z ə  M ö h s ü n (*Rizvana*). Axır zamanlar sizinlə əlaqəmiz zəifləyib... Şəhərdə vəziyyət necədir?

R i z v a n. İşlərimiz yaxşıdır. Bakı Komitəsi Rusiya bolşevikləri-lə möhkəm əlaqə saxlayır. Bütün xalq ayağa qalxmışdır. Cəbhələrdə vuruşan ordu və dənizçilər içərisində də iğtişaş var. Biz də gərək ayıq olaq. Bu saat hər dəqiqənin bir hökmü var.

Q a s ı m. Səni xoşxəbər olasan. Demək, ağ günlərimiz yaxınlaşır.

R i z v a n. Mirzə Möhsün, bəs sizin işləriniz necədir? Kəndlərdə firqəmizə rəğbət artırmı?

M i r z ə  M ö h s ü n. Hələlik pis deyil. İldırımın başçılıq etdiyi dəstə gündən-günə böyüyür. Onların bəzisi bizim üzvlərimizdir... Ancaq hələ Səfi bəylərə inanan, padşahın ədalətinə qısılan kəndlilərimiz də az deyil. Onlarla iş aparmaq lazımdır. Mən özüm tez-tez kəndlilərin arasında oluram. Dəstəmiz də, gördüyün kimi, böyükdür. İstəsək daxildəki kəndlilərlə birlikdə Şükür bəyi bir gündə aşırrıq. Amma mənasız bir iş olar, sizi gözləyirik, sizi. Bir hərəkət edin, görün analarımız necə oğullar doğub.

R i z v a n. Kənddə silahlı qazaklar çoxdurmu?

M i r z ə  M ö h s ü n. Çoxdur. Nikolay Petroviçin yerinə gələn təzə qəza hakimi çox hiyləgər və qəddar adamdır. Əlinə keçən üsyançı-

nı öldürür, kəndlilərə divan tutur. Dörd tərəfini də qazakla doldurubdur. Hökumət kəndlərdəki asayişə böyük fikir verir.

R i z v a n. Odur ki, tədbirlə iş görmək lazımdır. Tək əldən səs çıxmaz. Tərəfdarlarınızın sayını artırmalısınız. Şəhərdə inqilab başlananda, siz də burada bu zalimlərlə haqq-hesab çəkə bilərsiniz.

Q u r b a n. Görünür elə buna görə axır zamanlar Şükür bəynən Səfi bəy qorxudan mövic olub, girməyə birə qabı axtarırlar.

Q a s ı m. Hələ İldırımın adı gələndə gözləri kəllələrinə çıxır.

K ə r i m. Lap düz deyir. Hər gün məndən soruşur ki: “İldırımdan nə xəbər var?” Deyirəm nə bilim, ay bəy, görəsən qaçıb hara gedib. Deyir: “Yox, bilirəm, o, müəllimdən ayrı durmaz”.

Uzaqdan atəş səsi eşidilir.

M i r z ə  M ö h s ü n. Bu nədir?

Q u r b a n. Özümüzünkülərdir, növbətçiləri yoxlayırlar.

M i r z ə  M ö h s ü n. Bu Rəşid də gəlib çıxsaydı, arxayın olardıq.

Atəş səsi eşidilir.

Q u r b a n. Yox, bu deyəsən ayrı şeyə oxşadı, gedim bu saat xəbər gətirim.

Bir qədər sonra, başda İldırım olmaqla Rəşid, Qurban və bir-iki silahlı kəndli daxil olur. Rəşid kəndli paltarında, ayaqlarında çarıq, başında kəndli papağı, eşşəyin cilovundan tutub çəkir. Eşşəyin üstündə içi tapança və güllə ilə dolu aşırma böyük xurcun.

İ l d ı r ı m. Salam, eloğluları! (*Rəşidi göstərib*) Kişi yığıncağa belə gələr, bax. Başına şapka qoyan Rəşid bir gör özünü nə şəklə salıb? (*Gülürlər*)

R ə ş i d. Salam, dostlar! (*Hamı ilə görüşür*) Sizə bakılı qardaşlarınızdan salam gətirmişəm.

H a m ı. Sağ olsunlar!

R ə ş i d. Doğrusu, bu İldırıma lap heyranam, məni elə gətirdi ki, ruhum da incimədi.

İ l d ı r ı m. Ay Rəşid, sən də məni utandırma. Burada nə iş var ki...

R ə ş i d. Rizvan gələndən sonra şəhərdə elə təzə bir xəbər yoxdur... Az-çox nə var, bu qəzetlərdə yazılıb. (*Qoltuğundan bir-iki qəzet çıxarıb verir*)

M i r z ə  M ö h s ü n (*qəzeti oxuya-oxuya*). Demək, yoldaşlar möhkəm işləyirlər.

B i r  k ə n d l i. Bizə, bax, bundan danış.

Rəşid köynəyini soyunur, arxasına tikdiyi məktubu müəllimə verir.

2-c i  k ə n d l i. Əə... Bu şəhərlilər nə bic olur. Kağızı bir bax harasına tikib, heç şeytanın da fikrinə gəlməz.

Q a s ı m. Mən müəllimdən şəhərə kağız aparanda patavamın içinə tikərdim.

M i r z ə  M ö h s ü n (*məktubu oxuya-oxuya*). Görürsünüz, bizim işimizlə maraqlanırlar. Yazırlar ki, İldırımın qüvvəsinə böyük ümidimiz var. Ancaq təkbaşına hərəkət etməsin.

İ l d ı r ı m. Doğrudur, şəhərsiz bir iş görə bilmərik.

M i r z ə  M ö h s ü n. Bəs onda bir bəy orda, bir yasavul burda qırmaqdan niyə əl çəkmirsən?

İ l d ı r ı m. Doğrusu, onlardan hər birini aşırdıqca elə bilirəm ürəyimdən bir tikan çıxır. Görürsən ki, bu xasiyyətlərimi də yavaş-yavaş sizin köməkliyinizlə tərgidirəm.

R ə ş i d. İldırım, sən elin igid oğlusan. Bunu birdəfəlik bil ki, yandıran şimşək olsan da, təkbaşına heç bir iş görə bilməyəcəksən. Bir Şükür bəylə, bir Səfi bəylə iş bitməz, minlərcə şükürlər, səfilər var, onlardan daha qorxunc canavarlar var. Zülmü kökündən qazıb atmaq lazımdır. Bunu etmək, xalqı qurtarmaq üçün yalnız bir yol var...

R i z v a n (*onun sözünü kəsərək*). İldırım ha çabalasa, bizdən uzaq düşə bilməyəcək. O, elindir, demək, bizimdir!

İ l d ı r ı m. Dostlar, doğrusu, lap yorulmuşam. Gəlin, yığıncağınızı bir az təxirə salın. Mənim bu igidlərim sizə bir kef versin, ha, nə deyirsiz?

H a m ı. Bu lap yerinə düşər.

Q u r b a n. Qoy bu şəhərli dostlarımız bizim də hünərimizi görsünlər.

İ l d ı r ı m. Ə, Qasım, o düzəltdiyin yallını bir gedin.

Musiqi çalınır. Kəndlilər məzlumların gücünü, qüdrətini nümayiş etdirən yallı gedirlər.

R i z v a n (*Rəşidə*). Ay maştağalı balası, öz aramızdır, belə şeyləri sən görməmisən.

R ə ş i d. Doğrusu, bu elin hələ bilmədiyimiz çox şeyləri var.

İ l d ı r ı m. İndi də Qurban sizə təzə yazdığı qoşmasını oxusun.

H a m ı. Oxusun! Oxusun!

Q u r b a n. Ancaq bilin ki, qoşmanın oyan-bu yanına müəllim bir balaca əl gəzdirib.

(*Gülürlər. Qurban saz alıb oynaya-oynaya oxuyur*)

A dostlar, yurdumu, mələdir yağı,
Sızlayır dəzgahı, tarlası, bağı.
Dərd alıb çölləri, dərəni, dağı;
Ey ağır ellərin igid yatağı,
Səni bu zülmdən qurtaran yoxmu?
O xəstə halını bir soran yoxmu?

Ey oğul doğuran namuslu ana,
Səndəmi zülmdən gəlmisən cana?
Sarılıq çökmüş o gül yanağına,
Ürəyin dönmüşdür bir kasa qana,
Bu aslan yurdunda qəhrəman yoxmu?
Səni bu zülmdən qurtaran yoxmu?

Hakimlər üst-üstdən vurur hey yara.
Bəylərlə varlılar dönmüş quldura.
Namuslu oğullar çəkilir dara.
Analar, gəlinlər geyinmiş qara.
Bu aslan yurdunda qəhrəman yoxmu?
Elini bu dardan qurtaran yoxmu?

Q a s ı m (*hiddətlə*). Kim deyir yoxdur? Bəs biz nəyik?

K ə r i m. Biz ölməmişik ki!..

1-c i k ə n d l i. Bu eldə qorxaq oğul tanımıram.

M i r z ə M ö h s ü n. Doğrudur, buna inanıram. Ancaq bu igidlər arasında birlik olmayınca, bu dardan qurtarmaq olmaz.

İ l d ı r ı m. Sözümüz yoxdur, onu da siz yaradın.

Növbətçi kəndli ilə Ülkər gəlir.

N ö v b ə t ç i. İldırım, səni Səfi bəyin qızı görmək istəyir.

İ l d ı r ı m. Vay, Ülkər, sənsən?

K ə r i m. Kim?

İ l d ı r ı m. Heç, siz işinizdə olun, indi gəlirəm. (*Ülkərə*) Ay qız, bura nə üçün gəldin?

Ü l k ə r. Xəbərə gəldim. Sənin dəstənin burda olduğunu Şükür bəyə xəbər veriblər. Onlar bərk hazırlıq görüblər. Bu gecə saat 2-də Sarı qaya tərəfdən 200 əsgər ilə hücuma keçəcəklər.

İ l d ı r ı m. Bəs bunları sən necə öyrəndin?

Ü l k ə r. Atam ilə Şükür bəy danışanda eşitdim. Bərk təşvişdədirlər. Qəza hakimi də onlara çox kömək edir. Sizinkilərdən kimsə xaindir. Burada nə olur, onlar hamısından xəbər tuturlar. Deyirlər ki, siz şəhərdən kömək alırsınız.

İ l d ı r ı m. Hı... Bəs belə... hə, Ülkər, sən çox sağ ol. Verdiyin xəbər üçün minnətdaram.

Ü l k ə r. Sən də sağ ol, İldırım, mən tez qayıtmalıyam.

İ l d ı r ı m. Yox, hələ getmə, Ülkər, qoy bir doyunca, doyunca sənə baxım. Axı biz çoxdandır görüşmürük.

Ülkərə yaxınlaşıb məhəbbətlə gözlərinə baxır

Ü l k ə r. İldırım, mən getməliyəm.

İ l d ı r ı m. Tələsirsənsə get, mənim qəhrəman gözəlim. Ancaq gələcəyəm, lap evinizə gələcəyəm, gözlə. (*Növbətçiyə*) Apar onu yola sal. (*Ülkər gedir*) Elə atadan belə qız. Dostlar, düşmən başımızın üstünü alır, üç-dörd saatdan sonra Şükür bəy 200 nəfərlik qazakla üstümüzə hücum edəcək, fikriniz nədir?

K ə r i m. Bu xəbəri sənə kim dedi? Bəlkə yalandır?

2-c i k ə n d l i. Görünür bu da bir hiylədir. Yoxsa bəy qızına...

Q u r b a n. O elə qız deyil.

M i r z ə M ö h s ü n. Hücum hansı tərəfdən olacaq?

İ l d ı r ı m. Sarı qayadan, heç gözləmədiyimiz tərəfdən.

K ə r i m. Bəs tədbiriniz nədir? Vuruşmaqdan başqa nə çarəniz var?

M i r z ə M ö h s ü n. Vuruşmaqdan qabaq içimizdəki xaini üzə çıxarmaq lazımdır.

K ə r i m. Hələ onun vaxtı deyil, bu tələdən qurtarmaq üçün bir çarə...

İ l d ı r ı m. Lap vaxtıdır. Axı dörd-beş gündə mən cəmi bir neçə nəfərə kəndə getməyə icazə vermişəm. Bura gəldiyimiz iki gündür.

Bu günlərdə kəndə gedənlərdən Möhsün müəllim, Qurban, Qasım, bir də Kərim olub. Möhsün müəllimə heç kəsin şəkki ola bilməz. Qaldı üç nəfər. Yaxşısı budur ki, təqsirkar özü boynuna alsın. Yoxsa... yoxsa sonra yaxşı olmayacaq.

Q u r b a n. Mən təzə yerimizi müəllimə deməyə getmişdim. Onu da götürüb birbaş bura gəldim.

Q a s ı m. Məni də İldırım özü göndərdi. Azuqə üçün getmişdim.

İ l d ı r ı m. Bəs Kərim? Sən nə üçün getmişdin?

K ə r i m. Mən... mən evdən nigaran idim. Uşağı xəstə qoyub gəlmişdim...

İ l d ı r ı m. Gedəndə axı mənə başqa şey dedin. Dedin ki, bacıqızı ölüb, onu basdırmağa gedirəm.

2-c i k ə n d l i. Bacısı qızının öldüyünü o haradan bilirdi?

2-c i k ə n d l i. O ki, burada idi.

Q u r b a n. Müəllimnən kənddən gələndə eşitdik. Mən də gəlib Kərimə dedim.

İ l d ı r ı m. Yaxşı, aydındır, bir balaca da olsa, aydındır. İndi tədbiriniz nədir?

M i r z ə M ö h s ü n. Yerimizi dəyişmək.

R ə ş i d. Doğrudur, hələlik vuruşmağın heç bir mənası yoxdur, yerimizi dəyişməliyik.

İ l d ı r ı m (*Qurbanı kənara çəkərək*). Sən Kərimdən göz-qulaq ol. Mən ondan şübhələnirəm. (*Üzünü silahlı kəndlilərə tutaraq*) Hə, dostlar, yığışın, müəllimin sözü ilə mən də şərikəm.

K ə n d l i l ə r. Gedək!

İ l d ı r ı m. Gedək. Qoy bu doğma meşələr öz qoynunda bizi gələcək intiqam üçün möhkəm gizləsin.

İldırım qabaqda, bütün silahlı kəndlilər meşəyə doğru getməyə hazırlaşırkən

P ə r d ə

## BEŞİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Səfi bəyin evi. Qapılar səliqə ilə düzəlmiş geniş həyətə açılır. Günəş ilə Ülkər həyətdə ağac altındakı skamyada oturub söhbət edirlər.

G ü n ə ş. Ülkər, çox oturdum, daha gedim. Bir də, məni qoy burda görməsinlər, atan gələr, yaxşı olmaz. Elə bilər ki...

Ü l k ə r. Heç zad bilməz. Onsuz da daha bir kimsədən qorxmuram. Bircə anama yazığım gəlir, yoxsa bunlara bir toy tutardım ki...

G ü n ə ş. Bilirəm, Ülkər, müəlliminizə afərin. İldırımın sevgilisi elə belə olar. (*Bir qədər sükutdan sonra*) Sən çox xoşbəxt qızsan!

Ü l k ə r. Eh, nə bilim, yenə xeyli zamandır görmürəm; demişdi gələcəyəm, gözlə, amma indiyə qədər gəlib çıxmayıb. Heç bilmirəm hardadır. Müəllimdən də söz almaq olmur.

G ü n ə ş. Söz veribsə, gələr... (*Dərin fikrə gedir. Birdən-birə*) Ülkər, sağ ol, mən getdim. (*Gedir*)

Ülkər yavaş-yavaş evə keçir. Bu zaman aşıq qiyafəsində olan Rüstəmin səsi eşidilir.

R ü s t ə m. Dursun, Dursun! Üzünə həsrət qaldığım oğlum. Axtara-axtara sorağını gəlib burda tutmuşam.

D u r s u n (*görünür*). Ax, dünya, sənə ayaq basdığım günə min lənət!

R ü s t ə m. Oğlum, Dursun!

D u r s u n. Sən kimsən, baba?

R ü s t ə m. O qədər dəyişdin ki, atan Rüstəmi də tanımırsan?

D u r s u n (*diqqətlə baxıb tanıyır*). Ay, ata! (*Qaçıb ona sarılır*)

D u r s u n. Sən gedəndən sonra xəbər çıxdı ki, bir dəyirmanda ölübsən. Şükür ki, sağ-salamat görüşdük. (*Yenə öpüşürlər*)

R ü s t ə m. Kaş öləydim, bu qara günləri görməyəydim. Söylə, oğlum, mən baş götürüb gedəndən sonra evimiz necə dağıldı, anan, qardaşın nə oldu?

D u r s u n. Ata, o qara günləri soruşma. Səndən sonra bu namərd borcunun əvəzinə evimizi, şeylərimizi satdırıb bizi çölə atdı. Bunlar borcu ödəmədi, qardaşım Rəcəbi alıb qapısında işlətdi. Tay daşımaqdan beli ikiqat oldu, işə yaramadı. Onu qovub məni gətirdi...

R ü s t ə m. Rəcəb bəs hardadır?

D u r s u n. Öldü. Anam da dərdindən vərəmlədi. Qalan yalnız mənəm.

R ü s t ə m. Ey haqq, sənin səbir kasan haçan dolacaq? Evim, eşiyim, aslan kimi oğlum bir yabıya qurban oldu. Ocağım söndü, lənət onu aldığım günə! (*Ağlayır*) Oğlum, səndən başqa ümidim yoxdur. Gəl, bu cəlladın qapısından uzaqlaşaq.

D u r s u n. Ata, ağa evdədir, çıxıb səni görsə, bizi şişə çəkər. Sən get, sonra görüşərik.

R ü s t ə m. Səni almamış getmərəm. (*Səs gəlir*)

D u r s u n. Ağa gəlir, ata, get!

Rüstəm bir tərəfə, Dursun bir tərəfə çəkilir. Səfi bəy daxil olur.

S ə f i b ə y. İşlər yaxşı getmir. İldırım üçün düzəltdiyimiz kələk baş tutmadı. Yoxsa qazaklar ona yaxşı divan tutacaqdı. Müəllim də kənddə bərk işləyir. Ağzından çıxan hər söz xalq üçün qanundur. Biz də qabağında pişik kimi miyoldayırıq. Gecələr gözümə yuxu getmir... Bilmirəm bu Kərim kəsmişə nə olub, ondan da bir xəbər yoxdur. Deyəsən, zəmanə tərsinə dövran edir. Qəzetlər gündə bir xəbər verir, elə bil bu gün-sabah qiyamət qopacaq... hökumət başını itirib... Yox, Səfi bəy, qorxaqlıq sənə yaraşmır. Yerində möhkəm dur, dövran sənindir. Öldü var, döndü yoxdur. Yoxsa bu var, bu dövlət, bu bağ-bağça, bu torpaq, qapıdakı nökərlər, rəiyyət – bunlarsız sən, sən Səfi bəy necə yaşarsan?! Ürəyim lap partlayır, bu Şükür bəy də gəlib çıxmır ki, bir az dincəlim.

Şükür bəy yasavulları ilə gəlir.

S ə f i b ə y. Lap vaxtında gəlib çıxdın. Hövsələdən çıxmışdım.

Ş ü k ü r b ə y. Çox darıxma, hər şey düzələcək. Şad xəbərnən gəlmişəm.

S ə f i b ə y. Xeyir ola?

Ş ü k ü r b ə y (*Səfi bəyi kənara çəkərək*). Axırı dünən naçalnikdən müəllimin öldürülməsinə icazə aldım. Ağa buyurur ki, elə öldürün ki, sizdən bilməsinlər. Bunu doğru deyir. İşi kəndlilərin əlilə görmək lazımdır.

S ə f i b ə y (*sevincək*). Buna nə var ki... Elə bu gün. Özümüzkülərdən birinə tapşırarıq, öldürər, sonra da bir kəndlinin boynuna atarıq.

Ş ü k ü r b ə y. Mənim fikrim də belədir. Bu, kəndlilər arasında müəllimin hörmətini də salar. Bu işi Xuduşa tapşırsaq, necədir?

S ə f i  b ə y. Lap əla. Əsil adamıdır.

Ş ü k ü r  b ə y. Xuduş, Xuduş!

X u d u ş. Bəli, ağa.

Ş ü k ü r  b ə y. Yaxın gəl, sənə bir tapşırığımız var.

X u d u ş. İstəyirsiz yüzünü tapşırın.

Ş ü k ü r  b ə y. Bu gün müəllimin işini bitirməlisən. Aldığım məlumata görə, o, axşamüstü İldırımın yanına gedəcək. Meşəyə gedən yol böyürdəndir. Bir neçə yasavul götür, pusquda durarsan. Özünü öldürəndən sonra yaxındakılardan birini tutub, qatil kimi bura gətirərsən. Amma bizim bu işdən xəbərimiz yoxdur, başa düşdün?!

X u d u ş. Başa düşdüm, ağa.

S ə f i  b ə y (*25 manat verib*). Al bu iyirmi beş manatı. Hələlik bu qədər. Bu axşam Mirzə Möhsünün ölüsünü səndən istəyirik. Dalısı sonra.

X u d u ş. Arxayın ol, ağa, bizim gülləmizdən göydə quş da qurtarmaz.

Ş ü k ü r  b ə y. Daha sən işində ol. Biz də naçalnikin yanına gedirik. (*Xuduş gedir*) Bizim burda qalmağımız məsləhət deyil. Mən getdim, sən də şeyləri sahmana salıb tez gəl.

Şükür bəy gedir

S ə f i  b ə y (*tək*). Hər şeyin açarı puldur. Verməzsən, iş aşmaz. Ancaq kisənin ağzını açanda elə bil ürəyimin bir tikəsini qoparıb atıram. Sabaha da ki, bir ətək pul töküb, Şükür bəyi qonaq çağırmışam. Çarəm yoxdur. Belə etməsəm, ağzıma baxan olmaz, bir quruşluq hörmətim qalmaz. Demək, bu gün iki böyük düşmənin biri aradan çıxır, çox şükür. Onların ucundan Fərrux Sibirdə çürümürmü? Mənim başıma hər bəla bunlardan gəlir. Yaranı birdəfəlik kökündən kəsmək lazımdır. (*Gedir*)

R ü s t ə m (*görünür*). Oğlum, Dursun.

D u r s u n. Bəli, ata.

R ü s t ə m. Eşitdin?

D u r s u n. Eşitdim, ata.

R ü s t ə m. Bəs niyə dayanmısan? Müəllimi xəbərdar etmək sənin borcundur.

D u r s u n. Qorxuram, ata, Səfi bəy bilsə, dərimə saman təpər.

R ü s t ə m. Nədən qorxursan, bala? Məni yurdumdan, yuvamdan ayıran, oğlanlarıma həsrət qoyan zalimdənmi?

D u r s u n. Hə, o zalimdən, özü də çox bərk qorxuram.

R ü s t ə m. Qorxaq oğlu qorxaq! Hər bəla qorxaqlıqdan gəlir. Bunu mən təcrübəmlə öyrəndim. Bizi bu hala qoyan qorxaqlıq deyilmi? İşin əvvəlində bu canavarları vurub öldürsəydim, bu bəlalar başıma gəlməzdi.

D u r s u n. Ata, mən qorxaq olmuşam. Ancaq axırda gördüm ki, bunun axırı yoxdur. Odur ki, bu canavardan intiqam almağa fürsət axtarırdım. İndi isə gedim müəllimi xəbərdar edim. Yoxsa kənd başsız qalar. (*Gedir*)

R ü s t ə m. Gedərsən. Həyat adama ən doğru yolu öyrədir. Ax, oğlum! Zülm sənin də ruhunun işığını almış, qorxursan. Üzünə həsrət qalan atanla dərdləşməkdən qorxursan. Bu gün sən də mənə yadlar kimi baxırsan. Mənim dərdlərimin ən yaxın sirdaşı bu üçtelli sazımdır. (*Sazı alıb səsləndirir və oxumağa başlayır*)

Bir dərdliyəm gecə-gündüz yanaram.
Həsrətlimi zaman-zaman anaram.
Ürəyimin ta içindən qanaram,
Elim-günüm, səndə bitməz dərdlər var,
Dağın, daşın, yuvan, tarlan sızıldar.

Zəhər vardır, tikan vardır dilimdə,
Soyuq, acı ruzgar əsir elimdə,
Dolaşıram kənd-kənd bu saz əlimdə,
Aradığım sonalardan əsər yox.
Soraram hər kəsdən, doğru xəbər yox.

Məni düşmən ayrı saldı elimdən,
Üç oğlumdan, həsrətli sevgilimdən,
Xəbər tutdum, bir daş dəydi belimdən,
Dedi: onlar köçüb, zülüm qalmışdır.
Həyat, dirlik sönmüş, ölüm qalmışdır.

Rüstəmin səsinə Ülkər çıxır.

Ü l k ə r. Zülüm qalmayacaq, baba, onu sənin kimi məzlumların fəryadı boğacaq!

R ü s t ə m. Ülkər, bu sənsən?

Ü l k ə r. Bəli, mənəm, baba, sən məni hardan tanıyırsan?

R ü s t ə m. Rüstəm əmini nə tez yaddan çıxardın? Səfi bəyin zülmündən balalarına həsrət qalan Rüstəm kişiyəm.

Ü l k ə r. Vay... Yazıq qoca. Yenə Səfi bəy...

R ü s t ə m. Səfi bəy, Səfi bəy... Burdan baş götürüb gedəndə elə bildim ki, azadlığa çıxacağam, uşaqlarıma qarın dolusu çörək tapacağam. Ancaq getdim, gördüm ki, dörd tərəfimiz səfilərlə doludur.

Ü l k ə r. Rüstəm əmi, Dursunu gördünmü, Allaha şükür, o salamatdır.

R ü s t əm. Ancaq onu da bu mühit adamlıqdan çıxarıb, tülkü edibdir.

Ü l k ə r. Əmi can, niyə mənimlə belə sərt danışırsan? Bir qədər saz çal, keyfimiz açılsın.

R ü s t ə m. Mənim sazım sizə keyf verməz. Barmaqlarımı tellərə basdıqca sızıldayır.

Ü l k ə r. Barmaqlarını elə bas ki, sızlamasın, sızlatsın.

R ü s t ə m. Onun zamanı yetişməyib.

Bir-iki güllə səsi eşidilir. Rüstəm diksinir.

Rüstəm (*təlaş içində*). Yoxsa bu namərdlər müəllimi vurdular?!

Xuduş, Dursun, bir - iki yasavul və kəndli gəlir.
Müəllimin paltarını geymiş Kərimin ölüsünü gətirirlər.

X u d u ş. Müəllimi öldürən kimdir? Bu saat onu yerin deşiyindən də olsa tapmalısınız!

Y a s a v u l (*bir kəndlini darta-darta gətirir*). Gücnən axtarıb tapmışam. Müəllimi öldürəndən sonra qaçıb kolluqda gizlənmişdi.

K ə n d l i. Yalan deyirsən, onu mən öldürməmişəm.

Y a s a v u l. Yalan deyir, əlində tüfəng ilə tutdum.

K ə n d l i. Mənim tüfəngim var idi?

Y a s a v u l. Bu tüfəng kimindir? Görənlər yalan deyir?

K ə n d l i. Əlbəttə, yalan deyirlər.

X u d u ş. Yalan deyirlər, yalan deyirlər. Nəyi yalandır?! Kişini gündüzün günorta çağı vurub aşırmısan, sonra da deyirsən ki, yalan deyirlər. Sən vurmadın, mən vurmadım, bəs kim vurdu? (*Yasavullara*) Onu möhkəm saxlayın. Meyiti bəylər gələnə qədər burda saxlamaq lazımdır. (*Cənazəyə yaxınlaşıb diqqətlə baxır*) Bay, bu ki Kərimdir.

R ü s t ə m (*kənara*). Allaha çox şükür, müəllim deyilmiş.

D u r s u n (*Rüstəmə, astadan*). Bunlar hamısı müəllimin öz tədbirləridir.

I y a s a v u l. Bu necə oldu?

II y a s a v u l. Bu nə sirrdir?

X u d u ş. Şükür bəyə nə cavab verəcəyik?

P ə r d ə

## İKİNCİ ŞƏKİL

Səhnə. Səfi bəyin həyətə açılan qapısını və otaqlarını təsvir edir. Səfi bəyin oğlu Fərrux saç-saqqalı uzanmış, paltarı dəyişmiş halda, əlində bir çamadan, qapıda görünür. Qonşuları Heydər ona rast gəlir.

H e y d ə r. Gecə yarısı bu adam kimdir? (*Ona yaxınlaşıb*) Kimi istəyirsən?

F ə r r u x (*onu tanıyır*). Qızxanım oğlu Heydəri.

H e y d ə r. Sən mənə tanış gəlirsən. (*Diqqətlə baxır*)

F ə r r u x. Heydər, məni tanımırsan? Fərruxam. (*Görüşüb öpüşürlər*) Anamgil necədir?

H e y d ə r. Hamısı sağ-salamatdır. Bu vaxta qalmazlar, yəqin yatmışlar. (*Əli ilə onun qiyafəsini göstərərək*) Bu nədir? Heç tanımadım. Nə qədər dəyişmisən... Hələ bir şələ saç-saqqala bax!

F ə r r u x. Gecə yarısı sən hardan gəlirsən, ay lotu?

H e y d ə r. Bacımgilə getmişdim, ha durmaq istədim, yeznəm qoymadı. (*Onu bir də başdan ayağa süzərək*) Dur, Soltan xanımı özüm müjdələyəcəyəm. (*Qapını vurmaq istəyir*)

F ə r r u x (*Heydəri tutub*). Dayan, Heydər, mən bir oyun oynamaq istəyirəm. Onlar da məni tanımayacaq. Bu gecə evimizdə qonaq adına qalacağam, səhər tezdən gəl, müjdələ.

H e y d ə r. Yaxşı fikirdir.

F ə r r u x. Sağ ol, hələlik evdə bir söz demə. Sabah görüşərik. (*Heydərdən ayrılıb qapını döyür*)

S o l t a n x a n ı m. A gedə, qapını aç, ağa gəldi.

Dursun qapını açır, Fərruxu görüb geri çəkilir.

F ə r r u x. Bura Səfi bəyin evidir?

D u r s u n. Səfi bəyin evidir.

F ə r r u x. Get xanıma de ki, Polad bəyin oğludur, Sibirdən gəlib. Uzaq olduğuna görə kəndimizə gedə bilməyəcəm. Bu gecə sizin evdə qonaq qalmaq istəyirəm.

Dursun gedir. Soltan xanım ilə Ülkər onu qarşılayır.

S o l t a n x a n ı m. Kim idi?

D u r s u n. Ay xanım, saç-saqqalını uzatmış bir kişidir. Deyir ki, Polad bəyin oğluyam. Kəndimiz uzaq olduğuna görə bu gecə bəyin evində qonaq olmaq istəyirəm. Əlində böyük bir çamadan var. Deyir Sibirdən gəlirəm.

S o l t a n x a n ı m. Sibirdən gəlir?

Ü l k ə r. Ana, qonağı qapıda saxlamaq ayıbdır.

S o l t an x a n ı m (*Dursuna*). Get, qonağı baş otağa apar. (*Dursun gedir*) Sibirdən gəlir, bəlkə bizim Fərruxu da görübdür. Onu ata-anasına yetirən Allah, Fərruxu da bizə yetirsin. (*Fərrux, əlində çamadan, Dursun ilə daxil olur*)

D u r s u n. Bəy, bu otağa gəlin. (*Qapını açıb Fərruxu baş otağa aparıb qayıdır*)

S o l t a n xa n ı m. A gədə, soruş görək Səfi bəyin oğlu Fərruxu o tərəflərdə görmüşdü?

Ü l k ə r. Bir az danışdır, gör nə var, nə yox. Bizə xəbər gətir.

Dursun Fərruxun otağına girir.
Soltan xanım qapı arasından qulaq asır.

D u r s u n. Bəy, xanım soruşur ki, Sibirdə Fərruxu görməyibmi?

F ə r r u x. Səfi bəyin oğlu Fərruxu?.. Görmüşəm, biz arabir görüşürdük.

D u r s u n. Bəs, Fərrux ağa gəlməyəcək?

F ə r r u x. Yoldaşlarını azad etdilər. O da bu günlərdə gəlib çıxar. Ancaq yollar çox qarışıqdır. Mən bir aya gəlib çıxmışam.

S o l t a n x a n ı m. A gədə, soruş görək şəhərdə nə var?

D u r s u n. Xanım soruşur, şəhərdə nə var, nə yox?

F ə r r u x. Orda da ara qarışıb, məssəb itib. Deyəsən bu fəhlələr başımıza bir oyun açacaq. Doğrusu, çox yorğunam, yatmaq istəyirəm. (*Dəsmala bağlı bir şey çıxarıb Dursuna verir*) Bunu al, xanıma ver, saxlasın, səhər gedəndə alaram. Bu on manatı da sənə verirəm.

Dursun utana-utana alır, bağlı şeyi Soltan xanıma verib otaqdan çıxır. Soltan xanım dəsmalın bir ucunu açır.

S o l t a n x a n ı m. Qızıl puldur. Bu qədər pulu, görəsən, haradan alıb?

Ü l k ə r. Ana, dustaqlar, görünür, orda alver edirlər.

S o l t a n x a n ı m. Bəy oğludur. Ata-anası ona pul göndərməmiş olmaz. Bir də, görünür, yığımcıl oğlandır. Biz Fərruxa az pul göndərmirdik. Hələ atandan xəbərsiz ona neçə min göndərmişəm. Bilirəm, Fərrux da pulları xərcləməz. Gələndə pul ilə gələr.

Ü l k ə r. Bu kişi harada qaldı? Gecə yarıdan keçir.

S o l t a n x a n ı m. Onun işindən şeytan da baş çıxarmaz. Hələ Şükür bəyi qonaq çağırıb. Onlar ki, yeməyə oturdu, səhər açılanda süfrə başından qalxacaqlar. Gecənin şirin yuxusunu da bizə haram edəcəklər.

S ə f i b ə y (*gəlir. Çamadanı görüb*). Bu çamadan kimindir?

S o l t a n x a n ı m. Qonağındır. Sibirdən gəlib. Deyir, Polad bəyin oğluyam.

S ə f i b ə y. Polad bəyin? Uzaq kəndlərdən olacaq. Sənə kim izn verdi ki, tanımadığın adamı evə buraxdın?

S o l t a n x a n ı m. Çox yorğun idi. Vaxt çox keçmişdi. Fərruxu yadıma saldım, yazığım gəldi.

S ə f i b ə y. Yazığın gəldi... O tərəflərdən nə danışır?

S o l t a n x a n ı m. Fərrux ilə görüşmüş. Deyir ki, bu günlərdə onu da buraxacaqlar. O tərəfləri, şəhəri çox qarışıq söyləyir. Yazıq yorğun idi. Gələn kimi yatdı. (*Dəsmaldakı pulu göstərib*) Bu bir dəsmal pulu da verdi ki, saxlayım. Səhər gedəndə verəcəyəm özünə. (*Səfi bəy fikrə gedir*) Yeməyinizi də hazırlatmışam. Sən allah, a kişi, məclisi çox uzatma. Mən gedib yatıram. (*Gedir*)

Ş ü k ü r b ə y (*qapını döyür*). Səfi, Səfi!

Səfi bəy qapını açır.

S ə f i b ə y. Buyur, bəy.

Ş ü k ü r b ə y. Yasavulları kəndə buraxdım, arxayın ol!

S ə f i b ə y. Xeyir ola?

Ş ü k ü r b ə y. İldırımdan özümüzü gözləməliyik.

S ə f i b əy. Yoxsa bir xəbər eşitmisən?

Ş ü k ü r b ə y (*əlini onun çiyninə qoyaraq*). Dostum, igidin igiddən bir ehtiyatı artıq olur, deyirlər. O, yatmır, bizə də yatmaq olmaz.

Əmr verdim sabaha qədər yatmasınlar, ayıq olsunlar. (*Qürurla əllərini oynadaraq*) Qorxma, sən yeməyi hazırla. Bəydostu və Ülkər xanım da gəlsin ki, süfrəmiz bir az şənlənsin.

S ə f i b ə y. Hər şey hazırdır. (*Qışqırır*) Dursun! Dursun!(*Özü Dursunun və xanımların dalınca çıxır*)

Ş ü k ü r b ə y. Ülkər, Ülkər... Onu birinci dəfə görəndə qarşımda elə bil ülkər parladı. Zalımın qızı ulduz kimi yanır. Qara şəvə gözləri ox kimi ürəyimə saplanır. Bu vəhşi maralı əlimə keçirə bilsəydim, heç dərdim olmazdı. Bu Səfini əlimdə möhkəm saxlamalıyam.

Dursun əlində bir məcməyi yemək gətirir. Masanı səliqəyə salıb gedir.

S ə f i b ə y (*əlində bir küpə şərab gəlir*). Bəy, yanında xəcalətəm. Çox çalışdım, zalım qızları gəlmədi. Hələ Ülkər dəli keçi kimi sıçrayıb qaçdı.

Ş ü k ü r b ə y. Bu günlərdə bacım Xeyriyyə gələcək, onda heç qaça bilməz. Eybi yoxdur. (*Şükür bəy qədəhləri doldurur*)

S ə f i b ə y. Sağ ol, bəy!

Ş ü k ü r b ə y. Sən də sağ ol! (*İçirlər*) Doğrusu, bəy, bu müəllim məsələsi məni çox qorxuya salıb. Görünür, onlar bizim müəllimi öldürmək istədiyimizi hardansa biliblər.

S ə f i b ə y. Bu hələ məsələnin bir tərəfidir. Görünür, həriflər Kərimin bizim adam olduğunu da biliblər. Kərimə müəllimin paltarını geyindirib öz əlimizlə öldürtmələri bizi kənd içində lap biabır etdi.

Ş ü k ü r b ə y. Doğrudur, doğrudur, Xuduş deyir ki, kəndlilər deyirlər ki, Şükür bəylə Səfi bəyin kələkləri özlərinə tələ qurdu. Hələ bir başqası deyirmiş ki, bu gündən onların özləri üçün də vardır. Səfi bəy, sözün düzü, mən işləri yaxşı görmürəm. Bərk ayaqda bu yasavullar da kəndlilərə qoşulacaqlar.

S ə f i b ə y. Get-gedə lap təklənirik. Tərəfimizdə olan kəndlilər də bizdən üz döndərir. Bu İldırım kəsmiş də ki, hər dəqiqə bizə qorxu törədə bilər.

Ş ü k ü r b ə y. Odur ki, gərək bir-birimizə arxa olaq. Bərk ayaq üçün isə pul, başa düşürsən, pul yığmaq lazımdır. Sərhəddi aşmaq üçün ətək dolusu pul gərək.

S ə f i b ə y. Sən nə danışırsan, Şükür bəy, yoxsa bərk ayaqda qaçmağa da razısan? Səfi bəy ölər, bu yerlərdən bir addım qırağa ayaq basmaz. Ölənəcən, nəfəsim gələnəcən bu bit basmışlarla vuruşacağam. Səfi bəy lüt ildırımların qabağından qaçsın?

Ş ü k ü r b ə y. Səfi bəy, bu tək İldırım məsələsi deyil, görmürsən bütün Rüsyetdə aləm qarışıb bir-birinə. İt yiyəsini tanımır. Oralarda bir şey olsa, buradakılar dərimizə saman təpərlər...

S ə f i b ə y. Yaxşı yadıma düşdü, bu gün Sibirdən bir qonaq gəlmişdir. O da deyir ki, Bakıda vəziyyət yaxşı deyil.

Ş ü k ü r b ə y. İnanma, bəlkə təmiz adam deyil.

S ə f i b ə y. Özü varlı ailədəndir. Soltan xanıma saxlamaq üçün bir qucaq da pul verib. Bu küncdə duran çamadan onundur.

Ş ü k ü r b ə y. Hım... (*Bir qədər fikrə gedir. Üzündə sevinc qığılcımları parlayır*) Sənə deyirəm, bu düz adama oxşamır.

S ə f i b ə y. Əşşi, nə danışırsan! Polad bəyin oğludur. Sibirdə Fərruxla bir yerdə olub.

Ş ü k ü r b ə y. Bəs özü haradadır?

S ə f i b ə y. Yatır, deyirlər.

Ş ü k ü r b ə y. Səfi bəy, sən gəl mənə inan. Bu, şübhəli adam olacaq. Belə işlərdə ehtiyatlı olmaq lazımdır. Bir də ki, belə zamanda bu qədər pulu niyə əldən çıxarırsan? Hələ bir bu çamadana da baxaq. (*Çamadanı açır, içərisindən parçalar, müxtəlif qiymətli şeylər çıxarır*) Səfi bəy, sən doğrudan da başını itirmisən. Onu burdan salamat çıxmağa qoymayacağam.

S ə f i b ə y. Fikrin nədir?

Ş ü k ü r b ə y. Öldürmək!

S ə f i b ə y. Mənim evimdəmi?

Ş ü k ü r b ə y. Yoxsa qorxursan? Mən olan yerdə sən nədən çəkinirsən?

S ə f i b ə y. Yox, bəy, qoymaram, canın üçün qoymaram.

Ş ü k ü r b ə y. Səfi bəy, sənə qorxaqlıq yaraşmır. Sən özün gündə on belə qan etmisən, indi nə oldu? Bir başa düş, burda pul məsələsi var, pul, indiki ayaqda o sənə, mənə hava kimi lazımdır.

S ə f i b ə y. Axı, bəy, o mənim qonağımdır. (*Onu tutub saxlayır*)

Ş ü k ü r b ə y (*dartınır*). Burax, bıçağı qarnına soxaram, gəl, yol göstər.

S ə f i b ə y (*qorxaraq*). Mə...n...mə...n... yox.

Ş ü k ü r b ə y. Sən yox, mən öldürəcəyəm. Sən ancaq bax ki, onun otağına girən olmasın. (*Hər ikisi Fərrux yatan otağa keçir*)

S ə f i b ə y (*bir az sonra qapının ağzına çıxıb, qorxa-qorxa gəzinir*). Bu işin içindən bir şey çıxmasa yaxşıdır. Bir də ki, qonağa, özü də bəy balasına namərdlik heç ürəyimdən deyil.

Şükür bəy, əlində qanlı qəmə, otaqdan çıxır.

Ş ü k ü r b ə y. Nə olacaq, anasını ağlatdım. Mənim əlimdə adam öldürmək toyuq kəsməkdən asandır. Çamadandakıları gördüm, bəs pulu hardadır?

S ə f i b ə y. Soltan xanımdadır.

Ş ü k ü r b ə y. Qalx, gətir. (*Səfi bəy durmur*) Qorxma, səninlə bölüşəcəyəm. Qalx gətir.

S ə f i b ə y. Sonra. Arvad yatıbdır. Hələ de görüm, meyiti neyləyəcəksən?

Ş ü k ü r b ə y. Yaxşı dedin, həyətin bir tərəfində basdırarıq. Dur ayağa, bel, külüng gətir.

S ə f i b ə y. Həyətdə bel də var, külüng də.

Ş ü k ü r b ə y. Qalx gedək.

Gedirlər. Soltan xanım və Ülkər gəlir. Səfi bəy onları görüb qayıdır.

S o l t a n x a n ı m (*Səfi bəyə*). Bu nə səsdir? Nə qayırırsınız?

Ü l k ə r. Çoxdan sizin səsinizə ayılmışıq, yata bilmirik.

S ə f i b ə y. Qonağı qovdum getdi.

S o l t a n x a n ı m. Neyçün?

S ə f i b ə y. Şükür bəy onu tanıdı. Zalım oğlu bizi öldürmək üçün gəlibmiş. Oyatdım, qolundan tutub çölə atdım. Səhərə az qalır, bu zaman siz niyə xortlayıbsınız? Gedin yatın.

S o l t a n x a n ı m. Şükür bəy hanı?

S ə f i b ə y. Bir az keflidir. Ürəyi bulandı, həyətə çıxdı. Haydı, siz gedin!

Ş ü k ü r b ə y (*qapıya yaxın gələrək*). Səfi, gəl, hammallığı tək mənə etdirəcəksən?

S ə f i b ə y. Gəlirəm. Çəkilin burdan deyirəm.

Ü l k ə r. Gedirik. Sən bizdən nə istəyirsən?

Səfi bəy gedir.

S o l t a n x a n ı m. Bunlarda heç insaf yoxmuş. Bu zaman insan da qonağı çölə atarmı?

Ü l k ə r. Mən başqa şeydən qorxuram.

S o l t a n x a n ı m. Nədən?

Ü l k ə r. Yazığı öldürməsinlər?

S o l t a n  x a n ı m. Nə deyirsən, Ülkər? Heç elə iş olar?

Ü l k ə r. Bunlardan nə desən çıxar. Bu zaman nə üçün yatmamışlar? Bizi buradan nə üçün qovur? Həyətdə nə işləri var?

S o l t a n  x a n ı m. Mən də şübhələnməyə başladım. Kor olsunlar, yoxsa, pulu üçün öldürüblər? Bu kişinin acgözlüyü ocağımızı söndürəcək. Kaş pulu ona göstərməyəydim.

Ü l k ə r. Ax, bu zindanda mən nələr görmədim!

S o l t a n  x a n ı m. Başımıza gələni gördün?

Ü l k ə r. Qəlbim heç rahat deyil. Otaqlar qan qoxuyur, divarlar, qapılar, pəncərələr sanki "cinayət, cinayət!" – deyə səslənir. (*Əsəbi dolaşır, pəncərəyə yaxınlaşır*) Ax, dan yeri qızarır, xoruzlar banlayır. Ey qaranlıqları dələn göz, bu evdə bir cinayət olmuşsa, aç, onu ortaya çıxar.

Qapı döyülür.

S o l t a n x a n ı m (*qorxaraq ayağa qalxır*). Bu zaman qapını vuran kim olar?

Ü l k ə r. Haqqın toxmağı.

Qapı şiddətlə vurulur.

S ə f i  b ə y. (*Həyəcan içində gəlir, qorxa-qorxa qapıya gedir*) Kimsən?

H e y d ə r. Mənəm, aç! Muştuluğa gəldim.

S ə f i  b ə y. Sən kimsən?

H e y d ə r. Qonşunuz Heydərəm... Aç!

Səfi bəy qapını qorxa-qorxa açır

S ə f i  b ə y. Xeyir olsun, Heydər?

H e y d ə r. Fərrux durmadımı?

S o l t a n  x a n ı m. Fərrux? Hanı Fərrux?

H e y d ə r. Axşam qapınızın ağzında gördüm, əvvəlcə tanımadım. Saqqalını uzatmış, qiyafəsini dəyişmişdi. Sizi müjdələmək istədim, buraxmadı. "Bu gecə evimizdə qonaq adına qalacam, sabah tezdən gəlib müjdələyərsən", – dedi. Gecə gözlərimə yuxu girməyib.

S o l t a n  x a n ı m. Ay?! Fərrux imiş. (*Səfi bəyin yaxasından tutaraq, şaşqın*) Hanı Fərrux? Oğlumu səndən istəyirəm!

Səfi bəy donub qalır.

Ü l k ə r. Yoxsa öldürmüsünüz? Söylə, qardaşım nə oldu?

S o l t a n x a n ı m. Bu saat onu mənə verəcəksən! Yoxsa, bu evə od vurub yandıraram!

Ü l k ə r (*taxt altında çamadanı görür, cəld çıxarıb*). Çamadanı budur... Getsəydi, bunu da aparardı. Qardaşımı neylədiniz? (*Anasını qucaqlayır*) Ana! Ana! Fərrux getdi... (*Əsəbi hıçqırıqlarla hər ikisi ağlayır*)

H e y d ə r. Mən bunlara ölüm müjdəsini verdim?

Ş ü k ü r b ə y (*qollarını çirmələmiş halda içəri girir. Səfi bəyə*). Qorxma, hər şey öz yerindədir.

Ü l k ə r. Ah, qardaşımın qatili! (*Hücum etmək istəyir, çəkilir və hıçqırıqlarla yıxılır*)

Ş ü k ü r b ə y (*heyrətlə*). Bunlara nə oldu?

İldırım pəncərədən Ülkəri səsləyir. Onu özündən getmiş vəziyyətdə görüb dərhal pəncərədən otağa atılır.

İ l d ı r ı m. Ha-ha-ha! Nə gözəl məclisdir! Elə bil tale məni bura bu gün qəsdən gətirmişdir. (*Hamı qorxu və dəhşət içində*) Ülkərin bu hıçqırıqları məni bu zülm toxumlarını bir-bir dənləməyə dəvət etmirmi?

S ə f i b ə y. Dərd-dərd üstündən yağır.

Ş ü k ü r b ə y. Əfv et məni, İldırım!

İ l d ı r ı m. Xainlər, zalımlar əfv edilməz!

Göydə ildırım hiddətlə çaxır.

Ü l k ər (*ayılır, şaşqın-şaşqın İldırıma baxaraq*). İldırım, səndəmi Fərruxun toyuna gəldin? Bax, yer, göy şənlik edir, atam da əllərini xınalamış, ha-ha-ha! (*Əsəbi və çılğın qəhqəhələrlə gülür*)

İ l d ı r ı m. Acıqlanma, Ülkər, ömrümdə birinci dəfədir ki, qadın olan yerə silah ilə girirəm. Bağışla məni.

Ü l k ə r. Demək, intiqam üçün gəlibsən... Gəl, gəl, birinci məni öldür...

İ l d ı r ı m. Yox, mən səni görməyə gəlmişəm, Ülkər. İntiqam alınacaq adamlar isə başqadır.

Ü l k ə r (*özünü toplayaraq*). Fərruxun intiqamını? Yox bu gecəki qonağımızın intiqamını mən alacağam. (*Yaxınlaşaraq*) Qılıncını ver bura, İldırım.

Səfi bəy yavaşca otaqdan çıxır.

İ l d ı r ı m. Sənin o incə qolların intiqam üçün yaranmamış, onu mənim öhdəmə burax, Ülkər.

Ü l k ə r. Ver bura!

İ l d ı r ı m (*qılıncı verib*). Al, Ülkər, rəşadətini göstər.

Ü l k ə r (*qılıncı sürətlə alaraq qəflətən Şükür bəyi yaralayır*). Al cəzanı!

Ş ü k ü r  b ə y (*böyrünü tutaraq qorxa-qorxa çəkilir*). Uf, Ülkər, səndən ikinci yaranı gözləmirdim.

İ l d ı r ı m (*gülərək*). Ha-ha-ha!.. Qadınlar əlində intiqam qılıncı!

Arxadan Şükür bəyin yasavulları və Səfi bəy gəlir.
İldırımı dörd tərəfdən əhatə edirlər.

Buraxın, xainlər!

Y a s a v u l. Boşuna çapalama. Pəncəmizdən qurtara bilməzsən.

Ş ü k ü r  b ə y (*irəli gəlib, amiranə*). Buraxmayın, əllərini, ayaqlarını bağlayın, tez-tez!

Ü l k ə r. Ax, İldırım, İldırım... (*Ortalığa atılaraq*) Buraxın onu! O zəncirləri mənə vurun!

Şükür bəy (*Ülkərə*). Çəkil, sən qarışma. Hələ vurduğun yaranın cəzasını görəcəksən.

İ l d ı r ı m. Yalvarma, Ülkər. Bunlar zəncirlərə pərəstiş edən başsızlardır. Mənim ayaqlarım, əllərim, bunların qəlbi, fikri zəncirlidir. (*Zəncirlərə hərəkət verdikcə səslənir*) Bax, Ülkər, bu zəncirlər mənə yaraşırmı? Amma nə gözəl də səslənir!

Ü l k ə r. Kaş öləydim, İldırım, səni bu zəncirdə görməyəydim.

İ l d ı r ı m. Uşaqsan, Ülkər. Zəncirlərin səsi qulağımda səsləndikcə, bilsən, qəlbimdə nə sevimli güllər açılır. Bunun mənə verdiyi nəşəni heç bir musiqi verə bilməz. Bu səslər məzlumların qəlbindən qoparaq: – Zülüm! Zülüm! Zülüm! – deyə bağıran fəryadlardır. (*Zəncirlərə işarə edərək*) Bu ağırlıqları hər adam çəkə bilməz. Bunlar da mənim yüküm, mənim zinətimdir.

Ş ü k ü r  b ə y. Gəbərməyə gedərkən yenə də qürurundan əl çəkmir.

İ l d ı r ı m. Məni ölümlə qorxutma. (*Əsəbi gülərək*) Ha-ha, İldırım ölər, fikri ölməz. Zülm yaşamaz!

Ş ü k ü r  b ə y. Çox söyləməyin, haydı, götürün!

Y a s a v u l. Haydı! (*Əlilə İldırımı itələyir*)

İ l d ı r ı m (*zəncirlərə hərəkət verərək*). Sağ ol, Ülkər. Qəlbində yeni açmış olan çiçəklər əmanəti.

Ü l k ə r (*diz çökərək*). İldırım! İldırım!

İ l d ı r ı m (*göydə ildırım şiddətlə çaxır*). Ey müdhiş səsli ildırım, sən sus! Zəncirli dağları yarıb axan sellərin bu zülmləri silib-süpürə bilməz. Ona başqa bir qüvvət gərəkdir. Onu birləşmiş elin nəhəng qüvvəsi yer üzündən götürəcəkdir! (*Ağır-ağır otaqdan çıxarkən*)

P ə r d ə

*1926*

# ALDANMIŞ ULDUZLAR

*Beş pərdəli dram*

M.F.Axundovun “Aldanmış kəvakib”
adlı hekayəsi əsasında işlənmişdir

## İŞTİRAK EDƏNLƏR:

Yusif Sərrac

Tubu – onun arvadı

Budaq<br>Xosrov – Yusif Sərracın dostları, xalq nümayəndələri<br>Rəhman

Şah Abbas – İran padşahı. İyirmi iki yaşında

Mirzə Möhsün – vəzir

Mirzə Yəhya – maliyyə vəziri

Sərdar Zaman xan – hərbiyyə vəziri

Mollabaşı (Molla Səməd)

Mirzə Sədrəddin – münəccimbaşı

Cəmaləddin – qoca münəccim

İskəndər bəy – tarixnəvis

Xacə Mübarək – sarayın eşik ağası

Səlma – Şah Abbasın hərəmi

Qəhrəman – Səlmanın sevgilisi. Sarayda cəllad vəzifəsini ifa edir.

Hacı Quluxan<br>Səfərəli xan – Qəzvin tacirləri<br>Tiryəkxana sahibi

Darğa

Dərviş

Fərraşbaşı

Tiryəkkeş

I adam

II adam

III adam

IV adam

## BİRİNCİ PƏRDƏ

Səhnə Qəzvin şəhərində Ş a h A b b a s ı n sarayını təsvir edir. Sarayın ancaq bir tərəfi görünür. Ortada Şah Abbasın taxtı. Sağa iki, sola bir qapı var. Yerə qiymətli fərşlər döşənmişdir, iki tərəfdə böyük saxsılarda xurma ağacları, taxtın ayağı altında pələng dərisi. Uzun papaqlarının arasından ağ şal bağlamış sofi dərvişlər ney çalıb oxuyur, arabir rəqs havası çalınır. Sofilər coşub oynayır, ancaq özləri görünmürlər. Bir az sonra Ş a h A b b a s sofilərlə gəlib taxtına oturur. Sofilər başlarını, əllərini oynada-oynada rəqs edirlər. Rəqs bitdikdən sonra: "Yahu, yahu, la ilahə illahu" – deyə-deyə Şah Abbasa təzim edib saraydan çıxırlar. Şah taxtın yanında durub gözlərilə onları təqib edir. Hərəmxananın qapısından S ə l m a daxil olur. Şah Abbas aşiqanə nəzərlə onu süzür, hər ikisi bir-birinə doğru gəlir.

Ş a h A b b a s. Səlma, babamın müridləridir, bu gün məni ziyarətə, taxtımı, tacımı dualamağa gəlmişlər.

S ə l m a. Bu ney səsi nə qədər gözəldir!

Ş a h A b b a s. Səndəndəmi gözəldir? (*Səlmaya aşiqanə nəzərlə baxaraq*) Səlma, sən bu gün gözümə bambaşqa görünürsən. Bilmirəm mənmi dəyişdim, ya sənmi? Məsumanə baxışlarındakı bu sevimli atəşi, sübhün saf şəfəqlərini andıran üzündəki bu saf və parlaq rəngi səndə heç bir zaman görməmişdim. Sən bu gün başqa bir afətsən!..

S ə l m a (*mənalı gülərək*). Padşahım, mən hər zamankı Səlmayam, nədənsə sizin şahanə nəzərlərinizə bu gün belə görünürəm.

Ş a h A b b a s. Gözəl Səlma, sən mənim üçün həmişə təzə və dilbərsən. Sən gözəl olmasaydın, hərəmxanəmin baş hərəmi, bağçamın şah çiçəyi, tacımın şah gövhəri olmazdın.

S ə l m a (*istehza ilə*). Nə qədər xoşbəxtəmmiş!

Ş a h A b b a s. Sənmi çox xoşbəxtsən, yoxsa mənmi? Sən yalnız İran torpağına sahib olan Şah Abbasın qəlbinə sahibsən, mən isə bütün dünya gözəllərinin gözü olan gözəl Səlmaya.

Danışa-danışa hər ikisi çıxır. Vəzir M i r z ə M ö h s ü n f ə r r a ş b a ş ı ilə gəlir.

M i r z ə M ö h s ü n. A gədə, sənə demədim fərraş göndər Hacı Qulu xanı çağırsın?!

F ə r r a ş b a ş ı (*iki əlini döşünə qoyub əyilə-əyilə*). Göndərmişəm, qurban! Bu saat haradadırsa gəlib çıxar.

Bu zaman H a c ı Q u l u xan daxil olur. Fərraşbaşı vəzirin işarəsilə səhnədən çıxır.

M i r z ə M ö h s ü n. İrəli gəl!

Hacı Qulu xan əli döşündə əyilə-əyilə gəlir.

H a c ı  Q u l u x a n. Səlaməleyküm, qurban... (*Vəzirə bir kisə qızıl pul uzadır*) Bağışlayın.

M i r z ə  M ö h s ü n (*kisəyə əryi-əyri baxıb*). Nə qədərdir?

H a c ı  Q u l u x a n. On min tümən...

Vəzir əlilə kisəni itələyir.

M i r z ə  M ö h s ü n. Gedə, bu mənim bığlarımı yağlamağa çatmaz.

H a c ı  Q u l u x a n (*əli döşündə əyilib təzim edərək*). Qurbanın olum, sizə məlumdur ki, bu il quraqlıq olduğundan şəhərdə taxıl qıtlığı var; ona görə ticarətim çox kasaddır.

M i r z ə  M ö h s ü n. Dastan oxuma, bu sözlər mənim qulağıma girməz! Əlli min tümәndən az gətirmə.

H a c ı  Q u l u x a n. Qurbanın olum, mənim halımı da nəzərə alın.

M i r z ə  M ö h s ü n. Sözüm sözdür, əlli min tümәndən az olmayacaq.

H a c ı  Q u l u x a n. Qurbanın olum... (*Vəzir onun sözünü kəsərək*)

M i r z ə  M ö h s ü n. Dərdini bilirəm. Taxılın qiymətini birə-iki artır.

H a c ı  Q u l u x a n. Baş üstə, baş üstə...

M i r z ə  Y ə h y a gəlir. Hacı Qulu xan ikiqat əyilir.

M i r z ə  Y ə h y a. Gədə, bəs mənim haqqım hanı?

H a c ı  Q u l u x a n (*əli döşündə, yırğalana-yırğalana*). Sizin, sizin... haqqınız... (*Mirzə Möhsünə baxır*)

M i r z ə  M ö h s ü n. Sən nə itirirsən, taxılın qiymətini birə-üç artır.

H a c ı  Q u l u x a n. Fəda olum sizə, taxılın qiymətini birə-üç artırsam, xalq mənə düşmən olar. Bir də ki, alan olmaz.

M i r z ə  Y ə h y a. Sən onun dərdini çəkmə, canı da çıxıb alar! Acından ölməyəcək ki...

H a c ı  Q u l u x a n. Baş üstə, qurban, doğru buyurursuz, acından ölməyəcəklər ki... (*Təzim edərək gedir*)

Vəzirlər bir-birinə baxıb gülürlər.

M i r z ə Y ə h y a. Bu hacı da yaman tülküdür. Siz taxılı birə-üç baha sat dediniz, o, dədəsinin qiymətini də üstünə qoyub satacaq.

M i r z ə M ö h s ü n. Eh, özü bilsin, bizdən nə gedir?!

Hər ikisi danışa-danışa çıxır. Xacə gəlib,
onların arxasınca baxır, başını bulayır.

X a c ə. Bu sarayın fərraşından tutmuş, padşahına qədər hamısı cibkəsən, hamısı quldurdur.

Hərəmxanada çalıb-oxuyurlar. Xacə qulaq asır və arabir çalınan oyun havasına uyğun əl-qol atır. Mollabaşı daxil olur.

M o l l a b a ş ı. Xacə, sən də oynayırsan?

X a c ə (*utanaraq*). Bəli, qurban, hərəmxananın havası məni də oynadır.

M o l l a b a ş ı. Oynadar, oynadar, o çoxlarını oynadıb. Şahı görmək olmayacaq?

X a c ə. Xeyr, qurban, başı çox qarışıqdır.

Xacə çıxır, qoca münəccim C ə m a l ə d d i n daxil olur.

C ə m a l ə d d i n. Salamlar olsun Mollabaşıya.

M o l l a b a ş ı. Vəəleyküməssəlam. Sizi də sarayda görmək olurmuş.

C ə m a l ə d d i n. Qocalıq mane olsa da, arabir qibleyi-aləmin gözünə görünmək lazımdır, çünki məsəldir, gözdən uzaq, könüldən də uzaq olur.

M o l l a b a ş ı. Yox, elə deyil, sarayın dilini bildiyiniz üçün siz həmişə könüllərdə gəzirsiniz.

Hər ikisi getmək istərkən X a c ə görünür. Mollabaşı istehza ilə.

M o l l a b a ş ı. Xacə, yavaş-yavaş qocalırsan, tez ol evlən, sənə özüm kəbin kəsəcəyəm.

Xacə bu sözdən çox pərişan olur, əsəbi səslə

X a c ə. Mollabaşı həzrətləri! Siz ki başıma gələn fəlakətlərin şahidi olmuşsunuz, bu saray məni elə dərdə salmayıb ki, mənə kəbin kəsə biləsiniz.

C ə m a l ə d d i n. Bəs boş yerə sarayda hərəmxananın bütün ixtiyarı sənə tapşırılıb?..

Xacə pərişan halda susur. Mollabaşı və Cəmaləddin danışa-danışa gedirlər. Xacə nifrətlə taxta baxaraq.

X a c ə (*kənara*). Bu qoca da yaman qulaqkəsəndir. Görəsən yenə nə hiyləsi var. (*Səhnəni tərk edir*)

C ə m a l ə d d i n. Yaxşı, söylə görək nə var, nə yox.

M o l l a b a ş ı. Yeni bir hadisə yoxdur. Haman hamamdır, haman tas...

C ə m a l ə d d i n. Cavan münəccim Mirzə Sədrəddin neyləyir?

M o l l a b a ş ı. Onu heç soruşmasanız yaxşıdır. Bu adamı mənim də görməyə gözüm yoxdur.

C ə m a l ə d d i n. Nə var ki? Nə olmuşdur?

M o l l a b a ş ı. Nə olacaq... Özünü padşahın gözünə yaman soxub, bizə göz verir, işıq vermir... Onu saraydan kürümək lazımdır.

C ə m a l ə d d i n (*kənara*). Tədbirim baş tutacaq. Bu iş çox yaxşı oldu. Bacarana can qurban. Onu saraydan kürümək üçün əvvəlcə padşahın gözündən salmaq lazımdır.

M o l l a b a ş ı. Heç mümkün deyil, padşah ona çox inanır.

C ə m a l ə d d i n (*istehza ilə gülərək*). Ey acizlər, bacarıqsızlar! Yaxşı, sənin xatirinə ona bir tədbir çəkərəm.

M o l l a b a ş ı. Mirzə Cəmaləddin, bununla bizə böyük bir minnət qoymuş olarsınız.

C ə m a l ə d d i n. Onda mən cavan münəccim Mirzə Sədrəddini bir qara xəbərlə padşahın yanına göndərərəm.

M o l l a b a ş ı. Yaxşı, sonra?

C ə m a l ə d d i n. Mirzə Sədrəddin bu işin altından çıxa bilməyəcək...

M o l l a b a ş ı. Ha-ha, sonra?

C ə m a l ə d d i n. Yeddi il bundan əvvəl atası Məhəmməd şah bəzi səbəblərə görə İran taxt-tacını oğluna tapşırmağa məcbur olduğu zaman Şah Abbasın 15-16 yaşı var idi. Bu şah öz canını hər şeydən əziz tutandır. Dünya alt-üst olsa, vecinə gəlməz.

Mollabaşı və Cəmaləddin gedirlər. Xacə daxil olur.

X a c ə. Boyunlar vurduran, ocaqlar söndürən, gözəllər solduran ey qanlı taxt, nədəndir ki, sənə sahib olanlar qürurundan bu geniş dünyaya sığmayır, göyləri də kəməndə salmaq istəyirlər? Bu sehri aç, mənə söylə! Üstünə çıxıb otursam, o tamah və iştahı mənə də verərsənmi?

Ayağını taxta qoymaq istəyir, yenə çəkilir, qapı tərəfə baxır. Yenə taxta yanaşır. Qorxa-qorxa ayağını taxtın birinci pilləsinə qoyur. Yenə dönüb qapıya baxır, ikinci pilləyə çıxır. Ş a h  A b b a s gəlir.

Ş a h  A b b a s (*Xacəyə*). Dələduz! Yoxsa sənin də fikrindən padşahlıq keçir?

X a c ə (*tez ətəyilə taxtı silə-silə*). Yox, padşahım! Sizin taxtınızı silmək mənim üçün padşahlıqdır.

Ş a h  A b b a s. Xob, mürəxxəssən! (*Xacə baş əyib çıxır. Şah Abbas taxta və saraya baxaraq öz-özünə*)

Bax, bütün dünyanın gözü var məndə,
Göylə əylənirəm yeri gələndə.
Məndədir dəbdəbə, şövkət və hünər,
Ulduzlu göylərə çəkmişəm əsgər.

Dağlardan mətindir sarsılmaz ordum,
Coşqun bir dənizdən belə yox qorxum.
Şahlara tac verən tacidar mənəm!
Atamın taxtına yadigar mənəm!

X a c ə daxil olur, şaha baş əyərək.

X a c ə. Qibleyi-aləm, münəccim Mirzə Sədrəddin hüzura gəlmək istəyir.

Ş a h  A b b a s. Söylə, gəlsin! (*Xacə gedir, Mirzə Sədrəddin daxil olur, şaha baş əyir*)

Xeyir olsun, mirzə?

M i r z ə  S ə d r ə d d i n. Həzrəti-əqidəsi-ilahi qibleyi-aləmin mübarək vücudunu yerin, göyün bəlalərindən hifz etsin.

Ş a h  A b b a s. Xob, nə var, mirzə?

M i r z ə  S ə d r ə d d i n. Xidmətinizə mühüm bir iş üçün gəlmişəm!

Ş a h  A b b a s. Nə iş? Xeyir olsun!

M i r z ə  S ə d r ə d d i n. Qibleyi-aləm sağ olsun, hər zaman xidmətinizə şad xəbərlə gəlmişəm. Ancaq bu dəfə...

Ş a h  A b b a s. Tez söylə, nə demək istəyirsən?

M i r z ə  S ə d r ə d d i n. Qibleyi-aləm, gecə-gündüz üstürlabı[1] göylərə çevirib sizin vücudunuza heç bir bəla toxunmadığını ulduzlardan öyrənirəm. Ancaq, ulduzlar bu dəfə...

Ş a h  A b b a s. Tez söylə, nə var? Yoxsa ulduzlar xərifləyib?

M i r z ə  S ə d r ə d d i n. Bəli, qurban, xərifləyib, xərifləyib...

Ş a h  A b b a s. Nə göstərir?

M i r z ə  S ə d r ə d d i n. Ağzım, dilim qurusun, ulduzlar göstərir ki, yaxın zamanda padşahın vücuduna böyük bir bəla toxunacaq. Bu qapının qulu olduğum üçün əhvalatı sizə xəbər verməyi özümə borc bildim.

Ş a h  A b b a s (*həyəcanla*). Xob, bu bəlanın dəfi üçün, şübhəsiz, çarəsini də düşünmüsən, elə deyilmi?

M i r z ə  S ə d r ə d d i n. Çox düşündüm, padşahım, ancaq heç bir çarə tapmadım.

Ş a h  A b b a s (*acıqlı*). Heç bir çarə tapmadın? (*Taxtından düşüb acığından bığlarını çeynəyə-çeynəyə gəzinir. Sonra Mirzə Sədrəddinə acıqlı*)

Tapmadım, tapmadım... Aciz, miskin!.. Dəf ol burdan! (*Mirzə Sədrəddin suyu süzülə-süzülə gedir. Şah Abbas bağırır*) Xacə! Xacə!..

X a c ə (*daxil olub baş əyir*). Bəli, qurban!

Ş a h  A b b a s. Fərraş göndər, Sərdar Zaman xanı, Mirzə Yəhyanı, Möhsün xanı, tarixnəvis İskəndər bəyi, Mollabaşını hüzuruma çağırsın.

X a c ə. Baş üstə, qurbanın olum.

Baş əyə-əyə çıxır, Şah Abbas taxta oturmaq üçün gedərkən.

Ş a h  A b b a s. Abbas, qara günlərin çatdı. (*Taxta oturub başı köksündə düşünür, həyəcanlı və əsəbi hallar keçirir. Birdən-birə əlini taxta çırparaq*) Uf, ölüm qorxusu qəlbimi dəlir. Ey şanlı, şövkətli taxtı-tacım, sizdən mən necə ayrılım? Bu, mənim üçün ölümdən daha müdhişdir!.. Hələ Səlma, o gözəl Səlma... Məndən sonra kimlərə yar olacaq?.. Ah, bu qara fikirlər mənim bütün vücudumu sarsıdır. Yox, yox!..

---
[1] Ulduzları seyr edən astronomik alətdir.

S ə l m a daxil olur, Şah Abbası pərişan görüb ona yanaşır.

S ə l m a. Padşahım, sizə nə oldu?

Ş a h A b b a s (*acıqlı*). Çəkil, get!..

Səlma bir-iki addım geri çəkilib, şübhəli baxışlarla şahı süzdükdən sonra həzin və yalvarıcı bir tövr və səslə.

S ə l m a. Padşahım, sizinlə danışan Səlmadır! Bir az əvvəl bağçamın şah çiçəyi, tacımın şah gövhəri, bütün dünya gözəllərinin gözəli deyə oxşadığınız. İndi nə oldu? Mənmi dəyişdim, sizmi?

Ş a h A b b a s (*qəzəbli, əli qılıncının qəbzəsində*). Nə istəyirsən, sənə, dəf ol, deyirəm!.. (*Əli qılıncının qəbzəsində ayağa qalxaraq*) Cəllad!.. Cəllad! Mənim ki yaşamağa artıq ümidim yoxdur. Məndən sonra görəsən kimlərə qismət olacaqsan!

Səlma qorxu və həyəcan içində geri çəkilərək.

S ə l m a. Padşahım, mərhəmət, mərhəmət!

Ş a h A b b a s. Qadına mərhəmət olmaz! Bu gün ölsəm, sabah ərə gedərsən.

Qəhrəman cəllad geyimində gəlib şaha təzim edir.

Q ə h r ə m a n. Əmriniz, padşahım!

Ş a h A b b a s. Götür, bu qadını susdur.

Səlma başını əlləri içində tutur, vəhşi kimi birdən sıçrayaraq.

S ə l m a. Ah, ağlım kimi ömrüm də nə az və qısa imiş... Atam həmişə deyərdi: “Saray öz içindəkiləri yandıran alovlu bir yanğındır”. (*Taxtın ayağına qədər gəlir, diz çökərək*) Möhtərəm padşah, mərhəmət!

Dilsiz, hərəkətsiz taxtın ayaqlarını qucaqlayıb durur.
Qəhrəman çaşqın-çaşqın Səlmaya baxır.

Ş a h A b b a s. Durma, apar bu qadının başını bədənindən ayır ki, arxayın olum.

Q ə h r ə m a n (*diz çökərək*). Ey böyük və mərhəmətli padşah, onlarla qatili, asi və azğınları bir an içində qoyun kimi boğazlayıb başlarını taxtınızın ayağında top kimi oynatmışam. Bu qapının kiçik qulu olsam da, sizin böyüklüyünüzə sığınıb yalvarıram, xanım Səlmanın

qanından keçin. Qəzəbinizin atəşi sönməmişsə, əmr edin mənim başımı vursunlar.

Taxtın ayağında diz çökür. Xacə Mübarək daxil olur. Cəlladı görüncə qorxa-qorxa geri çəkilərək.

X a c ə. Bu sarayın qəzəbindən sən saxla, Allah... (*Şah Abbasa*) Pad...i...şah...və...zir...lər ha...zır.

Şah Abbasın siması dərhal işıqlanır, Xacəyə.

Ş a h A b b a s. Söylə gəlsinlər. (*Xacə gedir*) Bu dərdə vəzirlər bir çarə tapar. Hələ yaşamağa ümidim var. (*Cəllada və Səlmaya*) Xob, dəf olun buradan.

Səlma bihal qalxır, halsız addımlarla çəkilir. Cəllad təzim edib səhnədən çıxarkən vəzirlər daxil olur. Cəlladı görüncə hamı qorxa-qorxa irəli gəlib taxtın dibində diz çöküb, başları yerə dəyincə əyilir.

V ə z i r l ə r. Padşahım, mərhəmət!

Ş a h A b b a s (*acıqlı*). Qalxın. (*Hamı ayağa qalxır, əsə-əsə padşaha baxır*) Sizi bu gün mühüm bir iş üçün çağırmışam. (*Əli ilə yer göstərir. Hamı oturur. Şah bir az sükutdan sonra*) Cavan münəccim Mirzə Sədrəddinin verdiyi qara xəbərə görə, ulduzların seyri belə göstərir ki, İran padşahının vücuduna böyük bir bəla toxunacaqdır.

M o l l a b a ş ı. Sübhanallah!..

M i r z ə M ö h s ü n. Nə qorxunc xəbər!

S ə r d a r Z a m a n x a n. Bu heç ola bilməz!

İ s k ə n d ə r b ə y. Oldu, oldu, göylərə qoşun çəkib vuruşmayacaqsan ki?

Ş a h A b b a s (*acıqlı*). Sizi bura toplamaqdan məqsəd buna bir çarə və tədbir tapmaqdır. Bu qorxunc bəladan nə tədbir ilə qurtarmaq olar?

Hamı heyrət içində bir-birinin üzünə baxır.

Ş a h A b b a s (*acıqlı*). Cavab verin, tədbir göstərin! (*İskəndər bəy qələm-davatı çıxarıb yerə qoyur. Bir parça kağızı dizi üstünə qoyub müntəzir durur*) Tarixnəvis, sən söylə!

İ s k ə n d ə r b ə y (*özünü itirərək*). Mən?.. Padşahım! Nə söyləyim? Mənim gücüm ancaq qələmimə çatar. Ulduzların törətdiyi bəlayə qarşı neyləyə bilərəm?

Şah Abbas qaşlarını çataraq, acıqlı.

Ş a h  A b b a s. Miskin, yaramaz! (*Mirzə Möhsünə*) Mirzə Möhsün, bari, sən bir çarə göstər!

M i r z ə  M ö h s ü n (*təzim edərək*). Padşahım, mənim İran dövlətinə olan xidmətim hər kəsə məlumdur. Qibleyi-aləmin xatirindədir ki, atanız əlahəzrət Məhəmməd şahın səltənəti zamanında bir para cahil vəzirlərin təcrübəsizliyindən xəzinə boşalmışdı. Mən iş başına keçincə dərhal çarəsini tapdım. Hər vilayətin hakimliyi satıldığı zaman hakimlərdən xəzinəyə bəxşişlər aldım. Xəzinəni doldurmaq üçün bir çox başqa tədbirlər gördüm. O tədbirlər sayəsində bu gün xəzinəmiz ağzına qədər dolmuşdur. Böylə tədbirlər göstərməkdə böyük məharətim var! Ancaq ulduzlara qarşı tədbir göstərməkdən acizəm.

Ş a h  A b b a s (*acıqlı*). Bu, tədbir deyil, kişi! (*Sərdar Zaman xana*) Vəziri-cəng, sən nə deyirsən?

S ə r d a r  Z a m a n  x a n. Qibleyi-aləm sağ olsun. Bu qulunuz saqqalını sizin qapınızda ağartmışdır. On il bundan əvvəl dəmirçi oğlu Bəkir paşa yetmiş min ordu ilə İrana hücum edərkən İran ordusunun sərkərdəliyi mənə tapşırılmışdı. Qoşunumuzun tələf olmasına razı olmayıb əmr verdim hər yerdə əkinləri yandırsınlar, mal-qaranı qovub uzaq dağlara aparsınlar. Hər yerdə körpüləri uçurub yolları xarab etsinlər. Bundan sonra Bəkir paşa İrana girdisə də, ancaq beş yüz altı ilə Təbrizə qədər gələ bildi və üç gündən artıq qala bilməyib qaçmağa məcbur oldu. İndiyə qədər o yollar, küçələr xarabazardır. Böyük qapının bu qoca itinin belə tədbirlər göstərməkdə böyük məharəti var. Ancaq göydən enən bəlalərə çarə tapmaq mənim əlimdən gəlmir.

Ş a h  A b b a s (*acıqlı*). Gəlməz, gəlməz!.. İskəndər bəy, yazdığın tarix səhifələrinə bunu da qeyd et. Yaz ki, çörək verib saxladığı, böyük rütbələr verib ağlına, kamalına güvəndiyi vəzirlər Şah Abbasın belə çətin və ağır günündə kiçik bir tədbir göstərməkdən aciz qaldılar.

İ s k ə n d ə r  b ə y. Bəli, bəli, qurban... Hamısını qeyd edirəm. Mənim nəzərimdən bir tük də qaça bilməz. Padşahımın əsrinə dair böyük şahnamələr yaza bilərəm.

Ş a h  A b b a s. Tədbir göstərilməzsə, o şahnamələrdə elə qanlı səhifələr açacağam ki, fironlara, neronlara rəhmət oxunsun. (*Mirzə Yəhyaya*) Xob, Mirzə Yəhya, sənin tədbirin nədir?

M i r z ə  Y ə h y a. Padşahım, bilirsiniz ki, mən iş başına keçdiyim zaman maliyyə işləri bərbad bir halda idi. Bu xüsusda tədbirlər gördüm. Vilayət hakimlərinə məktub yazıb əmr verdim ki, ucuzluq ol-

duğuna görə bütün məmurların məvacibi özlərinə verilməyib xəzinəyə göndərilsin. Onsuz da hakimlər məmurların maaşını vermirdilər.

Ş a h  A b b a s (*onun sözünü kəsərək*). Tədbir göstər, kişi, mənə dastan oxuma! (*Onların yanından keçərək üzlərinə acıqlı-acıqlı baxdıqdan sonra Mollabaşıya birdən-birə*) Bəlkə sən bir tədbir göstərəsən?

M o l l a b a ş ı (*dik atılır*). Pərvərdigari-aləm padşahın vücudunu bütün bəlalərdən uzaq etsin. Bu bəndənin Səfəviyyə xanədanına olan sədaqəti hər kəsə məlumdur. Bu saat mənim qəlbim tavada balıq kimi çırpınır...

Ş a h  A b b a s. Sənin qəlbin balıq kimi çırpınır, mənə nə, mənim qəlbimdən danış!

M o l l a b a ş ı. Şah, mənim əqlimə belə gəlir ki, məlun Mirzə Sədrəddin bu bəlanın çarəsini gözəl bilir, nədənsə söyləməyib, gizləyir. Bunun çarəsini, padşahım, siz ondan tələb edin! Tədbir göstərməzsə, demək, burada bir sirr var. Əmr edin ona cəza versinlər.

Hamı məmnun halda dönüb ona baxır.

M i r z ə  Y ə h y a. Bu, gözəl fikirdir.

İ s k ə n d ə r  b ə y. Doğru tədbirdir.

S ə r d a r  Z a m a n  x a n. Münəccim Mirzə Sədrəddin buna bir tədbir göstərər.

M i r z ə  M ö h s ü n. Dərdi göstərən dərmanını da verməlidir!

Ş a h  A b b a s. Xacə, xacə! (*Xacə daxil olur*) O məlun Mirzə Sədrəddini çağır gəlsin. (*Xacə gedir*) And olsun babalarımın müqəddəs ərvahına, bu məlun da bir tədbir göstərməsə, bu sarayı sallaqxanaya döndərəcəyəm!

S ə r d a r  Z a m a n  x a n. İnşaallah Mirzə Sədrəddin bir çarə göstərər və padşahımız bu qorxunc bəladan qurtarar.

İ s k ə n d ə r  b ə y. Əlbəttə, əlbəttə! Onun nəzərindən heç bir şey qaça bilməz. Ancaq mənim fikrimcə, o, padşahı nədənsə qorxutmaq istəmiş...

S ə r d a r  Z a m a n  x a n. Yox, canım, Mirzə Sədrəddin o qələti eləyə bilməz.

M i r z ə  M ö h s ü n. Elədi, elədi də!..

M i r z ə  Y ə h y a. İnşaallah, etməz!..

M o l l a b a ş ı. Yox, etməz, etməz!

X a c ə. Şahım, Mirzə Sədrəddin hüzura müntəzirdir.

Ş a h A b b a s. Gəlsin!

M i r z ə S ə d r ə d d i n (*baş əyərək*). Əmriniz, qurban?

Ş a h A b b a s. Yaxın gəl, pədərsüxtə, ulduzların təsirini göstərib çarəsini gizlədirsən? Cəllad! (*Cəllad daxil olur*) Götür, bu itin başını vur!

Cəllad ona tərəf gedərkən Mirzə Sədrəddin taxtın qarşısında diz çökərək.

M i r z ə S ə d r ə d d i n. Mərhəmət, şahım, mərhəmət...

Ş a h A b b a s. Kəs pədərsüxtə! Çarə göstərməsən, bu saat başın bədənindən ayrılacaq.

M i r z ə S ə d r ə d d i n. Padşahım, iki gün möhlət verin, bəlkə Uluq bəyin kitabında buna bir çarə tapdım.

X a c ə (*gəlir*). Qibleyi-aləm, qoca münəccimbaşı Cəmaləddin hüzurunuza gəlmək istəyir.

Ş a h A b b a s (*məmnun*). Qoca münəccimbaşı? Gəlsin! (*Əli ilə cəllada işarə edir. Mirzə Sədrəddinə*) Qalx!

C ə m a l ə d d i n daxil olur. Hamı ayağa qalxır.

Buyur, Mirzə, buyur!..

C ə m a l ə d d i n. Padşahım, qocaldığıma baxmayaraq ürəyim bir an bu qapıdan ayrılmayır. Sizin taxt-tacınıza və mübarək vücudunuza bir ziyan toxunmasın deyə, gecə-gündüz gözlərimi ulduzlardan ayırmayıram.

Ş a h A b b a s. Xob, ulduzlar nə göstərir?

C ə m a l ə d d i n. Yaxşı göstərmir, padşah, ulduzların seyrindən görünür ki, İran padşahının vücuduna bəla toxunacaqdır.

Ş a h A b b a s. Dələduzlar!.. Bu gün sizə nə olub? Yoxsa, başımı yemək istəyirsiniz?.. Xob, buna bir tədbir düşünmüsənmi?

C ə m a l ə d d i n. Düşünmüşəm, padşahım! Əvvəlcə sözümü dinləyin!

Ş a h A b b a s. Ha... belə, bax! De görüm, nə deyirsən?

C ə m a l ə d d i n. Ulduzların seyrindən belə görünür ki, bu yaxın zamanda İran padşahının vücuduna bəla toxunacaq.

Ş a h A b b a s (*əsəbi*). Allah əkbər!.. Kişi, onu eşitdim, bunun çarəsi nədir?

C ə m a l ə d d i n. Çarəsi ulduzları aldatmaqdır...

Ş a h A b b a s. Ulduzları aldatmaq? Bu heç mümkün olan işdirmi?

C ə m a l ə d d i n. Mümkündür, padşah, ancaq bir az səbir və fədakarlıq lazımdır!..

Ş a h A b b a s. Sözü uzatma, de görüm, ulduzları necə aldatmaq olar?

C ə m a l ə d d i n. Qibleyi-aləm! Bu bəla ancaq İran taxtında oturan padşaha məxsusdur. Ulduzları aldatmaq üçün siz bir müddət tac və taxtdan əl çəkib onu günahkar bir adama buraxmalısınız – o zaman ulduzlardan yetişən bəla haman günahkar adama toxunacaq. Bu tədbir ilə ulduzları aldatmaq mümkündür.

Ş a h A b b a s. Yaxşı, sonra?

C ə m a l ə d d i n. O adam göydən gələn bəla ilə həlak olduqdan sonra siz yenə yenidən öz mübarək tac və taxtınıza sahib olarsınız.

Ş a h A b b a s. Ağıl mədənidir, ağıl!

M i r z ə Y ə h y a. Əhsən!

M i r z ə M ö h s ü n. Afərin!

M o l l a b a ş ı. Mərhəba!

S ə r d a r Z a m a n x a n. Çox gözəl tədbirdir!

C ə m a l ə d d i n. Ancaq bu işi xalqdan gizlin saxlamaq lazımdır ki, təsirdən düşməsin.

Ş a h A b b a s. Bax, tədbir belə olar! Boyunuzu yerə soxum, dələduzlar! Bax, tədbir belə olar! Mən öz həyatımı təhlükədən qurtarmaq, yenidən öz tac-taxtıma sahib olmaq üçün hər fədakarlığa razıyam! Daha durmayın!.. Bunu həyata keçirmək üçün o günahkar adamı göstərin! (*Diqqətlə bir-bir vəzirlərin üzünə baxdıqdan sonra birdən-birə İskəndər bəyə*) Bu taxta kimi keçirək? Sən layiqsən!..

İ s k ə n d ə r b ə y (*həyəcanla*). Padşah, qurban olum, məni başına çevir, mən hara, tac-taxt hara?

Ş a h A b b a s. Xob... Mirzə Yəhya, səni şah tikirəm.

M i r z ə Y ə h y a. Yox, qurban, yox, padşahlıq mənim əlimdən gəlməz.

Ş a h A b b a s. Dələduz! Bilirəm, hamınızın ürəyindən şahlıq keçirdi. İndi ölüm ayağı var deyə, bax, necə qaçırlar! (*Birdən-birə Mirzə Möhsünə*) Mirzə Möhsün, sən nə deyirsən?

M i r z ə M ö h s ü n. Mən?.. Mən?.. Padşah?..

C ə m a l ə d d i n. Qibleyi-aləm sağ olsun, haman günahkar adamı da mən sizə göstərə bilərəm.

Hamı şad və məmnun.

Ş a h  A b b a s. Tez göstər, o kimdir?

C ə m a l ə d d i n. Padşahım, Qəzvin şəhərində Yusif Sərrac adlı bir şəxs var. Özü kimi azğınları başına toplayıb xalqı azdırır. Deyir ki, şahların taxtını başına çevirmək lazımdır.

M o l l a b a ş ı. Bəli, bəli! Deyir ki, kəndxudadan tutmuş padşaha qədər bütün hökumət məmurları quldurdur!

Ş a h  A b b a s. Məlun!

İ s k ə n d ə r  b ə y. Kafir!

M i r z ə  Y ə h y a. Dələduz!

S ə r d a r  Z a m a n  x a n. Xain!

M i r z ə  M ö h s ü n. Alçaq! Padşaha və onun vəzirlərinə bu göz ilə baxan şəxsə ölüm layiqdir!

Ş a h  A b b a s. Xob, müvəqqəti olaraq taxt-tacı bu kafirə təslim etməyə razıyam. Qoy Allahın bəlasına düçar olsun. Bu işi uzatmaq olmaz!.. (*Bağırır*) Xacə! Xacə!

X a c ə (*gəlir*). Əmriniz, qurban!

Ş a h  A b b a s. Fərraş göndər, car çəkdirsin, şəhərdə olan mollaları, xanları, məmurları və tacirləri hüzuruma çağırsın. (*Xacə gedir. Cəmaləddinə*) Bu mənə böyük zülmdür.

M o l l a b a ş ı. Bu zülmə biz razı olmarıq, padşahım!

İ s k ə n d ə r  b ə y. Əlbəttə, olmarıq!

M i r z ə  Y ə h y a. Yox, olmarıq!

M i r z ə  M ö h s ü n. Olmarıq!

C ə m a l ə d d i n. Qoymarıq başından bir tük də əskik olsun.

M i r z ə  Y ə h y a. Yox, qoymarıq!

İ s k ə n d ə r  b ə y. Qoymarıq!

S ə r d a r  Z a m a n  x a n. Qoymarıq!

M i r z ə  M ö h s ü n. Qoymarıq!..

S ə r d a r  Z a m a n  x a n. Biz hələ ölməmişik, qibleyi-aləm!

İ s k ə n d ə r  b ə y. Bu xüsusda böyük bir dastan yazacağam, qibleyi-aləm!

Ş a h  A b b a s. Cəmaləddinə ən qiymətli bir xələt verilsin. (*Mirzə Möhsünə*) Mirzə Möhsün! Həmədan vilayətinin üç illik vergisini Cə-

malәddinә bağışladım. (*İskәndәr bәyә*) İskәndәr bәy! Tarixin әn parlaq sәhifәlәrindә bunu da qeyd et!..

Xacә bir xәlәt gәtirib Cәmalәddinin çiyninә atır.

H a m ı. Mübarәk, mübarәk, mübarәk!..

S ә r d a r  Z a m a n  x a n (*әtrafa*). Yaxşı demişlәr: biri ölmәsә, biri dirilmәz. Bu zalım oğlunun hәmişә bәxti gәtirir.

C ә m a l ә d d i n. Padşahım, Allah-taala sizi İran mәmlәkәtinә çox görmәsin!..

H a m ı. Amin, amin!

Ş a h  A b b a s. Xob, mürәxxәssiniz, qәrarımızı hәyata keçirmәk üçün lazım olan işlәri görün.

Vәzirlәr gedirkәn.

M i r z ә  M ö h s ü n. Atan rәhmәtlik, Cәmalәddin, bizi yaxşı qurtardın!

M i r z ә  Y ә h y a. Baban cәnnәtlik, Mirzә, bizi...

Hamı gedir. Şah Abbas tәk.

Ş a h  A b b a s. Bu qorxunc tәhlükәdәn yaxşı qurtuldum. (*Taxta, saraya baxaraq*) Әlvida, ey şanım, şövkәtim, izzәtim, hörmәtim! Әlvida, ey sәrvәtim, dövlәtim! Әlvida, ey taxtım, tacım! Müvәqqәti olsa da, sizdәn ayrılmaq mәnim üçün nә qәdәr çәtin vә ağırdır!

Sәhnәdәn çıxır. S ә l m a, bir an sonra Q ә h r ә m a n gәlir. Bir qәdәr sükutdan sonra.

S ә l m a

Yenә keçmiş gözümdә canlandı,
Yenә hәsrәt könül alovlandı.
Yadıma düşdü, ah, o dağ, o aran,
O moruqlu dәrә, o çöl, orman!
Ö gözәl kәndimiz, o sadә hәyat!
Sanki onlar xәyal imiş, heyhat!..
Lәnәt olsun bu qan içәn saraya,
Lәnәt olsun o gün, o il, o aya,
Qәlbi, vicdanı paslı, kirli kәsә
Ki, mәni saldı bu qızıl qәfәsә!

Q ə h r ə m a n

Haqlısan, haqlısan, gözəl Səlma!
Yadıma, ah, o günləri salma!
Quş kimi şən həyatımız vardı,
Onu zəngin təbiət oxşardı.
Qəlbimizdi şəfəq kimi oynaq,
Sevgimiz çeşmədən daha parlaq.
Bənzəməzdi saray məhəbbətinə!
Qan ilə yüksələn bu şövkətinə.
Bilməz idik yalan, riya, hiylə,
Biz nəyik bu sarayda, ah, söylə?
Sən əsir, mən qul, vəhşi bir cəllad.

S ə l m a

Saf, təmiz vicdana uyarmı bu ad?
Bilirəm qəlbini, o vicdanını.

Q ə h r ə m a n

Tökmədim bir günahsızın qanını...

S ə l m a

Tökəcəkdin.

Q ə h r ə m a n

Səninmi? Hay, hay, hay.
Qəlbimə yol tapammamış bu saray.
Mən haman bildiyin o Qəhrəmanam.
Sızlayır qəlbimin içində yaram.
Məni qanlı vəzifəyə, buraya –
Bağlayan eşqin oldu... Bu saraya
Yoxsa kim bağlaya bilərdi məni?
Sevgilər susduran bu dəbdəbəni
Yerə batsın!

S ə l m a

Nə günlərim vardı!
Bir qara fırtına bizi sardı.

Atdı zindanlı, qanlı bu saraya,
Qoydu həsrət sevimli, şən yuvaya.

Q ə h r ə m a n

Bizi bir kənd böyütdü, bir yaşadıq.
Ah, o günlər xəyal imiş artıq.
Şah o gün ki dolaşdı ölkəmizi,
Ot biçirkən çadırda gördü bizi,
Sənə bağlandı o zalım ürəyi.
Coşdu qəlbində sevginin diləyi.
Səni zor-güc götürmək istərkən
Çarəsiz onlara yanaşdım mən.

S ə l m a

Ah, yadımdan çıxarmı o günlər?
Bizi sardı acı düşüncə, kədər!

Q ə h r ə m a n

Mirzə Möhsünlə Mirzə Yəhya xan
Dedilər: "Bu igid, cəsur oğlan
Yaxşı cəllad olar, alın bunu da".
Məni susdurdu saf, təmiz sövda.
Səndən ayrılmadım, düşüb izinə,
Birgə gəldik, görünmədim gözünə.
Yaşadım bu sarayda tək, tənha.
Məni cəllad edən vəzirə, şaha,
O günə ki səmimi sevgimizi
Çeynəyib qəhr ilə ayırdı bizi.
Lənət olsun!
Bu intiqam hissi
Sarayın qanlı bu qızıl qəfəsi...
Qəlbimi inlədir mənim, Səlma!
Bu riyakar sarayda sən qalma!
Gəl qaçaq, sevgilim! Dayanma!

(*Qolundan çəkir*)

S ə l m a

Hara?

Q ə h r ə m a n

Doğma kəndə, könül açan diyara!

Səs gəlir, hər ikisi tez səhnədən çıxır. M i r z ə  M ö h s ü n  x a n,  S ə r d a r  Z a m a n  x a n,  M o l l a b a ş ı,  İ s k ə n d ə r  b ə y,  M i r z ə  Y ə h y a daxil olur.

M i r z ə  M ö h s ü n. Bu tələdən çox yaxşı qurtulduq.

S ə r d a r  Z a m a n  x a n. Çox yaxşı... Sağ olsun Cəmaləddin.

M i r z ə  Y ə h y a. Bu tədbir kimsənin ağlına gəlməzdi.

İ s k ə n d ə r  b ə y. Əcəba, Cəmaləddin bu tədbiri göstərməsəydi, görəsən, halımız nə olardı?

M o l l a b a ş ı. O, bəlli bir şeydir, əvvəlcə Mirzə Sədrəddinin başı gedəcəkdi.

M i r z ə  M ö h s ü n. Sonra?

S ə r d a r  Z a m a n  x a n. Sonra da bizim.

İ s k ə n d ə r  b ə y. Ay mamaxoslar, hamıdan əvvəl mənim başım gedərdi ki!..

M i r z ə  M ö h s ü n. İşdən bixəbər olan xalqın halını düşündükcə mənə dəli bir gülüş gəlir. Görəsən, bu xalq Şah Abbasın tac və taxtından əl çəkib onu Yusif Sərraca buraxmasına nə məna verəcək?

M i r z ə  Y ə h y a. Baxma, elə dələduzlar var ki, o saat anlayacaq.

İ s k ə n d ə r  b ə y. Eh... bu elə açılmaz bir müəmmadır ki, heç kəs anlamaz.

M o l l a b a ş ı. Yox, anlar!

İ s k ə n d ə r  b ə y. Anlamaz!

S ə r d a r  Z a m a n  x a n. Anlar!

İ s k ə n d ə r  b ə y. Sizə anlamaz deyirəm.

S ə r d a r  Z a m a n  x a n. Anlamaz sənsən, sus, ədəbsiz!

İ s k ə n d ə r  b ə y. Sübhanallah, kişi, mən sizə nə dedim?

M i r z ə  M ö h s ü n. İskəndər bəy, acıqlanma, əslinə baxsan, bizim heç birimiz anlamırıq.

Şah Abbas gəlir. Vəzirlər Şah Abbasın qarşısında əlibağlı durur. Şah Abbas üzünü Mollabaşıya tutur.

Ş a h  A b b a s. Molla Səməd, mən öz tərəfimdən səni vəkil edirəm: hərəmxanada olan arvadlarımın talağını verərsən. Ancaq bir Səlmanı, o gözəllər gözəlini qoruyarsan. Ona saraydan bir an uzaqlaşmağa imkan versən, başın bədənindən ayrılacaqdır, bildin?

M o l l a b a şı (*baş əyib*). İtaət, qibleyi-aləm.

Ş a h  A b b a s. Vəzirlər, yeddi ildir ki, Allah-taalanın qüdrətilə sizə padşahlıq edirəm, hər zaman mənim əmrlərimə itaət etdiyinizə görə, çox təşəkkür edirəm. Ancaq bu gün sizinlə son görüşümdür. (*Şah Abbas başından tacı götürür, qolundan bazubəndləri, belindən qızıl kəməri və qılıncı açır. Şahanə libasını əynindən çıxarır. Adi qiyafədə*) İndi mən də sizin kimi bir bəndəyəm. Abbas Məhəmməd oğlu... Siz çıxardığınız qərarı həyata keçirin. Mən getdim, xudahafiz!..

P ə r d ə

## İKİNCİ PƏRDƏ

Səhnə Qəzvin bazarlarından birini təsvir edir. Bazarın bir tərəfi açıqlıq, meydan, xarabalıq... Yusif Sərracın dükanı, divarlardan yəhər, cilov və sair asılmışdır. Usta Yusif əlindəki cilovu tikib hazırlamağa çalışır. Bazarda baş verən hadisələri nifrətlə seyr edir. Boynundan iri və kiçik muncuqlar asmış, uzun yun papağına qaz, xoruz və toyuq lələyi taxmış bir dərviş, əlində kəşkül və təbərzin, oxuya-oxuya gedir. Kəşkülünü yoldan keçən adamlara tərəf uzadıb pul istəyir.

D ə r v i ş

(*Oxuya-oxuya meydanı dolaşır*)

Nə mərizü nə təbibəm, hələ ləngü ləngü ləngəm.
Nə həbibü nə qəribəm, hələ ləngü ləngü ləngəm.
Na zi xakü nə badəm, hələ ləngü ləngü ləngəm.
Nə sitarəyəm, nə mahəm, nə gəda, nə padişahəm.
Bə miyani in dü rahəm, hələ ləngü ləngü ləngəm.
Nə zəmin, nə asimanəm, nə əz inü nə əz anəm,
Nə diyari-lamәkanəm, hələ ləngü ləngü ləngəm!

Y u s i f. Avazın yaxşı gəlir, ancaq özün alimibiəməlsən. Mənim tiryəkə verəcək pulum yoxdur... (*Rədd edir, dərviş acıqlı-acıqlı baxaraq uzaqlaşır*)

X o s r o v ilə B u d a q Yusifin dükanına gəlirlər.

H ə r i k i s i. Salam, usta Yusif!
Y u s i f. Əleyküməssəlam.
X o s r o v. Usta Yusif, yenə nə var, qaşların yaman çatılıb?

Usta Yusif əlilə meydanı göstərir.

Y u s i f. Bu meydanda adamdan başqa hər şey var: ilanoynadan, falabaxan, cibkəsən, duayazan. Mövhumat, yoxsulluq gündən-günə artır. Hələ o başı çarşablı qoca arvada baxın, bayaqdan bir parça arpa çörəyi almaq istəyir, pulu çatmır. (*Dəsmala bağlayıb-yemək üçün gətirdiyi çörəyi göstərərək*) Budaq, bu çörəyi o qoca arvada ver.

B u d a q çörəyi alıb gedir.

X o s r o v. Bu il quraqlıq keçdiyindən çörəyin qiyməti çox bahalanıbdır.

Y u s i f. Padşah və onun talançı vəzirləri vaxtında Qəzvinin ətrafına su çəkdirsəydi, belə bahalıq olmazdı. Eh, Xosrov, xalqı düşünən kimdir, onların başı ancaq kefə, camaatı talamağa məşğuldur.

B u d a q gəlib onları dinləyir. Meydanda d a r ğ a və iki f ə r r a ş görünür. Hamı bir-birinə dəyir.

Y u s i f. Qarğabaşı gəldi. (*Gülüşürlər*)

D a r ğ a əlindəki matraq ilə adamları vura-vura keçir.

D a r ğ a. Boş yerə meydanı niyə tutmusunuz?

Alverçilər ovcuna pul basır, o, alıb keçir.

Y u s i f. Maliyyə vəzirinin əmrilə xidmətçilərə məvacib verilmir, onlar camaatı soymaq ilə yaşayırlar.

X o s r o v. Bir bax, tiryək pulunu qazandı. Bu saat özünü vuracaq tiryəkxanaya.

Səhnə qaralır; tiryəkxanada bir nəfər tiryək çəkir, çubuğu və iki əlini göyə uzadır.

T i r y ə k k e ş. Bax, bax, mən indi mələklərin qanadları üstündə uçuram. (*Birdən ucadan*) Yol verin, yol verin, uçuram...

Dərviş daxil olur, tiryəkkeşə.

D ə r v i ş. Pədərsüxtə, sən uçmaqda davam elə, hoqqanı bura ver, qoy bir-iki qullab da mən vurum. (*Tiryəkkeşin əlindən çubuğu dartıb alır, özü çəkməyə başlayır. Tiryəkkeş başını mütəkkəyə qoyub uzanır, dərviş çubuğu çəkə-çəkə tiryəkkeşi ayağı ilə vurur*) Ey, təpik atma, ayaqlarını yığışdır.

Darğa daxil olur.

D a r ğ a. Siz burda niyə vuruşursunuz? Qalxın ayağa!

Tiryəkxana sahibi darğaya tez bir çubuq uzadır və ona yer göstərir.

T i r y ə k x a n a  s a h i b i. Buyurun, ağa, əyləşin, çəkin.

Darğa tiryək çəkir. Tiryəkkeş bərk xorna çəkdikdən sonra
başını qaldırır, sərxoş halda dərvişə baxır.

T i r y ə k k e ş. Ey, mən hardayam? Yerdəyəm, ya göydə?

D ə r v i ş. Heç birində, cəhənnəmin təkində.

T i r y ə k k e ş (*gözünü silə-silə*). Nə dedin? Harda?

D ə r v i ş (çəkə-çəkə). Cəhənnəmin təkində.

Tiryəkkeş əlilə döşünü qaşıya-qaşıya.

T i r y ə k k e ş. Ürəyim narşərab istəyir, görəsən, orda narşərab verirlər?

D ə r v i ş. Verirlər, verirlər, özü də lap kasa-kasa verirlər.

T i r y ə k k e ş. Aha, elə de. (*Oturur, diqqətlə dərvişə baxıb*) Ey, sən kimsən?

D ə r v i ş. Mən... narşərabam.

T i r y ə k k e ş. Narşərab?

D ə r v i ş (*halsız*). Al, al, narşərabı. (*Çubuğu ona uzadır*) Başımı hara qoyum? (*Uzanmaq istəyir*)

T i r y ə k k e ş (*dərvişdən bərk-bərk yapışıb*). Ey, tut məni, yıxılıram.

D ə r v i ş. Burax məni, mən uçmaq istəyirəm.

T i r y ə k k e ş. Göydən yıxılıram, yıxılıram. (*Dərvişi tutur*)

D ə r v i ş. Ey, burax məni, mən göydə uçmaq istəyirəm.

D a r ğ a. Mən də, mən də. (*Dükançıya*) Ey, de görüm, göydə də darğabaşı var?

T i r y ə k x a n a  s a h i b i. Var, ağa, var.

D a r ğ a (pulunu dükançıya uzadır). Al pulu saxla, qorxuram göydə darğabaşı alsın... (*Uzadır*)

Səhnə qaranlıqlaşır, yenə əvvəlki meydan.

Y u s i f. Bax, budur Şah Abbasın yaratdığı həyat...

X o s r o v. Usta Yusif, səninlə tanış olduğuma, bilsən, nə qədər peşmanam.

Y u s i f. Nə üçün? Mən sənə nə eləmişəm?

X o s r o v. Bundan artıq nə edəcəksən? Nə gecə yuxum var, nə gündüz rahatlığım. Düşüncə, kədər içində üzülüb gedirəm.

Yusif başını qaldırır.

Y u s i f. Nə demək istəyirsən?

X o s r o v. Demək istəyirəm ki, sən nə üçün mənim gözlərimi açdın? Nə üçün bu bədbəxt məmləkətdə olan bütün çirkinlikləri mənə göstərdin?

Y u s i f. Əvvəllər bu çirkinlikləri görməyirdinmi?

X o s r o v. Görürdüm, ancaq o qədər mütəəssir olmurdum. Çünki cahil idim. Əqlim, şüurum, mühakiməm zəif idi. Hökumətin, hətta ən kiçik bir məmurun etdiyi haqsızlığı mən bir qanun sanırdım, məmləkətin ehtiyacını, zamanın tələblərini bu qədər dərindən düşünə bilmirdim.

B u d a q. Mən də... mən də!

X o s r o v. Bilirsənmi, dost, mən o zaman nə özümün, nə də camaatın əzildiyini bu qədər dərindən hiss edə bilmirdim.

B u d a q. O zaman da istibdad pəncəsində əzilirdik, indi də. Yalnız bir fərqi var. O zaman bu heyvan kimi yaşayışın səbəblərini görmürdük, anlamırdıq. İndi isə o səbəbləri anladığımız üçün əzab çəkirik.

X o s r o v. Doğrudur! Doğrudur... O zaman gözümüz açılmamışdı. Hökumət başında duran şöhrətpərəstlər gözümüzün qarşısında qalın və qara pərdə asmışdı.

Y u s i f. Bəs mənim gözlərimi kim açdı? Yoxsul bir kəndli oğlu idim, oxumaq üçün atam məni İsfahana mədrəsəyə göndərdi. Orada səkkiz il oxudum, çalışdım, nədənsə xoşuma gəlmədi. Oradan Həmədana getdim. Sərraclıq sənətini orada öyrəndim. Mənim gözlərimi həyatın ağır zərbələri, alnımın təri və əlimin zəhməti açdı.

B u d a q. Doğrudur, ehtiyac adama hər şeyi öyrədir.

Y u s i f. Bu məmləkətin islahata çox böyük ehtiyacı var. Əlimdə hakimiyyət olsa idi, mən bilirəm nələr edərdim: qadınlara azadlıq ve-

rərdim; məktəblər açardım... Eh... Bunlar haqqında düşünməli və çarə aramalısınız.

X o s r o v. Usta Yusif, sənin hər sözün bir həqiqətdir. Sən yalnız əsrimizə deyil, əsrlərə nüfuz edə bilmiş böyük bir qüvvətsən.

R ə h m a n  tələsik gəlir.

R ə h m a n. Usta Yusif, muştuluğumu ver!

Y u s i f. Nə var?

R ə h m a n. Muştuluğumu verməsən demərəm.

Y u s i f. Yaxşı, muştuluğun borc olsun.

R ə h m a n. Yox, bu elə muştuluqdur ki, nağd olmalıdır... Kişi, sənin xəbərin yox... dünya aşıb-daşıb...

X o s r o v. Doğrudan, nə olub?

R ə h m a n. Tez ol, ver, söyləyim.

B u d a q  ona bir cilov uzadır.

B u d a q. Al, bu sənin muştuluğun, keçir başına.

X o s r o v (*yəhəri göstərib*). İstəyirsən bu yəhəri də verim, qoy belinə, bundan artıq muştuluq?

R ə h m a n. Heyvan özünsən!..

Y u s i f. Yaxşı, zarafatı burax, söylə görək nə var?

R ə h m a n. Zarafat deyil, canın üçün, doğru deyirəm. Yaxşı bir plov verərsənmi?

B u d a q. Verər, yaxşı, verər.

R ə h m a n. Özü də Tubu xanım bişirmək şərtilə.

Y u s i f. Yaxşı, razıyam.

R ə h m a n. Sizdən də qonaqlıq alacağam.

Xosrov. Eh, səbrimiz tükəndi, de görək nə var?

R ə h m a n. Nə olacaq, Şah Abbas taxt-tacından əl çəkib.

Y u s i f. Burda xəriflədin, yalandır!

X o s r o v. Əlbəttə, yalandır! Biz də deyirik, görəsən nə var?

Yusif. Mən onun dabbaqxanada gönünü tanıyıram. O, canından əl çəkər, taxt-tacından əl çəkməz.

R ə h m a n. Doğru deyirəm, bunu bütün şəhər danışır.

Yusif meydançada bir-birilə qorxa-qorxa, gizli-gizli danışan adamlara baxır.

Y u s i f. Baxın, meydan bir-birinə dəymiş... Burda bir iş var.

Hamı meydana tamaşa edir.

I a d a m (*qorxa-qorxa, yavaşca*). Xəbərin var?

II a d a m. Nədən?

I a d a m. Deyirlər, Şah Abbas taxtından əl çəkibdir.

II a d a m (*qorxa-qorxa*). Sus! Nə danışırsan, kişi? Başımızı qana salarsan...

I a d a m. Bütün şəhər danışır.

II a d a m. Yum ağzını, eşitsələr dərimizə saman təpərlər. (*Qolundan tutur, danışa-danışa gedirlər*)

III a d a m. Bura bax!

IV a d a m. Hə, nə var?

III a d a m. Sən də eşitmisən?

IV a d a m. Nəyi?

III a d a m (*qorxa-qorxa*). Belə xəbər var ki, Şah Abbası taxtından yerə salıblar.

IV a d a m (*ətrafa qorxa-qorxa baxaraq*). Kişi, sən xərifləmisən... görünür, başın qaşınır. Mən hələ yaşamaq istəyirəm.

III a d a m. Canım üçün, hamı danışır.

IV a d a m. Sənə sus deyirəm, qırışmal! (*Qolundan tutub sürüyür*) Gəl gedək, başını bıçağa sürtdün; gəl, tez ol!

III a d a m (*qorxa-qorxa*). Hara?

IV a d a m. Darğanın qulluğuna. (*Onu çəkir*)

III a d a m. Kəblə Hüseyn, Allah rizasına, yaxamdan əl çək! Məni balalarının başına çevir. Canın üçün, daha danışmaram.

IV a d a m. Gəl-gəl, deyirəm. Mən canımdan keçməmişəm. (*Çəkə-çəkə aparır*)

X o s r o v. Yusif demişkən, burada bir iş var.

Vəzirlər böyük dəbdəbə ilə meydan başında görünürlər.
Budaq onları əlilə göstərərək.

B u d a q. O nədir?

Y u s i f. Yenə bu şikəmüddövlə başındakı həşəratı ilə hansı cəsəd üstünə qonmağa tələsir?

X o s r o v. Kim bilir, bütün İran onun üçün cəsəd deyilmi?

R ə h m a n. Usta Yusif, birbaş bizim üstümüzə gəlir.

Y u s i f. Gəlsin, yel qayadan nə aparar!..

B u d a q. Allah, sən bizi bunların şərrindən saxla.

Vəzirlər dəbdəbə ilə Yusif Sərracın dükanı ağzında dayanırlar. Mollabaşı, Sərdar Zaman xan irəli gəlir.

M o l l a b a ş ı. Salaməleyküm, usta Yusif!

Y u s i f. Əleykəssalam...

M o l l a b a ş ı. Usta Yusif, qəza və qədərdən qaçmaq olmaz! Bu gündən siz Allahın əmrilə İran taxt-tacının sahibi Yusif şahsınız!

C a m a a t. Yaşasın Yusif şah!

S ə r d a r Z a m a n x a n. Şah Abbas səltənəti sizə təslim etməyə əmr vermişdir. Özü də dərvişlik qəbul edib. Saraya buyurun, İran taxt-tacı sizi gözləyir.

Hamı heyrət içində.

Y u s i f (*ətrafa*). Keçəl suya getməz. (*Onlara*) Ağalar, təvəqqe edirəm mənə dolaşmayın. Onsuz da bizi hər zaman dolayırlar!

S ə r d a r Z a m a n x a n. Bu nə sözdür, Yusif şah... Atamın ərvahı üçün, sizi dolamırıq, sözümüz həqiqətdir. Siz həqiqətən İran taxt-tacının sahibi Yusif şahsınız!

Y u s i f (*ətrafa*). Dilləri qoyun, işləri oyun. (*Onlara*). Ağalar, mən hara, padşahlıq hara? Yaxşı sənətkarın sənəti onun üçün şahlıqdır. Fəqir bir sərracam, mənə dolaşmayın!

M o l l a b a ş ı. Əstəğfürullah, Yusif şah, siz İran taxtının sahibi Yusif şahsınız!..

C a m a a t. Yaşasın Yusif şah!..

S ə r d a r Z a m a n x a n. Xələt gətirin, qibleyi-aləmi geyindirək.

Y u s i f. Ağalar, İranda məgər adam qıtlığıdır? Siz nə üçün ancaq məni görə bildiniz?

M i r z ə M ö h s ü n. İran taxt-tacına hər kəsdən daha layiq, müstəhəq olduğunuz üçün.

M i r z ə Y ə h y a. Kamal və şüurunuzu hər kəsdən çox bəyəndiyimiz üçün.

X o s r o v. Deməli, İranda insanlara öz əqil və kamalı ilə qiymət verilməyə başlanmışdır. Nə şad xəbər, gün hardan doğmuşdur?

R ə h m a n. Bu, gözəl bir faldır. Göz var görmək üçün, ağıl var bilmək üçün.

B u d a q. Usta Yusif, qəbul et! İran məmləkətinin sənə böyük ehtiyacı var.

R ə h m a n. Bu, İran üçün böyük bir səadətdir! Yusif şah həmişə deyirdi: ehtiyac təkamülün babasıdır.

Y u s i f. Görək bu nə siyasətdir!

Yusif şahı geyindirirlər. Dərviş, əlində kəşkül, oxuya-oxuya gəlir.

D ə r v i ş

Nə mükəddərəm, nə şadəm, nə nihan, na aşikarəm,
Nə zi xakü nə badəm, hələ ləngü ləngü ləngəm.

Kəşkülü vəzirlərə tərəf uzadır. S ə r d a r Z a m a n xan kəşkülə bir ovuc pul tökür.

S ə r d a r Z a m a n x a n. Yeni padşahımız Yusif şahdan xələt almaq lazımdır!

Dərviş oxuya-oxuya kəşkülü Yusif şaha tərəf uzadır.

D ə r v i ş

Nə sitarəyəm, nə mahəm, nə gəda, nə padşahəm
Bə miyani in dü rahəm, hələ ləngü ləngü ləngəm.

Y u s i f ş a h (*onun sözünü kəsərək*). Məscid tikilməmiş, kor qapını aldı. (*Kəşkülü rədd edərək*) Dərviş! Mənə qəsidə lazım deyil. Mən o şahlardan deyiləm.

D ə r v i ş (*ona acıqlı baxaraq*). Səndən şah olmaz!..

B u d a q. Əyri düzü bəyənməz, bu da bizi bəyənməz.

R ə h m a n. Çəkil burdan!

Y u s i f ş a h (*Rəhmana*). Hər hürənə daş atsan, daş üstündə daş qalmaz.

X o s r o v. Yusif şahın hər sözü bir hikmətdir.

B u d a q. Allah İrana səni anlayan baş, eşidən qulaq, sevən qəlb kəramət etsin.

M o l l a b a ş ı. Yusif şah ədaləti ilə özünü İran xalqına sevdirəcək.

M i r z ə M ö h s ü n. Şübhəsiz, şübhəsiz!..

S ə r d a r Z a m a n x a n (*amiranə bir səslə*). Hazır!.. (*Yusif şaha*) Buyurun, qibleyi-aləm, buyurun!

Y u s i f ş a h (*yoldaşlarına*). Sağ olun, dostlar, inşaallah, görüşərik.

H a m ı. Sağ ol, Yusif şah, sağ ol!

B u d a q. Keçən keçdi, gələn üçün xeyir olsun.

Musiqi, dəbdəbə və təntənə ilə Yusif şahı aparırlar, dostları arxadan heyrətlə ona tamaşa edirlər.

P ə r d ə

## ÜÇÜNCÜ PƏRDƏ

Səhnə saray bağçasını təsvir edir. Ağaclıq, çiçəklik, xiyaban, fəvvarəli hovuzlar. Axar su, geniş bir meydança, bir tərəfdə şahın taxtı. Xacə taxta yaxın durub öz-özü ilə danışır.

X a c ə. Bu saray elə bir müəmma və tilsimdir ki, heç kəsin başı çıxmaz... Heç bilmirəm, Şah Abbas bu taxtdan necə əl çəkdi? Onu bu şövkət, bu dəbdəbədən hansı qüvvət ayırdı? Bircə bilsəydim bu işlərin sonu nə olacaq? Görəsən, Yusif Sərrac bu taxtı, tacı qəbul edəcəkmi? Yox, qəbul etməz! O ki bu taxtın, bu tacın ən böyük düşmənidir. (*Əlini taxta vuraraq*) Eh, bu taxtda elə bir cazibə və hikmət vardır ki, Sərracı da öz tərəfinə çəkər! Ey taxt, sən nə böyük qüvvətsən ki, arabir məni də yerimdən oynadırsan! Məsəldir, at minənindir... Bir saat mən də üstündə oturub şahabbaslıq etsəm, qiyamət qopmaz ki!

Yavaş-yavaş taxta çıxır. Şah Abbasın təqlidini çıxarır. Kamali-qürur ilə gah gözlərini bir nöqtəyə dikib durur, gah əlini qılıncının qəbzəsinə uzadıb acıqlanır. Bu zaman əvvəlcə Q ə h r ə m a n , sonra S ə l m a gəlir. Hər biri bir tərəfdə ağac altında gizlənib ona tamaşa edir. Xacə əlini, ayağını öpdürən Şah Abbas kimi bir vəziyyət alır, birdən-birə səslənir.

X a c ə. Xacə Mübarək! (*Tez taxtdan enib üç-dörd qədəm irəli gedir. Birdən-birə dönüb Xacə Mübarək roluna girir. Taxtın qarşısında ikiqat olub əyilərək*) Bəli, qurban! (*Diqqətlə ətrafa baxır, yenə Şah Abbas roluna girir. Taxta çıxıb səslənir*) Rəqqasələr gəlsin! (*Xacə rəqqasələr roluna girir. Taxtın qarşısında əl-qol atıb oynayır və ağzı ilə arabir çalır. Sonra yenə şah roluna girir. Taxta oturur*) Mənə qarşı bu nə cəsarətdir? Cəllad! Cəllad! (*Səslənir*)

Qəhrəman ağac altından çıxıb Xacənin qarşısında əyilərək.

Q ə h r ə m a n. Əmriniz, padşahım!

X a c ə (*tövrünü pozmayaraq*). Götür bunları rahat et!

Qəhrəman xəyali adamları çəkə-çəkə aparır.

Q ə h r ə m a n. Gəlin, gəlin, şahın əmridir.

X a c ə. Atam Məhəmməd şah su yerinə qan axıdıb, başlardan təpələr, cəsədlərdən dağlar ucaldıb hökumət ələ keçirmiş, nə üçün? Hər səfilin, hər miskinin dərdini eşitmək üçünmü? Yox, bu dövlət, bu səltənət yalnız bütün arzu və tələblərimi yerinə yetirmək üçün mənə ve-

rilmişdir. Bütün İran və dövlət xadimləri yalnız mənim keyfim, mənim zövqüm üçün yaranmış... (*Qəhrəmana*) Anladınmı?

Q ə h r ə m a n (*təzim edərək*). Bəli, padşahım, anladım.

Xacə. Hər şey mənim zövqüm üçün yaranmış, hətta gözəl Səlma da!

S ə l m a (*ağac altından çıxır, qəhqəhə ilə gülərək*). Bu sənsən, Xacə? Bayaqdan qulaq asıram.

X a c ə (*taxtdan enə-enə*). Bağışla, xanım!

S ə l m a. Yoxsa, sənin də fikrindən padşahlıq keçir?

X a c ə. Yox, xanım! Mən də fürsətdən istifadə edib beş dəqiqə şah olmuşdum.

Q ə h r ə m a n. Yox, şah olmamışdın, şahın təqlidini çıxarırdın. (*Gülür*)

S ə l m a. Ah, Xacə, doğru deyirsən, sən də, mən də yalnız onun zövqü üçün yarandıq.

X a c ə. Uşaq şıltaq olar, xanım, onun nazını çəkmək lazımdır.

Q ə h r ə m a n. Sənə nə olmuş, Xacə? Bu gün çox dəyişmisən.

S ə l m a. Səni heç bir zaman bu qədər nəşəli görməmişdim.

X a c ə. Təbii deyilmi, xanım?! Qırx beş yaşım var. Bu sarayda bu saatdan daha qiymətli bir saata təsadüf etmədim. Nə o şah, nə bu şah. İran taxtı hər ikisindən xalidir. Dünya üzündən bu taxt-tacın götürüldüyü gün böyük bayram deyilmi?

S ə l m a (*kədərli*). Qəhrəman, bu saray get-gedə məni bir məngənə kimi sıxır. Düşüncə, kədər ac qurd kimi qəlbimi gəmirir. Fürsətdir, vaxt ikən bu qanlı pəncələrdən qaçıb qurtulmaq lazımdır!

X a c ə. Hara getsən, xanım, o qanlı pəncələr bizimlə bərabərdir!

S ə l m a. Şah taxtından neçin əl çəkdi?

X a c ə. Keyfi elə istədi, xanım! Həqiqəti söyləyənin qulağını kəsirlər. (*Uzaqdan musiqi səsi eşidilir*) Bax, odur, Yusif şahı gətirirlər. (*O tərəf-bu tərəfə gəzinir*)

S ə l m a. Görəsən Yusif şahın bığları da Şah Abbasın bığlarına bənzəyirmi?

Q ə h r ə m a n. Bığları bənzəməsə də, qanlı qılıncları bir-birinə bənzəyəcək.

X a c ə. Bu taxtın, tacın xasiyyəti belədir.

Səs ucalır, musiqi səsi yaxınlaşır. Fərraşların "Bürəvid" səsləri eşidilir. Xacə Mübarək əsəbi addımlarla dolaşır. Birdən-birə hərəkətsiz durur. Yusif şahı dəbdəbə ilə gətirirlər. Sərdar Zaman xan taxtı göstərir.

S ə r d a r  Z a m a n  x a n. Buyurun, padşahım, şahanə taxt ayaqlarınızı öpməyə müntəzirdir.

Yusif şah taxta çıxıb oturur.

H a m ı. Yaşasın Yusif şah!

F ə r r a ş, əlində bir sini, taxta yaxınlaşır. Mollabaşı sinidən tacı götürüb Yusif şahın başına qoyur. Qızıl kəməri belinə bağlayır. Qızıl toppuzu əlinə verir.

M o l l a b a ş ı. Həzərat! Şah Abbas İranı yetim qoydusa, Yusif şah İran taxt-tacını qəbul etməklə bizi bəxtiyar etdi.

S ə r d a r  Z a m a n  x a n. Padşahım, mübarək cilusunuzu səmimi-qəlbdən təbrik edirəm. Allah-taala sizə uzun ömür kəramət etsin.

H a m ı. Amin, amin! Yaşasın Yusif şah! Şənlik fişəngləri atılır, İranın dövlət himni çalınır.

S ə r d a r  Z a m a n  x a n. Bugünkü şənlik münasibətilə adətimiz üzrə rəqqasələr oynayacaqdır.

Y u s i f  ş a h. Çox yaxşı, bu gün əmr sizindir.

S ə r d a r  Z a m a n  x a n. Əstəğfürullah, əstəğfürullah, sizin hər əmrinizə itaət borcumuzdur.

Musiqi çalınır, xanəndə oxuyur... Rəqqasələr oynayır.

X a n ə n d ə

Ey bağban, şənlik qur, qəm-qüssədən qaç,
Bağına gül gəldi, qapını dur aç.
Yamyaşıl atlasdan xələt ver bağa,
Durma, qalx, bəzək vur bostana, tağa.
Bənəfşə zülfündən bükümləri at,
O sərxoş nərgisi yuxudan oyat.
Qoy sərvin qaməti göyə yüksəlsin,
Qumruya xəbər ver, bahardır, gəlsin.
Müjdə ver, nəğməyə başlasın bülbül,
Bostana beşiklə qonsun qızıl gül.

Q ı z l a r

Araz, coşub-daşırsan,
Sahilləri aşırsan,
Tarlalarda, çəməndə
Bizimlə oynaşırsan.

Dağlarındır qardan ağ,
Suyun gümüşdən parlaq,
Yol sal bizim tarlaya,
Sən çal, biz də oynayaq.

Araz, Araz, gəl barı,
Bizim dəhnəyə sarı.
Aç qoynunu yıxansın
Elin yosma qızları

Həyətdə fişəng atılır. Təbil, nağara, ney çalınır, səslər ucalır.

S ə s l ə r. Yaşasın Yusif şah!

Cilus ayini tamam olur, Mollabaşı irəli gəlib, baş əydikdən sonra.

M o l l a b a ş ı. İran taxt-tacına oturmanızı yenə ürəkdən təbrik edib, Allah-taaladan sizə uzun ömür arzu edirəm.

S ə r d a r Z a m a n x a n. Padşahım, bu gündən bu saray, bu dəbdəbə, bu şövkət sizin əmrinizə verilir. Uzun müddət şən və bəxtiyar yaşamanızı arzu edirəm!

Y u s i f ş a h. Sizin bu sarayda qəribə aləmlər var imiş!

M i r z ə M ö h s ü n. Çox qəribə, hələ çox şeylər görəcəksiniz!

M i r z ə Y ə h y a. Padşahım, bu saray doğrudan da böyük bir aləmdir.

Y u s i f ş a h. Çox böyük...

M o l l a b a ş ı. Şahım, izin verin, biz mürəxxəs olaq.

Y u s i f ş a h. Gedə bilərsiniz... (*Vəzirlər baş əyib gedir. Yusif şah taxtdan enir, düşüncəli gəzinir*) Bu sarayın işləri həm gülünc, həm də müdhiş bir oyundur. Hələ də özümə gələ bilmirəm. Bu nə hikmətdir? Şah Abbas taxtdan nə üçün əl çəkdi? Onu fələk də bu dəbdəbədən, bu eyş-işrətdən ayıra bilməzdi. Bunu öyrənmək lazımdır!.. (*Ucadan*) Bu... bir... tapmaca...dır ki...

X a c ə. Bəli, qurban?

Y u s i f ş a h. Nə istəyirsiniz?

X a c ə. Heç bir şey, padşahım, siz məni çağırdınız.

Y u s i f ş a h. Yox, çağırmadım... adın nədir?

X a c ə. Adım... Xacə .

Y u s i f ş a h (*gülərək*). Aha, Xacə demədim... tapmaca dedim...

X a c ə. Fərqi yoxdur, padşahım, Xacə də tapmaca kimi bir şeydir.

Y u s i f ş a h. Zahirdə mübarək adama bənzəyirsiniz. Yaxşı, vəzifən?

X a c ə. Vəzifəm eşikağası...

Y u s i f ş a h. Demək, Şah Abbasın bütün əmrlərini yerinə yetirən sizsiniz?

X a c ə. Bəli, qurban.

Y u s i f ş a h. Demək, siz bu sarayda Şah Abbasa hər kəsdən yaxınsınız?

X a c ə. Bəli, padşahım.

Y u s i f ş a h. Onda onun bütün işlərini, hətta sirlərini bilirsiniz?

X a c ə. Bilirəm, padşahım.

Y u s i f ş a h. Çox gözəl, Şah Abbas taxtından neçin əl çəkdi? Doğru cavab verəcəyinə əminəm.

X a c ə. Yalan söyləmək adətim deyil. Münəccim Mirzə Sədrəddinin verdiyi xəbərə görə, ulduzların seyrindən göründüyünə görə, padşahın vücuduna bir bəla toxunacaqmış. Məncə, bu bəladan qorxaraq səltənətdən əl çəkmişdir.

Y u s i f ş a h (*ətrafa*). Bu bir az düz adama bənzəyir. (*Xacəyə gülə-gülə*) Xacə, "bir bəla toxunacaqmış" sözlərini sən başqa bir ahəng ilə söylədin. Yoxsa münəccimin sözlərinə inanmırsan?

X a c ə. Padşahım, bağışlayın məni. Bu sarayda hiylə, riya və yalandan başqa bir şey görmədiyim üçün heç özümə də inanmıram.

Y u s i f ş a h. Görürəm, səndə xalqı duya bilən ürək vardır. Çox şükür, heç olmazsa, İran sarayında bir nəfər duz adam tapdım.

X a c ə. Padşahım, doğru söyləyənlərin təqdir edildiyini mən də bu qapıda bdirinci dəfə görürəm.

Y u s i f ş a h. Nadürüstlər məmləkəti irəli apara bilməz. Onun üçün bir nəfər deyil, yüzlərlə namuslu adam lazımdır!

X a c ə (*qapıya baxaraq*). Padşah, hüzura gələnlər var.

Y u s i f ş a h. Söylə gəlsinlər. (*Xacə çıxır*)

X o s r o v, B u d a q və R ə h m a n gəlir.

H ə r ü ç ü. Uğur olsun, Yusif şah!

Y u s i f ş a h. Uğurlar olsun, dostlar!

B u d a q. Səni təbrik etməyə gəldik...

X o s r o v. Yusif, bu nə aləmdir? Eşşəyi yaman palanlayıb minmisən, axırı xeyir olsun!

R ə h m a n. Bir şey öyrənə bildinmi?

Y u s i f ş a h (*ucadan*). Öyrəndim. (*Onların əlini tutaraq gülə-gülə astadan Xacənin sözlərini anladır*)

H a m ı s ı (*qəhqəhə ilə gülür*). Ha!.. ha!.. ha!..

B u d a q. Demək, Şah Abbas ulduzlardan qorxub? Eybi yoxdur, at – minənindir, su – içənin.

X o s r o v. Yaxşı, Yusif, de görək nə fikirdəsən?

Y u s i f ş a h. İnsan hər şeydən artıq öz vəzifəsinə sadiq olmalıdır. Biz birinci özümüzü islah etməliyik. Ən böyük insan özünə hakim olmağı bacarandır. Ən böyük zəfər nəfsin çirkin tələblərinə üstün gələ bilməkdir. Biz iki mühüm və sağlam qüvvətə sarılmalıyıq. İnanmaq, inanaraq çalışmaq! İnanmayan müvəffəqiyyət və bəxtiyarlığın açarıdır. Biz işə elə bu gündən başlamalıyıq. Vəzifələrimizi aydınlaşdırmaq lazımdır!

X o s r o v. Bu çox gözəl fikirdir. Mən sarayda çalışım, Budaq ilə Rəhman isə xalq içində.

Y u s i f ş a h. Razıyam.

X a c ə. Padşah, vəzirlər xidmətinizə gəlmək istəyirlər.

Y u s i f ş a h. Söylə gəlsinlər. Görək ulduzlar kimi aldadacaq!

Vəzirlər gəlir. Hamısı Y u s i f ş a h a baş əyib hüzurda dayanır.

H a m ı s ı. Salaməleyküm, qibleyi-aləm.

Y u s i f ş a h. Əleykəssalam. Buyurun, oturun. (*Əyləşirlər*) Əmrlərim bu gündən həyata keçməlidir.

V ə z i r l ə r. Qibleyi-aləmin hər əmri bizim üçün qanundur.

Y u s i f ş a h. Bundan sonra vilayətlər satılmayacaq. Hər vilayətə maaşlı hakimlər göndəriləcək.

M i r z ə Y ə h y a. Demək, vilayətlərdən alınan vergi hökumət xəzinəsinə veriləcək.

Y u s i f ş a h. Şübhəsiz.

S ə r d a r Z a m a n x a n. Gözəl fikirdir.

Y u s i f ş a h. Tiryəkxanalar bağlanacaq, yeni yollar çəkiləcək, Qəzvin ətrafına su gələcək, hökumət məmurlarına məvacib veriləcək, yeni məktəblər açılacaq.

M i r z ə M ö h s ü n. Qibleyi-aləmin hər əmrinə itaət borcumuzdur. Ancaq bu məsələni həyata keçirsək, min bir tədbirlə doldurduğumuz xəzinə boşalmazmı?

Y u s i f ş a h. Xəzinə məmləkətin iqtisadi inkişafailə dolmalıdır. Hələ bunlar hamısı deyil. Ticarəti qüvvətləndirmək üçün tacirlərə böyük ixtiyar verilməlidir. Görüləcək tədbirlərdən biri də – kəndlərin, torpaqların xanlardan alınıb hökumətə verilməsidir. Hələlik məmləkətdə görəcəyimiz işlər bunlardan ibarət olacaq.

M i r z ə M ö h s ü n. Qibleyi-aləm, bu əmrlər məmləkət üçün yeni həyat müjdəsidir. Ancaq torpaq məsələsi İranda olduqca mühüm və qorxulu məsələdir. Hələlik ona əl vurmayaq, yoxsa çox böyük narazılıqlar baş verər.

İ s k ə n d ə r b ə y. Padşah, torpaq dövlətin sütunudur, onu tərpətsək qiyamət qopar.

S ə r d a r Z a m a n x a n. Astananızın bu qoca iti də torpaq məsələsini hələ lazım görmür.

Y u s i f ş a h. Yox, bu qoxumuş mühitin zəhərli havasını birdəfəlik təmizləmək lazımdır. Xalqın inkişafı bunu tələb edir. Bilirəm, bu məsələ sizin üçün xeyirli deyil, çünki hər birinizin beş-on kəndiniz var. Birdəfəlik bilməlisiniz ki, torpaq – əkənindir.

M o l l a b a ş ı. Siz doğru buyurursunuz, şəriətimiz də belə deyir. Qurbanın olum, ancaq...

Y u s i f ş a h. Nə ancaq, nə də əmma lazım deyil. Dediklərim bir-bir həyata keçməlidir. (*Vəzirlər təzim edib çıxırlar. Yusif şah və yoldaşları bir-birinə mənalı baxıb qəhqəhə ilə gülürlər*) Hələ bu harasıdır?

B u d a q. Afərin, Yusif, vəzirlərin canına yaman üşütmə saldın.

Y u s i f ş a h. Balıq başdan qoxur, qamış kökdən. Bu məmləkətdə baş, gövdə, kök – hamısı birdən çürümüşdür. Onları kəsib atmaq lazımdır...

R ə h m a n. Doğrudur, doğrudur... Başqa cür ola bilməz.

B u d a q. Yusif, ehtiyatlı oğulun anası ağlamaz...

X o s r o v. Bunlar çox gözəl işlərdir, ancaq lazımdır. Onlar olduqca mütəəssib, ənənəpərəst, mövhumatpərəst bir xalqdır. Bu ölünü birdən diriltmək olmaz!

R ə h m a n. Yusifin əzm iradəsi qarşısında dağ da dayanmaz.

Y u s i f ş a h. Hər şeydən çox məni bu vəzirlər düşündürür. Onlar bizim siyasətimizə əsla razı olmayacaqlar. Onların yerinə mənə sadiq adamlar verin!

X o s r o v. Yusif şah, sən hələlik bu işlərə əl atma! Camaat bu gün bizdən artıq bu vəzirləri tanıyır. Müvəqqəti olsa da onlardan istifadə etmək lazımdır!

Y u s i f  ş a h. Onlar bizim yeni fikirlərimizi xalq içində yaymayacaqlar!.. Bu yolda özümüz can-baş ilə çalışmalıyıq.

R ə h m a n. Doğrudur, doğrudur!

B u d a q. Yusif haqlıdır... Biz vəzirlərə inana bilmərik.

R ə h m a n. Xosrov, sən Yusifin işlərinə qarışma!

X o s r o v (*kinli*). Xob, siz deyən olsun.

B u d a q. Başqa cür ola bilməz!..

Y u s i f  ş a h. Budaq, Rəhman ilə birlikdə xalq ilə əlaqə saxlayın, fikrimizi onlara anladın. Camaatı mənimlə görüşdürmək üçün bir gün təyin edin.

B u d a q. Baş üstə...

R ə h m a n. Doğrudur, doğrudur... Bu, çox lazımdır.

X o s r o v (*ətrafa*). Məni axmaq yerinə qoyanlar bir gün özləri axmaq yerində qalacaq... Dayan! (*Getmək istəyir. Nə isə düşünüb dayanır*) Yusif, bu saray həyatı məni çox maraqlandırır. Əvvəlcə onu bizə göstər.

Y u s i f  ş a h. Xacə, Xacə Mübarək!

X a c ə (*daxil olur*). Bəli, padşahım!

Y u s i f  ş a h. Bizim dostları saray ilə tanış et! Hər bucağını göstər, sonra bir dəst paltar aparıb bizim Tubu xanımı gətirsinlər.

X a c ə. Baş üstə, padşahım!

Hamı danışa-danışa çıxırkən

Y u s i f  ş a h. Bu hərəmxanaya da bir əncam çəkməliyik... Onu təmizləmək lazımdır!

Hamı gedir. Səlma yalnız bir dirəyə söykənib düşünür, M i r z ə  Y ə h y a gəlir, onu görüncə əlini onun çiyninə qoyur.

M i r z ə  Y ə h y a. Gözəl Səlma, hər kəs səni düşünür, sən kimi düşünürsən?

S ə l m a. Mən də öz fəlakətimi.

M i r z ə  Y ə h y a. Bu gündən sən nikah qəfəsindən uçmuş azad bir quşsan. Hər ağaca qonsan, hər budaq sənə qarşı məmuniyyətlə əyilər. (*Onun əlini əlləri içinə alır, Səlma rədd edərək*)

S ə l m a. Çəkil!

M i r z ə  Y ə h y a. Hər əmrinə itaət edərəm... Yalnız (*onu qucaqlamaq istəyir*).

S ə l m a. Çəkil deyirəm, nə istəyirsən məndən?

M i r z ə  Y ə h y a. Yalnız bir şəfqət, mərhəmət!

S ə l m a. Özündə olmayan bir şeyi başqalarından tələb etmə!.. Yoxsa sənə çox ağır oturar.

M i r z ə  Y ə h y a. Yanılırsan, Səlma, qəlbim sənin eşqinlə çoxdan çırpınır. O bütün hərarətini yalnız sənin eşqindən alır.

S ə l m a. Saray eşqindən mənə söz açma, onun nə olduğunu gözəl bilirəm.

M i r z ə  Y ə h y a. Vəhşi ceyran! (*Öpmək istəyir, Səlma ona bir sillə vurur*)

S ə l m a. Çəkil, alçaq!

M i r z ə  Y ə h y a. Yaxşı, Səlma, yaxşı! Ancaq bu sirri bir adam bilsə, səni rüsvay edərəm. Şah Abbas taxtına oturduqdan sonra Qəhrəmanın əlilə başını bədənindən ayırdaram. (*Gedir*)

S ə l m a. Ah, bu sarayın nə çəkilməz dərdləri, nə unudulmaz matəmləri var. (*Qəmli-qəmli düşünür*)

X o s r o v (*Səlmanı görüncə*). Ah, bu nədir? Saray ceyranı! (Ona yanaşır) Bağışlayın, gözəl qadın, siz kimsiniz?

S ə l m a. Mən elindən, yurdundan ayrı düşmüş bədbəxt bir qadın...

X o s r o v. Adınız?

S ə l m a. Səlma!..

X o s r o v. Oho... Səlma... Səlma... bu ad mənə çoxdan tanışdır. Görüncə Səlma olduğunuzu bildim. Siz bu hüsn və məlahət taxtında soltan ikən bədbəxt neçin olursunuz? Yoxsa, Şah Abbası düşünürsünüz?

S ə l m a. Onu düşünməyə vaxtım yoxdur.

X o s r o v. O halda bəlkə başqasını?..

S ə l m a. Mən yalnız öz fəlakətimi düşünürəm.

X o s r o v. Gözəl qadın... Səadət hər yerdə sizin bu incə əllərinizi öpməyə hazırdır. (*Səlma əlini çəkərək ona acıqlı baxır*) Yoxsa Yusif şahı düşünürsünüz? (*Səlma getmək istəyirkən qolundan tutub saxlayır*) Mənə bax!

S ə l m a. Burax!

X o s r o v. Gəl inad etmə... (*Səlma dartınıb gedir. Xosrov həsrətlə arxasınca baxaraq*) Ah, bu sarayda nələr varmış! Şah Abbas bu cida gözlü Səlmadan necə əl çəkmiş? Axmaq, ona sahib olmaq üçün mən hər fədakarlığa qatlanaram... Of, qəlbim... Görünür, şah qadını olduğu üçün Yusif şaha könül vermək istəyir... Demək, Yusif, Şah Abbasın taxt-tacına heçdən yiyə olduğu kimi, gözəl Səlmaya da sahib olacaq.

Yox! Bu yolda mən bütün əzm və iradəmi səfərbərliyə alıb, bütün qüvvətimlə silahlanmalıyam! (*Düşünür*)

P ə r d ə

## DÖRDÜNCÜ PƏRDƏ

Səhnə bağçada bir qəməriyyəni[1] təsvir edir. Qəməriyyənin yanında ağ mərmərdən fəvvarəli hovuz. Hovuzun ətrafında iri qovaq və çinar, yasəmən, limon və portağal ağacları. Qəməriyyənin içi zərif ipək xalılarla döşənmiş. M i r z ə M ö h s ü n, S ə r d a r Z a m a n x a n, M i r z ə Y ə h y a, İ s k ə n d ə r b ə y, M o l l a b a ş ı daxil olur.

M i r z ə M ö h s ü n. Xalqa elan etdiyimiz bu əmrlər haqqında fikriniz nədir? Yusif şahın əmrlərini xalq çox böyük sevinc ilə qarşılayır. Bir-birini təbrik edir. "Yaşasın Yusif şah!" səsi ərşə dayanır.

M i r z ə Y ə h y a. Xalq bu əmrləri nifrətlə qarşılar zənn edirdik. İndi bu məsələ məni də qorxudur. Deyəsən, bu adam doğrudan da padşah olub qalacaq.

İ s k ə n d ə r b ə y. Ola bilər, çünki tarix belə hadisələrlə doludur.

S ə r d a r Z a m a n x a n. Hələ bu həyəcan ordu içərisinə girsə, biz ulduzları deyil, ulduzlar bizi aldatmış olacaq.

M o l l a b a ş ı. Allah-taala Şah Abbasın taxt-tacını heç bir zaman Yusif Sərrac kimi quldurlara vagüzar etməz! İnşaallah yaxın zamanda bəlayi-asimaniyə düçar olub cəhənnəmə vasil olar.

S ə l m a ilə Q ə h r ə m a n gəlir. S ə l m a əl ilə vəzirləri göstərib yavaşca.

S ə l m a. Dayan!

Ağac altında onları dinləyirlər.

M i r z ə M ö h s ü n. Bu təşviş bütün İranı bürüyəcək. Hər halda iş böyüməmiş bunun qarşısını almaq üçün tədbirlər görmək lazımdır! Onun dostları xalq içində yaman çalışır, xüsusən Budaq...

S ə r d a r Z a m a n x a n. Şah dostlarını hələlik məşvərətçi sifətilə öz yanında saxlayır. Şübhəsiz, bir gün onları bizim yerimizə təyin edəcək.

---

[1] Ay işığında oturmaq üçün düzəldilmiş çardaq

M i r z ə  Y ə h y a. Məlumdur, onun məqsədi mülkədarlara və zadəgana qarşı yeni bir üsuli-idarə yaratmaqdır.

İ s k ə n d ə r  b ə y. Bu bəllidir. Görmürsünüzmü, Xosrovu sarayda bizə gözətçi qoyubdur; bütün ixtiyar onun əlindədir.

M i r z ə  M ö h s ü n. Aldığı məlumata görə, son zamanlar Xosrovla Yusif şah arasında ziddiyyətlər əmələ gəlib. Yusifə qarşı onda kin və nifrət hissi oyanmış.

M i r z ə  Y ə h y a. Bu çox uğurlu bir faldır. Ondan istifadə etmək lazımdır.

S ə r d a r  Z a m a n  x a n. O halda Yusif şah ilə Xosrov arasındakı ixtilafı dərinləşdirmək gərək.

İ s k ə n d ə r  b ə y. Hər şey qəzavü qədərə bağlıdır. Bizim çalışmağımız artıqdır.

S ə r d a r  Z a m a n  x a n. Sən də nə tutmusan qəza-qədərin quyruğundan? Səndən hərəkət, məndən bərəkət demişlər.

M i r z ə  M ö h s ü n. Hər halda bizim çalışmağımız lazımdır. Yusifin tərəfdarları gündən-günə artır.

S ə r d a r  Z a m a n  x a n. Ordu içərisində də tərəfdarları olduğunu bilirəm.

İ s k ə n d ə r  b ə y. Darıxmayın, bu günlərdə qoca münəccim Cəmaləddin ulduzların təsirini açıb göstərəcək, qəza-qədər öz işini işləyəcək.

M i r z ə  Y ə h y a. Yox, yox, onu gözləmək olmaz. Yağmadı yağış, bitmədi qamış... Bir də, dəmiri isti-isti döyərlər. İndidən mənim bir tədbirim var.

M i r z ə  M ö h s ü n. Nədir?

M i r z ə  Y ə h y a. Şəhərə qıtlıq salmaq və bu vasitə ilə xalq arasında narazılıq törətmək!

S ə r d a r  Z a m a n  x a n. Bu, gözəl fikirdir.

Gedirlər. S ə l m a və Q ə h r ə m a n çıxır.

S ə l m a. Ah, xainlər. Yusif şahı taxtdan salmaq istəyirlər. Yox, onu bacarmayacaqsınız. Deyəsən, gələn var.

S ə l m a və Q ə h r ə m a n bir tərəfə çəkilir, Y u s i f  ş a h ilə T u b u gəlirlər. Onlara çatmamış bu skamyada otururlar.

T u b u (*o tərəf-bu tərəfə heyrətlə baxaraq*). A kişi, bu nə aləmdir, bu işlər mənə yuxu kimi gəlir. Sərrac arvadı, padşah, saray...

Y u s i f ş a h. Arvad, sən bir dayan, bu İranı bir İran eləyim ki, bütün dünya tamaşaya gəlsin.

T u b u. O gün olsun, a kişi, sən bu dəsgahı, bu büsatı əldən buraxma, bərk tut. Bay-bay! Bunlar gör necə yaşayırmış! (*Heyrətlə bir özünə baxır, bir də Yusifə*) Sərrac arvadı, indi şah arvadı, hələ bir üst-başıma bax. (*Yusifə*) Sən də bir özünə bax, heç o Yusif Sərraca bənzəmirsən.

Y u s i f ş a h. İndi sən şah arvadısan, az iş deyil.

T u b u. Bu xoşbəxtlik bizə hardan?

Y u s i f ş a h. Keçmiş padşahın axmaq başından.

T u b u. Yusif, amma ev zəhmətlərindən canım nə qurtardı! İndi qabağımda on-on beş qulluqçu işləyir ...

Y u s i f ş a h. Arvad, saray səni azdırmasın, sən hər şeydən əvvəl Yusif Sərracın arvadısan!

T u b u (*əsəbi*). Yoxsa şahlığı atıb yenə sərraclığa getmək istəyirsən?

Y u s i f ş a h. Bu sarayın palçığı xalqın qanı ilə yoğrulmuşdur.

S ə l m a. Salam, padşahım.

Y u s i f ş a h. Salam, bir sözünüzmü var?

S ə l m a. Elədir, mən sizin yanınıza bir xahiş üçün gəlmişəm.

Y u s i f ş a h. Buyurun, mən sizə qulaq asmağa hazıram.

S ə l m a. Mən Şah Abbasın hərəmlərindən Səlmayam.

Y u s i f ş a h. Elə isə bəs sizi indiyə qədər niyə azad etməmişlər? Hərəmlərin ki, talağı verilmişdir.

S ə l m a. Elədir, ancaq şahın tapşırığına görə məni sarayda saxlamışlar. Vəzirlər, o şeytan Mollabaşı mənim hər addımımı güdür, mənə göz verib işıq vermir.

Y u s i f ş a h. Bu gündən siz azadsınız, istədiyiniz yerə gedə bilərsiniz.

S ə l m a. Təşəkkür edirəm, şah, bu azadlıq mənim üçün çox qiymətlidir. O halda ikinci xahişim də vardır.

Y u s i f ş a h. Deyin!

S ə l m a. Məni bağışlayın, şah, sizə bir ata kimi istəyimi açmağa məcburam. Mənimlə bir kənddən olan Qəhrəman da saraydadır. Onu da azad etsəydiniz.

Y u s i f ş a h. Tanıyıram, o çox igid oğlandır. Çağır gəlsin.

S ə l m a ağac altında dayanmış Q ə h r ə m a n ı çağırır. Y u s i f S ə r r a c bir an fikrə gedir, Q ə h r ə m a n gəlib təzim edir.

Q ə h r ə m a n. Gün aydın, padşahım!

Y u s i f ş a h. Gün aydın. Hansı kənddənsiniz?

Q ə h r ə m a n. Sərabdan...

Y u s i f ş a h. Buraya necə düşdünüz?

Q ə h r ə m a n. Şah Abbas şikarə çıxmışdı. Kəndimizin yanından keçərkən məni gördü. "Bu, saraya layiqdir", – deyə məni öz elimdən, yurdumdan, hər şeydən ayırdı. Bir də ki, mən onsuz da Səlmanın dalınca gəlməli idim.

Y u s i f ş a h. Səlma nəyindir?

Q ə h r ə m a n (*utana-utana*). O mənim ilk məhəbbətimdir.

Y u s i f ş a h. Demək, zalım şah sizi öz sevginizdən də ayırmış. Yaxşı, siz sarayda qalıb mənə xidmət etmək istəmirsiniz?

Q ə h r ə m a n. Can ilə, baş ilə xidmət edərik, padşahım. Son günlər, sizi tanımağa başladıqdan sonra, mən özüm də bu fikrə gəlmişdim.

Y u s i f ş a h (*Qəhrəmana*). Səni fərraşbaşı təyin etdim. Sədaqət göstərsən, vəzifəni artıraram.

Q ə h r ə m a n. Sağ olun, padşahım, razıyam.

S ə l m a. Padşahım, bəs mən?

Y u s i f ş a h (*gülə-gülə*). Sən də sarayın azad quşu.

Hər ikisi məmnun baş əyib getmək istərkən

T u b u. Qızım, səndən xoşum gəldi. Darıxma, ürəyin istədiyi zaman yanıma söhbətə gəl.

S ə l m a. Təşəkkür edirəm, xanım.

Baş əyib gedirlər. Y u s i f ş a h və T u b u danışa-danışa səhnədən çıxırlar. X o s r o v və M i r z ə M ö h s ü n danışa-danışa qəməriyyəyə gəlirlər.

M i r z ə M ö h s ü n. Vəzirlərin sizə böyük hörməti var.

X o s r o v. Bu hörmət nədən irəli gəlir?

M i r z ə M ö h s ü n. Sizin şahlara layiq ağlınız və siyasətiniz var.

X o s r o v. Nədən bilirsiniz?

M i r z ə M ö h s ü n. Biz insan sərrafıyıq!.. Bir dəfə görməklə hər kəsin qabiliyyətini təyin edirik.

X o s r o v. Nə demək istəyirsiniz? Açıq söyləyin!

M i r z ə M ö h s ü n. Heç bir şey... Ancaq sizi əvvəldən tanımış olsaydım...

X o s r o v (*istehza ilə*). Yusifin yerinə məni şah seçərdiniz... Eləmi?

M i r z ə  M ö h s ü n. Bəlkə də... Xosrov, sən İran dövlətini yaxşı tanıyırsan. Kim fürsətdən istifadə etməyi bacardı, öz iradə və qüvvətinə inandı, ona hər şey mümkündür. Yusif şah bəxtiyar oldu. Bu gün-sabah Səlmanı da ələ keçirər. Daha nə istəyir?

X o s r o v. Yox, Yusif Səlmaya toxunmaz!..

M i r z ə  M ö h s ü n. Nə? Nə? Onun arxasınca dolaşdığını gözümlə görmüşəm.

X o s r o v. Ola bilməz!

M i r z ə  M ö h s ü n. Siz inanmayın! Ancaq bu bir həqiqətdir. Səlma elə bir afətdir ki, ilanı da yuvasından çıxarar. Məni bağışlayın, mühüm işim var.

Baş əyib gedir. X o s r o v tək.

X o s r o v. Deməkk, Yusif də Səlmaya vurulmuş... Taxt-tac vurğunu olan Səlma Yusifi qoyub mənə könül verməz. Buna bir çarə düşünmək lazımdır. Vəzirlərin mənə tərəf olması başımda yeni fikirlər oyadır... Xosrov, tale sənə qollarını açmış, fürsət səni çağırır. Sən miskinlər kimi sərracların quyruğunda sürünmə! (*Düşünür*) Artıq bütün iradə və cəsarətimlə silahlandım. Hazır ol, sərrac! Ağzına fəlakət yüyəni vurmaq, arxasına ölüm yəhəri qoymaq üçün hər bir təşəbbüsə iqdam edəcəyəm.

Y u s i f  ş a h  gəlir. Xosrov onu görüncə hörmətlə yanaşır.

Y u s i f  ş a h. Nə xəbər, Xosrov?

X o s r o v. Dostlarımızın gətirdiyi xəbərlər bir-birindən sevindiricidir. Verilən əmrlərdən xalq çox məmnundur.

Y u s i f  ş a h. Şübhəsiz... Belə də olmalı idi. Çalışmaq hər çətinliyi asanlaşdırar. Budaqdan, Rəhmandan nə xəbər?

X o s r o v. Bu xüsusda biz kiçik bir məclis qurduq. Arxayın ol, hər şey öz yerindədir.

Y u s i f  ş a h. Ayıq ol, daxildə və xaricdə vəzirlərin gördükləri işlərdən tez-tez xəbər tut!

X o s r o v. O xüsusda əmin ol!

Y u s i f  ş a h. Mənim əmrlərim həyata keçməyir, ona görə də əmin ola bilmirəm. Düşüncəsiz, kamalsız, mövhumatpərəst olan bu vəzirlərin yerinə bu vaxta qədər namizəd verə bilmədiniz. Halbuki bunlar sənin vəzifəndir. Sən günü günə calayırsan.

X o s r o v. Doğru deyirsən. Bir həftəyə qədər hər iş öz təbii yoluna düşər.

Y u s i f ş a h. Budaq ilə Rəhman məni xalq ilə görüşdürməyə söz vermişdi. Gəlsələr, mənə xəbər ver.

X o s r o v. Eşitdiyimə görə, çox məşğulsunuz?

Y u s i f ş a h. Fəlsəfə və iqtisadiyyata dair əsər yazıram. Xalqın başını mövhumatdan təmizləmək lazımdır.

X o s r o v. Yaz, yaz! Sən İrana böyük nemətsən.

Yusif şah ilə danışa-danışa gedirlər. M i r z ə M ö h s ü n, S ə f ə r ə l i x a n və H a c ı Q u l u x a n gəlir.

M i r z ə M ö h s ü n (*hər ikisinə*). Nə etdiniz?

S ə f ə r ə l i x a n. Çox iş gördük. Bənd-bərəni bağlayıb, hər yerdə adamlar qoydum ki, kəndlərdən şəhərə ərzaq buraxmasınlar, hökumətə lazımdır deyə başını bağlayıb anbarlara vursunlar.

M i r z ə M ö h s ü n. Bu işlərə xalq necə baxır?

S ə f ə r ə l i x a n. Çox pis.

M i r z ə M ö h s ü n. Afərin! Hələlik ipi əlində bərk tut!

S ə f ə r ə l i x a n. Arxayın ol!

M i r z ə M ö h s ü n. Hacı Qulu xan, sən nə elədin?

X a c ə onları qəməriyyə arxasından pusur.

H a c ı Q u l u x a n. Mən də şəhərdəki ərzağı elə bir məharətlə yığdım ki, çörəkçilər bu gün bişirməyə un tapmayır.

M i r z ə M ö h s ü n. Çox yaxşı, afərin... Bu vəzifələri yerinə yetirdiyiniz üçün təşəkkür edirəm.

S ə f ə r ə l i x a n. Bu işlər bizim üçün çətin deyil, hər zaman gördüyümüz işlərdir.

M i r z ə M ö h s ü n. Xoş, mürəxxəssiniz, işinizdə ayıq olun!

H ə r i k i s i. Xudahafiz!

Səhnədən çıxırılar. Xacə, əli arxasında, gəzir, M i r z ə M ö h s ü n onu görür.

M i r z ə M ö h s ü n. Xacə...

X a c ə (*tez dönərək*). Bəli, qurban.

M i r z ə M ö h s ü n. Nə var, nə yox?

X a c ə. Sağlıq, elə bir şey yoxdur.

M i r z ə M ö h s ü n. Heç bir şey eşitməmisən?

X a c ə. Heç bir şey!

M i r z ə  M ö h s ü n. Necə heç bir şey... Yoxsa sən də dəyişdin?

X a c ə (*diqqətlə öz-özünə baxır, əllərini qaldırır*). Mən ki dəyişməmişəm.

M i r z ə  M ö h s ü n. Zahirin dəyişməmiş, fəqət qəlbin...

X a c ə (*əlini qəlbinin üzərinə qoyur*). Qəlbim də dəyişməyib, həmən ətdir, həmən qan.

M i r z ə  M ö h s ü n (*acıqlı*). Çox danışma, sən hər sözü bizə xəbər verməlisən.

X a c ə. O mənim vəzifəmdir.

M i r z ə  M ö h s ü n. Vəzifəni gözəl öyrən!

Gedir.

X a c ə. Buna bax, məni qorxudur. Yusif şah sizi elə minməyib ki, bir də düşsün.

X o s r o v, B u d a q  və  R ə h m a n gəlir.

B u d a q. Xosrov, Yusif şahı tacirlərlə görüşdürməyə söz vermişdim. Onlar gəlib, Yusifə xəbər ver.

X o s r o v. Yusif şah xəstədir, görüşə bilməz.

R ə h m a n. Necə görüşə bilməz, kişilər onu gözləyir?

X o s r o v. Deyirəm, görüşə bilməz. Saray onu get-gedə sərxoşlaşdırır. Bir az əvvəl onun yanına getmişdim. Tubu xanım içəri buraxmadı. “Sərxoşdur, yanına adam buraxa bilmərəm” – dedi.

B u d a q. Nə deyirsən, Xosrov? Yoxsa, saray onu da dəyişdirdi?

X o s r o v. Eh, nə qoyub nə axtarırsan? Yusif saray gözəli Səlmaya yaman vurulub. Gecə-gündüz onun arxasınca düşür.

R ə h m a n. Eh, güvəndiyim dağlar, sənə də qar yağarmış! Yusif – sərxoş, Yusif – qadın düşkünü. Bu böyük bir fəlakətdir.

B u d a q. Yox, belə olmaz!

R ə h m a n. Yaxşı, tacirlərə biz nə cavab verək?

X o s r o v. De ki, şah xəstədir... Çarə nədir?

B u d a q. Bilmirəm bu taxt-tacda nə var, ay Yusif, Yusif!

R ə h m a n. Bundan sonra sözümüzün xalq içində etibarı olmayacaq!

X o s r o v. Neyləyək, Rəhman? Saray insanı tez dəyişdirir. Gedin, bir təhər tacirləri yola salın! (*Hər ikisi peşman gedir. Xosrov onla-*

*rın arxasınca qəhqəhə ilə gülərək*) Axmaqlar! Mənə Xosrov deyərlər. İradəm qarşısında Yusif sərraclar qol-qanad aça bilməz.

P ə r d ə

## BEŞİNCİ PƏRDƏ

Səhnə saray həyətinin bir guşəsini təsvir edir. Vəzirlər bir yerdə danışırlar.

S ə r d a r  Z a m a n  x a n. Mirzə Möhsün, işlər necə gedir?

M i r z ə  M ö h s ü n. Çox yaxşı, şəhərdə qıtlıqdır, şatırlar çörək bişirməyə un tapmır.

M i r z ə  Y ə h y a. Çox gözəl, deməк, biz işə başlaya bilərik.

S ə r d a r  Z a m a n  x a n. Dünən sizinlə danışdıqdan sonra gedib şah Abbas ilə, qoşun böyüyü Əsgər xan ilə görüşdüm. Camaat aclıqdan üsyan etdiyi zaman Şah Abbas və Əsgər xan ordu ilə birlikdə saraya hücum edib Yusif şahı dostları ilə bərabər məhv edəcək.

M o l l a b a ş ı. Allah-taala qibleyi-aləm Şah Abbasa tofiq və zəfər versin!

S ə r d a r  Z a m a n  x a n (*Mirzə Möhsünə*). Sən Xosrovu inandır ki, bu gün Yusif şahı öldürüb yerinə səni şah edəcəyik. Hələlik bu qədər.

Hamısı gedir. X o s r o v fikirli gəzişərkən X a c ə M ü b a r ə k ə təsadüf edir.

X o s r o v. Nə var, X a c ə?

X o s r o v. Çox şey... Vəzirlər şəhərə aclıq salıb, xalq içində üsyan yaratmaq istəyirlər.

X o s r o v. Üsyan?

X a c ə. Bütün ərzağı şəhərdən, kəndlərdən yığmaya əmr verilmişdir.

X o s r o v (*gülərək*). Yalnız bu?

X a c ə. Bundan daha mühüm tədbirlər görürlər.

X o s r o v. Nə kimi?

X a c ə. Şahı camaata pis qələmə verirlər. Guya şah məmləkəti tacirlərə satır.

X o s r o v. Qorxma, Xacə! Biz də yatmayırıq. Mühüm tədbirlər görürük. Ancaq bu işi Yusif şaha açma!

X a c ə. Nə üçün?

X o s r o v. Hökumət siyasətini sən bilməzsən. Yusif şah səndən, məndən artıq bu vəzifələrə inanır. Söyləsən, inan ki, başın bədənində qalmaz!

X a c ə. Açma deyirsən, açmaram. (*Fikirli gedir*)

X o s r o v. Tədbirlərim yavaş-yavaş ayaq tutmağa başlayır. Dayan, Yusif!.. (*Budaq ilə Rəhman gəlir. Xosrov onları görüncə*) Oho, xoş gördük sizi, dostlar!

B u d a q (*həyəcanla*). Yusif şah hanı?

X o s r o v. Nə var, nə olmuş?

B u d a q. Şəhərdə böyük həyəcan var, deyirlər Yusif şah İranı dağıdır.

X o s r o v. Elə bu?

R ə h m a n . Başqa sözlər də var... Deyirlər Yusif şah ərzağı xaricilərə satıb, məmləkətdə aclıq törədir.

X o s r o v (*həyəcanlı*). Dostlar, Yusif şah həqiqətən o gördüyünüz, bildiyiniz Yusif Sərrac deyil. Taxt-tac onu tamam dəyişdirmiş. Saraya girəli, eyş-işarətdən, keyfdən, nəşədən başı ayılmır. Doğrusu, Yusif haqqında çox bədbin olmuşam.

Hamı məyus bir-birinə baxır.

R ə h m a n. Belə isə biz daha nə üçün çalışırıq? Dağılıb gedək öz işimizə.

X o s r o v. Siz hələ işinizə davam edin, görək nə olur.

R ə h m a n. Biz gedirik. Sən əhvalatı ona anlatmamış olma!

B u d a q. Yox, burada bir hikmət var, yoxsa, aşna, sən də siyasət işlədirsən?

X o s r o v. Necə? Mən sizinlə nə siyasət işlədəcəyəm? Sən xərifləmisən, Budaq!

B u d a q. Xərifləmişəm. Yusifin bu qədər tez dəyişməsinə inana bilmirəm.

X o s r o v. Sən haqlısan!.. Gözümlə görə-görə mən də heç inanmıram ki, bu haman Yusif Sərracdır. Neyləyim, əlimdən nə gəlir?.. Hər halda ümidsiz olmayın! İşinizdə möhkəm durun!

Hər ikisi acıqlı səhnədən çıxarkən

X o s r o v. Söylərəm, arxayın olun! (*İstehza ilə gülərək*) Gedin, mən taxta oturduğum gün sizinlə danışaram.

Səhnədən çıxır. Y u s i f  ş a h, Q ə h r ə m a n  və  X a c ə gəlir.

Q ə h r ə m a n. Padşahım, sizə ərzim var.

Y u s i f  ş a h. Söylə !

Q ə h r ə m a n. Padşah, vəzirlər xalq içində üsyan törətmişlər.

Y u s i f  ş a h. Üsyan?

Q ə h r ə m a n. Bəli, üsyan, həm də sizin üçün cinayət hazırlayırlar.

X a c ə. Doğru deyir, padşah, bu işlərdən mənim də xəbərim var.

Y u s i f  ş a h (*şübhəli*). Yaxşı, bu xüsusda sizin fikriniz nədir?

Q ə h r ə m a n. Padşah, bu sarayda üzümüz indicə gülməyə başlamışdır. Sizin salamat qalmanız üçün nə əmr etsəniz, itaət borcumdur.

X a c ə. Padşah, nə qədər ki onlar sağdır, sizi hər an təhlükə gözləyir.

Y u s i f  ş a h. Xacə, vəzirləri çağır! (*Qəhrəmana*) Sən xalq oğlusan, dilin ilə qəlbin bir olar.

Q ə h r ə m a n (*onun sözünü kəsərək*). Padşahım, bu qanlı saray mənim dilimi, zahirimi dəyişdirmişsə, qəlbimə yol tapa bilməmiş. Mən ölüncəyə qədər sizə sadiq olmağa söz vermişəm. Hətta... Səlma da!

Y u s i f  ş a h. Qəhrəman, vəzirləri həbsə al!

X a c ə. Padşah, sizin Xosrov da vəzirlər ilə əlbir olub. Sizi öldürüb taxta, taca, Səlmaya sahib olmaq istəyir. Qəhrəman, Səlma və mən tədbir töküb əhvalatı sizə xəbər verməyi qərara aldıq.

Y u s i f  ş a h. Paho, sarayın içində qurdlar öz işini görür, bizim heç xəbərimiz yox. Təşəkkür edirəm, Xacə Mübarək, haqqa həmişə sadiq ol! (*Xacə baş əyir*) Xacə, Səlmanı çağır!

Xacə gedir.

Mən Xosrovdan şübhələnmişdim, şübhəm həqiqət oldu. Budaqdan, Rəhmandan da xəbər yoxdur. Yoxsa bu xain onlara da bir əngəl açıbdır?

S ə l m a (*gəlir, baş əyərək*). Əmriniz?

Y u s i f  ş a h. Xosrovun sənə qarşı olan rəftarını öyrənmək istəyirəm.

S ə l m a. O, qara kölgə kimi arxamca sürünür, mənə rahatlıq vermir, həm də vəzirlərlə əlbirdir.

Y u s i f  ş a h. Bunu nədən bilirsən?

S ə l m a. Gözümlə gördüm, qulağımla eşitdim. Hətta məni də Xosrova verməyə söz vermişlər.

Y u s i f ş a h. Səndən başqa bu sirri bilən varmı?

S ə l m a. Bunu məndən başqa Qəhrəman da bilir. Xacə Mübarək də.

Y u s i f ş a h. Sarayı xəyanət bürümüş, bizim xəbərimiz yox... Sağ ol, qızım (*Çağırır*) Xacə!

X a c ə. Əmriniz, padşahım!

Y u s i f ş a h. Fərraş göndər Budaq və Rəhmanı çağırsınlar.

Xacə baş əyib Səlma ilə bərabər çıxır. X o s r o v gəlir.

X o s r o v. Salam, Yusif!

Y u s i f ş a h. Yenə nə xəbər var?

X o s r o v. Sağlıq, salamatlıq, vəzirlər öz işlərində çox namus ilə çalışırlar. Əmin-amanlıqdır. Buna baxmayaraq onların yerinə adam tapmışam. Bu günlərdə vəzirləri vəzifələrindən xaric edəcəyəm.

Y u s i f ş a h. Çox yaxşı bir iş görmüş olarsan. Budaq ilə Rəhmandan nə xəbər?

X o s r o v. Yusif, dediyim kimi, onlar çox dəyişmiş, gecə-gündüz çayxanalardan çıxmayır, dərviş nağıllarından ayrılmayırlar. Dünən iki dəfə fərraş göndərmişəm, bu vaxta qədər gəlib çıxmamışlar.

Y u s i f ş a h. Xosrov, həsəd ilə yüksəliş, bir-birinə qovuşa bilməyən nərdivanın iki başına bənzər!

X o s r o v (*kiçilərək*). Nə demək istəyirsən, padşah?

Y u s i f ş a h. Nə demək istəyirəm?.. Onu sən gözəl bilirsən.

Fərraşbaşı daxil olur.

F ə r r a ş b a ş ı. Padşahım, şəhərdə üsyan var. Qadınlar çörəkçi dükanlarını talan edirlər. Şatır Şəbanın əmrilə bütün çörəkçi dükanları bağlanır.

Y u s i f ş a h. Bu nə sözdür?

X o s r o v. Görünür, çörəyi baha satıb xalqı həyəcana gətirmişlər.

F ə r r a ş. Dükanlar bağlanır, şəhər həyəcan içindədir.

X o s r o v (*fərraşa*). Gedək, mən bu saat bu işə bir əncam çəkərəm. (*Fərraş ilə çıxmaq istərkən*)

Y u s i f ş a h. Dayan!.. Bu məsuliyyət altından qaça bilməzsən. Necə olur ki, bu işlərdən sənin xəbərin olmayır?

X o s r o v. Siz rahatsız olmayın. Mən bu saat bu işlərin necə olduğunu öyrənib sizə məlumat verərəm.

Çıxmaq istəyir.

Y u s i f ş a h. Hara qaçırsan? Sən burdan çıxmayacaqsan! Qəhrəman, Qəhrəman!.. Bu xaini həbs et!

X o s r o v. Yusif... mənim kimi dostunu həbs etdirirsən?

Y u s i f ş a h. Xain insandan dost olmaz.

Qəhrəman Xosrovu aparır. B u d a q ilə R ə h m a n daxil olur.

B u d a q. Yatmısan, Yusif!..

Y u s i f ş a h. Yatan sizsiniz, bu vaxta qədər hardasınız?

R ə h m a n. Biz hər şeyi vaxtında xəbər verdik. Sən yatmısan! Gecəni gündüzə qatıb başın kefdən ayılmayır.

Y u s i f ş a h. Bunu sizə kim söylədi?

B u d a q. Xosrov...

Y u s i f ş a h. Ah, vicdansız! Alçaq!.. Düşmən ocaq başında imiş. Sarayı ələ almaqda bu xainin məqsədi varmış.

R ə h m a n. Neyləmiş?

Y u s i f ş a h. Nə eləməmiş? Vəzirlərlə əlbir olub məmləkətin altını üstünə çevirmiş. Hələ mənə də sui-qəsd hazırlayırmış.

B u d a q. Vicdansız!

R ə h m a n. Alçaq!.. Yusif, durma, tez bir çarə göstər!

Xalq silahlanıb saraya hücum etmək istəyir.

Y u s i f ş a h. Bundan sonra nə çarə? Artıq iş-işdən keçmişdir.

B u d a q. Xalqın qarşısına çıxıb bu sözlərin düşmən tərəfindən yayıldığını onlara anlatmaq lazımdır...

Y u s i f ş a h. Kimə? Silaha dolmuş qiyamçılaramı? Bunu onlara əvvəldən anlatmaq lazım idi.

B u d a q. Qorxma, bizim də tərəfdarlarımız az deyil.

Y u s i f ş a h. Həyat gah durğun gölə, gah coşqun çaya bənzəyir. İndi mən həyatı, fırtınalı dəniz kimi daima qayalarla çarpışan görmək istəyirəm. (*Qılıncını çəkərək*) Gedək!

Səhnədən çıxırlar. Səhnə qaranlıqlaşır, Bir an sonra yenə aydınlaşır.
Uzaqdan alqış səsləri eşidilir:

Yaşasın Şah Abbas! Yaşasın Yusif şah!..

S ə l m a ilə X a c ə gəlir.

S ə l m a. Döyüş başlandı. Zülmətlə aydınlıq üz-üzə gəlmişdir. Şah Abbas qalib gələrsə, işimiz nə olacaq?

X a c ə. Mən də onu düşünürəm.

Alqış səsləri getdikcə yaxınlaşır. Səlma əsəbi hallar keçirərək Xacəyə yaxınlaşır.

S ə l m a (*onun qılıncını qınından çəkərək, havada oynadır*). Düşünmək vaxtı deyil! (*Əlində qılınc, səhnədən çıxır. Xacə Səlmanın arxasınca bağırır*)

X a c ə. Səlma, Səlma! (*Səlma uzaqlaşır, Xacə boş qına baxaraq*) İndi mən nəyəm? Bir heç! Heçlik də məndən şərəflidir.

Uzaqdan səslər eşidilir.

Yaşasın Yusif şah!

X a c ə (*əsəbi hallar keçirir, tez-tez gəzinir*). Gəlirlər... Gəlirlər!

Y u s i f ş a h, B u d a q, R ə h m a n, Q ə h r ə m a n və S ə l m a bir neçə asi ilə vuruşa-vuruşa səhnəyə daxil olurlar.

Y u s i f ş a h. Dostlar! Zəfərin ən kəskin silahı cəsarətdir.

B u d a q. Məslək uğrunda ölmək böyük şərəfdir!

I a s i (*qılıncını Budağa endirərək*). Al, bu sənə şərəfli ölüm!

Budağı vurmaq istərkən Yusif şah onu öldürür.

II a s i. Qorxmayın, dostlar, Şah Abbas ordusu ilə bizə köməyə gəlir.

Səlmanı vurmaq istərkən Qəhrəman onu öldürür.

Q ə h r ə m a n. Dostlar, onlar min qarğadır, biz bir laçın quşu... (*Hücum edir*)

R ə h m a n. Ya şərəfli ölüm, ya şərəfli həyat!

III a s i. Al, bu sənə şərəfli ölüm.

Rəhmanı vurub öldürür, Qəhrəman hücum edir.

Q ə h r ə m a n. Bu qanı yerdə qoymayacağam.

Qəhrəman sonuncu düşməni də öldürür. Səhnə boşalır.

S ə s l ə r. Yaşasın Şah Abbas!

Y u s i f ş a h. Gəlin, düşməni qarşılayaq.

B u d a q. Yox, padşahım, mənim fikrim başqadır.

Y u s i f ş a h. Fikrin nədir?

B u d a q. Gələcək döyüşlərə başlamaq üçün geriyə çəkilmək.

Y u s i f ş a h. Nə deyirsən Budaq? Düşmən qarşısından qaçmaq?

B u d a q. Sən xalqa lazımsan.

Q ə h r ə m a n. Doğru deyir.

Y u s i f ş a h. Gecdir, gecdir...

Q ə h r ə m a n. Gec deyil. Saray bağçasından eşiyə çıxan gizli yol mənə məlumdur. Oradan getsək bizi görən olmaz.

S ə l m a. Qoy gəlib bizi tapmasınlar.

B u d a q. Razı ol, Yusif!

Q ə h r ə m a n. mən sizi hər yerdən salamat qurtararam, gedək!

S ə l m a. Gedək, padşahım, gedək!

B u d a q. Xalqımızın gələcəyi eşqinə gedək...

Y u s i f ş a h. Dostlar, bu sarayın qapısını bir də döymək üçün getmək lazımdır. Bir də ki, Şah Abbası, onun ətrafındakı xainləri daima təşvişdə, qorxu içərisində saxlamaq üçün geriyə çəkilməyimiz daha məsləhətdir. (*Gülərək*) Ulduzların bəlasına qoy Şah Abbas özü düçar olsun! (*Gedirlər*)

Səs get-gedə yaxınlaşır. Təbil səsi... Xacə əsəbi hallar keçirir.

X a c ə. Gəlirlər... gəlir... (*Boş qına baxaraq*) Bu qını qılıncsız görsə Şah Abbas başımı bədənimdən ayırar.

Ölülərin qılıncını götürüb qına taxmaq istəyir. Qılınc girmir... Qılıncı qırıq bir qəbzə tapır. Onu tez qına keçirib bir tərəfə çəkilir. Ş a h A b b a s M i r z ə S ə d r ə d d i n ilə səhnəyə daxil olur.

Ş a h A b b a s. Pəh-pəh-pəh! Nə gözəl mənzərədir! Hanı mənim xidmətçilərim? Hanı mənim vəzirlərim? Xacə, Xacə!

Xacə gəlir, Şah Abbasa baş əyərək.

X a c ə. Bəli, qurban.

Ş a h A b b a s. Hanı Yusif şah!

X a c ə. Padşah, mən Yusif şahı bizim adamlarla vuruşarkən gördüm, zalım oğlu hər zərbədə iki baş bədənindən ayırırdı. Mən arxadan ona bir qılınc endirmək istədim. O mənim üzərimə hücum edərkən tab gətirməyib qaçdım.

Ş a h A b b a s. Sonra? Bəs o hara getdi?

Xacə. Xəbərim olmadı. (*Əyilərək*) Mən ancaq özümə vəkillik edə bilərəm.

Ş a h  A b b a s. Bəs Səlma?

X a c ə. Çoxdan görmürəm. Zənnimcə, Yusif şah Səlma ilə Qəhrəmanı azad etdi.

Ş a h  A b b a s. Of, fəlakət!.. Mirzə Sədrəddin, bu nə oyundur? Ulduzları onlar aldatdı. Demək, göydən enən bəla məni məhv edəcək.

M i r z ə  S ə d r ə d d i n. Pərişan olmayın, şahım! Hər yerdə olsa da göydən enən bəlaya onlar düçar olacaqlar.

Ş a h  A b b a s. Yox, inana bilmirəm! Yusif Sərrac şahlıqdan əl çəkib qaçmış. Bu gün padşah mənəm. Demək, ulduzlardan enən bəla məni məhv edəcək. Of, gözlərim qaralır, bədənim əsir, mənə bir tədbir və çarə göstər! (*Xacəyə*) Vəzirlərim hanı?

X a c ə. Xəbərim yoxdur, şahım!

Ş a h  A b b a s. Mirzə Sədrəddin, Mirzə Sədrəddin!.. Tez, durma, bir çarə və tədbir göstər.

M i r z ə  S ə d r ə d d i n (*dili əsə-əsə*). Padşahım... İzin ver, gedib Uluğ bəyin kitabına baxım.

Ş a h  A b b a s. Yox! Canını qurtara bilməzsən! Sənin verdiyin bu qara xəbər mənim büsatımı dağıtdı, sarayımı alt-üst etdi... Mən də səni sağ buraxmayacağam. (*O tərəf-bu tərəfə baxır*) Qəhrəman da belə getdi. (*Xacəyə*) Xacə!.. Vur bu itin başını.

Xacə əyilərək.

X a c ə. Padşahım, mən baş vurmaq bacarmaram.

Ş a h  A b b a s. Sənə vur deyirəm, yoxsa... (*Hücum edir*)

X a c ə. Baş üstə, padşah. (*Qılıncını çəkir. Əlinə yalnız qəbzə gəlir. Heyrətlə qəbzəyə baxaraq*) Bəs mənim qılıncım hanı? Bu nə sirrdir, padşahım?

Ş a h  A b b a s (*çaşqın və əsəbi*). Ah, mənim bəxtim dönmüş, taleyim sönmüş!.. Görünür, ulduzların bəlası məni məhv edəcək! (*Ayaq üstə durmağa taqəti qalmayıb yıxılırkən*) Tutun məni, tutun! (*Şah Abbas Xacənin qolları üstünə yıxılır*)

X a c ə. Şahım, qalx... İran taxt-tacı sizi gözləyir.

Ş a h  A b b a s. Of!.. Ulduzlar bizi aldatdı!

P ə r d ə

S O N

*1928*

# NÜŞABƏ

*Beş pərdə on iki şəkildə mənzum dram*

Əsər Nizami Gəncəvinin "İskəndərnamə" poeması əsasında yazılmışdır.

## İ Ş T İ R A K  E D Ə N L Ə R:

N ü ş a b ə – Bərdə xaqanı
A l m a z – Nüşabənin vəziri
İ n c i – qadın ordusunun baş komandanı
U l u c a – saray məhrəmi
U l u ğ  b ə y – kişi ordusunun baş komandanı
M ə r c a n – sərhədbəyi
D i l b ə r – eşikağası
G ə r a y – Gəncə-Aran xanı
T ə r x a n – Şəki xanı
S a l t i k – Tərxanın vəziri
Q a p l a n – cəngavər
M ə s t u r – saray xidmətçisi
Ə y y a r
İ s k ə n d ə r – Yunan qeysəri
Ə r ə s t u – onun vəziri
K l i t
A t t a l – İskəndər ordusunun sərkərdələri.
F l u t
A x i l l e s
P a r m e n u n – Xorasan naibinin müavini. Flutun atası
M ə l i k - K i m o n – Nüşabənin sevgilisi olan Salurun qatili, İskəndərin casusu
Ş ə h p ə r – eşikağası
K ə n k a n
A t l ı
Xanəndə, rəqqasələr, sərkərdələr, pəhləvanlar, saray xidmətçiləri, İran əsirləri və sairə

# BİRİNCİ PƏRDƏ

## BİRİNCİ ŞƏKİL

Səhnə Bərdə sərhəddini təsvir edir. Otlu, çiçəkli, seyrək ağaclı geniş bir açıqlıq, ortada üstü yosunlu kiçik bir qaya, qaya ətəyində – ağac altında kiçik bir çeşmə çağlayır. İki sərhədbəyi – İnci və Mərcan pəhləvan qiyafəsində, əllərində süngü, qalxan, bellərində qılınc, təpənin üstündə durub ətrafa diqqətlə baxırlar. Arxadan ardı kəsilmədən keçməkdə olan ordunun nəğməsi eşidilir.

Ey sərhədçi, ayıq ol sən,
Qoru yurdu yad kimsədən!
Qoru ellər ürəyini,
Qoru gözlər bəbəyini.
Torpağına girsə düşman,
Köksün olsun süngü, qalxan.
Aman vermə azğın qurda,
Ziyan verər anan yurda.

Pəhləvan qızlar səhnədən uzaqlaşır. Şəki xanı Tərxan, yanında vəziri Saltik, gəlir.

T ə r x a n

Durmayın, haxlayın vurulmuş ovu!

S a l t i k

Sənə yar oldu gəncliyin alovu.

T ə r x a n

Bax, vəzir, Bərdə ovlağı... Hər yan
Qırqovuldur, turac, maral, ceyran.

S a l t i k

Hər şikarın yatağıdır o gədik.

T ə r x a n

Şəkidən ov edə-edə gəldik.
Görmədim böylə bir gözəl ovlaq.

S a l t i k

Hələ sən göy yamaclı dağlara bax!
Qəlbə hakim olur gözəlliklər,
Belə yerdən qaçar düşüncə, kədər...

Sərhəddə ardı kəsilmədən ordu keçib gedir. Nəğmə və musiqi səsi ucalır. Tərxan Saltikdən soruşur.

T ə r x a n

Bax, nədir o axın, yürüş, həyəcan?

S a l t i k

Hüduda ordu toplayır xaqan.

T ə r x a n

Nə üçün?

S a l t i k

Çünki rumlu İskəndər –
Hindi, İranı fəth edən qeysər
İndi də Bərdəyə gəlir.

T ə r x a n

Hay-hay!
Yoxsa çarpışmaq istəyir bu saray?
Ovçu şahinə qırqovul neylər?
Tükünü qanlı caynağında didər!

S a l t i k

Sən də... Nuşabəni zəif sanma,
Qəhrəmandır o, hissə aldanma.
Elə coşqun, hünərli ordusu var,
Kükrəsə Qafı Elbrusa dayar.

T ə r x a n

Əjdaha olsa da, qadındır adı.

S a l t i k

Onda var odlu ildırım qanadı!
Həm igid, həm hünərlidir, gerçək.

T ə r x a n

Dişi ceyranı sən də öymə görək.

S a l t i k

Kişilərdən, inan, geri qalmaz.

T ə r x a n

Erkəyə tay olarmı ağlıdayaz?!
Hanı onlarda o kəsər, o hünər?
Yüzünü bir əli ağaclı yenər.

S a l t i k

Qarşına çıxmamış dişi aslan.

T ə r x a n

Oxuma, ey vəzir, mənə dastan!
Qeysərin dağ kimi bir ordusu var.
Cənginə qarşı yer də, göy də susar.

(*Bir an düşündükdən sonra*)

Bəlkə başqa səbəblədir bu gəliş,
Yoxsa, Nüşabəni o da sevmiş?

S a l t i k

Sevsə də, qız könül verərmi ona?
Bağlıdır çünki başqa qəhrəmana.
Çox çətindir onu keçirmək ələ.

T ə r x a n

Kimdir o qəhrəman? Açıq söylə!

S a l t i k

Uluğun qardaşı igid Salur.
Xanımın qəlbinin sevinci odur.
Şəklini öz sarayına asmış,
Hey pərəstiş edir ona yaz, qış.
Atası sağ ikən sevişmişlər.
Sevgiyə qarşı neylər İskəndər!..

T ə r x a n

Bu Salur sağmıdır, vəzir? Anlat!

S a l t i k

Nə deyim, xan, qəribədir bu həyat!
Fitnə, acgöz qadın kimi gündə
Bir dona, rəngə, şəklə girməkdə.
Bir üzü olsa ağ, beşi – qaradır.
Bir sevinc versə, min bəla yaradır.
Məlik adlı bir özgə sərkərdə
Düşərək sevgi adlanan dərdə,
Salura qarşı bəsləmiş nifrət,
Axtarıb intiqam üçün fürsət,
Bərk hazırlıq gedən zamanda toya,
Zindan olmuş ona geniş dünya.
Saluru bağçada yatan görmüş,
Bir zəhərli bıçaqla öldürmüş.

T ə r x a n

Bu cinayət açıldımı?

S a l t i k

Canan
Gözü yaşlı çalışdı xeyli zaman,
Ən sonunda cinayəti açdı,
Asdırırkən, Məlik duyub qaçdı.
Xanımın artdı möhnəti, dərdi,

Hər yana xeyli atlı göndərdi.
Yoxa çıxdı, tapılmadı düşman.

T ə r x a n

Dərdli imiş, demək, yazıq xaqan!

Gəncə xanı Gəray gəlir.

S a l t i k

(*onu görüncə*)

Bax, Gəraydır.

T ə r x a n

Uğurlu olsun, xan!

G ə r a y

Səni xoş gördük, ey igid Tərxan!

T ə r x a n

Birbaşa Gəncədənmidir bu gəliş?
Hansı qüvvət bu ölkəyə çəkmiş?

G ə r a y

Biləcəksən, dayan, tələsmə bir az!

T ə r x a n

Xanların çantasında səbr olmaz!

G ə r a y

Sən nə məqsədlə gəlmisən Şəkidən?
Fikrini aç de, gizləmə məndən.

T ə r x a n

Fikrimiz Bərdəni səyahətdir.

G ə r a y

(*gülümsəyərək*)

Bu səyahət də bir siyasətdir.

T ə r x a n

Sən neçin gəldin? İndi sən söylə!

G ə r a y

Sorma heç, aldığım bu dərd ilə
Bir cəhənnəm keçir mənə bu həyat.

Tərxan

Nə üçün? Durma, dərdini anlat!

Gəray

Məni Nüşabə eylədi təhqir,
Tökürəm intiqam üçün tədbir.

T ə r x a n

Siz onunla görüşdünüz nə zaman?
Susma, tez söylə!

G ə r a y

Sorma, ey Tərxan!
Seyrə çıxmışdı bu çiçəkli düzə,
Gəldim o şən bahar ilə üz-üzə.
Eşqimi nazlı yara anlatdım,
Sözümə bal, noğul, şəkər qatdım.
Mənə söz verdi, bağladıq peyman,
Elçi getdi vəzirim Alp Arslan.
Söyləmiş: "Biz onunla əyləndik,
O da şənləndi, biz də şənləndik".

T ə r x a n

O gözəl qız, o ovçu, şux tərlan
Könlünü ovlamış sənin.

G ə r a y

Tərxan!

Onu yenməkdə əlbir olsaq biz,
Çox gözəl bar verər diləklərimiz.
Qarşıda həm də rumlu qeysər var.
Çarəsiz, qorxudan bizə sığınar.
Beləliklə, o tabe olsa bizə,
Şübhəsiz, baş əyər hər əmrimizə.
Toxtasın dövləti, cəlalı sənə,
Təkcə Nüşabəni bağışla mənə.
Nə deyirsən? Bu işdə əlbir olaq?

T ə r x a n

Razıyam, kimsə bilməsin ancaq!
Məndə var dağları yıxan ordu.
Get hazırlan.

G ə r a y

Sağ ol, yaşa, qonşu!

(*Gəray gedir, Tərxan düşüncəyə dalır*)

T ə r x a n

(*vəzirə*)

Nədir, anlat, sehirli bu əsrar?
Bu gözəl qızda hər kəsin gözü var
Doğrusu, məndə də oyandı maraq.

S a l t i k

O qıza uyma, xan, bu fikri burax!
Ələ keçməz o nazənin afət.

T ə r x a n

Qüvvətə baş əyər hər ülviyyət.
Gəl ki, qiymətlidir bu an, bu zaman.
Fürsəti fotə verməz əqli olan.

Tərxanla Saltik gedir. İnci pusqudan çıxıb onların ardınca baxır. Bu zaman Uluca gəlib İnciyə yaxınlaşır.

İ n c i

Qaplanı get çağır da sərhəddən;
Saraya dəvət et Uluğ bəyi sən.

U l u c a

Bu nə həycandır, İnci, söylə?

İ n c i

Baba,
Qorxudaykən saray, bu el, bu oba,
Xanıma qarşı qonşu xanlıqlar
İttifaq etdi...

U l u c a

Burda təhlükə var.
Bu iki xanlıq olsa gər əlbir
Batırar ölkəni...

İ n c i

Nədir tədbir?

U l u c a

Burada başqa bir düşüncə gərək,
Tapılar çarəsi, darıxma, gedək!

Hər ikisi gedir. M ə l i k - K i m o n pusqudan çıxıb onların ardınca kinli-kinli baxır.

K i m o n

Onun eşqində qatil oldum mən,
Düşdüm itkin sevimli ölkəmdən.
O qızıl gül bənizli, laləyanaq
Mənim olsun gərək, mənim ancaq!

P ə r d ə

## İKİNCİ ŞƏKİL

Nüşabənin sarayı. N ü ş a b ə sevgilisi S a l u r u n divardan asılmış şəkli qarşısında diz çöküb and içir.

N ü ş a b ə

Salurum! And olsun günəşə, aya,
Köksümdə tikdiyin odlu saraya,
Səndən başqasına vermərəm könül.
Yox, könül sövdası oyuncaq deyil!
Eşqin bu könlümdə atmış rişələr,
Əcəlsə qoymadı versin bir səmər.
Həyat bağçasında sənsiz mən nəyəm?
Eşqimin gözündə donmuş qətrəyəm.
Bu hala bilmirəm ağlayım, gülüm,
Qəlbi istəyindən ayırır ölüm.
Sehirli, əsrarlı bu həyat nədir?
Həm gülünc, həm qorxunc bir əfsanədir.
Yoxsa bu fırtına, qasırğa, boran
Ki, məni qoynunda oynadır hər an
Eşqimi söndürmək istəyir, heyhat!
Onu söndürəmməz bütün kainat!
Fələklər dönsə də, ürəyim dönməz!
Zülmət hökm etsə də, al günəş sönməz!
Yarasa işığa olsa da düşmən,
Günəşli eşqimə keşikçiyəm mən.

Sükut

Salurum! Nə qədər canımda can var,
Mənə kipriyimlə od daşıtsalar,
Dar, qaranlıq məzar olsa məskənim,
Neştərlə dəlinsə bütün bədənim,
Tufanlar qopsa da, bu eşqin ancaq
Vətənin eşqilə əvəz olacaq!

Səhnə qaranlıqlaşır. Yenidən işıqlanır. Nüşabənin sarayıdır. Nüşabə taxt üstündə oturmuş, ətrafda vəzirlər, əyanlar, sərkərdələr, saray adamları dayanmışdır.

N ü ş a b ə

Ölkələr düşməni rumlu İskəndər
Hind ilə İranda qazanmış zəfər.
İndi də yurduma göz dikmiş yağı.
Atalar qoruyan ana torpağı
Elimin əlindən almaq istəyir,
Qul kimi zillətə salmaq istəyir.
Bax, bu məqsəd ilə hüduda yaxın
Meşədə yerləşmiş bu vəhşi axın.

U l u c a

Kəllərlə çarpışmış bu igid əllər,
Ona neylər rumlu kərtənkələlər!

D i l b ə r gəlib baş əyir.

D i l b ə r

Hökmdar!

N ü ş a b ə

Nə oldu tapşırıqlarım?

D i l b ə r

Qaplan bəy xidmətə hazırdır, xanım!

N ü ş a b ə

De gəlsin!

Dilbər gedir.

Qeysərə qazılsın quyu.
Yurduna çevirək o lehmə suyu.

Qaplan gəlib baş əyir.

Q a p l a n

Uğurlar, xaqanım!

N ü ş a b ə

Xoş gördük, Qaplan!
Hazırsan?

Q a p l a n

Hazıram, şövkətli xaqan.

N ü ş a b ə

Səfərin nə füsun işlədər, görək!

U l u c a

Əmin ol, çox gözəl səmər verəcək.
İgiddir, qılıncdan kəskin ağlı var.
O elə şeytandır, dovşanı nallar.

N ü ş a b ə

Hərəkət edən vaxt böyük İrana,
İki şey mən vədə vermişdim sana:

(*Bayrağı və tuğranı Qaplana uzadaraq*)

Bu kəyan bayrağı, bu da bir tuğra,
Keyqubad möhrü də vurulmuş bura,
Tuğrada adını yazmışam: Qubad.

A l m a z

Qaplana yaraşır bu uydurma ad.

N ü ş a b ə

Nəsəbin Kəyanə mənsubdur, ancaq
Uydurma olsa da bu tuğra, bayraq,
İskəndər kinilə çırpınan İran
Bu bayraq altına axar hər yandan.
Özünlə silah da, əsgər də götür,
Döyüşdə sınanmış ərlər də götür!

Q a p l a n

Əmrinə itaət bir vəzifədir,
Verdiyin hər fərman bizə töhfədir.

N ü ş a b ə

Gecikmə, yolunu İran gözləyir.
Qeysərə qarşı kin, üsyan gözləyir!

Q a p l a n

Sağ ol, ey hörmətli, şövkətli xaqan.

N ü ş a b ə

Yaxşı yol!

U l u c a

Zəfərlə qayıt, qəhrəman!

Qaplan gedir. Uluca Nüşabəyə yaxınlaşır.

U l u c a

Qaplan bəy bu işin altından çıxar.

N ü ş a b ə

Düşməni qılınc və siyasət yıxar!
Nifaq törətməsə kiçik xanlıqlar,
Ellərin taleyi gün kimi parlar.
Dost olsa həm Şəki, həm də ki, Gəncə,
Ellərim düşmənə olmaz əyləncə.

U l u c a

Tək əldən səs çıxmaz, birləşsək, zəfər
Bizimdir, şübhəsiz, neylər İskəndər.

Dilbər içəri girib baş əyir.

Di l b ə r

Şövkətli hökmdar, Uluğ bəy gəlmiş.

N ü ş a b ə

Qoy gəlsin, vaxtında görülsün hər iş.

Dilbər gedir. U l u ğ bəy içəri girib baş əyir.

U l u ğ b ə y

Gün aydın!

H a m ı

Gün aydın!

N ü ş a b ə

Əmrimi aldınmı, Uluğ?

U l u ğ b ə y

Şövkətli hökmdar, çatınca buyruq
Bir anda yayıldı bütün ölkəyə,
El coşdu, axışdı döyüş var deyə.
Bir bayram müjdəsi oldu bu xəbər.
Bu daşqın sevincdən coşdu hər əsgər
İşini-gücünü büsbütün atdı,
Cıdır düzlərində silah oynatdı.
İgidlər hər yandan hey axıb gəlir,
Getdikcə ordunun ruhu yüksəlir.

N ü ş a b ə

Düşmən həm güclüdür, həm də hiyləgər,
Qüvvətlə, hiyləylə qazanır zəfər.
Qüruru sığmayır uca göylərə.

U l u ğ b ə y

Onu biz göylərdən endirrik yerə.

N ü ş a b ə

Qardaşın Salurun qəlbi var səndə.

U l u ğ  b ə y

Qəhrəman orduma əminəm mən də.

N ü ş a b ə

Şanlı tariximiz görməmiş ləkə,
Zəfərlər qazanmış bu şanlı ölkə!

U l u ğ  b ə y

Vətənə kin ilə girərsə düşman,
Açarıq elə bir dəhşətli tufan,
Toz-torpaq içində sürünər yağı,
Çeynər cəmdəyini atlar dırnağı.
Elə dərs verərik işğalçılara,
Bir də üz çevirməz bu şən diyara!
Nə cəza vermişsə Tomris Xösrövə,
Biz də o cəzanı verərik devə!

N ü ş a b ə

Nəsildən yadigar qalmış bu hünər.

U l u c a

Məsəldir: ot – kökü üstündə bitər.

N ü ş a b ə

İradə düyünlər açandır, gedək!
Hüdudu, ordunu yoxlamaq gərək.

Nüşabə qabaqca, Uluca, Uluğ bəy, Almaz, İnci və başqa sərkərdələr onun ardınca gedirlər.

P ə r d ə

## ÜÇÜNCÜ ŞƏKİL

Birinci şəkildəki görünüş. Nüşabə, onun ətrafında İ n c i,  U l u c a,  U l u ğ  b ə y,  M ə r c a n,  A l m a z  və başqaları dayanmışlar. Nüşabə təpə üstündən ətrafı gözdən keçirərək, yanında dayanmış kənkandan soruşur.

N ü ş a b ə

O laçın bürcünə bu dağlardan
Atılan ləğm necə?

K ə n k a n

Ey xaqan,
Az qalıb qurtara.

N ü ş a b ə

Bəs xəndəklər?

K ə n k a n

Qurtarıb.

N ü ş a b ə

Pusquda durmuş qeysər,
Çiy süd əmmiş, işi vaxtında görün,
Olarıq yoxsa peşiman bir gün.
Anlayın ki, qazılan dəhnələrin
Çoxdur əhmiyyəti; düşmən hünərin
Yenməyə nər kimi coşqun Tərtər
Ən çətin gündə bizə yardım edər.

U l u ğ  b ə y

Döyüşün üz-üzə bir ləzzəti var:
Süzməsə göydə qılınc, toppuzlar,
Yerdə də, göydə də rəqs etməsə baş,
Nəşə verməz igidə, bil ki, savaş.

N ü ş a b ə

Ağıl etsə qanı hər yerdə əvəz,
Qoruyar qüvvəti qurban verməz.
Elimin olsa da aslan ürəyi,
Ehtiyatdır igidin ilk bəzəyi.
Qeysərin qüvvəti zordur, bunu bil!
Bir həqiqətdi bu, əfsanə deyil.

Uzaqdan atlı görünür. Almaz diqqətlə ona baxır.

A l m a z

Kimdir o?

İ n c i

Atlı gəlir bax, çaparaq,

U l u c a

Çox mühüm bir iş üçündür bu gələn.

N ü ş a b ə

Şübhəsiz, fitnə törətmiş düşmən.

A t l ı gəlib baş əyir.

A t l ı

Uğur olsun, uca şanlı xaqan!

N ü ş a b ə

Uğur olsun, nə xəbər var?

A t l ı

Düşmən
Ölkəyə xəlvət adamlar salmış,
Nə ki un, ət və taxıl var, almış.
Göndərir başqa diyara.

N ü ş a b ə

(*ətrafındakılara*)

Bu nədir?
Ağacı qurdlar içindənmi yeyir?
Bizə gülməz bu fəlakətli xəbər!

U l u c a

Gör nə fitnə törədir İskəndər!
İstəyir məmləkəti qoysun ac.

N ü ş a b ə

Tülküyə ordum olardı möhtac!

(*Ulucaya*)

Baba, get, tez bu işə əncam çək!
Ölkədən zərrə də tərpənməyəcək!

Uluca, Uluğ bəy və atlı gedirlər.

N ü ş a b ə

(*Almaza*)

Məni rahətsiz edir bu işlər.

(*Kənkana*)

Gəl, baba, hamsını bir-bir göstər!

Qabaqca Nüşabə, onun ardınca başqa qızlar təpədən enirkən əvvəlcə S a l t i k, onun ardınca T ə r x a n gəlir.

S a l t i k

Xan, gəlir, bax, nə gözəldir, gerçək!

T ə r x a n

Öndəki qız, hamısından göyçək.

Qabaqca Nüşabə, onun ardınca başqaları danışa-danışa səhnədən uzaqlaşmaq istərkən Tərxan Nüşabəyə yaxınlaşır.

T ə r x a n

Getmə, dur, mərhəmət et, ey can alan!
Bu turac könlümə saldın həyəcan.

Qızlar istehza ilə gülüşürlər.

N ü ş a b ə

Bir bu gəncdə hünərə, cürətə bax!

A l m a z

Bu kiçik yaşda uca niyyətə bax!

N ü ş a b ə

Söylə, kimsən, haradansan, ey gənc?
Oynayırkən zər atırsan şeş, pənc...

S a l t i k

Şəki mülkündə, xanım, xandır bu,
Adlı-sanlı igid Tərxandır bu.
Qəhrəmandır, igidin hörməti var,
Özü gənc olsa da, şan-şöhrəti var.

T ə r x a n

(*Aşiqanə nəzərlə Nüşabəyə baxaraq*)

Söylə, Nüşabəmisən, nazlı mələk?
Səni gördükdə çiçəkləndi dilək.

N ü ş a b ə

Ey igid, biz hara, Nüşabə hara!

M ə s t u r

Düşmə Nüşabə adilə bu tora.

İ n c i

Burda sərhəd bəyiyik biz ancaq.

A l m a z
İşimizdir ana yurdu qorumaq.

T ə r x a n
Məni aldatmamış əsla ürəyim,
Bax, budur, sevgili nazlı çiçəyim.

M ə r c a n
Tapmısan, tut ətəyindən, bərk tut,
Başqa dilbərləri artıq sən unut!

N ü ş a b ə
Yetişir, bizdə əzizdir qonşu,
Düşünün, bir nə zərafətdir bu?

İ n c i
O da gənc, biz də cavan; əylənirik,
Bu çəmənlikdə bir az şənlənirik.

N ü ş a b ə

(*Tərxana*)

Məqsədin nə, buraya gəlməkdən?

T ə r x a n
Məqsədim, sevgili yar, sənsən, sən!

N ü ş a b ə
Nə zamandan bəri yar olduq, xan?

T ə r x a n
Olmadıqsa olarıq, ey canan!
Öz vəzirim bu gün elçi gələcək.

N ü ş a b ə

(*Almaza*)

Bığlı-saqqallı çocuqdur, gerçək.

Qızlar gülüşürlər. Nüşabə qabaqca, onun ardınca A l m a z və M ə r c a n gedirlər.

T ə r x a n

(*Öz-özünə*)

Min bəla yağsa da göydən, yerdən,
Çəkmərəm əl bu gözəl dilbərdən.

M ə s t u r

(*Tərxana yanaşaraq zarafatla*)

Vaxt keçir, durma, hazırlıq gör, xan!
Elçi gözlər o sevimli canan.

T ə r x a n

(*Saltikə yanaşaraq*)

Dəyməmişkən əli qeysər əlinə,
Elçi get məndən o nazlı gəlinə.

Tərxan və Saltik gedirlər. Günəş qüruba doğru enir. Qərb üfüqlərini gözəl lövhələr bəzəyir. Uca, başı qarlı dağlar uzaqda büllur kimi ətrafa şəfəqlər saçır, hər tərəf zəngin boyalarla bəzənir. İnci heyrətlə təbiətin bu gözəlliyinə tamaşa edir.

İ n c i

Qərb üfüqlərini bəzəyir günəş,
Yorulmaq bilməyir bu sönməz atəş.
Qürubun günəşi oyadır sevda.
Yoxsa qəlbim kimi vurğundur o da?

Bu zaman İskəndərin sərkərdələrindən Attal bir neçə Rum əsgəri ilə gəlib sərhəddi dolaşır.

İ n c i

Kimsiniz?

A t t a l

Sən kimsən?

İ n c i

Mən, sərhədbəyi!

A t t a l

(*İstehza ilə*)

Xaqanın ürəyi, gücü, dirəyi.

İ n c i

Bu nə söz? Sən kimsən?

A t t a l

Mən, bir pəhləvan.

İ n c i

Hardansan?

A t t a l

Hardanam?.. Gəlirəm Rumdan.

İ n c i

Sərhəddə girməkdən məqsədin nədir?

A t t a l

Buna bax! Millətlər bizə bəndədir.
Hər yerə at sürdük, bu məğrur dünya
Duz və çörək ilə çıxdı qarşıya.

A x i l l e s

Yunana baş əyir bütün dövlətlər,
Azadlıq paylayır böyük İskəndər!

İ n c i

O verən azadlıq nə gərək bizə?
Geri dön, soxulma şən ölkəmizə.
Geri dön!

A x i l l e s

Kim məni qoyar yolumdan?

İ n c i

Vəzifəm!

A x i l l e s

(*İstehza ilə*)

Vəzifəm, qürurlu ceyran...

İ n c i

Geri dön, deyirəm!

A t t a l

Ey qadın, çəkil!

İ n c i

Bu ölkə, ey adam, yiyəsiz deyil
Hər ötən soxulub dərsin barını!

A t t a l

Bax, əcəl söylədir miskin qarını...

İ n c i

Ölümlə qorxutma, rumlu pəhləvan,
Bu eldə tapılmaz rumludan qorxan.
Acizlər, miskinlər sizə bəndədir.

A x i l l e s

(*Attala*)

Hər sözü tənədir, bir top iynədir.

A t t a l

Susdur bu naqqalı!

A x i l l e s

Haydı, durma vur!

İ n c i

Neylər bir igidə yolkəsən quldur?

A x i l l e s

Alın bu çəngini bizim çadıra!

İ n c i

Bu çəngi yenilməz rumlu ayqıra!

Qılıncını çəkib üzərinə hücum edən rumlu əsgərlə vuruşur, bu zaman U l u ğ b ə y b i r n e ç ə i g i d l ə gəlib ortaya atılır.

U l u ğ b ə y

Ey, dayan! Bu dərəbəylikmi, nədir?

A x i l l e s

Geri dur!

(*Onun döşündən itələyir*)

U l u ğ b ə y

Yaramaz!

(*Qılıncını çəkib vuruşur*)

A t t a l

Bu nə fitnədir?

Qılıncını çəkib vuruşur. Bu zaman U l u c a gəlib onları vuruşan görür.

U l u c a

Dayanın, bu nədir, birinci görüş
Kin ilə başlanmaz, nədir bu döyüş?
Dost ikən hər iki şövkətli dövlət,
Nə gərək bu qanlı, kinli ədavət?

Nüşabə, İskəndər tutarsa xəbər
Sizə də, bizə də bərk cəza verər.
Barışın, dost kimi yanaşın bizə.
Dostlar, xoş gəldiniz bu ölkəmizə!

A t t a l

(*Kinli*)

Hələlik etdim bu qocaya hörmət.

Sərt baxışlarla İncini süzüb, gəldikləri yoldan geri qayıdırlar.
Uluca onların ardınca baxdıqdan sonra İnciyə yaxınlaşır.

U l u c a

Qılıncdan kəskindir ağıl, siyasət,
Ayıq ol, döyüşə yaratma imkan,
Hər kiçik iş üçün tökülməsin qan.

İ n c i

Düşmənin kəşfiyyat qoludur bunlar.

U l u c a

Nüşabə xatuna get xəbər apar.

(*Uluğ bəyə yaxınlaşaraq*)

İgidə yaraqdır səbir, ehtiyat,
Bunlarla gül açır, şənlənir həyat.

Uluca gedir. İnci onun ardınca baxaraq, dönüb saraya getmək istərkən,
Uluğ bəy İnciyə yaxınlaşır.

U l u ğ  b ə y

Getmə, dur, ölkəmin qəhrəman qızı.

İ n c i

(*Utanaraq*)

Ah, Uluğ!

U l u ğ  b ə y

Ömrümün ey şən ulduzu,
El xəzinəsində dəyərli inci,
Ruhumun, qəlbimin sonsuz sevinci.
Mənə bax, gözümdən qəlbimi oxu,
Sevgindən başıma bir çələng toxu.
Yad kimi uzaqdan baxma, gəl yaxın.

İ n c i

Ah, Uluğ, dərd edir hər yandan axın,
Köksümün içində çarpan ürəkdir,
Məni də inlədən tək bir diləkdir.

U l u ğ  b ə y

Könül bir ovçudur, girir hər dona,
Azadə bir quşdur, neylərsən ona?

İ n c i

Ah, nədir qəlbimi çəkən bu qüvvət?

U l u ğ  b ə y

Darılma, o mənim sevgimdir əlbət,
Qəlbini qəlbimə bağlayan teldir.

İ n c i

Bu sevgi qaynayıb daşan bir seldir.
Köksümü yalayır hey çağladıqca,
Sevgidən həm gülüb, həm ağladıqca.

U l u ğ  b ə y

Sövdamın rəngi var yanaqlarında,
Həyatım gülümsər dodaqlarında.
Çeşmədən durusan, şəfəqdən oynaq.
Belə mərd qızlarla gülər hər ocaq.

İ n c i

Ah, Uluğ...

Bir an gözlərini yerə dikib, sonra sürətli addımlarla səhnədən çıxıb getmək istərkən, Uluğ bəy onu saxlayır.

U l u ğ  b ə y

Bir dayan, ey canlı çiçək!

İ n c i

Xanıma sözüm var!

U l u ğ  b ə y

Nədir? De görək?

İ n c i

Düşmənlər hüdudu pozmuşdur deyə,
Gedirəm xanıma xəbər verməyə.

İnci gedir, Uluğ bəy onun ardınca həsrətlə baxır.

U l u ğ  b ə y

Gedişi köksümə çəkir odlu dağ,
Görüşü qəlbimdə yandırır çıraq.
Varlığım sarsılır onu görüncə.
Bu dilsiz sevgi, bu kədər, düşüncə
Qurd kimi gəmirir vurğun könlümü,
Sevgi yollarında yorğun könlümü.

P ə r d ə

## DÖRDÜNCÜ ŞƏKİL

Üçüncü şəkildəki görünüş. Artıq günəş öz şüalarını ətrafa saçmışdır. K i m o n (M ə l i k), əlində uydurma üstürlab, saray xidmətçisi M ə s t u r ilə danışır.

K i m o n

Məsturum! Al, budur həmin o zəhər.
Bircə damcı içərsə məhv eylər.

M ə s t u r

Bu xəyanət çətin başa gələcək.

K i m o n

Bu xəyanətlə bəxtimiz güləcək!

M ə s t u r

Sarayın qəlbi, ruhudur Uluca.

K i m o n

Mənə göz verməyən o tülkü qoca
Bu zəhərdən alar ağır zərbə,
Zərbədən sarsılar o Nüşabə.

M ə s t u r

Yox, Məlik, yox, bu xeyli qorxuludur.

K i m o n

Qəlbinə qorxu girməsin, Məstur!
Ölsə qazdan ayıq qoca kaftar,
Rumlu qeysər bizi ikiəlli tutar.
Qorxma, tədbirə gəl riza göstər!
Fəth edincə bu ölkəni qeysər

Tikəcək Bərdəyə məni xaqan.
Sürərik onda şanlı bir dövran.

M ə s t u r

(*Ətrafa baxaraq*)

Sus, gələn var.

K i m o n

Çəkil, çəkil!

M ə s t u r

Bəs sən?

K i m o n

Mən bəla görmərəm, tez ol, gizlən.

M ə s t u r səhnədən uzaqlaşır. Kimon onun ardınca baxaraq kinayə ilə gülür.

Olmasa sadədil ağılsızlar,
Arizuya çətin qovuşmaq olar.

Kimon Tərxanın yaxınlaşdığını görüncə kənara çəkilib dayanır, arxadan həzin mahnı səsi eşidilir:

Ağ buxaqda qara xallar
Ara-sıra qoşa düşər.
Duysa bunu canalan yar
Qəmzəsi göz-qaşa düşər.

T ə r x a n gəlib Nüşabəyə elçi getmiş olan vəziri Saltikin yolunu gözləyir, arxadan oxunan mahnını dinləyir.

Qanadlandı yenə sövda,
Ovçu tərlan düşdü yada.
Könül yanar qızğın oda,
Eşq atəşi başa düşər.
Atlas geymiş uca dağlar,
Ətəyində sellər çağlar.
Kəklik, turac gülər, ağlar,
Səsi dağa, daşa düşər.

K i m o n

(*Tərxana yaxınlaşaraq*)

Uğur olsun, oğul, bu şanlı gəliş!
Səni bu yurda taleyin çəkmiş.

T ə r x a n

Kimsiniz?

K i m o n

Vurğunam təbiətə mən,
İşığa, atəşə, hərarətə mən.
Ruhumun mərkəzi o yezdandır!
Mən kiçik zərrəyəm, o, vulkandır!
Köksü atəşli qətrəyəm ondan,
O isə çalxanan geniş ümman.

T ə r x a n

Bəli, ustadınızdır Əflatun,
Buyurun, mərhəba, bir az oturun,
Meyliniz varsa sərvətə, yeməyə!

K i m o n

Ehtiyacım yox, ey oğul, köməyə,
Yediyim gündə üççə xurmadır.
Ruhu, vicdanı mədələr qanadır.
Adətim hər zaman riyazətdir;
Bütün insanlara məhəbbətdir.

T ə r x a n

Əlinizdə nədir bu?

K i m o n

Üstürlab –
Göy, günəş, ulduz, ay, fəza, mehtab
Mənə çoxdan sevimli məhrəmdir.

(*Üstürlabı göyə çevirib baxaraq*)

Bu nücum elmi başqa aləmdir,
Bax, nə şeylər görünmədə gözümə;
Bəxtinin ulduzu gülür üzümə.
Mərhəba, şanlı taleyin vardır!
Müştəri ulduzu sənə yardır.

T ə r x a n

Haradan bildiniz bunu, baba can?

K i m o n

Bir yumaqdır əlimdə bu dövran,
Nə oyun işləsə bu çərxi-fələk,
Gözlərimdir bulud yaran şimşək.
Pərdə altında hər qəzavü qədər
Mənə parlaq günəş kimi görünər.

T ə r x a n

Görürəm, səndə çox kəramət var.

K i m o n

Qarşıda ən böyük səadət var.
Səni bu yurda taleyin çəkmiş.
Nə qədər şən, şərəflidir bu gəliş!
Köksü atəşli bu gözəl torpaq
Sənə qismət olur, sənə ancaq!
Qəhrəmanlar qılıncını öpəcək...

T ə r x a n

Çaşdın, ey mürşidim, dayan, nə deməк? –
Bu gözəl yurda hökm edir xaqan,
Adı Nüşabə, nazlı bir canan.

K i m o n

Onu da ram edər əziz bəxtin,
Şövkətin, dövlətin, uca təxtin.

Şaha qüvvət verən siyasətdir.
Sına öz bəxtini ki, fürsətdir.

T ə r x a n

Ah, içimdə nə toy, nə bayram var.
Eşqimiz dəf çalar, könül oynar.
Qoca Saltik neçin gecikdi, canım?

K i m o n

Görünür, saxlamış sevimli xanım,
Bilirəm, dan şəfəqli şux ülkər
Ona xələt, qızıl, xəzinə verər.

T ə r x a n

Hər zaman taleyim mənə yardır.

K i m o n

Qəhrəman, diqqət et, gələn vardır.

T ə r x a n

(*Kənara baxaraq*)

Qoca Saltik gəlir, aman, ona bax!
Üzü qəmli, kədərlidir ancaq...

S a l t i k gəlir, o qəmlidir, T ə r x a n a baş əyir.

Nə cavab verdilər?.. Vəzir, durma!

(*Saltik dinməz durur*)

Söylə, qarşımda boynunu burma!

S a l t i k

Daşa dəydi sənin uca muradın,
Əylənirmiş bizimlə nazlı qadın.
Söyləyir bu nişan, bu elçi nədir?
Mənə qarşı deyilmi bir təhqir?

Belə müşgül, ağır günümdə mənim
Diləyimdir fəqət ana Vətənim.

K i m o n

(*İstehza ilə*)

Sən, qadında qürura bax, sözə bax!

S a l t i k

(*Kimona*)

Həm hünər var o qızda, həm qanacaq.

T ə r x a n

Qaynayır qəlbimin içində öcüm,
Bilirəm, çatmaz o nəhəngə gücüm.

G ə r a y uzaqda görünür.

S a l t i k

(*Tərxana*)

Bax, Gəraydır gəlir, gedək, Tərxan.

K i m o n

Burda bir sirr var...

T ə r x a n

Tez ol gizlən!

Hər üçü səhnədən uzaqlaşıb ətrafda gizlənir.
G ə r a y gəlib təpənin üstündən uzaqlara baxır.

G ə r a y

Günəş öz aləmində seyr edəli,
Görməmiş böylə nazənin gözəli.
Ah, bu əfsanəvi, gözəl ceyran
Mənə qismət olarsa, ey yaradan,

Çəkərəm əl bu şan, bu şövkətdən,
Dönmərəm bu sevimli afətdən.

Bu zaman Uluca gəlib Gəraya yaxınlaşır.

U l u c a

Bilirəm, söylədir səni sövda.
Mən də gənclikdə düşmüşəm bu oda.
Eşq bir çalxanan köpüklü dəniz,
Ya fəzadır dərin və sahilsiz.

G ə r a y

Söylə sən kimsən, ey sevimli qoca?

U l u c a

Yaşlı bir pəhləvan.

G ə r a y

Adın?

U l u c a

Uluca.

G ə r a y

Çox gözəl, söylə bu sevimli ocaq,
Çox yaxınmı sənə?

U l u c a

Deyildir uzaq.

G ə r a y

Torpağımdır o Gəncə ilə Aran,
Bil, Gəraydır adım da, ey baba can!
Çırpınan dalğadır bu gənc ürəyim,
Var gözümdə sevimli bir diləyim.

U l u c a

Nə üçün gəldiniz bu məmləkətə?

G ə r a y

Rəhbərim eşqim olmuş, əlbəttə!
Həm də qasidlərim gətirdi xəbər:
Keçdi sərhədi rumlu İskəndər.
Ölkəyə dəyməsin ziyanı deyə,
Xanıma mən də gəlmişəm köməyə.

U l u c a

Bu qoca pəhləvana satma yalan!
Sən ki Tərxanla bağladın peyman.

G ə r a y

Yox, inanma, eşitdin isə bunu.
Oynadım mən də gəncəfə oyunu.
Bu həyatda ara-sıra insan
Aldadır, söyləyir bir az da yalan.
Nazlı canana vurğunam mən də,
Bu keçidlərdə yorğunam mən də.
Ölərəm, etmərəm xəyanət ona,
Diləyimdir mənim o nazlı sona.

U l u c a

Qəlbi atəşli aşiq isə adın,
Hanı tərlan kimi süzən qanadın?

G ə r a y

Yolçuyam, sən işıqlı bir ülkər,
Bu qaranlıqda ol mənə rəhbər.

U l u c a

Neyləyim? Fikrini açıq söylə!

G ə r a y

Tez görüşdür sevimli yar ilə.

U l u c a

Bu görüşdən əcəb nədir məqsəd?

G ə r a y

Bir təsəllidir ancaq, eyləmə rədd,
Yarı görmək bütün cahana dəyər.
Aylı, ulduzlu asimana dəyər.

U l u c a

Yox, bu mümkün deyil.

G ə r a y

Aman, baba can!
Görünür ki, sən aşiq olmamısan?

U l u c a

Daş deyildir mənim qoca ürəyim.

G ə r a y

Eşqimə, bil ki, baş əyir diləyim.

U l u c a

Eşq ilə çırpınan cəfaya dözər,
Laçın alçaqda, həm fəzada süzər!

G ə r a y

Baba, eşqin göyündə qəlb ucalır.

U l u c a

İşığı Ay, oğul, Günəşdən alır.

G ə r a y

O günəş parlayınca bürcündən,
Ürəyim rəqs edir sevincindən.

U l u c a

Çox zaman eşq aldadır hissi,
Yanğını andırır sönük nəfəsi.

G ə r a y

Sönməz eşqim, o bir yanar dağdır.
Qəlbimə çağlayan bir irmaqdır.

U l u c a

O təmiz qəlbinə vurludum mən,
Dostlara yol açıq, gedək.

G ə r a y

Əhsən!
Oxudu qəlbimi ağıl gözünüz,
Sağ olun, duydunuz bu eşqimi siz.

Uluca ilə Gəray gedirlər. Tərxan, Saltik və Kimon pusqudan çıxırlar.

S a l t i k

(*qəzəbli*)

Bu da ən çox inandığın o Gəray.

K i m o n

Onu da aldı qoynuna bu saray.

T ə r x a n

Ağlım uçdu başımdan, ah, vəzir!

S a l t i k

İndi dostlarda etibar nə gəzir?

T ə r x a n

Qopdu köksümdə kinli bir tufan.

K i m o n

(*Hiylə ilə*)

Dözmək olmaz bu dərdə.

T ə r x a n

Ey yaradan!
Qəlbimi yaxdı odlu bir şimşək.

S a l t i k

Həyəcan etmə!

K i m o n

İztirab nə gərək!

T ə r x a n

Yox, bu təhqiri qoymaram yerdə!
Yasa batsın gərək saray, Bərdə...

K i m o n

(*Getmək istəyən Tərxana*)

Yadlara bağlıdır açıq yollar.

S a l t i k

(*Tərxana*)

Hər təlaş aqibət bəla doğurar.

T ə r x a n

Çarə yox.

K i m o n

Var!

T ə r x a n

Nədir?  Tez ol, göstər!

K i m o n

Ölkələr fəth edən böyük qeysər
Çoxunu qurtarıb o möhnətdən.

T ə r x a n

Uf, yanar odlara tutuşdum mən!

S a l t i k

Bəllidir fikri, xan, bu bir çaramı?

T ə r x a n

O sağaltmaz mənim dərin yaramı!

M ə s t u r görünür. Kimon onu işarə ilə yanına çağırır.

K i m o n

(*Tərxana*)

Çatdı imdadına bu qız, ey xan!
Gəl, quzum, gəl!

T ə r x a n

(*Uzaqda görünən Məsturu göstərərək*)

O kimdir, ay baba can?

K i m o n

Məsturum, əlbir ol bizim xanla,
Tez görüşdür sevimli xaqanla.

M ə s t u r

Yad kəsə bağlıdır bütün yollar,
Buna, zənnimcə, bircə tədbir var:

Sevgili yarı istəsə görmək,
Bir qadın paltarı geyə o gərək!

T ə r x a n

Yox, yox, Məstur, düşün, düşün bir az,
Şir ki, ceyran dərisinə sığmaz!

M ə s t u r

Qəhrəman, baxmaq istəsən o aya,
Səni ancaq bu yol alar saraya.

Kimon Tərxana baxaraq istehza ilə gülür.

S a l t i k

Düşün, Tərxan, can atma qanlı işə.

K i m o n

Uzgüçü qorxusuz üzər həmişə.

T ə r x a n

Görüşə tək bu isə yol, ata can,
Razıyam!

M ə s t u r

Gəl dəyiş qiyafəti.

S a l t i k

(*İztirabla*)

Xan!
Bir düşün, bu gediş çəkir haraya?

K i m o n

(*Məstura*)

Ləğm içilə xanı götür saraya!

T ə r x a n

Gəl görək, taleyim nə göstərəcək!

K i m o n

Uğur olsun!

S a l t i k

Düşün...

M ə s t u r

Yubanma.

T ə r x a n

Gedək!
Mənim ilə görüşsə sevgili yar,
Bəxşişim, xələtim səni doyurar.

Tərxan, Saltik və Məstur gedirlər. Kimon onların ardınca baxaraq istehza ilə:

K i m o n

Bu görüşdən nəsibiniz ancaq
Olacaq bir qarış qara torpaq!

P ə r d ə

## İKİNCİ PƏRDƏ

### BEŞİNCİ ŞƏKİL

Səhnə Nüşabənin sarayının bağça tərəfində olan geniş eyvanı təsvir edir. N ü ş a b ə, A l m a z, M ə r c a n və b a ş q a p ə h l ə v a n q ı z l a r, əllərində süngü, mizraq, qılınc, qalxan oynadaraq məşq edirlər.

P ə h l ə v a n l a r

Qəhrəmanlıq doğar ancaq
Güc bəsləyən şən ürəkdən.

Oynadaq hey süngü, mizraq,
Çiçəklənsin ana Vətən.
Dağ-daşından uçsun duman.
Qara geysini xain insan!

M ə s t u r qadın paltarı geyinmiş T ə r x a nı gətirib bağçanın kənarında olan ağac altında saxlayır. Tərxan bağçada qılınc oynadan Nüşabəyə həsrətlə baxır.

M ə s t u r

Gəl yaxın, eylə tamaşa!

T ə r x a n

Məstur!

M ə s t u r

Sən könül verdiyin afət, bax odur!

T ə r x a n

Çırpınır qəlbim, aman!..

M ə s t u r

Etmə maraq.

T ə r x a n

Bircə o canalıcı surətə bax!
Ayı almış araya ulduzlar.
Sanki qarşımda günəşdir, parlar,
Nə gözəl mənzərədir, ey yaradan!

M ə s t u r

Həyəcan etmə, bir az burda dayan!

Məstur gedir. Tərxan Nuşabənin həşəmət və əzəmətinə heyran qalmışdır.

T ə r x a n

Bürümüş hər yeri bu ölkə səsi,
Ah, özündən də gözəlmiş yiyəsi.
Bir ziya qaynağı imiş bu hilal,

Sanki qarşımda durur canlı xəyal.

Qızlar qılınc-qalxan oynatmaqda davam edirlər.

P ə h l ə v a n l a r

Çiyinlərdə, əldə hər an,
Şaraq-şaraq oynaşaraq
Parıldasın qılınc, qalxan,
İgid olsun oba, oymaq.
Qana dolsun sağlam bədən,
Gülümsəsin ana Vətən!

Tərxan qızlarla bərabər məşq edən Nüşabəyə baxaraq.

T ə r x a n

Yanağı gül, üzü cənnət bağıdır,
Canalan gözləri ancaq yağıdır!
Canlı bir lövhəyə bənzər duruşu.
Sərvdir, qonmuş ona sevgi quşu.

İ n c i gəlib Nüşabəyə yaxınlaşarkən Tərxan səhnədən uzaqlaşır.

İ n c i

Uğur olsun!

N ü ş a b ə

Uğur olsun, nə xəbər?

İ n c i

Bir neçə rumlu silahlı əsgər,
İstəyirdi keçə sərhəddimizi,
Qarşı çıxdıq, döyüşə çəkdi bizi.

N ü ş a b ə

Mülkümə girdimi?

İ n c i

Yox.

N ü ş a b ə

Bəs bu gəliş?

İ n c i

Hələlik pərdəlidir şübhəli iş.

Döyükmüş halda ətrafa baxır.

N ü ş a b ə

Niyə susdun?

İ n c i

Bu nə? Yad kimsəmi var?

Əli süngülü i k i n ə f ə r k e ş i k ç i T ə r x a n ı gətirir.

D i l b ə r

Ay xanım, bağçada bu gizlənmiş...

N ü ş a b ə

(*Tərxana*)

Kimsiniz?

M ə s t u r

(*Qayıdır, onları görərək öz-özünə*)

Ah... Bu nə dəhşətli bir iş!

İ n c i

Görkəmindən duyulur şübhəli iz.

D i l b ə r

Deyirəm, kimsən ona söylə, kəniz!
Dinməyir, daş kimi tərpənməyir heç.

M ə s t u r

Yad deyil, yolçu qadındır, vaz keç.

N ü ş a b ə

Məstur, anlat bizə kimdir bu qadın?

(*Məstur cavab vermir*)

Bizim eldəndimi? Aç söylə adın.
Susma, aç sirri bizə söylə...

M ə s t u r

İnan!
Dostluğum yoxdur onunla, xaqan!

N ü ş a b ə

Bu saraya necə, hardan girmiş?

A l m a z

Məndə də şübhə törətməkdə bu iş,
Görkəmindən duyulur, əğyardır.

M ə r c a n

Yox, canım, burda siyasət vardır.

N ü ş a b ə

Bir axın var bu ana torpağıma;
Bulanıq sellər axır irmağıma.

A l m a z

Ey qadın, kimsən? Açıq söylə görək!
Özünü gizləmək artıq nə gərək?

N ü ş a b ə

Aç üzün!

İ n c i

Şübhəlidir...

A l m a z

(*Tərxanın üzünü açır. Heyrətlə baxaraq*)

Əğyardır.

M ə r c a n

Demədim burda siyasət vardır?

A l m a z

Dəyişik donda kişiymiş bu qadın.

N ü ş a b ə

Bura gəlməkdə nə imiş muradın?

T ə r x a n

Onu gəl, indi soruşma məndən.

N ü ş a b ə

Səni bu yurda nə şeydir gətirən?

T ə r x a n

Məni bir fırtına atmış bu oda,
Ona bu eldə deyirlər sövda.

N ü ş a b ə

Bu saray əhlinə sövda yaddır!

T ə r x a n

Dəli könlümsə onunla şaddır.

N ü ş a b ə

(*Məstura*)

Yoxsa, sənsən ona rəhbrlik edən?

M ə s t u r

Baş verərmi bu xəyanət məndən?

N ü ş a b ə

Sənə qəlbimdə bir inam vardı,
Könlümü şübhə, tərəddüd sardı.

(*Məsturu Almaza göstərərək*)

Bu da bir dost kimi gülməkdə bizə.
Yad kəsi salmış əziz ölkəmizə.

T ə r x a n

Ey uca rütbəli adil xan,
Məsturun yox günahı burda, inan!
Hökm edirkən gücünü vicdana ver,
Hər iki hökmü, cəzanı mana ver.

N ü ş a b ə

(*Keşikçilərə*)

Aparın bunları, yox başqa çara.
Çəkdirin bağça kənarında dara!

T ə r x a n

Sevirəm eşqlə hər yüksələni,
Sevgilim, bax, dara çəkməkdə məni.

Keşikçilər Tərxanı və Məsturu aparmaq istəyirkən.

U l u c a

Həyəcan etmə, xanım, tut aram.

N ü ş a b ə

Bizləri saymamış əsla bu adam.

U l u c a

Dostumuzdur, Şəkidə xandır bu.
Adlı-sanlı igid Tərxandır bu.
Bu ağır gündə bizə arxa budur!
Toppuzu odlu dənizlər qurudur.
Saraya girdisə o, etmə maraq.
Var səbəb, fitnə-fəsad ondan iraq.

N ü ş a b ə

Yox, baba, burda siyasət vardır!
Qəlbimi şübhə, tərəddüd qanadır.

U l u c a

Bir düşün, dərgahına kini olan
Bu qiyafətdə gələrmi, xaqan?
Kişi ikən qadın olmuş bu igid;
Saraya çəkmiş onu başqa ümid.
Tərxanı əfv elə, at şübhəni sən,
Qoru düşməndən əziz ölkəni sən!
Dili dost, fikri qara, qəlbi qara
Rumlu İsgəndərə qıl öncə çara.

N ü ş a b ə

(*Keşikçilərə*)

Buraxın onları!

U l u c a

(*Tərxana*)

Əfv et, Tərxan.

T ə r x a n

Dost yolunda bu canımdır qurban!

U l u c a

(*Tərxanı saraya dəvət edərək*)

Buyurun, mən də bu saat gəlirəm.

T ə r x a n

Hörmətə qarşı təşəkkür edirəm.

U l u c a

(*Tərxana*)

Bilirəm qəlbini mən, bağlama kin.

Tərxan baş əyib saraya gedir, Mərcan və saray adamları da ardınca gedirlər. Səhnədə Nüşabə, Uluca, Məstur və İnci qalır.

M ə s t u r

(*Qaşlarını çataraq*)

Sadiq ikən adım oldu xain.

N ü ş a b ə

(*Məstura*)

Bir xəyanət deyə, haqqım vardı,
Qəlbimi şübhə, tərəddüd sardı.

Məstur gedir. Uluca onun ardınca baxaraq.

U l u c a

Bilmirəm heç bu qızın dərdi nədir,
Qəlbimi şübhəli bir qüvvət əzir.

Məstur Ulucanın sözlərini dinləyib səhnədən çəkilir.

N ü ş a b ə

Baba, söylə o Gəraydan nə xəbər?

U l u c a

O da dərgahına hörmət bəslər.
İgidin qəlbini tez aldım ələ.
Parladı saf ürəyində şölə.
Birgə gəldik, başınız yüksəlsin.

N ü ş a b ə

Anladım fikrini, əmr et, gəlsin.

U l u c a

Kimdə var əql, zəka, əzm, hünər,
Hər nəhəngi o məharətlə yenər.

N ü ş a b ə

Olsa dost həm Şəki, həm Gəncə – Aran.
Bata bilməz bizə heç bir düşman.

P ə r d ə

## ALTINCI ŞƏKİL

Nüşabənin sarayı. T ə r x a n kənarda qoyulmuş kürsü üstündə oturub Nüşabənin yolunu gözləyir. M ə s t u r G ə r a yla bərabər gəlir. Məstur Gəraya oturmaq üçün yer göstərir.

M ə s t u r

Xanım indi gələcək, əyləş, xan!

G ə r a y

Gözəl oldu bu görüş.

T ə r x a n

Bu hardan?

Gəray kənarda olan kürsüdə oturub Tərxanı acıqlı nəzərlərlə süzür.

G ə r a y

Gözləyir yoxsa bu da cananı?

T ə r x a n

(*Öz-özünə*)

Hiylə, fitnə bürümüş dünyanı!

Məstur Nüşabənin ardınca gedir. Gəray Tərxana istehzalı nəzərlərlə baxdıqdan sonra

G ə r a y

Bəs nə tez eşqinə yandın, ey igid?
Bir sönük şölə sənə verdi ümid.

Əhdi, ilqarı nə tez qırdın sən?
Adına bu yaraşarmı? Əhsən!

T ə r x a n

Get, uşaqsan hələ, bir azca düşün,
Sonra qarşımda cəsarətlə öyün!

G ə r a y

Tutduğun iş adına vurdu ləkə,
Güləcəkdir sənə hər el, ölkə.
Almadın dövləti, həm xalqı saya,
Qız donunda necə girdin saraya?
Barı ram oldumu ürkək ceyran?

T ə r x a n

Nəşəmi pozma, çəkil, get buradan!
Eşq utanmaz bu dona girməkdən,
Ucalır sevgi bütün istəkdən!

G ə r a y

Çay kimi tez bulanırsan hər an,
Bəxtiyardır ürəyi gen insan.
Yar sənə ərk edərək əyləndi,
Qəlbinə sevgi səfası endi.
Sən onun ərkini sandın təhqir,
Çeynədin kinli, alovlu zəncir.
Buna bax, sevgiyə bax, aşiqə bax!
Düşməni kininə etdin sığınaq.
Səndə yox eşq, məhəbbət...

T ə r x a n

Hay-hay...
Bu gülüşlər sənə layiqdi, Gəray.
Onun eşqilə ürəkdən yanıram,
O pərini hamıdan qısqanıram.

Olmasaydı bu dərin sevgi, maraq,
Eşqinin qəsrinə basmazdım ayaq.
Sevgilim boynuma salmış zəncir,
Dara çəksə məni, etsə təhqir,
Can onundur, mənə çox minnəti var,
Mənə qismət olacaq sevgili yar.
Ovunu verməz əlindən aslan!..

G ə r a y

Bu sözə qol çəkirəm, ay Tərxan!
Bu şikarı kim alar pəncəmdən?

T ə r x a n

Çox öyünmə, kim alar?.. Bax, onu, mən...

G ə r a y

Mənim olsun gərək o şux dilbər.

T ə r x a n

Bu qılınc məsələni həll eylər.

Hər ikisi qılıncı çəkib bir-birinə hücum edərkən N ü ş a b ə, U l u c a, A l m a z, M ə r c a n, İ n c i, M ə s t u r və S a l t i k gəlirlər.

N ü ş a b ə

Bu nə?

S a l t i k

Tərxan!

U l u c a

Dəliqanlı xanlar!
Sizə kin ilə döyüşmək nə yarar!

N ü ş a b ə

Uğur olsun, uğur olsun, Tərxan!
Qonşuya qonşu kəsilməz düşman.

U l u c a

(*Gəraya*)

Ölkəyə basmış ayaq İsgəndər,
Qüvvətin varsa – ona get göstər!

S a l t i k

Şübhə yox, toqquşacaq xeyr ilə şər.

U l u c a

Bir bəladır bu böyük İsgəndər.
Öncə bir dost kimi gəlməkdə yağı;
Elə ki ölkəyə dəydi ayağı,
Başlayır kinə, çökür şan, şövkət,
Axıdır Ruma xəzinə, sərvət...

S a l t i k

Bəllidir, fikri çalıb-çapmaqdır,
Ölkədən taxtı-tacı qapmaqdır.

T ə r x a n

Vermək olmaz o səfilə meydan.

G ə r a y

Bizi də sanma zəif, ey Tərxan!

T ə r x a n

Var şərəfli adımız, dövlətimiz.

G ə r a y

Dağ kimi qüvvətimiz, şövkətimiz.

U l u c a

Aç o yaqut dodağın, ey xanım, aç!
Ortaya inci, cəvahir, dür saç!
Fikrini dostlarına söylə açıq,
Saf ürəklər səni qansın artıq.

N ü ş a b ə

Bilirəm, rumlu qürur satdı bizə,
Saymamazlıq toxunur qəlbimizə.
Kim umar xeyir, vəfa bayquşdan?
Qurdun ən sevdiyi şey qandır, qan!
Bir bəladır dolu, məhsullu bağa,
Qara yel dost ola bilməz çırağa.

G ə r a y

Ona baş əysə bu üç şanlı ocaq,
Bizi Rum qeysəri aciz sayacaq.
Bu isə nəslimizə bir ləkədir.

N ü ş a b ə

Olsa üç qonşu bu gündən əlbir
Üç könül bir nəfəs ilə çarpar,
Bir uca taleyi izlər üç yar...

G ə r a y

Razıyam...

T ə r x a n

Mən də.

N ü ş a b ə

Bu süngü, mizraq
Düşmənin bağrını dəlsin ancaq!

U l u c a

Birləşin siz, əbədi sirdaş olun!

S a l t i k

Vətən eşqilə ekiz qardaş olun!

T ə r x a n

Göstərək biz də ona qarşı hünər,
Üç igid qaplana bir qurd neylər?

S a l t i k

Qurda bənzətmə nəhəngi, Tərxan!
Hissə aldanmaz ağıllı insan.

N ü ş a b ə

Qan il oynamaz adil kəslər,
Kin ilə kükrəmədə varmı hünər?
Bir qığılcım böyüyüb yanğın olar,
Bir xəta qanlı fəlakət doğurar.
Belə işlərdə mətanət xoşdur.
Hələlik incə siyasət xoşdur.

G ə r a y

Bizi o saymadı heç, satdı qürur.

N ü ş a b ə

Bu xüsusda ona yazdım: "Məğrur".
Bilər öz həddini artıq, anlar,
Hər elin ənənəsi, mənliyi var.

T ə r x a n

Qəlbimə yatdı bu tədbir, əhsən!
Hiyləgərdir, hər amansız düşmən.

G ə r a y

Rumlu düşmən kəsilərsə vətənə,
Odlu bir kin açarıq kin edənə.

N ü ş a b ə

İlk vəzifə qorumaqdır yurdu.
Sürüyə kim buraxır ac qurdu!
Qarşı çıxsa bizə hər hansı quduz,
Qurtuluş yox, yeyəcəkdir toppuz.
Bu ana yurdu – sevimli torpaq
Oğlunundur, qızınındır ancaq!

Üç tərəfdən açarıq biz meydan,
Bir sürü qurdu yenər üç aslan!

U l u c a

Budur ən doğru və sağlam tədbir,
Olsun üç qonşu bu gündən əlbir.

Şərab gətirilir, Məstur qədəhləri doldurub Tərxana və Gəraya verir. Üçüncü qədəhə zəhər töküb Ulucaya verir və cəld otaqdan çıxır. Bu mənzərəni seyr edən İnci cəld kənarda olan şərab kuzəsini götürüb Ulucaya yaxınlaşır .
Uluca əlindəki qədəhi qaldıraraq.

U l u c a

Birliyin eşqinə!

Qədəhi qaldırıb, içmək istərkən İnci
Ulucanın əlindəki qədəhi alaraq gülə-gülə.

İ n c i

Al, kuzədən iç!
Qəlbinə versin işıq, həm də sevinc.

Kuzəni Ulucaya verir, Almaza yaxınlaşıb əlindəki
qədəhi ona verib otaqdan çıxır.

U l u c a

Birliyin eşqinə!
(*Tərxan, Gəray və Uluca içirlər*)

T ə r x a n

Etdi sərxoş məni bu bircə qədəh.

U l u c a

O deyil, sərxoş edir başqa fərəh...

G ə r a y

(*Tərxana*)

Gəl gedək, hazır edək ordumuzu.

T ə r x a n

Qoruyaq şanlı ana yurdumuzu!

G ə r a y

(*Nüşabəyə və Ulucaya*)

Uğur olsun!

N ü ş a b ə

Uğur olsun bu səfər!

U l u c a

Belə birlik doğurar şanlı zəfər.

(*Gəray və Tərxan gedirlər*)

Bir siyasət gözəl oldu, əhsən!

N ü ş a b ə

Bir xəbər yoxmu, baba, qatildən?

U l u c a

Yox, qızım.

N ü ş a b ə

Tərsinəmi döndü cahan?
Göyəmi çıxdı o xain şeytan?

İ n c i M ə s t u r u qabağına salıb gətirir.
Nüşabə İnciyə acıqlı-acıqlı.

N ü ş a b ə

İnci, anlat, bu necə rəftardır?

İ n c i

Yersiz iş olsa da, haqqım vardır.
Baba içsəydi zəhərli qədəhi,
Sarayın matəm olardı fərəhi.

N ü ş a b ə

Bu fəlakət, bu xəyanət haradan?

İ n c i

Onu, xaqan, soruşun Məsturdan.

N ü ş a b ə

(*Məstura*)

Nə tökülmüşdü o gülgün qədəhə?

M ə s t u r

Adi şərbət...

N ü ş a b ə

Məni sardı şübhə.

U l u c a

Şubhəsiz, burda xəyanət vardır.

İ n c i

Satılıb düşmənə, bu, əğyardır!

M ə s t u r

Mənə böhtan deyir İnci, bu yalan
Bağrımı dəldi... hanı bəs vicdan?

N ü ş a b ə

Zəhəri kim sənə verdi, söylə?

M ə s t u r

Nə zəhər?

U l u c a

Qız, bizə gəlmə hiylə.

İ n c i

Qoyma gəl tülkülüyə sən özünü.

A l m a z

Qurtuluş yox sənə, anlat düzünü.

M ə s t u r

İnanın qəlbimə, vicdanıma.

İ n c i

Qədəhi çək başına!

Məstur İncinin əlindəki zəhərli qədəhi alıb dodaqlarına yaxınlaşdırarkən dəhşətdən sarsılır.

M ə s t u r

Yox, bu mahal.

O, əlindəki qədəhi yerə çırpır.

A l m a z

Etdi ifşa özünü...

N ü ş a b ə

Ax, miskin!

U l u c a

Hər silahdan bu xəyanət kəskin.

N ü ş a b ə

Qorxudaykən vətənin taxtı-tacı,
Qurd içindən gəmirirmiş ağacı.

U l u c a

Bura xaricdən uzanmış əl var
Dövləti bada verər satqınlar

Ayıq ol, böylə davam etsə bu hal,
Millətə qorxuludur istiqbal.

N ü ş a b ə

(*Almaza*)

Götürün, daşqalaq olsun murdar!

Məsturu aparırlar. D i l b ə r gəlib baş əyir

D i l b ə r

Rum şahından sizə bir qasid var.

N ü ş a b ə

Söylə gəlsin!

Dilbər gedir. U l u ğ b ə y gəlir. Uluca İnciyə yaxınlaşıb onun alnından öpür.

U l u c a

Yaşa, namuslu qızım,
Budur ən son və şərəfli arzum:
Bütün el qızları olsun sən tək,
Nəslinizlə gücə dolsun gələcək!

Rum qasidi F l u t içəri girib baş əyir.
Nüşabə diqqətlə onu süzür.

N ü ş a b ə

Buyurun!

F l u t

Ey salar!
Çox salamdan sonra söylər şanlı yunan qeysəri
Mülkünə bir dost kimi girmiş bizim rum əsgəri.
Göy çəmənlikdə gəzirkən adlı bir sərkərdəmiz,
Kinli sözlər ilə təhqir elyəmişdir bir kəniz,
Arxadan vurmuş bizim ən qəhrəman bir əsgəri,
Qəhrə doldurulmuş kənizin bu işi İskəndəri

Yolkəsən quldur kənizin ismi, xaqan, İncidir,
Dost ikən bu çirkin işlər qeysəri çox incidir,
Böylə əmr etdi, onu versin mənim fərmanıma!

A l m a z

Bu böyük rüsvayçılıqdır orduma, xaqanıma!

İ n c i

Keçmək istərkən hüdudu etdilər təhqir məni.
Həm bu şanlı dövləti, hər ordunu, həm ölkəni.

F l u t

Getməsə, dözməz bu təhqirə, coşar, evlər yıxar,
İldırım gurlar  göyündə, odlu şimşəklər çaxar.

N ü ş a b ə

Sən qapı ağzında gözlə!

(*Flut çıxır*)

Yox, silinməz bu ləkə!
Bəxtinə məğrur olan qeysər qoy açsın mərəkə!

U l u c a

Müttəfiqlər ordusu toplanmamış bir nöqtəyə,
Qeysərə qarşı vuruş bir zərbədir bu ölkəyə.

U l u ğ  b ə y

Sən uca dağsan, əyilmə, sayma xain düşməni!

U l u c a

Hər kiçik bir hadisə qovqaya çəkməz ölkəni.

N ü ş a b ə

İncini vermək, baba, rüsvay edər mərd ordumu.

U l u ğ  b ə y

Bu yaraşmaz bizlərə, mərdlik, igidlik, ah, bumu?

U l u c a

Qanı qan ilə yumazlar, hər yelə coşmaz dəniz.

İ n c i

Dövlətə olsun fəda həm canımız, həm sevgimiz!

N ü ş a b ə

Sızlayırkən bir yaram, alsam ikinci bir yara,
Qəlbimi, şəksiz, baba, həsrət çəkər müdhiş dara.

U l u c a

Bağçadan bir gül dərilsə, bağiban çəkməz kədər,
Sönsə bir ulduz, işıqlı göylərə etməz əsər!

(*Nüşabənin qarşısında diz çökür*)

İ n c i

Hökmran, qovqaya bais olmaram, alsın məni
Doğrasın ellər yolunda, zindana salsın məni.
Razıyam hər bir cəzayə, qoy məni çəksin dara,
Qəlbimi əzməkdə ancaq başqa bir gizlin yara.

U l u ğ  b ə y

(*Öz-özünə*)

O yaran könlümdə sızlar.

İ n c i

Ah, Uluğ...

(*Başını aşağı salır*)

U l u ğ  b ə y

(*İnciyə yaxınlaşaraq*)

Düşdüm qana.

İ n c i

(*Göz yaşlarını gizləməyə çalışaraq*)

Hələlik sağlıqla qal!

(*Deyib Nüşabənin qarşısına gedərək*)

Mən hazıram hər qurbana.

Nüşabə İncini qucaqlayaraq öpür. İnci vidalaşıb sürəkli addımlarla gedir.

U l u ğ b ə y

(*əsəbi*)

Çıxmasın İncim əlimdən, hökmran!

N ü ş a b ə

(*Uluğa təsəlli verərək*)

Etmə kədər.
Ölkəyə qurban verən, bir gün gələr,
Bayram edər!

P ə r d ə

# ÜÇÜNCÜ PƏRDƏ

## YEDDİNCİ ŞƏKİL

Səhnə Tərtər çayı sahilində İskəndərin ordugahını və çadırlarını təsvir edir. Səhnənin arxa tərəfində dağlar, qayalar, təpəciklər, daha sonra çəmənliklər görünür. Səhnənin bir tərəfində İskəndərin çadırı qurulmuşdur. Çadır üzərində iri qotazlı uca bayraq var, bayraq üzərində əjdaha şəkli çəkilmişdir. Çadırda şahanə döşənmiş İskəndərin səfər taxtı ətrafında qızıl kürsülər qoyulmuşdur. Səhnə arxasından təntənə andıran boru və təbil səsləri eşidilir.

A x i l l e s

Gəlir Rum qeysəri, çox şəndir yenə,
Bu gün də verəcək xələt, xəzinə.

İskəndər qabaqda, ardınca da Ərəstu və bir neçə sərkərdə gəlirlər.

İ s k ə n d ə r

Gərək hər əmrimə baş əysin cahan,
Ovcumda top kimi oynasın dövran.
Ad-sanım dünyada bilinsin gərək!
Fatehlər tarixdən silinsin gərək!

İskəndər təpənin üzərinə çıxaraq, ardı kəsilmədən keçib gedən Rum ordusuna məğrur nəzərlərlə baxır.

A t t a l

(*İskəndərə baş əyərək*)
Bu dünya durduqca yaşasın qeysər!

H a m ı

Qılıncı hər zaman olsun müzəffər!

İ s k ə n d ə r

Bu axan canlı bir dənizdir, nədir?

K l i t

İskəndər eşqinə bir təntənədir!

İ s k ə n d ə r

Vəzir, bir baxsana, qazandıq nələr!

Ə r ə s t u

Dünyanı tutsa da doymaz İskəndər.

İ s k ə n d ə r

Nə qədər parlayır bəxtin çırağı,
Göylərə tikərəm şanlı bayrağı.
(*Üzünü kənarda dayanmış Şəhpərə tutaraq*)
Əmr ver, qurulsun şahanə məclis!
Yaşıllıq altında coşsun nəğməmiz.
Al-əlvan şərabla dolsun hər qədəh,

Süzsün rəqqasələr, qaynasın fərəh.
Nəşəmlə inləsin Odlar ölkəsi,
Min səsə qarışsın xanəndə səsi.

(*Şəhpər gedir, İskəndər qürurludur*).

Hökmümə baş əydi Hind, Həbəş, İran,
Möhrümün altına girincə cahan!

Ə r ə s t u

Kəməndi atarsan uca göylərə,
Ay ilə günəşi çəkərsən yerə.
Kim keçər o günəş kimi gəlindən!
Günəşi alarsan ayın əlindən!
Qarışar başın ən qızğın bir toya.

İ s k ə n d ə r

Vəzir, bil, kiçikdir bu qoca dünya,
Kiçikdir, İskəndər sığmayır ona!
Sığmayır qılıncım bu kiçik qına.
Zəfərlər gözümdə sönük xülyadır.

Ə r ə s t u

İnsan acgöz olur, gözü doymayır.

İ s k ə n d ə r

İndi də at saldım Azərbaycana,
Mənimlə kim çıxar, görək, meydana?

K l i t

Çırağa ölümdür günün məşəli,
Səndədir qüdrətin sarsılmaz əli.

A t t a l

Həm yıxan, həm quran bir tacidarsan.
Dövran görməmişdir belə qəhrəman.

İ s k ə n d ə r

Bütün sərkərdəyə verilsin xələt!

K l i t

Yaşasın qeysərim!

H a m ı

Var olsun dövlət!

Məclis şənlənir, şərab paylanır, hindli qız oxuyur.

H i n d l i  q ı z

Yuvasız bir quşam, elindən ayrı,
Dağından, daşından, selindən ayrı.
Sevimli ölkəmdən ayrı düşəli,
Qəlbimi yandırır həsrət məşəli.
Göz yaşım qurumur, işim ağlamaq.
Sızlamaq, fəlakət olmuşdur, ancaq!
Hicranda yansan da, ey dərdli könül,
Döz hər zillətinə, həm ağla, həm gül!

İskəndər əlindəki qədəhi son damlasına qədər içir.

İ s k ə n d ə r

Xəyalım göylərdə uçur, saqi, dur!
Şahanə qədəhi bir daha doldur!

Ş ə h p ə r

(*Gəlib İskəndərə baş əyərək*)

Qeysərim, əmrinə baş əysin dövran,
Bir qasid göndərmiş bərdəli xaqan.

İ s k ə n d ə r

Çox gözəl, izin ver, gəlsin hüzura!

Şəhpər gedir.

Ə r ə s t u

Pərvanə vurğundur işığa, nura.

M ə r c a n

(*Gəlir, İskəndərə baş əyərək*)

Ədlinlə min yaşa, şövkətli qeysər,
Xaqandan məktub var.

İ s k ə n d ə r

Al gətir, Şəhpər.

Şəhpər məktubu alıb İskəndərə verir. İskəndər məktubu Ərəstuya ötürür, Ərəstu məktubu ucadan oxuyur.

Ə r ə s t u

“Ey Filipp oğlu böyük İskəndər!
Şanlı, şövkətli, şərəfli qeysər!
Öncə məndən sizə hörmət, şəfqət,
Var bu dövlətlər içində adət:
Qonağı sevməmək olmaz, ancaq,
Bir xəbər verməyərək, saymayaraq,
Qurdunuz bu ana yurdumda çadır.
Qəlbimi şübhə tərəddüd qanadır.
Məqsədim fikrinizi bilməkdir,
Aradan kin tozunu silməkdir,
Bizə bir dost kimi gəldinsə qonaq,
Sənə hörmət o zamandır ancaq!
Fikrini mərd kimi aydın söylə!
Oynama sən bu elim, ölkəmlə!
Məqsədin olsa döyüş, hiylə, riya,
Fayda verməz o çürük, boş xülya!
Bu canımda nə qədər can vardır,
Damarımda nə qədər qan vardır,
Qorumaq torpağımı borcumdur!
O mənim şanlı ana yurdumdur!”

Ərəstu məktubu İskəndərə verir, İskəndər məktuba baxır.

İ s k ə n d ə r

(*Kinayə ilə*)

Sərçə də qürurla yaşarmış demək!

Ə r ə s t u

Xeyli kamallıymış bu qadın, gerçək!

M ə r c a n

Ey qeysər, cavab ver, gözləyir xaqan.

İ s k ə n d ə r

Sən get, göndərilər başqa adamlan.

Mərcan baş əyib gedir. İskəndər qaşlarını çatır

Oyanır qəlbimdə yatan kinlərim.

Ə r ə s t u

Xaqana nə cavab yazım, qeysərim?

İ s k ə n d ə r

Tələsmə, bir sərçə şahinə neylər?
Onu da susdurram.

F l u t və K i m o n qolubağlı İncini qabaqlarına salıb gətirirlər;
Flut İskəndərə yaxınılaşıb təzim edir.

F l u t

Ey böyük qeysər!
Budur  sərkərdəni təhqir edən.

İ s k ə n d ə r

(*Başını qaldırıb İnciyə baxır, istehza ilə gülür*)

Qorxmuş igid xaqan
Mənim dünyaları alt-üst edən kəskin qılıncımdan.
Qürur satsaydı Nüşabə, kənizi verməsəydi, mən
Açardım öylə bir meydan, səsi gəlsin cəhənnəmdən.

K i m o n

Yaman qorxmuş!

İ n c i

Bizim ellərdə olmaz qorxağa hörmət,
İgidlər, doğru, ancaq etməmiş qan içməyə adət.
Özüm gəldim ki, haqsız axmasın qan.

İ s k ə n d ə r

Sus, rəzil!

İ n c i

Alçaq!

İskəndər əlindəki kağızla İncinin üzündən vurur, əsəbi halda gəzişir.
Kimon sərkərdələrə yaxınlaşıb İncini göstərir.

K i m o n

Baxın, alçaq deyə, təhqir edir çəngi.

İ n c i

Ax... yaltaq!

İ s k ə n d ə r

Fələk, gör kimlərə oldu oyuncaq fateh İskəndər!
Dayan, xaqan da, çox çəkməz, bilər kimdir böyük qeysər.

İ n c i

Böyük fateh, böyük qeysər, bizə çox baxma yüksəkdən.
Əl üstündə çox əllər var, sən əl çək bu öyünməkdən.
Çox insana qüruru bir məzar oldu, kəfən biçdi,
Cahana sığmayan Dara içən bir şərbəti içdi.

İ s k ə n d ə r

(*Şəhpərə acıqlı*)

Salın zindana!

K i m o n

Qoy bilsin, deyil meydanda qorxaq Rum.

İ n c i

Keçər candan Vətən uğrunda sarsılmaz igid ordum.

K i m o n

Qürur satma ki, çox çəkməz bu yerdə diz çökər xaqan,
Gedər şan-şövkəti əldən...

İ n c i

Gözündən bəllidir siman,
Elin ən qəhrəman oğlu Saluru öldürən alçaq!
Səni lənətlə yad eylər bütün ölkə, oba, oymaq.
Dayan, dövran belə keçməz, o qanı qoymarıq səndə!

İ s k ə n d ə r

Alın, söylənməsin qarşımda bu miskin, səfil bəndə.

(*İncini aparırlar, dərin bir sükutdan sonra, İskəndər göz altından acıqlı-acıqlı Kimonu süzür*)

Lal olub durma, ver işindən xəbər!

K i m o n

Üç qonşu ordusu, ey böyük qeysər,
Bağlarda, çöllərdə qurmuşlar çadır;
At çapır, məşq edir, qılınc oynadır.
Qırmızı bayraqlar ucalmış göyə,
Hazırlıq görürlər, qovğa var deyə.

İ s k ə n d ə r

Şeytanlar fikrimi anlamış demək?

K i m o n

Başqa bir siyasət işlətmək gərək!

İ s k ə n d ə r

Xaqandan, xanlardan söylə müxtəsər.

K i m o n

Ey şanlı hökmdar, ey böyük qeysər,
Erkəksiz yaşayır o dişi ceyran.
Gözəldir bəzəkli erkək tovuzdan.
Büllurdan taxtı var, göyə vurur baş.
Üstünə xalvarla tökülmüş qaş-daş...
Gərdəndə, qulaqda incilər gülür,
Qaşının tağında piyalə gözlər
Yeni ay qoynunda ulduza bənzər.

İ s k ə n d ə r

Dünyada, bax, nələr var imiş, vəzir!
Bu işlər həqiqət, ya əfsanədir?

Ə r ə s t u

Gözəllik elə bir dadlı xülyadır,
Sehrlə çərxi də göydə oynadır.
İncə tellərinə bağlanan ürək,
Qurtulmaz, tərsinə dönsə də fələk!

İ s k ə n d ə r

Bu Bərdə xaqanı Nüşabə, vəzir,
Sanki bir xəyaldır zehnimdə gəzir.
Deyir ki, elçi gəl özün özündən,
Ceyran ovlamağa Bərdə düzündən...

Ə r ə s t u

Ürəyə bağlıdır hər sevgi, sövda,
Qeysərə qəlbini verərsə o da,
Nə gərək düşmənlik, nə gərəkdir qan?

K i m o n

Bəs mənə verilən o əhd, o peyman?

İ s k ə n d ə r

Hım... sonra?

K i m o n

Tərxanla görüşmüşəm tək,
Bu abid qiyafəm etdi çox kömək;
Əlimdə üstürlab tökdüm çox tədbir,
Sanki mən göyləri etmişdim təsxir.
Taledən, günəşdən, aydan, ulduzdan
Söz açdım, dostumu eylədim heyran.
Getdikcə qəlbində artırdım maraq,
Arada yaratdım kəskin bir nifaq;
Tərxanın gözündə böyümüşdüm mən,
Mürşüdsən dedi o.

İ s k ə n d ə r

Mərhəba, əhsən!
Sonra?

K i m o n

Mən ona yüz min dil tökərəm,
Ləğmlə saraya göndərdim qız tək.

İ s k ə n d ə r

Sonra?

K i m o n

Tədbirimi pozmuş Uluca.

İ s k ə n d ə r

Hələ də yaşayır o miskin qoca?

Ə r ə s t u

Qurduğu hiylələr, verdiyi zəhər,
Faydasız çıxmışdır, verməmiş səmər.

K i m o n

O, uçan quşu da gözdən qaçırmaz!
O, qazdan ayıqdır, gecə də yatmaz!

İ s k ə n d ə r

Demək, baş tutmayıb saldığın nifaq?

Ə r ə s t u

Bağlanıb qeysərə qarşı ittifaq?

K i m o n

(*Cavab verməyərək susur*)

Qeysərim!

İ s k ə n d ə r

Alçaldım gözümdə, miskin!
Səndə yox siyasət, bacarıq, təmkin!
Mən çoxdan vurğunam Azərbaycana!
İstərdim qılıncım batmadan qana
Bu gözəl ölkəni keçirim ələ
Sən bu tədbirimi sovurdun yelə.

İskəndər qəzəblə gəzişir, əlindəki məktubu gözdən keçirərək, Ərəstuya yaxınlaşır.

İ s k ə n d ə r

Yox, ələ keçməsə bu qız, bu ölkə,
Mənim tariximə ləkədir, ləkə!

Ə r ə s t u

Sənin istəyinə razı olmasa?

İ s k ə n d ə r

Bu coşqun elləri salaram yasa!

K i m o n

Fələkdən uca bir tale var səndə,
Göy sənə kölədir, yer sənə bəndə.

İ s k ə n d ə r

Bu xəyal çırpınır mənim başımda,
Dünyalar diz çöksün gərək qarşımda!
Qüdrətim hər kəsə bilinsin gərək,
Fatehlər tarixdən silinsin gərək!

P ə r d ə

## DÖRDÜNCÜ PƏRDƏ

### SƏKKİZİNCİ ŞƏKİL

Nüşabənin sarayı. Nüşabə pəncərə
qarşısında dayanmış, günəşə baxır.

N ü ş a b ə

Ey göylər tovuzu, o gündən ki sən
Fəzanın qoynunda eylədin məskən,
Dünyalar üstünə qanad açırsan,
Hər yana hey qızğın alov saçırsan.
Yenə də atəşin sönməyir nədən?
Aç, söylə bu sirri, gözləmə məndən!
Mənim də qəlbimin odu sönməsin;
Vətən bir xarabazara dönməsin!

A l m a z

(*Nüşabənin sözlərini eşidərək ona yanaşır*)

Bu nə söz? Atəşin sönərmi sənin?
Eşqinlə şənlənir ana vətənin.

N ü ş a b ə

Hər yana baxıram, elə bil mənə
Yerlər də, göylər də eyləyir tənə.

A l m a z

Nədir bu üzüntü, sıxıntı yenə?

N ü ş a b ə

Mənə öz həyatım olmuş məngənə.

A l m a z

Çarəsi qolaydır bir olsa bəla.

N ü ş a b ə

Hər yandan olmuşam dərdə mübtəla.
Məsturu andıqca, qəlbim odlanır,
Elə bil körüklü ocaqdır yanır.
Qatildən almadım intiqamımı.
Dalğalar ağzında bir yelkən kimi
Gah sahil, gah girdab olur məskənim,
Nə qədər bəlalı başım var mənim!
Qeysər də göz dağı olmuş bir yandan,
Məktub da gəlmədi bizim Tərxandan.

A l m a z

Xaqanım, yerlərdə bir kölgə kimi
Dolaşma, yan, yüksəl bir şölə kimi.
Qarşıda amansız düşman var deyə,
Al bütün gücünü səfərbərliyə.

D i l b ə r

(*Gəlib Nüşabəyə baş əyərək*)

Tacidar, İrandan qasid gəlmişdir.

N ü ş a b ə

De gəlsin!

(*Dilbər gedir, Nüşabə Almaza*)

Görəsən nə var? Nə işdir?

A l m a z

Xeyir olsun.

Qasid gəlir.

Q a s i d

Gün aydın, şövkətli xaqan!
Sənə yar olsun o böyük yaradan.

N ü ş a b ə

Gün aydın.

Q a s i d

Qaplandan məktub var sizə.

N ü ş a b ə

(*Almaza*)

Al, oxu... Xoş gəldin öz ölkənizə.

A l m a z

(*Məktubu oxuyur*)

“Hörmətli xaqanım, sən, ana vətən
Bir an da çıxmayır bu xatirimdən.
Öncə xidmətinə çox salamım var.
Dövlətlə, şövkətlə yaşa payidar!
Düşmənin kor olsun, dostlarınsa şən,
Tutduğum işləri bilmək istəsən,
Gəlincə İranı aldım tez ələ,
Düşmənin qəlbinə saldım zəlzələ.
Yar oldu verdiyin fərmanla, bayraq,
Düşmənə qurmuşam çıxılmaz duzaq.
Adımı Şahqubad çağırır İran,
Ölkədə getdikcə artır kin, üsyan.

Qasidlə mümkünsə bir xəbər göndər,
Sizinlə döyüşə girdimi qeysər?”

N ü ş a b ə

Çox sağ ol, get bir az dincəl, rahatlan!

(*Qasid baş əyib çıxır*)

Şübhə yox, zəfərlə dönəcək Qaplan.

A l m a z

Bu məktub müjdədir böyük zəfərə,
Çatallı bir oxdur rumlu qeysərə.

N ü ş a b ə

Verilən qərardan nə xəbər, Almaz?

A l m a z

Xaqanım, işimiz yaxşıdır bir az,
Birləşib üç qonşu sərkərdələri,
Həlqəyə almışlar rumlu qeysəri.

N ü ş a b ə

Çalışın, bu sirri bilməsin qeysər,
Babamız Uluca vermişdir xəbər:
İskəndər ölkəyə salmış xəfiyyə,
Hər yeri dolaşır, abidəm, deyə.

M ə r c a n

(*Gəlib Nüşabəyə baş əyərək*)

Xaqanım, tutulmuş bir abid kişi.

N ü ş a b ə

Gətirin!

M ə r c a n

Fitnədir hər tərpənişi,
Mən göyə, ulduza aşiqəm deyə,
Bir boru uzadır işıqlı göyə.

K i m o n u gətirirlər.

N ü ş a b ə

Kimsiniz?

K i m o n

Vurğunam təbiətə mən,
İşığa, atəşə, hərarətə mən.
Ruhumun mərkəzi bu yezdandır,
Mən kiçik zərrəyəm, o vulkandır.
Sinəsi atəşli qətrəyəm ondan.
O isə çalxanan geniş birümman.

N ü ş a b ə

(*Almaza*)

Mənə çox şübhəli görünür bu iş,
Bir qurddur ki, qoyun cildinə girmiş.

K i m o n

Abidəm, keçirəm sizin ölkədən.

N ü ş a b ə

Üzündən sezilir dost ilə düşmən.
Ey kərtənkələ, gəl hiyləni burax!
Gözünü gizləmə, üzümə dik bax!
Şübhə yox, özüdür, bu qatili mən
Tanıdım gözündə olan ləkədən.

K i m o n

Xaqanım, mən hara, cinayət hara!
Gəl miskin abidi salma odlara.

N ü ş a b ə

Tələdən çıxmaqçın hiylə əbəsdir!
Cinayət işlətdin, həvəsdir, bəsdir!

K i m o n

Bir qərib abidəm, gəl etmə təhqir...

N ü ş a b ə

(*Almaza*)

Boynuna saldırın ağır bir zəncir,
Satqını sürüyün Cıdır düzünə.
Hər görən tüpürsüın murdar üzünə.
Bir il bu cəzanı çəkdirin ona!

K i m o n

Ey xanım, susama günahsız qana!

N ü ş a b ə

Qəlbimdə sızlayan dərin yaranı
Sağaldar ancaq bu qatilin qanı!

D i l b ə r gəlib baş əyir

D i l b ə r

Bir elçi göndərmiş rumlu İskəndər

N ü ş a b ə

(*Mərcana*)

Aparın satqını, bilməsin qeysər.

(*Dilbərə*)

Daynama, şahların ayini üzrə,
İskəndər elçisi gəlsin hüzurə!

(*Dilbər gedir, Kimonu aparırlar*)

Duyuram, səbəbsiz deyil bu gəliş.

A l m a z

Yer üzü onlardan xeyir görməmiş.

N ü ş a b ə

Qoy gəlsin, bu dünya böyükdür, gendir,
Qaranquş yurd salmaz, köçüb gedəndir!

Şeypurlar çalınır, vəzirlər, əyanlar, sərkərdələr gəlib Nüşabəyə təzim edərək, əmrə müntəzir dururlar. Kiçik bir sükutdan sonra Nüşabə işarə verir, qiyafəsini dəyişmiş İskəndər gəlib Nüşabəyə təzim edir.

N ü ş a b ə

Buyurun!

İ s k ə n d ə r

Fatehlər fatehi rumlu tacidar
Salam söylədikdən sonra, ey salar.
Deyir: ey şöhrəti dünyanı alan,
Ey kamil şahlara nümunə olan,
Nə üçün çevirdin bizdən yüyəni?
Hüzura gəlmədin, saymadın məni?
Yurdunda qonağam bir neçə müddət,
Qonağa hər yerdə olunur hörmət.
Gəlmədim ölkənə yiyə durmağa,
Yağı düşmən kimi qılınc vurmağa.
Şərqin şah körpüsü bu Azərbaycan,
Keçmiş fatehlərə yol olmuş hər an.
Mən də bir dost kimi yoldan keçirəm.

N ü ş a b ə

Mən dostu, düşməni gözəl seçirəm.

İ s k ə n d ə r

Şübhəyə düşməsin bu gəlişimdən,
Başqa bir fikrim yox...

N ü ş a b ə

(*Mənalı və istehzalı nəzərlə İskəndərə baxaraq*)

Mərhəba, əhsən!
Daha nə söyləyir o böyük qeysər?
Ölkələr fəth edib qazanan zəfər?

İ s k ə n d ə r

Başqa bir sözü yox, o əziz qonaq
Ölkənə dost kimi girmişdir ancaq!

N ü ş a b ə

(*Qəhqəhə ilə gülərək*)

Mərhəba, ey qeysər, eşq olsun sənə!
Elçilik edirsən özün özünə!

İ s k ə n d ə r

Ey xaqan, mən hara, İskəndər hara?
O igid qartalı bənzətmə sara.
Bu fikri qəlbindən sil, at büsbütün.
Məndən çox uca bir qeysəri düşün!
Yoxsa İskəndəri sandın kimsəsiz,
Özünə elçilik edən bir aciz?

N ü ş a b ə

Əbəsdir bu sözlər, yetər inadın,
Dünyada şan-şöhrət qazanmış adın.
Hiylə və siyasət işlətmə sən də,
Aslanı gizləmə qurd dərisində!
Elçidə olurmu belə cəsarət,

Acıqlı sözlərlə, coşqun hərəkət?
Bizimlə hökmlə edirsən rəftar,
Bu kəsin hərəkət şahlara yarar.

İ s k ə n d ə r

Gözündə olsam da cəsur, qəhrəman,
İskəndər deyiləm, elçiyəm ondan.
Xəbəri böyüklər göndərmiş belə,
Hökmünü dəyişmək olurmu? Söylə!
Sözündə varsa kin, acıq, kükrəyiş,
O sizin və onun bildiyi bir iş.

N ü ş a b ə

Bu inad nə gərək, mənə bax, Dilbər,
Şahlar rəsm olunmuş ipəyi göstər!
Qoy görsün, tanısın öz surətini,
Şüursuz bir qadın sanmasın məni.

Dilbər gedir.

İ s k ə n d ə r

(*Öz-özünə*)

Deyəsən, açılır kələfin başı?
Seçir saf-çürüyü bu məhək daşı.

Dilbər ipəyi gətirib Nüşabəyə verir. Nüşabə alıb İskəndərin ipəkdən çəkilmiş şəklini ona göstərir.

N ü ş a b ə

Yaxın gəl, buna sən diqqət ilə bax.
Nə deyir İskəndər şəkilli bucaq?
Yaxşı bax, öz siman olsun aşikar.

İ s k ə n d ə r

İnsanın insana bənzəri olar,
Yanılma, xaqanım, diqqət ilə bax!

N ü ş a b ə

Günəşə palçıqdan vurma gəl suvaq!
Bu Odlar ölkəsi, mərdlər ocağı,
Can kimi bəsləmiş gələn qonağı.
Bu şəkli onunçun göstərdim ki, sən
Mənim də şəklimi aydın görəsən.
Erkək tinətliyəm, olsam da qadın,
Hər sirri bəllidir mənə dünyanın.

İ s k ə n d ə r

Sən dişi aslansan!..

N ü ş a b ə

(*Onun sözünü kəsərək*)

Gəl düşün bir az,
Aslanın erkəyi, dişisi olmaz!
Qara, sıx bulud tək coşduğum zaman
Sudan od saçaram, tüstüdən duman.

(*Almaza*)

Durmayın, şahanə bir süfrə açın!
Ortaya hər çeşid naz-nemət saçın!

İ s k ə n d ə r

(*Kənara*)

Bu qadın bal qatmış gül ləblərinə,
Belə bir sevimli dilbər yerinə
Olsaydı amansız, kinli bir düşmən,
Çoxdan əl üzmüşdüm şan-şövkətimdən.

N ü ş a b ə

Taxtımda sən otur, böyük hökmdar,
Bir taxta sığışmaz iki tacidar.

İskəndər keçib taxt üstündə oturur, saray xidmətçiləri qızıl sininin birində yaqut, birində almaz, birində inci və birində dürr gətirib İskəndərin qabağına qoyurlar.

N ü ş a b ə

Hörmətli, şövkətli, uca tacidar!
Buyurun, soyuyur ləziz təamlar.

İ s k ə n d ə r

(*Təəccüblə*)

Süfrəndə daş-qaşdır, hörmətli bəyim,
Daş olan bir şeyi mən necə yeyim?
Daşı da yeyərmi ağıllı insan?
Bu rəngi təbiət həzm etməz, inan.
Elə bir yemək ver, mədəmiz dolsun.
Rəğbətlə ona əl uzatmaq olsun.

N ü ş a b ə

Sözlərin doğrudur, burda haqqın var,
Mədəyə yol tapmaz bu qatı daşlar.
Eyləsə, gərəksiz bu daşlar üçün
Bu qədər qan tökmək, çarpışmaq neçün?
Çalış, bu daşlardan açılsın yollar!
Bununçun qovğanın nə mənası var?

İ s k ə n d ə r

Doğru söyləyirsən, bu daş-qaş ilə
Hər insan, ancaq daş keçirir ələ.
O zaman kəsərli olardı sözün,
Öncə bu daş-qaşdan qaçaydın özün,
Tacında cavahir parlar, doğrudur,
Şahların tacında cavahir olur.
Süfrəndə kasalar daş-qaşla daşır,
Bu töhmət daha çox kimə yaraşır?

N ü ş a b ə

Tamahdır o daşı qiymətləndirən,
Tamahdır insana fəlakət verən.

İ s k ə n d ə r

Haqlısan, bəladır bu insan nəfsi.

N ü ş a b ə

(*Almaza*)

Əmr ver qurulsun şənlik məclisi.

İ s k ə n d ə r

(*Öz-özünə*)

Bu ürkək ceyranı ələ keçirmək
Çətindir, eşqlə ovlamaq gərək!

(*Çalğı başlanır, rəqqasələr oynayır*)

Baxdıqca doyulmaz bu gözəllərə,
Pərilər göylərdən enmişdir yerə!

N ü ş a b ə

(*İskəndəri süfrəyə dəvət edir*)

Buyurun!

(*İskəndər qədəhi qaldırır. Çalğıçılara*)

Belə bir məclisdə susmaq xoş deyil.
Simləri səsləndir, şənlənsin könül.

Çalğı başlanır, rəqqasələr yenə oynayır, xanəndə qız oxuyur.

İ s k ə n d ə r

Eşq olsun qəhrəman, igid qadına,
İçirəm səndəki mərdlik adına!

X a n ə n d ə

Ah, sevirəm səni, ağlatma məni,
Gəl, gəl, yarım, gülzarım,
Ay aman, ay aman,
Halım oldu yaman...
Sənsiz günüm qara,
Çəkmə məni dara.
Rəhm et, elə çara,
Qurban nazlı yara,
Ağlatma məni!

İ s k ə n d ə r

Odlar diyarının çalğısı, rəqsi,
Xüsusən bu gözəl qızların səsi
Başqa bir aləmə atır insanı;
Qəlbinin içində qaynayır qanı.

Rəqs qurtarır, İskəndər Nüşabəyə yaxınlaşır.

İ s k ə n d ə r

Ey xanım, hüsn-məlahət səndə,
Belə qaş-göz, bu qiyafət səndə,
Sərvə bənzər uca qamət səndə,
Bu gözəllik, bu lətafət səndə,
Neçin erkəklərə şəfqət yoxdur?
Dolu qəlbində məhəbbət yoxdur?
Dişi, erkək – ikisi bir candır,
Bunlara tək yaşamaq nöqsandır!

N ü ş a b ə

Anadandoğma, bir olmuş ürəyim.
Vətənimdir uca sevgim, diləyim.
İki olsaydı bu sövdalı ürək,
Erkək ilə bölüşərdim gerçək.

İ s k ə n d ə r

Daş olur eşqdən azadə könül,
Tez solar bağda qidasız bir gül.
Bir qadın bir kişiyə olmasa yar,
Bu həyat bəlkə də mənasız olar.

N ü ş a b ə

Bütün ulduzları düzsən yoluma,
Qoysan o ay, günəşi sağ-soluma,
Olsa yer, göy mənə qarşı əlbir,
Pozmaram əhdi, sözüm birdir, bir!

İskəndərin bu cavabdan ümidi qırılır, dalğın və pərişan bir hal alır. Özünü toplayaraq ayağa qalxıb getməyə hazırlaşır.

İ s k ə n d ə r

Çox sağ ol, günümüz xoş keçdi, gerçək.
Məsəldir: hər yolçu yolunda gərək.

N ü ş a b ə

İxtiyar sizindir, bizdə hər qonaq
Əzizdir; vəzifəm hörmətdir ancaq!

İskəndər vidalaşıb getmək istərkən , Kimon halı pərişan, saç-saqqalı dağınıq yorğun halda onun ayaqlarına yıxılır.

K i m o n

Yetiş fəryadıma, ey böyük insan!
Məni məhv eləyir bu yerli xaqan.

İ s k ə n d ə r

Kimsiniz?

K i m o n

Vurğunam təbiətə mən,
İşığa, atəşə, hərarətə mən!

Göylərə pərəstiş edən abidəm,
Münəccim, filosof, həm də zahidəm.

İ s k ə n d ə r

Görürəm, simanda şəfəq oynayır.
Gözündə həqiqət nuru qaynayır.
Görürəm abiddir, rəhm elə ona,
Günahsız əllərin batmasın qana.

N ü ş a b ə

Özünü min dona salan yaramaz,
Amansız qatildir, o bağışlanmaz!

İ s k ə n d ə r

Xaqan, mən tac qoyub taxta keçəli,
Boş qaytarmamışam açılan əli.
Sən də, gəl abidin yanında məni,
Qızartma, burax bu həqir bəndəni,
Sözümü tutaraq hörmət et mənə;
Qəhrəman İncini qaytarım sənə.

N ü ş a b ə

Məni sən çox yaman yerdə qısnadın,
İstəyin gül açdı, yetdi muradın,
Bil, sənə casusluq edən bu adam
Çağlayan eşqimi qoymuşdur nakam.

(*Kimona*)

İtil, get, kor bayquş, ölkəmdən uzaq.
Səni qurban verdim İncimə ancaq!

K i m o n

Çox sağ ol, eylədin məni sərəfraz,

İ s k ə n d ə r

(*Nüşabəyə*)

Verdiyin xəcalət əvəzsiz qalmaz

N ü ş a b ə

Hər zaman bu dostluq olsun payidar.

İ s k ə n d ə r

Səmimiyyətimə yoxsa şübhən var?

(*Nüşabəyə aşiqanə nəzərlərlə baxaraq tərəfə*)

Baxdıqca qəlbimdə qaynayır qanım.

(*Getmək üçün ayağa qalxır*)

Günümüz xoş keçdi, çox sağ ol, xanım!

N ü ş a b ə

Tacidar, ixtiyar sizindir, ancaq
Şəfqətlə azacıq saxlayın ayaq.
Bu gündən mənimlə bağlayın peyman,
İskəndər ölkəmə verməsin ziyan.

İ s k ə n d ə r

Doğrudur, gözəlsən, camalın vardır,
Ondan çox ağılın, kamalın vardır.
Məni yenməmişdi heç bir hökmüran,
Bükülməz qolumu sən bükdün, inan!
Fikrini bilirəm, al vəsiqəni,
Nə qədər ömrün var, saxlar bu səni.
Hələlik çox sağ ol, unutma bizi,
Sən gəl işıqlandır dövlətimizi.

N ü ş a b ə

Təşəkkür edirəm, borcumdur, əlbət.

İ s k ə n d ə r

Edərəm hörmətə qarşı çox hörmət.

Nüşabə və saray adamları İskəndəri qapıya qədər yola salır.

N ü ş a b ə

Get, ulduz görməsə can verməz ilan,
Əyilər ox daşa dəydiyi zaman.

## BEŞİNCİ PƏRDƏ

### DOQQUZUNCU ŞƏKİL

Tərtər çayı sahilində geniş bir açıqlıq. Ətrafda iri, seyrək ağaclar. İskəndərin çadırı görünür. İ s k ə n d ə r qızıl kürsü üstündə oturmuşdur. Onun sağında Ərəstu, ətrafında sərkərdələr oturmuşlar. Kef məclisidir. Çalğıçılar çalır, hindi qız oxuyur.

H i n d l i q ı z

Darandıqca qıvrılıb tel,
Üz üstündə yana düşər.
Əl vurma ki, bu coşqun el
Bircə teldən qana düşər.

Şərab içilir, İskəndər düşüncəli və nəşəsizdir.
Hindli qız oxumasına davam edir.

Qar-borandır uca dağlar,
Ətəyində sellər çağlar,
Kəklik-turac gülər-ağlar,
Səs dağa, ormana düşər.

İ s k ə n d ə r

(*Qədəhi başına çəkərək acıqlı bir səslə*)

Bu çəmənlərdə açsa da min gül,
Neyləyim, ah, açılmayır bu könül!
Qana düşsəm də, bağlıyam o telə,
Keçirə bilməsəm onu mən ələ,
Uca ulduzlu taleyim dönəcək,
Yakdığım[1] şanlı məşəlim sönəcək!

[1] Yandırdığım

Yox, yerə vurmaram bu mənliyimi,
Uca, şövkətli, şanlı şənliyimi!

Ə r ə s t u

Səndə yoxdur rəyasətə hörmət,
Görünür hər işində ziddiyyət.

İ s k ə n d ə r

Nə demək bu, şüura gəl bir az!

Ə r ə s t u

Mərd olan əhdü peymanı qırmaz!

İ s k ə n d ə r

Hər diləkdən bu mənliyim ucadır,
Şanlı, şövkətli şənliyim ucadır!
Bu həyat hiylədir, cahan hiylə,
Düşmənə töhfədir yalan, hiylə,
Hiyləyə bağlıdır şüur, qüvvət,
Bax, təbiətdə var bu ziddiyyət!
Aylı, ulduzlu bir günəşli bahar,
Sonra zülmətli qış, qasırğalı qar.
Boz buludlarda ildırım, şimşək,
Su olur atəş ilə həmahəng!
Gecə-gündüz, işıq, ziya, zülmət...
Söylə, budur məsləkim, budur şüarım,
Bu günəşlə çiçəklənir baharım!

Ə r ə s t u

O təzadlarda başqa hikmət var,
Başqadır orda işlənən əsrar,
Gördüyün hər düyümlü ziddiyyət
Bir həqiqətlə bağlıdır, əlbət!
Hamı bir fikrə: xeyrə xidmət edir,
Hamı bir istiqamət ilə gedir.

Kim gözündən dumanları silməz,
O, həqiqətləri görə bilməz!

İ s k ə n d ə r

İstəyimdir həqiqətin özəyi,
Dövlətin, şan və şövkətin bəzəyi.

Ə r ə s t u

Qeysərim, gəl, dolaşma bir qadına,
Bu yaraşmaz sənin böyük adına.

İ s k ə n d ə r

Oxuma ey vəzir, mənə dastan,
Taleyimdir mənim döyüş, meydan.
Mən Zənci, Həbəşi, İranı yendim,
Dünya qəhrəmanı Daranı yendim.
Pələngər şah idi Zəncə, Həbəşə,
Mənəmlik satırdı aya, günəşə,
Qürurla qarşımda coşub-qaynadı,
Gevdəsi top kimi yerdə oynadı.
Dara ki taxtından enməzdi yerə,
Qüruru sığmazdı uca göylərə.
Dünyada ən adlı bir tacidardı.
Dağları titrədən ordusu vardı.
Fateh İskəndərə mənəmlik satdı,
Qılıncım boynunu torpağa atdı.
Hindustan mülkünə basınca ayaq,
Əmrimə baş əydi o varlı torpaq.
Fur boyun əymədi bu rumlu şaha
Saymadı, gəlmədi uca dərgaha.
Qılıncım boynunu ot kimi biçdi,
Pələngər və Dara içəndən içdi.
Adlı pəhləvandır Çin şahı Xaqan
Onun qüvvətinə baş əyir dövran.

Qəm tozu girməmiş dövlət bağına.
Ordumla girincə Çin torpağına,
Kininin ağzına bir sümbə tıxdı,
Çox böyük hörmətlə qarşıma çıxdı.
Bərdəli xatunsa qürur sataraq
Gəlmədi görüşə. Məni saymamaq
Şanlı dövlətimə deyilmi təhqir?
Qəlbimi intiqam və kin gəmirir!

Ə r ə s t u

(*Tərəfə*)

Yenə azğın tikanlı bir çalıdır!

İ s k ə n d ə r

O kəniz də bu gün asılmalıdır.

Ə r ə s t u

Şöhrətə aldanma, gəl dinlə məni.
Böyütmə hər kiçik bir hadisəni.

İ s k ə n d ə r

Yer göyə çıxsa, göy yerə ensə,
Dağ, dəniz vulkan ilə tərpənsə,
Dönmərəm, sevdiyim zəfərdir, qan.
Açacam burda öylə bir meydan
Ki daşı qalmasın daş üstündə.
Gevdələr oynasın baş üstündə.
Dünyanın ağası bu gün mənəm, mən!
Qurtuluş yox, hər kim çıxa əmrimdən.
Gərək hər əmrimə baş əysin cahan,
Ovcumda top kimi oynasın dövran.
Qüvvətim, şövkətim bilinsin gərək!
Fatehlər tarixdən silinsin gərək!

Ə r ə s t u

(*Tərəfə*)

Bir əqrəb kimidir bu tacidarlar,
Nə qulaq, nə də göz deşikləri var.

A t t a l

Çırağa ölümdür günəş məşəli,
Səndədir qüdrətin sarsılmaz əli.

İ s k ə n d ə r

(*üzünü sərkərdə Attala tutub acıqlı və kəskin bir səslə*).

Tez, döyüş təbili çaldır, ey Attal!
Borularla bu yurda vəlvələ sal!
Girişək hərbə, taleyi sınayaq.

Attal baş əyib gedir.

Ə r ə s t u

Qeysərim, şöhrəti, inadı burax.
Dünya bir beşikdir, insan bir çocuq.
Vicdanlar şöhrətə olmuşdur quyruq.

Səhnə arxasında boru və təbil səsləri ucalır. İskəndər qılıncını çəkərək sürətli addımlarla səhnədən gedir. Sərkərdələr onun ardınca gedərkən səhnə qaranlıqlaşır.

P ə r d ə

## ONUNCU ŞƏKİL

Döyüş meydanı. Nüşabə ordusu ilə İskəndər ordusu arasında qızğın vuruşma gedir, arabir pəhləvanların nərəsi, sərkərdələrin bağırtısı, yaralıların iniltisi eşidilir.

T ə r x a n

Sən ey xamxəyallı, uğursuz çocuq,
Al qılıncımı öp!

A x i l l e s

Qürurlanma çox.
Al, gəldi, susdurar səni bu ölüm!

T ə r x a n

Ölümlər üstündən atılmış könlüm.

Vuruşurlar.

G ə r a y

Al, başlar gəmirən əjdahadır bu!

A t t a l

Yenilməz, ölkələr fəth edən ordu!

G ə r a y

Gəl, anan süngümə yem doğmuş sizi!

A t t a l

Hələ yer görməmiş rumlunun dizi!

Vuruşurlar.

U l u ğ  b ə y

(*Gəlir*)

Vurun hey, igidlər, bizimdir zəfər!
Dəmir mənganədə əzilir qeysər!

K l i t

(*Gəlir*)

Bəxtini zəfərlə sınamış ordum!
Bir sürü dovşandır qarşıda...

U l u ğ  b ə y

Ey Rum!
Deyil bu hind ilə həbəş meydanı.
Yunanlı yenənməz Azərbaycanı.

Vuruşurlar.

G ə r a y

Vur, eşqin günəşi məşəldir bizə!

A x i l l e s

Vur, başlar biçilsin, qan çıxsın dizə!

Gəray vurub Axillesi yaralayır.

T ə r x a n

(*Attala hücum edərək*)

Al, göydən mələklər etsin tamaşa!

U l u c a

(*Gələrək*)

Vur, süngün düşməni çatsın baş-başa!
Çox başlar biçmiş bu qoca əjdaha.

K l i t

Vur, olsun yağının taleyi qara!

G ə r a y

Vur, qanqal kimi biç xam xəyalları!

F l u t

Bu qılınc inlətdi çox oğulları!

(*Qılıncla vurub Gərayı yaralayır*)

U l u c a

(*Uluğ bəyə yaxınlaşaraq*)

Yubanma, İncini çəkirlər dara.

U l u ğ  b ə y

Ah, dünya gözümdə geyindi qara!

(*Rumlu əsgərini vurur*)

R u m l u

Uf, aman!

T ə r x a n

Öl, alçaq!

U l u c a

İncini qurtar!

A t t a l

Yox nicat.

U l u ğ b ə y

Bəy döyüş?

U l u c a

Gücümüz çatar!

U l u ğ  b ə y

Tərxan, gəl arxamca, gəlin igidlər!

K l i t

Vurun, hey rumlular, bizimdir zəfər!

U l u ğ  b ə y

Bu ellər eşqinə, vətən eşqinə!
Gözünü yoluma dikən eşqinə!

Uluğ bəy bir neçə igidlə düşmən sıralarını yararaq səhnədən uzaqlaşır, qızğın vuruş davam edir, səhnə qaranlıqlaşır.

P ə r d ə

## ON BİRİNCİ ŞƏKİL

Yaxında hələ tikilib qurtarmamış bir qələ görünür. Qabaqda Şəhpər, onun ardınca əlləri bağlı İ n c i  b i r  n e ç ə  R u m  ə s g ə r i qarşısında gəlir. Şəhpər kənarda olan yeni tikilmiş qələnin yanındakı qocaman bir ağaca yaxınlaşıb, əlindəki ipi qalın bir budağa ataraq, İncini asmağa hazırlaşır. Uzaqdan qılıncların şaqqıltısı, oxların vıyıltısı, pəhləvanların nərəsi eşidilir. İnci gözlərini həsrətlə uzaqlara dikir.

İ n c i

Gözlərim ancaq onu görməkdə, baxsam hər yana,
Ah, onun yalnız xəyalı bir təsəllidir cana!
Ayrılıqdır, sevgilim, ah, köksümü həsrət dəlir,
Çıx tamaşaya, başım eşqin yolunda yüksəlir!

(*Bir qədər susduqdan sonra*)

Hər şəfəqdə bu könül ümid sezərdi bir zaman,
Hər səhərdə bir təsəlli, hər fidanda bir cahan,
Hər qığılcımda hərarət, hər çiçəkdə şən həyat,
İldırımlarda mətanət, odlu şimşəkdə qanad.
Belə dərs vermiş böyük ustad olan sevgim mana,
Keçdi o şən günlərim, lənət vəfasız dövrana!

K i m o n

(*Gəlib İncinin sözlərini dinlədikdən sonra*)

Çox mırıldanma, səni dar gözləyir, keç, gəl bəri!

İncini ağaca sarı sürükləyir.

İ n c i

Sevgi uğrunda məni dardan asır Rum qeysəri,
Sakit ol, çırpınma, könlüm, mərd kimi ver imtahan.

K i m o n

Bax, ölürkən də qürurdan çəkməyir əl...

Ağacın budaqlarından asılan ipi İncinin boğazına keçirmək istərkən İnci ona mane olur.

İ n c i

Bir dayan!

(*Deyib gözlərini uzaqlara dikərək*)

Əlvida, ey dövlətim, ey millətim, yurdum-yuvam!
Əlvida, ey sevgilim, şən günlərim, sevgim-səfam!

O, gözlərini qapayır. Kimon və Şəhpər İncini dara çəkmək istərkən qabaqca U l u ğ b ə y, onun ardınca bir neçə igid gəlir.

U l u ğ b ə y

Ey, dayan!

İ n c i

Sənsən, Uluğ!

K i m o n

(*Şəhpərə*)

Qoyma, Uluğdur bu!

Ş ə h p ə r

(*Uluğun qarşısını kəsərək*)

Dayan!

U l u ğ  b ə y

Ah, səfil, alçaq!

Vuruş başlanır, Uluğ Şəhpəri vurub yerə yıxır.

İ n c i

(*Kimonu göstərərək*)

Uluğ, bu xainə vermə aman!
Saluru qətl eyləyən casus Məlikdir, durma vur!

K i m o n

(*İncini sürükləyərək*)

Gəl bəri, yox qurtuluş!

İ n c i

Əl çək, quduz!

K i m o n

(*İncini bıçaqla yaralayaraq*)

Sus, çəngi!

U l u ğ  b ə y

(*Kimonun üzərinə atılaraq*)

Dur!..
Yaxşı düşdün çəngimə, Salur kimi qardaş qanı
Yerdə qalmaz!

K i m o n

Bu qılıncdır susduran nər aslanı!

İgidlər vuruşda sağ qalmış Rus əsgərlərini sıxışdırıb uzaqlaşırlar.

U l u ğ  b ə y

Dinmə sus! Bax, kim kimə meydan oxur, əfi ilan!
Al, cəzan... qoy qalmasın satqından aləmdə nişan!

Uluğ bəy Kimonu öldüdükdən sonra yerə sərilmiş İnciyə yaxınlaşır, onu qolları arasına alır.

İnci!..

İ n c i

Ah, bu sənsənmi, ya dadlı bir röyamıdır?
Bir həqiqətmi bu, yoxsa nazənin xülyamıdır?

U l u ğ  b ə y

Sevgilim, qəlbim, həyatım, çox ağırdırmı yaran?

İ n c i

Qəlbimi, ah, sızladır başqa yara... xain zaman
Qoymadı kim almağa...

U l u ğ  b ə y

Sən bu qara fikri burax,
Qarşıda şən günlərin var.

İ n c i

Qəlbimi dəlmiş bıçaq.

U l u ğ  b ə y

Qəm yemə sən, sevgilim, qatildən aldım intiqam!
Gözləyir xaqan bizi, dur!

İ n c i

Çox ağırdır bu yaram,
Sən, Uluğ, durma, çəkil get, görməsin düşmən səni,
Eşqinə qurban verərsən dövləti, həm ölkəni.

U l u ğ  b ə y

Qorxma, İnci, orduma basqın edən Rum qeysəri
Düşdü eylə bir kəməndə, çıxmaz ordan əskəri.
Qalx gedək, qalx, sevgilim, gəldim səni qurtarmağa.

İ n c i

Taqətim yoxdur, Uluğ, salmış əcəl bu torpağa.

U l u ğ  b ə y

Biz ki, əhd etdik səninlə bir gülüb, bir ağlayaq.

İ n c i

Mən vəfasız çıxmadım, qəlbim susur, səndən iraq...

U l u ğ  b ə y

Dur, həyatım, heç susarmı eşqlə çarpan ürək?
Düşməni məhv etməmiş ölmək yaraşmaz, dur, gedək.

İ n c i

İstəyim qəlbimdə qaldı, çatmadı hicran dəmi,
Düşmənə çeynətmə bu şanlı, şərəfli ölkəmi!
Sən yaşa, ol bəxtiyar, ey sevgilim, ah... Əlvida!

İnci gözlərini qapayır.

U l u ğ  b ə y

Sevgilim, salma bu həsrət könlümü qızmar oda!
Sənsiz açmaz gül çəməndə, dur quraq bir aşiyan.
Bəxtiyar olmaz cahanda sevgisi nakam olan.
Din, cavab ver, susma, bağrım çatlayır, İnci bu nə?
Sənmi söndün, ya dönük dövranmı döndü tərsinə?
Bitməmiş qönçə dodaqlarda gülüş, ah, açmadan
Qönçəmi soldurdu qeysər, üstünü aldı xəzan.

Ah, məni yalnız buraxdın, dərdə saldın elləri!
Kim itirmişdir belə parlaq, yeganə ülkəri?
İnci, and olsun bu sönməz, bu tükənməz eşqimə!
Sənsiz olsam da fəlakət qaynağı, batsam qəmə.
Ölkəmin ey mərd qızı, bu qanı yerdə qoymaram!
İntiqam hissilə dolmuş qəlbim istər intiqam!
Qanlı meydanda qurum mən eylə bir məşəl gərək,
İnləsin yer, göy, dəniz, əhsən desin çərxi-fələk.

P ə r d ə

## ON İKİNCİ ŞƏKİL

Beşinci pərdənin birinci şəklindəki görünüş. Dan yeri təzəcə qızarmışdır. Yaxında qılınc şaqqıltısı, mızraq, toppuz səsləri, arabir pəhləvan nərələri eşidilir. İ s k ə n d ə r hündür bir təpəlikdə dayanmışdır. Onun yanında Ə r ə s t u və b i r n e ç ə s ə r k ə r d ə vardır. Onlar yaxında gedən vuruşu müşahidə edirlər.

İ s k ə n d ə r

Ordular gəlmişdir qarşı-qarşıya.

Ə r ə s t u

Nərələr qopduqca inləyir dünya.

İ s k ə n d ə r

Ha, Klit, qəhrəman, qoçaq sərkərdə,
Düşmənin qəlbini yar sən hər yerdə.
Bilirəm ki, Klit qazanar zəfər.

Ə r ə s t u

Nə zaman basılmış rumlu İskəndər?

İ s k ə n d ə r

(*Vuruş meydanına diqqətlə baxaraq*)

Ah, neçin qol-qanad açmayır ordu?

Ə r ə s t u

Düşmən də ayıqmış, bax, hiylə qurdu.
Diqqət et, həlqəyə salıblar bizi.

İ s k ə n d ə r

Aşar o halqanı yunan dənizi!

Ə r ə s t u

Düşmənə səngərmiş qayalar, dağlar,
Meşələr, keçidlər...

İ s k ə n d ə r

Ah, Kimon qəddar!
Verdiyi xəbərlər yalanmış, yalan!

Ə r ə s t u

Onu da aldatmış ağıllı düşman.

İ s k ə n d ə r

(*Vuruş meydanına baxaraq, təəccüblə*)

Bu nədir, bu nədir? Vəzir, nə demək!
Düşmənin mərkəzi yarılsın gərək!

Getmək istərkən Ərəstu onu saxlayır.

Ə r ə s t u

Həyəcan etmə, dur, ulu tacidar!

İ s k ə n d ə r

(*Vuruş meydanına baxaraq*)

Ha, Klit! Ha, igid! Qəhrəman sərdar!

*(Attal tələsik gəlir, İskəndər həyəcanla ondan soruşur)*

Sərkərdə, durma, ver döyüşdən xəbər!

A t t a l

Vəziyyət ağırdır, ey böyük qeysər!
Odlu qumbaralar, zəhərli oxlar
Qəhrəman orduda qoymadı tutar,
Hər tərəf dərədir, təpə, yoxuşdur,
Dərələr, xəndəklər sellə dolmuşdur.
Düşmən çox igiddir, bilməyir qorxu.
Boş keçmir süngüsü, qılıncı, oxu...

İ s k ə n d ə r

Of!.. Mənim qəlbimi dəldi bu xəbər.
Gəl gedək.
Getmək istərkən Ərəstu onu saxlayır.

Ə r ə s t u

Tələsmə, şövkətli qeysər,
Düşməndə çox mahir nişançılar var.
Oxlar, qumbaralar sizi yaralar,
Ordumuz basılmaz Azərbaycan!

İ s k ə n d ə r

Kimdir o ağ atlı düşmən, baxsana!
Qılıncı başından elə bərk çıxdı,
Gövdəsi torpağa su kimi axdı.

A t t a l

Sərkərdə Uluğdur, zor pəhləvandır,
Döyüşdə igiddir, çox qəhrəmandır.

İ s k ə n d ə r

Əjdaha olsa da, tərifə dəyməz.
Əmrimi get söylə: yarılsın mərkəz.
Həm də sağ cinaha göndərin qüvvət,
Çalışın, düşmənə verməyin fürsət!
Attal gedir, Flut gəlib baş əyir.

F l u t

Qeysərim, sağ cinah pozuldu yaman,
Düşmənlər hücuma keçdi hər yandan.
Döyüşkən igidlər oldu çox tələf,
Düşdü çirkablara o şan, o şərəf!

İ s k ə n d ə r

Nə mırıldanırsan, ey səfil, miskin?
Səndə nə hünər var, nə vüqar, təmkin.
Get qadın paltarı geyin, ey alçaq!
Sənə layiq deyil heç qılınc vurmaq!

F l u t

Yox-yox, bu təhqirin çəkilməz, qeysər!
Hind ilə İranı fəth edən ərlər,
Qəhrəman igidlər, söylə, kimlərdir?
Yoxsa ki, zənnincə, tək İskəndərdir?

İ s k ə n d ə r

Qəlbimi yaxdı, ah, bu kinli köpək.

İskəndər qılıncı çəkib Flutu vurmaq istərkən Ərəstu onu saxlayır.

Ə r ə s t u

Bir gənc sərkərdəyə bu kin nə gərək!

İ s k ə n d ə r

Onda nə hünər var, nə ağıl, şüur,
Həddini bilməyir bu azğın quldur.

F l u t

Bağışla məni, ey şövkətli qeysər,
Dəyişdin, deyilsən böyük İskəndər.
O həris olduğun dəbdəbə, şöhrət
Yunana verəcək böyük fəlakət!

İ s k ə n d ə r

Fitnədir, fitnədir, bu azğın quldur.
Bax, münafiqlərin cəzası budur!

İskəndər əlindəki qılıncla Flutu vurub öldürür.
Sərkərdələr arasında narazılıq düşür.

Ə r ə s t u

Ah!.. Qeysər, neylədin?

S ə r k ə r d ə l ə r

Bu, cinayətdir!

A x i l l e s

Ölkəyə, dövlətə bu, xəyanətdir!

Bu zaman Flutun atası Parmenun gəlir. İskəndərin qarşısında baş əyir.

P a r m e n u n

Nə qədər yazda şənlənir hər bağ,
Hər qızıl gül olur işıqlı çıraq.
Taleyin olsun öylə şən, xəndan!
Səndən alsın yaşıllığı bu cahan!
Fələkin alnına yazılsın adın,
Çiçək açsın hər istəyin, muradın!

İ s k ə n d ə r

Necədir, söylə, naibim, sərdar?

P a r m e n u n

Sizə çox-çox salamı, hörməti var.
Naibin verdiyi bir əmrə görə,
Uca dərgaha gəlmişəm xəbərə.

(*Əlindəki məktubu İskəndərə verir*)

Hər yerdə İranı bürümüş üsyan,

Ordunun qəlbinə çöküb həyəcan.
Şahqubad adlı bir bəla törəmiş,
Naibi sarsıdır bu qorxulu iş.
Çox siyasətçidir bu fitnə cəsur,
Başına toplamış neçə min quldur.
“Keyqubad nəsliyəm” deyir o, hələ,
Bir Kəyan bayrağı keçirmiş ələ.
Böyüyür hər tərəfdə kin, üsyan.
İntiqam ilə çalxanır İran.
Çatmasa bu yaxında güclü kömək,
Bütün İranı fəth, zəbt edəcək.

İ s k ə n d ə r

Ah, səbrim tükəndi, bu tülkü
Saymayır şiri, bilməyir ürkü.

Ə r ə s t u

Qəlbini sarmasın düşüncə, məlal.

İ s k ə n d ə r

Aləmə it hürər, bizə də çaqqal!

Parmenun qələyə tərəf gedərkən qələ yanında düşmüş
Flutun cənazəsini görərək həyəcanla özünü onun üzərinə atır.

P a r m e n u n

Ah, Flut, sənmisən, igid oğlum!
Çırağım söndü, ah, qırıldı qolum.
Ölümün ağzına kim atdı səni?
Qönçə ikən neçin saraltdı səni?
Sənə kim qıydı? Hansı bir alçaq?

İ s k ə n d ə r

(*Acıqlı*)

Həddini keçmə!..

P a r m e n u n

(*İskəndərə*)

Qan içən axmaq!

Parmenun qılıncını çəkib İskəndərin üstünə hücum edərkən Ərəstu onun qarşısını kəsir.

Ə r ə s t u

Parmenun, dur, ana vətən, dövlət
İntizama edir səni dəvət!
Bu çıxış, məncə, bir fəlakətdir,
Ölkəyə, dövlətə bir xəyanətdir!

Parmenunun qolları yanına düşür. Kənarda dayanmış sərkərdələr Flutun cənazəsini aparırlar.

P a r m e n u n

(*Öz-özünə*)

Etdiyim xidmətə bu oldu əvəz?
Bunu düşmən də düşmənə eləməz.

Göz yaşlarını silərək oğlunun cənazəsi ardınca gedir. Ərəstu filosofanə nəzərlərlə ətrafı gözdən keçirir.

Ə r ə s t u

Yenə dəhşətlə sarsılır afaq!
Yenə qan püskürür dəniz, torpaq!
Damğalanmış ağıl, düşüncə, ürək...
Sehrü tilsimlə oynayır bu fələk!

Yanında qılınc şaqqıltısı, mizraq, toppuz səsi, arabir dəhşətli nərələr eşidilir.

İ s k ə n d ə r

Qəlbimi bir inadlı qüvvət əzir,
Fikrini söylə, ey ağıllı vəzir!
Döyüşə var bu gün iki meydan:
Hansını məsləhət görür yaradan?

Ə r ə s t u

İran əldən gedərsə qorxuludur!
Yatır üsyanı, ən xeyirli budur!
Çox ağırdır bu hal, bu vəziyyət,
Azalıb ordu, qalmayıb qüvvət.
Həm də sərkərdələr içində nifaq
Get-gedə kök salır, inadı burax!
Hələlik sən barış bu xaqanla,
Oynama hər dəqiqə dövranla!
Yenidən dolsa qüvvətə İran
Gedər əldən vətən, gedər yunan!

Bu zaman İskəndər ordusundan b i r n e ç ə n ə f ə r Nüşabə ordusunun təzyiqi altında səhnəyə doğru geriləyib vuruşa-vuruşa uzaqlaşır. Onların ardınca U l u ğ b ə y b i r d ü ş m ə n s ə r k ə r d ə s i n i səhnənin ortasına tərəf gətirib qılıncla öldürür. Təpə başında dayanmış İ s k ə n d ə r əli ilə üzünü örtür.

U l u ğ b ə y

Ey şöhrət düşkünü, qürurlu qeysər,
Qarşı çıx, ya igid pəhləvan göndər!

İ s k ə n d ə r

(*Yanındakı Klitə*)

Get, Klit, get susdur məğrur yağını,
Əjdahanla soldur həyat bağını!

Klit meydana atılır. Uluğ bəy əlindəki qılıncını göydə oynadaraq, rəcəz oxuyur.

U l u ğ b ə y

Filləri çeynəyən Uluğ bəy mənəm!
Dəmirdən yoğrulmuş poladbədənəm!
Qədəhim düşmənin baş tasındandır,
Bu kəskin qılıncım qanlı vulkandır.
Səni əjdahama yem doğmuş anan,
İstərsən gəl sına, bu sən. Bu meydan!

K l i t

(*Əlindəki qılıncı oynadaraq*)

Aslanlar ürküdən Klit, bax, mənəm!
Düşmənin qanından şərab içənəm.
Gürzümə baş əyir əyilməz dünya,
Mən kəmənd atıram günəşə, aya...
Məni bu dünyada yenən olmamış!
Vücudum yanar bir ocaqdır yaz, qış.

Hər ikisi bir-birinə hücum edərək vuruşurlar.
Arxadakı vuruşma səsi getdikcə yaxınlaşır.

U l u ğ  b ə y

Bilinər hünərin, güc vermə dilə!

K l i t

Bu qılınc səni də döndərər külə!

Uluğ bəy ilə Klit səhnənin ortasında cinaq-cinağa durduğu zaman Nüşabə ildırım sürətilə səhnəyə atılaraq əlindəki qılıncla ağır bir zərbə endirib, onların qarşı-qarşıya dayanmış qalxanlarını bir-birindən ayırır.

N ü ş a b ə

(*İskəndərə*)

Qarşı çıx, ey qürur saçan qeysər!
İki qoç nifaqı həll eylər.
Od yağır əjdahamın ağzından,
İstəyir ən qürurlu bir qurban!

İ s k ə n d ə r

(*Qəzəblə*)

Çox öyünmə, qüruru, lafi burax!
Yaramaz bunca sadədil olmaq.
Yenmişəm Hindi, Zənci, İranı,

O cahan qəhrəmanı Daranı.
Sənə qarşı çıxarsa İskəndər,
Mənə dünya həqarət ilə gülər.
Buyurun, dost kimi edək rəftar.
Mənə dikbaşlıq etsən, ey salar,
Fur, Dara içən o şərbətdən
İçəcəksən, ölümlə oynama sən!

N ü ş a b ə

Mən mənəm, sən də sən, nədir bu qürur!
Mən nə Dara, Pələngərəm, nə də Fur.
Ey inadla qürur satan sərxoş!
Səndə insan təbiəti yoxmuş.
Bir cahan inləyir o pəncəndə,
Gəl görək qüvvə səndədir, məndə!

Hər ikisi qılıncını çəkib vuruşa hazırlaşır.

İ s k ə n d ə r

Böylə təhqirin, ah, cəzası nədir?

N ü ş a b ə

Öz atan eyləmiş səni təhqir,
Çünki doğmuş səni kəbinsiz ana.

İ s k ə n d ə r

Ox ilə vurdu qəlbimin başına.
(*Qılıncı çəkib hücum edir*)
Qəzəbimdən əsir bütün bədənim.

N ü ş a b ə

(*Qılıncı rədd edərək*)

Ey Filippin müqəddəs oğlu, mənim
Nə qolum titrəyir, nə də ürəyim!
Vətən azadlığı böyük diləyim.

Hər ikisi vuruşur, İskəndərin qılıncı yerə düşür.
Nüşabə qılıncı götürüb İskəndərə verir.

Ə r ə s t u
(*İskəndərə yaxınlaşıb kinli səslə*)

Kinini ud, siyasətə əl qat!

İ s k ə n d ə r

Durma, bu fikri düşmənə anlat!

Ə r ə s t u

Ey ədalətli, möhtərəm xaqan!
Nə gərək bu döyüş, bu fitnə, bu qan?
Kinli qovğadan əl çəkir qeysər.
Sən də bu sülhə gəl riza göstər.
Qeysərin vardır ehtiramı sizə,
Dost kimi girmiş idi ölkənizə,
Yenə də dost kimi dönür vətənə.

N ü ş a b ə

Heç inanmaq olarmı qaniçənə?
Hiylənin qardaşı siyasətdir!
Bu da bir pərdəli xəyanətdir.
Atalar söyləmiş: görüncə saqın
Başını o zəhərli əjdahanın!

Ə r ə s t u

Ey ağıllı igid, cəsur xaqan!
Bu Ərəstuyə sən ürəkdən inan.
Burda nə pərdəli xəyanət var,
Nə bir bir hiylə, bir siyasət var!

N ü ş a b ə

Bəllidir, kinlə çalxanır İran,
Çağırır qeysəri böyük üsyan!
Dediyin sülhə razıyam mən də.

Ə r ə s t u

Orduna ver xəbər  bunu sən də.

İ s k ə n d ə r

(*Klitə*)

Təbli vurdur, get ordunu qaldır!

Klit gedir, Ərəstu İskəndərə yaxınlaşır.

N ü ş a b ə

(*Uluğ bəyə*)

Barışıq var deyə. Boru çaldır!

Ə r ə s t u

Nə gərək bu kədər, düşüncə? Gedək!
Bir məsəldir bu: yolçu yolda gərək!

İ s k ə n d ə r

(*Həyəcan keçirərək*)

Bir qiyamət açım o torpaqda
Dümdüz olsun bütün dərə, dağ da.
Nə Xorasan qoyum, nə də İran...
Anlasınlar nədir mənə üsyan.

Səhnə arxasında İskəndər ordusunun boru səsləri eşidilir

U l u c a

(*Nüşabəyə yaxınlaşaraq*)

Qaplan İranda qurmuş öylə duzaq,
Orada əl-qol açmaq olmayacaq.

Səhnə arxasında təbillər səslənir.

Ə r ə s t u

Ona qalsın bu dəbdəbə. Bu çadır.

İ s k ə n d ə r

Bu dönük çarx, bax, nələr yaradır!

Səhnə arxasında Nüşabə ordusunun boru səsləri eşidilir.

İ s k ə n d ə r

(*Səhnəyə toplaşmış Rum ordusuna nəzər salaraq*)

Əlvida, ey səfil, rəzil ölkə!
Sənə bir gün yolum düşər, bəlkə.

İskəndər öz sərkərdələri ilə bərabər səhnədən uzaqlaşarkən Nüşabə ona yaxınlaşır.

N ü ş a b ə

Get, bu dadlı xəyaldır ancaq!
Çox İskəndər başı yemiş bu ocaq.
Burada çox mənəm deyən başlar
Özünə öz əlilə qazdı məzar.

İskəndər ordusu səhnədən uzaqlaşır. N ü ş a b ə o r d u s u, G ə r a y, T ə r x a n öz i g i d l ə r i ilə səhnəyə gəlirlər.

U l u c a

(*Nüşabəyə yaxınlaşaraq*)

Kimdə vardırsa əql, əzm, hünər,
Hər nəhəngi məharət ilə yenər!

U l u ğ b ə y

(*Nüşabəyə yaxınlaşaraq*)

Yaşa, xaqan, sənə baş əydi zəfər,
Əzmin altında inlədi qeysər.

G ə r a y

Göyə dəysin əyilməyən o başın!

T ə r x a n

(*Nüşabəyə*)

Mehrab olsun cahana əyri qaşın!

N ü ş a b ə

Babalardan süzüldü saf qanımız,
Nə qədər var həyatımız, canımız.
Bizi qoynunda bəsləyən torpaq.
Düşmənə, bil ki, tapdaq olmayacaq!
Qəlbimizdir bölünməyən vətənim!

T ə r x a n

O mənimdir!

G ə r a y

O mənimdir!

H a m ı

O mənim!

P ə r d ə

*1945*

## KİTABDAKILAR

ŞEİRLƏR


Vətən .....7
Bir quş .....8
Böyük xadim .....9
Niyə uçdu? .....9
Əkinçi .....10
Əkin nəğməsi .....11
Köç .....11
Parçalar .....12
Hürriyyət pərisinə .....12
İyirminci əsrə xitab .....13
Yad et! .....14
Nişanlı qız .....15
Bahar .....16
Dağlar .....16
Şikayətlərim .....17
Vətənə qayıdarkən .....18
Hər şey köhnə .....19
İki qaranquş .....19
Vərəmli həyat .....20
Şəklində .....21
Layla .....21
Bu da bir şeri-faniyi-digər .....22
Bir ulduza .....23
Qış gecəsi .....24
Zamanın inqilabçılarına .....25
Sükutumdan şikayətçi bir qadına .....25
Qış .....26
Gələcək qorxusu .....27
Bir mələkə .....28
Hamımız bir günəşin zərrəsiyik .....29
Son bahar .....30
Dağlar sultanı .....30
İntizar .....32

Sabirə ....................................33
Aldanma ....................................36
İşıq mənbəyi ....................................36
Bəxtsiz rəfiqəmə ....................................37
Noheyi-iştika ....................................39
Əkinçi və xan ....................................39
Biri sənsən mələkciyim, biri mən ....................................41
Bəradərim Firidunbəyə ....................................41
Nəcəfbəy Vəzirov həzrətlərinə ....................................42
Fidan ....................................43
Dan ulduzu ....................................44
İrəli! ....................................45
Simurğ quşu ....................................45
Möhtərəm Nəriman bəy Nərimanov cənablarına ....................................48
Əsrimizə xitab ....................................49
İki mücahid ....................................50
Marş ....................................52
Neçin böylə gecikdin? ....................................53
Vətənin yanıq səsi ....................................54
Arazdan Turana ....................................59
Ülkər ....................................62
Yeni ay doğarkən ....................................63
O sən idin ....................................65
Həyat-sevməkdir ....................................66
Unudulmuş parçalar ....................................67
Şərq gözəlinə ....................................68
Üsyan et! ....................................69
Gənclik marşı ....................................70
Savaş ....................................71
Sevgi hakim olmalı ....................................72
Qızım Altunsaça ....................................73
Bizimdir ....................................73
Hər şey var ....................................74
Bir az da atəş qat! ....................................74
Əmək pərisinə ....................................75

Azadlıq pərisinə ....76
Sənət nəğməsi ....76
Gözlər ....77
Xırçın qız ....78
Əməkçi qadınlara ....79
Böyük sənətkara ....80
Gənclərə ....80
Üç lövhə ....81
Gənc müəllimlərə ....82
Gənc qələmlərə ....83
O baxışlar ....84
İlham qaynağım ....85
Mən də qayaların yalçın başında ....87
Şairin şairə təsəllisi ....90
Ailə həyatımın on altı illiyi ....91
Başlanğıc ....93
Xalq düşməninə ....94
Bu qürurlu boyun burulmazmı? ....95
Gəmirik ....96
Gəlsin ....98
Şəklində ....98
Samur kanalı ....99
Döyüş nəğməsi ....100
Vətən nəğməsi ....100
Zəfər nəğməsi ....101
Ana ....102
Ata öyüdü ....102
Bahar ....104
İki qəzəl ....105
Rübailər ....106
Böyük hicran ....107
Ölümə həcv ....108
Vətənim ....109
Səndən də xoşdur ....110
Yaz ....111

Canlı Dərbənd çiçəyi ....112
Təbriz ....113
Yeni ailələrə ....114
Dan yeri sökülür, hər tərəf rəngin ....115
İstəkli nəvəm Ülkərə ....116

QƏZƏLLƏR

Nə gözəldir o camalın, a gülüm! ....119
Yandırdı məni yar bu hicran arasında ....120
Gördüm o ruyi-ənvərini mən əbəs-əbəs ....121
Saqi, ayağa dur, gətir badə ki, yaz vaxtıdır ....122
Düzüb tərsa, o xalın həlqeyi-zülfi-çəlipayə ....123
Cana, üzündəki o iki mahitabə bax! ....124
Faş etdi göz yaşım bu nihan razi ellərə ....125
Ərseyi-hüsnündə, ey dil, birgə ol mahruni gör ....126
Qurbanın olum, aşiqinə eylə inayət ....127
Eyləyən halimi viranə mənim dilbər olub ....128
Bu nəqşi ki, sən ol güli-rüxsarə çəkirsən ....128
Dur, saqi, ayağa, ver dolu cam ....129
Kuyi-dildar imiş, ey zahid, o cənnət dediyin ....130
Bunca cəfanı qıldı mənə yar, utanmadı ....131
Vardır başımda şurişü qovğası dilbərim ....132
Qəsəm ol zülfünə ki, əldə bu can olsa idi ....133
Allah, Allah, bu bütün hansı könül xanəsidir? ....134
Bülbüldə yoxdur eşq, o eşq ki, məndə var! ....135
Könlüm etmiş o ləbüləlinə ey yar həvəs ....136
Ciqqeyi-hüsnümü başımda bu gün yan edəcəm ....137
Ahu baxışlı bir qız ....138

POEMALAR

Ədhəm ....143
İki familiyanın məhvi ....151
Qoçpolad ....164
Zəhmət və zinət ....233

PYESLƏR

Qafqaz çiçəyi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .247
Şair və qadın . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .263
Kimdir haqlı? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .274
İdeal və insanlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .303
Aydoğdu . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .317
Yazıya pozu yoxdur! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .327
Həqiqətə doğru . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .337
İldırım . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .345
Aldanmış ulduzlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .395
Nüşabə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .445

**ABDULLA ŞAİQ**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

ÜÇ CİLDDƏ

II CİLD

"AVRASİYA PRESS"

BAKI–2005

| | |
|---|---|
| Buraxılışa məsul: | *Umud Rəhimoğlu* |
| Texniki redaktor: | *Mübariz Piriyev* |
| Kompyuter səhifələyicisi: | *Allahverdi Kərimov* |
| Korrektor: | *Rəhilə Quliyeva* |

Yığılmağa verilmişdir 07.08.2004. Çapa imzalanmışdır 17.02.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 35,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 29.

Kitab “PROMAT” mətbəəsində çap olunmuşdur.